A Ğ Q U Ş

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın arvadının boynuna nə qədər uşaq düşürdüsə hamısı ana bətnindən gələndə ölürdü. Nə qədər təbib, tilsim, cadu elətdirirdilərsə, heç bir fayda vermirdi.

Günlərin bir günündə yenə də padşahın zənəni həmli olur. Doğmağına bir qədər qalmış, padşah zənənini öz qaynatasının yanına göndərir ki, bəlkə orda yaxşı baxalar. Gün keçir, ay dolanır, padşahın bir oğlu olur. Bəli, müjdə-müjdə üstündən gəlir. Padşah zənəninə sifariş göndərir ki, hələ bir neçə vaxt qalsın orda, uşağın bir az sümüyü bərkisin, gələr, yenə bir qəzavü-qədər üz verər.

Bunlar burda qalmaqda olsunlar, sənə kimdən xəbər verim, padşahın vəzirindən.

Padşahın bir xəbis vəziri var idi. Çoxdan fürsət axtarırdı ki, onu öldürüb özü padşahlığa keçsin. Bu tərəfdən gördü ki, yox, padşahın oğlu da oldu, ta padşah ölsə də buna bir şey çatmayacaq, qət elədi ki, gərək padşahı öldürüb onun nəslini yer üzündən kəsə. Bəli, bir gecə öz adamların götürüb hücum elədi padşahın sarayına. Padşahı öldürüb özü keçdi onun yerinə, əyləşdi taxtda.

Sabahısı gün öz adamlarından bir dəstə göndərdi padşahın zənəninin yanına. Bir namə də yalandan padşahın dilindən yazdı ki, bəs naxoşam, gərək durmayıb gələsən.

Padşahın külfəti kəcavəyə minib bu qasidlərlə yola düşdü. Gəlib bunlar bir dağın damənində düşərgə elədilər. Elə ki, gecə yarıya gəldi, bu qasidlərin başçısı durub gəldi padşahın arvadının çadırına. Vəzir ona tapşırmışdı ki, arvadı da, uşağı da orda öldürsün. Gəlib girdi içəriyə, tutdu arvadın qolundan. Arvad gördü ki, bu məl`unun fikri pisdi, üzün ona tutub dedi:

- Sən nə kimsənəsən ki, öz padşahının arvadına sataşmaq istəyirsən.

Qasidbaşı gülüb dedi:

- Nə padşah, nə padşah arvadı? Sənin ərin çoxdan o dünyaya təşrif aparıb. Indi padşah sənin ərinin vəziridir. Biz də onun əmrilə gəlmişik ki, səni də, uşağını da göndərək atasının yanına.

Arvad bunu eşitcək uşağı qarmalayıb özün atdı bayıra. Qasidbaşı bir səs vurdu, keşikçilər oyandılar, düşdülər arvadın dalına. Arvad gördü, yox, az qalır ki, çatsınlar, bir yerə, bir göyə baxıb uşağı atdı dərəyə. Keşikçilər çatıb arvada öldürdülər, tay uşağın dalınca dərəyə enmədilər, bildilər ki, o da hökmən orda daşlara dəyib ölüb.

Bunlar padşahın yanına getməkdə olsunlar, sənə kimdən xəbər verim, köhnə padşahın qardaşından.

Köhnə padşahın bir qardaşı var idi. Bu vaxtlarda səyahətə getmişdi. Səyahətdən qayıdıb işi belə görəndə baxdı ki, onu da öldürəcəklər, başına bir az adam yığıb çəkildi dağa. Padşah bu əhvalatı eşidib onun dalınca qoşun göndərdi. Ancaq qoşun onu tuta bilmədi. Padşahla onun arası nə düzəldi, nə də onu yox eləyə bildi. Vəzir hər nə tədbir gördüsə vecə gəlmədi ki, gəlmədi.

Köhnə padşahın qardaşı getdikcə qüvvətləndi. Bunlar bir gün gəlib həmin dağa çıxdılar. Əsgərlərin biri burda dərədə, şir yuvasının qabağında oynayan bir uşaq tapdı; gətirdi padşahın qardaşının yanına. Padşahın qardaşı baxdı ki, bu uşağın qolunda bir bazubənd var. Bazubəndi oxuyub gördü öz qardaşının uşağıdı. Demə bu həmin uşaqmış ki, arvad bunu dərəyə atmışdı. Uşaq şir südü ilə bəsləndiyinə görə adın qoydular Şirzad. Amma Şirzad, elə doğrudan da şir kimi gümrah bir uşaqdı. Qərəz, bu uşaq elə xırdalığından at belində gəzdi. Ox atdı, qılınc-qəmə oynatdı. On dörd-on beş yaşına çatanda əməlli-başlı bir pəhləvan oldu.

Bu xəbər ki, yayıldı ətrafa, padşahın oğlu tapılıb, öz əmisinin yanındadı, bunların gücü bir az da artdı. Vəzir gördü yox, iş xarabdı. Tədbir, tədbir, axırda günlərin birində böyük bir yaylaq tikdirdi, gözəl, həm də hiyləgərlikdə şeytana papaq tikən qızını da aparıb qoydu ora.

Şirzad bir gün tək başına gəştə çıxmışdı. Gəzə-gəzə gəlib həmin bu yerə çıxdı. Yaman acımışdı. Bir ox qoydu pilləyə atıb bir quş vurdu. Quş gedib düşdü həmin bu qızın qalaçasına.

Şirzad bir kəmənd atıb qalxdı bura. Baxdı ki, küləfərəngidə bir qız oturub, bir qız oturub ki, suya deyir axma, aya deyir baxma.

Qız Şirzadı görcək gəlib pələti açıb onu də`vət etdi evə. Özü də tez atasına qasid göndərdi ki, durmasın gəlsin. Şirzadı salmışam çəngə. Şirzad eyş-işrətə məşğul idi, bir də pəncərəyə baxdı, gördü nə, dəryayi-ləşkərdi ki, gəlir. Işi başa düşdü. Qalxdı ayağa. Elə birinci dəfə qızın başın kəsib onu cəhənnəmə vasil elədi. Sonra tez özün məhləyə salıb mindi ata. Dalın barıya tərəf verib başladı cəngə. Sən olasan bir, düşmən ola dəryayi-ümman. Şirzadın hər tərəfin aldılar. Şirzad baxdı ki, daha lap gücdən düşür. Elə az qalmışdı ki, onun işin bitirələr, bir də bir səs gəldi ki:

- Qardaş oğlu, qorxma gəldim.

Şirzad əmisinin səsin tanıdı, elə bildi ki, gözləri işıqlandı, qollarına qüvvət gəldi. Özünü vurdu dəryayi-ləşkərə. Bir cəngi-məğlubə oldu ki, ruzigarın gözü belə şey görməmişdi. Qoşundan-qırılan qırıldı, təslim olan oldu, padşahı öldürüb şəhəri aldılar. Şirzad padşahlığı əmisinə verib, özü başladı keyf eləyib, gün keçirməyə.

Padşahın, yə`ni Şirzadın əmisinin iki oğlu var idi. Ancaq padşah Şirzadı onlardan çox istəyirdi. Bu oğlanların ürəyinə vəsvəsə düşdü. Gözləri bunu götürmədi. Padşah bunu sezib, bir gün onların üçünü də çağırtdırdı hüzuruna, dedi:

- Balalarım, siz üçünüz də mənim balamsız. Mən o adamı coş istərəm ki, o igid olsun. Sizin hansınız igidsiniz?

Hərə üzün bir tərəfə çevirdi. Padşah bunu görüb dedi:

- Demək, hamınız özünüzü igid hesab eləyirsiniz. Onda mən bir şərt qoyuram. Kim mənim atımın ayağının dəymədiyi yerdən mənə görmədiyim bir şey gətirsə, o igiddi. Böyük oğlan qabağa yeridi, zəmini-ədib öpdü, padşah da ona yol xərci verib mürəxxəs buyurdu.

Oğlan ata minib yola düşdü. Gecəni gündüzə saldı, gündüzü gecəyə saldı, düz iki ay yol getdi. Iki ayın tamamında bir yerdən keçirdi, birdən onun atı xorradı. Atı dayandırıb gördü ki, bir ağacın dibində böyük bir lə`l var. Atdan düşdü, fikirləşdi ki, əgər atam bu yerlərə gəlmiş olsaydı, yəqin ki, bunu burda qoymazdı. Lə`li götürüb atın başın qaytardı. Şəhərdə xəbər çıxdı ki, padşahın böyük oğlu gəlir. Bəli, padşah əmr elədi, onu pişvaz elədilər. Sabaha hamı geyindi, keçindi, hərə öz yerin tutdu, divan quruldu oğlan gətirdiyi lə`li bir xonçaya qoyub gətirdi padşahın hüzuruna. Padşah oğlunun alnından öpdü, bir açar verib dedi:

- Şəhərin qırağındakı dağın altında bir kaha var. Kahada mənim qırx otağım var. Apar bu lə`li qoy on birinci otağa.

Oğlan gedib on birinci otağı açıb gördü bura o cür lə`l-lərlə doludu.

Növbə gəldi ortancıl oğula. Bu da üç ay yol gedəndən sonra çatdı bir meşəyə, gördü ki, burda yaxşı meyvələr var. Dedi bir-ikisin dərim yeyim, yaxınlaşdı, gördü bunlar hamısı qızıldı. Bir heybə bunlardan doldurub yola düşdü. Bəli, gəlib çatdı. Padşah bunun da alnından öpüb dedi:

- Get apar qoy iyirmi birinci otağa!

Oğlan gedib gördü ki, o otaq da doludu elə qızıl meyvələrlə.

Növbə gəldi Şirzada.

Şirzad zəmini-ədəb öpüb dedi:

- Əmi, mən sənin atınla gedəcəyəm.

Padşah əmr verdi, öz atını verdilər Şirzada. Şirzad ata minib düşdü yola, atın başın buraxdı. At birbaş yola düşdü, ətrafına heç fikir verməyib gedirdi. Beləliklə düz altı ay yol getdi, yeddinci aya dönəndə birdən at dayandı, bir fınxırıb ayağın yerə döydü, bir də ki, dönüb dala baxıb kişnədi, özün cəmləşdirdi. Bəli, Şirzad bildi ki, at bundan oyana getməyib. Atın dəhnə yüyənindən dartıb başladı yavaş-yavaş sürməyə. Bir qədər getmişdi, bir də gördü yerdə bir şey yanır. Atı saxladı, düşüb baxdı, gördü bu, özü-özündən yanan bir çıraqdı. Çırağın ora-burasına baxanda gördü bunun bir yerində yazılıb ki, «ay bunu tapan adam, bu çıraqdan dünyada iki dənədi». Şirzad fikirləşdi. Ola bilər ki, bunun birini də əmim tapmış ola, ürəyində qət elədi ki, ikincisini də tapmamış evə dönəsi deyil. Atın qarınaltısın bərkidib yola başladı.

Çox gəzdi, az gəzdi, orda deyildim, hesablayaydım, axirüləmr gəlib çıxdı bir şəhərə. Karvansarada düşüb bir mənzil kirələdi ki, bir neçə gün qalıb bir az istirahətçilik eləsin. Gecə bunun mənzilinə bir dənə də adam gəldi. Şirzad bir də baxdı ki, bu qonaq xurcundan bir dənə çıraq çıxarıb yandırdı. Baxdı ki, adə, elə həmin çırağın tayı.

Şirzad qonaq ilə tanış oldu. Öz əhvalatın ona danışıb həmin çırağı ondan istədi. Qonaq dedi:

- Mən çırağı sənə verrəm, ancaq sən də əvəzində mənə bir şey verəsən.

Şirzad dedi ki:

- Hər nə istəsən, hazıram verməyə.

Onda qonaq dedi ki:

- Burdan bir aylıq yolda, divlər olurlar. Onların yaxşı göyərçinləri var. Əgər o göyərçinlərdən bir cüt erkək, dişi mənə gətirə bilsən, man bu çırağı sənə verərəm.

Şirzad razı oldu. Yolu ondan soruşub sabah tezdən «ağamı allah saxlasın» - deyib yola düşdü. Az getdi, üz getdi, dərə, təpə düz getdi, gəlib həmin yerə çatdı. Bir dağın ətəyindən keçəndə bir də bir səs eşitdi. Dönüb gördü ki, dağın üstündə bir ağ quş oturub onu çağırır. Şirzad dayandı. Quş dedi:

- Şirzad, o adam səni ölümə göndərir. Bu divlər o göyərçinləri atalarından çox istəyirlər. Sən gərək gecəni yarıya verib, onları yuxuladıb sonra gedəsən.

Şirzad atdan düşdü, gözlədi, gecə özün verdi barıya tərəf. Barının yanına çatmışdı ki, bir də gördü quş deyir:

- Şirzad, tamah sənə güc eləməsin! Bir cütdən artıq tutmayasan ha...

Şirzad barıdan aşıb girdi məhləyə. Iməkləyə-iməkləyə gəlib çatdı göyərçinlərin yanına. Baxdı, vallah bunlar elə göyərçindirlər ki, elə bir cüt göz lazımdı ki, bunlara tamaşa eləsin. Bunlardan bir cüt tutdu. Istədi qayıtsın, hər nə qədər elədi, ayaqları getmədi, gözü qalmışdı göyərçinlərdə. Axırda özün saxlaya bilməyib, bir cüt də tutdu. Elə bil ki, elə göyərçinlər buna bəndmişlər. Bir səs-küy qaldırdılar ki, tay nə bilim necə. Divlər oyanıb Şirzadı tutdular.

Şirzad əhvalatın düzünü onlara danışdı. Onlar dedilər ki:

- Biz bunlardan bir cüt verərik sənə, amma bu şərtlə ki, bu yaxınlarda divlər var, onlarda yaxşı üzüm var, o üzümdən bir səbət bizə gətirəsən.

Şirzad atını minib üz qoydu o tərəfə. Az getdi, çox getdi, gəlib çıxdı həmin divlərin vilayətinə. Elə atdan düşüb təzəcə çəkilmişdi bir kolun dibinə ki, həmin səsi yenə də eşidib başın qaldıranda ağ quşu başının üstündə gördü.

- Şirzad, mənim məsləhətimə qulaq asmadın. Ona görə də müsibətə düşdün. Aç qulaqlarını, yaxşı eşit! Bax sənə deyirəm, tamah eləyib, ikinci səbəti götürməyəsən ha...

Şirzad gözlədi, gecəni yarıya verib kəməndi atdı barıya, kəmənddən sallana-sallana dırmaşıb düşdü o tərəfə. Sürünə-sürünə gəldi anbara. Gördü budu ha üzüm səbətləri düzülüb burdan ora. Fikirləşdi ki, qoy bir az qabaqca özüm yeyim, sonra da bir səbət aparım. Əyləşdi səbətin başında. Şirzad kimi bir pəhləvana bir səbət üzüm nə edəcək? Onun harasında qalacaq? Bir, iki, üç, beş səbət qurtardı. Elə səbətdəki axırıncı salxımı götürmüşdü ki, bir də gördü səbət yenə doldu üzümlə. Şirzad gözlərinə inanmadı. Bir səbət də çəkdi qabağına, yenə yedi. Elə ki, üzüm qurtardı, səbət yenə qeybdən doldu. Şirzad qaldı məəttəl. Səbətin birin götürdü, fikirləşdi ki, ay dili-qafil, heç insaf deyil ki, mən bu səbətlərin birin də əmimə aparmayam. Tamah ona güc elədi, ikinci səbəti də götürdü. Elə əlin ikinci səbətə vurmuşdu ki, bütün səbətlər qışqırdılar. Divlər tökülüb onu tutdular. Şirzad bütün qəziyyəsini bunlara danışdı. Divlərin böyüyü bir qəviheykəl şeydi, üzün tutdu Şirzada dedi:

- Bu yaxınlarda ağ divin məskənidi. Onun bir qızı var ki, mən ona aşiqəm. Əgər onu mənə gətirsən, sənə bir səbət üzüm verərəm.

Şirzad atı mindi. Kor-peşiman, özün söyə-söyə üz qoydu indi də ağ divin vilayətinə. Bəli, gəlib çata-çatdaydı ki, yenə ağ quş kəsdi onun başının üstünü, dedi:

- Ey tamahkar insan, sən bu dəfə hökmən ölümə gedirsən. Qulaq ver mənə. Ağ divin qızı bu saat yeddi günlük yuxudadı. O, ayda bir dəfə belə yatır. Yeddi günlük yuxu yatanda o qırx saçı ilə çarmıxa çəkili olur. Onu açmaq sənə mümkün olmaz. Məgərinki ağ divin sərtövlədə qırx çarmıxlı bir atı var. Onun yanına quş quşluğu ilə düşə bilməz. Sən gərək o atı minəsən, sonra qızı yerdən qaldırasan. Birinci dəfə qaldırdın, qaldırmısan, qaldırmadın dizəcən daş olacaqsan, ikinci dəfə qaldırmasan qurşağa kimi, üçüncü dəfə qaldırmasan bütün daş olub qalacaqsan orda.

Şirzad yetişdi məhəlli-məxsuda. Özün verdi sərtövləyə. Gördü bəli, ağ quşun dediyi kimi burada bir at var ki, elə bil əjdahadı. Özün cəmləşdirdi, bir qoşa təpik vurub atıldı, tərlan turaca qonan kimi qondu atın belinə. Özün atın belində rahatlayandan sonra, elə ki, dəhnə-yüyəni əlində möhkəmlətdi, ondan sonra qılıncın çəkib bir-bir ipləri üstdən yuxarı kəsməyə başladı. At çarmıxdan azad olandan sonra-istədi bir güc eləsin, gördü yox, üstündəki can o candan deyil. Şirzad onun başın döndərdi qızın yanına. Gəldi, çatdı qızın bərabərinə. Gördü qız, nə qız. Doğrudan elə bil Muğan durnasıdı. Əyildi, əlin saldı qızın belinin altından, bir dəfə güc verdi, heç bir şey çıxmadı. Baxdı ki, bəli, dizə qədər oldu daş. Bir də əlin saldı, yenə güc verdi, qız yerindən tərpəndi, amma qaldıra bilmədi. Qurşağa kimi oldu daş. Şirzad atın yüyənini bərk tutub dedi:

- Vallah, bu dəfə ya səni qaldıracağam, ya atın belin sındıracağam.

Əlin yenə də saldı qızın belinə. Bir «ya mədəd» deyib qızı dik qaldırdı. Baxdı ki, daşdan silkindi. Birbaş atı vurdu. Daldan min cür səs eşidilirdi ki, ay tut, ay qoyma. Şirzad dala baxmayıb atı çapdı. Bir qədər keçəndən sonra səs-səmir kəsildi. Şirzad atı möhkəm vururdu, bir də yenə ağ quş zahir oldu.

- Şirzad, mənə qulaq as! Bu qızın yuxudan oyanmağına bir saat qalıb. Bu yuxudan duranda elə qışqıracaq ki, bütün dağ, daş zəlzələyə gələcək. Sənin qulaqların o səsə tab gətirməyib partlar. Atdan düş, bu saat bir arşın eni, üç arşın dərini bir xəndək qaz, gir içinə gizlən! Bax sənə deyirəm, o vaxta qədər çıxmazsan ki, o anasının südünə and içməyə.

Şirzad atdan düşdü. Ağ quşun dediyi kimi bir xəndək qazıb girdi içinə. Doğrudan da yarım saatdan sonra qız elə qışqırdı ki, üç arşın dərinlikdə Şirzadın tükləri dik-dik durdu.

Şirzad öz-özünə dedi:

- Əcəb almalı zənəndi. Hər yuxudan duranda belə qışqırsa, şəhərdə qulaqlı adam qalmaz.

Qız bir o yana baxdı, bir bu yana baxdı, özündən başqa heç kəsi görmədi. Orasın da deyim ki, Şirzad onu möhkəm-möhkəm bir ağaca sərimişdi.

Qız başladı yalvarmağa ki:

- Kimsən, hər nəyə deyirsən and içim, çıx məni aç, mən tay oldum sənin.

Şirzad o vaxta qədər çıxmadı ki, qız anasının südünə and içdi. Şirzad çıxdı, qızı açdı, aldı yəhər qaşına, düşdü yola. Az getmişdilər, çox getmişdilər, bir külək qopdu, bir səm əsdi, bir səm əsdi ki, dedi atdan düşüb bir yerdə daldalanmasaz, əhədinizi kəsəcəyəm.

Şirzad gördü daha əlac yoxdu. Gördü bir qalaça var, atı vurdu qalaçanın pələtinə tərəf ki, atdan düşə. Ağ quş caynağında bir qırmanc, alıcı quş kimi şığıdı Şirzadın üstünə. Hər tərəfdən düşmək istədisə qoymadı. At qaçır, ağ quş vurur, at qaçır, ağ quş vurur. Yazıq Şirzad belə bir halda bəlkə yalan olmasın iki saat bu küləkdə, qiyamətdə at çapdı. Bir saatdan sonra külək kəsildi, ağ quş da qalxdı göyə.

Elə bir az getmişdilər bir də gördülər bir gözəl at, belində bir qızıl yəhər otlayır. At elədi ki, elədi ki, elə bil belinin üstü bir yumurtadı.

Qız dedi:

- Şirzad, bu atı tuta bilsəydik mən minərdim, həm sən rahat olardın, həm də mən.

Elə bu sözdəydi at bir kişnəyib başladı bunlara yaxınlaşmağa. At lap yaxınlaşanda Şirzad əlin uzatdı ki, onu tuta, ağ quş ildırım kimi şığıyıb Şirzadın əlinin üstündən vurdu, atı da vurub qaçırtdı. Şirzad ağ quşun bu hərəkətlərindən çox pərt oldusa da ancaq bağırsağın dişinə tutub bir söz demədi. Bu minvalla gəldilər. Bəli, birinci divlərin qalaçası göründü, ağ quş dedi.

- Dayan, Şirzad, mən görürəm ki, sən bu qızı istəyirsən, bu qız da səni. Bunu aparıb divlərə vermək kişilikdən deyil.

Nə elədi, nə eləmədi, düşdü həmin qızın surətinə, dedi:

- Qız qoy burda gözləsin, apar məni divlərə təhvil ver.

Şirzad qızı çöldə qoydu, ağ quşu qız əvəzinə aparıb divlərə təhvil verib, bir səbət üzüm aldı. Qayıtdı qızı da götürüb yola düzəldi. Gəlib çatdılar üzüm istəyən divlərin vilayətinə. Elə qalaçaya çatmışdılar ki, ağ quş özün yetirdi.

- Dayan, Şirzad, məni apar üzüm əvəzinə təhvil ver!

Şirzad qaldı mat məəttəl ki, bu necə işdi. Qərəz, aparıb bu dəfə də onu üzüm əvəzinə, təhvil verib bir cüt göyərçin aldı. Gedib bu minval ilə çatdılar haman çıraq olan şəxsin yanına. Qərəz, burda da göyərçin adına ağ quşu təhvil verib çırağı alıb düzəldi yola, öz əmisinin vilayətinə getməyə. Gedib şəhərə çatanda, gördü bir qoca kişi dayanıb. Kişi bunları görcək dedi:

- Hardasız? Di gəlin çıxın da!

Şirzad baxdı ki, bu, ağ quşdu.

Bəli, əmisi, əhvalatı bildi, bunları pişvaz elədilər. Əmisi şeylərə baxıb Şirzadın alnından öpüb dedi:

- Bala, sən gətirdin.

Qırx gün, qırx gecə toy eləyib qızı aldılar Şirzada.

Gəlinlə bəy gərdəyə girən gecə Şirzad gəlinin yanına girəndə, ağ quş da onunla bərabər girdi. Şirzad nə qədər elədisə, ağ quş dedi:

- Olmaz ki, olmaz. Mən də bu gecə burda yatacağam.

Şirzad çox dedi, ağ quş az eşitdi. Üzünə salıb gecəni onlarla bir otaqda yatdı. Səhər tezdən Şirzad əmisinin yanına gedib ağ quşun gecəki işini ona dedi, özü də xahiş elədi ki, ağ quşu məmləkətdən çıxarsın. Əmisi bilirdi ki, ağ quş ona çox kömək eləyib. Nə qədər dəlil-dəlayil elədi, olmadı ki, olmadı. Axırda ağ quşu çağırtdırıb əhvalatı ona bildirdi.

Ağ quş dedi:

- Ondan soruşun görək, mən ona nə pislik eləmişəm?

Şirzad qaşqabaqla dedi:

- Məni çovğunda, qiyamətdə qoymadı atdan düşüb, özümü qoruyam, qızıl yəhərli atı qoymadı tutam, bu gecə də ki, belə.

Ağ quş bir ah çəkib dedi:

- Çovğunda ondan ötrü qoymadım sən düşəsən ki, o çovğun qızın atasıydı. Sən ki, nə qədər o atın üstündəydin o sənə bata bilmirdi. Istəyirdi səni atdan yerə salıb öldürsün. Belədi, ya belə deyil, qız? - deyib üzün tutdu qıza.

Qız dedi:

- Bəli, belədi.

- O qızıl yəhərli atı qoymadım tutasan, ona görə ki, o qızın əmisi idi. Sənin əlin ona dəycək o səni çəkib atdan vuracaqdı yerə. Belədi, ya belə deyil, qız?

Qız dedi:

- Bəli, belədi.

- Bu gecə sənin yanında ona görə yatdım ki, qızın qardaşı qara ilan olub gəlmişdi səni həlak eləsin. Gecə sən yuxuda ikən mən onu öldürmüşəm, bu da cəmdəyi. Belədi, ya belə deyil, qız?

Bunu deyib bir yekə ilan cəmdəyi atdı ortalığa.

Qız dedi:

- Bəli, düzdü.

Sonra ağ quş bir ah çəkib dedi:

- Mənim alnımda yazılmışdı ki, mən gərək bir adama kömək eləyəm. Əgər o adam mərd çıxsa, ona gedəm, əgər nankor çıxsa öləm. Indi mənim vaxtım tamamdı, mən ölürəm.

Bunu deyib ağ quş daş oldu. Hamı ağladı. Amma ki, ağlamaqdan nə çıxacaq?.. Şirzadın namərdliyi onu daşa döndərdi.

A Ğ I L L I Q I Z

Həkan-həkan içində, qoz girdəkan içində, dəvə dəlləklik eylər, köhnə hamam içində.

Biri varıydı, biri yoxuydu, bir padşahnan vəzir varıydı. Padşah yaman darhövsələydi, amma vəzir ağıllı, səbirli, dünyagörmüş bir qocaydı.

Bir gün padşah ovdan qayıdanda yolda bir qılçası axsaq, bir gözü kor qarıya rast gəldi. Qarıya yazığı gəldi, çağırıb ona pul vermək istədi. Dedi:

- Ay qarı, buralarda nə gəzirsən, işin-peşən nədi?

Qarı dedi:

- Mənim peşəm ev tikmək, ev yıxmaqdı.

Padşah dedi:

- Sən nəsən ki, ev tikib, ev yıxasan.

Qarı dedi:

- Bala, sən hələ bilmirsən ki, arvad yıxmayan ev min il tikili qalar?

Padşahın bu sözdən xoşu gəlmədi.

Vəzir dedi:

- Qibleyi-aləm, arvad düz deyir.

Padşah dedi:

- Yox, yalan deyir.

Padşahın üç qızı varıydı. Qızlarını başına yığdı, böyük qızına dedi:

- Bala, de görüm evi arvad tikər, ya kişi?

Böyük qız dedi:

- Həlbəttə, kişi.

Sonra padşah ortancıl qızına üzünü tutub dedi:

- Qızım, sən nə deyirsən?

Ortancıl qız dedi:

- Ata, arvad nədi ki, onun tikdiyi ev də nə ola? Həlbəttə, evi kişi tikər.

Padşah bu dəfə də üzünü kiçik qızına tutub dedi:

- Qızım, bəs sən nə deyirsən?

Kiçik qız dedi:

- Ata, evi arvad tikər.

Bu söz padşaha yaman toxundu. Odu ki, dedi:

- Indi ki, belə oldu, səni evsiz-eşiksiz lütün birinə verəcəm. Ondan sonra baxarıq sən necə ev tikəcəksən.

Şəhərin lap kənarında qoca bir qarının topal oğlu varıydı. Adına da topal Əhməd deyərdilər. Əhməd o qədər acizdi ki, heç yerindən tərpənmək istəmirdi. Padşah qoca qarını yanına çağırtdırıb dedi:

- Qarı, mən kiçik qızımı sənin oğluna verirəm, apar onu da, get.

Qarı dedi:

- Ay padşah, tasaddığın olum, sənin qızın hara, mənim oğlum hara? Oğlumun əynində bir paltarı var, cırığınnan cin çıxır. Yeməyə bir tikə çörəyi yoxdu. Oğlum o qızı necə saxlayacax?

Padşah dedi:

- Qarı, sənin işin yoxdu. Apar, qızı verdim sənin oğluna.

Qarı kor-peşiman qızı yanına salıb gətirdi evlərinə. Əhvalatı oğluna danışdı. Əhməd bu işə lap məəttəl qaldı. Qız evə gələndən sonra baxıb gördü ki, Əhməd o qədər ərincəkdi ki, heç yerinnən tərpənmək istəmir, çörəyini də elə yatdığı yerdə yeyir. Odu ki, padşah qızı birinci gün süfrəni evin lap yuxarı başında saldı. Əhmədi çağırdı ki, durub gəlsin çörək yeməyə. Əhməd nə qədər yalvardı ki, mənim payımı gətirin yerimdə yeyim. Qız razı olmadı. Əhməd gördü yox, acınnan öləcək, əlacı

kəsilib sürünə-sürünə süfrənin qırağına gəldi. Çörək yeyib qurtaran kimi yenə gedib girdi yerinə. Qız hər gün süfrəni evin yuxarı başında salıb Əhmədi ora çağırardı. Bir neçə günnən sonra Əhməd daha özü durub gedirdi süfrənin başına. Qız gördü Əhməd bir az qoçaxlaşıb. Bu dəfə süfrəni baxçada, göy otun üstündə saldı. Əhmədi çağırdı. Əhməd yenə getmək istəmədi. Qız gedib onu itələyə-itələyə bir təhər evdən çıxartdı. Əhməd çörəyini yeyib yenə getdi evə. Belə-belə qız hər gün süfrəni həyətdə salıb Əhmədi ora aparırdı. Aradan bir neçə gün keçəndən sonra padşah qızı Əhmədi küçəyə çıxartmaq istədi. Əhməd fındığı, qozu yaman xoşlayırdı. Qız evdən küçə qapısına qədər qoz, fındıx töküb Əhmədə dedi:

- Ay mitilin biri, evdə oturub neyləyirsən? Durub bu fındığı, qozu niyə yığmırsan?

Əhməd durub bir təhər fındığı, qozu yığışdıra-yığışdıra düz küçə qapısından çıxdı. Elə bu vaxt küçədə qodu-qodu oynayırdılar. Əhmədin xoşu gəldi, bir az da irəli gedib qodu-qoduya baxdı. Sonra qayıdıb evə gəldi. Padşahın qızı elə ki, gördü Əhməd küçəyə çıxmağı örgəndi, başladı:

- Gərək gedib işləyəsən.

Əhməd dedi:

- Axı mən nə iş görə bilərəm?

Qız dedi:

- Sən çıx küçəyə, denən ki, ay iş gördürən, ay iş gördürən. Kim sənə yaxınlaşıb bir söz desə get, o sənə iş gördürəcək.

Əhmədi bir təhər küçəyə çıxartdı. Əhməd yolun ortasında durub hərdən bir: "Ay iş gördürən" deyirdi. Birdən bir kişi gəlib Əhmədə dedi:

- Oğul, mənim bir bağım var, gəl onu bellə, hər gün sənə bir şahı pul verərəm.

Əhməd kişinin yanına düşüb getdi. Axşama kimi onun bağında yer bellədi, bir şahısını alıb gəldi. Yolda gördü ki, pişik satırlar. Bir şahını verib pişiyi aldı. Əhməd evə gələndə padşah qızı dedi:

- Əhməd, nə qazandın?

Əhməd dedi:

- Bir şahı qazanmışdım, onu da verib bu pişiyi aldım.

Qız dedi

- Əhməd sabahdan gərək sən səfərə çıxasan, gedib hər yeri görəsən.

Əhməd dedi:

- Mən səfərə nə cürə gedə bilərəm?

Qız dedi:

- Sabah gedərsən bazara, yolun qırağında dayanıb gözləyərsən. Görəcəksən ki, dəvə karvanları gedir. Gedib karvanbaşıya deyərsən ki, məni də özünnən apararsanmı, sizə köməyim dəyər. Onda onlar razı olsa, qoşulub gedərsən.

Səhər açıldı. Əhməd qız deyən kimi elədi. Gedib yolun kənarında gözlədi. Gördü ki, dəvə karvanları gəlir, gedib karvanbaşıya dedi:

- Məni də özünnən apararsanmı?

Karvanbaşı dedi:

- Elə apararam, elə bir adam göydə axtarırdım, yerdə əlimə düşdü.

Demə karvanbaşı karvanın qabağında belə bir adam apararmış. Yolda bir səhralıq varıymış, ordan keçəndə karvanın suyu tamam qurtararmış. Həmin səhrada bir quyu varıymış. Karvanbaşı özüynən götürdüyü adamı həmən quyuya sallayıb ordan su çıxardarmış. Sonra quyudakı adam geri qayıtmazmış.

Karvanbaşı Əhmədi özüynən götürüb yola düşdülər. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, dağlar aşdılar, sular keçdilər, gəlib həmən səhraya çatdılar. Suları tamam qurtarmışdı. Adamlar, dəvələr susuzdan yanırdılar. Karvanbaşı Əhmədə dedi:

- Bala, gəl səni sallayax quyuya bir az su çıxart.

Əhmədin heç nədən xəbəri yoxuydu deyin razı oldu. Belinə ip bağlayıb salladılar quyuya. Əhməd quyunun dibinə düşüb belindən kəndiri açdı. Bir xeyli gedib axan bir çaya rast gəldi,

tuluxları doldurub hayladı ki, çəksinlər. Elə tuluxları yenicə çəkmişdilər ki, birdən nərilti qopdu, Əhmədi bir isti vurdu ki, az qaldı bağrı çatlasın. Bir də gördü bədheybət bir div başının üstünü kəsib durub. Div nə div, boyu minarə, qolları çinar ağacı, buynuzları nizə kimi, yeddi başlı, hər qolunda yeddi dəyirman daşı, alt dodağı yer süpürür, üst dodağı göy süpürür, ağzı dəyirman körüyü.

Əhməd istədi qaça, gördü yox, olası iş deyil. Qaçmağa yer yoxdu. Div dedi:

- Ey bəni-insan, bura quş gəlsə qanad salar, mən indi sənin ətini aşığacan, qanını qaşığacan eləyəcəm. Hara qaçmaq istəyirsən? Gəl dalımcan. Səndən bir söz soruşacam. Əgər cavab verə bildin sənnən işim yoxdu. Cavab verə bilməsən, onda öldürəcəm.

Bəli, Əhməd qorxusundan tut yarpağı kimi əsə-əsə divin dalınca gedib bir qəsrə çatdı. Qəsr nə qəsr. Hər yer zər-ziba, otaqlar qaş-daşla, lə`l-cavahiratnan dolu. Bir cahi-cəlal var ki, adamın ağzı açıx qalır. Div otaxdan-otağa keçib otuz doqquz qapı açdı, qırxıncıda dayandı. Içəridə bir qızıl məcməyidəki yaşıl qurbağaya baxıb dedi:

- Ey bəni-insan, de görüm dünyada ən gözəl nədi?

Əhməd dedi:

- Ən gözəl könül sevəndi.

Bu söz divin çox xoşuna gəldi, çünki özü həmən qurbağanı sevirdi. Div Əhmədi öldürməyib buraxdı özünə də bir narla, bir qoz bağışladı. Əhməd divdən ayrılıb düz gəldi quyunun dibinə, nə qədər səslədi, harayına çatan olmadı. Çünki karvan çoxdan getmişdi.

Sənə kimnən deyim, pişikdən. Əhməd karvanbaşıynan yola çıxanda pişiyini də özüynən gətirmişdi. Elə ki, Əhməd quyuda qaldı, karvan yola düşdü, pişik quyunun başından əl çəkmədi, quyunun qırağında o yana, bu yana gedib miyoldayırdı. Bir gün, bir gecə pişik quyunun başında miyoldaya-miyoldaya qaldı.

Səhər tezdən uzaxdan bir karvan gəldi. Karvan gəlib quyunun yanından keçəndə karvanbaşı gördü ki, bir pişik quyunun başında özünü hələk-fələk eləyir. Karvanbaşı quyuya yaxınlaşıb gördü səs gəlir ki:

- Ay yolnan keçən, məni quyudan çıxardın!

Karvanbaşı yoldaşlarını da çağırıb, kəndir sallayıb Əhmədi quyudan çıxartdı. Əhməd başına gələn qəzavü-qədəri söyləyib bunlarnan yola düşdü. O qədər yol getdilər ki, gəlib qayışbaldırların torpağına çatdılar. Karvanlarını rahatlayıb bir evdə qonaq qaldılar. Axşam oldu, süfrə salındı, ortalığa yemək gətiriləndə, ev sahibləri arvadlı-uşaxlı, hərəsi əlinə bir toxmax alıb qonaqların başının üstündə dayandılar. Qonaqlar bu işə lap məəttəl qaldılar. Elə bildilər ki, bunları öldürmək istəyirlər.

Odu ki, karvanbaşı dedi:

- Ay qardaşlar, əgər bizi öldürəcəksinizsə, elə çörək yeməmişdən öldürün, canımız qurtarsın. Daha bu nə adət di ki, əvvəlcə çörək verib sonra öldürürsünüz?

Ev sahibi dedi:

- Biz sizi öldürmək fikrində deyilik. Qoyun ortalığa çörək gəlsin, onda görərsiniz ki, biz nəyi gözləyirik.

Ortalığa çörək gəldi. O saat hər tərəfdən o qədər siçan, siçovul töküldü ki, qablarda dişə çəkməyə bir sümük də qalmadı. Əli toxmaxlılar demə bu siçanları gözləyirmişlər. Toxmaxnan siçanları vurmağa başladılar, cəmisi beş on siçan öldürə bildilər. Qalan siçanlar tamam çörəkləri yeyib, qaçıb doldular yuvalarına. Qonaqlar bu əhvalatı görüb tamam özlərini itirmişdilər. Əhməd ev sahibinə dedi:

- Qardaş, məgər sizdə bir-iki pişik olmaz ki, gətirib evə buraxasınız?

Ev sahibi dedi:

- Qardaş, pişik nə olan şeydi? Bizim yerlərdə elə şey yoxdu.

Əhməd gördü buralarda pişik olmur. Odu ki, gedib öz pişiyini gətirdi. Təzədən yemək gətirildi. Əhməd pişiyi evə buraxdı. Siçanlar çıxan kimi pişik bunu burda, onu orda basmarlayıb, hamısını boğub öldürdü. Ev sahibi bu işə lap heyran qalmışdı. Odu ki, Əhmədnən danışıb pişiyi

yeddi dəvə yükü qızılla dəyişdirdi. Əhməd qızılları, div bağışladığı narı, bir də qozu bir adama verib evlərinə yolladı. Özü karvanbaşıynan şəhərbəşəhər, kəndbəkənd gəzib alver elədi.

Bunları burda qoyaq, sizə kimnən xəbər verək, padşahın kiçik qızından. Qız Əhmədin göndərdiyi qızılları alan kimi bazardan bənna-fəhlə çağırıb yeddi mərtəbəli bir imarət tikdirdi. Bu elə bir imarət oldu ki, padşahın imarəti bunun yanında daxmaya oxşayırdı. Qız Əhmədin göndərdiyi narı kəsib yemək istəyəndə gördü ki, narın içi tamam lə`l-cavahiratdı, onları xırdalayıb, evin içini tamam zər-zibaya döndərdi. Aradan bir xeyli keçdi. Əhməd səfərdən qayıdıb gəldi.

Öz evlərinin yerində yeddi mərtəbəli bir imarət gördü. Qapıdakı nökərlərdən öz evlərinin yerini xəbər aldı. Dedilər ki, sən dediyin ev elə bu imarətdi. Əhməd elə bildi onu ələ salırlar. Bir də xəbər aldı:

- Ay qardaş, məni ələ salma, düzünü de, görüm bura kimin evidi? Bu vaxt səs-küyə Əhmədin anası qapıya çıxdı, oğlunu qucaxlayıb dedi:

- Ay oğul yoxsa evimizi tanımırsan. Sən gedəndən sonra arvadın tikdirib.

Bəli, Əhməd evə girib cah-cəlalı gördü, heyran qaldı. Padşah qızı onu görüb qabağına çıxdı. Evi necə tikdirdiyini ona söylədi. Sonra Əhmədin göndərdiyi qozu qırıb içindən bir dəst ipəkdən padşah paltarı çıxardı. Paltarı Əhmədə geyindirib dedi:

- Əhməd, indi hazırlıq görüb atamı qonaq çağıracam. O səndən nə soruşsa, düzünü deyərsən.

Səhər oldu, qız atasını bütün başının adamlarıynan qonaq çağırdı. Padşah içəri girib gözlərinə inanmadı. Öz sarayı bunun yanında tövlə hesabındaydı. Yeyib-içəndən sonra padşah Əhməddən soruşdu:

- Deyin görüm bu cəlalı kim düzəldib, bu evi kim tikib?

Əhməd bütün əhvalatı başdan-ayağa kimi padşaha söyləyib dedi:

- Padşah sağ olsun, bu evi sənin qızın tikib.

Qız bu sözü eşidən kimi üzünü atasına tutub dedi:

- Ata, indi gördün ki, evi arvad tikər.

Padşah qızının doğru dediyini görüb başını aşağı saldı. Təzədən yeddi gün, yeddi gecə toy eləyib qızını Əhmədə verdi.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin, mən sağ, siz salamat, mən yüz yaşayım, siz iki əlli, hansı çoxdu siz götürün, qalanını mənə verin.

Ə Y Y A R

Badi-badi giriftar, hamam, hamam içində, qəlbir saman içində, dəvə dəlləklik elər, köhnə hamam içində, qarışqa şıllağ atdı, dəvənin qıçı batdı, hamamçının tası yox, baltaçının baltası yox, orada bir tazı gördüm, onun da xaltası yox. Ömrümdə çox şiləaşı yemişəm, heç belə yalan dəməmişəm.

Günlərin bir günündə, Məhəmmədnəsir tinində, göy imamın belində, biri vardı, biri yoxudu, allahdan başqa heç kim yoxudu. Bir şəhərin bir padşahı varıdı. Bu padşah həmi padşahlıq elərdi, həmi də tacirlik elərdi. Əlqərəz, padşah genə bir gün tacir libasında karvanınan alış-verişə gedirdi. Bir neçə gün karvan yol gedəndən sonra, bir gecə karvan bir çöllü-biyabanda düşdü. Padşah gördü ki, uzaqdan bir işıq gəlir. Çox təəccüb elədi ki, bu çölün düzündə bu işıq nədi?

Yoldaşlarına dedi:

- Gərək mən gedəm görəm o nə işıqdı?

Bəli, nə başıvu ağrıdım, padşah işığa tərəf getdi, gördü ki, çölün düzündə bir ev var. Qapını döydü, bir qoca kişi gəldi, padşahı içəri apardı. Elə ki padşah içəri girdi, nə gördü? Bir dənə dünya gözəli otaqda çıraq kimi evi işıqlandırıb. Yoxsa otaqda nə çıraq yanır, nə də bir şey yanır. Padşah belə bir dünya gözəlin görən kimi huşu başından çıxdı. Padşah öz padşahlığını bildirməyib, dedi:

- Mən tacirəm. Bu qızı verin mənə ərə, yoxsa dəli olaram, bu qızı görər-görməz ağlım başımnan getdi.

Qızın dədəsi, nənəsi dedilər:

- Bizim varımız-yoxumuz, gözümüzün ağı, qarası bircə bu qızdı. Biz gördük ki, qızımız çox gözəldi, qorxdux bizim başımızı batırıb qızı da əlimizdən alsınlar, gəlib bu çölün düzündə ev tikib yaşayırıq. Odu ki, biz qızımızı gözümüzdən qırağa qoya bilmərik. Az taparıq, az yeyərik, çox taparıq, çox yeyərik.

Tacir gördü ki, bunlar çox kasıb küflətdi, fürsəti fovt eləməyib dedi:

- Eybi yoxdu, qızı mənə verin, mən burda qalaram.

Bəli, çox danışdılar, az eşitdilər, axırı qızı tacirə verdilər. Tacir gəlib yoldaşlarına dedi:

- Siz gedin, mənim şeylərimi də satın. Qayıdanda özünüzə nə alsaz, mənə də alın. Siz gələnə kimi mən burda sizi gözləyəcəyəm.

Bəli, karvan getdi. Tacir padşah qızın yanına gəlib, yavaş-yavaş toy tədarükünə düşdü. Tacir toy eləyib həmin qızı aldı. Bəli, günlər keçdi, aylar keçdi, bir altı aydan sonra karvan gəldi. Bu vaxt tacirin arvadı həmliydi, padşah arvadının yanında çoxlu pul qoydu, bir dənə də bazubənd verdi, dedi:

- Əgər qızın olsa, satıb qızıva xərclərsən, yox oğlun olsa, onda bazubəndi bağla qoluna, gəlib məni tapar.

Padşah qızınan görüşdü, yola düşdü, karvannan bir yerdə öz şəhərinə gəldi. Qız genə ərinin padşah olduğunu bilmədi. Padşah öz qəydəsiynən yol getməkdə olsun, sənə kimdən deyim, bizim bu gözəl qızdan.

Aradan bir üç ay da keçdi, bu xanım bir oğlan doğdu. Oğlan nə oğlan! Canlı, qüvvətli, güclü bir oğlandı.

Oğlan böyüməkdə olsun, aradan bir neçə ay da keçdi, qızın dədəsi öldü. Qaldı qız, nənəsi, bir də uşaq. Beləliknən üç-dörd il də keçdi. Bir gün qızın nənəsi də naxoşlayıb öldü.

Gün keçdi, ay keçdi, orda ayınan, ilinən, burda müxtəsər dilinən, oğlan gəlib yeddi yaşına çatdı. Bu oğlan yeddi yaşında olanda adam baxanda deyirdi: yəqin bunun on beş yaşı var. Oğlan özünnən böyük on dörd-on beş yaşlı uşaqları döyərdi. Özü molla yanında mədrəsədə oxuyurdu.

Bir gün bu oğlan genə bir uşağnan savaşdı, uşaq qayıdıb bu oğlana dedi:

- Bic, dədəsinnən xəbəri yox köpəkoğlu.

Bu söz oğlana dəydi. Tez evə gəldi, duvardan xəncəli götürdü, anasının üstünə cumub dedi:

- De görüm mənim dədəm kimdi? Mənə uşaqlar bic, dədəsindən xəbəri olmayan deyirlər.

Anası oğlunu belə görüb, qorxdu ki, onu öldürə. Tez qorxa qorxa dedi:

- Oğul, sənin dədən var. Özü də dövlətli bir tacirdi. Sən hələ anadan olmamışdın gedib.

Oğlan dedi:

- Dədəmnən mənə nə qalıb?

Anası dedi:

- Bir bazubənd qalıb.

Bəli, anası bazubəndi verdi, oğlan bazubəndi qoluna bağladı, dedi:

- Mən gedirəm dədəmi axtarmağa.

Anası dedi:

- A bala, indi ki, sən gedirsən, ta mən burda nəyə qalım? Mən də sənnən gedirəm.

Oğlan altdan geyinib, üstdən qıfıllandı, üstdən geyindi, altdan qıfıllandı, anası da pul, qızıl götürüb bir yerdə yola düşdülər. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, bir çeşmə başında düşüb qarınların bərkitdilər, yornuqların aldılar.. Yenə yola düşüb təpələrdən yel kimi, dərələrdən sel kimi badeyi-sərsər kimi yol gedib bir dərənin dibində bir mağara tapdılar. Mağaranın ağzı xırda, içi isə çox yekəydi. Bunlar burda bu mağaranın içində qaldılar. Bu mağara şəhərdən beş-altı ağac uzaqdaydı. Demə, bu şəhər həmən tacir padşahın şəhəri imiş. Bəli, ana-bala bu mağarada yedilər, içdilər, beş-altı gün dincəldilər. Bir gün anası oğlana dedi.

- Oğul, belə bekar-bekar yeyib yatmaqdan bir şey çıxmaz. Gəl sənə pul verim, get şəhərdə alış-veriş elə.

Oğluna altmış tümən pul verdi, şəhərə göndərdi. Oğlan getdi şəhərdə alış-veriş eləsin. Elə ki, oğlan şəhərə yetişdi, gördü bir arıx, ölüvay inək gətirirlər. Oğlan dedi:

- Əmi, bu inəyi satırsan?

Dedilər:

- Bəli, satırıx.

Oğlan dedi:

- Qiyməti neçədi?

Dedilər:

- Altmış tümən.

Oğlan tez altmış tüməni verdi, inəyi alıb şəhərdə gəzdirməyə başladı ki, satsın. Axşama kimi gəzdirdi, gəzdirdi, inəyi sata bilmədi. Axırda hava qaranlıqlaşanda ölüm-zülüm bir təhər-iki təhər inəyi otuz tümənə satdı, qayıdıb evə gəldi.

Anası dedi: ,

- Oğul, neçə qazanmısan?

Oğlan dedi:

- Ana, otuz tümən zərəl eləmişəm. Ana, mənnən alış-verişçi çıxmaz. Gedib əyyarlıx eliyəcəyəm.

Anası qorxusunnan bir söz deyə bilmədi. Elə ki, axşam oldu, oğlan qıs-qıvraq geyindi, verdi özün şəhərə. Günüzdən nişannadığı daş-qaş tükanının damına çıxdı. Damı dəldi, içəri girdi, bir kisə ağzına kimi qızılnan, daş-qaşnan doldurdu, dalına atıb, ağamı allah saxlasın, düz mağaraya gəldi. Anasına dedi:

- Ay ana, beş-altı ay alış-veriş eliyəsən bir belə pul qazananmazsan. Görürsən iki saatın içində nə qədər dövlət gətdim.

Sabah oldu, oğlan ədəb-ərkanınan geyinib şəhərə gəzməyə getdi. Elə ki, şəhərə yetişdi, gördü hər yanda danışılır:

"Gecə filankəsin tükanın yarıblar". Hamı məhəttəl qalıb deyir: "A canım, bu şəhərdə ki oğru yoxdu. Indiyə kimi bu şəhərdə belə şey olmamışdı". Əlqərəz, camaat qup-quru qurumuşdu ki, bu necə sirdi.

Elə ki, genə axşam oldu, gözünə döndüyüm oğlan əyyar paltarında qıs-qıvrax geyindi, ağamı allah saxlasın, şəhərə üz qoydu. Bəli, şəhərə çatdı. Genə damların üstün gəzirdi, birdən gördü ki, budu bir həyətdə küləfirəngidə beş altı adam oturub söhbət eləyirlər. Əyyar o saat damın üstdə mısdı, başladı damın üstdən danışanlara qulaq asmağa. Gördü ki, belə deyirlər: "Gəlin sabah qırx lotunu yığax bir yerə, bir dəvəni də yaxşı qiymətli şeylərinən yükləyək, verək lotulara. Lotular getsinlər çölün düzündə dəvəni buraxsınlar otdamağa. Əyyar qismi acgöz olar, özü də tamahkar olar. O gəlib dəvəni aparanda lotular onu tutar, yoxsa bu əyyar bizi dağıdar".

Bəli, oğlan qulaq asıb əhvalatı öyrəndi. Dabanına tüpürüb tez genə bir tükən yardı, evinə gəlib anasına dedi:

- Ana, səhər məni tezdən durquzarsan.

Bəli, elə ki, səhər oldu, oğlan şəhərə getdi. Bir dəst köhnə paltar aldı, bir az bihuşdarı aldı, bir dənə də ölü-vay eşşək aldı. Köhnə paltarları geyib, özünə də saqqal qoydu, bir qoca kişinin şəklinə düşdü. Ölüvay eşşəyi də qabağına salıb toş-toş deyə-deyə sürməyə başladı. Elə ki, bir az gəldi, gördü budu çölün düzündə lotular oturub, dəvə də bir tərəfdə üstü yüklü otluyur. Əyyar dedi: "Bu saat görün sizin başınıza nə oyun açacağam?" Oğlan yavaş-yavaş lotulara tərəf gəldi, gördü ki, lotular yavaş-yavaş şərab vururlar. Lotular bu qoca əyyarı görüb dedilər.

- Əmi, gəl bizinən ye, iç.

Oğlan bir ah çəkdi. Lotular dedi:

- Əmi, niyə ah çəkirsən?

Oğlan dedi:

- Eh, bir vaxt varıdı mən də cavandım. Həmişə saqilik eliyərdim.

Lotular dedi:

- Ay əmi, eybi yoxdu. Gəl indi bizə saqilik elə. Bir yerdə kef eləyək.

Bəli, əyyar eşşəyi buraxdı bir tərəfə, başladı lotulara saqilik eləməyə. Dedi:

- Şərabı qoyun bir tərəfə sərinləsin!

Şərabı tökdülər teştə, qoydular sərinləsin. Gözünə döndüyüm əyyar bihuşdarını teştin içinə atdı. Bəli, elə bir az da keçdi, qoca dedi:

- Gətirin şərabı.

Şərab gəldi. Istəkanları doldurdular. Saqi başladı, dedi:

- Elə ki, mən bir, iki dedim, hamı birdən içməlidi.

Bəli, saqi uzun-uzadı danışdı. Sonra bir, iki dedi. Lotular hamısı birdən istəkanları başlarına çəkdilər. O saat hamısı bihuş olub yıxıldı. Elə ki, lotular özlərindən getdi, əyyar qoca paltarını çıxartdı, saqqalı-maqqalı tökdü yerə, eşşəyi qatdı qabağına, dəvənin də ipindən yapışıb çəkə-çəkə mağarasına apardı. Dəvənin üstündə olan şeyləri mağaraya yığdı, dəvənin də başın kəsdi, nənəsinə dedi:

- Qavur, bas küpəyə.

Bəli dəvəni qavurub küpələri doldurdular. Bular burda küpələri doldurmaqda olsunnar, sənə kimnən deyim, lotulardan.

Lotular bir də ayıldılar ki, paho, nə dəvə var, nə də qoca saqi var. Gördülər ki, qocanın paltarları ordadı. O saat barmaqların dişlədilər, dedilər: "Bu əyyarımış. Gəlib bizi aldatdı, dəvəni apardı".

Bəli, xəbər gedib şəhərə çıxdı. Dedilər əyyar gəlib qırx lotunun əlindən dəvəni aparıb. Hamı bu işə məhətdəl qaldı. Dedilər:

- A canım, belə də iş olar? Bir əyyarnan biz başara bilmiyək?

Da iş işdən keçmişdi, dəvə əldən çıxmışdı. Fikirləşdilər nə təhər eliyək, nə təhər eləmiyək. O yan-bu yan, bir küpəminən qarı gəldi. Qarı dedi: mən onu taparam.

Bəli, sabahı günü oğlan getmişdi ova. Ana mağarada tək qalmışdı. Küpəminən qarı küpünü mindi, havaya qalxdı, havada o tərəf-bu tərəfi gəzdi, gördü bir dağın döşündən tüstü çıxır. Yavaşca gəlib təpənin dalında küpdən düşdü. Yavaş-yavaş mağaraya tərəf gəldi. Qapını döydü. Oğlanın anası çıxdı, qarı dedi:

- Qadan alım, mənim gəlinim dəvə ətinə yerikləyir. Qurban olum, sizdə dəvə əti varsa, bir az ver mənə, aparım gəlinimə.

Arvad dedi:

- Bıy, qarı nənə, bir az niyə? Bir dəvə qovurmuşam. Gəl içəri, nə qədər deyirsən, verim.

Bəli, qarı nənə içəri girdi. Arvad qovurmadan bir boşqab doldurub qarı nənənin qabağına qoydu. Qarı nənə doyuncan yedi, sonra bir qab da doldurdu, qarı nənəyə verdi, dedi:

- Qarı nənə, apar bunu da gəlinin yesin.

Qarı nənə çox razılıx elədi. Qabı qoltuğuna vurdu, evdən çıxdı, getməyə başladı. Bu vaxt əyyar ovdan qəyidirdi. Uzaxdan gördü ki, bunların evindən bir arvad çıxdı. Tez evə yüyürüb anasından soruşdu:

- Ana, evə kim gəlmişdi?

Anası dedi:

- Bala, heş kim gəlməmişdi.

Oğlan dedi:

- Ana, düzün de. Yoxsa bu saat səni öldürərəm.

Anası dedi:

- Bala, bir qarı gəlmişdi. Deyirdi gəlinim yerikləyir dəvə qovurmasına, mən də qovurma verdim, getdi.

Oğlan evdən tez çıxdı. Elə ki, oğlan evdən çıxdı, gördü qarı küpün üstə qalxdı havaya. Qarı havada küpün üstə, oğlan da yerdə qaçırdı, ta ki, qarı nənə düşəndə onu tutsun. Bəli, qarı havada,

oğlan da dərəynən, təpəynən qaçırdı. Qarı nənə gəlib şəhərin bir qırağında küpdən düşdü. Oğlan tez bir dar küçədə gizləndi. Elə ki, qarı nənə gəldi, yolnan gedəndə oğlan dedi:

- Qarı nənə, nə var, nə yox? Təzə xəbər nə var?

Qarı dedi:

- Qadan alım, əyyarı tapmışam. Budu bax, dəvə əti, aparıram padşaha, müjdə almağa.

Oğlan dedi:

- Qarı nənə, dayan, bu saat sənə mən də müjdə verim.

Elə əyyar bunu dedi, xəncəli çıxardıb qarını öldürdü, qavurmanı da yerə çırpıb dağıtdı. Sonra qarının bir qolun da kəsib özüynən apardı evə. Gəldi, anasına dedi:

- Ana, bir də bura bir adam qoymazsan. Yoxsa gəlib sənidə, məni də öldürərlər. Bir az da gec gəlsəydim, qarı gedib xəbər verəcəydi, gəlib bizim ikimizi də öldürəcəkdilər.

Anası qorxdu, yalvardı, dedi:

- Ta heş kimi qoymaram.

Bəli, bunlar burda qalmaxda olsun, sənə kimnən deyim, padşahdan.

Padşaha xəbər getdi ki, qarı-əyyarı tapmışdı, qovurmada gətirmişdi, əyyar dalınca gəlib küçədə onu öldürüb. Hamı heyfsiləndi, dedilər:

- A kişi, biz bu əyyarınan başara bilmədik. Iş belə getsə, gərək biz şəhərdən çıxıb qaçax.

Bəli, axşam oldu. Genə padşahın həyətinə yığılıb söhbət eləyirdilər. Əyyar da öz qəydəsiynən damın üstündə mısıb qulaq asırdı. Əyyar gördü ki, belə deyirlər: "Əyyar qismi arvadbaz olar, gəlin vəzirin qızını aparax, çölün düzündə bir çadır qurax, qızı da tək qoyax içinə. Elə ki, əyyar gəldi, qız onu tutub saxlasın, sonra biz də gedək, əyyarı tutaq öldürək. Yoxsa bu bizi çapıb, talayar".

Vəzirin var-yox bir qızı varıydı. Bu qız həm olduxca gözəl idi, həm də güclüydü. Bəli, əyyar damın üstdən bunların hamısın eşitdi. Genə gəlib evlərinə anasına dedi:

- Ana, səhər mən nə qədər yatıram, qoy yatım, durğuzma.

Bəli, elə ki, səhər oldu, getdilər çölün bir düzündə bir çadır qurdular, qızı da çadırın içinə qoydular. Əyyar da tərtəmiz geyindi, cavan, gözəl bir oğlan oldu. Yavaş-yavaş çadıra tərəf gəldi. Elə ki, çadıra yaxınlaşdı, bir o tərəfə, bir bu tərəfə keçdi, qıza bir göz vurdu. Çadırın içinə girdi, başladı qıza söz atmağa. Bəli, qız bildi ki, bu əyyardı. Əyyar başladı qızınan mazaxlaşmağa. De o yan, de bu yan. Bəli, qız əyyarın qolundan bərk-bərk tutmuşdu. Deyirdi: indi dədəm gələcək, bizinən gedərik, sən olarsan mənim ərim. Oğlan gördü ki, qız bunun qolun buraxmır, dedi:

- Yaxşı, bu qolum ağrıdı, indi də o biri qolumnan tut.

Bəli, qız oğlanın o birisi qolundan tutdu. Elə ki, qız oğlanın o biri qolundan tutdu, bir də gördü ki, oğlan çadırın qapısındadı, amma qol öz əlində qaldı. Demə, oğlan qarının qolunu qızın əlinə veribmiş.

Oğlan papağın çıxartdı, qıza dedi:

- Xudahafiz, salamat qal, doxsanuvuz yığışasız, məni tuta bilməzsiz.

Bəli, əyyar bayaq tüpürdü dabanına, getdi evlərinə. Qız bir başına döydü, bir dizinə. Iş işdən keçmişdi. Bu halda padşah, vəzir, bir neçə də başqa adam gəldilər. Gördülər qız çadırda təkdi. Qız əhvalatı danışdı, vəzir başına döyməyə başladı, dedi:

- Gözümün ağı, qarası bir qızım vardı, onun da evin yıxdız.

Qərəz, iş işdən keçmişdi. Bunlar kor-peşman evlərinə getdilər. Elə ki, axşam oldu, genə yığışıb padşahın küləfirəngisində məsləhətləşirdilər. Əyyar da damnan qulaq asırdı. Belə deyirdilər:

- Biz bu şəhərdən çıxax gedək, elə bu şəhəri verək əyyara. Yoxsa bizə burda rahatlıx yoxdu.

O yan-bu yan fikir elədilər, axırda biri dedi:

- Sabahları əmr verilsin ki, heç kim şəhərdə qalmasın, hamı çölə çıxsın, əyyarın bundan xəbəri olmayacaq, demək əyyar şəhərə gələcək, onda əyyarı tutarıq.

Bəli, əyyar bunu da eşitdi. Öz-özünə dedi: "Bacarsaz, tutarsız". Özün verdi genə bir varlının tükanını yardı, şələsin tutdu, ağamı allah saxlasın, düz evlərinə gəldi.

Bəli, səhər tezdənnən əyyar getdi şəhərə. Bir qarı tapdı, tez özün verdi qarının yanına, bir az da qarıya pul verdi, dedi:

- Qarı nənə, məni qız paltarına geyindir, gedək oturaq şəhərin qırağında. Elə ki, qoşun gəlib səhraya gedəcək, mən üzümü göstərəcəyəm. Onların biri mənə aşıq olacaq. Gəlib məni sənnən istiyəndə verməzsən. Diyərsən ki, var yox bir qızım var, onu da vermərəm. Əlqərəz, axırda özüm ağırlığımda qızıl alıb məni verərsən. Ondan sonra çıxıb gedib şəhərin başqa yerində qalarsan, səni tapmazlar.

Qarı nənə razı oldu. Bəli, əyyar qız paltarı geyindi, özün düzəltdi, başına da çarşov saldı. Qarı nənə əyyarı da yanıycan götürüb yolun bir qırağında oturdular. Elə ki qoşun gəldi keçməyə, əyyar bilirdi ki, şəhər darğası olduqca arvadbazdı. Odu ki, darğa bunun yanından keçəndə əyyar üzünü açdı. Darğa bunu görən kimi özündən gedib atdan yıxıldı. Ay haray, dad nə oldu? Darğa dedi ki:

- O qızın dərdinnən mən öldüm, daha mən getmirəm.

Bəli, qoşun geri qayıtdı. Ta seyrə çıxmadılar.

Qarı nənəyə elçi göndərdilər, qızı istədilər. Qarı nənə dedi:

- Bıy, gözümün ağı, qarası bircə qızım var, onu da verəcəyəm sizə? Vermərəm.

Qarıya çox pul verdilər. Qarı dedi: vermərəm ki, vermərəm. Axırda əyyarın özü ağırlığında qızıl alıb əyyarı ərə verdi. Bəli, toy başlandı. Gecə Əyyarı allah-allahnan darğanın evinə apardılar. Elə ki, hamı dağıldı getdi, bir darğa qaldı, bir də əyyar. Darğa elə bilirdi ki, bu doğrudan da qızdı. Üzündən, gözündən öpürdü. Əyyar da əzilə-əzilə darğaya qır verirdi.

Darğa yavaş-yavaş əyyara yaxınlaşanda, əyyar dedi:

- Axı niyə tələsirsən, mən sənimam, sən mənim. Ta burda tələsməyin yeri yoxdu. Gəl bir əvvəl evlərinən, otaqlarınnan məni tanış elə, ondan sonra kef edək.

Darğa razı oldu, əyyarı otaqları gəzdirməyə başladı.

Bəli, nə başuzu ağrıdım, axırda gəldilər bir otağa çıxdılar. Əyyar gördü ki, burda bir mancanax var. Soruşdu:

- Bu nədi?

Darğa dedi:

- Bu mancanaxdı. Hər kimə acığım tutsa, qoyuram bu çarxın arasına. Bax, bu əl yerin görürsən, burdan fırladıram, gedir yuxarı. Orda dişləri görürsən, onlar batır onun canına, əzib öldürür.

Əyyar işi belə görüb dedi:

- Yaxşı, hələ qoy mən oturum, sən bur görək nə təhər olur?

Darğa sevgilisinin ürəyin sıxmadı. Dedi:

- Otur.

Əyyar dedi:

- Bax, yavaşca fırrat ha.

Darğa yavaş-yavaş fırratdı. Elə ki, qız yuxarı çıxdı, aşağı yendirdi. Sonra dedi.

- Yaxşı, indi sən otur, görək bacarıram mən də fırratmağı?

Darğa genə sevgilisinin ürəyin sıxmadı, özü oturdu dedi:

- Bax, yavaşca fırrat ha.

Əyyar dedi:

- Heç bərk fırradaram? Adam da istədiyinə əziyyət verər?

Bəli, nə başuzu ağrıdım, darğa oturdu mancanağın üstündə. Əyyar yavaş-yavaş fırlatmağa başladı. Elə ki, darğa yuxarıda dişlərin arasına yetişdi, dedi

- Ta bəsdi.

Bu vaxt əyyar möhkəm sıxdı, dişlər darğanın qarnını deşdi. Darğa yaralı qaldı orda. Əyyar gözünə döndüyüm, darğanın var-yoxunu yığışdırdı, dabanına tüpürüb birbaş qaçdı.

Evə gəlib kəlləsin yerə qoyub xor-xor yatdı. Bəli, bu burda yatmaqda olsun, sənə kimnən deyim, padşahdan.

Səhər ha gözlədilər, gördülər darğa gəlmir. Dedilər:

- A kişi, belə də arvadbaz adam olar? Gün günorta olub, hələ gəlməyib.

Bəli, az gözlədilər, çox gözlədilər, axırda darğanın dalınca adam göndərdilər. Içəri girdilər. Gördülər heç kim yoxdu. Amma otaqların qapıları açıqdı. Gedib mancanax olan otağa girdilər, gördülər ki, darğa mancanağın arasında yarımcan qanı axa-axa sızıldayır.

Bəli, tez padşaha xəbər verdilər. Gəlib darğanı mancanağın arasından çıxartdılar. Darğa heç özünü bilmirdi. O yan-bu yana adam salıb həkim axtardılar. Bu halda bizim əyyar həkim paltarında geyinib əlində əsa padşahın qapısından keçib dedi:

- Mən təbibəm, hər dərdə çarə elərəm.

Bunu padşahın yanına apardılar. Dedi ki:

- Mən həkiməm.

Padşah dedi:

- Indi sən bizim bu yaralını yaxşı eləyərsən?

Əyyar dedi:

- Necə yanı eliyə bilmərəm? Mən bunu o saat yaxşı eliyərəm. Ancaq mən diyən şərtinən. Mənə bir otaq verin, on beş gün heç kim ora gəlməsin, mən bunu sağaldım.

Bəli, razı oldular. Əyyara şəhərin qırağında tək bir otaq verdilər. Yaralı darğanı da ora apardılar. Hamı çıxıb gedəndən sonra əyyar gedib bazardan bir ülgüc, bir çuvaldız, bir az qəzil, bir az duz alıb gəldi, başdadı darğaya müalicə eləməyə. Bəli, nə başuzu ağrıdım, darğanın hər bir yerini ülgücnən yardı, duzu doldurdu, qəzilnən tikdi.

Darğanın təpədən dırnağa kimin hər yerini yardı beləcənə duzu doldurub tikdi. Qapını bağlayıb düz evlərinə getdi. Rahat-rahat öz işində, öz gəzməyində, öz kefində oldu. Indi sənə kimnən deyim. Bizim padşahdan.

Bəli, aradan on beş gün keçdi. Getdilər görsünlər ki, darğa necədi. Qapını açdılar, içəri girdilər, gördülər ki, darğa qupquru quruyub. Hamı başına, gözünə döydü, dedi;

- Vay, bu əyyarmış!

Dedilər:

- A canım, belə də şey olar? Biz bu əyyarınan başara bilməyək! Elə yaxşısı budur ki, bu şəhəri verək əyyara, özümüz çıxaq gedək başqa yerə. Ta biz bunnan bacara bilmərik.

Biri dedi ki:

- Gəlin, sabah bir şey eliyək. Əyyarı tuta bilməsək, onda doğrudan da çıxaq gedək.

Dedilər:

- De, görək, sənin məsləhətin nə təhərdi.

Dedi:

- Gəlin, sabahları bir kasıb uşağıynan bir dövlətdi uşağını bazarda güləşdirək. Dövlətdi uşağı kasıb uşağını yıxacaq. Bizim şəhərin camaatı heç kim bilməyəcək. Çünki dövlətdinin dalıncan danışmazlar. Bunu desə əyyar deyəcək. Bu əyyar kasıb tərəfdarıdı. Elə ki, gördüz dövlətdi uşağı kasıb uşağın yıxdı, kim desə "olmadı", deməli o əyyardı.

Işin natarazlığından, baxtın gətirməməzliyindən, bu gecə əyyar da gedib bulara qulaq asmamışdı. Işdən də xəbəri yoxdu. Beləcə səhər oldu. Bəli, səhər bazarın ortasında bir kasıb uşağı ilə bir dövlətdi uşağını güləşdirdilər. Bizim əyyar da özünü tamaşaya yetirdi. Uşaqlar bir az güləşəndən sonra dövlətdi uşağı kasıb uşağını yıxdı. Birdən bizim əyyar qəyitdi dedi:

- Olmadı.

Elə ki, bu sözü əyyar dedi. O saat onu tutdular ki, elə əyyar sənsən. Padşahın hüzurinə apardılar. Padşah dedi:

- Sən kimsən?

Əyyar dedi:

- Sənə dəxli yoxdu mən kiməm, uzun danışma.

Padşah hökm elədi ki, bu saat aparın bunu asın.

Bəli, baş ağrısı olmasın. Əyyarı dar ağacının altına gətirdilər. Elə ki, bunu soyundurdular, ipi salsınlar boğazına, bu halda bazubənd qolundan düşdü. Istədilər öldürsünlər, cəlladlar fikirləşdi, dedilər:

- Biz bunu öldürəcəyik, sonra padşah bazubəndi görər, hirslənər. Yaxşısı budur ki, gedək padşaha xəbər verək. Əgər deyərsə, genə öldürərik.

Bəli, gəlib padşaha xəbər verdilər. Bazubəndi də görsətdilər. Padşah bazubəndə baxan kimi tanıdı, dedi:

- Öldürməmisiz ki?

- Xeyr.

- Onda öldürməyin.

Bəli, oğlanı padşahın yanına gətirdilər. Padşah oğlunnan genə soruşdu:

- Oğlan, sən kimsən?

Əyyar dedi:

- Sənə nə var mən kiməm? Demirsən əyyaram, öldürtdür, Əyyar deyiləm, burax gedim. Sənə nə var mən kiməm?

Əlqərəz, padşah nə qədər soruşdu, əyyar öz dediyin dedi. Axırda padşah dedi:

- Axı bu bazubənd mənimdi. Odu ki, soruşuram. Mən bunu arvadım həmli olanda onun yanında qoyub gəlmişəm.

Müxtəsər kalam, padşah əhvalatı danışanda əyyar bildi ki, dədəsi budu. Görüşdülər, öpüşdülər:

- Anan hardadı?

- Şəhərdən qıraxda mağarada evimiz var.

Padşah and verdi ki, get anavı gətir. Əyyar dedi:

- Mənim dövlətim sənինkinnən çoxdu. Iki at, üç at kar görməz. Dəvə, qatır ilxısı ver, dövlətimi bura gətirə.

Bəli, dəvələr, qatırlar dalda, qabaxda padşahnan oğlan mağaraya tərəf getdilər. Padşah arvadıynan görüşdü, öpüşdü, orada olan dövlətlərini də qatırlara, dəvələrə çatıb şəhərə gəldilər. Təzədən padşah özünə toy elədi. Qırx gün, qırx gecə toy çalındı. Camaat da arxayın oldu. Hamı əyyarın belə zirəkliyinə məhətdəl qalmışdı. Padşah öz başından tacını götürüb əyyar dediyimiz oğlunun başına qoyub dedi:

- Sən məndən bacarıxlısan. Sən məndən iş bilənsən. Padşahlığa mən yox, sən yararsan. Bu şəhəri, bu camaatı sən məndən yaxşı idarə edərsən.

Bəli, əyyar padşah oldu. Yedilər, işdilər, mətləbinə yetişdilər. Göydən üç alma düşdü. Biri mənim, biri özümün biri də nağıl diyənin. Sən sağ, mən səlamət. Sən yüz yaşa, mən iki əlli. Hansı çoxdu, sən götür.

AĞ ATLI OĞLAN

Biri var idi, biri yox idi, Döşgüvar adlı zülmkar bir padşah var idi. Dünya görmüş qocaların dediyinə görə bu padşah elə cavanlıqdan əzazil adam imiş. Padşahlığı ələ almaq üçün qoca atasını da özü zəhərləyib öldürmüş imiş.

Bu padşah taxta çıxan gündən camaatın günü lap qara olmuşdu. O, istəyinə çatmaq üçün yüzlərcə adamı öldürər, bircə dəfə də olsun uf deməzdi. Qonşu padşahlarla da yola getməzdi. Ildə bir yerə hücum edərdi. Savaşardı, vuruşardı, qanı su yerinə axıdardı. Belə ki, hamının gözünü qorxutmuşdu. Bu padşahın uşağı yox idi. Nə qədər evlənirdisə uşağı olmurdu.

Padşah ildə üç arvad alardı. Elə ki, gördü uşaq olmadı, arvadın üçünü də ya öldürərdi, ya zindana saldırardı, ya da qovub ayrı üç arvad alardı.

Günlərin bir günündə bir dərviş bu padşahın yanına gəldi, dedi:

- Padşah sağ olsun, mən sənə bir dərman verərəm, hər arvaddan bir oğlun olar. Amma bir şərtim var.

Padşah soruşdu:

- Nə şərt?

Dərviş dedi:

- Uşaqlar on beş yaşa çatanda birini mənə verməlisən.

Padşah razılaşdı. Dərviş padşaha bir dərman verdi. Sonra dedi:

- Bu dərmanı dörd yerə bölərsən. Bir payını özün yeyərsən, üç payını da arvadlarına verərsən.

Padşah dərmanı aldı. Dərviş çıxıb getdi. Padşah dərvişin dediyi kimi elədi. Gün keçdi, ay dolandı, padşahın hər arvadından bir oğlu oldu. Padşahın arvadlarından biri xan qızı idi. Odur ki, ondan olan oğlanın adını Xanbala qoydular. Ikinci arvad bəy qızı idi. Onun da oğlunun adını Bəybala qoydular. Üçüncü arvad bir yoxsul dəvəçinin qızı idi. Padşah onu çox gözəl olduğuna görə almışdı. Ondan olan oğlanın adını da Nərbala qoydular.

Aylar keçdi, illər dolandı, uşaqlar on dörd yaşı qurtarıb, on beşə ayaq qoydular. Nərbalanı sarayda həmişə ələ salardılar. O biri qardaşlar onu gah nər balası, gah dəvə balası, gah da köşək deyə çağırardılar. Nərbalanın anasına da hamı aşağı nəzərlə baxırdı. O biri arvadlar onu qulluqçu kimi işlədirdilər. Padşah özü də Nərbalanı saymırdı. Həmişə o biri oğlanlarını "Mənim Bəybalam", "Mənim Xanbalam" deyə sevib oxşayırdı. Buna gələndə gülüb deyirdi:

- Pəh, pəh... Bir adamın ki, babası dəvəçi ola... Gör onun axırı nə olar da...

Nərbala neçə dəfə istəmişdi ki, qaçıb getsin, amma anası qoymamışdı, demişdi:

- Bala, atan çox hirslidi. Haraya qaçsan səni tapıb öldürər.

Əslində isə Nərbala o biri qardaşlarından həm güclü, həm də ağıllı idi.

Gün o gün oldu ki, uşaqların on beş yaşı tamam oldu. Axşama bir az qalmış dərviş gəlib çıxdı. Padşah dedi:

- Dərviş, bilirəm nəyə gəlibsən. Ancaq sən gəl mədən uşaq istəmə. Mal, dövlət nə qədər istəyirsən sənə verim, çıx get.

Dərviş dedi:

- Yox, mənə heç nə lazım deyil. Ya uşaqlardan birini ver, ya da bu saat elə bir şey elərəm ki, üçü də ölər.

Padşah dedi:

- Indi ki, belədi, onda qoy Nərbala qurban olsun Xanbala ilə Bəybalaya. Apar nə eləyirsən, elə.

Padşah əmr elədi, cəlladlar Nərbalanı tutub qollarını bağladılar, verdilər dərvişə. Nərbalanın anası işi bilib özünü atdı padşahın ayaqlarına dedi:

- Aman günüdü, mənim oğlumu bədbəxt eləmə.

Padşah qəzəblənib əmr elədi, arvadı da saldılar zindana. Dərviş Nərbalanı götürüb yola düşdü. Amma Nərbala anasının zindana salınmasından xəbər tutmadı.

Nərbala ilə dərviş az getdilər, çox getdilər, səhərə az qalmış çatdılar iki dağın arasına. Dərviş qabaqda, Nərbala da qolları bağlı onun dalınca-gedirdi. Birdən bir səs eşitdi. Baxdı ki, bir quru kəllə onun yanınca dığırlana-dığırlana gedir. Özü də danışır. Nərbala diqqətlə qulaq verdi, gördü kəllə deyir:

- Nərbala, eşit, bil! Bu dərviş adam yeyəndi. Mən də sənin kimi cavan bir oğlan idim. Dərviş məni atamdan, anamdan alıb gətirdi, təndirə salıb bişirdi, yedi. Özünü qoru. Bizim qanımızı ondan al!

Kəllə bu sözləri deyib yox oldu. Nərbala getdi fikrə, bilmədi ki, nə eləsin. Qayıdıb qaça bilməzdi, çünki əlləri bağlı idi. Nə qədər açsaydı da, axırda dərviş onu tutacaqdı.

Nərbala başı aşağı belə fikirlərlə gedirdi, birdən dərviş dayandı, dedi:

- Çatdıq.

Nərbala başını qaldırıb gördü ki, dərənin lap qurtaracağında, heç kəsin ağlına gəlməyən yerdə, böyük bir binanın qabağındadırlar. Dərviş cibindən bir dəstə açar çıxardı. Bu açarlardan biri ilə qapını açdı. Qabaqca Nərbalanı içəriyə saldı, sonra da özü girib; yenə də qapını bağladı. Onlar dar, qaranlıq bir yerdən keçib, bir otağa girdilər. Otaq da qaranlıq idi. Dərviş onu salınmış bir dəst yorğan-döşəyin yanına gətirib dedi:

- Həm gecdi, həm də yorulmuşuq. Yataq, sabah danışarıq. Mənim heç kəsim yoxdu. Səni özümə oğul eləyəcəyəm.

Bunu deyib, dərviş otaqdan çıxdı, qapını da daldan bağlayıb getdi. Nərbala, doğrudan da, yorulmuşdu. Elə qolları bağlı uzanıb yatdı. Amma səhərə qədər rahat yata bilmədi. Tez-tez diksinib yuxudan oyanırdı. Ətrafa qulaq asıb yenə də yatırdı. Səhər dərvişin ayaq səsləri onu oyatdı. Qulaq verib gördü ki, dərviş qapını açır. Tez sıçrayıb qalxdı. Dərviş içəriyə girdi. Onun qollarını açıb dedi:

- Bu mal, bu dövlət hamısı sənindi. Biz burada ata-bala kimi dolanacağıq. Ancaq çörəyimiz yoxdu. Gəl qabaqca təndiri yandırıb çörək bişirək, sonra gör sənə nələr göstərəcəyəm.

Təndir deyəndə kəllənin dedikləri Nərbalanın yadına düşdü. Ancaq o, indi qorxmurdu. Əlləri açıq idi. Dərvişin ona gücü çatmazdı. Ancaq belə şirin-şirin danışmağından başa düşmüşdü ki, dərviş çox hiyləgər adamdı.

Ona görə də dərvişin bütün sözlərinə, hərəkətinə çox diqqətlə fikir verirdi. Dərviş Nərbalanı yan otağa apardı. Nərbala baxdı ki, bura təndir damıdır. Dərviş dedi.

- Oğul, həm xəmir yoğurmalıyıq, həm də təndiri yandırmalıyıq. Hansını sən eləyirsən?

Nərbala dedi:

- Baba dərviş, biz ki ata-bala oluruq, daha yaramaz ki, mən duran yerdə sən iş görəsən. Bundan sonra bu işlərin hamısını mən görəcəyəm. Ancaq hələ heç birini bacarmıram. Bu günlüyə sən elə, mən baxım, öyrənim.

Dərviş dedi:

- Doğru deyirsən, bala. Bax, öyrən!

Bunu deyib dərviş təndiri yandırdı. Sonra un gətirib xəmir yoğurmağa başladı. Elə ki, xəmir hazır oldu, təndir də tüstüdən düşüb közərdi, dərviş ayağa durub yekə, qara bir tiyan gətirdi, təndirin içinə saldı. Nərbala baxdı ki, bu tiyan elə bu təndir üçün düzəldilib. Tiyanın qulpları təndirin qırağına dayanmışdı, onu çox aşağı düşməyə qoymurdu. Tiyanın dibi təndirdəki oddan bir az yuxarıda dayanırdı. Nərbala soruşdu:

- Baba dərviş, bəs bu tiyan nə üçündü?

Dərviş dedi:

- Oğlum, çörəyi təndirə yox, bu tiyanın divarlarına yapacağıq. Bu onun üçündü ki, çörək küt düşəndə də təndirə düşüb xarab olmasın.

Nərbala başa düşdü ki, dərviş yalan deyir. O saat kəllənin sözləri onun yadına düşdü. Dərvişin məqsədi aydın idi. O, istəyirdi ki, Nərbalanı həmin tiyanın içinə basıb bişirsin. Nərbala heç bir söz deməyib, gözlədi ki, görsün işin axırı nə olur.

Dərviş əyləşib xəmiri kündələdi, sonra kündələri yastıladı. Nərbala da ona kömək edirdi. Amma Nərbala açıq görürdü ki, dərviş qəsdən yavaş tərpənir. Dərviş o qədər gözlədi ki, təndirdəki tiyan od kimi qızardı. Ayağa qalxıb təndirin kənarında oturdu, tiyanın istiliyini yoxladı, sonra Nərbalaya dedi:

- Indi gəl otur, çörəkləri yap.

Nərbala bu dəfə də heç bir söz deməyib təndirin başında oturdu. Dərviş çörəklərdən birini ona verdi, dedi:

- Amma təndirin içinə elə sallan ki, çörəyi oda yaxın yapa biləsən, yoxsa bişməz.

Nərbala:

- Baş üstə, - deyib özünü elə göstərdi ki, guya çörək yapmağa hazırlaşır. Amma əslində bir balaca əyilib qoltuğunun altından dərvişə baxmağa başladı. Gördü ki, dərviş səs olmasın deyə barmaqlarının ucunda divara yaxınlaşdı, oradan tiyanın qapağını götürdü. Bir əlinə balaca bir balta

alıb ona tərəf gəlməyə başladı. Nərbala gördü ki, kəllənin dedikləri düz imiş. Dərviş istəyir ki, onu balta ilə vurub tiyanın içinə salsın, sonra da qapağını örtüb bişirsin.

Dərviş yaxınlaşanda Nərbala cəld bir hərəkətlə sıçrayıb ayağa qalxdı, dedi:

- Baba dərviş, mən heç vaxt təndirə çörək yapmamışam. Əlimdə xəmir təndirə əyilsəm, özüm də yıxılaram, çörəyi də salaram. Al, birini sən yap, baxım, öyrənim, o birilərini mən yaparam.

Dərviş acıqlanmışdı. Amma qəsdən üzə vurmayıb, tez əlindəki şeyləri yerə qoydu, çörəyi Nərbalanın əlindən aldı, özü təndirin başında əyləşdi.

Nərbala o qədər gözlədi ki, dərviş əlindəki çörəyi yapmaq üçün başıaşağı təndirə sallandı. Nərbala "başqası üçün quyu qazanın özünü quyuya salmaq lazımdı" deyib dərvişə bir təpik vurdu. Dərviş başı üstə təndirə yıxıldı. Nərbala tez qapağı tiyanın ağzına basdı. Özü də çıxıb üstündə oturdu. Dərviş nə qədər qışqırdısa, Nərbala qapağın üstündən qalxmadı. Bir az keçdikdən sonra dərvişin səsi kəsildi.

Dərviş öləndən sonra Nərbala dərvişin sarayını gəzməyə başladı. Sarayda qırx otaq var idi, hamısı bir-birindən gözəl idi. Dünyada hər nə istəsən, burdan tapmaq mümkün idi.

Nərbala otuz doqquz otaq gəzib qurtardıqdan sonra, qırxıncı otağın qapısını açdı. Baxdı ki, bura təmiz, səliqəli, gözəl bir tövlədi. Tövlədə bir at, bir aslan bağlanıb, böyük bir qəfəsdə də gözəl bir quş var. Nərbalanı görcək at kişnədi, aslan nərildədi. Quş adam kimi danışıb Nərbalaya dedi:

- Xoş gəlmisən! Biz neçə müddətdi ki, burada əsirik. Amma bilirdik ki, dərviş nə qədər hiyləgər olsa da, axırda elə bir igid tapılacaq ki, ona qalib gələcək.

Nərbala baxdı ki, dərviş atın qabağına ət qoyub, aslanın qabağına dən töküb, quşun da qabağına ot qoyub. Tez götürüb dəyişdirdi, əti aslana, otu ata, dəni də quşa verdi. Heyvanların üçü də səslənib Nərbalaya "sağ ol" dedilər. Sonra quş dedi:

- Nərbala, sən bizim yemlərimizi dəyişdin, hər kəsə öz yemini verdin, görünür ki, sən haqsızlığı sevməyən, insaflı bir adamsan. Biz belə bir adamın yolunda ölümə də gedərik. Hər nə çətin işin olsa bizə de. Biz sənə kömək eləməyə hazırıq.

Nərbala dedi:

- Mənim insafım qəbul eləməz ki, siz burda, bu qaranlıq tövlədə, qəfəsdə, zəncirlə bağlı qalasız. Mən sizi açıb buraxıram. Sonrasını özünüz bilərsiniz. Gedərsiz xoş gəldiz, yox, əgər qalarsız, mən də ölənə qədər sizinlə dostluq eləməyə hazıram.

Bunu deyib, Nərbala onların üçünü də açıb buraxdı.

Heyvanlar qaçmaq əvəzinə üzlərini Nərbalanın əllərinə, ayaqlarına sürtməyə, onu yalamağa başladılar.

Quş dedi:

- Biz gündüzləri gedib gəzəcəyik, dolanacağıq, özümüzə yem tapacağıq, axşamları həmişə buraya gələcəyik.

Quş sözünü qurtarıb uçdu. Atla aslan da çıxıb bir dəqiqədə yox oldular.

Nərbala dərvişin bağçasını gəzməyə başladı. Bağça elə bir bağça idi ki, necə deyərlər, gül bülbülü, bülbül gülü çağırırdı. Burada elə gözəl meyvələr, güllər, çiçəklər var idi ki, Nərbala bunları öz atasının ən məşhur bağlarında da görməmişdi. Nərbala o qədər gəzdi ki, lap yorulub əldən düşdü. Axırda yığdığı meyvələri yedi, bulağın başında uzanıb yatdı. Az yatdı, çox yatdı, bilmədi, bir vaxt gözlərini açanda gördü ki, at bir tərəfində, aslan da o biri tərəfində durub, quş da başının üstündə ki daşda oturub. Heyvanlar Nərbalaya yemək də gətirmişdilər. Aslan bir ceyran ovlayıb gətirmişdi. Quş isə bir kəklik tutub gətirmişdi. Nərbala özünə xörək hazırladı, yedi, içdi, yatdı.

Bu gündən Nərbala heyvanlarla dost oldu. Günlər keçdi, həftələr dolandı. Nərbala darıxmağa başladı. Heyvanlar bunu başa düşdülər. Bir axşam quş dedi:

- Əgər çox darıxırsansa, biz səni şəhərə aparaq.

Nərbala öyrənib bildi ki, bu şəhər atasının çox incitdiyi bir padşahın paytaxtıdı. Qorxdu ki, şəhərdə tanınıb ələ keçə bilər. Axı, onlar nə bilirlər ki, atası onun özünün də düşməni olub, bilə-bilə qəsdən ölümə göndərib. Quş Nərbalanı fikirli görüb dedi:

- Biz bilirik sən nə fikir eləyirsən. Ancaq qorxma. Paltarını dəyiş. Köhnə bir paltar gey. Biz səni səhər tezdən, hələ işıqlanmamış şəhərə çatdırarıq. Gəzərsən, dolanarsan, axşam qaranlıq düşəndən sonra da gəlib səni gətirərik.

Nərbala razılaşdı. Gecəni yatdılar. Səhər hələ işıqlaşmamış Nərbala qalxdı, bir dəst köhnə paltar geyindi, başına da bir köhnə dəsmal bağladı, atı mindi. At altında, aslan yanında, quş da başının üstündə hələ səhər açılmamış şəhərə çatdı. At şəhərin kənarında uca bir hasarın yanında dayandı.

Nərbala düşdü. Quş hasarı göstərib dedi:

- Bura padşahın gül bağıdı. Yaz, yay, bir də payız fəsillərində padşahın qızları bu bağdakı sarayda yaşayırlar.

Sonra tükündən bir dənə çəkib Nərbalaya verdi:

- Gəzib dolanarsan, axşam isə bizi burda gözləyərsən. Ancaq işdi, birdən biz gələnə qədər başına bir qəza gəlsə, bu tükü yandırarsan, biz harda olsaq, sənin köməyinə gələrik.

Heyvanlar getdilər. Nərbala da yavaş-yavaş şəhərə tərəf gəldi. Şəhər böyük idi, tanış da yoxudu. Nərbala təkbaşına o qədər gəzdi ki, lap yorulub əldən düşdü. Axşama bir qədər qalmış, həmin bağın yanına gəldi, hasarın yanında dayandı, gözləməyə başladı. Birdən bağın qapısı açıldı, içəridən ağsaqqal bir qoca çıxdı. Nərbala ədəblə salam verdi. Qoca salamı alıb dedi:

- Oğlum, qərib adama oxşayırsan. Kimsən? Burada niyə dayanıbsan? Bəlkə yatmağa yerin yoxdu?

Nərbala indiyə kimi heç kəsdən belə şirin söz eşitməmişdi. Gördüyü kişilər - atası, qardaşları, saraydakı adamlar olmuşdu ki, onların hamısı da onu ələ salıb gülərdi. Bunlardan başqa Nərbala bir də dərvişi görmüşdü ki, o da onu öldürmək istəmişdi. Nərbalanın qocadan çox xoşu gəldi, dedi:

- Bəli, qəribəm. Birinci dəfədi ki, şəhərə gəlmişəm. Indi yoldaşlarımı gözləyirəm ki, onlara qoşulub kəndimizə gedim.

Qoca dedi:

- Oğlum, mən bu bağın bağbanıyam. Buranı mən salmışam. Bu ağacları mən becərib yetişdirmişəm. Bir neçə dəfə bizim qonşuluqda olan padşah qoşun çəkib bizim üstümüzə gəlib, şəhərimizi talayıb, adamlarımızı qırıb, amma duruş gətirə bilməyib, qaçıb gedib. Hər dəfə gedəndə bizim bağı da viranə qoyub, sonradan yenə də düzəltmişəm. Mən görürəm ki, sən bir yaxşı uşaqsan. Mənim də heç kəsim yoxdu. O padşah axırıncı dəfə bizim üstümüzə gələndə mənim də evimi talan elədi, var-yox bircə oğlum var idi, onu da öldürdü. Indi səni gördüm, yaman ürəyimə yatdın. Əgər ayrı bir işin, peşən yoxdursa, gəl mənə şagird ol, birlikdə işləyək, mənim ömrümə çox qalmayıb. Istəmirəm ki, məndən sonra bağ naşı adam əlinə düşüb xarab ola.

Nərbala dedi:

- Gələrəm əmi, ancaq bu gün gərək kəndimizə gedib anamdan icazə alam, sonra gələm.

Qoca öz evini Nərbalaya göstərdi, dedi:

- Əgər gəlsən, qapını döyüb məni çağırarsan.

Nərbala dedi:

- Baş üstə.

Bağban evinə girdi. Nərbala da hasarın yanına qayıtdı. Amma Nərbalanı fikir götürmüşdü ki, görəsən bağban hansı qonşu padşahdan danışır. Bəlkə elə onun atasından danışır. Nərbala bu fikirdə idi ki, at, aslan və quş gəldi. Nərbala yenə də atı mindi, aslan yanında, quş da başının üstündə evə gəldi. Evdə Nərbala dostlarına dedi:

- Mən burda adamsızlıqdan, bir də işsizlikdən darıxıram. Gedib bağbana şagird olacağam.

Səhər tezdən heyvanlar onu yenə də həmin bağın yanına gətirdilər.

Quş tükündən bir neçə dənə çəkdi, ona verib dedi:

- Biz orda qalacağıq, nə zaman sənə lazım olsaq, tükü yandırıb bizi çağırarsan.

Nərbala dostları ilə görüşdü. Onlar getdilər. Nərbala da bağbana şagird olub bağda işləməyə başladı.

Bu, şəhərin ən gözəl bağı hesab olunurdu. Özü də padşahın idi. Padşahın üç qızı var idi. Qızlar hər gün axşam bağı gəzərdilər. Nərbalanın bağa gəldiyi günün axşamı qızlar adətləri üzrə bağa gəzməyə çıxmışdılar. Nərbala da bağın bir tərəfində bağbanla işləyirdi. Qızlar bir qədər gəzdikdən sonra bağbanın yanına gəldilər.

Böyük qız dedi:

- Bağban, bağdakı güllər açılıb, bunlardan niyə səhərlər dəstə tutub bizə gətirmirsən?

Bağban dedi:

- Xanım, mən qəsdən dəstə tutub gətirmirəm ki, özünüz gəlib dərəsiz.

Ortancıl qız ağzını büzüb dedi:

- Yaxşıdı... Gülü biz özümüz gəlib dərəcəyiksə, bəs səni niyə saxlayırıq?

Bağban dedi:

- Xanım, mən elə demədim. Axı gül dərməyin özünün başqa bir ləzzəti var. Mən elə bildim ki, bu sizə də lazımi ləzzət verər. Indi ki, belədi, baş üstə, səhər dəstə tutub Nərbala ilə göndərərəm.

Böyük qız soruşdu:

- Kimlə göndərərsən?

Bağban Nərbalanı göstərib dedi:

- Nərbalaynan.

Böyük qız Nərbalaya baxıb, başladı gülməyə.

- Nərbala... Nərbala... Ada bax ha... Nərbala...

Ortancıl qız dedi:

- Yaxşı addı... nər, yə`ni dəvə... Nərbala, yə`ni dəvə balası.

Böyük qız dedi:

- Yə`ni köşək... elə özü də lap dəvə balasına oxşayır.

Ortancıl qız dedi:

- Mənə gülü özün gətirərsən. Mən onun paltarından iyrənirəm.

Kiçik qız hirslənib bacılarına dedi:

- Siz elə həmişə beləsiz, Niyə, ona nə olub ki? Nə olsun ki, paltarı bir az köhnədi, siz onun gözlərinə baxın. Görün nə ağıllı gözləri var.

Böyük qız dedi:

- Hə... Yekə... Qara...

Ortancıl qız dedi:

- Elə lap dəvə gözünə oxşayır.

Kiçik qız üzünü Nərbalaya tutub dedi:

- Sən bunlara fikir vermə, ay oğlan. Səhər mənə gülü özün gətirərsən.

Bacılar gülüşüb dedilər:

- Səhər tezdən sənə bir dəstə dəvə gülü gətirəcək.

Nərbala dedi:

- Xanımlar, varın verən utanmaz. Hər kəs öz qabiliyyətinə, öz qanacağına görə iş görər. Mən elə gül gətirərəm ki, balaca xanımın başı aşağı olmaz.

Qızlar gülüşə-gülüşə dedilər:

- Səhər baxarıq.

Qızların Nərbalanı ələ saldıqlarını görən bağban çox qəmgin olub dedi:

- Darıxma, oğlum. Onların sözləri sənə toxunmasın.

Nərbala dedi:

- Yox, əmi. Bu sözlər mənim üçün təzə deyil. Belə sözləri çox eşitmişəm.

Bağban Nərbalanı da götürüb evə gəldi. Bir az çörək yeyib yatdılar. Elə ki, bağban yuxuya getdi. Nərbala qalxıb çölə çıxdı. Quş verən tükün birini yandırdı. Beş dəqiqə keçməmiş quş hazır oldu. O dedi:

- Nə olub, Nərbala?

Nərbala dedi:

- Gərək səhər açılmamış mənə bir dəstə gül gətirəsən. Amma elə gül tapmalısan ki, bu padşahın məmləkətində olmasın.

Quş cavab verdi:

- Baş üstə. Mən sənə bir dəstə gül gətirərəm ki, gələn il bu vaxta qədər qalsın, heç solmasın.

Quş uçub getdi. Nərbala da gəlib yatdı. Səhər tezdən bağban Nərbalanı oyatdı ki:

- Dur, bala. Mən böyük xanımlar üçün gül yığmağa gedirəm. Dur, sən də gedək. O balaca xanım böyüklərin ikisindən ağıllı, yaxşı qızdı. Sən gərək ona elə dəstə tutasan ki, başı aşağı olmasın, Nərbala dedi:

- Sən get, mən də bu saat, gəlirəm.

Bağban bağa getdi, iki dəstə gül yığıb, qızlara apardı. Qızlar baxdılar ki, bağban gülü gətirdi, amma Nərbala yoxdu. Yenə də gülüb, kiçik qızı ələ salmağa başladılar. Elə bu vaxt Nərbala gəldi. Ədəblə salam verib, əlindəki gül dəstəsini kiçik qızın qabağına qoydu, dedi:

- Xanım, bu elə güldü ki, gələn il bu vaxta qədər qalacaq, solmayacaq.

Güllər o qədər gözəl idi ki, qızlar heç bir söz deyə bilmədilər. Hərə öz gülünü otağına apardı. Gecəni yatdılar. Səhər durub gördülər ki, bağbanın gətirdiyi güllər yavaş-yavaş solur. Amma kiçik qızın gülü elədi ki, elə bil, bu saat dərilib.

Bir gün, iki gün, üç gün, bir həftə keçdi, Nərbalanın gətirdiyi güllər solmadı ki, solmadı. Bacılar kiçik qızdan gizli bütün bağı gəzdilər. Başa düşdülər ki, Nərbala bu gülləri ayrı yerdən gətirib. Bacılar paxıllıqdan azarladılar. Xəbər gedib padşaha çatdı ki, bəs bağbanın şagirdi onun kiçik qızına bir dəstə solmayan gül gətirib, o biri qızlar da buna dözə bilməyiblər, azarlayıblar. Padşah dedi:

- Burda nə çətin iş var ki? Sabah, çağırıb deyərəm, gedib onlar üçün də gətirər.

Sabahısı gün padşah Nərbalanı yanına çağırdı, dedi:

- A gədə, o gülü sən gətiribsən?

Nərbala cavab verdi:

- Bəli.

Padşah dedi:

- Bu gün gedib ondan iki dəstə də gətirərsən.

Padşah bu sözləri dediyi vaxt vəzirin, vəkilin oğlanları da burda idilər.

Vəzirin oğlu durub dedi:

- Padşah sağ olsun, bunun özü nədi ki, gətirdiyi gül nə ola?

Vəkilin oğlu dedi

- Sən icazə ver, biz gedib ondan da yaxşı gül tapaq.

Nərbala çox sakit dedi:

- Siz ondan yaxşı gül tapa bilməzsiniz. O elə güldü ki, dərildikdən sonra bir il solmur. Çalışın, onun özündən tapın.

Padşah dedi:

- Sən onu hardan dərmisən?

Nərbala dedi:

- O gülləri mən dərməmişəm. O gülləri ağ atlı, ağ çuxalı, ağ papaqlı bir oğlan bazara aparırdı, mən ondan aldım, aparıb xanıma verdim.

Padşah dedi:

- Bəs bilmədin o, gülü hardan gətirirdi?

Nərbala dedi:

- Soruşdum, dedi ki, bax, o dağın dalından yığmışam.

Padşah dedi:

- Yaxşı, get, yığ gətir.

Nərbala dedi:

- Padşah sağ olsun, mən burda qərib bir oğlanam. Özümün də atım yox, ulağım yox, nə ilə gedim?

Vəzirin oğlu ilə vəkilin oğlu qalxdılar ki:

- Padşah sağ olsun, biz duran yerdə o kimdi ki, şah qızlarına gül gətirə. Izin verin, biz gedək.

Padşah icazə verdi. Oğlanlar hazırlaşmağa getdilər.

Nərbala da bağa gəldi. Gün keçdi, axşam oldu. Nərbala ilə bağban yatmağa hazırlaşırdılar ki, qapı yavaşca döyüldü. Bağban durub qapını açdı. Padşahın kiçik qızı içəriyə girdi. Nərbala ədəblə ayağa qalxıb salam verdi.

Qız soruşdu:

- Sən gülün yerini onlara dedinmi?

- Bəli, xanım, dedim.

- Sabah onlar o güldən gətirə biləcəklərmi?

Nərbala duruxdu. Qız bir də soruşdu.

- Demək ki, sabah onlar o güldən gətirəcəklər.

Nərbala dedi:

- Mən sizə yalan demək istəmirəm, xanım. Ona görədə sizin xoşunuza gəlsə də, gəlməsə də düzünü deyəcəyəm.

Qız baxdı ki, Nərbala çox ciddi oğlandı, dedi:

- Elə mən də istəyirəm ki, düzünü deyəsən.

Nərbala dedi:

- Çünki o gülü onlar tapa bilməzlər.

Qız dedi:

- Demək ki, sən gülün yerini onlara düz deməmişsən. Halbuki bu saat deyirdin sən yalançı deyilsən.

Nərbala dedi:

- Mən yalan deməmişəm. Mən demişəm ki, o gülü ağ atlı, ağ çuxalı, ağ papaqlı bir oğlan gətirib. Bu da düzdü.

Qız dedi:

- Bəs o oğlan kimdi? Indi o haradadı?

Nərbala dedi:

- Xanım, bayaq dedim ki, mən sizə yalan danışa bilmərəm. Düzünü də hələlik demirəm. Odu ki, xahiş edirəm bu sualı mənə verməyəsiniz.

Qız baxdı ki, xeyr, Nərbala çox ağıllı adamdı. Fikrə getdi, dedi:

- Nərbala, mən istəyirəm ki, sabah onlar o güldən tapıb gətirsinlər.

Nərbala soruşdu:

- Niyə?

Qız dedi:

- Mənim bacılarım çox hiyləgər insafsızdırlar. Mən bu saat onların söhbətini eşitmişəm. Onlar bu iş üçün səndən, bir də bağbandan intiqam almaq istəyirlər. Əgər sabah gül tapılmasa onlar vəzirin oğlu ilə vəkilin oğlunu öyrədəcəklər ki, gülün yerini deyənə qədər sənə cəza versinlər, sonra da öldürsünlər.

Nərbala gülüb dedi:

- Xanım, sən mənim bağban oğlu olduğuma baxma. Onlar heç yel olub mənim yanımdan da ötə bilməzlər.

Qız baxdı ki, yox, Nərbala həm də igid oğlandı. Ürəyində lap sevindi, dedi:

- Nərbala, onlar atamı da yoldan çıxaracaqlar ki, bağbana cəza versin.

Nərbala soruşdu:

- Ona niyə?

Qız dedi:

- Birinci, ona görə ki, o səni haradan tapıb gətirib?

Nərbala dedi:

- Bu barədə ona heç kəs bir söz deyə bilməz. Çünki mən onun nəvəsiyəm. Mənim anam onun qızı idi. Biz kənddə yaşayırdıq. Indi anam ölüb, babamın yanına gəlmişəm.

Qız bağbana baxdı. Bağban gördü ki, oğlan çox ağıllıdı, dedi:

- Bəli, xanım. O mənim nəvəmdi.

Qız Nərbalaya dedi:

- Indi ki, belədi, sən gərək razı olmayasan ki, atam sənin babana cəza verə. Onlar istəyirlər, atam ona cəza versin ki, niyə indiyə kimi o güldən tapıb bu bağda əkməyib.

Bunu eşidən Nərbala fikrə getdi.

- Xanım, xahiş eləyirəm beşcə dəqiqə burda dayanasan. Mən bu saat gəlirəm.

Nərbala çölə çıxıb tükü yandırdı. Quş o saat özünü yetirdi. Nərbala quşdan soruşdu:

- De görüm, o gülün tumundan tapıb gətirə bilərsənmi?

Quş dedi:

- Taparam.

Nərbala dedi.

- Səhər açılmamış atı mənə çatdırarsan. Üstündə də atın öz rəngində bir dəst ağ paltar, ağ papaq olsun.

Quş dedi:

- Baş üstə.

Nərbala dedi:

- Bir də mənə iki dəstə solmayan güldən gətirərsən.

Quş dedi:

- Baş üstə.

Quş uçub getdi. Nərbala içəriyə qayıdıb qıza dedi:

- Xanım, siz ki, bacılarınız kimi dikbaş, başqalarını ələ salan, özünü hamıdan uca tutan deyilsiniz; mən ömrümün axırına qədər sizinlə dost olacağam. Hər bir arzunuzu yerinə yetirəcəyəm. Arxayın ola bilərsiz. Sabah onlar gül tapacaq.

Qız bağbana baxdı, bağban qıza, amma heç biri bir söz demədi. Qız çıxıb getdi. Nərbala ilə bağban da yerlərinə girib yatdılar.

Səhərə yaxın quş iki dəstə gül, bir də atı gətirdi. Nərbala ağ paltarı geydi, ağ papağı qoydu, atı mindi gülləri də götürüb birbaş padşaha dediyi dağın dalına getdi. Səhər açıldı. Nərbala baxdı ki, budu vəzirin oğlu ilə vəkilin oğlu gəlirlər. Tez üzünü ağ bir dəsmalla örtdü ki, tanımasınlar. Atı minib yavaş-yavaş onlara tərəf sürməyə başladı. Oğlanlar baxdılar ki, Nərbalanın dediyi kimi, ağ paltarlı, ağ atlı adam gəlir. Özü də əlində həmin güldən iki dəstə gətirir. Bir istədilər hücum eləyib onu vurub öldürsünlər, atı da, gülü də alsınlar.

Amma bir ata, bir də oğlana baxıb qorxdular. Salam verib soruşdular ki:

- O gülü hardan alıbsan?

Nərbala səsini dəyişib dedi.

- Bu gül mənim bağımda bitir.

Dedilər:

- Neçiyə deyirsən, sat alaq.

Nərbala dedi:

- Satmıram.

- Dedilər.

- Onda elə-belə ver. Xəstəmiz var. Həkimlər bu gülü dərman deyiblər.

Nərbala dedi:

- Indi ki, xəstəniz var, verərəm. Amma əvəzində hərənizin qoluna bir damğa basmalıyam.

Oğlanlar gördülər ki, ayrı yolla gülü ala bilməyəcəklər. Fikirləşdilər ki, paltarın altında bizim qolumuzda damğa olduğunu kim görəcək. Razılaşdılar, Nərbala hərəsinin sağ qoluna bir damğa basıb, gülləri onlara verdi, özü də atı vurub bir dəqiqədə gözdən itdi. Elə ki, təpənin dalına yetişdi, atdan düşdü, paltarını dəyişib atı yola saldı, evə gəldi. Bir-iki saatdan sonra bütün şəhərə

səs yayıldı ki, vəzirlə vəkilin oğlanları böyük igidlik göstəriblər. Amma qollarındakı damğadan heç kəsin xəbəri olmadı. Elə həmin gün vəzirlə vəkil padşahın yanına gəldilər. Vəzir baş əyib dedi:

- Padşah sağ olsun, mənim oğlum çox böyük igidlik göstərdi. Sənin böyük qızının istədiyi gülü tapıb gətirdi. Indi mən elçiliyə gəlmişəm. Əgər icazə versən, böyük qızını oğluma istərəm.

Vəzirdən sonra vəkil baş əyib dedi:

- Padşah sağ olsun, razılıq ver, ortancıl qızını da mənim oğluma nişanlayaq.

Padşah dedi:

- Sizin oğlanlarınız igid olduqlarını sübut elədilər. Mənim sözüm yoxdu. Ancaq gərək mənim qızlarımın üçünün də toyu birdən ola. Bir də gərək qızlar özləri deyələr ki, kimə getmək istəyirlər.

Padşah əmr elədi, sabahısı gün bütün əhali sarayın qabağına yığışdı. Qızların üçü də balkonda oturdu. Hərəsinin də əlinə bir alma verdilər. Tapşırdılar ki, kim hansı oğlanı istəyirsə, almanı ona atsın. Sonra oğlanlar bir-bir gəlib balkonun qabağından keçməyə başladı. Kiçik qız almanı atmadı ki, atmadı. Bütün oğlanlar keçib qurtardı. Padşah axırda adam göndərdi ki:

- Qız niyə almanı atmır?

Qız cavab verdi ki:

- Mənim gözlədiyim hələ gəlməyib.

Ha fikirləşdilər kim qalıb, tapa bilmədilər. Çünki şəhərin oğlanlarının hamısı gəlib keçmişdi. Axırda adamlardan biri dedi:

- Bağbanın nəvəsi Nərbala qalıb.

Adam göndərdilər, o da gəldi. Onu əslində elə-belə çağırmışdılar. Heç kəs inanmırdı ki, padşahın qızı ona alma ata. Amma iş başqa cür oldu. Nərbala gəlib balkonun qabağından keçəndə, kiçik qız əlindəki almanı ona atdı. Bunu görən padşah cin atına mindi, dedi:

- O ki, bu gədəyə alma atdı, daha mənim qızım deyil.

Özünü də elə güclə gədəyə verəcəyəm. Qoy hamı ona gülsün.

Padşah böyük qızı ilə ortancıl qızına çoxlu cehiz verdi, yaxşı toy elədi, kiçik qıza isə heç bir şey-verməyib bağbanın evinə göndərdi. Bağban, Nərbala, bir də kiçik qız bir evdə yaşamağa başladılar. Amma qız igid qız idi. Özü heç fikir eləmirdi, bağbanı, Nərbalanı da fikir eləməyə qoymurdu.

Bu işin üstündən bir müddət keçdi.

Bir gün padşah bərk azarladı. Boğazı elə şişdi ki, heç bir şey keçmədi. Nə qədər dərman verdilər, kömək eləmədi. Axırda məşhur bir həkim tapıb gətirdilər. Həkim dedi:

- Sən gərək bir neçə gün ov ətinin suyunu içəsən.

Kürəkənlər bunu eşitdilər. Atlarını minib ov axtarmağa getdilər. Bu əhvalatı Nərbala da eşitdi. Quşun tükünü yandırdı. Ağ paltarı geydi, atı mindi, aslan yanında, quş başının üstündə özünü yetirdi bir bulağın başına. Atdan düşdü, heyvanlara dedi:

- Nə qədər bu ətrafda ov varsa hamısını yığın buraya.

Bir saatın içində bulağın başı doldu ovla. Bir tərəfdən at, bir tərəfdən aslan, bir tərəfdən quş, bir tərəfdən də oğlan özü dörd tərəfi kəsdilər.

Kürəkənlər hər yeri axtarıb, əldən-ayaqdan düşdülər, ov tapa bilmədilər. Geri qayıdanbaş baxdılar ki, bulağın başı doludu ovla. Oxlarını düzəldib vurmaq istəyəndə Nərbala bu tərəfdən çıxdı, dedi:

- Nə eləyirsiniz! Görmürsüz onların sahibi burdadı!

Kürəkənlər baxdılar ki, həmin ağ paltarlı oğlandı, dedilər:

- Onun nə sahibi.

Nərbala dedi:

- Onda bir balaca dayanın, bu saat görərsiniz ki, onların sahibi var, ya yoxdu.

Bunu deyib Nərbala kəmənd atdı, ovlardan birini tutdu. Sonra bir fit verdi. Bir tərəfdən quş, bir tərəfdən at, bir tərəfdən də aslan onun yanına gəldilər. Onlar hamısı qaçıb getdilər. Kürəkənlər işi belə görəndə lap məəttəl qaldılar. Nərbala gülüb dedi:

- Mən bilirəm ki, sizin qayınatanız bərk xəstədi. Həkimlər də ona ov ətinin suyunu dərman deyiblər. Bax, bu ovu mən sizin üçün tutmuşam. Amma şərtim var. Indi də hərənizin sol qoluna bir damğa basacağam.

Kürəkənlər baxdılar ki, ayrı çarə yoxdu. Razı oldular. Nərbala onların qollarına damğa basdı, sonra dedi:

- Ancaq ovun başını kəsib götürəcəyəm.

Kürəkənlər buna da razı oldular. Nərbala ovun başını kəsdi. Kəsə-kəsə deyirdi:

- Adı başına, dadı başına.

Nərbala elə ki, işini qurtardı, ovun kəlləsini götürdü, atı mindi, aslan yanında, quş da başının üstündə beş dəqiqənin içində gözdən itdi.

Kürəkənlər ovu gətirib gəldilər. Arvadları tez ovu bişirdilər, suyunu padşaha verdilər. Amma bu dərman padşaha heç bir kömək eləmədi. Ona görə kömək eləmədi ki, Nərbala ovun başını kəsəndə demişdi: "Adı başına, dadı başına". Ovun da bütün dadı başına keçmişdi.

Nərbala elə ki, təpənin dalına çatdı, yenə də heyvanları buraxdı, paltarını dəyişdi, ovun kəlləsini də götürüb evə gəldi. Bağbanla qız kəlləni görüb soruşdular:

Nərbala dedi:

- Padşahın kürəkənləri ov vurdular, başını kəsib atdılar, mən də götürüb gətirdim, bişirəsiniz.

Bağban qıza baxdı, qız bağbana baxdı, şübhələndilər, amma bir söz demədilər. Oğlan qıza dedi:

- Əgər istəyirsən ki, atan yaxşı olsun, o kəlləni bişir, suyundan bir qab ona ver.

Qız kəlləni bişirmək istəmədi. Çünki atası onun üzünə heç baxmaq istəmirdi. Onun gətirdiyi xörəyi yeyərdimi? Özü də ki, xörək də bir xörək ola. O biri kürəkənlərin vurduqları ovun kəlləsinin suyu.

Bağban dedi:

- Qızım, o nə deyir, eləcə də elə, o bir şeyi bilməsə deməz,

Qız kəlləni bişirdi, suyundan bir qab atasına apardı. Amma qorxudan özü onun yanına girə bilmədi. Bir qoca dayəsi var idi. Ona verib göndərdi. Padşah kəllənin suyundan bir qaşıq içdi, gözləri işıqlandı. Bir qaşıq da içdi, elə bil boğazı açılmağa başladı. Qabı ikiəlli tutub başına çəkdi, qurtarandan sonra qışqırdı ki:

- Bundan yenə də verin.

Dayə qaçıb kiçik qızın xörək qazanını götürüb gətirdi. Axşama qədər padşah kəllənin suyunu içib qurtardı. Səhər sapsağlam olub ayağa durdu. Bütün şəhərə səs yayıldı ki, kürəkənlərin vurub gətirdikləri ovun suyu padşahı sağaldıb. Padşah elə ki, sağaldı, dayəni yanına çağırdı:

- Sən o xörəyi hardan almışdın? Onun dadı başqa idi. Kürəkənlərimin vurduğu ovdan deyildi.

Dayə açıb əhvalatı danışdı. Padşah bircə kəlmə də olsun danışmadı. Əhvalat gizli qaldı. Kürəkənlər də ki, onsuz da lovğa idilər. Bu işdən sonra bir az da lovğalanmağa başladılar. Özlərini elə çəkirdilər ki, daha yerə göyə sığışmırdılar.

Bu işin üstündən bir müddət keçdi. Bir gün qasidlər xəbər gətirdilər ki, Döşgüvar padşah yenə də qoşun çəkib onların üstünə gəlir. Bütün əhali bir-birinə dəydi.

Çünki bu yerin əhalisi Döşgüvar padşahın davasını, zülmünü görmüşdü.

Padşah əmr eləyib vəzir, vəkili yığdı. Qoşun hazırlamağa başladılar. Üç gündən sonra Döşgüvar padşah qoşunu ilə gəlib şəhərin ətrafını tutdu, padşaha da belə bir məktub göndərdi:

- "Ey padşah, gəlib şəhərinin ətrafını tutmuşam. Bircə dəfə qoşuna əmr versəm, şəhərində daş daş üstündə qalmaz. Sənə üç gün möhlət verirəm. Mənim iki oğlum var, sənin iki kürəkənin. Birinci gün mənim Xanbala oğlum sənin böyük kürəkəninlə vuruşacaq. Ikinci gün Bəybala oğlum o biri kürəkəninlə vuruşacaq. Üçüncü gün mənim özüm sənlə vuruşacağam. Hansı tərəf basıldı, o tərəf təslim olmalıdı. Ya şərti qəbul elə, ya da şəhəri xarabaya çevirib yerində turp əkəcəyəm".

Padşah saray adamlarını çığırıb məktubu oxudu. Çarələri kəsilib şərti qəbul elədilər. Kürəkənlər hazırlaşmağa başladılar.

Səhər qoşunlar üz-üzə dayandı. Kürəkənlər geyinib getdilər. Nərbala kiçik qıza dedi:

- Get, atana de, mənə də bir at, bir qılınc versin. Düzdü, mən gücsüzəm, dava-zad görməmişəm, amma heç olmazsa qoşunun içində dayanıb qaraltı elərəm ki...

Qız getmək istəmədi. Çünki sarayda hamı ona, bir də Nərbalaya çox pis nəzərlə baxırdı. Həmişə ələ salıb gülürdü. Bacıları ilə yeznələri də ki, Nərbalanın adını dəvə balası qoymuşdular. Bilirdi ki, indi də gedib at istəsə, hamı ona güləcək. Odur ki, getmək istəmirdi. Amma Nərbala əl çəkmədi. Qız axırda durub atasının yanına getdi.

- Ata, əmr elə, bir atla, bir qılınc də bizə versinlər.

Padşah gülüb dedi:

- Nə var? Yoxsa dəvə balası qeyrətə gəlib.

Qız hirslənib, dedi:

- Ata, niyə bizi ələ salırsan?

Padşah da hirslənib cavab verdi:

- Sən gərək elə oğlana ərə gedəydin ki, indi qoşunun qabağında dayana idi. Amma kimə getdin, bir gədənin birisinə. Bacılarını görürsən?

Qız dedi:

- Nə olar. Bütün bacılar ağıllı olmaz, bütün kürəkənlər də igid olmaz.

Padşahın ürəyi kövrəldi. Bir də onun gətirmiş olduğu xörək yadına düşdü. Dedi:

- Bir mənə de görüm, sən onda xörəyi haradan alıb mənə göndərmişdin?

Qız əhvalatı danışdı:

- O biri kürəkənlərin ov vurmuşdular, başını kəsib atmışdılar. Nərbala götürüb evə gətirmişdi. Mən xörəyi həmin o kəllədən bişirmişdim.

Padşah fikrə getdi, dedi:

- Yaxşı, bəs sənin hardan ağlına gəldi ki, ondan mənə göndərdin?

Qız dedi:

- Nərbala mənə dedi ki, əgər atanın sağalmasını istəyirsənsə, o xörəkdən ona göndər.

Padşah daha heç bir söz demədi. Çağırıb tapşırdı ki, Nərbalaya bir at, bir də bir qılınc versinlər.

Qoşunun böyüyü gülmək üçün Nərbalaya bir axsaq yabı, bir də yarısı qırılmış bir qılınc göndərdi.

Bağban yabı ilə qılıncı görüb elə ucadan güldü ki, oğlan da, qız da qorxdular. Bağban dedi:

- Ay bala, ürəyini sıxma.

Nərbala cavab verdi:

- Ürəyimi niyə sıxıram? Gəl, görək.

Nərbala qabaqda, bağban da dalda yabının ipindən tutub meydana gəldilər.

Süpürgəçilər meydanı süpürdülər, təbil vuruldu. Döşgüvar padşahın tərəfindən Xanbala meydana çıxıb pəhlivan istədi. Bu tərəfdən də böyük kürəkən meydana çıxdı. Elə birinci vuruşda Nərbala bildi ki, Xanbala kürəkəni basacaq, odur ki, bağbana dedi:

- Sən burda dayan, mən bu saat gəlirəm.

Nərbala meydandan çıxdı, bir dalda yerə çəkilib tükü yandırdı. Quş hazır olub dedi:

- Nə olub, Nərbala?

Nərbala cavab verdi ki:

- Bu saat atı, bir də paltarımı mənə çatdır.

Beş dəqiqə keçməmiş hamısı hazır oldu. Nərbala atı mindi, təpənin üstünə qalxıb baxdı ki, Xanbala kürəkənin qollarını bağlayır.

Xanbalanın adamları böyük kürəkəni əsir eləyib apardılar. Döşgüvar padşahın qoşunu şadlıq təbili çaldı.

Xanbala lovğa-lovğa meydanı gəzib, pəhlivan istəməyə başladı,

Nərbala atı vurdu. Bir də baxdılar ki, bir ağ paltarlı, ağ atlı adam budu ildırım kimi gəlir.

Nərbala meydanı bir dəfə dolanıb Xanbalaya dedi:

- Xanbala, lovğalanma. Padşahın kürəkəni mənəm. Sənin indi tutub əsir elədiyin mənim qullarımdan biridi. Inanmırsan, əmr elə, onun qollarındakı damğalara baxsınlar.

Nərbalanın sözlərini hər iki tərəf eşitdi. Bu tərəfdə də hamı məəttəl qaldı ki, görəsən bu kimdi?

Döşgüvar padşah isə o saat əmr elədi. Əsir tutulmuş böyük kürəkənin qollarına baxdılar. Gördülər ki, hər iki qolunda damğa var. Elə zənn elədilər ki, əsil kürəkən doğrudan da meydandakı oğlandı, bu da onun quludu.

Təzədən dava təbili vuruldu. Xanbala ilə Nərbala vuruşmağa başladılar. Amma bu vuruşma çox çəkmədi. Nərbala elə birinci zərbədə Xanbalanı vurub atdan saldı, düşüb qollarını bağladı, padşahın qabağına gətirdi.

Padşah Nərbalanı tanıya bilmədi, çünki onun üzü örtülü idi. Nərbala Xanbalanı təhvil verib dedi:

- Padşah, ona heç bir şey eləməyib zindanda saxlarsan. Sabah keçər, ikinci gün keçər, üçüncü gün onu səndən istəyəcəyəm.

Sonra Nərbala atını Döşgüvar padşahın qabağına sürüb dedi:

- Padşah, dava qurtarana qədər mənim nökərim sizdə qalacaq. Başına bir iş gəlsə, özündən küs.

Bunu deyib Nərbala atını vurdu, getmək istədi. Elə bu vaxt Xanbalanın qardaşı Bəybala ona bir ox atdı. Ox Nərbalanın qoluna dəydi. Nərbala dönüb dedi:

- Mən bilirəm, bu vaxt oxu atan Bəybaladı. Mən də beləcə oxla onu vura bilərdim. Amma mən namərd deyiləm. Sabah meydanda görüşərik.

Nərbala geri qayıdıb bu biri tərəfə gəldi. Üzünü camaata tutub dedi:

- Qorxmayın, sabah bu vaxt mən yenə gələcəyəm.

Padşah baxdı ki, Nərbalanın qolundan qan axır. Tez öz dəsmalını çıxarıb onun yarasını bağladı. Nərbala atı vurdu. Bir dəqiqənin içində gözdən itdi. Elə ki, təpənin dalına keçdi, piyada bağbanın yanına qayıtdı.

Bağban dedi:

- Oğlum, gördün nə oldu?

Nərbala dedi:

- Hamısını gördüm. O həmin oğlandı ki, solmayan gülü mənə vermişdi.

Camaat geri qayıtdı. Bağbanla Nərbala da qayıdıb evə gəldilər. Əhvalat bütün şəhərə yayıldı. Amma heç kəs bilmədi ki, ağ atlı kim imiş.

Gecə yatdılar. Nərbalanın yarası onu incitməyə başladı. Bağbanla qız yuxudan oyandılar. Baxdılar ki, Nərbala yuxuda zarıldayır. Qız yorğanı qaldıranda baxdı ki, Nərbalanın qolu bir dəsmalla bağlıdı, dəsmal da qanlıdı. Əhvalatı bağbana dedi. Bağban Nərbalanı oyatdı. Nərbala baxdı ki, işin üstü açılıb dedi:

- Səhər meydanda bir əsgərin nizəsi qoluma batdı.

Nərbalanın yarasını açdılar. Dərman qoyub təzədən bağladılar. Nərbala yatdı. Qız da dəsmalı yuyub həyətdəki ağacın budağına sərdi.

Səhər açıldı. Hamı durdu. Bağbanla Nərbala da çolaq yabını götürüb meydana getdilər.

Padşah həyətdən keçəndə gördü ki, dünən meydanda vuruşan oğlanın qoluna bağladığı dəsmal kiçik qızgilin qapısında ağaca sərilib. Qızı çağırıb soruşdu:

- Bu nə dəsmaldı?

Qız dedi:

- Dünən meydanda bir əsgərin nizəsi Nərbalanın qolunu yaralayıb. Bilmirəm, hardansa bu dəsmalı tapıb qoluna bağlamışdı.

Padşah fikrə getdi. Amma bir qərara gələ bilmədi. Meydanda döyüş təbili vuruldu. Padşah meydana yollandı.

Bu gün də Bəybala ilə ikinci kürəkən meydana çıxdılar. Yenə də Nərbala bir bəhanə ilə bağbanı orada qoyub özü təpənin dalına keçdi. Baxdı ki, heyvanlar onu orada gözləyirlər. Geyinib atı mindi, hazır dayandı. Yarım saat keçməmiş Bəybala ikinci kürəkəni atdan vurub yıxdı, qollarını bağladı. Nərbala atı mahmızladı. Yenə də baxdılar ki, ağ atlı oğlan budu yel kimi gəlir.

Nərbala özünü meydana yetirib dedi:

- Mən bu gün də sizi aldatdım. O tutduğunuz da mənim qulumdu. Inanmırsız, qollarındakı damğalara baxın.

Baxıb gördülər ki, bu oğlanın da qolları damğalıdı. Yenidən döyüş təbili vuruldu. Nərbala Bəybalanı da tutdu, qollarını bağladı, gətirib padşaha təhvil verdi.

Amma bu dəfə Nərbala alnından yaralanmışdı. Dəsmal əhvalatı padşahın yadına düşdü. Tez cibindən təzə bir dəsmal çıxarıb onun alnını bağladı. Nərbalagil evlərinə gəldilər.

Nərbala alnının qanını yuyub təmizlədi, dərman vurdu, dəsmalı bir tərəfə atıb yatdı. Səhər qız bunu da yuyub ağacın budağına sərdi. Padşah gedəndə qəsdən yolunu bu tərəfdən saldı. Baxdı ki, həmin dünənki dəsmal yenə də yuyulub kiçik qızgilin qapısındakı ağaca sərilib. Qızdan soruşdu:

- Bu nə dəsmaldı?

Qız Nərbalanın dediyi kimi cavab verdi:

- Əsgərlərdən birinin nizəsi Nərbalanın alnını cızmışdı. O da alnını bu dəsmalla bağlamışdı. O dəsmaldı yumuşam.

Padşah qaldı məəttəl ki, görəsən bu necə sirrdi. Ancaq yenə də məsələni aydınlaşdırmağa vaxt tapa bilmədi. Çünki bu gün onun öz növbəsi idi. Döşgüvar padşahla vuruşmalı idi.

Döyüş təbili vuruldu. Döşgüvar padşah meydana gəlib padşahı döyüşə çağırdı. Padşah elə atına minmək istəyirdi ki, ağ atlı oğlan yenə də göründü. Özünü Döşgüvar padşaha yetirib dedi:

- Sənin tərəfindən hələ mənə üstün gələn adam olmayıb. Qanuna görə sən qabaqca məni basmalısan. Buyur.

Döşgüvar onsuz da onun əlindən yanıqlı idi. Elə qəzəblənmişdi ki, ağzından köpük daşlanırdı. Qılıncını çəkib Nərbalaya hücum etdi. Nərbala kəməndi atıb yarı yolda onun boğazına keçirdi, çəkib atdan saldı. Hər iki tərəfin adamları əl vurub "sağ ol" dedilər, səs göyə ucaldı.

Nərbala onu yerdən qaldırdı, əllərini bağladı. Sonra ata minib uca səslə hər iki tərəfə dedi:

- Dava qurtardı. Sabah bu vaxt, bax elə buradaca danışıq aparacağıq. Özü də danışığı mən aparacağam.

Hər yerdən əl vurdular. Nərbala üzünü Döşgüvar padşaha tutub dedi.

- Əmr elə ki, sabah tutduğunuz iki nəfəri buraya gətirsinlər. Bir də mən eşitmişəm ki, sənin bir dəvəçi qızı arvadın var imiş. O da gərək sabah burda olsun.

Döşgüvar dedi:

- Mən nə bilim indi o hardadı!

Nərbala dedi:

- Bilmirəm, sabah o burda olmasa, sənin də, oğlanlarının da başını öz əllərimlə kəsəcəyəm.

Sonra Nərbala üzünü o biri padşaha tutub dedi:

- Sənin tərəfindən də sabah sən özün, vəzirin, vəkilin, üç qızın, bir qoca bağbanın burda olmalıdırlar. Əmr elərsən, bu padşahın əsir düşmüş oğlanlarını da gətirərlər.

Nərbala sözlərini qurtarıb atı çapdı. At bir dəqiqənin içində gözdən itdi.

Hər iki tərəf sabahın açılmasını gözlədilər. Nərbala da evlərinə gəldi. Bağban dedi:

- Ay bala, o oğlan kimdisə, çox böyük igidlik elədi, qırğının qabağını aldı. Özü də sabah bizi meydana çağırtdırıb.

Nərbala dedi:

- Yaxşı-yaxşı qulaq asarsınız, sonra gəlib mənə də danışarsınız.

Gecəni yatdılar. Səhər meydan süpürüldü. Hər iki tərəfin adamları meydana toplaşdılar, ağ atlı igidi gözləməyə başladılar.

Düz dünənki vaxt çatanda Nərbala ağ geyimdə, ağ atın üstündə meydanın ortasına gəldi. Işarə elədi. Qolları bağlı Xanbalanı, Bəybalanı və Döşgüvar padşahı gətirib bir tərəfdə oturtdular.

Bu tərəfdən də qolları bağlı kürəkənləri gətirib oturtdular. Sonra padşah, vəzir, vəkil, qızlar və bağban gəldi. Nərbalanın anasını da gətirdilər. Nərbala gözaltı anasına baxıb gördü ki, arvad qocalıb, arıqlayıb, bir dəri, bir sümük qalıb.

Nərbala atını meydanın ortasına sürdü ki, hamı onu görsün, səsini eşitsin. O, uca bir səslə dedi:

- Mən bilirəm ki, hamı mənim kim olduğumu bilmək istəyir.

Hər yerdən dedilər:

- Düzdü, bilmək istəyirik.

Nərbala dedi:

- Burda oturanlardan ikisi məni elə bu geyimdə tanıyır. Onlar kimdirlərsə, dursunlar ayağa.

Heç kəs durmadı. Nərbala dedi:

- Utanmaqdan keçib. Əgər durmasalar mən özüm boğazlarından yapışıb qaldıracağam.

Kürəkənlər bir-birinə baxdılar. Istər-istəməz ayağa durdular. Nərbala üzünü padşaha tutub dedi:

- Bunlar sənin kürəkənlərindi. Sən ona görə qızlarını bunlara verdin ki, bunlar qəhrəmanlıq göstərib solmayan gülü tapıb gətirmişdilər. Qoy hamı eşitsin ki, o gülü onlara mən vermişdim. Əvəzində də hərəsinin sağ qoluna bir damğa vurmuşdum. Inanmırsız, baxın!

Açıb gördülər ki, doğrudu. Nərbala padşaha dedi:

- Sən azarlayanda bunlar ikinci dəfə qəhrəmanlıq göstərdilər. Gedib sənin üçün ov tutub gətirdilər. O ovuda bunlara mən tutub vermişdim. Əvəzində də sol qollarına damğa vurmuşam. Inanmırsız, baxın!

Açıb gördülər ki, bu da doğrudu. Nərbala dedi: - Hamı gördü. Əgər mən olmasaydım, onlar da əsir getmişdi, sən də.

Hamı dedi:

- Düzdü.

Nərbala dedi:

- Qoy indi hamı görsün ki, mən kiməm.

Bunu deyib Nərbala üzünü açdı, üstdən geymiş olduğu ağ paltarı çıxartdı. Hamı baxdı ki, Nərbaladı. Bütün meydandakılar əl çaldılar. Kiçik qızla bağban bir-birini qucaqlayıb sevindiklərindən uşaq kimi ağladılar. Nərbala dönüb Döşgüvargilə tərəf gəldi, dedi:

- Məni tanıyırsınızmı?

Nə Döşgüvar, nə Xanbala, nə də Bəybala Nərbalanı tanıya bildilər. Nərbala anasının qabağına gedib dedi:

- Sən necə? Məni tanıya bilirsənmi?

Arvad ona baxdı, gözlərini yumdu. Sonra yenidən gözlərini açıb bir də baxdı.

- Nərbala! Oğlum!.. - deyib özünü onun üstünə atdı. Onlar qucaqlaşdılar, öpüşdülər, sonra Nərbala soruşdu:

- Ana, de görüm bu müddətdə sən harda idin?

Anası dedi:

- Döşgüvar padşah səni dərvişə verdikdən sonra, məni də zindana saldı. Dünən axşam məni ordan çıxarıb gətiriblər.

Döşgüvar padşah onun Nərbala olduğunu bilən kimi durub yüyürdü, dedi:

- Nərbala! Oğlum!

Nərbala onun yaxasından tutub yerində oturtdu, dedi:

- Mən sənin oğlun olsaydım, məni qurban verməzdin.

Sonra üzünü camaata tutub dedi:

- Bunlar da, bu birilər də, - o, Döşgüvargili və o biri padşah tərəfi göstərdi, - məni həmişə ələ salardılar. Adıma dəvə balası deyərdilər. Ona görə ki, mənim bu anam xan qızı, bəy qızı deyildi, yoxsul bir dəvəçinin qızı idi. Buna görə də Döşgüvar o biri oğlanlarını məndən üstün tutdu, məni dərvişə verdi, anamı da zindana saldı. Bu biri padşah isə öz kiçik qızını evindən qovdu. Nədi, nədi,

qızı məni sevirdi. Məni oğulluğa götürdüyünə görə qoca bağbanı çox incitdilər. Indi bunların hamısı mənim əlimdə əsirdi. Mənim bunları öldürməyə haqqım var. Amma öldürməyəcəyəm. Bunların hərəsinin alnına bir damğa vuracağam. Qoy bütün aləm bilsin ki, bu damğaları kim vurub və nə üçün vurub.

Sonra üzünü bağbana tutub dedi:

- Baba, dur, bunların hərəsinin alnına bir damğa vur.

Bağban durdu. Iki padşahın, iki vəzir, vəkilin, iki şah oğlunun, iki şah qızının, iki kürəkənin alnına qara damğa vurdu. Sonra Nərbala hər iki tərəfə dedi:

- Camaat, mən, bax, o iki dağın arasındakı qalaçada yaşayacağam, kim sizə zülm eləsə, mənə deyərsiz.

Nərbala sözünü qurtarıb anasını, bağbanı, bir də kiçik qızı götürüb qalaçaya getdi.

Deyirlər, nə qədər ki, Nərbala sağ idi, qorxudan heç kim yoxsullara zülm eləyə bilmirdi.

B A B A Y I Ə M I R

Belə rəvayət eləyiblər ki, Nuşirəvan adlı bir şah var idi. O əvvəllər çox zülmkar idi. Vəziri çox ağıllı, həm də rəhmdil bir adam idi. Padşaha da həmişə rəhmdil olmağı məsləhət görürdü.

Şahın sonu - züryəti yoxdu. Bir gün vəzirə dedi:

- Vəzir, mənim ömrümün çoxu getdi, azı qaldı. Ancaq bir kor qızım da olmadı ki, heç olmasa sonsuzluq adı üstümdən götürülsün.

Vəzir dedi:

- Qibleyi-aləm, el duası haqqın duasıdı. Əhalidən çox bəddua alıbsan. Indi yoxsullara, dul arvadlara, yetim uşaqlara rəhm əlini açıq elə. Qoy onlar sənə xeyir-dua versinlər. Bəlkə allahın da rəhmi gələ, sənə bir övlad kəramət eliyə.

Doğrudan da, şah o gündən yoxsullara, qocalara, qarılara rəhm eləməyə başladı. Kasıb-kusubun dərdinə qaldı, vergiləri azaltdı. Hamı padşaha dua elədi. Allah da elin duasını eşidib ona bir qız övladı verdi. Qız nə qız, gözəllikdə ay-gün ona bərabər ola bilməzdi.

Padşah qızını çox sevirdi. Bir gün yuxuda gördü ki, şəhərin üzərinə o qədər qara qarğa tökülüb ki, günəşin qabağını qanadları ilə kəsiblər. Hər yer zülmət kimi qaranlıqdı. Qarğalar onun qızını yemək istəyirlər. O qızını bağrına basdı. Qarğalar onun gözünü, başını didib dağıtmağa başladılar. Az qalmışdı qarğalar onun qızını əlindən alıb parçalasınlar. Bu zaman üç böyük ağquş gəlib qarğaları qovdu. Yenə ayın, günəşin qabağı açıldı, günəş dünyanı münəvvər elədi. Şah yuxudan harasan qalxdı. Vəziri çağırtdırdı. Yuxusunu ona söylədi, düzgün yozmağı ondan tələb elədi. Vəzir rəml atmağı, yuxu yozmağı çox yaxşı bilirdi. Təbirixabı qoyub qabağına dedi:

- Ey qibleyi-aləm, bil, agah ol ki, sənin qızın həddbüluğa çatanda, namünasib bir adam sənin qızını almaq istəyəcək. Sən qızı o adama verməyəcəksən. O qoşun göndərəcək, dava eləyəcəksiniz. Sən məğlub olacaqsan, səni, qızını əsir alacaqlar. O qara qarğalar həmin padşahın qoşunlarıdı. Sonra sənin öz rəiyyətinin balalarından üç nəfəri gəlib sənin imdadına çatacaq. Həmin padşahın qoşununu məğlub edəcək, səni qızını əsirlikdən xilas eləyəcəkdir. Yenə öz taxt səltənətində əyləşəcəksən. O gündən sonra günü-gündən cah-cəlalın artacaq.

Şah dedi:

- Vəzir, sən mənə deyə bilərsənmi o üç nəfər qəhrəman hansı şəhərdə, ya hansı kənddə nə vaxt anadan olmuş ya da olacaqlar?

Vəzir uzun müddət rəmlin aşıqlarını cütləyib kitabın xanələrinə atandan sonra dedi:

- Qibleyi-aləm sağ olsun, rəml kitabının göstərdiyinə görə qəhrəmanların üçü də bu il paytaxtın on mənzilliyində olan bir şəhərdə dünyaya gələcəkdir.

Şah dedi:

- Vəzir, onlar dünyaya gələndə onları tanımaq mümkündürmü?

Vəzir dedi:

- Bəli, qibleyi-aləm, mümkündü. Çünki rəml kitabında qəhrəmanların nişanələri aydın surətdə yazılmışdır.

Padşah dedi:

- Onda xəzinədən çoxlu miqdarda qızıl götür, get həmin şəhərə. Bu ildə doğulan uşaqların hamısını qızılla bərabər al. Qəhrəmanları tanı, adlarını yaz gətir. Hər ildə onlar üçün xəzinədən pul göndər.

Vəzir tədarük gördü. Bir neçə nəfər də rəmdar, münəccim götürüb, həmin şəhərə getdi. Şəhər əhlinə xəbər verildi ki, hər kimin oğlu olsa, Nuşirəvan şahın vəzirinin yanına gətirsin. Uşağın adını vəzir özü qoyacaq. Uşağın ağırlığında da ata-anasına qızıl verəcək.

Bəli, hər kimin oğlu olanda gətirirdi vəzirin yanına. Vəzir, münəccimlər uşağın nişanələrinə baxır, adını qoyurdular. Uşağın ağırlığında qızıl çəkib ata-anasına verirdilər.

Qəhrəmanlardan biri anadan oldu, onu gətirdilər vəzirin yanına, rəml kitabında yazılmış nişanələrin hamısı onda zahir idi. Özü də bir yaşında uşaqdan böyük idi. Onun adını rəml kitabından tapıb Həmzə qoydular. Həmzənin ağırlığında qızıl çəkib ata-anasına verdilər. Həmzənin adına bir bazubənd düzəltdilər. Xəzinədə olan qiymətli lə`l-lərdən birini onun qoluna bağladılar. Verdilər dayəyə. Bir neçə gündən sonra qəhrəmanın ikincisi dünyaya gəldi. Onun da nişanələrinə baxdılar. Rəml kitabı ilə düz gəldi, adını da Müqbil qoydular. Ancaq vəzir, vəkillər çox gözlədilər, qəhrəmanın üçüncüsü gəlmədi. Il tamam olmuşdu, köhnə ilin axırıncı günü idi. Vəzir münəccimlərə dedi:

- Padşahın yanında yalançı olduq. Ilin tamam olmağına üç-dörd saat qalmışdır, qəhrəman da gərək üç nəfər ola idi.

Onlar fikirləşməkdə olsun, sizə kimdən xəbər verim, naxırçı Kamrandan. O çox kasıb idi. Bütün ömründə əzab-əziyyətdən başqa bir şey görməmişdi. Naxırı gətirib hər kəsənin malını öz qapısına ötürdü. Axırda yorğun-arğın, evinə gəldi. Arvadı dedi:

- A kişi, sən allah, yadımdan çıxıb su gətirməmişəm, get bir sənək su gətir.

Kamran ağacı götürüb dedi:

- Köpəyin qızı, xalqın arvadı oğlan doğur. Uşağının ağırlığında qızıl alır. Sən bir sənək su da gətirə bilmirsən?

Başladı arvadı döyməyə. Arvad dedi:

- A kişi, başına daş yağsın, gücünən doğmaq olmaz ki, məni niyə öldürürsən? Ay haray öldüm, vurma, sancı qarnımı doğradı. Kamran sənəyi götürüb suya getdi. Qayıdanda gördü qonşuların arvadları onlara yığılıblar. Arvadı yatır, yanında da yumruq boyda bir şey var. Ona diqqətlə baxanda gördü uşaqdı, ancaq üzü dırnağın sədəfi boydadı. Gözləri iynənin ulduzu kimi işıldayır. Başı fındıq böyüklükdə, barmaqları quş dırnağı kimidi. Öz-özünə dedi:

- Tutaq ki, mən bunu apardım? Onlar bunu neyləyələr? Əgər qızıl çəkib verəsi olsalar da, heç beş qızıl çəkməz?

Bir qədər fikirləşdikdən sonra çoxlu əskiyə bükdü. Yanında da daşdan, kərpicdən qoyub sarıdı, apardı vəzirin yanına, vəzir çox səbirsizliklə gözləyirdi. Gördü bir nəfər qapıdan boylanır.

Vəzir tez durub onun qabağına gəldi, dedi:

- Uşaq gətirmisən?

Kamran dedi:

- Hə də, yox da.

Vəzir dedi:

- Bax sənin uşağının başı fındıq boyda, üzü dırnağın sədəfi boyda, gözləri iynənin ulduzu qədərdi, barmaqları da quş dırnağı kimidir. Eləmi?

Kişi dedi:

- Bəli.

Vəzir söyündüyündən əskinin arasındakı daş, kərpicə də baxmadı. Onların hamısının yeddi ağırlığında qızıl çəkib verdi Kamrana. Kamran söyünə-söyünə qızılları götürüb evinə qaçdı.

Uşağı dayəyə verdilər. Adını da Babayiəmir qoydular. Vəzir dayələri çağırıb onlara uşaqların hamısını tapşırdı, ancaq Həmzənin, Müqbilin bir də Babayiəmirin haqqında dedi:

- Bunların başından bir tük əskik olsa, şah nəslinizi yer üzündən kəsdirəcək.

Sonra onlara bir ilin müddətində lazım olan hər tədarükü verib getdi. Gələn il bu zaman yenə özü gəlib uşaqları yoxlayacağını bildirəndən sonra çıxıb getdi.

Dayələr uşaqlara çox yaxşı baxırdı, ancaq Babayiəmir uşaqların hamısından artıq dayələri incidirdi. Hələ altı aylıq olmamışdı, bir dəfə onu Həmzənin yanında yatırtdılar. Sonra gördülər ki, Həmzənin bazubəndindəki lə`l yoxdu, Babayiəmirin də ovurdu şişdi. Dayələr nə qədər çalışdılarsa da, Babayiəmirin ağzını açа bilmədilər.

Üç gün ac qaldı. Gördülər ki, acından öləcək, ovurdunun şişən yerindən yardılar, gördülər Həmzənin bazubəndindəki lə`l onun ovurdundan çıxdı.

Uşaqların bir yaşları tamam olanda vəzir onları yoxlamağa gəlmişdi. Dayələrin hamısı vəzirə şikayət eləyib dedilər:

- Babayiəmir hamımızın canını boğazımıza yığıbdı.

Uşaqların yeddi yaşları tamam olanda vəzir gəlib onlara çərəkədən dərs vermək üçün bir molla tutdu. Ancaq Babayiəmir uşaqların hər birinə bir çalqı aləti qayırıb vermişdi, onlara cürbəcür hava çalmağı öyrədirdi. Mollanın canını boğazına yığmışdı. Molla dedi:

- Uşaqlar, çubuq, falaqqa gətirin!

Uşaqlar, çubuq, falaqqa gətirdilər. Babayiəmirin ayaqlarını falaqqaya qoyub o qədər vurdular ki, ayaqlarından qan töküldü. Ayağını falaqqadan açanda gülə-gülə gəlib oturdu, dedi:

- Molla əmi, sizə söz verirəm bir də şuluqluq eləmərəm. Dərsimi də yaxşı öyrənəcəyəm.

Cürbəcür suallarla mollanın başını qatdı, axşam qaranlığı düşdü, mollaxananın yaxınlığında bir bataqlı göl vardı. Gəlib ordan keçəndə mollaya bir badalaq vurdu, molla təpəsi üstə gölə düşdü.

- Ay aman, qoymayın, molla əmi öldü,- deyə hamıdan qabaq Babayiəmir özü onun əlindən tutdu, göldən çıxartdılar. Mollaxananın yanında bir dul arvad olurdu, mollanı gətirdi həmin arvadın evinə. Arvada dedi:

- Xala, bu Nuşirəvan padşahın mollasıdı. Yıxıldı palçığa. Sən buna bir yer sal yatsın. Həm də bunun paltarlarını yu, qurut. Molla əmi səxavətli adamdı, hörmətinin əvəzində sənə pul verər.

Arvad razı oldu. Babayiəmir mollaya paltarını soyunmaqda kömək elədi. Onu yatırdı. Arvad da mollanın paltarlarını yuyub qurtarmaqla məşğul oldu. Babayiəmir özünü mollanın evinə yetirdi, Mollanın arvadına dedi:

- Molla dostu, bilirsən nə var? Molla əmi sənin kimi gözəl, göyçək bir gəlini qoyub burda, gedib bir dul arvad alıbdı ki, sənin əlinə su tökməyə də yaramaz, ayağına bir az palçıq bulaşmışdı. Onu mahna elədi, onun yanına getdi. Hələ arsız-arsız qaranlıq qarışmamış yer saldırıb yatıbdı.

Arvadın yeddi qulluqçusu var idi. Hamısını çağırıb dedi:

- Hərəniz bir odun yarmaçası götürün gedək. Əgər Babayiəmirin dediyi düz olsa, o qədər vurarsınız ki, molla dildən düşər. Bir yarmaça da özü götürüb Babayiəmirin dalınca arvadın evinə gəldilər. Babayiəmir evi onlara göstərib özü qıraqda durdu. Arvad yorğan-döşəyin içində mollanı görən kimi döşədi nə döşədi!.. Yarımaçaların şappıltısı, mollanın bağırtısı ərşi-fələyə çıxdı. Onu o qədər döydülər ki, təmiz dildən düşdü. Axırda kənizlər çiyninə götürüb öz evinə gətirdilər. Molla düz üç ay yorğan-döşəkdə yatdı. Babayiəmir də uşaqlara hər gün çalıb oynamaq, oxumaq dərsi öyrədirdi.

Üç aydan sonra yenə istər-istəməz molla mollaxanaya gəldi. Uşaqları bir-bir çağırıb dərslərini soruşdu. Hərə bir iki kəlmə yadında qalandan danışdı. Babayiəmirdən xəbər alanda dedi:

- Rəhmətliyin oğlu, yalandan mahna eləyib gedib üç aydı evində yatıbsan, bildiklərim də yadımdan çıxıb gedibdi.

Molla çubuq-falaqqa istədi. Gətirdilər. Babanın ayağını yenə falaqqaya qoydu. O qədər döydürdü ki, ayağından qan axdı, ayağını falaqqadan açanda Baba gülə-gülə gəlib oturdu, dedi:

- Molla əmi, çox sağ ol, razıyam. Günahkaram, ona görə döydürürsən. Yoxsa başqalarını niyə döydürmürsən. Sənə söz verirəm ki, bir də şuluqluq etməyəcəyəm. Sənlə də dost olacağam. Mənə bir saat icazə ver.

Molla ona icazə verdi. O, düz xəzinədarın yanına getdi.

Xəzinədara dedi:

- Nuşirəvan şah bu pulları kimdən ötrü bura göndərmişdi?

Xəzinədar dedi:

- Sizdən ötrü.

Babayiəmir dedi:

- Hanı, indiyə qədər kimə bir abbası vermisiniz? Əlbət vəzir gələr, onda mən billəm, siz bilərsiniz.

Xəzinədar ona bir kisə qızıl verib dedi:

- Sənə qurban olum, sən haçan məndən pul istəmisən? Nə qədər pul lazım olsa, verərəm. Hələlik apar bunu xərclə.

Babayiəmir getdi bazara. Bir qədər behuşdarı aldı gəldi hamama, hamamçıya dedi:

- Nuşirəvanın mollası dedi ki, hamama heç kəsi buraxmasın, bu gün uşaqlar çiməcəklər.

Ordan mollanın yanına gəldi, dedi:

- Molla əmi, xəzinədar məni görüb dedi ki, özüm gələcəkdim, yaxşı ki, səni gördüm, mollaya deynən tez uşaqları hamama aparsın, vəzir uşaqları görməyə gələcəkdir.

Molla vəzirin adını eşidən kimi uşaqlara dedi:

- Durun, durun gedək çimək.

Gəldilər hamama, hamı soyunub çimməyə başladı. Babayiəmir mollanı uzandırıb sürtmək mahnası ilə behuşdarını onun burnunun qabağına tutaraq onu yatırtdı. Çıxıb paltarını geyindi. Mollanın paltarını yığışdırıb gətirdi mollanın evinə, dedi:

- Dostu Nuşirəvan padşah molla əmimə bir dəst paltar göndərib ki, gün kimi yanır. Odur ki, köhnə paltarı evə göndərdi. Bir də tapşırdı ki, mən bu gün bir ölünün namazını səhv qılmışam. Bəlkə qaranlıq düşəndə o xortlayıb gəldi. Onu evə qoymasınlar. Evə girsə, gözümüzün ağı-qarası bir oğlumuz var onu boğub öldürəcək.

Mollanın arvadı kənizləri bir yerə yığıb dedi:

- Qızlar qaranlıq düşəndə bir ölü xortlayıb gələcək. Amandı, onu evə qoymayın. Həyət qapısını kəsin, içəri soxulanda başını it başı kimi əzin.

Babayiəmir bir ülgüc; bir dəst də ağ tuman-köynək alıb hamama qayıtdı. Mollanın bığın, saqqalın, qaşın tərtəmiz qırxdı. Sonra ayıltdı. Qaranlıq düşmüşdü. Uşaqların da hamısı çimib getmişdi. Bir molla, bir də Baba qalmışdı.

Molla gördü ki, paltarı yoxdu, dedi:

- Baba, mənim paltarım yoxdu. Bığım, saqqalım da tökülübdü.

Babayiəmir dedi:

- Molla əmi, yəqin ki, xına pis xına imiş. Paltardan da xəbərim yoxdu, yəqin uşaqlar elə hesab ediblər ki, təzə paltar geyibsən, köhnəni də burada qoyubsan. Onlar da aparıb evinizə veriblər. Mən özümə bir dəst tuman-köynək almışam, bunları geyin, qaç evə. Qaranlıqdı, kim səni görəcək?

Molla əlacsız qalıb tuman-köynəyi geyindi. Düz evinə qaçdı. Həyət qapısından içəri soxulmaq istəyəndə kənizlər əllərində ağac mollanın üstünə töküldülər, di vur ki, vurasan... Axır nəfəsində molla dedi:

- Mən mollayam, məni Baba bu hala salıbdı.

Molla üç ay da yatdı. Dava-dərman... molla yenə dirildi. Babayiəmirin qorxusundan mollaxanaya gələ bilmirdi. Vəzir yenə uşaqlara baxmağa gəlmişdi. Molla Babayiəmirdən şikayət elədi. Ancaq Vəzir onu məcbur eləyib dedi:

- Əgər başqa uşaqlardan olsa, qovmaq olardı. Axı Baba üç nəfər qəhrəmanların biridi.

Molla yenə çarəsiz mollaxanaya gəldi. O, həm Babadan qorxurdu, həm də ona kin bəsləyirdi. O bir-bir uşaqlardan dərsini soruşdu. Hərə bir-iki kəlmə yadında qalandan deyib yaxasını mollanın əlindən qurtardı. Növbə Babayiəmirə yetişəndə o dedi.

- Molla əmi, axı sən mənə nə öyrədibsən ki, mən sənə dərs danışım!

Molla:

- Çubuq, falaqqa gəlsin,- dedi.

Yenə babanın ayağı falaqqaya qoyuldu. Əvvəlkilərdən daha möhkəm döyüldü. Ancaq Babayiəmir heç bir söz demədi.

Bir qədər oturandan sonra, icazə alıb düz xəzinədarın yanına getdi, dedi:

- Indi de görüm səndən vəzirə şikayət eləyim, yoxsa eləməyim?

Xəzinədar yalvardı.

- Baba, sənə qurban olum, sən nə istəyirsən mən hazır eləyim, daha şikayət nəyə lazımdı.

Babayiəmir dedi:

- Onda, filan bağa sabah aşpaz göndərərsən, yağ, düyü verərsən, yemək-içmək düzəltdirərsən. Mən molla əmini, bütün uşaqları oraya qonaq çağıracağam.

Xəzinədar "baş üstə" dedi. Sabah molla gəlib oturanda Babayiəmir dedi:

- Molla əmi, oturma, filan bağda vəzir qazanları asdırıb, plov bişib gözləyirlər.

Plov adı eşidəndə molla ayağa durub, düşdü uşaqların qabağına. Bağa yetişəndə doğrudan da, zə`fəranlı plovun iyi adama ləzzət verirdi. Baba mollanı başda oturtdu; plov gəldi, yedilər, içdilər, kefləri kökəldi. Babayiəmir dedi:

- Molla əmi, bax bu qazanların hamısı bizə baxır, gəlin bir az oynayaq, acaq yenə yeyək.

Həmzə dedi:

- Baba, nə oynayaq?

Baba cibindən bir aşıq çıxarıb dedi:

- Bəy-gizir oynayaq.

Hamı razı oldu. Molla aşığı atdı bəy düşdü, Həmzə atanda gizir düşdü. Baba oğru düşdü. Molla fürsətdən istifadə edib əmr elədi Babaya yüz qamçı vurdular. Oyun qızışdı, aşığı atdılar, indi də Baba bəy düşdü, Müqbil vəzir düşdü, molla oğru düşdü. Babayiəmir Müqbilə dedi:

- Molla əminin əmmaməsini aç, bir ucunu onun boğazına bağla, bir ucunu da o hündür budaqdan keçir, gətir mənə ver.

Müqbil əmri yerinə yetirdi. Uşaqları çağırıb "çəkin" dedi. Uşaqlar çəkəndə mollanın ayaqları yerdən üzüldü, göydən asılı qaldı.

Baba qurşağın əlindəki ucunu ağacın kökünə sarıdı. Uşaqlara dedi:

- Siz çalın, molla əmi oynasın.

Uşaqlar çaldı, yoruldu, gəlib mollanı açıb yerə qoyanda gördülər molla ölübdü. Həmzə dedi:

- Baba, evin yıxılsın, mollanı niyə öldürdün? Indi hara gedək?

Baba dedi:

- Uşaqlar, siz hamınız gedin öz evlərinizə. Həmzə, Müqbil, siz də mənim dalımca gəlin.

Babayiəmirgil şəhərin kənarında görünən dağa getdilər. Orada bir mağara var idi. Mağaraya girib gizləndilər. Bir gün, bir gecə orada qaldılar. Həmzə dedi:

- Baba, çox acmışam. Bir qədər çörək tapa bilərsənmi?

Babayiəmir onları orada qoyub sübh vaxtı mağaradan çıxdı, dağın ətrafında dolanırdı, gördü bir qoca kişi namaz qılır. Yavaş-yavaş gəlib onun ətəyindən tutdu. Gözlədi, qoca namazını qılıb qurtarandan sonra, Babayiəmir xəbər aldı:

- Sən kimsən? Bu zaman burada nə gəzirsən?

Kişi:

- Mənim adım Xızrdı, - dedi.

Baba onun ətəyindən bərk-bərk yapışıb dedi:

- And olsun allaha, səni buraxan deyiləm. Onu çəkə-çəkə mağaranın qapısına gətirdi, - Ay Həmzə, ay Müqbil, bura gəlin, Xızrı tutmuşam.

Həmzə, Müqbil mağaradan çıxıb onların yanına gəldilər.

Baba dedi:

- Ay Xızr, yaxşı yerdə əlimizə keçdin. Bax bu Həmzə dadaşıma nə verirsən?

Xızr dedi:

- Bax, bu qılıncı ona verirəm, nə qədər ki, bu qılınc ondadı, heç kəsin ona gücü çatmaz, axırda sahibqıran olar.

Babayiəmir dedi:

- Bəsdir. Bəs Müqbilə nə verirsən?

Xızr dedi:

-- Ona da bu ox-yayı verirəm. Nə qədər ki, əlindədi, heç kəs ona bata bilməz, axırda dünya tirəndazı olar.

- Onunku da bəsdi. Bəs mənə nə verirsən?

Xızr dedi:

- Al, sənə də bu camı verirəm, suyunan ya torpaqnan doldurub başına töksən, hansı cildə, hansı sifətə istəsən düşərsən.

Babayiəmir dedi:

- Yox, ya Xızr, bu azdı, mənə daha nə verirsən?

Xızr dedi:

- Al bir də bir şədə verirəm sənə. Bir padşahın xəzinəsini, qoşununu, imarətini bu şədəyə yığıb büksən, bir alma boyda olar. Istədiyin yerə apararsan. Açanda yenə hər şey əslində olduğu kimi olar.

Babayiəmir dedi:

- Bu da azdı, daha nə verirsən?

Xızr dedi:

- Al, sənə bir cüt də çəkmə verirəm, ayağına geyib yeddi mayallaq vursan, bu dünyanın hər tərəfini gəzib dolanarsan, istədiyin yerə bir anda gedərsən. Ancaq çəkmələrin dabanı yırtılanda öləcəksən.

Babayiəmir dedi:

- Onda gərək bu çəkmələrin dabanına öz əlinlə elə bir nal vurasan ki, yüz ilə də yırtılmaya.

Xızr çəkməni nalladı:

- Baba, al gey,- dedi.

Babayiəmir çəkməni alıb ayağına geydi. Bir də baxdı ki, Xızr yanında yoxdu, dedi:

- Ax... Xızr. Əlimdən yaxşı qurtardın. Bir də əlimə keçərsən, səni ağaca sarıyacağam. Qoy hələ bunları sınayım. Bəlkə kişi bizə yaxşılıq eləyib?

Camı torpaqla doldurub başına tökdü, hansı sifətə düşmək istədisə, o sifətdə göründü. Şədəni yerə saldı, böyük qayaları Həmzəynən Müqbil gətirib şədənin üstünə yığdılar. Şədəni bükəndə alma boyda, alma ağırlığında oldu. Çəkmələri geyinib yeddi dəfə mayallaq vurdu. Dünyanın hər tərəfini yeddi mayallaqda gəzib dolandı, yenə gəlib Həmzənin, Müqbilin yanına çıxdı, dedi:

- Afərin Xızr, yaxşı kişi imişsən. Əlimə düşsən sənə yaxşılıq elərəm.

Indi sizə bir neçə kəlmə də Nuşirəvan şahdan, onun vəzirindən danışaq. Nuşirəvanın qızı Gülçöhrənin gözəlliyi ağızdan-ağıza, eldən-elə gəzirdi. Bu xəbər Sərəndib dağında Yəcuc-məcuc padşahın qulağına çatdı. Yəcuc-məcuclar devdən də qüvvətli idilər. Onların qulağı fil qulağına bənzəyirdi. Şir kimi acıqlı, meymun kimi çevik olurdular. Özləri də Sərəndib dağında yaşayırdılar. Onların padşahı Gülçöhrə xanımın gözəlliyinin tə`rifini eşidəndə dedi:

- Gülçöhrəni alaram, ondan bir oğlum olar. Gözəllikdə Gülçöhrəyə bənzəyər, qüvvətlilikdə də mənə. Ən gözəl, qüvvətli bir Yəcuc-məcuc nəsli əmələ gələr.

Bu məqsədlə də Yəcuc-məcuc padşahı Nuşirəvan şahın yanına elçi göndərib qızı Gülçöhrəni istədi. Nuşirəvan padşah onun elçisini boş qaytardı, vəzirə dedi:

- Vəzir, deyəsən mənim yuxumun vaxtı gəlib çatıb. Get qəhrəmanları tap, bir dəstə qoşun düzəlt gətir, görək Yəcuc-məcuclarnan davamız necə qurtaracaq.

Oydu ki, vəzir uşaqların yanına getdi.

Mollanın ölməsini, qəhrəmanların şəhərdən qaçmasını vəzirə xəbər verdilər. Vəzir dedi:

- Molla cəhənnəmə ölsün, qəhrəmanları tapın gətirin.

Vəzir qəhrəmanları axtarmaqda olsun, sizə kimdən xəbər verim? Yəcuc-məcucların padşahından. Elə ki, elçi boş qayıdıb Sərəndibə getdi, Nuşirəvan şahın qızını vermədiyini bildirdi. O, cəhənnəm kimi zəbanə çəkib, başına yetmiş min Yə`cuc-məcuc topladı. Sərəndibdən yola düşdü. Hansı kəndə, şəhərə çatanda adamlarını tutub ətini kabab edib yeyirdilər, qanlarını da şəraba qatıb içirdilər. Gəlib Nuşirəvan şahın şəhərinə çatdılar. Şəhər əhli Yəcuc-məcucların qabağında davam gətirə bilmədi, qaçan qaçdı, qalanlarını tutub qollarını bağladılar. Nuşirəvanı, onun qızı Gülçöhrəni də əsir tutdular. O gün orada eyş işrətə məşğul olub, sabah Sərəndibə yola düşməyi qərarə aldılar.

Vəzir də həmin gün hər tərəfi gəzib dolandı, gəldi mağaraya çıxdı. O, Həmzəni, Müqbili görüb çox sevindi. Rəml kitabını açıb rəml aşıqlarını xanələrə atanda, rəngi sapsarı saraldı. Əlini dizinə vurub dedi:

- Oğlanlarım, Nuşirəvan padşah sizə çox xərc qoydu, saxladı, böyütdü ki, onun üstünə bir düşmən gələndə siz ona kömək eləyəsiniz. Ancaq siz ona heç bir kömək eləyə bilmədiniz. Onun düşmənləri gəlib onu əsir tutublar. Burdan ora on günlük yoldu. Biz oraya gedənə qədər Nuşirəvan padşahı, onun qızı Gülçöhrə xanımı yeyəcəklər.

Babayiəmir dedi:

- Vəzir, mən Həmzə dadaşımla Müqbili göz qırpımı qədər vaxtda oraya yetirəcəyəm, sən özün bilərsən. Haçan istəyirsən, onda gəl.

Babayiəmir bu sözləri dedikdən sonra, şədəni açdı. Həmzəynən Müqbil şədənin üstünə çıxdılar. Şədəni bükəndə hamısı bir alma boyda oldu. Baba onları cibinə qoydu, vəzirə dedi:

- Xudahafiz.

Bir mayallaq vuranda toz kimi yox oldu.

Vəzirin gözü bərəldi, durduğu yerə yapışıb qaldı.

Baba şəhərin qırağında şədəni açdı, dedi:

- Gözləmək lazımdır ki, gecə olsun. Onlara bir toy tutacağam ki, dadı damaqlarından getməsin.

Axşam olcaq Həmzəni, Müqbili orada qoydu. Cami su ilə doldurub başına tökdü, özünü bir tula şəklinə saldı, dedi:

- Mən gedim sizə bir xəbər gətirim.

O özünü şəhərə yetirdi, əvvəl Yəcuc-məcucların qərargahını gəzdi. Hamı kefdə-damaqda idi. Sonra gəzib Nuşirəvan padşahı tapdı. Yavaş ona dedi:

- Əgər sənin bu düşmənlərini məhv eləsəm, öz padşahlığını yenə sənə qaytarsam, mənə nə verərsən.

Nuşirəvan padşah gördü danışan bir tuladı. Dedi:

- Nə istəyirsən?

Babayiəmir dedi:

- Bax, mənim bir balaca şədəm var, o tutduğu qədər, özüm götürə bildiyim qədər xəzinədən qızıl ver. Bir də qızın Gülçöhrə xanımı mənim Həmzə dadaşıma ver, razısanmı?

Şah əvvəl fikrinə gətirdi ki, bu tuladı. Bunun dadaşı da itdən, tuladan biri olacaq. Mən qızımı Yəcuc-məcucların padşahına vermədim, itə verə bilərəmmi?

Sonra fikirləşdi, axı bu Həmzə dadaşıma deyir. Qəhrəmanlardan birinin adı Həmzədi.

- Razıyam, - dedi.

Babayiəmir:

- Sən də sabah öz taxtında oturacaqsan, - deyib getdi. Sonra Gülçöhrənin yanına gəlib gördü onun gözlərinin yaşı baharın buludu kimi tökülür, dedi:

- Gülçöhrə, səni bunların əlindən xilas eləyib yenə öz xanımlığına qaytarsam, mənim Həmzə dadaşıma gələrsənmi?

Qız öz-özünə dedi:

- Gör nə bədbəxtəm ki, birinci növbədə məni sevən palaz-qulaqlı bir heyvan oldu, adı da Yəcuc-məcuc. Indi də bir tula məni öz qohumlarından birinə istəyir. Tulanın qohumu da yəqin ki, it olacaq. Ancaq yad ölkəyə əsir getməkdənsə, öz vətənimin itiynən yaşamaq yaxşıdı.

- Razıyam,- dedi.

Babayiəmir qayıdıb Həmzəynən Müqbilin yanına gəldi, dedi:

- Mən onların padşahlarının şərabına behuşdarı qatmışam, o bihuş olacaqdı. Gedib mən onun başını kəsəcəyəm. Sonra da qoşunun içinə vəlvələ salacağam. Onlar sabaha qədər bir-birini qıracaqlar. Siz də qaçanları qoymayın, tutun, öldürün.

Bu sözləri dedikdən sonra, onları gətirib qoşun olan yeri onlara nişan verdi. Özü Yəcuc-məcucların şahının çadırına getdi. Özünü Yəcuc-məcucların sürətinə salmışdı. O qədər gözlədi ki şaha behuşdarı təsir elədi, ülgücünü sıyırıb onun başını kəsdi. Uca səslə şahlarının öldüyünü qoşuna xəbər verdi. Qaranlıq gecədə onlar toppuzlarını götürüb bir-birinin canına düşdü. Baba hərdən mayallaq vurub qərargahın bir tərəfində çığırırdı. Həmzəynən Müqbil qoşunun içinə soxuldular. Bir az vuruşduqdan sonra, qırağa çıxdılar. Sabaha qədər Yəcuc-məcucların hamısı qırıldı. Sabah Nuşirəvan padşah yenə öz taxtına çıxdı. Həmzəni görən kimi Gülçöhrə ona bir könüldən min könülə aşiq oldu.

Şah Babayiəmirin qolundan tutub xəzinəyə apardı. Ancaq xəzinənin hamısını yığdılar Babanın şədəsinə, qatlayanda bir alma boyda oldu. Şah Babayiəmirdən üzr istəyib onun istədiyi qədər qızıl verə bilməyəcəyini boynuna aldı. O gündən Nuşirəvan şah ədalətini gücləndirdi. Oyudu ki, ona Nuşirəvan adil dedilər. Yeddi gün, yeddi gecə toy eləyib Gülçöhrəni Həmzəyə verdilər. Onlar yedi, içdi, yerə keçdi. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin oldu.

BACI VƏ QARDAŞ

Xasay adlı bir kasıb kişi vardı. Xasayın Ballı adlı bir arvadı, Fatma adlı bir qızı, Kavi adlı bir oğlu vardı. Xasay kişi kasıbkarlığnan külfətini dolandırdığı yerdə, birdən Ballı vəfat elədi. Xasayın evi, uşağı dolanmadığından gedib bir arvad aldı. Ay keçdi, il keçdi, bu arvadın keçəl bir qızı oldu.

Arvad ögey uşaqlarına çox əzab verirdi. Onların gününü göy əskiyə düymüşdü. Xasay çox çətinliklə uşaqlarını böyütdü. Qızı ərə gedəsi, oğlu arvad alası oldu. Bir gün arvad dedi:

- Ay kişi, indi Fatmaynan Kavi böyüyüb, özlərini dolandıra bilərlər. Onları apar azdır, bəlkə mənim gözüm onları görməyə.

Xasay dedi:

- Arvad, camaat bizi qınıyar, övladı azdırmaq olmaz.

Arvad dedi:

- Gərək azdırasan, yoxsa səndə oturmaram.

Xasay əlacsız qaldı, uşaqlarını yanına salıb odun gətirmək mahnasıynan meşəyə apardı. Dedi:

- Siz burda odun yığın, mən də o biri tərəfdə şələmi qayırım, qurtaran kimi gəlib sizi də götürüb gedərəm.

Xasay uşaqları qalın meşədə qoyub yola düzəldi. Qaçıb evinə gəldi.

Bəli, bacı-qardaş başladılar odun yığmağa. Bir də başlarını qaldırıb gördülər lap axşamdı. Əl-ayağa düşdülər. Çox axtardılar, atalarını tapa bilmədilər. Bildilər ki, bu iş analıqlarının işidi.

Meşədə baş alıb getməyə başladılar. Amma bilmirdilər ki, haraya gedirlər. Üç gün, üç gecə yol getdilər.

Axırda bir bulaq başına çatdılar. Kavi bulaqdan su içdi, oldu öküz. Fatma çox ağladı, başına döydü, bir yana çıxmadı. Qardaşı dedi:

- Bacı, ağlama, genə qardaşınam. Bir buynuzum baldı, bir buynuzum yağ. Dalıma min, acdıqca yeyərsən. Gedib evimizi taparıq.

Fatma qardaşının belinə minib, yağ, bal yeyə-yeyə gəlib evlərinə çıxdı. Daz qız onu görüb anasına dedi:

- Budu, Fatma qardaşını bir öküzə verib, minib gəlir.

Anası dedi:

- Ziyanı yoxdu, iki olanda neylədilər ki, bir olanda neyləyələr. Qoy gəlsin, tez başın batıraram gedər.

Fatma qapıda öküzdən düşüb evə gəldi. Hamıynan görüşdü. Qardaşının necə olduğunu xəbər aldılar. Fatma dedi:

- Qardaşımı meşədə ayı yedi. Bu öküzü də meşədən tapdım.

Ögey ana o gündən Fatmaya gündə bir küllü kömbə verib, darağnan yun daramağı ona iş-peşə elədi.

Fatma küllü kömbəni, yunu, darağı götürüb axşamacan çöldə öküzü otarırdı, yunu darayırdı. Acdıqca öküzün bir buynuzundan bal, bir buynuzundan yağ əmirdi. Axşam yunu kömbəni gətirib analığına verərdi. Bir gün belə, beş gün belə, axırda analığı bildi ki, bu iş öküzün işidi. Özünü yalandan xəstəliyə vurdu. Xasay kişi yanına gəldi, dedi:

- Ay arvad, sənə nə olub?

Arvad dedi:

- Ölürəm. Öküzü kəsib ətindən mənə kabab versən, sağalaram.

Xasay öküzü kəsib ətindən arvada kabab verdi. Arvad söyünüb yorğan-döşəkdən qalxdı. Fatma qardaşından ötrü başını yoldu, ağladı. Öküzün bir damcı qanı dilə gəlib dedi:

- Ay bacı, qorxma məni öküz eləyən ayrı şey də eləyə bilər. Mən bir xoruz olacağam, hər nə dərdin olanda dərmanı mənim əlimdə olacaq. Mənim sür-sümüyümü bir quyuya tök; sənə paltar lazım olanda gəl quyunun ağzını aç apar.

Fatma qardaşı deyən kimi elədi. Qardaşı bu dəfə oldu bir xoruz. Analığı bacısının dalınca hər nə etsəydi xoruz ona xəbər verərdi.

Bir gün şah Məhəmmədin şadlıq məclisi idi. Arvad, uşaq axışıb oraya gedirdi. Analığı Fatmanı çağırıb bir çanaq darını külə qatıb ona verdi, dedi:

- Mən gələnə kimi bu darını küldən seç, bir qab da göz yaşı hazırla.

Bunu deyib öz qızıynan bərabər şah Məhəmmədin şadlıq məclisinə getdi. Qonaqlar çörəkdən, xörəkdən yedilər. Şah Məhəmmədin şadlığında kimi xuşkəbər, kimi yemiş kimi alma paylayırdı. Fatma gözü yaşlı qardaşının yanına gəlib əhvalatı nağıl eylədi. Xoruz toyuqları başına toplayıb darını küldən seçdi. Bacısına bir qab duzlu su qayıtdırıb dedi:

- Bu sənin işlərin. Indi get şah Məhəmmədin toyuna.

Fatma sevinmiş gedib quyunu açdı. Gördü quyuda bir dəst elə paltar var ki, heç padşahın da evində ola bilməz. Fatma geyinib şah Məhəmmədin məclisinə getdi. Məclisdə analığı tərəfə kül, qonaqlara tərəf gül səpib oynadı. Toy qurtaranda qaça-qaça evlərinə gəlirdi ki, birdən başmağının tayı sıçrayıb hovuza düşdü. Hovuza girə bilməyib, tələsik evə gəldi. Təzə paltarını çıxardıb genə quyuya qoydu, köhnə paltarını geydi. Məclisdən camaat dağıldı. Daz qıznan anası gözünün külünü oyxalaya-oyxalaya evlərinə gəldilər. Fatma darını, duzlu suyu gətirib analığına verdi, dedi:

- Niyə bikefsən, şah Məhəmmədin toyunda nə gördün, nə eşitdin?

Analıq donquldana-donquldana dedi:

- Nə görüb, nə eşidəcəydik? Bir tanrı bəxtəvəri gəlib xalqın üstünə gül səpdi, bizim üstümüzə də kül. Indi də gözlərimizi təmizləyə bilməmişik.

Fatma ürəyində "Hay elədi" - deyib qardaşının yanına getdi.

Axşam üstüydü, şah Məhəmməd atını hovuzda sulamağa getdi. Ha elədi, at suya yaxın getmədi ki, getmədi. Düşdü atdan, hovuza əyildi, gördü hovuza bir başmaq tayı düşüb.

Hovuza girdi, başmağı çıxartdı. Baxdı heç kəsin evində belə başmaq yoxdu. Dedi ki, bu başmaq hər kimin ayağına olsa, onu alacağam.

Şah Məhəmməd başmağı götürüb evlərinə gəldi. Sabah vəzir, vəkilnən bərabər düşdü qapı-qapı gəzməyə, başmaq tayını ayaqlara geydirib qızı axtarmağa. Bu xəbər hər yana yayılmışdı. Şaha ərə getmək üçün illərnən su görməyən ayaqlar islağa qoyulmuşdu.

Analıq Fatmanın əl-ayağını kömürləyib, öz qızının ayağını axşamdan islanmağa qoymuşdu. Şah başmaq tayını hansı qızın ayağına geydirirdisə, olmurdu. Dolana-dolana gəlib Xasaygilə çıxdı. Analıq daz qızı irəli itələdi.

Başmaq onun vəl ayağının ucunda qaldı. Fatma gəldi, başmağı geydi. Başmaq lap ayağının qalıbı oldu. Şah Məhəmməd baxdı Fatmaya, gördü doğurdan da bu ayıbsız gözəldi. Bir könüldən min könülə ona aşiq oldu. Kora, keçələ rast gəlmədiyinə sevindi. Qızı aparası oldu. Qız gedib quyudakı paltarını geyindi, xoruz qardaşını da götürüb getdi. Məhəmməd yeddi gün, yeddi gecə toy eləyib Fatmanı aldı.

Tağda üç yemiş yetişdi. Biri sizin, biri bizim, biri onların. Onlar yedilər, o yana getdilər, biz yedik, bu yana gəldik.

BOSTANÇI VƏ ŞAH ABBAS

Bir bostançı var idi. Bu bostançı külfətini qarpız-yemişlə saxlayırdı. Hər il qarpız, yemiş, xiyar əkirdi, taxıla verib dolanırdı. Bir il bostan çox yaxşı bəhrə gətirdi. Bostançı arvadına dedi:

- Bu il bostanımız çox yaxşı bəhrə gətirib, qarpızın lap yaxşısından bir eşşək yükü tutub şıx oğlu Şah Abbasa aparacağam.

Arvadı dedi:

- Lap yaxşı olar.

Bostançı qarpızın lap yaxşısından bir xurcun yığdı, eşşəyin belinə aşırıb, toşhatoş - Isfahana yola düşməkdə olsun, Şah Abbasla vəzir Allahverdi xan da dərviş libas olub yol ilə gedirdilər. Onlar kişinin qabağına çıxdılar. Şah Abbas ondan soruşdu:

- A kişi, yükün nədi?

Bostançı dedi:

- Ağa dərviş, qarpızdı.

Padşah soruşdu:

- Hara aparırsan?

Bostançı dedi:

- Ağa dərviş, bu il bostanım çox yaxşı bar gətirib. Bunu Şah Abbasa aparıram.

Şah Abbas dedi:

- Rəhmətliyin oğlu, camaat Şah Abbasa lə`l, cavahir aparır, qızıl aparır, sən də qarpız aparırsan. Qarpız şahın nəyinə lazımdı?

Bostançı dedi:

- Ağa dərviş, oların gücü lə`lə, cavahirə, qızıla çatır. Mənim də gücüm ancaq qarpıza çatır.

Şah Abbas dedi:

- Nahaq əziyyət çəkirsən, axı şah onu götürməz.

Bostançı dedi:

- Ağa dərviş, canın sağ olsun, götürər götürər, götürməz eşşəyi yüklü-zadlı soxaram onun gözlərinə, çıxıb gələrəm.

Allahverdi vəzir istədi kişini vursun, şah onun əlini tutdu. Kişidən ayrıldılar. Başqa kəsə yolla geri qayıtdılar. Şah Abbas qırmızı geyinib taxta çıxdı. Əmr elədi, eşşəyi yüklü bir kişi

gələcək, onu eşşəkli-zadlı yanıma gətirərsiniz. Bəli, yolları kəsdilər, kişi gəlib çıxanda, onu eşşəkli-zadlı padşahın barigahına apardılar. Şah Abbas ondan soruşdu:

- A kişi, yükün nədi?

Bostançı dedi:

- Qadan alım, şah, qarpızdı. Bu il bostanım çox yaxşı bəhrə gətirib. Bir yük sənə hədiyyə gətirmişəm.

Şah Abbas dedi:

- A kişi, dəli-zad olmamısan, sən məni kim hesab eliyirsən? Xalq mənə lə`l, cavahir, qızıl gətirir, sən də qovun, qarpız gətirirsən?

Bostançı dedi:

- Şah sağ olsun, onların gücü cavahirə, lə`lə, qızıla çatır, mənim də gümanım, gücüm yemiş, qarpıza çatır.

Şah Abbas dedi:

- Qarpız mənə lazım deyil, qaytar, get, yoxsa səni boğazından asdıraram.

Bostançı dedi:

-- Şah, ta niyə acığın tutur. Götürürsən, götür, götürmürsən, yolda dediyim olsun.

Şah Abbas dedi:

- De görüm yolda nə demisən?

Bostançı dedi:

- Şah, heç nə, söz idi, ağzıma gəldi dedim.

Şah Abbas dedi:

- Kişi, əgər yolda nə demisən, düzünü desən, ciqqəm haqqı sənə heç zad eləməyəcəyəm. Əgər düzünü deməsən vayındı.

Bostançı o saat başa düşdü ki, dərviş bu özü imiş, dedi:

- Şah sağ olsun, yolda bir nəfər dərviş məndən sən soruşduğun sözləri soruşdu. Deyəndə ki, şah yemiş-qarpızı götürməz, dedim, gümanım elə buna gəlir, götürməz eşşəkli-zadlı soxaram şahın gözlərinə, qayıdaram.

Padşah xəzinədarı çağırıb dedi:

- Apar bu kişinin qarpızını boşalt, terini qızılla doldur, ver aparsın.

Xəzinədar bostançını xəzinəyə apardı, yemiş-qarpızını boşaltdı, teri qızılla doldurub ona verdi. Padşahın bu hərəkəti Allahverdi xanın xoşuna gəlmədi, dedi:

- Şah, sənin bu hərəkətin heç xoşuma gəlmədi. Kəndlinin biri sənə söyür, sən onun terini qızılla doldurub, buraxırsan.

Şah Abbas dedi:

- Vəzir, o kişinin gümanı qarpıza çatır, ondan da mənə nübarlıq pay gətirir. Mən ondan cavahir, lə`l istəyəndə onun mənə ağır söz deməsi yerindədi.

Vəzir dedi:

- Mən gedib, ondan qızılı alacağam.

Padşah dedi:

- Allahverdi vəzir, o sən ağılda adam deyil, çox ağıllı adamdı, yüngülsaqqal olma, ala bilməzsən.

Vəzir dedi:

- Mən alım, sən tamaşa elə.

Padşah dedi:

- Yaxşı, get al, görək ala biləcəksənmi?

Allahverdi vəzir atını mindi, başqa yolnan gedib bostançının qabağını kəsdi, dedi:

- Kişi, sənə bir neçə sual verəcəyəm, bildin, canın qurtardı, bilmədin, qızılını alacağam.

Bostançı dedi:

- Vəzir, buyur de.

Allahverdi vəzir dedi:

- Göydə neçə ulduz var?

Bostançı dedi:

- Eşşəyimin tükünün sayı qədər.

Vəzir dedi:

- Düz demirsən.

Bostançı dedi:

- Eşşəyin tükünü də say, ulduzları da say, əgər düz olmasa boynumu vur.

Allahverdi vəzir gördü nə eşşəyin tükünü saymaq olar, nə də göydəki ulduzu, dedi:

- Yaxşı, bunu bildin. Indi o biri sualıma cavab ver. Allah hardadır?

Bostançı dedi:

- O çox asandı. Ancaq eşşəyin üstündə onu deyə bilmərəm, atdan düş minim deyim. Eşşək üstündə allahın yerini demək biədəblikdi.

Vəzir o saat atdan sıçrayıb yerə düşdü, dedi:

- Di min.

Bostançı eşşəkdən düşdü, tez sıçrayıb ata mindi, əyilib cəld eşşəyin üstündən teri götürdü, ata bir məhmiz vurub dedi:

- Vəzir Allahverdi xan, allah, bax o dağın dalındadı.

Vəzir ha qışqırdı, bağırdı, kişi dayanmadı, ata dəyib gözdən itdi. Allahverdi vəzir eşşəyin yanında qaldı. Şah Abbas küləfirəngidən baxırdı, o qədər güldü ki, az qaldı qarnı yırtılsın. Bir neçə adam göndərib dedi:

- Gedin Allahverdi xana deyin ki, utanmasın gəlsin.

Adamlar getdilər, padşahın sözünü Allahverdi xana dedilər. Allahverdi xan kor-peşman adamların yanına düşüb getdi. Şah Abbas bir az güləndən sonra dedi:

- Allahverdi xan, gördün ala bilməzsən? Mən ədalətsizlik eləmişdim, qızıl vermişdim, at verməmişdim. Atı da sən verdin, çox sağ ol.

Ç I L M A D Y A N

Biri var idi, biri yox idi, göyün altında, yerin üstündə bir şah oğlu var idi. Bu şah oğlunun bir göy atı var idi. Şah oğlu hər gün göy atını minib, meydana çıxarmış. Şəhərin bütün yaxşı at minənləri də ora yığılarmışlar. Şah oğlu atlılarla cıdıra çıxarmış. Cıdırda şah oğlunun göy atı bütün atlıları keçərmiş.

Şah oğlunun bir də göyçək bir bacısı var imiş. Şərt kəsibmiş ki, cıdırda hər kimin atı göy atı ötsə, bacımı ona verib, özümə qohum eləyəcəyəm.

Bu şəhərdə kasıblıqla gün keçirən Ilyas adlı bir oğlan var idi. Ilyasın da gözəllikdə şah oğlunun bacısından gözəl, ağılda ondan da ağıllı bir bacısı var idi. Şah oğlunun şöhrətini Ilyas da eşitmişdi. Bilmirdi nətəhər eləsin ki, şah oğluna üstün gəlsin. Ilyasın bacısı qardaşını fikirli görüb soruşdu:

- Qurbanın olum, qardaş, sənə gələn qada-bəla mənə gəlsin, söylə görüm niyə fikirlisən?

Ilyas dedi:

- Bacı, fikirli olmayım, neyləyim? Bu gün şah oğlu göy atını minib cıdıra çıxmışdı. Cıdırda sən bilirsən ki, bu şəhərdə şah oğlunun göy atını keçən at tapılmır. Indi iş o yerə çıxıb ki, şah oğlu şərt kəsib, hər kimin atı göy atı keçsə, bacısını ona verib onu özünə qohum eləyəcək. Doğrusu, bu məni çox düşündürür. Deyirəm, görəsən dünyada heç elə at olarmı ki, şah oğlunun atını keçə?

Bacısı dedi:

- Qardaş, bu nədi ki, bunun fikrini çəkirsən? Get bir yəhər al, iki tuluq da çaxır. Mən səni göndərim, şah oğlunun atını ötən atı gətir.

Ilyas getdi, bir yəhər aldı, iki tuluq da çaxır. Bacısının yanına qayıtdı. Bacısı dedi:

- Qardaş, yəhəri də, iki tuluq çaxırı da götürüb bax bu tərəfə get. Gedərsən, gedərsən, bir meşəyə çatarsan. Meşədə yol haçalanar, üç olar. Nə sol yolla, nə də sağ yolla getmə. Orta yolla gedərsən. Az gedərsən, çox gedərsən bir dəryaya çatarsan. Dəryanın kənarında bir bulaq var. Bulağın suyu axıb bir hovuza tökülür, o dəryada bir çil madyan var. Gündə bir yol çıxar, gələr haman hovuzdan su içər, qayıdar dəryaya girər. Sən iki tuluq çaxırı hovuza tökərsən, olmaya atın gözünə görünəsən, yoxsa səni tikə-tikə eləyər. Bir tərəfdə gizlənərsən. Çil madyan dəryadan çıxar, gələr hovuzdakı sudan içər. Çaxır ona əsər eləyər, məst olar, yıxılar. Onda cəld gizləndiyin yerdən çıxarsan, yəhəri çil atın belinə basıb minərsən. Nə qədər ayaq-baş vurub, soncuq atsa, oyana-buyana qaçsa, sən üstündən düşməzsən. Yalından bərk tutub, yəhərə yapışarsan. Bir az keçər, çil madyan sakitləşər. Ondan sonra götürüb gələrsən. Şah oğlunun göy atı çil madyanın tozuna da yetişə bilməz.

Ilyas bacısı ilə halal-hümmət eləyib yəhəri, çaxır tuluqlarını götürüb yola düşdü. Bacısı öyrətdiyi yol ilə çox getdi, az dayandı, az getdi, çox dayandı, axır ki, gəlib haman dəryanın kənarına çatdı. Çaxır tuluqlarını hovuza tökdü. Özü də bir yanda gizləndi. Aradan xeyli keçdi, dəryadan bir madyan çıxdı. Gəlib hovuzdakı sudan içdi. Ilyas baxdı ki, çaxır ata əsər eləyib. Cəld gizləndiyi yerdən çıxdı, yəhəri belinə basdı, üstünə mindi. Çil madyan ayaq-baş atdı, soncuqladı. Oyana-buyana qaçdı, atıldı, düşdü. Ilyas çil madyanın yalından tutub bərk durdu. At yavaşıdı. Ilyas onu sürüb təpələrdən yel kimi, dərələrdən sel kimi gəldi, bacısının yanına çatdı. Bacısı qardaşını çil madyanın üstündə görüb şad oldu, dedi:

- Qardaş, indi çil madyanı sür. Şah oğlunun göy atıyla çapış.

Ilyas çil madyanı sürdü, o vaxt yetişdi ki, şah oğlu göy atı oynadıb deyirdi:

- Bir oğlan istərəm, atını sürsün, mənimlə cıdıra çıxsın. Göy atımı ötüb keçsin, mənimlə qohum olsun.

Ilyas çil madyanı şah oğlunun göy atına yanaşdırıb dedi:

- Şah oğlu, sözünə doğru çıxsan, mən sənlə cıdıra çıxaram.

Şah oğlu dedi:

- Mənim sözüm sözdü. Atın mənim atımı keçsə sənlə qohumam.

Şah oğlu ilə Ilyas atları qoşalaşdırdılar. Çil madyan ağzını ayırıb, quyruğunu dik tutub, götürüldü. Şah oğlunun göy atı nə qədər qaçdısa çil madyanın tozuna da yetişə bilmədi. Çil madyan mərəyə yetişdi, orada dayandı.

Şah oğlu cığallıq eladi, dedi:

- Bir dəfə at atı ötməklə mərc tamam olmur. Bir baş da çapaq.

Ilyas razı oldu. Atları bir baş da çapdılar. Yenə çil madyan şah oğlunun göy atını yarı yolda qoydu. Yığılan adamlar Ilyasa "sağ ol" dedilər. Şah oğlu atını sürüb qayıtdı. Əhvalatı vəzirinə-vəkilinə söylədi. Ilyas da çil madyanı sürüb evlərinə gəldi, əhvalatı öz bacısına danışdı. Bacısı şad olub, dedi:

- Qardaş, indi get, şah oğluna de, şərtə əməl eləyib, bacısını sənə versin.

Ilyas şah oğlunun yanına gəlməkdə olsun, sənə şah oğlundan danışım. Şah oğlu ürəyində dediyindən dönmüşdü. Bacısını Ilyasa verməк istəmirdi. Amma bunu açıqdan-açığa eləmək istəmirdi ki, el içində yalançı çıxmasın. Ona görə vəzirə dedi:

- Vəzir, bu barədə tədbirin nədi?

Vəzir dedi:

- Şahzadə sağ olsun, Ilyas gələr, deyərsən, getsin uçuq dağdan ilanın əlindən qızıl sandığı alsın, gətirsin. Oraya indiyə kimi minlərlə pəhlivanlar gedib hamsını ilan vurub, öldürüb. Onu da ilan vurub öldürər, sən də şərtdən qurtararsan.

Elə bu vaxt Ilyas gəldi, dedi:

- Şah oğlu, atım sənin atını keçdi, şərtinə əməl elə.

Şah oğlu dedi:

- Mənim sözüm sözdü. Bacımı sənə verəcəyəm. Get, uçuq dağdan ilanın əlindən qızıl sandığı al gətir, sonra bacımı apar.

Ilyas bacısının yanına qayıtdı. Bacısı bunu bikef görüb dedi:

- Qardaş, qurbanın olum, sənə gələn qada-bəla mənə gəlsin. Nə olub, niyə bikefsən?

Ilyas dedi:

- Şah oğlu deyir: get, uçuq dağdan ilanın əlindən qızıl sandığı al gətir, bacımı sənə verim Bacısı dedi:

- Qardaş, bundan ötrü niyə bikef olursan? Çək, çil, madyanı min, sür. Iki gün yol gedərsən, üçüncü günü uçuq dağa yetişərsən. Uçuq dağdan qızıl sandığı taparsan. Bir ilan vaxt-bivaxt haman qızıl sandığın başına dolanır. Bir gecə-gündüzdə bircə dəfə başını quyruğunun üstünə qoyur, bir hovur yatır. Gözləyərsən. Elə ki, ilan yatdı, atdan düşüb, cəld qızıl sandığı götürərsən, çil madyana minib, qaçarsan. Ilan qanadlı ilandı. Qanadlanıb uçacaq ki, sənə yetişsin. Ancaq qorxma yetişə bilməyəcək. Sən çil madyanı sürüb qızıl sandığı gətirərsən, şah oğluna verərsən.

Ilyas çil madyanı yəhərlədi, mindi, yola düşdü. Iki gün yol getdi, üçüncü günü uçuq dağa yetişdi. Axtardı, axtardı, axırda qızıl sandığı tapdı. Gördü doğrudan da bir ilan sandığın başına fır-fır fırlanır. Bir tərəfdə gizlənib, bir gün bir gecə gözlədi. Bir də baxdı ki, ilan başını quyruğunun üstünə qoyub, yuxuya getdi. Ilyas cəld çil madyandan aşırılıb düşdü. Qızıl sandığı götürdü. Atın üstünə tullanıb yola düşdü. Ilan işi başa düşdü. Qanadlandı, Ilyasın dalınca düşdü. Amma nə qədər uçdusa, çil madyana yetişə bilmədi. Çil madyan dərələrdən sel kimi, iki günlük yolu bir gündə keçib, Ilyası şəhərə yetirdi. Ilyas evlərinə yetişib çil madyandan düşdü. Bacısının yanına gəldi. Bacısı qardaşının qızıl sandığı gətirdiyinə çox sevindi. Ilyas sandığı götürüb şah oğlunun yanına getdi. Qızıl sandığı şah oğluna verdi, dedi:

- Şah oğlu, qızıl sandığı gətirdim, sözünə-doğru çıx, bacını mənə ver!

Şah oğlu qızıl sandığı Ilyasdan alıb dedi:

- Get, sabah yanıma gəl.

Ilyas evlərinə qayıtdı. Şah oğlu da üzünü vəzirə tutub dedi:

- Vəzir, Ilyas getdi, uçuq dağdan ilanın əlindən, sandığı alıb gətirdi. Indi tədbirin nədi?

Vəzir dedi:

- Şahzadə sağ olsun, sabah Ilyas yanına gələndə, göndər getsin, div qarısından bağlı buxçanı alıb gətirsin. Arxayın ol, ilandan qurtardısa, divdən can qurtara bilməz.

Sabah açıldı. Ilyas şah oğlunun yanına gəldi, dedi:

- Şah oğlu, sözündən dönmə, bacını ver, aparım.

Şah oğlu dedi:

- Mənim sözüm sözdü, bacım sənindi. Ancaq bir işdə var. Get, div qarısından bağlı buxçanı al gətir, bacımı verim, apar.

Ilyas bikef halda bacısının yanına qayıtdı. Bacısı dedi:

- Qardaş, qurbanın olum, sənə gələn qada-bəla mənə gəlsin, niyə bikefsən? Sənə nə olub?

Ilyas dedi:

- Bacı, can bacı, şah oğlu məni div qarısından bağlı buxçanı alıb gətirməyə göndərir.

Bacısı dedi:

- Bundan ötrü niyə bikef olursan? Çil madyanı minərsən, üç gün yol gedərsən. Dördüncü günü bir dağa yetişəcəksən. Dağda bir div qarısı var. Evində yük yığılıb. Bağlı buxça yükün üstündədi. Bir təhər elərsən ki, qarı səni görməsin. Çil madyandan düşərsən, içəri girərsən, yükün üstündən tez bağlı buxçanı götürərsən, çil ata minib, sürərsən. Səs gələr... Olmaya, geri baxasan. Geri baxsan daş olarsan. Div qarısı dalınca düşüb gələcək. Amma sənə yetişə bilməyəcək. Sən çil madyanı sürərsən bağlı buxçanı gətirib, şah oğluna verərsən.

Ilyas bacısının dediyi kimi elədi. Çil madyanı yəhərlədi. Mindi, üç gün yol getdi. Dördüncü gün haman dağa yetişdi. Axtarıb div qarısının evini tapdı. Atdan düşüb, içəriyə girdi. Div qarısı təndirə çörək yapırdı. Ilyas baxdı ki, bağlı buxça yükün üstündədi. Yavaşca götürüb evdən çıxdı. Cəld ata minib yola düşdü. Bir az getmişdi, birdən bir səs eşitdi. Istədi dönüb geri baxsın, bacısının tapşırığı yadına düşdü, geri baxmadı. Qarı nə qədər səs-küy qaldırdısa, Ilyas fikir vermədi. Atı sürüb şəhərə çatdı. Bağlı buxçanı gətirib, şah oğluna verdi.

Şah oğlu Ilyası orada qoyub, özü bir bəhanə ilə vəzirin yanına gəldi, dedi:

- Vəzir, Ilyas bağlı buxçanı da gətiribdi. Indi tədbirin nədi?

Vəzir dedi:

- Göndər getsin, indi də div qocasından dəf alsın gətirsin.

Şah oğlu geri dönüb Ilyasa dedi:

- Get, divdən dəf al gətir, bacıma toy eləyim, sənə verim.

Ilyas bacısının yanına qayıtdı. Əhvalatı ona danışdı.

Bacısı dedi:

- Qardaş, qurbanın olum, çil madyanı minib dörd gün gedərsən, beşinci günü bir dağa yetişərsən. Dağda bağlı buxçanı gətirdiyin div qarısının qardaşı olur. Gözləyərsən div yuxuya gedər. Dəf yuxarıdan asılıb, götürərsən. Cəld ata minib gələrsən. Amma yenə da deyirəm, gələndə geri baxmazsan.

Ilyas çil madyanı mindi. Dörd gün yol getdi. Beşinci günü bağda divə yetişdi, gözlədi div yuxuya getdi, tez atdan düşüb içəri girdi, yuxarıdan asılmış dəfi götürüb çil madyana mindi. Div yuxudan oyanıb Ilyasın dalınca düşdü. Ancaq nə qədər qaçdısa, Ilyasa yetişə bilmədi. Ilyas çil madyanı sürüb gəldi, dəfi şah oğluna verdi.

Şah oğlu gördü Ilyas dəfi də gətirdi. Tamam şərtləri yerinə yetirdi. Əgər bacısını buna verməsə, el içində hörmətdən düşəcək. Məcbur olub bacısını Ilyasa verdi.

Ancaq toy günü ondan soruşdu:

- Ilyas, düzünü de görüm, sənə bu işdə kim kömək elədi?

Ilyas əhvalatı ona danışdı. Şah oğlu əmr elədi. Ilyasın bacısını gətirdilər. Şah oğlu baxdı ki, saya bir qızdı, ona üstün gəlib. Üzün qıza tutub soruşdu:

- Ay qız, mən şah oğlu, sən rəiyyət uşağı... Bəs de görüm, bu necə oldu ki, sən mənə üstün gəldin?

Qız dedi:

- Şahzadə sağ olsun, iş şahlıqda, rəiyyətlikdə deyil. Biz buna görə sənə üstün gəldik ki, sən bilmədiyin şeyləri bilirik. Bir də öz işimizdə səndən möhkəm idik. Dünyada bilik, bir də iradə hər şeyə üstün gəlir.

D A Ş D Ə M I R I N N A Ğ I L I

Biri var idi, biri yox idi, Fatı qarı adlı bir arvad var idi. Fatı qarının qohumdan-qardaşdan, oğuldan-qızdan Daşdəmir adlı aman-zaman bir oğlu var idi. Daşdəmir çox ağıllı oğlan idi. Atası Zaman kişi hələ balaca vaxtından onun belə ağıllı olduğunu görüb Mirzə Möhsün adlı bir müəllimin yanına qoymuşdu ki, dərs oxusun. Daşdəmir bir neçə ilin içində əməlli-başlı yazıb, oxumağı öyrənmişdi.

Mirzə Möhsün gündə cürbəcür köhnə kitablar oxuyardı, əhvalatlar danışardı. Daşdəmir Mirzə Möhsünü o qədər sevirdi ki, gecələr də ondan ayrılmaq istəmirdi. Ancaq iş elə gətirdi ki, Daşdəmir Mirzə Möhsündən ayrılmalı oldu.

Daşdəmirin atası Zaman kişi çox bacarıqlı, zəhmət sevən bir bağban idi. Gecə yatmayıb, gündüz dincəlməyib özünə gözəl bir bağça düzəltmişdi. Bağçada elə gözəl güllər, elə gözəl meyvələr var idi ki, görən heyran qalırdı.

Necə deyərlər, Zaman kişinin bağçasında can dərmanı desəydin var idi. Zaman kişi bu güllərdən, meyvələrdən satıb külfətini dolandırırdı.

Zaman kişinin bu bağçası şəhərin kənarında, bir dəyirmanın yanında idi. Daşdəmir hələ bir yaşında olduğu zaman bu dəyirmanda qəribə bir iş olmuşdu. Bir gün səhər qonşular yuxudan durub gördülər ki, dəyirmançını da, arvadını da boğublar. Qonşular nə qədər soraqlaşdılar, axtardılarsa heç bir şey tapa bilmədilər. Bu işdən sonra bu dəyirmana heç kəs sahib durmadı. Dəyirman yavaş-yavaş xarabaya çevrildi.

Bu xaraba dəyirman haqqında camaat qəribə əhvalatlar danışmağa başladı. Bə`ziləri deyirdilər ki, bu dəyirmanda cinlər olur, bə`ziləri deyirdi quldurlar olur.

Zaman kişi ağıllı, bacarıqlı olduğu kimi, həm də igid idi. Heç bir şeydən qorxmazdı. Dəyirmançı ilə arvadının dəyirmanda boğulmaqları Zaman kişini fikrə salmışdı.

Elə həmişə bu barədə fikirləşirdi. O bilirdi ki, cin adlı şey yoxdu.

Gecələrin birində Zaman kişi evdə yatmışdı, birdən dəyirmandan bir qışqırtı eşidildi. Zaman kişi dik qalxıb pəncərəyə yaxınlaşdı, xaraba dəyirmana baxdı. Çox qaranlıq idi. Amma Zaman kişinin iti gözləri bə`zi şeylər seçirdi. Dəyirmançının həyətində bir neçə qaraltı elə bil ki, süpürləşirdilər. Onlar boğuşa-boğuşa içəriyə çəkildilər. Sonra bir səs də eşidildi. Amma bu səs qış-qırıq deyildi, zarıltı idi. Elə bil, kimi isə boğurdular. Zaman kişi davam gətirə bilmədi. Fatı qarını da oyadıb, heç bir söz demədən dəyirmana cumdu. Səhər dəyirmandan iki adamın ölüsünü tapdılar. Ikisi də boğulmuşdu. Bunlardan birini heç kəs tanıya bilmədi. Amma biri Zaman kişi idi.

Fatı qarı nə qədər oyana-buyana qaçdısa, bir şey çıxmadı. Axırda Mirzə Möhsünün yanına gedib padşaha ərizə yazdırdı. Padşah heç ərizəyə cavab da vermədi.

Fatı qarı oğlu Daşdəmirlə qaldı. Daşdəmir Mirzə Möhsündən heç ayrılmaq istəmirdi. Amma iş elə gətirdi ki, ayrılıb bağçanın işi ilə məşğul olmağa məcbur oldu.

Aylar keçdi, illər dolandı, Daşdəmir on beş, on altı yaşlarına çatdı. Həm ağıllı, həm də igidliyi ilə ətrafda şöhrət qazandı.

Günlərin bir günündə məhəllə cavanları içərisində mübahisə düşdü ki, kim özünü igid bilir, gedib xaraba dəyirmana mıx vursun. Daşdəmir yerindən durdu ki:

- Mən gedirəm.

Cavanlar gətirib Daşdəmirə bir mıx verdilər, bir də bir balta. Daşdəmir o qədər gözlədi ki, qaranlıq düşdü. Mıxı, baltanı, bir də zoğal ağacını götürüb dəyirmana getdi. Daşdəmir qorxmurdu. Amma xaraba dəyirman haqqında o qədər danışmışdılar ki, içəriyə girəndə onu vahimə basdı. Odur ki, ağacı çiynində hazır tutub fit çala-çala içəriyə girdi. Elə qaranlıqda yavaş-yavaş irəliləyirdi ki, arxadan bir səs eşitdi:

- Kimsən, dayan!

Daşdəmir geri döndü. Baxdı ki, dəyirmanın qapısını bir adam kəsib, amma bu adamın üzü qara bir dəsmalla örtülüdü, ancaq iki gözü görünür. Daşdəmir yavaşca çiynindəki ağacdan möhkəm yapışıb bir addım geri çəkildi.

Üzüörtülü adam dedi:

- Bəs sən bilmirsən ki, bura cinlərin məskənidi? Bəs sən bilmirsən ki, buraya quş gəlsə qanad salmamış, qatır gəlsə dırnaq tökməmiş, adam gəlsə başını verməmiş qurtara bilməz.

Daşdəmir dedi:

- Bəli. Mən çoxlarından eşitmişəm ki, bura cinlərin məskənidi. Indi sən də deyirsən. Ancaq indi başa düşürəm ki, bunlar hamısı yalan imiş. Çünki sən cin deyilsən, adamsan.

Üzüörtülü adam dedi:

- Əgər sən məni cin bilsəydin, mən səni bəlkə buradan sağ buraxa idim. Indi ki, sən mənim adam olduğumu bilibsən, gərək səni boğam ki, bu sirri heç kəsə deməyəsən.

Bunu deyib üzüörtülü adam Daşdəmirə hücum elədi. Daşdəmir onu yaxına buraxmayıb təpəsinə bir ağac ilişdirdi. Üzüörtülü adam geri çəkilib qılıncını siyirdi. Daşdəmirin üstünə gəldi. Daşdəmir ağacla, üzüörtülü adam qılıncla bir müddət vuruşdular. Axırda üzüörtülü adam vurub ağacı yerə saldı. Daşdəmiri silahsız görüb qılıncı onun başından endirmək istəyəndə, Daşdəmir cəld o biri əlindəki baltanı qabağa verdi. Qılınc baltaya elə güclü dəydi ki, qəbzəsindən qırılıb yerə düşdü.

Üzüörtülü adam işi belə görəndə dəyirmanın dibinə tərəf qaçdı. Orada nə isə bir şaqqıltı eşidildi, üzüörtülü adam yox oldu. Daşdəmir nə qədər axtardısa, heç kəsi tapa bilmədi. Bir istədi ki, haray salıb camaatı buraya töksün. Amma fikirləşdi ki, belə işin üstü açılsa, tapmaq çətin olar. Bu gərək sirr olub qala.

Tez əlindəki mıxı yerə çaldı. Ağacını, baltanı, bir də vurub yerə saldığı qılıncı götürüb evlərinə gəldi. Gecəni səhərə qədər Daşdəmir yata bilmədi ki, bu işin axırına necə çatsın? Bu sirri necə açsın? Axırda bu qərara gəldi ki, gedib əhvalatı Mirzə Möhsünə danışsın. O ağıllı adamdı. Məsləhət verib, yol göstərə bilər. Eləcə də elədi. Səhər Mirzə Möhsüngilə getdi. Əhvalatı, necə ki, olmuşdu, danışdı. Mirzə Möhsün diqqətlə qulaq asdı, qılınca baxıb dedi:

- Oğlum, cin-zad deyirlər, bunlar hamısı yalandı. Oradakılar adamdırlar. Dəyirmançını da arvadı ilə onlar boğublar, yetim atanı da onlar öldürüblər. Indi də səni öldürmək istəyirmiş ki, sirr açılmasın. Ancaq sən yaxşı eləyibsən ki, bu barədə heç kəsə heç bir söz deməyibsən. Bu cür sirləri ancaq səbirlə, tədbirlə açmaq olar. Qulaq as, gör sənə nə deyirəm. Bizim şəhərin padşahı cavan bir adamdı. Amma onun çox hiyləgər bir vəziri var. Çoxdandı ki, bizim şəhərdə böyük bir quldur dəstəsi əmələ gəlib. Ayda bir dəfə, iki dəfə karvanların qabağını kəsib soyurlar. Padşah nə qədər əlləşirsə bu quldurları tapa bilmir. Axırda padşah bu qərara gəlib ki, şəhərin dünyagörmüş ağıllı adamlarını çağırıb bu barədə onlarla məsləhətləşsin. Iki gün bundan qabaq məni də çağırmışdı. Mən ona dedim ki: - Padşah sağ olsun, əgər bu quldur dəstəsi şəhərin böyük adamları ilə əlaqədar olmasaydı, çoxdan tapılmışdı. Çox güman var ki, bu quldurlar saraydakı adamlarla əlbirdirlər.

Mənim bu sözlərim onun çox xoşuna gəldi. Indi baxıram ki, mən elə bu sözü deməkdə haqlıymışam. Bu qılıncı ki, sən vurub qırıbsan, bu şahanə qılıncdı. Bax, burada padşahın nişanı da var. Belə qılıncları padşah ən yaxın adamlarına bağışlayır. Indi tapmaq lazımdı ki, bu qılınc kimindi.

Daşdəmir sevincək dedi:

- Onu tapmağa nə var ki? Aparıb bu qılınc tiyəsini şaha verərik. Özü tapar ki, kimindi.

Mirzə Möhsün dedi:

- Yox, oğlum! Bu çox qorxulu yoldu. Bəlkə bu qılınc tiyəsi padşahın çox yaxın adamlarından birinindi. Onda padşah öz adamını ələ verməmək üçün bizim başımızı batıra bilər. Belə işləri ancaq səbir və tədbirlə açmaq olar.

Mirzə Möhsün qılıncı evdə gizlətdi, özü də durub padşahın yanına getdi. Daşdəmir də evlərinə qayıtdı.

Daşdəmir gəlib gördü ki, padşahın qoşun böyüyü Abas bəy bunların həyətindədi. Özü də anası Fatı qarı ilə deyişir. Soruşdu:

- Nə var? Nə olub?

Abas bəy dedi:

- O olub ki, gərək bu evdən çıxıb gedəsiniz. Bu ev də, bu bağça da bizimdi.

Daşdəmir dedi:

- Yaxşı, bu ev nə vaxtdan sizin olub?

Abas bəy dedi:

- Bu gecədən.

Daşdəmir dedi:

- Mən başa düşmürəm. Bu ev mənim atamdan qalmadı. Necə olub ki, bu gecədən o, sizin olur.

Abas bəy dedi:

- Mən işi məhkəməyə vermişəm. Sabah, gəlib orada bilərsən.

Abas bəy bunu deyib çıxıb getdi. Daşdəmir gözlədi, elə ki, gecə oldu, durub Mirzə Möhsüngilə getdi ki, əhvalatı ona desin. Amma Mirzə Möhsünü evdə tapa bilmədi. Mirzənin çox ağıllı, çox da gözəl bir qızı var idi. Adı Nardan idi. Nardan qabağa çıxıb dedi ki, Mirzə Möhsün hələ qayıtmayıb. Daşdəmir evə döndü.

Səhər iki nəfər silahlı gəlib Daşdəmiri məhkəməyə apardılar. Abas bəy də öz adamları ilə gəldi, məhkəmə başlandı. Abas bəy danışıb dedi:

- Mən bu gecə yuxuda görmüşəm ki, evi bağça ilə bərabər mənim atam bunun atasına vermiş. Indi mən istəyirəm ki, bağı da, evi də geri qaytarsınlar.

Abas bəyin bu sözünə Daşdəmir qəh-qəh çəkib güldü. Öz ürəyində dedi: "Gör bu nə qədər ağılsız adamdı. Özü axmaqdı, elə bilir ki, hakim də axmaqdı, heç yuxuda görməklə də bir adamın evini alıb bir başqasına verərlər?".

Daşdəmirin gülməyinə hakim hirsləndi ki:

- Niyə gülürsən? Yaxşısı budu ki, get, evini, bağını qaytar özünə.

Daşdəmirin gözləri kəlləsinə çıxdı, dedi:.

- Hakim sağ olsun, belə də iş olar. Nə olsun ki, o yuxuda görüb? Məgər hər adamın yuxuda gördüyü şey elə doğru olar.

Hakim hirslənib dedi:

- Hər adamın yuxuda gördüyü doğru olmaz. Amma Abas bəyin gördüyü doğru olar. O, hörmətli, adamdı. Padşahın qoşun böyüyüdü. Belə adam yalandan yuxu görməz ki... Indi ki, görüb, demək doğrudu, sənə üç gün möhlət verirəm. Üç günə qədər evi də, bağı da təhvil verməlisən.

Daşdəmir nə qədər danışdısa heç bir şey çıxmadı. Qayıdıb evlərinə gəldi, bir ərizə yazıb padşaha göndərdi. Sabahısı ərizəsinin cavabı gəldi. Padşah məhkəmənin qərarını təsdiq eləmişdi. Daşdəmirin ərizəsi rədd olunmuşdu.

Daşdəmir birbaş getdi Mirzə Möhsüngilə ki, əhvalatı ona xəbər versin. Amma Mirzə Möhsüngilin qapısını nə qədər döydüsə cavab verən olmadı. Axırda bir qonşu çıxıb dedi ki:

- Mirzə Möhsüngildə heç kəs yoxdu. Mirzə özü üç gündü itib. Qızı da iki gün bundan qabaq köçüb gedib.

Daşdəmirin öz dərdi yadından çıxdı ki, görəsən Mirzənin başına nə gəlmiş olar. Amma nə qədər fikirləşdisə heç bir yerə çıxara bilmədi. Qayıdıb evə gəldi. Bütün günü fikirlə keçirdi.

Axşam idi, təzəcə qaranlıq düşmüşdü, qapı döyüldü. Daşdəmir qapını açdı, gördü ayağında çarıq başında qıllı papaq, əlində dəyənək bir çobandı. Soruşdu:

- Nə istəyirsən?

Çoban dedi:

- Qonağam, şəhəri yaxşı tanımıram. Qəbul eləsən bu gecəni sizdə yatıb, səhər çıxıb gedərəm.

Daşdəmir dedi:

- Buyur içəriyə. - Fatı qarı çay qoydu, xörək gətirdi. Yedilər, içdilər, söhbətə başladılar. Qonaq dedi:

- Çobanam. Öz qardaşlarımın qoyununu otarıram. Padşahın qoşun böyüyü Abas bəyə üç-dörd qoyun gətirmişdim. Məni o qədər gecikdirdi ki, qaranlıq düşdü, qayıda bilmədim.

Daşdəmir dedi:

- Bəs Abas bəy səni niyə qonaq saxlamadı?

Qonaq dedi:

- Mən kiməm ki, Abas bəy məni qonaq saxlaya? Hələ az qalmışdı məni döydürsün ki, niyə az gətirmisən. Çox zülmkar, acgöz adamdı. Kimdə nə yaxşı şey görsə, o saat gördüyündən göz payı istəyir.

Daşdəmirin dərdi təzələndi. O da açıb öz ev əhvalatını, məhkəmə əhvalatını qonağa danışdı. Qonaq dedi:

- Niyə padşaha ərizə vermirsən?

Daşdəmir ərizəsini ona göstərib dedi:

- Elə padşah da onun tayıdı da. Budu, ərizə vermişdim, rədd eləyib.

Qonaq dedi:

- Yaxşı, mən ki, bu gün gördüm, Abas bəyin gözəl evi var, bağı var. Sənin bu balaca daxman onun nəyinə gərəkdi?

Daşdəmir az qaldı ki, açıb dəyirmanda başına gələn əhvalatı ona danışsın. Birdən Mirzə Möhsünün tapşırığı yadına düşdü ki, bu iş gərək sirr kimi qalsın. Dedi:

- Qonaq qardaş, bu elə bir sirdi ki, vaxtı çatmamış açmaq olmaz.

Elə bu söhbətdə qapı döyüldü. Daşdəmir durub qapını açdı. Içəriyə qara çadraya bürünmüş bir qadın girdi.

Fatı qarı tez qabağa çıxıb qadını qarşıladı, o biri otağa aparmaq istədi. Qadın getməyib, elə buradaca oturdu, sonra Daşdəmirdən soruşdu:

- Sənə üç sualım var, üçünü də yaxşı-yaxşı fikirləşib, sonra cavab ver! Birinci de görüm bu qonaq kimdi?

Daşdəmir dedi ki:

- Bu şəhərin adamı deyil. Dağlarda yaşayan bir çobandı. Səhər çıxıb gedəcək.

Qadın dedi:

- Ikinci sualım budu ki, de görüm sən Mirzə Möhsünə kömək eləmək istəyirsənmi?

Daşdəmir dik qalxdı ki: "Mən Mirzə Möhsün üçün başımdan keçməyə hazıram. De görüm sən kimsən? Mirzə Möhsün haradadı?"

Qadın dedi:

- Üçüncü sualıma cavab ver! De görüm sirr saxlamağı bacarırsanmı?

Daşdəmir hirsləndi. Dedi:

- Bacı, mən Mirzə Möhsündən dərs almışam.

Qadın onun sözünü kəsib dedi:

- Indi ki, Mirzə Möhsündən dərs alıbsan, onda cavab ver.

Bunu deyib qadın çadrasının altından bir boşqab çıxarıb Daşdəmirin qabağına qoydu. Daşdəmir baxıb gördü ki, boşqabda bir nar var, bir top iynə var, bir qayçı var, bir vərəq kağız var, bir tikə ət var, bir də bir bıçaq var.

Qadın dedi:

- Əgər Mirzə Möhsündən öyrəndiklərin yadından çıxmayıbsa bu şeylərdə gərək çətinlik çəkməyəsən.

Daşdəmir heç bir söz demədi. Bıçağı götürüb əti tikə-tikə doğradı. Qayçını götürüb kağızı kəsik-kəsik elədi, sonra iynələri bircə-bircə nara sancıb boşqaba qoydu. Qadın güldü, dedi:

- Afərin! Ancaq de görüm bununla nə demək istəyirsən?

Daşdəmir dedi:

- Xanım, mən başa düşdüm ki, sən mənə bir gizli sirr demək istəyirsən, ancaq qorxursan. Mən bununla demək istəyirəm ki, əgər mənim bədənimi bu ət parçası kimi parçalasalar, bu kağız kimi tikə-tikə doğrasalar, bu nar kimi oxla doldursalar, yenə də bu sirri heç kəsə açmaram. Qorxma, danış!

Bunu deyəndə qadın üzünü açdı. Daşdəmir baxdı ki, bu, Mirzə Möhsünün qızı Nardandı.

Daşdəmir soruşdu:

- Bu nə haldı? Atan haradadı?

Nardan dedi:

- Dayan! Elə bunun üçün gəlmişəm.

Sonra Nardan oturub başladı danışmağa. Dedi:

- Daşdəmir, o gün ki, atam saraya, padşahın yanına getdi, daha geri qayıtmadı. Bu günə qədər də başına nə gəldiyini bilmirəm. Ancaq elə haman gün bizim bu qonşumuz mənə beş dənə şey gətirdi ki: "Atan bazarda məni gördü, bu şeyləri alıb verdi ki, sənə çatdıram". Mən şübhələndim ki, atamın başına bir iş gəlib. Odur ki, daha evdə qalmayıb, gecə ilə köçdüm. Atamın göndərdiyi şeylərdən üçünü başa düşürəm, ikisini başa düşə bilmirəm.

Səni buna görə axtarırdım ki, mənə kömək eləyəsən. Daşdəmir dedi:

- Atanın göndərdiyi şeylər nədi?

Nardan dedi:

- Atam bir armud, bir gavalı, bir əl dəyirmanı, bir parça dəmir, bir dənə də daş göndərib. Əl dəyirmanı ovdandı. Daşla dəmir də sənsən. Amma armudla gavalını başa düşə bilmirəm.

Nardan bunu deyib, çadrasının altından bir armud, bir də bir gavalı çıxarıb Daşdəmirə verdi. Daşdəmir meyvələri görən kimi güldü. Dedi:

- Sən düz tapıbsan. Daş, dəmir, əl dəyirmanı sən dediyin kimidi. Ancaq mən bu meyvələri də tapdım.

Nardan soruşdu:

- Nədi?

Daşdəmir elə istəyirdi desin, birdən dönüb qonağa baxdı. Dedi: -Qonağın yuxusu gəlir. Qoy anam ona yer salsın, biz keçək o biri otağa.

Durub o biri otağa keçdilər. Daşdəmir armudu Nardana göstərib dedi:

- Nardan, bu armudun adı Abasbəyi armuddu. Bu gavalıya da bağbanlar vəzi Alı deyirlər. Atan demək istəyir ki, Daşdəmirin xaraba dəyirmanda başına gələn iş padşahın qoşun böyüyü Abas bəylə, bir də vəzirlə əlaqədardı.

Nardan baxdı ki, Daşdəmir düz deyir. Soruşdu ki:

- Bəs indi biz nə eləyək?

Daşdəmir dedi:

- Birinci iş budu ki, biz gərək bu sirri gizli saxlayaq. Ikinci odu ki, gərək atanın yerini öyrənək.

Nardan dedi:

- Necə öyrənək?

Daşdəmir dedi:

- Mən anamı köçürəcəyəm sənin yanına. O, çox igid arvaddı. Özü də yaşlı, dünyagörmüş adamdı. Siz bir yerdə qalarsınız. Mən də çalışıb bir yol ilə atanın yerini taparam. Onunla məsləhətləşməmiş heç bir iş görmək olmaz.

Sonra Daşdəmir öz başına gələnləri, Abas bəyin onu məhkəməyə verdiyini, padşahın da ərizəni rədd elədiyini Nardana danışdı. Sonra anasını da ona qoşub evlərinə göndərdi, qonağın yanına qayıtdı. Baxdı ki, qonaq hələ yatmayıb. Qonaq dedi:

- Amma Daşdəmir qardaş, sizin bu işlərinizdən mən heç bir şey başa düşmədim.

Daşdəmir dedi:

- Elə başa düşməsən yaxşıdı, çoban qardaş.

Qonaq gördü ki, Daşdəmir bu barədə danışmaq istəmir. Söhbəti dəyişdirdi. Dedi:

- Yaxşı, demək sabah yox, o biri gün Abas bəy bu evi səndən alacaq.

Daşdəmir dedi:

- Ala bilsə alar. Sabah yox, o biri gün padşahın yanına gedəcəyəm.

Qonaq dedi:

- Padşahın yanına səni buraxarlarmı?

Daşdəmir dedi:

- Onlara qalsa buraxmazlar. Amma mən də Daşdəmirəm. Elə bir iş düzəldəcəyəm ki, padşah özü məni yanına çağıracaq.

Oradan-buradan bir az da söhbət elədilər, yatdılar. Səhər çoban getdi. Daşdəmir o gününü də başa vurdu. Gecəni keçirdi. Səhər tezdən dan yeri təzəcə ağaranda durdu bir külüng, bir də bel götürüb düz padşahın sarayının yanına getdi. Sarayın özülünü qazmağa başladı. Səs-küyə saray keşikçiləri tökülüb gəldilər. Daşdəmiri tutub içəriyə apardılar, Nə qədər soruşdular ki, oranı niyə qazırdın?

Daşdəmir dedi:

- Padşahdan başqa heç kimə bir söz deyə bilmərəm.

Axırda onu padşahın yanına apardılar. Daşdəmir içəriyə girib gördü ki, padşah taxtın üstündə oturub, vəzirlə Abas bəy də buradadı. Amma padşahın üzü bir ipək dəsmalla örtülüdü.

Padşah soruşdu.

- A gədə, de görüm kimsən, nəçisən? Oranı niyə qazırdın?

Daşdəmir dedi:

- Padşah sağ olsun, orada yeddi küp qızıl var. Qazırdım ki, onları çıxaram.

Padşah dedi:

- Nə bilirsən orada qızıl var?

Daşdəmir dedi:

- Padşah sağ olsun, bu gecə yuxuda görmüşəm.

Padşah dedi:

- Ədə, ay axmaq, bəyəm adam yuxuda hər nə görsə o doğru olar?

Daşdəmir dedi:

- Padşah sağ olsun, mən də əvvəl elə bilirdim ki, yuxuda görünən şey doğru olmaz. Ancaq sizin bu qoşun böyüyü Abas bəylə bu vəziriniz mənə öyrətdilər ki, yuxuda görülən şeylər doğru olur.

Padşah dedi:

- Ətraflı danış görüm, nə olub?

Daşdəmir bütün əhvalatı danışıb axırda dedi:

- Padşah sağ olsun, indi sən özün de görək, bu necə olur ki, dövlətlilərin gördükləri yuxular doğru olur, kasıbların gördükləri doğru olmur?

Padşah vəzirlə Abas bəyə əmr elədi ki:

- Bu saat gedib məhkəmənin qərarını heç elərsiniz. Bu oğlanın evini özünə qaytararsınız.

Vəzirlə Abas bəy çıxdılar. Padşah qapıçıya dedi:

- Dünən sənə tapşırdığım şeyi gətir!

Qapıçı gedib bir padnos gətirdi. Padşah əmr elədi qapıçı padnosu Daşdəmirin qabağına qoydu. Daşdəmir baxdı ki, padnosda bir nar, bir top iynə, bir qayçı, bir vərəq kağız, bir tikə ət, bir də bıçaq var.

Padşah dedi:

- Əgər Mirzə Möhsündən dərs alıbsansa cavab ver!

Daşdəmir heyrətdən buz kimi dondu. Amma özünü sındırmayıb Nardan üçün elədiklərini burada da elədi. Padşah güldü. Dedi:

- Demək, söz verirsən ki, mənim sirrimi açmayacaqsan.

Daşdəmir dedi:

- Bəli.

Padşah üzünü açdı. Daşdəmir baxdı ki, bu haman gecə onlarda qonaq qalan çobandı. Padşah dedi:

- Sənin ərizəni mən qəsdən rədd eləmişdim ki, sonra yanına gələm, sənin fikrini öyrənəm. Mən öz adamlarımdan şübhələnmişəm. Deyəsən Mirzə Möhsün haqlı imiş. Bütün bu işləri eləyən deyəsən vəzirlə Abas bəydi. O gecə mən qəsdən paltarımı dəyişib sizə gəlmişdim. Ancaq bu sirri burada heç kəs bilmir. Bir sən bilirsən, bir də, mən. Sən də söz verdin ki, açmayacaqsan. Ancaq mən o gecə gördüm ki, sən bu barədə çox şeylər bilirsən. Indi de görüm, o dəyirman nə idi, o meyvələr nə idi? Mirzə Möhsün haradadı?

Daşdəmiri fikir götürdü. Ola bilərdi ki, padşah doğrudan da öz adamlarından şübhələnib, ancaq tək özü bu işi həll eləyib, bir yana çıxara bilmir. Ancaq bu da ola bilərdi ki, elə padşah özü də onlarla əlbirdi. Bu yol ilə sirri öyrənmək istəyir.

Dedi:

- Padşah sağ olsun, mən sizin öz yanınızda o qıza söz verdim ki, mənə hər, kim nə cəza versə də, mən bu sirri açmayacağam. Odu ki, siz nahaq yerə bunları məndən soruşursunuz. Mən heç bir şey bilmirəm.

Padşah dedi:

- Daşdəmir, sən çox şey bilirsən. Gəl inad eləmə! Bildiklərini mənə de!

Daşdəmir dedi:

- Padşah sağ olsun, mən heç bir şey bilmirəm.

Padşah dedi:

- Nə qədər ki, bildiklərini mənə deməmisən, mən səni burada saxlayacağam.

Sonra keşikçilərə əmr elədi ki, onu aparıb zindana salsınlar. Ancaq incitməsinlər. Özünü də gündə bir dəfə onun yanına gətirsinlər. Daşdəmiri aparıb zindana saldılar.

Heç kəs özünün zindana düşməyinə razı olmaz. Amma Daşdəmir zindana düşməyindən razı qaldı. Ona görə razı qaldı ki, Mirzə Möhsünü orada tapdı. Onun zindana düşməyindən Mirzə Möhsün də razı qaldı. O qədər gözlədilər ki, gecə düşdü, dustaqlar yatışdı, sonra Mirzə Möhsün dedi:

- Oğlum, məni vəzirlə Abas bəy buraya salıblar. Ayrı əlacları da yox idi. Əgər onlar məni buraya salmasa idilər, mən onların işinin üstünü açacaqdım. Məsələ belə oldu: padşahın fikri bu imiş ki, məni özünə məsləhətçi götürsün. Vəzirlə Abas bəy sözü bir yerə qoyurlar ki, məni padşahın gözündən salsınlar. Mənim də bu işdən, xəbərim yox. Haman gün, axırıncı dəfə mən saraya getdim. Çox tez olduğuna görə padşah hələ gəlməmişdi. Vəzir məni öz otağına apardı ki, yaxşı kəlləpaça bişitdirmişəm, gəl yeyək. Mən də yedim. Qurtarandan sonra vəzir mənə dedi ki, padşahın sarımsaq iyindən xoşu gəlmir. Odu ki, mən də padşahın yanına girəndə dəsmalı ağzıma tutub bir az aralı dayandım. Padşah məni belə görən kimi hirsləndi. Əmr elədi ki, cəllad mənim boynumu vursun. Sən demə, vəzir məni aldadıb, sarımsaq yedirdib, padşaha da deyib ki, guya, mən demişəm ki, padşahın ağzından qoxu gəlir, mən dayana bilmirəm. Mənim dəsmalı ağzıma tutub, uzaqda dayanmağım da padşah üçün bunu lap sübut eləyir. Odu ki, əmr elədi mənim boynumu vursunlar. Elə bu xəbəri eşitcək vəzir də, Abas bəy də sevincək gəldilər. Mən fikir verib gördüm ki, Abas bəyin şahanə qılıncı qınına yaxşı oturmayıb, o saat sənin dəyirmandan gətirdiyin qılınc tiyəsi mənim yadıma düşdü. Dedim hər nə olur olsun, ölürəmsə də, qoy bu sirri açım, sonra ölüm. Odu ki, padşaha dedim: - Padşah sağ olsun, indi ki, məni öldürürsünüz, arzum budu ki, boynumu qoşun böyüyü Abas bəy vursun, özü də sizin ona bağışladığınız şahanə qılıncla vursun.

Padşah fikrə getdi, bir mənə baxdı, sonra üzünü Abas bəyə tutub əmr etdi ki, "vur onun boynunu"! Abas bəy başladı yalvarmağa ki, "padşah sağ olsun, bunun heç bir günahı yoxdu, qoy bağışlayaq". Padşah yenə fikrə getdi, yenə də bir mənə baxdı, bir də ona baxıb dedi:

- Uzun danışma, çək şahanə qılıncı, vur onun boynunu.

Abas bəy əlini qılıncın qızıl qəbzəsinə atıb dedi:

- Padşah sağ olsun, deyirsən vur vururam, amma onun günahı yoxdu. Əgər günahı varsa, qoy elə bircə dəfədə başı yerə düşsün. Əgər günahı yoxdursa, mənim şahanə qılıncım taxtaya dönsün.

Abas bəy qılıncı çəkdi, nə görsən yaxşıdı. Şahanə qılıncın tiyəsi taxtadan, hamı fikrə getdi. Padşah da fikrə getdi. Üzünü mənə tutub dedi:

- Görünür ki, sən günahkar deyilmişsən. Get, sabah gələrsən mənim yanıma.

Məsələ mənim üçün lap aydın oldu. Aydın oldu ki, xaraba dəyirmanda səninlə vuruşan adam Abas bəy imiş. Sənin qırdığın qılınc da Abas bəyin şahanə qılıncı imiş. Hələ fürsət tapıb qılıncı qayırtdıra bilmədiyinə görə padşah şübhələnməsin deyə qızıl qəbzəyə taxtadan tiyə qayıtdırmışdı. Bu işdən sonra əlbəttə ki, onlar məni rahat qoymazdılar. Odu ki, təzəcə bazara çatmışdım ki, məni tutub gətirib buraya saldılar.

Daşdəmir dedi:

- Biz sənin göndərdiyin şeylərdən işi başa düşmüşdük.

O da öz başına gələnləri Mirzə Möhsünə danışdı.

Mirzə Möhsün dedi:

- Çox güman var ki, padşah elə doğrudan da pis adam deyil, ancaq cavan olduğuna görə Abas bəylə vəzir onu əllərində oynadırlar. Ancaq ona da tamam inanmaq da olmaz. Hər halda sən sirri ona vermə. Ehtiyatlı ol, görək başımıza nə gəlir.

Bu işin üstündən bir neçə gün keçdi. Hər gün padşah Daşdəmiri yanına çağırıb, sirri yenidən ondan soruşurdu. Daşdəmir də deyirdi ki, mən heç nə bilmirəm. Nə Daşdəmir bildiklərini ona deyirdi, nə də o Daşdəmiri zindandan buraxdırırdı.

Günlərin bir günündə padşah yuxudan oyanıb gördü ki, düşmən olan qonşu bir padşahın qoşunu şəhəri dövrəyə alıb. Öz adamlarını göndərib soruşdu ki, nə istəyirlər.

Dedilər ki, "bizim sualımız var, ya gərək suala cavab verəsiz, ya da bizə təslim olasız".

Padşah soruşdu ki, sualınız nədi? Dedilər ki, "sabah şəhərinizin bütün ağıllı adamlarını yığın, gəlib sualımızı deyəcəyik".

Padşah car çəkdirdi, şəhərin bütün ağıllı adamlarını yığdı. Sabah açıldı. Düşmən padşahın adamları iki dənə bir boyda, bir biçimdə, bir rəngdə madyan at gətirdilər ki, tapın görək bunlardan hansı anadı, hansı bala?!

Amma atların dişlərinə baxmaq olmaz.

Adamlar nə qədər baxdılar, fikirləşdilərsə heç kəs cəsarət eləyib bir söz deyə bilmədi. Axırda padşah qapıçını çağırıb əmr elədi ki:

- Get zindandan Daşdəmiri gətir.

Daşdəmiri gətirdilər. Padşah əhvalatı ona danışıb dedi:

- Ümidim bircə sənədi. Mirzə Möhsün itibdisə də, sən onun yerindəsən, gərək bu suala cavab verəsən.

Daşdəmir dedi:

- Gözüm üstə, əmr eləyin burada iki axur qayırsınlar, hərəsinə də bir az arpa töksünlər.

Elə ki, axurlar hazır oldu, Daşdəmir atların ikisinin də cilovunu başlarından çıxarıb axurlara buraxdı.

Arpanı görcək atların biri kişnədi. O birisi qaçıb onun yanına getdi.

Daşdəmir dedi:

- Padşah sağ olsun, kişnəyən at anadı, onun yanına qaçan da bala.

Hamı Daşdəmirə afərin dedi.

Düşmən tərəf də atlarını götürüb kor-peşman getdi.

Hamı gedəndən sonra padşah Daşdəmirə dedi:

- Çox sağ ol! Sən olmasaydın işimiz şuluq idi. Məndən hər nə istəyirsən istə.

Daşdəmir dedi:

- Padşah sağ olsun, mənə sənin heç bir şeyin lazım deyil. Istəyim budu ki, məni azad eləyəsən, çıxıb gedəm.

Padşah dedi:

- O barədə danışma. Sirri deməmiş səni buraxası deyiləm. De görüm o qız sənə nə dedi? O meyvələr nə idi?

Daşdəmir dedi:

- Padşah sağ olsun, mən o barədə heç bir söz deməyəcəyəm.

Padşah dedi:

- Nə qədər ki, deməmisən, zindanda qalacaqsan.

Bunu deyib əmr elədi, yenə də Daşdəmiri zindana apardılar.

Zindanda Daşdəmir əhvalatı Mirzə Möhsünə danışdı.

Mirzə Möhsün dedi:

- Yaxşı eləmisən ki, heç bir söz deməmisən. Ehtiyatlı olmaq lazımdı. Ancaq o padşahın adamları əl çəkməyəcəklər, yenə də gələcəklər. Yenə də padşah səni çağırsa, onunla bir şərt kəsib sonra suala cavab verərsən.

Daşdəmir soruşdu:

- Nə şərt?

Mirzə Möhsün dedi:

- Bu padşah başqa padşahlara bənzəmir. Deyəsən bu doğrudan da yaxşı adama oxşayır, ancaq yenə də inanmaq olmaz. Mən bir məsələdən şübhələnmişəm. Əgər sən bir işi öyrənə bilsən, biz bu padşahı yaxşıca tanıyarıq, ondan sonra da bilərik ki, işi ona açmaq olar, ya olmaz.

Bu işin üstündən iki gün keçdi. Üçüncü gün düşmən padşahın adamları yenə də gəldilər. Bu dəfə çox qəribə bir sual gətirmişdilər. Amma çox da, çətin idi. Torpağın üstündə bir dənə yumru çevrə çəkib soruşdular ki, ya bu suala cavab verin, ya da təslim olun. Nə qədər adam yığılmışdısa,

bu sualdan heç kim heç nə başa düşmədi. Padşah yenə də Daşdəmiri çağırtdırdı. Daşdəmir gedəndə Mirzə Möhsün ona dedi:

- Padşah səndən soruşacaq ki, məndən nə istəyirsən, deyərsən ki, səndən bircə xahişim var, o da budu ki, ananı çağırasan, öz yanında ondan bir şey soruşacağam, sonra da bütün sirləri sənə açıb deyəcəyəm. Padşah anasını çağıracaq. Onda anasından soruşarsan: "Bir ana ki, bilə-bilə öz balasını itirə belə ananın cəzası nədi?" O nə eləsə gəlib mənə deyərsən:

Daşdəmiri məclisə apardılar. Padşah çevrəni ona göstərib cavab istədi. Daşdəmir əlinə bir ağac alıb, çevrəni ortadan iki yerə böldü. Düşmən tərəf işi belə görəndə gətirib çevrənin bir tərəfində bir ox qoydular. Daşdəmir də padşahın qılıncını götürüb ikinci tərəfə qoydu. Belə olanda düşmən tərəf çevrənin içinə bir ovuc darı tökdü. Daşdəmir tez əmr elədi, bir xoruz tutub gətirdilər. Xoruz bütün darını dənlədi. Düşmən tərəf heç nə deməyib, yola düzəldi.

Bu danışıqsız sual-cavaba hamı məəttəl qalmışdı.

Padşah soruşdu:

- Daşdəmir, mən heç bir şey başa düşmədim. De görüm onlar nə soruşurdu, sən nə cavab verirdin?

Daşdəmir dedi:

- Padşah sağ olsun, o çevrəni ki, onlar çəkmişdilər, demək istəyirdilər ki, bütün dünya gərək bizim ola. Mən də araya xətt çəkib dedim ki, bizim bu dünyada, öz yerimiz var, heç kəsi oraya qoymarıq. Sonra onlar ortaya ox qoydular ki, əgər belə olsa, biz dava eyləyəcəyik. Mən də sənin qılıncını çəkib onların qabağına qoydum, ki, biz sizdən qorxmuruq. Sonra onlar çevrəyə darı tökdülər ki, bizim qoşunumuzun sayı-hesabı yoxdu. Mən də bütün darını bir xoruza dənlətdim ki, bizdə də belə oğlanlar var. Ona görə də durub getdilər.

Padşah dedi:

- Sağ ol, Daşdəmir, sən olmasaydın biz heç birimiz onlara cavab verə bilməyəcəkdik. De görüm, məndən nə istəyirsən?

Daşdəmir dedi:

- Padşah sağ olsun, mən bilirəm ki, sirri deməmiş sən məni azad eləməyəcəksən. Mən də sirri sənə deməyəcəyəm. Odu ki, bu barədə danışmayaq. Indi mənim səndən bir xahişim var. O da budu ki, ananızı çağırasınız buraya. Sizin yanınızda ondan bir söz soruşacağam.

Padşah əmr elədi, otağın bir tərəfinə pərdə çəkdilər. Otaqda bir padşah, bir də Daşdəmir qaldı. Padşahın anası da gəlib pərdənin arxasında əyləşdi. Daşdəmir pərdəyə yaxınlaşıb dedi:

- Xanım, o ana ki, bilə-bilə öz balasının itməyinə səbəb ola, o ananın cəzası nədi?

Elə Daşdəmir sözünü qurtaran kimi pərdənin dalından bir qışqırtı eşidildi. Padşah yüyürüb gördü ki, anası yıxılıb özündən gedib. Padşah geri dönüb Daşdəmirdən soruşdu:

- De görüm, bu nə söz idi? Sən ona nə dedin?

Daşdəmir dedi:

- Padşah sağ olsun, mən bunu sizə hələlik deyə bilmərəm. Çünki buna ixtiyarım yoxdu.

Padşah əmr elədi, Daşdəmiri yenə də zindana apardılar. Daşdəmir əhvalatı Mirzə Möhsünə danışdı. Mirzə Möhsün dedi:

- Indi hər şey mənə aydındı. Padşahdan çox qorxma. Amma vəzirdən, bir də Abas bəydən özünü gözlə! Daha hər şeyi açıb padşaha demək olar. Xaraba dəyirman əhvalatını da, qılınc məsələsini də, mənim zindanda olmağımı da ona demək olar. O məni yanına çağıranda mən elə bir sirr açacağam ki, hamınız məəttəl qalacaqsınız.

Daşdəmir dedi:

- Yox... Mən Nardana söz vermişəm. Ondan xəbərsiz bu, barədə heç kəsə bir söz deməyəcəyəm. Sirri padşaha açmaq üçün gərək mən qabaqca Nardandan icazə alam.

Mirzə Möhsün dedi:

- Indi sən Nardanı haradan tapacaqsan ki, icazə də asan.

Daşdəmir dedi:

- Orasını bilmirəm. Amma orasını bilirəm ki, mən kişiyəm, ona da kişi kimi söz vermişəm. Ölümə də getməli olsam, icazə almamış heç kəsə bir kəlmə də olsun demərəm.

Elə bu sözdə padşahın adamları gəldilər ki, padşah Daşdəmiri çağırır. Daşdəmir durub getdi.

Düşmən padşahın adamları yenə də gəlmişdilər. Amma bu dəfə çox arxayın idilər ki, Daşdəmir heç bir şey edə bilməyəcək. Bir böyük daş gətirmişdilər ki, ya bundan bizim padşahımıza bir dəst paltar tikin, ya da təslim olun!

Daşdəmir işi belə görüb dedi:

- Daşdan paltar tikmək çətin deyil. Ancaq iynəm qırılıb, sapım da qurtarıb.

Yerdən bir ovuc qum götürüb onlara verdi ki:

- Alın bu qumu iynə-sap eləyin, verin tikim.

Düşmən tərəfin adamları qaldılar məəttəl. Onların böyüyü dedi:

- Qumdan da iynə-sap olar?

Daşdəmir dedi:

- Çox yaxşı olar. Qumdan iynə-sap düzəltməyi bacarmayan adam daşdan paltar geyə bilməz. Mən buradayam. Gedin nə vaxt mən dediyim iynə-sap gətirdiniz paltarınızı tikərəm.

Düşmən tərəfin adamları durub getdilər. Padşah Daşdəmirə dedi:

- Çox sağ ol! Sən bu dəfə onları elə yola saldın ki, daha bir də gəlməzlər. Ancaq daha mən də sənlə axırıncı dəfə danışmaq istəyirəm. Ya bu gün bütün bildiklərini mənə deməlisən, ya da boynunu vurduracağam.

Daşdəmir dedi:

- Padşah sağ olsun, mən sirr sahibindən icazə almamış sənə heç bir söz deyə bilmərəm. Məni azad elə, gedim icazə alım, gəlim deyim.

Padşah dedi:

- Yox, mən səni əlimlə buraxıb, sonra ayağımla axtara bilmərəm. Ya danış, ya da bu gün səni asdıracağam. Daşdəmir dedi:

- Istəyirsiniz bir dəfə yox, lap beş dəfə asdırın. Mən icazə almamış sizə heç bir söz deməyəcəyəm.

Padşah əmr elədi, meydanda dar ağacı quruldu. Şəhərdə car çəkdilər ki, Daşdəmir padşahdan sirr gizlətdiyinə görə dar ağacından asılacaq.

Hər şey hazır olandan sonra camaat yığıldı. Daşdəmiri meydana gətirdilər. Padşah bir də soruşdu:

- Deyirsən, ya yox?

Daşdəmir dedi:

- Xeyr. Mən heç bir şey bilmirəm.

Padşah cəlladlara əmr verdi ki, assınlar. Elə ipi onun boynuna salanda, haradansa bir atlı atı elə sürüb keçdi ki, heç kəs onun üzünü görə bilmədi. Ancaq onu gördülər ki, dar ağacına çatanda yerə bir nar vurdu. Nar parçalandı, dənələri ətrafa səpələndi. Daşdəmir cəlladlara dedi:

- Gedin, padşaha deyin ki, mən danışmağa hazıram.

Gedib padşaha xəbər verdilər.

Padşah ondan soruşdu:

- Niyə indiyə kimi demirdin, indi razı oldun?

Daşdəmir nar dənələrini ona göstərib dedi:

- Padşah sağ olsun, sirr sahibi sirrin açılmasın icazə verdi.

Padşah başa düşdü ki, atlı Nardan imiş. Dedi:

- Indi de görüm mənim sizdə gördüyüm o qız kim idi?

Daşdəmir dedi:

- O, Mirzə Möhsünün qızı idi.

Padşah dedi:

- Çox gözəl. Mən də belə bilirdim, indi de görüm Mirzə Möhsün o armud və gavalı ilə nə demək istəyirdi?

Daşdəmir dedi:

- O demək istəyirdi ki, xaraba dəyirmanda mənim başıma gələn əhvalat Abas bəylə, bir də vəzirlə əlaqədardı.

Padşah soruşdu:

- Xaraba dəyirmanda sənin başına nə iş gəlibdi?

Daşdəmir əhvalatı danışdı.

Padşah soruşdu:

- Hanı o qılınc?

Daşdəmir dedi:

- Mirzə Möhsün gizlədib.

Soruşdu:

- Mirzə Möhsün haradadı?

Daşdəmir dedi:

- Zindandadı.

Padşah soruşdu:

- Onu kim zindana salıb?

Daşdəmir dedi:

- Vəzirlə Abas bəy.

Padşah adam göndərdi. Mirzə Möhsünü gətirsinlər.

Daşdəmirdən soruşdu:

- Sən mənim anama nə dedin?

Daşdəmir dedi:

- Onu da mənə Mirzə Möhsün demişdi. Mən o barədə heç nə bilmirəm.

Bu sözdə Mirzə Möhsünü gətirdilər. Padşah soruşdu:

- Mirzə, hər şeydən qabaq mənə de görüm o qılınc haradadı?

Mirzə Möhsün dedi:

- Qızımdadı. Daşdəmiri göndərin qızı da, qılıncı da gətirsin.

Padşah Daşdəmiri göndərdi, sonra soruşdu ki:

- Daşdəmir mənim anama bir söz dedi, o da yıxılıb özündən getdi. De görüm bu nə məsələdi?

Mirzə Möhsün dedi:

- Qoy hamı gəlsin, sonra deyərəm. Sən hələ nə qədər ki, işdən xəbərdar olmayıbsan vəzirlə Abas bəyi tutub zindana sal! Dəyirmançı ilə arvadını da, Daşdəmirin atasını da öldürən onlardı. Şəhərdəki quldur dəstəsinin başçısı da onlardı.

Padşah əmr elədi, o saat vəzirlə Abas bəyi tutub zindana saldılar.

Bu tərəfdən də Daşdəmir, Fatı qarı, bir də Nardan gəldilər. Nardan qılıncı da gətirdi. Padşah baxdı ki, Abas bəyə verdiyi şahanə qılıncdı.

O saat taxta qılınc əhvalatı onun yadına düşdü. Mirzə Möhsün sarımsaq əhvalatını da padşaha danışdı.

Sonra padşaha dedi:

- Indi qulaq as, axırıncı sirri sənə deyəcəyəm. Bunu məndən başqa heç kəs bilmir. Padşah sağ olsun, səndən qabaqkı padşah nə qədər evlənirdisə oğlu olmurdu. Həmişə qızı olurdu. Özü də o qədər zalım idi ki, iş elə gətirdi ki, bunun da qızı oldu. O gecə haman o dəyirmançının da bir oğlu olur. Sənin haman bu vəzirinlə Abas bəy əlbir, dilbir olub dəyirmançı ilə arvadını boğub öldürürlər, uşağı gətirib padşahın qızı ilə dəyişirlər. Qızı da aparıb çölə atırlar. Indi padşah sağ olsun, sən əslində haman o dəyirmançının oğlusan ki, atanı da, ananı da haman o vəzirlə Abas bəy öldürüblər.

Padşah hirslənib yerindən qalxdı:

- Bu dediklərin üçün sənin əlində sübutun varmı?

Mirzə Möhsün dedi:

- Var, padşah sağ olsun! Birinci sübutum budu ki, mən sənin atanı tanıyırdım. Sən ona o qədər oxşayırsan ki, elə bil bir almanı yarı bölüblər. Elə əslində də mən səni görəndən sonra fikirləşmişəm ki, bu belə olub. Ikinci sübutum budu ki, sən xasiyyətcə köhnə padşaha oxşamırsan. O zülmkar və ağılsız bir adam idi. Camaatın dərdinə heç qalmazdı. Amma sən ona oxşamamısan.

Padşah fikrə getdi. Dedi:

- Dediklərin bir az ağılabatandı. Ola bilər. Ancaq mən başa düşmürəm ki, vəzirlə Abas bəy niyə gərək padşahın qızı ilə məni dəyişdirə idilər. Bunun onlara nə mənfəəti var idi?

Mirzə Möhsün dedi:

- Bunun onlara mənfəəti bu idi ki, padşah qocalmışdı. Onlar qorxurdular ki, padşah ölə, padşahlıq ayrı adama çata, ona görə də səni tapıb gətirdilər, bir neçə ildən sonra da padşahı zəhərləyib öldürdülər. Səni padşah elədilər. Işi öz əllərinə aldılar. Sonra da bununla doymayıb, quldur dəstəsi düzəltdilər. Əgər biz bu işi belə ehtiyatla başa çatdırmasaydıq, sən özün də ağıllı hərəkət eləməsəydin, onlar bizim hamımızı yox eləyəcəkdilər.

Padşah yenə də fikrə getdi. Dedi:

- Mən sənin bütün dediklərinə inanmaq istəyirəm. Amma inana bilmirəm. Elə bir sübut göstər ki, mən inanım.

Mirzə Möhsün dedi:

- Padşah sağ olsun onda adam göndər, anan buraya gəlsin, ondan soruşaq.

Padşah adam göndərib anasını çağırtdırdı. Ondan əhvalatı soruşdu. Qabaqca yazıq arvad qorxdu. Mirzə Möhsün dedi:

- Xanım, qorxma! Sənə heç kəs güldən ağır bir söz deməyəcək. Özü də mən söz verirəm ki, bu saat sənin qızını buraya gətirim.

Arvad açıb əhvalatı danışdı. Baxdılar ki, Mirzə Möhsün doğru deyirmiş. Iş belə olanda padşah dedi:

- Indi sən gərək padşahın qızını da tapasan. Demək, əsil padşahlıq ona çatır. Mən taxt-tacı ona verib, özüm atamın dəyirmanına gedəcəyəm.

Mirzə Möhsün dedi:

- Yox, padşah sağ olsun, o qız elə tərbiyə olunub ki, padşahlıq qəbul eləməz. O, hər şeydən çox kitabı, elmi sevir. Ancaq gərək bizə söz verəsən ki, camaatı yaxşı dolandıracaqsan. Elin dərdinə qalacaqsan. Xainləri də cəzasına çatdıracaqsan.

Padşah dedi:

- Yaxşı, bəs haradadı o qız?

Mirzə Möhsün dedi:

- Vəzirlə Abas bəy o qızı aparıb meşəyə tullamışdılar ki, qurd-quş yesin. Mən o qızı tapıb, öz qızım kimi böyüdüb saxlamışam. O heç özü də bu əhvalatı bilmir. Budu o qız.

Bunu deyib Mirzə Möhsün Nardan qızın üzündəki örtüyü açdı. Baxdılar ki, Nardan qız elə bil padşahın arvadının özüdü. Ana ilə bala görüşdülər. Padşah dedi:

- Nardan xanım, padşahlıq sənindi. Gəl taxt-taca sahib ol!

Nardan dedi:

- Yox, mən onu sənə verirəm. Sən hələ cavansan. Ancaq görünür ki, ədalətli padşah olacaqsan. Bir də ki, sən də mənim anamın südü ilə böyümüsən. Demək ki, biz süd bacı qardaşıyıq. Padşahlıq sənə çatır.

Padşah dedi:

- Bacı, onda de görüm mənə məsləhətin nədi?

Nardan dedi:

- Məsləhətim odu ki, camaatla yaxşı rəftar elə, xainlərin cəzasını ver! Mənim əsil atam, mənə tərbiyə verən Mirzə Möhsündü. Onu özünə vəzir elə. Məni də Daşdəmirdən ayırma.

Padşah Mirzə Möhsünü özünə vəzir elədi. Köhnə vəzirlə Abas bəyi dar ağacından asdırdı. Sonra da Daşdəmirlə Nardan qıza toy elədi.

F Ə T Ə L I Ş A H I N N A Ğ I L I

Biri var idi, biri yox idi, bir Fətəli adlı padşah var idi. Bu padşahın bir dərvişi var idi. Hər gün gəlib padşaha bir qəsidə oxuyardı, padşahdan illiyini alardı. Bir gün dərviş gecə gəldi, gördü padşah qəm dəryasına qərq olub, heç halı özündə deyil. Dərviş bir alma çıxartdı, almaya üfürdü, sırfanın üstünə qoyub getdi. Dərviş gedəndən sonra padşah qəflətdən ayılıb dedi:

- Dərvişi tapın, bura gətirin.

Hər yerə adam saldılar, dərvişdən bir nişan tapmadılar. Axırda padşah özü dərviş libası geyib yola düşdü. Iki dərvişə rast gəldi. Dərvişlər ondan soruşdular:

- Dərviş qardaş, hara gedirsən?

Padşah dedi:

- Dərviş yoldaşımı itirmişəm, onu axtarıram.

Dərvişlər dedilər:

- Bir qəsidə oxu, yerini deyək.

Padşahın yaxşı səsi var idi. Bir yaxşı qəsidə oxudu. Dərvişlər bunu şəhərə aparıb bir yaxşı hücrə tutdular. Fətəli şah bir nökər də tutub içində başladı yaşamağa. Bir gün Fətəli şah bazara çıxmışdı. Gördü bir qız satırlar. Qızı səkkiz yüz tümənə satın aldı. Hücrəyə gətirib gördü bu bir erməni qızıdı, o qədər gözəldi, misli-bərabəri ola bilməz. Fətəli şah qızdan əhval tutdu, gördü tacir qızıdı.

Fətəli şah çox əliaçıq, ədalətli şah idi. Özüynən götürdüyü pulu yoxsula-fağıra payladı. Bir də baxdı ki, pulu qurtarıb. Çox kefsiz oldu. Qız bunu başa düşüb dedi:

- Qəm yemə, məndə pul var.

Fətəli şah soruşdu:

- Pul səndə hardan olacaq?

Qız dedi:

- Mən yaxşı rübənd toxuyuram. Rübənd toxuyaram, aparıb satarsan. Bu pul deyil, bəs nədi?

Qız bugündən rübənd toxuyurdu. Fətəli şah aparıb, rübəndin birini yüz tümənə satırdı, kefi kök, damağı çağ dolanırdılar. Bir gün Fətəli şah rübənd satmağa getmişdi. Bazarda bir dərvişə rast gəldi. Dərviş ondan rübənd istədi. Demə, bu erməni padşahının əyyarı imiş, qızı axtarırmış. Fətəli şah onu götürüb evinə gətirdi. Dərviş hamını yuxuya verdi, qızı götürüb qaçdı. Səhər tezdən Fətəli şah durub gördü nə qız var, nə də dərviş. Başa düşdü ki, qızı dərviş aparıb. Haray hara çatacaq! Nəyi vardısa yoxsullara paylayıb, Ermənistan deyibən yola düşdü. Uzaq yolu yaxın eləyib Ermənistana çatdı. Gördü hamı qırmızı geyinib. Birindən soruşdu:

- Camaat niyə qırmızı geyinib?

Ona dedilər:

- Padşahın qızını oğurlamışdılar. Indi əyyar tapıb gətirib. Onunçün hamı qırmızı geyinib şadlıq eləyir.

Fətəli şah dedi:

- O qız mənim arvadımdı.

Dedilər:

- A kişi, nə danışırsan? Bilib səni öldürərlər.

Fətəli şah soruşdu:

- Bəs mən nə cür eləyim?

Biri dedi:

- Nə cür eləyəcəksən? Get başını daşa vur. Səni dəli hesab eləyib, kilsəyə aparacaqlar. Qırx gün səni kilsədə saxlayacaqlar. O zaman mətləbini allah verər.

Dığa paltarını da Fətəli şaha verdi.

Fətəli şahın başı daşa dəydi, öz-özünə dedi.

- Qoy kilsəyə gedim, görüm axırı necə olur. Kilsədən mətləb istəyim, bəlkə sevgilimə çatdım.

Fətəli şahı kilsəyə apardılar. Fətəli şah qırx gün kilsədə qaldı. Qırx gün tamamında gördü bərk səs-küy var, gördü şah qızına toy edib, başqa oğlana verir. Qızı nişanlısı ilə kilsəyə gətirdilər. Fətəli şah gizlənmişdi. Gördü qız deyir:

- Mənim ərim var. Bu oğlana gedə bilmərəm.

Qız özünü öldürmək istəyəndə Fətəli şah gizlindən çıxdı. Padşah qızını da götürdü. Yola düşdülər, yeddi gün yol gedib bir meşəyə çıxdılar. Meşədə qız yatdı. Fətəli şah qızın kilsədə olan lə`lini atıb tuturdu. Bu zaman bir qaraquş göydən lə`li gördü, şığıyıb, lə`li götürüb qaçdı. Fətəli şah dedi:

- Ay dad, qız duranda deyəcək puldan ötrü məni bura gətiribmiş.

Fətəli şah quşun dalına düşdü. Axırda quşu da itirdi, özü də azdı, gedib bir vilayətə çıxdı. O biri tərəfdən qız da yuxudan ayılıb gördü Fətəli şah yoxdu. Dedi:

- Lə`li götürüb qaçıb. Harda olsa mən onu tapmalıyam.

Qız yola düşdü. Yolda bir çobana rast gəldi. Söhbət əsnasında çobana bihuşdarı verib, paltarını soyundurdu. Öz paltarını çıxarıb onun yanında qoydu. Çobanın paltarını geyinib getməyə başladı. Bir müddət yol gedib, bir şəhərə çatdı. Ac idi. Bir aşpazxanaya getdi. Aşpazdan yemək istədi. Aşpaz ona yemək gətirdi. Qız yeməyi yemədi. Aşpaz ondan soruşdu:

- Ay oğlan, niyə yemirsən?

Qız dedi:

- Pis bişirilib.

Aşpaz ona dedi:

- Mənə şagird olarsanmı?

Qız aşpaza şagird oldu. Qız elə lətif yeməklər bişirirdi ki, hamı axışıb bu aşpazxanaya gəlirdi. Bu aşpazxananın yeməklərinin sədası hər yerə yayılmışdı. Aşpaz qızı öz evinə apardı, qızının kəbinini ona kəsdirdi. Oğlan paltarında olan qız aşpaz qızına dedi:

- Bizim yerdə adətdi. Toydan sonra bir il nə oğlan qıza, nə qız oğlana yaxın getməz.

Aşpaz qızı razı oldu. Bunlar burada yaşamaqda olsunlar, al xəbəri Fətəli şahdan.

Fətəli şah elə ki, quşu itirdi. Gecə-gündüz yol gedib, bir bağa çıxdı, bağbana şagird oldu. Bağban ona öz oğlu kimi baxırdı. Bir gün Fətəli şah dəhnədən arxa suyu buraxdı. Gördü su bir yerdə dayandı. Fətəli şah bellə suyun qabağını alanda gördü bir kuful var, su ora tökülür. Kufulun ağzını qazanda gördü burada qırx küp qızıl var.

Fətəli şah küplərin başını duznan doldurub bağbana dedi:

- Qırx küp duz tapmışam, aparım bazarda satım. Küpləri gəmiyə yığıb apardı başqa şəhərə satmağa. Fətəli şah gedib arvadı olan şəhərə çıxdı. Aşpaz dükanının qabağından keçirdi. Oğlan paltarında arvadını görüb tanıdı, duz küplərini aşpaza satdı. Qız küplərin ağzını açanda gördü ağzında bir az duz var, küplər tamam qızılla doludu. Qız o saat başa düşdü ki, burda bir iş var. Qız bazara çıxdı, duz satana axtarıb tapdı. Bunlar bazarda gəzirdilər. Qız gördü paltarını yanında qoyduğu çoban onun paltarını bazarda satır. Qız çobanı da, duz satanı da götürüb evinə apardı.

Qız çobandan soruşdu:

- Bu paltarları hardan almısan?

Çoban dedi:

- Düzü belədi, mən qoyun otarırdım. Hardansa padşah qızı mənim yanıma gəlir. Qəflətən mənə bihuşdarı verib, məni bihuş edir, paltarımı çıxarıb aparır, öz paltarını da mənim yanımda qoyur. Bu həmin paltardı.

Sonra üzünü Fətəli şaha tutub dedi:

- Nə cür olur ki, sən duz əvəzində qızıl satırsan?

Fətəli şah özünü tanımamazlığa qoyub dedi:

- Ay cavan, mənim hekayəm uzundu. Qoy deyim.

Fətəli şah başına gələn əhvalatları mən sizə nağıl elədiyim kimi, quş lə`li aparandan bu günə qədər qıza nağıl elədi.

Qız o saat papağını götürdü. Bir-birinin boynuna sarıldılar. Aşpaz da gəlib çıxdı, qız əhvalatı aşpaza danışdı. Aşpazın qızını çobana verdilər. Qırx gün, qırx gecə toy elədilər. Fətəli şah küplərdə olan qızılları da çobana bağışladı. Özləri aşpazla, qızı ilə, çobanla xudahafizləşib yola düşdülər. Bir gün, bir gecə yol getdilər. Bir çəmənlikdə bulaq başında oturdular. Fətəli şah yuxuya getdi.

Demə əyyar qızı axtarırmış. Bunları gördü. O saat fürsəti fövtə vermədi, qızı götürüb getdi. Göydən Fətəli şaha dedi:

- Bir də qızın dalınca gələrsən, dərini boğazından çıxardaram.

Fətəli şah bunu eşidib yuxudan oyandı, gördü qızı aparıblar. Başına-gözünə döydü. Axırda yola düşüb, Şah Abbasın yanına getdi, ona şikayət elədi.

- Şah, mənim arvadımı al, özümə ver. Sənə pənah gətirmişəm.

Padşahın Fətəli şaha rəhmi gəldi, bütün əyyarları yanına toplatdı. Bir kasa su gətirtdi, içinə bir lə`l salıb dedi:

- Bir əyyar istəyirəm suyun içindən lə`li götürsün, suyu içsin, gedib Ermənistan padşahının qızını gətirsin.

Kiçik əyyar gedib baş əyyarın paltarını geydi. Lə`li götürüb yola düşdü. Bunu baş əyyar bildi. Kiçiyin dalınca yola düşdü. Yolda kiçik əyyara çatdı, dedi:

- Hara gedirsən?

Kiçik Əyyar dedi:

- Gedirəm Ermənistan padşahının qızını gətirməyə.

Baş əyyar dedi:

- Gedib gətirə bilməzsən. O sənin hünərin deyil. Şərt qiyafəynən deyil, biliknəndi.

Kiçik əyyar dedi:

- Ölsəm də gedəcəyəm.

Baş əyyar ona dedi:

- Onda qoy sənə bir kağız verim, yolda bir qardaşım var, ona verərsən, sənə kömək elər.

Baş əyyar bir kağız yazıb ona verdi. Kiçik Əyyar yola düşüb ondan ayrıldı. Yolda açıb kağızı oxudu, gördü baş əyyar yazıb.

- Qardaş, bunu qoymazsan getsin.

Kiçik əyyar bu kağızı cırıb atdı. Başqa bir kağız yazdı ki: "Qardaş, buna kömək elərsən, gedib şahın qızını gətirər". Kiçik əyyar özü yazdığı kağızı cibinə qoydu, yola düşdü, ta ki, gedib baş əyyarın qardaşının yanına çıxdı. Kağızı ona verdi. Qardaşı dedi:

- Bu kağızı sən özün yazmısan. Mənim qardaşımın xətti deyil. Burdan heç yana gedə bilməzsən.

Kiçik əyyar bir bahanaynan evdən çıxıb qaçdı. Onun dalınca çox qaçdılar, onu tuta bilmədilər. Kiçik əyyar gedib Paşa xanın şəhərinin yanına çıxdı. Bir xarkandan soruşdu.

- Əmi, neçə baş külfətin var?

Xarkan dedi:

- Doqquz baş. Nəyinə lazımdı?

Kiçik əyyar dedi:

- O xəntərə külfəti nə cür dolandırırsan?

Xarkan dedi:

- Bir təhər, ölmə-diril.

Kiçik əyyar dedi.

- Saqqalını niyə qırxdırmırsan?

Xarkan dedi:

- Pulum yoxdu, dəlləyə verib qırxdıram.

Kiçik əyyar dedi:

- Mən dəlləyəm, otur qırxım.

Kənardan Zöhr əyyar onu gördü, tutmaq istəyəndə kiçik əyyar qaçıb bir qarının evinə girdi. Qarı kösövü götürüb heç kəsi evə buraxmadı. Evdə təkcə kiçik əyyar qaldı. Kiçik əyyar qarının əlinə bir ovuc qızıl basdı, qarının gözü arpa yemiş dananın gözünə döndü. Qarını padşah qızının yanına göndərdi. Qarı gedib padşah qızına dedi:

- Ərin tərəfdən bir adam gəlib, səni görmək istəyir.

Qız sevinib dedi:

- Qarı nənə, onu mənim yanıma gətir.

Üstəlik ona bir ovuc da qızıl verdi. Qarı görmədiyi şeyi görürdü. Qarı geri qayıtdı, kiçik əyyara bir dəst arvad paltarı geydirib, apardı Paşa xanın qızına qulluqçu verdi. Gecə kiçik əyyar padşah xəzinəsinə gedib, yetmiş iki lə`l götürdü, gətirib şah qızına verdi. Gecə keçdi. Səhər şeypur vuruldu. Kiçik əyyar qızdan soruşdu:

- Xanım, bu nə şeypurdu.

Qız çıxıb öyrəndi. Gəlib kiçik əyyara dedi.

- Deyirlər şəhərə əyyar gəlib, xəzinədən qızıl, lə`l aparar. Xəbər verirlər ki, xəzinəni-zadı yaxşı qoruyun.

Kiçik əyyar dedi:

- Mən sənə verdiyim muncuqları biliblər. Burda baş əyyar kimdi?

Qız dedi:

- Zöhr əyyardı.

Səhər lap tezdən kiçik əyyar bir əfsun oxuyub, başqa dona düşdü. Düz Zöhr əyyarın evinə getdi, onun boynunun dalında durdu. Birdən ülgüclə onun başını kəsdi. Zöhr əyyarın başını götürüb qızın yanına gəlib dedi:

- Xanım, qarpız gətirmişəm.

Qız baxıb Zöhr əyyarın başını gördü. Qız dedi:

- Bu Zöhr əyyarın başıdı. Burda daha qala bilmərik.

Kiçik əyyar dedi:

- Bu saat getməliyik.

Qız bir xurcun lə`l götürdü. Yola düşüb gecəni gündüzə qatdılar, ta ki Isfahana çatdılar. Kiçik əyyar qız Şah Abbasın yanına apardı. Şah ona çoxlu xələt verib, bacarığına afərin söylədi. Şah Abbas Fətəli şahı çağırıb arvadını özünə verdi.

Kiçik əyyar atası ilə görüşəndə onun barmağından üç üzük çıxartdı. Atası nə elədisə, oğlu üzükləri çıxartdığını boynuna almadı. Padşah oğlana dedi:

- Əzəl gəl ən`amını verim, sonra danışarsınız.

Oğlan gülə-gülə dedi:

- Ən`amımı atam verib.

Padşah kiçik əyyarı bu sifətdə görəndə əmr elədi:

- Baş əyyarı gətirin, dara çəkin.

Gedib baş əyyarı gətirdilər. Dara çəkəndə kiçik əyyar dedi:

- Şah, onu öldürmə, qoy bir şərtim var, ona əməl eləsin.

Şah onu öldürməyib günahından keçdi. Kiçik əyyar ona dedi:

- Yaz ki, bu gündən əyyarlıqdan əl çəkirəm.

Baş əyyar yazdı:

"Bu gündən əyyarlıqdan əl çəkirəm".

Baş əyyar o gündən əyyarlıqdan əl çəkdi. Baş əyyarlığı kiçik əyyara verdi.

Şah Abbas Fətəli şahı təntənə ilə öz ölkəsinə yola saldı. Fətəli şah öz ölkəsinə gəlib taxtında əyləşdi, yeddi gün, yeddi gecə toy elədi. Onun toyuna axtardığı dərviş də gəlib çıxdı. Onlar yedilər, yerə keçdilər, siz də dövrə keçin.

G Ö Y Ç Ə K F A T M A

Biri var idi, biri yox idi, allahın bəndəsi çox idi, bir kişiynən bir arvad var idi. Günlərin birində iş belə gətirdi ki, bu kişinin arvadı azarlanıb öldü. Həmin arvaddan Fatma adında yetim bir qızı, bir də oğlu qaldı. Kişi gördü ki, uşaqlara baxa bilməyəcək, odu ki, ayrı bir arvad aldı. Kişinin bu arvaddan da bir qızı oldu, amma bu yaman kifir qız idi. Bu arvad gələn gündən yetim Fatmanı gözü götürmədi. Öz qızının adını da Fatma qoydu. Amma bu qızınan onun asiman tafoutu var idi. Yetim Fatma gözəl göyçək bir qız, çirkin Fatma isə qart keçəl idi. Analıx yetim Fatmaynan, oğlana gün verib, işıx vermirdi. Onları gah suya, gah oduna göndərirdi. Evdə qarabaş kimi işlədirdi.

Günlərin birində arvad iki ayağın bir başmağa dirəyib ərinə dedi:

- Kişi, əgər bu uşaqları aparıb azıtmasan, səndə oturmuyacam. Mənim bu uşaqlardan zəhləm gedir, onlara daha mən baxa bilmirəm.

Kişi nə qədər yalvar-yapış elədi ki, ay arvad, insafın olsun, mən bu bir parça tüfülləri hara azıdım, yazıxdılar, gedərlər meşədə qurd-quş yiyər. Arvadın hırı tutmuşdu, elə nırx deyib durdu ki, əgər azıtmasan gününü qara eliyəcəm. Kişi çox götür-qoy elədi, gördü ki, ayrı əlacı yoxdu. Fatmaynan oğlunu götürüb getdi meşəyə. Uşaxlarını alladıb dedi:

- Balalarım, siz morux, çiyələk yığa-yığa gedin dərənin dibinə, mən də bu biri tərəfdən bir az odun qırım, axşamüstü gəlib sizi də götürərəm, gedərik.

Uşaxlar atalarının sözünə inandılar. Morux, çiyələk yığa-yığa lap meşənin sıx yerinə çatdılar.

Sizə kimnən deyim, kişidən. Kişi uşaxları aldadıb bu tərəfdən ağlaya-ağlaya, kor-peşiman qayıtdı evə. Axşam oldu. Qaranlıq düşdü, meşədə göz-gözü görmürdü. Ayı, canavar, pələng, şir meşəyə bir nərilti, gurultu, inilti salmışdılar ki, vəhmədən adamın bağrı çatlayırdı. Uşaxlar ha gözlədilər, dədələri gəlib çıxmadı. Axırda əlacsız qalıb bir ağacın başına çıxıb orada gecələdilər. Sabah tezdən durub yol başladılar bir cığırnan getməyə. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib bir bulağın başına çatdılar. Fatmanın qardaşı yaman susamışdı. Özünü tez verdi bulağın başına, istədi sudan doyunca içə. Fatma qoymaq istəmədi, elə bil ürəyinə dammışdı ki, bu suda bir şey var. Fatma nə qədər elədi ki, qardaşı sudan içməsin, olmadı. Oğlan ağzını bulağın gözünə diriyib sudan doyunca içdi. O saat dönüb oldu qara bir inək, Fatma üz-gözünü cırıb şivən saldı ki, ay qardaş, sənə demədimmi içmə, indi mən neyniyim, başıma haranın daşını töküm.

Qardaşı dedi:

- Bacı, daha iş-işdən keçib, mənimki də beləymiş, gəl gedək. Amma bu sirri nə badə bir adama deyəsən ha!

Fatma inəyi də qabağına salıb ayax ləpiriynən o qədər getdi ki, meşədən çıxdı. Bir dağın başına çıxıb gördü ki, evləri uzaxdan görükür. Düz gəldi evlərinə. Arvad gördü ki, qız gəldi, amma yanında da bir qara inək. Əvvəlcə üz-gözünü turşutdu, qaş-qabağını tökdü, istədi qızı qovlasın. Sonra fikirləşdi ki, oğlan yoxdu, yəqin ölüb-itib, meşədə qalıb. Qız da ki, bir yaxşı inəynən gəlib. Inəyi sağıb yeyərik. Bir azdan sonra qızı genə azdırarıx, o da itib cəhənnəmə vasil olar. Kişi də qızını görüb bir tərəfdən sevindi, bir tərəfdən də oğlunu yadına salıb bikeyf oldu.

Analıx hər gün Fatmanın əlinə bir az yun verib inəyi otarmağa göndərərdi. Fatma axşama kimi inəyi otarır, analığı verdiyi yunu da didib əyirərdi. Bir gün yenə inəyi otardığı yerdə bərk yel əsdi, yel Fatmanın yumağını götürüb apardı. Fatma, "a yel baba, yumağımı aparma" - deyə-deyə yüyürürdü. Yel baba yumağı aparıb bir evin bacasınnan içəri saldı. Fatma gəlib bu evin qapısını döydü. Içəridən bədheybət bir qarı çıxıb dedi:

- A bala, nə var, nə istəyirsən?

Fatma dedi:

- Qarı nənə, yel baba yumağımı sənin bacannan içəri saldı, gəlmişəm ki, onu verəsən.

Qarı dedi:

- A qızım, gəl mənim başıma bax, sonra yumağını verim.

Fatma razı oldu, içəri girib gördü qarının evi zir-zibilnən doludu. Odu ki, dedi:

- Qarı nənə, süpürgəni ver, evini süpürüm.

Qarı süpürgəni verdi. Fatma evi süpürüb tər-təmiz elədi. Sonra da başladı qarının başına baxmağa, gördü ki, bunun başı doludu ilan, çayannan, baxdı ki, qarının başında bitlər var tısbağa boyda, birələr var qurbağa boyda.

Qarı dedi:

- A qızım, de görüm sənin ananın başı qəşəngdi, yoxsa mənim? Mənim birələrim qəşəngdi, yoxsa onun.

Fatma dedi:

- Ay nənə, əlbəttə, sənin başın qəşəngdi. Sənin bit, birələrin də lap sərçə, bülbül kimi şeylərdi.

Bu sözlər qarının xoşuna gəldi, odu ki, dedi:

- Bala, burdan gedəndə qabağına üç bulax çıxacax, birinin suyu dümağ, süd kimi, o birininki qapqara şəvə kimi, birinin də suyu qıp-qırmızı lalə kimi. Ağ suda soyunub çimərsən, qara sudan da saçına, qaşına, kirpiyinə çəkərsən. Qırmızı sudan da yanaxlarına, dodaxlarına çəkərsən. Sonra gedib qara inəyin bir buynuzunnan yağ, birinnən də bal əməcəksən.

Fatma qarının yanından çıxıb gəldi, yolda günçıxan tərəfdə qabağına bir bulax çıxdı, suyu dümağ süd kimi, girib suda çimdi. Bir az gedib günbatan tərəfdə də bir bulağa rast oldu. Bu bulağın suyu da qapqara idi. Fatma bu suynan başını yuyub, bir az da qaşına, kirpiyinə çəkdi. Qırmızı sudan da bir az yanaxlarına, dodaxlarına çəkdi. Fatmanın gözəlliyi bir idi, indi oldu min. Fatma elə bir gözəl qız oldu ki, heç misli-bərabəri olmadı. Aya dedi, sən çıxma, mən çıxacam, günə dedi, sən çıxma, mən çıxacam. Yanaxlar qıp-qırmızı alma kimi, dodaxları qaymax, dişləri inci, gözü maral gözü. Nə deyim, bir baxan deyərdi bir də baxaydım.

Fatma düz gəlib çıxdı qara inəyin yanına, onun başını, gözünü sığallayıb başladı buynuzlarını əmməyə, gördü ki, doğrudan da, inəyin bir buynuzunnan yağ, birinnən də bal gəlir. Fatma hər gün inəyin buynuzlarını əmib elə kökəldi ki, lap balığa döndü. Fatmanın analığının bu işə həm paxıllığı tutdu, həm də mat qaldı ki, görən Fatma neyləyir ki, belə kökəlib, qəşəngləşir. Odu ki, sabahdan öz keçəl qızını da qoşdu Fatmanın yanına ki, o da naxıra gedib qəşəngləşsin.

Iş belə gətirdi ki, yenə bərk bir yel qopdu, bu dəfə də yel keçəl Fatmanın yununu götürüb apardı. Yun gedib həmin qarının bacasınnan içəri düşdü. Keçəl Fatma yunun dalınca qaça-qaça gedib qarının evinə çıxdı. Qapını döyüb yununu istədi. Qarı qızı içəri çağırıb dedi:

- A qızım, gəl başımı bitlə, sonra yununu verim.

Qız qarının başına baxıb gördü ki, bit-birəynən doludu. "Tfu" eləyib geri çəkildi. Qarı dedi:

- A qızım, mənim başım təmizdi, yoxsa sənin ananın?

Qız dedi:

- Allah vurmuşdu səni, başın ilan qurbağaynan doludu, həlbətdə anamın başı yaxşıdı.

Qarı bir altdan yuxarı baxıb dedi:

- A qızım, sən ki, belə dedin, ala yununu verirəm, amma burdan gedəndə qabağına üç bulax çıxacax. Birinin suyu qara, birinin suyu ağ, o birininki də qırmızı. Sən əvvəlcə qara suya girib çimərsən, sonra ağ suynan başını yuyub, bir az da qaşına, kirpiyinə, qırmızı sudan da alnına sürtərsən. Sonra da qara inəyin döşlərini əmərsən.

Qız qarının yanınnan çıxıb yolda qara suynan çimdi, ağ sudan qaşına, kirpiyinə çəkdi, qırmızı sudan da alnına sürtdü. Əvvəldən də bir şey olmayan keçəl Fatma dönüb oldu qara qul; hər yeri oldu qap-qara kösəy kimi. Bircə dişləri, gözləri ağarırdı. Keçəl Fatmanın heç nədən xəbəri yox idi. Gəlib inəyin əmcəyini ağzına salıb başladı sormağa, gördü ki, ağzına irin gəlir, tez başladı inəyin o biri məməsini əmməyə, gördü ki, bunnan da qan gəlir. Durub kor-peşiman evlərinə gəldi. Anası qızına baxan kimi əllərini iki dizinə vurub dedi:

- Bıy, başına güllər, ay qız sənə nə oldu ki, bu günə düşdün?

Qız başına gələni anasına söylədi. Daha iş işdən keçmişdi. O günnən keçəl Fatmanı anası evdən heç yerə buraxmadı. Amma göyçək Fatma hər gün inəyi aparıb otarır, özü də günü-günnən qəşəngləşirdi. Analıx gördü ki, Fatma inəyi otarmağa apardıxca yaxşılaşır, odu ki, bir gün bir az

quru yuxa bişirib paltarının altınnan kürəklərinə qoydu, əri evə gələndə yerə yıxılıb arxası üstə o üzə, bu üzə çörükdü. Arvad tərpəndikcə yuxalar xırha-xırnan qırılırdı. Arvad ufuldana-ufuldana dedi:

- A kişi, görürsənmi nə bərk azarramışam. Ölürəm, mənə bir əlac.

Kişi dedi:

- Arvad sənin dərmanın nədi, de tapım?

Arvad dedi:

- Mənim dərmanım qara inəyin ətidi. Onu kəsib ətini mənə yedirtsən yaxşı olacam.

Kişi əvvəlcə inəyi kəsmək istəmədi, amma arvad əl çəkmədi ki, çəkmədi. Kişi axırda inəyi kəsdi. Göyçək Fatma gördü ki, inəyi kəsdilər. Qaldı məəttəl ki, indi nə yeyəcək, acınnan öləcək. Durub getdi həmin qoca qarının yanına, əhvalatı ona söylədi. Qarı dedi:

- Qızım, eybi yoxdu, qoy inəyi kəssinnər, sən onun ətinnən yeməzsən, qoy onlar yesinnər, sonra xəlvətcə onun bütün sümüklərini torbaya yığıb gətirərsən mənim yanıma. Qorxma, qardaşın indi də xoruz cildinə düşəcək.

Fatma qarının yanınnan gəlib o dediyi kimi elədi. Inəyin ətinnən yemədi, onsuz da analığı heç ona ət vermədi. Bəli, Fatma inəyin sümüklərini irili-xırdalı yığıb bir torbaya doldurdu, xəlvətcə düz gətirdi qarının evinə, qarı yekə bir quyu qazıb sümükləri basdırdı ora. Üstünü torpaxlayıb qıza dedi:

- Bala, qorxma, bu sümüklərdən nə istəsən o saat hazır olacax.

Qız durub evlərinə gəldi, bir-iki günnən sonra padşahın böyük oğlunun toyuydu, hamını çağırmışdılar. Fatmanın analığı da keçəl qızını geyindirib-keçindirib toya gedirdi. Göyçək Fatma da analığına yalvar-yaxar elədi ki, toya onu da aparsın. Analığı qoymadı ki, qoymadı, dedi:

- Bircə sənin yerin əskik idi, qaxıl otur yerində, onsuz da sənin paltarın nə gəzir ki, geyinib gedəsən.

Analıx bir çanax darını yerə töküb, bir boş cam qoydu, dedi:

- Mən gələnə kimi bu darını yığarsan çanağa, bu camı da göz yaşınnan doldurarsan, əgər dediklərimi eləməsən, vay sənin gününə.

Fatma qaldı mat-məhəttəl ki, neyləsin. Analığı gedən kimi kor-peşiman daban alıb düz gəldi qarının yanına, analığının tapşırdığı işləri söylədi.

Qarı dedi:

- Qızım, qorxma, bu işlər mənim əlimdə su içimi kimi bir şeydi.

Qarı qıza bir çanax darı verdi, bir cam da duzlu şor su. Dedi:

- Apar bu darını tök analığının darı çanağına, duzlu suyu da tök cama, elə bilsin ki, ağlayıbsan, gözünün yaşıdı. Qaldı yerə tökülən darılar, toyux-cücələri burax qoy darını dənnəyib qurtarsınnar.

Qarı bu sözləri qıza deyənnən sonra onu götürüb gəldi inəyin sümüyünü basdırdığı yerə. Quyunun ağzını açıb dedi:

- Ey qara inək, sənnən bir qəşəng padşahanə libas, bir də bir qızıl başmaq istəyirəm ki, Fatma geyinib getsin toya.

O saat bir də gördülər ki, bu şeylər hazır oldu. Qarı qıza bir torba kişmiş, bir torba da kül verib dedi:

- Qızım, bu paltarı, qızıl başmağı geyib, torbaları da götürüb gedərsən toya, orada səni analığın tanımayacax, toyda səni də oynadacaxlar. Sən oynayanda camaatın üstünə kişmiş tökərsən, analığının üzünə kül, sonra tez qayıdıb gələrsən evə, paltarını soyunub oturarsan.

Bəli, Fatma zər-zibaynan tikilmiş paltarı geyib, qızıl başmağı ayağına taxıb döndü huri-mələyə. Getdi toya, hamı bu gözəllikdə qızı görüb mat qaldı. Fatma oynaya-oynaya adamların qabağına getdikcə hamının qucağına kişmiş töküb, analığının gözünə kül səpdi. Sonra toydan çıxıb tələsik qayıtdı evə. Yolda çaydan hoppanıb keçəndə başmağının bir tayı ayağınnan çıxıb düşdü suya. Tələsdiyinnən başmağı qoyub qaçdı. Həmin gün demə padşahın oğlu ova çıxıbmış. Qayıdan baş yolda atını çayda sulamağa gətirdi. At dodağını suya vurub geri çəkildi. Padşahın oğlu əyilib

suya baxdı, gördü ki, suda bir tay qızıl başmax var, tez çıxardıb özüynən gətirdi. Bu tərəfdən də Fatma gəlib paltarını soyunub gizləndi. Analığı qaş-qabaxlı gəldi evə. Fatma dedi:

- Ana, bir az söylə görüm toyda nə oldu, nə keçdi?

Arvad dedi:

- Heç, nə olacax, bir qaragünnünün biri oynayanda hamının qabağına kişmiş tökdü, bizim qabağımıza kül atdı.

Bunları burda qoyax, görək padşahın oğlu başmağı neylədi. Başmax o qədər qəşəng idi ki, heç padşahın xəzinəsində də beləsi yox idi. Padşahın oğlu başmağı öz lələsinə verib dedi:

- Apar bu başmağı şəhərbəşəhər, kəndbəkənd axtar, hansı qızın ayağına olsa, gərək onu alam.

Lələ hər yeri gəzdi, bütün kəndləri, şəhərləri hələk-fələk elədi, başmax heç kimin ayağına olmadı. Axırda xəbər alırlar ki, bu başmağı ayağına taxmamış kim qaldı, dedilər ki, bircə Fatma adlı bir yetim qız var, o qalıbdı. Gətirib başmağı Fatmanın ayağına geyindirdilər, gördülər ki, elə bil başmaxçı özü əliynən tikib, düz qızın ayağına. O saat gedib padşah oğluna xəbər apardılar ki, bəs belə-belə, başmax filan qızın ayağına oldu. Oğlan toy tədarükü görüb Fatmanı gəlin gətirmək üçün öz adamlarını göndərdi ki, qızın başını bəzəsinnər. Bu tərəfdən Fatmanın analığı paxıllığınnan az qaldı çatlasın, odu ki, Fatmanın əl-ayağını kəndirnən bağlayıb saldı təndirə, üstünü də örtdü. Öz qızı keçəl Fatmanı da bəzəndirib qoydu göyçək Fatmanın yerində. Yengələr, sağdışlar, solduşlar gəldilər ki, qızın başını bəzəyib gəlin aparsınlar, gördülər ki, qız o qız deyil.

Dedilər:

- Ay balam, bu qız niyə belə qaralıb?

Qızın anası nırx deyib durdu ki, elə bu həmən göyçək Fatmadı, o günün altında durub, gün qaraldıb. Yengə tez başmağı gətirib qızın ayağına taxdı, gördü yox, olmadı. Öz-özünə fikirləşdi ki, axı bu qız mən gördüyüm deyil, bunu bəzəyib aparsax padşahın oğlu nə deyər? Elə bu fikirdəydi ki, gördü küçədən uşaxlar oxuyurlar:

Gün çıx, gün çıx,
Kəhər atı min çıx,
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür qaç.

Yengə qızın tez başına baxıb gördü qız qart keçəldi. Tez durdu ki, gedib əhvalatı oğlana söyləsin. Birdən məhlədə bir xoruz başladı bannamağa:

Quqqulu-qu,
Fatma xanım təndirdə,
Əl-ayağı kəndirdə.

Yengə gəlib tez təndirin ağzını açdı, gördü doğrudan da Fatmanın əl-ayağını kəndirnən bağlayıb təndirə salıblar. Qızı çıxardıb gətirdilər evə, yetmiş yerdən ona bəzək-düzək verib, geyindirib-keçindirib apardılar padşahın oğluna. Hamı toyda çalır, oynayır, şadlıx eləyirdi keçəl Fatmaynan anası qan ağlayırdı.

Aradan bir müddət keçənnən sonra keçəl Fatmanın anası dedi:

- A qızım, olan-olub, keçən-keçib, bir dur get gör bacın nə qayırır?

Keçəl Fatma geyinib-keçinib getdi bacısının yanına, xoş-beş on beşdən sonra dedi:

- Ay bacı, yaman çimmək istəyirəm, dur gedək dərya kənarında çimək.

Göyçək Fatma bacısının xətrini sındırmayıb öz qızıl teştini də götürüb getdi dərya kənarına. Keçəl qız dedi:

- A bacı, əvvəlcə sən soyun, mən səni çimizdirim, sonrada sən məni çimizdirərsən.

Fatma sözə inanıb soyundu, dəryanın qırağında çimmək istəyəndə keçəl Fatma onu itələyib suyun dərin yerinə saldı. Göyçək Fatma sudan çıxa bilmədi. Keçəl qız Fatmanın paltarını geyinib oğlanın evinə gəldi. Axşam oldu, qız üz-gözünü gizlədə-gizlədə bir təhər gecəni saldı. Yatmax vaxtı gələndə oğlan gördü ki, Fatmanın saçı heç əlinə dəymir. Odu ki, dedi:

- Ay Fatma, sənin saçın heç gözümə dəymir.

Qız dedi:

- Başımı yumuşam deyin yığılıb bir yerə, sabah quruyar, genə uzanar.

Sabah açıldı, oğlan atına minib dəryanın kənarıynan gedirdi, bir də gördü ki, bir balıxçı toru nə qədər çəkirsə, sudan çıxarda bilmir. Oğlan atdan düşüb balıxçıya kömək elədi. Bir təhər toru çəkib sudan çıxardılar. Bir də gördülər ki, tora bir balıx düşüb ki, əjdaha boyda, tez balığın qarnını yardılar. Oğlan gördü ki, buy budu göyçək Fatma balığın qarnında, tez qızı çıxardıb bir şeyə büküb evə gətirdi. Fatma başına gələn əhvalatı tamam başdan-ayağa kimi ərinə danışdı. Oğlan o saat əmr elədi ki, bir dəli qatır gətirsinlər. Keçəl Fatmanı qatırın quyruğuna bağladıb dağda-daşda sürütdədilər. Keçəl Fatmanın hər tikəsi bir dərədə qaldı. Sonra göyçək Fatmaynan padşahın oğlu keyf çəkib dövran keçirdilər.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıl söyləyənin.

Q A R A V Ə Z I R

Biri var idi, biri yox idi, Isfahan vilayətində Qara vəzir deyilən böyük bir pəhləvan var idi. Qara vəzirin dünyada Mələk adında bir qızından başqa övladı yox idi.

Mələk elə gözəl qız idi ki, onun kimi dünya üzündə gözəl yox idi. Qaşları qara, gözləri qara, kirpikləri müjgan oxu, yanaqları bir kasa qan, burnu püstə, dodaqları zərif, beli incə, boyu sərv ağacı. Belə bir gözəlin eşqindən bütün padşahlar, padşah oğulları dəli-divanə idi.

Qara vəzir Mələyi heç kimə vermirdi. Qızı üçün xan arşını enliyində qalın divarlı ev tikdirmişdi. Evin qabağında behişt kimi bir bağ saldırmışdı ki, hər meyvədən, hər güldən bu bağda vardı.

Qara vəzir qızı Mələyin qulluğuna nə zənən, nə kişi buraxmazdı. Qara vəzirin kişilikdən düşən bir qulu var idi. Həmin qul Mələk xanıma hər gün sümüksüz ət, qabıqsız çörək aparardı. Mələk xanımın keyfinə gəzmək düşəndə Qara vəzirin üç otağı vardı, bu otaqların açarını qızına verərdi, Mələk xanım bu üç otağı gəzib dolanardı.

Bir gün Mələk xanım üç otağın açarını alıb otaqları gəzirdi. Otaqların ikisini gəzib üçüncüsünü açıb gördü ki, bu otaq elə bəzənibdi ki, lap padşahlara layiq. Mələk xanım bir xeyli bu otağı gəzib dolandı, birdən gözü divardan asılan xalçaya dəydi. Fikir ilə Mələk bu xalçaya baxdı. Gördü ki, bu xalçada elə naxışlar açılıbdı ki, gəl görəsən. Baxanda adamın ağlı, huşu başından gedir. Birdən bihuş kimi Mələk xanım əlini xalçaya sürtdü. Sürtəndə xalça qırılıb yerə düşdü. Mələk xanım qorxub geri çəkildi. Haçandan-haçana əllərini üzündən götürüb, bir neçə qədəm irəli gəlib, gördü ki, burada bir çaxça var, amma çaxçanın içində təzə bir mücrü var. Mələk xanım əl atdı, mücrünü götürüb qoydu yerə. Mücrünün ağzını açıb gördü ki, burada bir qız xeylağının şəkli var. Mələk xanım şəkli götürüb qoydu cibinə. Mücrünü bağlayıb, xalçanı da divardan asıb qapıları bağlayıb gəldi öz evinə. Cibindən şəkli çıxardıb, fikir ilə baxıb gördü ki, bu şəkildəki qız eynən özünə oxşayır, elə bil ki, Mələk xanımın özüdü.

Mələk xanımı xof aldı, dedi:

- Aya, bu nə olan işdi? Mən şəklimi haçan çəkdirmişəm? Əgər çəkdirmişəmsə, mənim şəklim mücrüdə neyləyir?

Mələk xanım səhərəcən yatmadı. Səhər durub bədənnüma güzgünün qabağında dayandı, mücrüdəki şəkli də sağ əlinə alıb həm özünə, həm də əlindəki şəklə baxdı, gördü ki, özüdü ki, var.

Mələk xanıma yəqin oldu ki, bu özünün şəklidi. Amma mücrüdə qalmağına xoflandı. Yəqin elədi ki, bunda bir sirr var. Dedi gərək bu sirri tapam.

Mələk xanım bu gicaloda olsun, xəbər verim sənə Qara vəzirin qulundan.

Günorta idi. Qara vəzirin qulu əlində qızıl podnos, podnosun içində aş hər bir xurşu ilə, qapını açıb Mələk xanımın hüzurunda hazır oldu. Qızıl nimçəni Mələk xanımın qabağına qoyub, baş əyib getmək istəyirdi ki, Mələk xanım əl atıb yapışdı qulun biləyindən, dedi:

- Ey haramzada, mənə niyə göz-qaş atdın?

Qulun dil-ağzı tutulub ağac yarpağı kimi əsməyə başladı. Mələk xanım durub ayağa, qapıları kilitləyib açarını qoydu cibinə, keçib oturdu dedi:

- Ey haramzada, de görüm, mənə nə üçün qaş-göz atdın?

Qul dedi:

- Xanım, mən hara, qaş-göz atdı hara? Gəl məni Qara vəzirin qəzəbinə giriftar eləmə!

Mələk xanım iki ağını dirəyib yerə dedi:

- Qaş-göz atıbsan ki, atıbsan. Qorxma, Qara vəzirə demərəm. Sənin günahından keçdim. Indi de görüm mənə, neçə ildi bu qapıda Qara vəzirə nökərçilik eləyirsən?

Qul dedi:

- Xanım, sən anadan olan ildən bir il qabaq.

Mələk xanım dedi:

- De görüm mənə, necə oldu ki, Qara vəzirə rast gəldin.

Qul dedi:

- Xanım, o barədə gəl məndən heç bir şey soruşma, qoy çıxım gedim işimə.

Mələk xanım barmağını dişləyib dedi:

- Bu haramzadada sirr var, gərək biləm.

Durub ayağa, xəncərini çəkib qınından, qulu qoyub dizinin altına, oturdu döşünün üstündə, dedi:

- Ey haramzada, səndən bir sirr xəbər alacağam, əgər düzünü deməsən, səni öldürüb meyidini də atacağam, yox, düzünü desən, səni ağ günə çıxaracağam.

Qul dedi:

- Xanım, gəl məni incitmə!

Mələk xanım dedi:

- Ey haramzada, yubanma! Yoxsa gününü qara eylərəm.

Qul xəbər aldı ki:

- Xanım, məndən nə xəbər alacaqsan?

Mələk dedi:

- Ey haramzada, and düş ki, nə desəm, ona da cavab verəcəksən.

Qul öz anasının südünə and düşdü. And düşəndən sonra Mələk xanım əlini cibinə salıb, mücrüdən tapdığı şəkli çıxardıb dedi:

- Ey haramzada, mən bu şəkli filan otaqdakı mücrünün içindən tapmışam. Bu şəkil mənim özümə çox oxşayır. Bu nə olan əhvalatdı?

Qul şəkli görən kimi özündən gedib yerə uzandı. Mələk xanım qulun üzünə su çiləyib, ayıldıb xəbər aldı:

- Mən səndən söz xəbər alıram. Bu şəkli görən kimi nə üçün özündən getdin?

Qul dedi:

- Xanım, gəl bu sirri məndən soruşma.

Qul belə deyəndə, Mələk qulu uzadıb yerə, çıxıb sinəsinin üstünə, dedi:

- Ey haramzada, indi ki, demirsən, gərək səni öldürəm.

Qul baxıb gördü ki, o bunu öldürəcək, əlacı kəsilib dedi:

- Xanım, öldürmə qoy deyim.

Mələk xanım qulu buraxdı. Qul durub ayağa, təzədən qapı-bacaları bərkitdi. Gəlib Mələk xanımın yanında oturmağa izin istədi. Mələk xanım oturmağa izin verdi. Qul Mələk xanımnan ta o vaxta qədər dizbədizə oturdu ki, Mələk xanım xörəyini yeyib qurtardı. Dedi:

- Danış çörək.

Qul sözə başladı:

- Xanım, mən Çin vilayətinin padşahının qapısında quldum. Çin padşahının Sənubər adında bir qızı vardı. Sənubər elə gözəl bir qız idi ki, dünyada o gözəllikdə qız Misir ölkəsində də yox idi. Bütün padşahlar Çin padşahına Sənubər üçün elçi göndərirdilər. Amma nə qız özü ərə getmək istəyirdi, nə də qızın atası Çin padşahı Sənubər qızını bir adama verirdi. Bir gün Sənubər üçün hamama sətil-buğça aparırdım. Bağın içində Sənubər xanımın rübəndi qırılıb düşdü. Mən tez əyilib, yerdən Sənubər xanımın rübəndini götürüb verdim. Verəndə mənim əlim toxundu Sənubər xanımın əlinə. Əlim əlinə toxunan kimi Sənubər xanım gülüb qayıtdı evinə. O günü hamama getmədi. Mən də çıxıb gəldim öz işimə.

Bir günorta Sənubər xanım mənim üçün xəbər göndərdi ki, mənə üzüm götürsün. Mən də padşahdan izin alıb, padşahın öz bağından bir bulud üzüm dərib, əl atdım ağacdan bir qırmızı alma da dərib, qoydum buludun üstünə, götürüb gəldim Sənubər xanım üçün.

Sənubər xanım məndən üzümü alanda, yenə əlim əlinə toxundu. Buludun içindəki alma fırlana-fırlana buluddan düşdü Sənubər xanımın dizinin üstə. Sənubər xanım almanı götürüb iylədi. Mən istədim gedəm. Sənubər xanım durub ayağa, qapını bağladı, qoymadı məni otaqdan bayıra çıxam. Dedi:

- Ey oğlan, mən səni xoşlamışam.

Dedim:

- Xanım, gəl məni sınaqdan keçirmə! Sən hara, mən hara? Məni padşah qəzəbinə vermə! Padşah bilsə ki, mən sənin ilə üzə-üzə durub danışıram, dərimi soyar.

Sənubər xanım dedi:

- Ata kimdi? Mən özüm özümə sahib-ixtiyaram.

Xülasə, olmadı. Sənubər xanım məni alıb oturtdu dizinin üstə. Almanı tən bölüb yedik. Çıxardıb bir çəngə mənə qızıl verib dedi:

- Get, özünə üst-baş al!

Mən də çıxdım bazara. Özümə üst-baş aldım, hamama getdim, tər-təmiz yuyunub gəldim Sənubər xanımın qulluğuna.

Bir müddət mən Sənubər xanımla görüşdüm. Üzüm ayağının altına xanım, doğrusu nə qədər Sənubər xanım məni istəyirdi, bir o qədər də mən Sənubəri istəyirdim. Belə ki, bir saat bir-birimizi görməyəndə bağrımız hövl eləyirdi ki, çatlıya.

Bir gün Ləms padşahının oğlu qoşun yığıb gəldi Çin padşahının üstə ki, əgər qızını verməsən sənlə dava eyləyəcəyəm. Sənubərin atası çox zor padşah idi. Sənubəri verməyib davaya razı oldu. Pəhləvanlarını çağırıb belə şərt qoydu ki, kim Ləms padşahının oğlunun qoşununu sınıq çıxartdı, qızım Sənubəri ona verəcəyəm.

Çin padşahının Bəbir adında bir pəhləvanı var idi.

Bəbir pəhləvan durub ayağa, dedi:

- Mən gedərəm.

Çin padşahıynan şərt bağlayıb, Bəbir pəhləvan qoşun götürüb Ləms padşahının oğlu ilə düz bir ay tamam dava elədi. Axırda Bəbir pəhləvan Ləmsin qoşununu qırıb qurtardı.

Çin padşahı da Sənubəri nişanladı Bəbir pəhləvana.

Bir gün Sənubər xanım mənə dedi:

- Gəl qaçaq!

Mən razı oldum. Ağırdan, yüngüldən götürüb bir gecə qaçmaq binasını qoyduq. Neçə gün, neçə gecə yol gedib, axırda gəlib çıxdıq bu vilayətə. Pul gücü ilə bir imarət tikdirib oturduq.

Bir gün küçədən bir dəllək çağırdım ki, başımı qırxa, ağıllı-başlı toy eləyəm, kəbinə gedəm.

Dəllək namərd gəlib başımı qırxan yerdə necə olur ki, Sənubər xanımı görür. Tez başımı ala-yarımçıq qırxıb durub gəlir Qara vəzirin yanına, deyir:

- Şəhərə bir belə qərib gəlibdi, amma bir arvadı var ki, dünya gözəli.

Sənubəri Qara vəzirə o qədər tə`rif eləyir ki, Qara vəzirin ağzının suyu axır, durub o günü dərviş paltarı ilə bizə gəlir. Sənubəri görən kimi ağıl əldən verir. Vəzir çıxıb gedir. Mənim də heç

zaddan xəbərim yox. Axşamdı, bir də gördüm ki, duvan adamları qapını sındırıb içəri girdilər. Hər ikimizin əl-yolumuzu bağlayıb Qara vəzirin hüzuruna gətirdilər.

Bizi bir-birimizdən ayırıb saldılar alayı otaqlara. Səhər Qara vəzir məni çağırtdırıb dedi:

- Gərək öz xoşun ilə nişanlından əl çəkəsən.

Mən razı olmadım. Razı olmayanda Qara vəzir məni zindana saldırdı. Sabahı gün yenə məni çağırtdırıb dedi:

- Öz razılığın ilə, öz nişanlından əl çəkirsən?

Mən yenə də razı olmadım. Qara vəzir təngə gəlib həmin dəlləyi tədbirə çağırtdırdı. Zalım dəllək gəlib Qara vəzir üçün belə tədbir gördü ki, məni kişilikdən saldırsın, çünki Sənubər xanım məndən əl çəkmirdi.

Qara vəzir bir tilsimkar qarı tapır. Qarıya girri pul basır, qarı da pul gücünə məni tilsimə salır. Get-gedə Sənubər məndən soyudu. Qara vəzir Sənubər ilə kəbinsiz, talaqsız murad hasil elədi. Bu, mənə çox acıq gəldi. Doqquz ay tamam olandan sonra Sənubər bir qız doğdu. Qız bir yaşına gələndən sonra mən səbir eləyə bilmədim. Bir gün ürək odumu söndürmək üçün Sənubərin şəklini çəkdirib yanımda saxladım.

Şəkli möhkəm gizlədəndən sonra durub gecə ilə Sənubəri öldürüb atdım çaya. Qara vəzir eşitdi ki, Sənubər yoxdu. Çox gəzib tapa bilmədi. Məni də düz on beş ildi ki, evdən bayıra buraxmır.

Indi xanım, bil və agah ol, sən Sənubər xanımın qızı, Qara vəzirdən əmələ gəlməsən. Bu şəkil də Sənubər xanımın şəklidi ki, Qara vəzir alıb məndən xalçanın dalında gizlətmişdi.

Qul sözünü tamam eləyəndən sonra Mələk xanım qulu mürəxxəs elədi. Özü də oturub şəklə baxmaqda olsun, al xəbəri Qara vəzirdən.

Qul necə ki, Mələk xanım üçün danışdı, iş elə idi ki, var.

Qara vəzir bir axşam öz kitabını açıb qoydu qabağına, gördü ki, həmin əhvalatdan düz on beş ildi keçir, dedi: Mələk xanımın əsil ərə getməli vaxtıdı, gərək onu özüm üçün alam.

Qara vəzir bu niyyətlə durub gəldi Mələk xanımın yanına. Mələk xanım baxıb gördü ki, oho, Qara vəzir heç bu otağa gəlməzdi, bu necə işdi?

Qara vəzir gəlib oturdu Mələk xanımın yanında, dedi:

- Qızım, səni bir çox padşahlar istəyir. Mən bu günə kimi səni heç kimə verməmişəm. Səni mən özümçün bəsləmişəm, gərək mənə gedəsən.

Mələk dedi:

- Ata da öz qızını alarmı?

Qara vəzir dedi:

- Səfeh-səfeh danışma, dur ayağa görək!

Mələk xanım baxıb gördü ki, atasının gözləri qızıb, buna yalvarmaqla olmayacaq, dedi:

- Ata, indi ki, məni özünçün saxlamısan, heç eybi yoxdu, mən də hələ sənə gedəcəyəm, amma gərək mənə bir az möhlət verəsən.

Qara vəzir razı oldu. Mələk xanım ilə gecə yarısına kimi söhbət eləyib, durub çıxıb getdi.

Mələk xanım səhərə kimi yatmadı. Səhər tezdən Mələk xanım durub ayağa, qulu çağırtdırıb dedi:

- Al bu qızılları, get bazara, cindar abidi yanıma götür! Elə elə ki, Qara vəzir görməyə.

Qul bazara çıxıb, Isfahanda cindar abid deyilən bir alim vardı, soraq-soraq ilə cindar abidi tapıb, Mələk xanımın hüzuruna götürüb gəldi.

Mələk xanım çəkilib pərdənin dalından dedi:

- Ey abid, bir ayın içində bütün tilsimləri mənə öyrədə bilərsənmi?

Tilsimkar abid dedi:

- Zehnin olsa lap iyirmi günə öyrənərsən.

Mələk xanım dedi:

- Neçə alarsan?

Abid dedi:

- Iki yüz tümən.

Mələk xanım durub ayağa, mücrüdən iki yüz tümən götürüb saydı tilsimkar abidin ovcuna. Tilsimkar abid qızılları qoydu döşəkçəsinin altına, başladı Mələk xanıma dərs verməyə. Mələk xanım o qədər zehinli idi ki, iyirmi gündə bütün tilsimləri öyrəndi. Abidə imtahan verdi. Abid baxıb gördü ki, bu iyirmi günün ərzində bütün tilsimləri öyrəndi, dedi:

- Xanım, daha tilsim qalmadı.

Mələk xanım abidi yola saldı. Abid gedəndən sonra Mələk xanım durub ayağa qulu çağırtdırdı. Qul Mələk xanımın hüzuruna gəlib, baş əyib dedi:

- Ləbbəy, xanım!

Dedi:

- Get bazara, mənim üçün bir dəst mərdanə paltar al, gəl!

Qul gedib bazara, Mələk xanıma bir dəst mərdanə paltar alıb gəldi. Mələk xanım alıb paltarı başdan geyinib ayaqdan qıfıllandı, ayaqdan geyinib başdan qıfıllandı, əlinə əsa alıb, altdan qılıncını bağladı, qulu götürüb çıxdı küçəyə, dedi:

- Gedək, o qoca qarının evini mənə göstər.

Qul Mələk xanımı götürüb gəldi imansız qarının evinə. Mələk xanım qapını döyən kimi qarı açıb dedi:

- Kimsən?

Dedi:

- Allah qonağıyam.

Qarı dedi:

- Allaha da qurban olum, qonağına da. Gəl içəri!

Mələk xanım keçib oturdu. Azdan-çoxdan yeyib qurşaqlarının altını bərkitdilər. Yatmaq zamanı gəldi. Qarı Mələk xanım üçün yer saldı, özü də evin bir küncündə uzandı. Mələk xanım aradan bir xeylaq-keçirib durdu ayağa, əl atıb qılıncına, oturdu qarının sinəsinin üstündə, dedi:

- Qarı, yatmısan oyan!

Qarı gözünü açıb gördü ki, qonağının əlində qılıncı var, dedi:

- Qonaq, amanın günüdü, öldürmə məni, nə istəyirsən sənə verim. Mənə yazığın gəlsin.

Mələk xanım dedi:

- Ey imansız çəpəl, gərək Qara vəzirin qulunu kişi eləyəsən. Onun kişiliyini özünə qaytarıb tilsimdən qurtarasan.

Qarı dedi:

- Burax məni, gözüm üstə!

Mələk xanım qarını buraxdı.

Qarı durub gəldi kandara. Tez tilsim oxuyub oldu siçan, girdi deşiyə. Mələk xanım bildi ki, xamlıq eləyib, dinmədi.

Durub gəldi dəlləyin yanına.

Atıb özünü divardan həyətə, gördü ki, dəllək yatıbdı. Çəkib qılıncını qınından, dəlləyi öldürüb, çıxıb gəldi evə. Səhər abid üçün adam göndərdi. Abid gəldi. Mələk gecəki əhvalatı abidə danışdı. Abid təzədən tilsimlərin yolunu nöqtəbənöqtə Məlik xanıma nağıl elədi.

Mələk xanım abidin dediyini beyninə alıb, abidə təzədən qızıl verib yola saldı.

Bir ay tamam oldu, Qara vəzir gəldi Mələk xanımın yanına. Mələk xanım baxıb gördü ki, gələn atasıdı, başladı ağlamağa. Qara vəzir dedi:

- Qızım, nə üçün ağlayırsan?

Mələk xanım dedi:

- Ata, bu gecə anamı yuxuda görmüşdüm. Mənə dedi ki, indi ki, atan səni özünə arvad eləmək istəyir, birinci vəsiyyətim budu ki, səni kəbinə aparsın. Ikinci vəsiyyətim də bu oldu ki, kəbindən sonra mən gərək sənin üçün pəhləvan paltarı geyib, ata minib camaatın qabağında at oynadım. Ata, əgər anamın vəsiyyətini yerinə yetirməsəm, mən sənə getməyəcəyəm.

Qara vəzir razı olub, bir qazı çağırıb Mələk xanımın kəbinini özünə kəsdirdi. Mələk xanıma bir dəst pəhləvan paltarı, bir də yaxşı bir at verdi. Mələk xanım minib atı, çıxdı bayıra. Bir o yana, bu yana at sürüb, sağ əlini qaldırıb göyə, ata elə bir taziyanə vurdu ki, at yel olub ta bayaq şəhərdən çıxıb getdi. Qara vəzir ha çığırdı, olmadı ki, olmadı. Kor-peşiman oturub ağlamağa başladı.

Qara vəzir burada qalsın, al xəbəri Mələk xanımdan.

Mələk xanım çıxdı şəhərdən, üz qoydu çöllü-bəri-biyabana. Neçə müddət yol getdi, gəlib çatdı bir şəhərə. Atını çəkib karvansarada bağladı, düşdü şəhər içinə gəzməyə. Gəlib çatdı çayçı dükanına. Girib bir o yana, bir bu yana baxdı, gördü ki, burada hər rəng pəhləvan var. Dinməyib başını saldı aşağı. Çay gətirtdirdi, içib bir xeylaq oturandan sonra durub getdi öz mənzilinə, yıxılıb yatdı.

Bu şəhərin padşahının heç oğlu olmazdı. Həmişə qızı olardı. Odu ki, padşah oğul deyib burnunun ucu göynəyənlərdən idi. Padşahın bir bağbanı vardı, bu bağbanın da Rüstəm adında bir gözəşirin oğlu vardı. Padşah bağbandan Rüstəmi alıb öz oğlu kimi saxlayırdı.

Bir gün Rüstəm padşahdan izin alıb şəhərə gəzməyə çıxmışdı. Güzarı düşdü çayçı dükanına. Gördü ki, burada bir cavan pəhləvan əyləşib, amma heç kimnən gülüb danışmır. Hey başını salıb aşağı zol fikirdədir.

Rüstəmi çox fikir aldı ki, aya, bu nə olan şeydi ki, bir belə gözəl oğlanın nə dərdi ola bilər? Dinmədi, keçib oturdu Mələk xanımın yanında. Bir xeylaq Mələk xanıma fikir verdi, gördü ki, bu elə gözəldi ki, camaat bunun tamaşasına gəlir.

Rüstəm bunun məhəbbətin saldı ürəyinə dedi:

- Ey cavan, gəl daş yonaq, bir bina tikək!.

Mələk xanım dedi:

- Qəribəm, gedərgiyəm, məndən sənə qardaş olmaz.

Rüstəm dedi:

- Ey cavan, adın nədi?

Mələk xanım dedi:

- Adım Məhəmməddi.

- Ey Məhəmməd, bil və agah ol, mən bu şəhərin padşahının oğluyam. Adıma da Rüstəm deyirlər. Qəribsən, gedərgisən, hər nəsən dur, mənə qonaqsan.

Mələk xanım tutuldu. Öz-özünə dedi:

- Nə pis yerdə günümü axşam elədim?

Mələk xanım çox illa elədi Rüstəmə ki, mən gedərgiyəm, qoy çıxım gedim öz işimə, Rüstəm əl çəkmədi, dedi:

- Mənimlə.

Mələk xanımın əlacı kəsilib durub düşdü Rüstəmin dalıncan, gəlib çatdılar imarətlərinə. Girdilər Rüstəmin mənzilinə, Rüstəm xəbər aldı Mələk xanımdan ki:

- Məhəmməd, haradan gəlib hara gedənsən?

Mələk xanım dedi:

- Istambula gedirəm. Atam məndən bərk nigarandı.

Rüstəm dedi:

- Məhəmməd, bil və agah ol, mən bir bağban oğluyam. Amma bizim padşahın oğlu olmadığı üçün məni oğulluğa götürübdü. Indi mənim də ürəyim qardaş sarıdan dağılır. Gəl mənə qardaş ol!

Mələk xanım dedi:

- Məndən sənə qardaş olmaz.

Amma Rüstəm o qədər gözəldi ki, Mələk xanım Rüstəmdən gözünü çəkmirdi. Axşam olan kimi, Mələk xanım istədi durub gedə, Rüstəm sıyırıb qılıncını verdi Mələk xanıma, dedi:

- Ey Məhəmməd, indi ki, gedirsən, al bu qılıncı, öldür məni, sonra get!

Mələk xanım dedi:

- Mən gedərgiyəm, bura adam öldürməyə gəlməmişəm.

Rüstəm dedi:

- Indi ki, öldürmürsən, gəl getmə!

Bu sözdən Mələk xanımın bərk acığı tutdu. Rüstəmə bir qılınc çəkib, yaralayıb çıxıb getdi.

Rüstəm başının qanı axa-axa durub düşdü Mələk xanımın dalıncan. Mələk xanım baxıb gördü ki, Rüstəm başının qanı axa-axa budu gəlir. Qayıdıb dala cib dəsmalını çıxardıb Rüstəmin yarasını bağladı. Götürüb gəldi evə, dedi:

- Rüstəm, sən ki, məni özünə qardaş eləmək fikrindəsən, onda qulaq as, bircə şərtim var. Mən hər yana getsəm, məndən heç bir şey xəbər alma.

Rüstəm dedi:

- O da mənim gözüm üstə!

Mələk xanım dedi:

- Ikinci şərtim də budu ki, otağın məndən ayrı olsun.

Rüstəm razı oldu.

Gecə ilə Mələk xanım üçün ayrıca bir otaq ayırıb verdi Mələk xanımın ixtiyarına. Oturub bir qədər o yandan, bu yandan söhbət elədilər, yatmaq məqamında hərə çəkilib öz otağında yatdı.

Rüstəm səhər durub gəldi sevinə-sevinə padşahın yanına, dedi:

- Ata, özümə qardaş tapmışam.

Padşah dedi:

- Oğul, gətir görək tapdığın qardaşın necə şeydi?

Rüstəm ədəb ilə padşahın yanından çıxıb, durub gəldi mənzilinə. Mələk xanım da balkonda gəzinirdi, gördü ki, Rüstəm gəlir, durub çıxdı Rüstəmin qabağına, xəbər aldı:

- Nə üçün belə tövşəyə-tövşəyə gəlirsən?

Rüstəm dedi:

- Ey Məhəmməd, atam səni görmək istəyir, dur gedək yanına.

Mələk xanım Rüstəmin sözündən çıxa bilməyib, durub qoşuldu Rüstəmə. Rüstəm Mələk xanımı götürüb gəldi atasının yanına.

Padşah baxıb gördü ki, bu bir gözəl oğlandı ki, dünyada misli yoxdu. Padşah Mələk xanımı lap yanında oturdub adını xəbər aldı.

Mələk xanım dedi:

- Adıma Məhəmməd deyirlər.

Padşah dedi:

- Məhəmməd, atandan, anandan nəyin var?

Dedi:

- Atam var, amma anam yoxdu.

Padşah dedi:

- Məhəmməd, gəl qal mənim yanımda, ol mənə oğul!

Mələk xanım razı oldu. Onda padşah da çox şad oldu. Mələk xanım qaldı burada.

Bu əhvalatdan bir necə ay keçdi. Yaz fəsli idi. Mələk xanım balkonda oturmuşdu. Günorta zamanı Rüstəm durub gəldi Mələk xanımın yanına. Oturub bir neçə saat şirin-şirin gülüb danışdılar. Rüstəm Mələk xanıma dedi:

- Məhəmməd, axşam evdə ol, bir ixtilat eləyək!

Mələk xanım çəkildi öz otağına, öz-özünə oturub dedi:

- Ey dili qafil, mən neyləyirəm? Mən nə üçün atamı sağ buraxdım.

Mələk xanım bu fikir ilə günü batırdı. Qaş qaralana macal başdan geyinib ayaqdan qıfıllandı, ayaqdan geyinib başdan qıfıllandı minib atına, çıxdı şəhərdən qırağa. Atına bir taziyanə vurdu ki, atın anadan əmdiyi süd burnundan töküldü.

Mələk xanım yayılıb atın belinə, dərələrdən sel kimi, təpələrdən yel kimi badi-sərsər kimi, ayaq üzəngidə, diz qabırğada, budu özünü yetirdi öz şəhərlərinə. Çəkilib hasarın qırağında durdu, şəhər qapısını döydü. Döyəndə qapıçı qapını açmaq istəmədi. Mələk xanım əl atıb, qapının

qullabasını çıxarıb qapını çərçivəsindən qoydu yerə. Girib şəhərə, əvvəl qapıçını öldürdü, sonra öz atasının pəhləvanlarının bir neçəsini öldürüb, çıxıb getdi.

Qara vəzirə gecə ilə xəbər getdi ki, şəhərə bir pəhləvan gəlib bizi qırıb, çatıb getdi. Qara vəzir qoşun göndərdi. Amma qoşun səhərə kimi axtarıb heç bir şey tapa bilməyib, geri qayıtdı.

Al xəbəri Rüstəmdən.

Rüstəm gecə durub gəldi Mələk xanımın otağına. Gördü ki, Mələk xanımın otağı qaranlıqdı. Da qapını döyməyib, çıxıb getdi.

Mələk xanım səhərə yaxın özünü şəhərə saldı. Atın çəkib tövləyə bağladı, əl-üzünü yuyub, yıxılıb yatdı.

Rüstəm səhər tezdən durub Mələk xanımın yanına gəldi. Mələk xanım yenicə yuxudan durmuşdu. Gördü ki, Rüstəm gəlir, tez əl-üzünü yuyub, geyinib oturdu. Rüstəm gəlib ədəb salamını yerinə yetirdi, xəbər aldı:

- Qardaş, Məhəmməd, deyəsən bu gecə tez yatmışdın?

Mələk xanım dedi:

- Bəli, tez yatmışdım.

Daha sual-cavab eləməyib ayrıldılar. Ayrılanda Rüstəm dedi:

- Qardaş, günorta padşaha qonağıq.

Mələk xanım razılıq verdi. Dik günorta Rüstəm gəlib Mələk xanımı götürüb apardı padşahın yanına. Oturub günorta xörəyini yeməkdə olsunlar, sənə xəbər verim Hind padşahından.

Hind padşahı bu padşah üçün bir qarpız, bir də bıçaq göndərmişdi ki, bunun mə`nasını tap. Elçi qarpızla bıçağı götürüb, gəlib oturdu elçi daşının üstündə. Padşaha xəbər getdi ki, Hind elçisi gəlib. Padşah əmr verdi ki, elçini götürüb gəlsinlər, görək sözü nədi?

Elçi gəlib, baş əyib qarpızla bıçağı qoyub padşahın qabağına, dedi:

- Hind padşahı deyir, hər ayına bu qarpızın mə`nasını tapmasa davamız davadı.

Padşah dedi:

- Buna tədbir! Bu qarpız nə olan işdi?

Vəzir dedi:

- Padşah, doğrusu mən bu işdən bir şey başa düşməyirəm.

Padşah acıqlanıb dedi:

- Vəzir, hər ayına bu qarpızın mə`nasını tapa bilməsən boynun vurulacaq.

Vəzir uşaq kimi durdu ağlamağa. Mələk xanım baxıb gördü ki, vəzir ağlayır, tez əl atıb qarpıza, çəkdi qabağına, dedi:

- Padşah sağ olsun, mənim üçün bir iri, həm də köhnə qarpız tapın, mən bu qarpızın mə`nasını yorum.

Vəzir belə eşidəndə tez özünü bazara verib, batman gələn qalınqabıq bir qarpız alıb, götürüb gəldi. Mələk xanım Hind padşahı göndərən qarpıza eynən baxıb gördü ki, qarpızın bir qırağında dırnaq boyda yer var. Üstündən də qara çəkilibdi. Mələk xanım bir məcməyinin içinə qarpızı qoyub narın un kimi əzdi. Vəzir gətirən qarpıza dırnaqdan kiçik nişan qoyub, lap qırağına bıçaq sancıb, qarpızların hər ikisini verdi Hind padşahının elçisinə, göndərdi Hind padşahı üçün.

Padşah Mələk xanımdan xəbər aldı ki:

- Məhəmməd, sən o qarpızı nə üçün əzib göndərdin geri?

Mələk xanım dedi:

- Padşah sağ olsun, o qarpız ki, Hind padşahı göndərmişdi, deyirdi ki: mən Hind padşahıyam, bütün dünya da mənə baxır. Qarpızın qırağında kiçik bir nişan qoymuşdu. Onun da mə`nası bu idi ki, guya sən onun üçün heç bir şey deyilsən. Haçan keyfi çatsa, səni buradan silib-süpürə bilər. Mən də o göndərən qarpızı narın un kimi əzib göndərdim onun üçün. Onun da mə`nası odu ki, sən Hind padşahı heç yel də olub mənim yanımdan keçə bilməzsən. Əgər dava eləsək, başını bu qarpız kimi əzərəm.

Mələk xanımın bu tədbirlərindən padşah çox şad olub əmr verdi ki:

- Məni istəyən buna xələt versin.

Vəzir açıb xəzinənin ağzını, o ki, vardı Mələk xanıma xələt verdi.

Mələk xanım gecədən yarım pas keçirdən kimi minib atını, üz qoydu çöllü-bəri-biyabana. Gəlib çatdı Qara vəzirin şəhərinə. Istədiyi padşah adamların qırıb, çatıb atını qaytardı, gəldi öz mənzilinə. Qara vəzirə adam getdi ki, yenə həmin pəhləvan gəlib, bir neçə pəhləvan öldürüb, çıxıb getdi.

Qara vəzir car çəkdirdi ki, kim o pəhləvanı öldürsə, ya diri tutsa, ona xəzinənin yarısını verərəm.

Amma heç kim Mələk xanımın döşünün qabağında dura bilmədi.

Sənə xəbər verim Rüstəmdən.

Bir gecə Rüstəm durub Mələk xanımın yanına gəldi. Gördü evdə yoxdu. Öz-özlüyündə fikir elədi ki, bu hər gecə hara gedir? Oturub bir qədər gözlədi, gördü haçandan-haçana Mələk xanım gəldi əl-üzü qan içində. Düşüb atdan əl-üzünü yuyub, heç soyunmayıb, yıxılıb yatdı. Rüstəmi qəm alıb öz-özünə dedi:

- Hər necə olsa, gərək Məhəmmədin sirrini biləm.

Gecəni yatdı. O günü ta Mələk xanımın yanına getməyib xəbər göndərdi ki, məni bağışlasın, bərk naxoşam, bu gün yanına gələ bilməyəcəyəm.

Mələk xanıma da bu gərəkdi. Çünki gündüzü vurub gecəyə atını minib getməkdə olsun, Rüstəm də bu tərəfdən minib atına, qarabaqara düşdü Mələk xanımın dalıcan.

Mələk xanım birbaş atını sürdü Qara vəzirin şəhərinə. Qara vəzirə xəbər getdi ki, həmin pəhləvan yenə gəlibdi.

Qara vəzir Mələk xanımın müqabilinə qoşun göndərdi. Mələk xanım da gələn-gələn qoşunu qırıb saldı yola.

Rüstəm özünü saxlaya bilməyib vurdu özünü dəryayi-ləşkərə. Ot kimi Qara vəzirin qoşununu qırıb tökdülər yerə. Rüstəm bir və`də ayılıb gördü ki, Mələk xanım meydanda yoxdu. Tez çıxdı şəhərdən, üz qoydu öz vilayətlərinə sarı gəlməyə. Rüstəm gəlməkdə olsun, al xəbəri Mələk xanımdan.

Mələk xanım gəlib öz mənzilinə çatmışdı. Soyunub əl-üzünü yudu, atını rahat elədi, Rüstəm də bu tərəfdən gəlib çatdı. Gördü Mələk xanım gəlib haçandı yatıbdı. Rüstəm dinməyib, keçib öz mənzilində yatdı. Səhər durub həmişəki kimi gəldi Mələk xanımın yanına. Oturub şirin-şirin söhbət elədilər. Qaş qaralan kimi Mələk xanım dedi:

- Mən yatıram.

Rüstəm başa düşdü ki, Məhəmməd yenə gedəcək, dinməyib, durub getdi. Mələk xanım Rüstəmi yola salan kimi minib atına, getmək binasını qoydu. Rüstəm də qılıncını bağlayıb, niqabın üzünə çəkib, at minib, gəlib kəsdi yolun üstünü. Haçandan-haçana Mələk xanım gəlib çatdı. Gördü ki, yolun ortasında bir pəhləvan dayanıb.

Dedi:

- Ey pəhləvan, çıx yoldan, keçim gedim.

Rüstəm dönüb dala baxanda gördü ki, qardaşlığı Məhəmməddi. Özünü tanış verməyib, başını tikib aşağı heç cavab vermədi. Mələk xanım hirslənib atını irəli sürüb əl atdı qılınca, dedi:

- Ey filan-filan olmuş, sənlə deyiləm? Çıx yoldan!

Rüstəm baxıb gördü ki, bu əl atdı qılınca. Rüstəm də əl atıb qılınca, başladılar qılınc davasına. Rüstəm qılıncı Mələk xanıma ürəksiz vururdu, amma Mələk xanım qılıncı qaldırıb ürəklə endirirdi Rüstəmin təpəsinə.

Rüstəm baxıb gördü ki, yox, bu çox zor şeydi, tez-gec bunu öldürəcək. Atıb qılıncı yerə, əl atdı Mələk xanımın kəməndinə. Başladılar qurşaq yapışmağa. Düz sübh namazına kimi hər ikisi çapaladı, heç biri o birini basa bilmədi. Rüstəmə bu çox ar gəldi. Bir nə`rə çəkib əl atdı Mələk xanımın kəməndindən qaldırıb göyə, vurdu yerə. Yerə vuranda Mələk xanımın siyah saçları peşmək kimi dağıldı. Rüstəm baxıb gördü ki, bu oğlan deyilmiş, qız imiş. Ağıl sərdən verib, niqabı üzündən götürüb dedi:

- Məhəmməd!

Məhəmməd pul kimi qızardı. Durub ayağa, ta atası ilə davaya getməyib, minib atına gəldi öz otağına.

Rüstəm at başı salıb özünü yetirdi mənzilinə. Düşüb atdan gəldi Mələk xanımın yanına, dedi:

- Mən səni Məhəmməd bilirdim. Amma sən qızsanmış. Məni bu sirdən agah elə görək necə şeydi?

Mələk xanım dedi:

- And düş ki, bu sirri heç kəsə demərəm, açım deyim sənə.

Rüstəm and düşdü. Mələk xanım Qara vəzirin hekayətini Rüstəm üçün danışdı. Rüstəm dedi:

- Ey nazənin sənəm, əzəl gündən mənim meylim düşübdü sənə. Ta çara yoxdu, gəl mən alım səni.

Mələk xanım dedi:

- Iş burasındadı ki, mənim də sənə meylim vardı. Amma sənin atan məni görsə, alar sənin əlindən.

Rüstəm dedi:

- Qorxma, ala bilməz.

Iki aşiq könül verib bir-birinə sarmaşıq kimi sarılmaqda olsunlar, sənə xəbər verim kimdən, Rüstəmin atalığından.

Padşah bir gün yatıb yuxuda görmüşdü ki, göydən daş yağır. Tezdən durub ayağa dedi, gərək gedəm bu yuxunu Məhəmməd mənim üçün yoza.

Padşah durub ayağa, üz qoydu Mələk xanımın otağına. Padşah çıxıb pilləkəndən gördü ki, qapı bağlıdı. Boylanıb gördü Rüstəm burada bir qızla yatıbdı ki, dünyada misli yoxdu. Padşah bir də baxmaq istəyəndə tab gətirə bilməyib, bihuş olub dəydi yerə.

Haçandan-haçana padşah özünə gəlib, durub çıxdı taxtına, tez əmr verdi ki, filan otaqda iki cavan var, tutub gətirin hüzuruma.

Padşah adamları durub gəldilər Mələk xanımın otağına. Qapını sındırıb girdilər içəri, gördülər ki, Rüstəm burada bir qızla yatıbdı. Tez durquzub bunları apardılar padşahın hüzuruna. Padşah Rüstəmi görən kimi zindana saldırdı. Mələk xanımı da saldırdı otaqların birinə. Padşah gecə ilə durub gəldi Mələk xanımın yanına, dedi:

- Ey gözəl pəri, gərək mənə hərəm olasan.

Mələk xanım dedi:

- Padşah sağ olsun, məndən gəl əlini çək!

Mələk xanım çox yalvardı, padşah az eşitdi, axırda padşah dedi:

- Ey qız, əgər mənə hərəm olmasan, boynunu vurduraram. Mələk xanım baxıb gördü ki, padşah lap haqsızlığa salıb, istəyir bu dəqiqə yanına girə, tez bir tilsim oxuyub padşahı döndərdi daşa. Çıxıb evdən özünü atdı bağa. Axtarıb zindanı tapdı. Zindan qaraulçularının ikisini də cəhənnəmə vasil eləyib, zindanxananın qapısını sındırıb girdi içəri. Gördü ki, Rüstəm buradadı.

Rüstəm dedi:

- Gəl qaçaq!

Mələk xanımla Rüstəm gəldilər öz mənzillərinə, hər ikisi başdan geyinib, ayaqdan qıfıllanıb çıxdılar evdən. Mələk xanım çatıb padşah olan otağa bir tilsim oxudu padşahı elədi adam. Siyirib qılıncı padşahı öldürdü. Rüstəmin atasını padşah tikdi. Gecəni qaldılar. Səhər Mələk xanım camaatı yığıb onları işdən xəbərdar elədi, Rüstəmin atasını padşahlığa qəbul elədilər. O da çox ədalət ilə padşahlıq eləməyə başladı.

Mələk xanım Rüstəmə dedi:

- Mənə izin ver, gedim atamı öldürüm.

Rüstəm dedi:

- Necə? Mən ölmüşəm ki, səni tək buraxım? Dur, mən də sənlə gedirəm.

Rüstəm qoşulub Mələk xanıma, üz qoydular Qara vəzirin şəhərinə. Qara vəzir qorxusundan şəhərin dörd tərəfinə qaraulçu qoymuşdu. Qaraulçular bir də baxıb gördülər ki, iki pəhləvan gəlir. Tez xəbərə getdilər.

Qara vəzir nə ki qoşunu vardı tökdü bu çölün düzünə.

Mələk xanım dedi:

- Rüstəm, daha dayanıb baxmaq lazım deyil.

Rüstəm girdi qoşunun solundan, Mələk xanım girdi qoşunun sağından. Ot kimi qoşunu biçib tökdülər yerə. Qara vəzirə xəbər getdi ki:

- Taxtın qanla dolsun, qoşun qurtardı.

Qara vəzir düşdü qorxuya. Bir-iki dənə pəhləvan vardı, onları da göndərdi. Bunları da cəhənnəmə vasil elədilər. Tez özlərini saldılar şəhərə. Mələk xanım gəlib çatdı Qara vəzirin bərabərinə. Tez üzündən niqabı götürdü. Qara vəzir baxıb gördü ki, öz qızı Mələk xanımdı. Istədi qızını vurub öldürə. Mələk xanım aman verməyib, çəkib qılıncı Qara vəziri tən ortadan bölüb cəhənnəmə vasil elədi. Tez qulu tapıb qoşun əhlini də özünə tabe elədi. Imansız qarını tapıb əli-qolu bağlı hüzuruna gətirib dedi:

- Ey küpəgirən qarı, bu qulun kişiliyini qaytar özünə!

Qarı baxıb gördü ki, ölüm ayağıdı, oxuyub tilsimi qulun kişiliyini özünə qaytardı. Mələk xanım küpəgirən qarını cəhənnəmə vasil elədi. Yığıb camaatı Qara vəzirin hekayətini şəhər əhlinə nəql elədi. Camaat Mələk xanıma afərin deyib, Qara vəzirə lə`nət oxudular.

Rüstəm Mələk xanım üçün təzədən toy eləyib kəbin kəsdirdi.

Mələk xanım Rüstəmi padşah tikdi. Rüstəm də çox ədalətli padşah olub, ömrünün axırına kimi Mələk xanımla ömr sürməyə başladı.

Q A R A Q A Ş I N N A Ğ I L I

Biri var idi, biri yox idi, allahdan başqa heç kəs yox idi. Bir odunçu var idi. Bu odunçunun oğlu, uşağı yox idi. Bir gün evdə ər-arvad oturub söhbət edirdilər. Söhbət vaxtı arvad ərinə dedi:

- A kişi, nə olaydı, bu evimizdə oğul adı çəkiləydi. Qorxuram düşüm ölüm, ürəyimdə oğul dağı qalsın.

Odunçu dedi:

- Ay arvad, nə səfeh-səfeh danışırsan? Cavanlıqda doğub törəmədin, yetmişində balalamaq istəyirsən?

Arvad kişinin bu sözünün üstündən heç bir söz demədi. Gecəni yatdılar. Səhər tezdən arvad səhəngi götürüb odana suya getdi. Səhəngin odandan doldurub evə gəlirdi, yorulub yolda oturdu. Gördü ki, dizinin üstə bir göy yarpaq düşdü. Amma ətirindən doymaq olmur. Arvad yarpağı dilinin altına qoyub, səhəngi alıb çiyninə yolladı evə tərəf.

Arvad qanov qırağı ilə gedirdi, birdən səbir gətirdi yarpaq ağzından düşdü qanova. Su apardı yarpağı. Arvad səhəngi qoyub yerə, yüyürdü yarpağın dalıncan. Ha burda, ha orda yarpağı tuta bilmədi. Bir xeyli yol gəlib çatdı bir qalaçaya. Gördü ki, burada bir dərviş qabağına manqal qoyub, kitabdan oxuyub, manqala üfürür. Dərviş birdən qalxıb odunçunun arvadına dedi:

- Xoş gəlmisən!

Bir qaşıq ağzının suyundan damızdırıb qaşığa, odunçunun arvadına verdi. Odunçunun arvadı əvvəl qorxdu, istəmədi alıb içə. Sonra özünə ürək verib, dərvişin tüpürcəyini alıb içdi. Içən kimi dərviş qalxıb ayağa, arvada bir sillə çəkdi, götürüb saldı otaqların birinə.

Odunçunun arvadı haçandan-haçana özünə gəlib, gözlərin açdı, gördü ki, balaca bir otaqdı. Amma burda heç kəs yoxdu. Tez durdu ayağa qaçsın, gördü ki, burada bir qapı var. Sındırıb qapını girdi içəri, gördü ki, burada o qədər arvad var ki, gəl görəsən. Saçından asılan saçından asılıb, daşa dönən daşa dönüb. Odunçunun arvadı yapışıb qızların birinin saçından açıb qoydu yerə. Xəbər aldı:

- Ey biçarələr, sizi saçınızdan kim, nə səbəbə asıb?

Qız dedi:

- Mən padşah qızıyam. Bir gün atamın bağında gəzirdim. Gördüm ki, yerdə bir göy yarpaq var. Götürüb əlimdə oynadırdım, birdən yarpaq əlimdən sürüşüb düşdü qanova, başladı axıb getməyə. Mən də düşdüm yarpağın dalıncan ki, tutam. Gəlib çıxdım qalaçaya. Qabağıma bir dərviş çıxdı, tüpürcəyindən bir qaşıq verdi ki, içəm. Mən də iyrənib atdım. Acığı tutub, məni bu otağa salıb, saçımdan asdı.

Odunçunun arvadı o biri arvadları da saçından açıb xəbər aldı ki:

- Bu nə əhvalatdı?

Necə ki, padşah qızı danışdı, o biriləri də elə danışanda odunçu arvadı dedi:

- Ey qızlar, bilin və agah olun! Mən də sizin gününüzdəyəm. Qızlar, gəlin qaçaq! Yoxsa bu dərviş bizi qırar.

Odunçunun arvadı arvadları qatıb qabağına, iki qapı keçdilər, üçüncüyə çatanda gördülər ki, qapının ağzında əjdaha var. Qızlar qorxub geri qaçanda, odunçunun arvadı dedi:

- Qaçmayın! Bu saat mən bu əjdahanı öldürüm.

Odunçunun arvadı yeriyib irəli, yapışdı sağ əli ilə əjdahanın alt çənəsindən, sol əli ilə üst çənəsindən çəkib-dartıb əjdahanı iki bölüb, atdı bir yana. Qapı açıldı. Keçdilər ikinciyə, gördülər ki, burada bir pələng var. Odunçunun arvadı pələngi də belə öldürüb, keçdilər. Bir qapıda gördülər bir tülkü var. Odunçunun arvadı tülkünü öldürmək istədi. Tülkü dil açıb dedi:

- Məni öldürməyin, sizə yaxşılıq eləyim.

Odunçunun arvadı əl saxladı.

Tülkü dedi:

- Dərviş qırx günün yuxusuna gedib. Bu gün qırx günü tamamdı. Ayılsa vayınızdı. Bax, bu qapıdan çıxıb qaçın!

Odunçunun arvadı tülkünü öldürmədi, tülkü də bunlara yol göstərdi, qaçıb getdilər. Bir xeyli gedəndən sonra hərə öz evinə dağıldı, odunçunun arvadı da çatdı səhəngini qoyduğu yerə. Gördü ki, səhəngi sağ-salamatdı. Alıb səhəngi, gəldi evinə.

Odunçu arvadı gedəndən sonra çox bikeyf idi. Ürəyindən min bir xəyalət keçirdi. Bir də onu gördü ki, arvad budu səhəng çiynində gəlib çıxdı.

Odunçu yerindən qalxıb, əl atıb kösövə dedi:

- Ay itin qızı, haradaydın?

Arvad dedi:

- Kişi, bir səbir elə, başıma gələni sənə danışım, sonra neyləyirsən elə!

Odunçu kösövü yerə qoyub dedi:

- Danış görək!

Arvad başına gələn müsibəti ərinə danışdı. Odunçu arvadını çox istəyirdi. Əlacı kəsilib arvadına dinmədi. Birdən baxıb gördü ki, arvadı hamilədi. Od götürüb əl atdı dəyənəyə. Dəyənəyi qoyub yapışdı kösövdən. Kösövü qoyub, yapışdı baltadan ki:

- Itin qızı, sən hamiləsən, gərək səni öldürəm.

Arvad dedi:

- Ay kişi, ağzımda sənə bir quran söz danışmışam. Bu olsa dərvişin tüpürcəyindən olacaq. Qoy görək başımıza nə gələcək.

- Odunçu əl saxladı. Amma dərviş hərdən gözünün qabağında duranda kişini od götürürdü, yenə şeytana lənət deyib, hirsin alırdı əlinə.

Doqquz ay başa gəldi, arvad yükünü qoydu yerə, bir cüt qara qaş doğdu. Bu uşağın nə qolu var idi, nə qıçı, nə cəmdəyi, nə başı, nə də gözü. Amma bir cüt çatma qara qaş gözə görünürdü.

Odunçu düşdü qorxuya. Arvad qorxusundan qaçdı.

Kişi yapışıb baltadan dedi:

- Arvad, dur kəlmeyi-şəhadətini de, səni öldürəcəyəm, sənin doğduğun təpənə dəysin.

Arvad dedi:

- A kişi, bura qədər səbir eləmisən, bir az da səbir elə, görək bu işin axırı nə olacaq.

Kişi dedi:

- Axmaq oğlunun qızı, nə səbirbazlıqdı? Doğduğunu gördük də. Odur, çıxıb oturub yükün üstə. Bədən yox, baş yox, göz yox, qıç yox, qol yox, bir cüt qara qaş. Dur, dur köpək oğlunun qızı! Məni rüsvay elədin. Səni gərək öldürəm.

Arvad yalvarıb-yaxarıb, bir təhərlə canını kişinin əlindən qurtardı.

Indi al xəbəri Qaraqaşdan. Qaraqaş bu qalmaqla bir həftə yük üstündə qaldı. Bir gün arvad xörək bişirirdi, kişi də evdə oturmuşdu, Qaraqaş birdən atılıb yükün üstündən yerə, dedi:

- Mənə pəpə!

Arvad bir nimçə sıyıq çəkib qoydu ortalığa. Bir də onu gördü bir nimçə sıyıq aş qurtardı. Qaraqaş dedi:

- Mənə pəpə!

Arvad bir nimçə də xörək çəkdi. Qaraqaş bu nimçə xörəyi də yedi. Qaraqaş belə-belə bir qazan xörəyi yeyib, düzəldi, yola. Kişinin dili-ağzı quruyub, dedi:

- Arvad, bircə qapıları bağla, gəlməsin.

Arvad durub qapıları bağladı. Oturub təzədən xörək bişirməkdə olsun, al xəbəri dərvişdən.

Dərviş ayılıb, gördü ki, odunçunun arvadı yoxdu. Durub gəldi o olan şəhərə. Bir də gördü ki, Qaraqaş budu evdən çıxıb gedir. Tez əlin atıb Qaraqaşı tutdu. Bir tilsim oxuyub Qaraqaşı elədi bəni-insan. Dedi:

- Ey oğul, səni mən dünyaya gətirmişəm. Indi sənə elə bir su verim ki, dünyada heç bir pəhləvanın gücü sənə çatmasın. Amma gərək mənim dediklərimi yerinə yetirəsən.

Dərviş Qaraqaşa and verdi. Qaraqaş andı qəbul eləyəndən sonra, dərviş, cibindən bir şüşə çıxardıb verdi Qaraqaşa. Qaraqaş şüşəni alıb çəkdi başına.

Dərviş dedi:

- Indi mən yatıram. Nə badə mənim bu şeylərimə dəyəsən. Mənim qarovulumu çək!

Dərviş bir tilsim oxudu, Qaraqaş oldu həminki Qaraqaş. Özü də yıxılıb yatdı. Haçandan-haçana dərviş ayılıb Qaraqaşa dedi:

- Ey oğlan! Burdan gedərsən, padşahın evinə. Padşahın qızını götürüb gələrsən. Amma qorxma, səni tuta bilməzlər.

Qaraqaş dərvişdən ayrılıb birbaş gəldi padşahın imarətinə. Açıb qapını, girdi içəri, gördü ki, padşah xörək yeyir. Qaraqaş əlin atıb padşahın xörəyini yeyib qurtardı. Padşah baxıb gördü ki, bu xörəkdən heç doymadı. Aşbazı çağırıb xəbər aldı:

- Ey, vələdəzna, bugünkü xörəyin niyə azdı?

Aşbaz dedi:

- Padşah sağ olsun, həmişəki qaydaynan sənə xörək çəkmişəm.

Qaraqaş vəzirin, vəkilin, padşahın arvadının başına da bu oyunu gətirdi.

Padşah bir də baxıb gördü ki, vəzir, vəkil, padşahın öz arvadı da gəlib çıxdı. Başladılar aşbazdan şikayət eləməyə ki, bugünkü xörəyimiz az düşüb.

Padşah dedi:

- Indi ki, belədi, vurun aşbazın boynunu!

Cəllad gəldi. Aşbazın qolun bağladılar. Cəllad əl qaldırıb istədi aşbazın boynunu vura, Qaraqaş əlin atıb, tutdu cəlladın biləyindən. Cəllad ha istədi əlin endirə aşağı, baxıb gördü ki, əli qalıb göydə. Padşah bir-iki kərə qışqırdı:

- Vur, deyirəm sənə!

Cəllad dedi:

- Qibleyi-aləm, əlimi tutublar, qolum işləmir.

Padşahın acığı tutub, durub düşüb taxtdan, alıb qılıncı cəlladın əlindən, istədi ki, aşbazın boynunu vura, Qaraqaş əl atıb tutdu padşahın biləyindən, elə sıxdı ki, qılınc əlindən düşdü. Padşah iki saat özünə gəlmədi. Vəzir, vəkil padşahı ayıldıb taxta çıxartdılar. Padşah dedi:

- Vəzir, burada bir sirr vardı. Aşbazlıq iş yoxdu.

Padşah aşbazı buraxdı. Qaraqaş yapışıb padşahın tacından qoydu yerə. Çıxıb getdi. Padşah bu işə lap məəttəl qaldı.

Al xəbəri Qaraqaşdan. Qaraqaş özün yetirdi padşahın xəzinəsinə. Bir böyük çəngə qızıl götürüb üz qoydu evlərinə. Gördü ki, qapıları bağlıdı. Bir təpik qapıya çəkdi, qanı laxbalax açıldı. Qaraqaş girdi içəri, qızılları anasının ətəyinə töküb çıxıb getdi. Odunçunun arvadı qızılı görən kimi gözləri çıxdı kəlləsinə. Kişi dedi:

- Arvad, dur uşağı qaytar!

Arvad durub çıxdı bayıra, gördü ki, Qaraqaş burada neyləyir. Qayıtdı evə. Kişi xəbər aldı:

- Necə oldu?

Arvad dedi:

- Bayırda adam nə gəzir.

Kişi dedi:

- Arvad, ta qapıları bağlama! Qoy tez-tez gəlsin!

Ər-arvad, bu pulla qapı-bacalarını qayıtdırıb, özlərinə ev azuqəsi, üst-baş alıb, şad gün keçirməyə başladılar.

Al xəbəri Qaraqaşdan. Qaraqaş bu səfər özün verdi padşahın qızının otağına. Bir təhərlə özün saldı içəriyə. Gördü ki, padşahın qızı xörək yeyir. Qaraqaş oturub qızla xörək yedi. Padşahın qızı baxıb gördü ki, bu gün xörəkdən heç doymadı. Sabahısı günün də xörəyi gəldi. Yenə də doymadı. Birdən başını qaldırıb yuxarı, gördü ki; başının üstə bir cüt çatma qaş var. Qız barmağın dişləyib, dedi:

- Ey dili-qafil, bu filan cadukunun tüpürcəyindən əmələ gələn oğlandı.

Çünki padşah qızı hər bir tilsimi bilirdi, dinməyib gecəni rahat yatdı. Günorta araya xörək gəldi. Qız başlayıb yeyəndə Qaraqaş da oturub xörəkdən yedi. Padşah qızı Pəri əlin uzadıb tutdu Qaraqaşın biləyindən, bir ismiəzəm oxuyub Qaraqaşın biləyindən elə sıxdı ki, Qaraqaş çığırıb, oldu 15 yaşında gözəl bir oğlan. Pəri xanım bu gözəlliyi Qaraqaşda görən kimi könül verib dedi:

- Allah mənim istədiyimi yetirib. Tez durub bir dəst mərdanə paltar çıxardıb geyindirdi Qaraqaşa. Hər ikisi sərilib sarmaşıq kimi bir-birinə, yatdılar. Haçandan-haçana ayılıb Qaraqaş Pəri xanıma dedi:

- Ey qız, dərviş məni gözləyir. Mən çox da sənin yanındayam, amma səni gərək dərvişə yetirəm.

Pəri dedi:

- Ey cavan, o çox-çox sənin kimi oğlanlar dünyaya gətirib, mənim kimi qızları həmin oğlanların vasitəsilə apartdırıb, qızla oğlanı həlak edib. Gəl bu xam xəyaldan daşın! Bir aynaya bax!

Qaraqaş aynaya baxanda özünü aynada gördü.

Pəri qəfildən Qaraqaşa bir sillə çəkdi. Qaraqaş öyüyüb ağzından bir qurd saldı. Pəri qurdu maşaynan tutub, Qaraqaşa görsədib, dedi:

- Bu qurdu görürsən?

Dedi:

- Görürəm.

Dedi:

- Məni buradan aparıb dərvişə yetirincə bu qurd qarnında ilan olub, səni çalıb həlak edəcəkdi.

Pəri bu sözü deyəndən sonra, qurdu öldürüb atdı. Qaraqaş işləri bu halda görəndə Pəriyə ürəkdən inanıb dedi:

- Dərviş lap göyə çıxsa da səni əldən verməyəcəyəm.

Indi al xəbəri sənə verim dərvişdən. Dərviş Qaraqaşı çox gözlədi, baxıb gördü ki, Qaraqaş gəlib çıxmadı. Bir vürd oxuyub oldu göyərçin, qanad çalıb gəldi oturdu padşahın qızı Pərinin pəncərəsində. Baxıb gördü ki, Qaraqaş Pəri xanımla bir keyfdə-damaqdadı ki, gəl görəsən. Dərviş bir başına, bir döşünə vurub dedi:

- Qız əlimdən çıxdı.

Pəri xanım bütün tilsimlərin açarını bilirdi. Bəqeyrəz bir tilsimdən başqa. Dərviş nə ki, tilsim bilirdi oxudu ki, Qaraqaşı qara daş eləsin, Pəri xanımı da daşa döndərsin, gücü çatmadı.

Çatmayanda Pəri xanım bir qaqqanaq çəkdi. Qaqqanaq çəkəndə ağzından bir qurtum alov çıxıb düşdü dərvişin üstə, dərviş od tutub yanmağa başlayanda tez özün atdı padşahın çarhovuzuna. Baş vurub odun söndürdü, qalxıb göyə qışqırdı:

- Ey Pəri xanım, sənin lə mənim aramda bir tilsim qalıb. O tilsimi öyrəndim vay halına!

Dərviş üz qoydu Isfahan şəhərinə. Gəzib, qoca bir cindar tapıb bir-bir tilsimləri öyrənməyə başladı.

Xəbər verim sənə kimdən, vəzirdən. Vəzir bir gün səhər namazından qabaq əl qabına çıxmışdı. Gördü ki, padşahın qızı Pəri xanımın otağından işıq gəlir. Tez özün yetirdi bağa. Gördü ki, hasar çox hündürdü. Bir təhərlə dırmaşıb hasara, həyətə atıldı. Amma vəzirin üz-gözü, əl-ayağı cırmaq-cırmaq oldu. Özün bir təhərlə yetirdi Pərinin otağının pəncərələrinə. Pəncərədən baxıb gördü ki, qız 15 yaşında cavan bir oğlanı oturdub dizinin üstə, bir keyfdədi ki, gəl görəsən. Vəzirin ürəyi gedib tappadan gəldi yerə. Vəzir axsaq qatır kimi ombasını çəkə-çəkə durub getdi, bir təhər özün salıb yorğan-döşəyə, arvadına da tapşırdı ki, kim məni xəbər alsa, deyərsən ki, vəzir bərk naxoşdu. Vəzirin arvadı, bəli deyib öz işinə getdi. Sənə xəbər verim Firəng padşahından. Firəng padşahı elçi göndərdi bu padşahın üstünə ki, ya yeddi ilin bac-xəracın versin, ya da ki, qızı Pəri xanımı. Əgər verməsə, davamız davadı.

Firəng elçisi gəlib oturdu elçi daşının üstə. Padşaha xəbər getdi ki, Firəng padşahı elçi göndəribdi. Padşah əmr verdi ki, buraxsınlar gəlsin, görək nə üçün gəlibdi. Firəng elçisi durub gəldi, ədəb salamını yerinə yetirib oturdu. Padşah xəbər aldı:

- Nə üçün gəlmisən?

Firəng elçisi dedi:

- Firəng padşahı deyir ki, yeddi ilin bac-xəracını versin. Əgər xərac vermir, qızından əl çəksin. Yox, qızında da əl çəkmir, davamız davadı.

Padşah dedi:

- Firəng padşahına deyinən on gün mənə vaxt versin.

Elçi durub Firəng torpağına getdi.

Padşah vəzir üçün adam göndərdi ki, Firəng bizdən bac-xərac istəyir, durub tədbirə gəlsin.

Vəzir padşaha xəbər göndərdi ki, bərk naxoşam gələ bilmərəm.

Axırda padşahın əlacı kəsilib durub gəldi vəzirin yanına. Içəri girib nə gördü. Vəzir baş-gözün sarıyıb, əl-qolunda da sağ islahat yoxdu. Xəbər aldı:

- Vəzir, bu nə gündü düşübsən?

- Pişik cırmaqlayıb.

Vəzir dedi:

- Aşna, bu pişik işi deyil. Səndə sirr var, gəl düzün de! Əgər düzün deməsən boynunu vurdurtduraram.

Vəzirin canına qorxu titrəməsi düşüb dedi:

- Padşah sağ olsun, and iç qəzəblənməyəcəksən, arada qan xatası olmayacaq, deyim.

Padşah əlacsız qalıb, öz ana südünə and içdi. Vəzir necə görmüşdü, əhvalatı padşaha nəql elədi.

Padşah yerindən qalxıb dedi:

- Vəzir, qızıma böhtan demə!

Vəzir and içib özünü öldürdü.

Padşah dedi:

- Indi ki, belədi, dur məni apar oraya, görüm bu necə olan işdi. O nə nakəsdi ki, mənim qızım ilə eyş-işrətdə ola. Dur məni oraya apar!

Vəzir durub ayağa, düşüb padşahın qabağına, gəldilər Pəri xanım olan imarətin qabağına. Qaş qaralan kimi vəzir padşaha dedi:

- Padşah sağ olsun, çıx pəncərədən bax, gör nə görərsən.

Padşah çıxıb pəncərədən baxıb gördü ki, həqiqətdə qızının yanında bir oğlan var, bəeyni Rüstəmzal. Padşah tez düşdü pəncərədən, dedi:

- Vəzir, cəlladı çağlar gəlsin.

Vəzir dedi:

- Padşah, özünə toxtaq ver! Burada cəllad iş görə bilməz. Gəl gedək gecəni rahat ol, səhər bu işə əncam çəkərik.

Vəzirlə padşah evlərinə gəldilər. Padşah gecəni səhərə kimi yata bilmədi. Çünki xof almışdı onu. Səhərnən durub vəzirdən məsləhətsiz Bəlğ pəhləvanı çağırtdırıb dedi:

- Qızımın yanında bir oğlan var. Hərayna o oğlanı öldürsən, qızımı sənə verərəm.

Bəlğ pəhləvan çox güclü pəhləvandı. Belə ki, bütün pəhləvanlar Bəlğin əlindən zağ-zağ əsirdilər. Bəlğ pəhləvan durub pəhləvanlibas oldu, özün yetirdi Pərinin imarətinin qabağına.

Padşah da çıxıb eyvanından tamaşa edirdi. Bəlğ pəhləvan bir-iki meydan gəzib elə bir nərə çəkdi ki, dağ-daş titrədi. Pəri xanım özünü dik atıb pəncərədən boylanıb baxıb gördü ki, Bəlğ pəhləvandı. Işi duyub gözlərindən qanlı yaş axıtdı. Qaraqaş Pərini ağlayan görüb xəbər aldı:

- Ey nazənin, nə üçün ağlayırsan?

Pəri dedi:

- Bir çıx pəncərədən bax, gör!

Qaraqaş pəncərədən boylanıb, Bəlğ pəhləvanı görüb Pəriyə dedi:

- Ey nazənin, elə bunun üçün qorxub ağlayırsan? Bu saat düşüb onun atasına od vuraram.

Pəri dedi:

- Oğlan, ona Bəlğ pəhləvan deyərlər, səni iki barmağında boğar. Hara gedirsən?

Qaraqaş dedi:

- Mən gərək öz gücümü sınayam.

Pəri çox dedi, Qaraqaş az eşidib özün tez atdı həyətə, dedi:

- Ey Bəlğ pəhləvan, məndə qaydadır yolu düşmənə verərəm.

Bəlğ bu sözü Qaraqaşdan eşidən kimi, əl atdı Qaraqaşın kəmərinə ki, götürüb vursun yerə. Gördü ki, xeyir, bu bir qarış boy elə ağır şeydi ki, bunu yerindən tərpətmək mümkün deyil.

Qaraqaş dedi:

- Indi ver növbəni mənə!

Bəlğ növbəni Qaraqaşa verəndə, Qaraqaş əlini atıb Bəlğin kəmərindən yapışıb bir nərə çəkdi, Bəlği qaldırıb göyün üzünə, elə vurdu yerə ki, heç tikəsi də ələ keçmədi.

Padşah Bəlğ pəhləvanın öldürülməsini görəndə iki əli ilə başına vuraraq, vay sancılandım deyib, düşdü yorğan döşəyə. Vəzir durub gəldi padşahın yanına ki:

- Sənə demədim səbir elə.

Padşah dedi:

- Vəzir, buna tədbir!

Vəzir dedi:

- Tədbir odur ki, göndər Firəng qoşununun qabağına, canın qurtarsın.

Padşah razı olub Firəngə kağız yazdı ki, davamız davadı. Bu tərəfdən də Qaraqaş üçün adam göndərdi ki, hüzuruna çağırsınlar.

Pəri xanımla Qaraqaş bağda gəzirdilər. Bir də gördülər ki, budu, yasovulların biri gəlib kəsdirdi bunların başının üstünü.

Pəri xanım dönüb yasovula acıqlandı:

- Ey çəpəldən əmələ gəlmiş, sən nə hədlə bura gəldin?

Yasovul dedi:

- Xanım, bil və agah ol, padşah çox xahiş elədi ki, Qaraqaşı onun yanına göndərəsən.

Pəri xanım qorxuya düşdü. Qaraqaş dedi:

- Ey nazənin, izin ver gedim.

Pəri dedi:

- Qorxuram atam səni öldürtdürə.

Qaraqaş dedi:

- Nazənin, mən üç aylığam ki, mənim üçün qorxursan? Bədə-bəddə atanı da göndərərəm Bəlğ pəhləvanın yanına. Sən izin ver mən gedim görüm nə deyir. Bəlkə bir vacib sözü var.

Pəri izin verdi. Qaraqaş izin alıb düşdü yasovulun qabağına. Padşaha xəbər getdi ki, Qaraqaş gəlir. Padşah qorxa-qorxa Qaraqaşın qabağına çıxıb, yanında oturdub dedi:

- Ey oğlan, bizlərdə adətdi ki, şəhərimizə gələn qərib pəhləvanı birinci dəfə düşmən qabağına göndəririk. Əkər salamat qayıtsa özümüzə dost bilərik. Indi səni Firəng qoşununun qabağına göndərirəm.

Qaraqaş dedi:

- Nə deyirəm ki... Göndərsən gedərəm.

Padşah dedi:

- Bizdən nə umursan?

Qaraqaş dedi:

- Bir dəst dəmir paltar, poladdan qayrılmış Misri qılınc, otuz pud ağırlığında qalxan, bir yeyin at, dava günündə də beş pud düyünün xörəyin.

Padşah razı olub, əmr verdi bu şeyləri hazırlamağa.

Qaraqaş durub gəldi qızın yanına.

Pəri xanım gördü ki, Qaraqaş sağ və salamat gəlir. Qulac qolun səridi Qaraqaşın boynuna, xəbər aldı ki:

- Sevgilim, necə oldu? Atam niyə səni çağırtdırmışdı?

Qaraqaş əhvalatı nəql elədi Pəriyə.

Pəri dedi:

- Indi ki, belə oldu, atam sənə nə cür at versə nəbadə minəsən. Deyərsən ki, bu atlar mənim altımda davam gətirə bilməz. Onda atam sənə deyəcək, bəs hansı at xoşuna gəlir. Deyərsən ki qulaqsız boz at. Alıb minərsən.

Pəri Qaraqaşın dərsini verib tamamladı. Vaxt başa gəldi. Firəng qoşunu gəlib yetişdi şəhərə. Qaraqaş üçün adam gəldi ki, padşah hazırlığın görübdü. Qaraqaş Pəri xanımla halallaşıb özün yetirdi padşahın hüzuruna. Beş pud düyünün xörəyini sümüksüz ətlə yeyib tamam elədi. Dəmir paltarı geyib üstündən qılıncın bağladı. Padşah əmr elədi ki, at gəlsin. Mehtərlər at gətirdilər. Qaraqaş bir barmağın qoyub atın belinə, elə basdı ki, atın beli sındı, dedi:

- Padşah, bu at çox davamsızdı.

Padşah əmr verdi ki, at gəlsin.

Mehtərlər yüzə kimi at gətirdilər Qaraqaşın qabağına, Qaraqaş baxıb atlara dedi:

- Padşah sağ olsun, bu atlar mənim altımda davam gətirə bilməz.

Padşah dedi:

- Bəs hansı atı istəyirsən?

Qaraqaş dedi:

- Qulağı kəsik boz atı.

Padşah əlacsız qalıb əmr verdi ki, qulağı kəsik atı götürüb gəldi.

Mehtər gedib qulağı kəsik boz atı götürüb gəldi. Qaraqaş minib ata, üz qoydu meydana. Firəng qoşunu baxıb gördü ki, bu padşah qoşun-moşun göndərmədi. Amma haçandan-haçana bir nəfər pəhləvan gəldi. Firəng qoşunu hazırlıq gördü, Qaraqaş da bu tərəfdən qılıncın sıyırıb həmlə elədi qoşuna. Bir gün, bir günorta Firəng qoşunu ilə dava eləyib, Firəng qoşununu qırıb qaytardı dala.

Padşah bu gücü Qaraqaşda görüb adına təbil vurdurdu. Qaraqaş dava meydanından qayıdıb əl-üzünü yuyub, özün yetirdi Pərinin yanına. Pəri Qaraqaşın sağ-salamat qayıtmasından çox şad olub, o günü bütün fəqir-füqəralara aş payladı.

Bunlar burada qalsın, xəbər verim sənə kimdən, dərvişdən.

Dərviş bir çox şəhərlər gəzib bütün dünyada nə ki, tilsim vardı öyrənəndən sonra, bir neçə müddət özünü sınaqdan keçirib, üz qoydu Pəri olan şəhərə gəlməyə.

Sənə xəbər verim padşahdan.

Padşah bir gün oturub öz-özünə fikir elədi ki, bu nə işdi mən tuturam. Bir gədənin birini salmışam qızımın yanına. Sabah camaat mənə nə deyər? Yaxşısı budu ki, vəziri çağırtdırım, bəlkə bir tədbir gördü.

Padşah vəziri çağırtdırıb dedi:

- Vəzir, Qaraqaş sağ çıxdı davadan. Bir tədbir gör!

Vəzir dedi:

- Necə ki demisən elə də elə!

Padşah dedi:

- Vəzir, mən onun ata-anasın tanımıram, heç bilmirəm nə məkanın adamıdı. Gül kimi qızı ona necə verim? Bir tədbir gör!

Vəzir dedi:

- Belə sənin gücün ona çatmaz. Yaxşısı budu ki, qonaqlıq elə, xörəyin içinə zəhər tök, ölsün getsin.

Padşah razı oldu, tədarük görüb Qaraqaşı qonaq çağırdı. Məclis rast olub, xörəklər çəkilib araya gələndə, Qaraqaşın xörəyinə zəhər tökdürdü. Qaraqaş xörəyi yeyib üstündən bir qab da şərbət içdi. Padşah baxıb gördü ki, heç bunun halına təfavüt eləmədi. Məclis dağıldı. Bu da durub getdi.

Padşah dedi:

- Vəzir, bəs niyə ölmədi? Zəhəri mən ki, lap öz əlimnən tökmüşdüm.

Padşahı fikir aparmaqda olsun, sən xəbəri al Pəri xanımdan... Pəri gördü ki, Qaraqaş gəlir. Bildi ki, Qaraqaşa zəhər veriblər. Tez bir sillə Qaraqaşın üzünə çəkdi, Qaraqaş bütün yediyini sifraq elədi. Bir qab turş qatığı içib, rəngə-rufa gəldi. Xəbər aldı ki:

- Bu nə olan əhvalatdı?

Pəri xanım dedi:

- Nə işinə? Soruşma!

Qaraqaş dinmədi. Hər ikisi qol-qola verib gül bağına seyrə çıxdılar. Bir xeylaq macal gəzib dolandılar. Pəri xanım dedi:

- Ey sevgilim, mən çox yorğunam. Gəlsənə bu çəmənlikdə bir qədər uzanaq.

Qaraqaş razı olub, otdan döşək düzəldib, güllərdən yastıq, dodaq-dodağa verib uzandılar. Bu uzanmaqla hər ikisini yuxu apardı.

Al xəbəri dərvişdən. Dərviş şəhəri gəzə-gəzə gəlib çıxdı gül bağına. Girib bağa, bir xeyli gəzib dolandı, gördü ki , bağın bir guşəsində Qaraqaşla Pəri xanım yatıblar. Dərviş Qaraqaşı görən kimi nə ki, tilsimlər vardı oxudu ki, Qaraqaşı tilsimə salsın. Heç bir tilsim Qaraqaşa kar edə bilmədi. Çünki məqsədi Qaraqaşı aparıb, sonra Pərini apartdırmaq idi, işi belə görəndə birdən Pəri xanım yadına düşdü. Bir vürd oxuyub Pərini daha da gözəl elədi. Belə ki, baxan Pərini tanıya bilməzdi. Bir vürd də oxuyub Pəri xanımı yuxulu-yuxulu atdı bir quyuya. Özü də çıxıb getdi.

Al xəbəri Qaraqaşdan.

Qaraqaş ayılıb gördü ki, Pəri xanım yoxdu. Durub hər yanı gəzdi, Pəri xanımı tapa bilmədi. Tez pəhləvan paltarını geyib, minib atını, düşdü dəryayi-bidadə. Gəzhagəz gəlib çıxdı qaranlıq bir meşəyə. Gördü ki, qabaqda bir koma görünür. Qaraqaş atın sürüb çatdı komaya. Gördü ki, burada qoca pirani bir kişi oturub qabağında manqal, əlində batman kitab. Kişi Qaraqaşı görən kimi başın qaldırıb dedi:

- Ey Qaraqaş, xoş gəlmisən! Buyur otur! Neçə vaxtdı ki, sənin yolunu gözləyirdim.

Qaraqaş düşüb atdan, atını yancidar eləyib oturdu.

- Bilirəm Pərini axtarırsan, - deyib kişi kitabı açdı:

- Ey Qaraqaş, sən iki zalım padşah, bir də dərviş öldürəcəksən.

Durub ayağa sandığı açıb, Qaraqaşa bir qılınc verib dedi:

- Bu qılınc səni bütün tilsimlərdən qurtaracaq. Amma eşit və agah ol! Dərviş Pərini Günbatan tərəfdə iki dağın arasında bir quyu var, salıbdı haman quyuya. Gərək gedib girəsən həmin quyuya. Qabağına dörd qız çıxacaq. Deyəcəklər ki, mən Pəriyəm. Onları vurub öldürərsən. Sonra üç qarıya rast gələrsən, onlar da deyəcək mən ananam. Onları da vurub öldürərsən. Qabağına dərya,

meşə, nə çıxdı bu qılıncla vurub qırarsan. Lap axırda qabağına bir qoca kişi çıxacaq. Deyəcək mən atanam. O haman dərvişdi, bacar onu öldür! Elə ki, öldürdün Pəriyə oxşar bir qız görəcəksən. O sənin Pərindi. Al, götür gəl!

Qoca abid sözün deyib vəfat elədi.

Qaraqaş qocanı dəfn eləyib, getdi. Neçə gün, neçə gecə yol gedib özün yetirdi iki dağın arasına. Gördü ki, burada bir quyu var. Dedi, olsa-olsa bu quyu olacaq. Qaraqaş kəməndlə quyuya düşüb, bir o yana baxıb, bir bu yana baxıb, gördü ki, burda bir qapı var. Girib qapıdan içəri, gördü ki, eynən Pəriyə oxşar bir qız çıxdı, dedi:

- Ey Qaraqaş amandı, məni qurtar!

Qaraqaş çəkib tilsimli qılıncı, qızı iki böldü. Qız ölən kimi tilsim qırılıb qabağına bir qapı çıxdı. Qaraqaş gedib gördü ki. bu səfər də Pəriyə oxşar bir qız çıxdı. Amma bu qızın əlində məş`əl vardı. Qaraqaş qıza bir qılınc vurdu tilsimi qırıb irəlilədi. Hə yavaş-yavaş, dörd qızı öldürüb, qurtarandan sonra, qabağına dərya çıxdı. Bu dəryanın içindən də əjdaha, şir, pələng, bəbir, gürzə, ilan çıxmağa başladı. Qaraqaş bunların hamısın qırıb qurtardı. Lap axırda bir qoca kişi çıxıb dedi:

- Ey oğul, neçə vaxtdı sən haradasan?

Qaraqaş istədi çəkib qılıncı qocanı öldürə, qılınc qocanı tutmadı. Qoca qaçıb oldu bir əjdaha. Qaraqaş tilsimli qılıncla əjdahanı quyruğundan yaraladı. Əjdaha dönüb sərildi Qaraqaşa. Qaraqaş əl atıb əjdahanın ağzına, salıb qılıncı boğazının yoluna, burdu. Əjdaha qışqırdı:

- Vay yandım!

Qaraqaş vay yandıma baxmayıb, əjdahanı öldürdü. Özün yetirib Pəriyə, can deyib, qucaqlaşdılar. Qaraqaş minib atına, Pəri xanımı götürüb gəldi öz vilayətinə.

Al xəbəri padşahdan.

Indi padşaha xəbər getmişdi ki, qızın Pəri xanımla Qaraqaş yoxa çıxıblar. Padşah çox qəmli olub, qara geyib oturmuşdu. Elə ki, xəbər çatdı padşaha ki, Qaraqaş gəlir , padşah çox şad olub çıxdı qızının pişvazına. Gördü ki, yox, bu, qızı Pəri xanım deyil. Qaraqaşdan xəbər aldı:

- Hanı mənim qızım?

Qaraqaş dedi:

- Budu sənin qızın.

Padşah təəccüb elədi, dedi:

- Vəzir, bu nə olan işdi?

Vəzir dedi:

- Padşah sağ olsun, bu sənin qızın deyil.

Bunlar bir-birlərilə çəkişmədə olsunlar, Pəri xanım Qaraqaşa dedi:

- Mən hələ tilsimdən qurtarmamışam. Gərək mənim üçün ilanlar padşahının qızının ətindən gətirəsən ki, mən əti üzümə çəkəm, sağalam.

Qaraqaş dedi:

- O qızı necə ələ gətirmək olar?

Pəri xanım dedi:

- Gedərsən sarı dağa. Həmin qız bir ilandı. Səni görən kimi çıxıb cildindən gələcək sənə tərəf. Sənə deyəcək: Oğlan al məni! Sən də razı olarsan. Gecə hər ikiniz bir yerdə yatan məqamda onun sağ əlinin çeçələ barmağını kəsərsən. Kəsən kimi qız öləcək. Onda ətindən kəsib gətirərsən. Amma nəbadə başını kəsəsən. O qızın canı sağ əlinin çeçələ barmağındadı. Əgər o qızın ətindən götürüb gəlməsən, mən bir aydan artıq qalmayıb öləcəyəm.

Pəri sözün tamam elədi. Qaraqaş ata minib üz qoydu getməyə. Al xəbəri padşahdan.

Padşah xəbər tutdu ki, Qaraqaş yoxdu, dedi: -Yaxşı oldu ki, Qaraqaş getdi. Qızı əlindən aldım. Padşah bir də vəziri çağırtdırıb dedi:

- Vəzir, bir yaxşı-yaxşı bax, gör bu mənim qızımdı, ya yox?

Vəzir dedi:

- Padşah sağ olsun, sənin qızın deyil.

Padşah durub bu sözdən sonra gəldi Pəri xanımın yanına, dedi:

- Ey qız, gərək mənə gedəsən!

Pəri xanım dedi:

- Ata, mən sənin qızınam.

Padşah dedi:

- Yalan deyirsən çəpəl! Sən mənim qızım haradan oldun?

Pəri xanım atasına çox yalvardı ki, mən sənin qızınam, padşah az eşidib dedi:

- Yalan deyirsən.

Pəri xanım baxıb gördü ki atası bundan əl çəkməyəcək, əlacı kəsilib atasını itələyib atdı bayıra. Padşahın başı-gözü əzilib, bir neçə gün yorğan-döşəkdə yatdı, sağalandan sonra durub yenə gəldi qızının yanına, dedi:

- Ey qız, mənə gedirsən, ya yox?

Pəri xanım atasının təklifini rədd edəndən sonra, padşah durub gəldi, taxtına çıxıb, cəllad göndərdi ki, Pərini tutub salsınlar zindana. Cəlladlar gedib Pərini tutub saldılar zindana. Pəri xanım zindanda qalmaqda olsun. al xəbər verim sənə kimdən, Qaraqaşdan.

Qaraqaş gedib həmin yerə çatdı. Bir də gördü ki, qabağına bir qız çıxdı.

Qız dedi:

- Oğlan, gəl al məni!

Qaraqaş razı oldu. Yatmaq məqamı gələndə Qaraqaş qızın çeçələ barmağını kəsib, ilanlar padşahının qızını cəhənnəmə vasil elədi. Qızın ətindən götürüb mindi atına, gəldi Pəri xanımın yanına. Gördü ki, Pəri xanım yoxdu, amma bağban qara geyib oturub. Xəbər aldı:

- Ey bağban, niyə qara geymisən?

Bağban dedi:

- Padşah öz qızı Pəri xanımı salıbdı zindana, bugün boynunu vurduracaq.

Qaraqaş bu sözü eşidən kimi, çəkib atını padşahın imarətini qabağına, elə bir nərə çəkdi ki, gəl görəsən. Sonra üzün tutub padşaha dedi:

- Ey zalım padşah, Pəri xanımı səndən istəyirəm.

Çəkib qılıncı, padşaha danışmağa aman verməyib, özün vurdu dəryayi-ləşkərə. Qırıb çatdı qoşunu, yetirdi özünü padşahnan vəzirə. Hər ikisini cəhənnəmə vasil elədi. Çatıb zindana, qapıları sındırıb Pəri xanımı azad elədi.

Pəri xanım dedi:

- Atam məni almaq istəyirdi.

Qaraqaş gülə-gülə dedi:

Atanı çoxdan cəhənnəmə vasil elədim.

Pəri xanım qucaqlayıb Qaraqaşı öpəndən sonra, ilan qızının ətini alıb Qaraqaşdan çəkdi üzünə. Elə orada tilsimdən çıxıb oldu əvvəlki Pəri xanım.

Qaraqaş Pəri xanımı götürüb gəldi, yeddi gün, yeddi gecə toy eləyib aldı. Sonra, camaat Qaraqaşı tikdi padşah. Bir müddət padşahlıq eləyəndən sonra birdən anası yadına düşdü. Adam göndərib ata-anasını çağırtdırdı. Özün onlara tanış verəndən sonra, başına gələni anası üçün danışıb dedi:

- Ata, bu taxt-tac sənin, mən də sənin pəhləvanın.

Qaraqaş tacı atasının başına qoyub, özü də oldu atasına pəhləvan. Təzədən toy edib başladılar şadlıqla gün keçirməyə.

G Ü L N A R X A N I M

Qəndahar padşahının Məlik Məmməd adında bir oğlu var idi. Gözəllikdə elə bir afəti-zaman idi ki, Yusif Kən`an onun əlinə su tökə bilməzdi. Özü də Qəndahar padşahının aman-zaman bir dənə oğlu idi. Məlik Məmmədi hamıdan çox istəyən qoca bir lələsi vardı.

Bir gün lələ bütün münəccimləri cəmləyib, tas qurdurub, rəm atdırıb Məlik Məmmədin baxtına baxdırdı. Hamı münəccimlər dedi ki, Məlik Məmməd on dörd yaşına çatanda itəcək, özü də ki, tapılmağı çox çətin olacaq.

Bəli, bir-iki dəstə qoşun hazırlandı ki, Məlik Məmmədi qorusun. Yazıq uşağı tay heç yerə qoymadılar. Amma olacağa çarə yoxdu. Məlik Məmmədin düz on dörd yaşı tamam olan gecə o otaqda ki yatmışdı, elə o otaqda bir əppək oldu, uçdu göyə. Nə qədər axtardılar, Nə qədər carçılar saldılar, qasidlər göndərdilərsə uşaq tapılmadı ki, tapılmadı. Bir il keçdi, iki il keçdi, hər yerdən ümid əli üzüldü, hamı qara geyib matəmə batdı.

Qoca lələ bu işə tab gətirməyib təğyir-libas elədi, çıxdı öz dəspərvərdəsin axtarmağa.

Lələ Məlik Məmmədi axtara-axtara gəlib çıxdı Istanbula. Şəhəri gəzdi, dolandı, dolana-dolana gəlib çıxdı, Istanbul padşahının sarayının qabağına. Bərk qış idi.

Çoxlu da qar yağmışdı. Qarın üstündə bir yerə qan tökülmüşdü. Lələ bunu görcək, yıxılıb özündən getdi.

Sənə xəbər verim Istanbul Padşahının bircə qız olan Gülnar xanımdan. Bu qız elə gözəldi ki, vəsfi aləmi tutmuşdu. Gülnar xanım oturmuşdu öz pəncərəsinin qabağında, gəlib gedənə tamaşa edirdi. Bir də lələnin qışqırıb özündən getməyin gördü. Tez o saat adamlarını göndərib onu içəri gətirtdirdi.

Qoca lələ Məlik Məmmədin əhvalatın ona danışdı:

- Qarın üstündə qırmızı qan ləkəsini görəndə Məlik Məmmədin ağ üzündəki xalı yadıma düşdü.

Gülnar xanım atasının yanına gedib bütün qoca lələnin danışdıqlarını ona danışdı. Dedi ki:

- Ata, izin ver, mən gedim Məlik Məmmədi axtarmağa.

Atası nə qədər dəlil-dəlayil dedisə mümkün olmadı. Qızı dediyin dedi. Axırda vəzir zəmini-ədəb öpüb dedi:

- Padşah sağ olsun, indi ki, belədi, qoy getsin. Biz də bu qoca kişini burada saxlarıq. Əgər Gülnar xanım iki ilə gəldi, nə xub, gəldi, əgər yox gəlmədi, onda bunu öldürərik.

Padşah çar-naçar razı oldu.

Gülnar xanım çəkildi öz otağına, altdan geyindi üstdən qıfıllandı, üstdən geyindi, altdan qıfıllandı. Bir at mindi; hamı ilə görüşüb yola düşdü.

Günə bir mənzil, təyyi-mənazil, gecəni günə qatdı, günü gecəyə, üç ay tamam at sürdü, üç ayın tamamında gəlib bir qalaçaya çatdı. O tərəfə boylandı, bu tərəfə boylandı, gördü ki, xeyir heç bir yerdən bu qalaçaya daxil olmaq mümkün deyil. Elə belə ata yedəyində çəkib qalaçanın ətrafın dolanırdı, bir də gözü sataşdı, gördü qalaçanın həyətində bir su gilifi var. Yavaşca atı çəkib bir kola bağladı, özü gilifdən keçdi, qalaçanın həyətinə. Baxdı ki, həyətdə bir kimsənə yoxdu. Amma qabaqda bir pilləkan var, çıxır qüləngərişə. Qədəm qoydu pilləkana, yavaş-yavaş qüləngərişdən keçdi, elə otağa daxil olanda, gördü ki, vallah burada bir qız oturub ki, şoxu adamın gözlərin qamaşdırır. Qız bunu görcək dik qalxdı ayağa ki:

- Buyur Gülnar xanım, xoş gəlmisən, səfa gətirmisən.

Gülnar qaldı məəttəl ki, görəsən bu məni haradan tanıyır. Qız Gülnar xanımın belə fikirdə olduğun başa düşüb, dedi:

- Gülnar xanım, sənə təəccüb gəlməsin. Mən səni yaxşı tanıyıram. Sən Istanbul padşahının qızısan. Sən məni tanımırsan, amma sən mənə çox yaxşılıqlar eləmisən. Mən ölənədək onları yaddan çıxartmaram.

Gülnar xanım ha fikirləşdi, yadına düşmədi ki, düşmədi. Onda qız dedi:

- Gülnar xanım, biz üç bacıyıq. Özümüz də pərilər padşahının qızlarıyıq. Biz hər cümə axşamı öz atamızın evinə qonaq gedəndə, sənin gözəlliyinə tamaşa etmək üçün, gəlib sənin güləfrənginə qonırıq. Sən də bizi göyərçin bilib yedirdib-içirdib yola salırsan.

Gülnar gördü ki, qız doğru deyir. Amma indiyə kimi o onları göyərçin bilirmiş.

Qərəz, Gülnar xanıma qız yer hazırladı. Gülnar xanım bir az rahatlıq edəndən sonra, öz gəlməyinin səbəbin dedi.

Qız bir az fikirləşib dedi:

- Gülnar xanım, biz üç bacı, üç qardaş divə ərə getmişik. Mənim ərim lap kiçik qardaşdı. Bunu bilə bilməz. Bunu bilsə-bilsə o biri bacılarımın ərləri bilərlər.

Bunu deyib ortancıl bacısına bir namə yazdı, verdi Gülnar xanıma, yolu-zadı da ona göstərdi. Gülnar xanım atı minib yola düşdü. Üç gün, üç gecə at sürəndən sonra, Gülnar xanım gəlib çıxdı bu bacının qalaçasına. Düşüb bir tərəfdə atı yancidar elədi, özü gilifdən keçib daxil oldu qalaçaya. Naməni verməmiş qız Gülnar xanımı tanıdı. Gəldilər əyləşdilər. Gülnar xanım cibindən naməni çıxardıb verdi. Qız əhvalatdan xəbərdar olub onu zirzəmidə gizlətdi. Elə ki, əri gəldi evə, ondan soruşdu ki:

- Bəs ay filankəs, Qəndahar padşahının oğlu Məlik Məmməddən sənin xəbərin yoxdu?

Div qızı çox istəyirdi. Əvvəl demək istəmədi. Ancaq qız bir az üz-gözün turşudcaq ürəyi tab gətirməyib dedi ki:

- Onu mənim böyük qardaşım oğurlayıb bir dağda tilsimbənd eləyib.

Qız nə qədər elədi ki, hansı dağdı, div deməyib and içdi ki, o bilmir. Qız əhvalatı sabahısı Gülnar xanıma xəbər verdi, bir namə də o biri bacısına yazıb Gülnarı yola saldı.

Bəli Gülnar gəlib çıxdı üçüncü bacının qalaçasına. Görüşdülər, danışdılar, bu bacı dedi ki:

- Allah mənim ərimin başın batırsın, ondan söz qoparmaq mahal işdi.

Amma yenə də onu zirzəmidə pünhan eləyib ərinin yolun gözləməyə başladı. Gecə div gəldi, gördü ki, qız bikeyf oturub.

Soruşdu:

- Ay qız, nə var, yenə burnunu sallamısan?

Qız yalvara-yalvara ona dedi:

- Keçən uğur atamın yanına gedəndə Qəndahardan keçdik. Bütün camaat qara geymişdi. Soruşduq nə var, dedilər ki, padşahın 14 yaşında bir oğlu itib. Indi elə birdən yadıma düşdü. Sən bu barədə heç bir şey bilmirsən?

Div elə bunu eşitcək qızın ağzının üstündən bir sillə vurdu. Qərəz, nə başını ağrıdım, div nə qədər söydü, döydüsə, qız əl çəkmədi ki, çəkmədi. Axirüləmr div boynuna aldı ki, Məlik Məmmədi o oğurlayıb, özün də yeddi təpə qalasında tilsimə salıb.

Qız səhər əhvalatı Gülnar xanıma xəbər verdi. Gülnar xanım ona tapşırdı ki, indi də öyrənsin o tilsimi necə sındırmaq olar. Bir də ki, öyrənsin görsün divin canı nədədi. Div qıza dedi ki:

- Bu qalanın qapısında qırx dildə yazılmış daşlar var. Gərək onu sındırmaq istəyən bu daşların hamısın oxuya.

Amma qız nə qədər elədisə div öz canının yerin demədi ki, demədi. Bir-iki gün belə qaldı. Axırda div gördü ki, qız əl çəkməyəcəg dedi, evdə bir əl ağacı var, mənim canım o əl ağacındadı.

Qız əhvalatı Gülnara xəbər verdi. Gülnar bildi ki, div yalan danışıb, onun canı əl ağacında olmaz. Odu ki, ona dedi:

- O əl ağacını təmizlə, yaxşı-yaxşı bəzə!

Qız gəlib əl ağacını qırmızı ipəyə tutdu, qoydu evdə lap yaxşı bir yerə. Div gəlib işi belə görəndə səbəbin qızdan soruşdu:

Qız dedi:

- Bəs, sənin canın ordadı, onun üçün elə eləmişəm.

Div gördü ki, qız onun canına belə hörmət eləyib, açıb doğrusun dedi ki, onun canı həmin qalaçada bir çarhovuz var onun içində üç dənə ağ balıq var, o ağ balıqların birindədi. Gülnar xanım əhvalatın hamısın öyrənib üz qoydu haman qalaçaya tərəf getməyə. Gethaget, gethaget, gəlib-çatdı yeddi təpə qalaçasına. Gördü bir dar mağara var. Girdi mağaraya, bir qədər getmişdi qabağına bir yekə pələt kimi bir qalaça qapısı çıxdı. Baxdı ki, buradan içəriyə girməyə heç bir yol yoxdu. Paltarının altına bağladığı qılıncını çıxardıb qapının qıfılın sındırdı, girdi içəriyə. Baxdı ki, böyük bir məhlədi, düz ortada bir çarhovuz var. Gəldi gördü doğrudan da burada üç dənə yaxşı, gözəl ağ balıq var. Hər nə qədər əlləşdisə, bunları tuta bilmədi. Axırda hovuzun ayağın açıb başladı suyu buraxmağa. Beləliklə balıqların ikisini tutub öldürdü, elə üçüncü balığı tutmaq istəyirdi ki, bir də gördü göy titrədi, yer titrədi, budu div anqıra anqıra gəlir. Tez balığı atdı torpağa, qılıncı çəkib onu iki böldü. Div yarı yolda yıxılıb cəhənnəmə vasil oldu. Gəldi bu yana, gördü dağın ətəyində barı

kimi bir yerdə qırx dildə yazılmış daşlar asılıb. Gülnar xanım dünyanın bütün elmlərindən baxəbər idi. Başladı bunları bir-bir oxumağa. Axırıncı daşı oxuyub qurtaranda elə bil ki, dağ hərəkətə gəldi. Barı yarıldı, girdi içəriyə, gördü Məlik Məmməd bir qızıl taxtın üstündə yatıb, amma yarımcandı. Cibindən qur`anı çıxardıb oxumaq istədi. Amma baxdı ki, oxuyub tamamlaya bilməyəcək. Çünki bilirdi ki, belə adamları tilsimdən oyatmaq üçün tamam qırx gün arasını kəsmədən qur`an oxumaq lazımdı. Ona görə də qapını yenə də əvvəlki kimi bərkidib çıxdı çölə. Elə bir az getmişdi ki, qabağına bir karvan çıxdı. Karvanda bir qız var idi, Gülnar üstündəki qızılları verib o qızı aldı, getdi qalaçaya. Qıza əhvalatı başdan-ayağa danışdı. Məlik Məmmədin taxtının yanında başladı qur`an oxumağa. O, özü yorulanda qız onun ağzından alıb dalısın oxuyurdu ki, arası kəsilməsin, çünki onda batil olardı. Bu minvalla düz otuz doqquz gün, otuz doqquz gecə oxudular. Lap qurtara qurtarda Gülnar xanım baxdı ki, yox ta heç saxlaya bilmir özün, elə gözləri yumulur ki, yumulur. Axırda qorxdu ki, birdən yuxu tutar batil olar, qalıb naçar qızı oyatdı, qur`anı ona verib, özü başın yerə qoydu ki, bir çimir yatsın ki, bəlkə bir gözünün acısın ala. Bu yatmağında olsun qırx günün tamam olduğu dəqiqədə Məlik Məmməd asqırıb durdu. Gözün açıb gördü yanında bir qız oturub qur`an oxuyur. Soruşdu:

- Sən kimsən?

Namərd qız cavabında dedi:

- Mən burada düz qırx gündü ki, səni ayıltmaq üçün gecə-gündüz qur`an oxuyub xətm tuturam.

Məlik Məmməd ətrafına baxıb yerdə yatan bir adam gördü. Bu Gülnar xanımdı, başın örtüb yatmışdı. Məlik Məmməd soruşdu:

- Bəs bu kimdi, burda yatıb?

Qız dedi:

- O səni bu günə salan adamdı. Düz qırx gündü ki, mən onunla çarpışıram. Axırda mən ismi-əzəm oxuyub onu yatırtmışam.

Qız dil ilə Məlik Məmmədi aldadıb götürüb qaçdı. Bunlar qaçmaqda olsunlar, sənə kimdən xəbər verim Gülnar xanımdan.

Gülnar xanım bir vaxt ayıldı, baxıb gördü ki, ay dadi-bidad, heç kəs yoxdu. Elə o saat bildi ki, qız namərd çıxıb. Durub tez çıxdı ki, çatıb əhvalatı Məlik Məmmədə danışsın, gördü ki, xeyir, onlar bir səs mənzilində gedirlər. Daldan çağırdı, onlar dönüb baxdılar. Məlik Məmməd qızdan soruşdu:

- O kimdi?

Qız dedi:

- Amanın bir günüdü ki, gəl qaçaq! O, həmin səni oğurlayıb gətirən divdi. Indi də bu qiyafətə özün salıb.

Yazıq Məlik Məmməd də buna inanıb başladı qaçmağa.

Gülnar qovdu, bunlar qaçdı, axırda Gülnar o vaxt çatdı ki, bunlar miniblər Qəndahar tərəfə gedən bir gəmiyə, gəmi də elə handa-handadı ki, yola düşsün. Gülnar nə qədər yalvardı kapitan bunu gəmiyə götürmədi ki, götürmədi. Namərd qız Gülnarı bu çöllü-biyabanda qoyub, onun yarı ilə qol-boyun çıxıb getdilər.

Gülnar xanım qaldı burda. Bura gəmi ayağı idi. Bir neçə vaxt burda qalandan sonra bir təhər bir kapitana yalvar-yapış eləyib gəmiyə mindi ki, ta Qəndahara kimi gəminin nökərçiliyin eləsin. Bu minvalla gəlib çıxdı Qəndahara. Girdi şəhərə, yolla gedirdi, gördü ki, bir dəyirmançı at yerinə özün qoşub daşa fırladır. Gəldi bu dəyirmançının yanına, dedi:

- Dəyirmançı qardaş, məni qızlığa götürərsən?

Dəyirmançı dedi:

- Ay bala, bir arvadım var, yeddi qızım, heç onların çörəyin çıxarda bilmirəm. Səni neynəyəcəyəm?

Gülnar dedi:

- Dəyirmançı qardaş, sən gəl məni götür qızlığa. Mən sənə yaxşı xeyir verərəm. Mən çox yaxşı xəli, xəlçə toxuyanam. Mənim xəlçələrim çox baha gedir.

Çox danışdıqdan sonra dəyirmançı Gülnarı götürüb apardı evlərinə. Bunlar burada qalmaqda olsunlar, sənə kimdən xəbər deyim, Məlik Məmmədlə qızdan.

Bəli xəbər çıxdı ki, Məlik Məmməd gəlir. Ta padşahın gözü dünyanı görmədi. Şəhər bəzəndi, qoşun atlandı, çıxar pişvaza. Məlik Məmmədlə qızı gətirdilər şəhərə.

Məlik Məmməd əhvalatı atasına danışdı. Atası gördü ki, oğlunu qurtaran bu qızdı. Üzün qıza tutub dedi:

- Ay qız, mənim balamın tapılmağına sən səbəb olmusan, istə görüm məndən nə istəyirsən.

Qız dedi:

- Mənə dünya malı lazım deyil. Mən yuxuda Məlik Məmmədin şərbətin içmişəm. Məni bir nurani şəxs ona ürcah eləyib. Mən gərək ona gedəm.

Hərçənd qız Məlik Məmmədə layiq deyildi, amma qalıb məəttəl qırx gün, qırx gecə toy eləyib bunları evləndirdilər.

Gülnar xanım dəyirmançının evində bu əhvalatın hamısını öyrəndi. Bir gün ona dedi ki:

- Ay ata, dəyirman işlətməkdən bir şey çıxmaz. Sən mənə bir az yun al, mən bir xəli toxuyum, apar sat.

Dəyirmançı gedib bir az yun aldı, bir də həcət-məcət aldı gətirdi, verdi Gülnar xanıma. Gülnar xanım başladı bir xəli toxumağa. Özü də ta lələ Istanbula gələn gündən belə başına gələn qəza-qədəri başladı naxış ilə yazmağa bu xəlçənin üstünə. Bu burada toxumağında olsun, bir tərəfdən Məlik Məmməd tapılıb, bir də ki, toy eləyib deyə, şəhərin böyüyü, kiçiyi, hərə-özünə görə xələt alıb gündə gedirdilər mübarəkbad eləməyə. Bu şəhərdə Abbas adında bir dəllək var idi. Bunun lotuluğunu hamı bilirdi. Özü də həmişə böyük-böyük adamlarla oturub durardı. Məlik Məmmədlə də amədi-rəfti var idi.

Bir gün günorta çağı birdən bunun beyninə düşdü ki, gəl bir get Məlik Məmmədin keyfin xəbər al. Çıxdı meydana ki, bir xələt alsın. Gördü ki, bir qoca kişi bazarda yaxşı bir xəli satır. Amma xəli də doğrudan qəşəng şeydi. Elə iki göz istəyir ki, oturub ona tamaşa eləsin. Amma kişi xəlini çox baha deyirdi. Odur ki, heç kəs almırdı. Lotu Abbas fikirləşdi ki, sən öləsən, elə bu Məlik Məmmədə layiq şeydi, salar öz arvadının otağına. Ta nə bilsin ki, arvadı qotur xortdanın biridi. Qərəz pulun verib bu xəlini aldı. Düzəldi yola. Birbaş padşahın qonaq daşının üstünə. Gəlib xəbər verdilər Məlik Məmmədə ki, bəs lotu Abbas, oturub qonaq daşının üstündə.

Bəli pələt qapısın açdılar, lotu Abbas da buyurdu içəri. Gəldi Məlik Məmmədlə görüşdü, xəlini elə orada qoyub bir az söhbət edəndən sonra çıxıb getdi. Sabahısı dükanda müştərilərin yanında basıb bağlayırdı ki, ay belə getdim Məlik Məmmədin yanına, ay belə əlli tümənə bir xəli alıb apardım, nə bilim belə Məlik Məmməd mənə dedi ki, sənin ən`amın hamısınkından yaxşıdı.

Elə bu sözdə iki yasovul girdi dükana ki:

- Lotu Abbas, sənsən?

- Bəli mənəm.

- Dünən o xəlini şahzadəyə sən gətirmisən?

Lotu Abbasın dili tutuldu:

- Bəli, mən gətirmişdim.

- Şahzadə bu saat səni istəyir.

Abbas lap əl-ayağın itirdi, dedi:

- Yəqin xəli oğurluqmuş; üstü açılıb. Indi mən o qocanı haradan tapacağam.

Yasovullar onu götürüb gəldilər Məlik Məmmədin hüzuruna. Məlik Məmməd dedi:

- Abbas, bu xəlinin bir tayı də var, yerdə də olsa, göydə də olsa gərək onu tapasan mənə.

Lotu Abbas bunu eşitcək toxdadı; bəçeşm, - deyib çıxdı.

Birbaş özün saldı meydana. Gördü həmin qoca buradadı yun alır. Tutdu yaxasından ki:

- Gərək bu saat xəlinin tayın tapasan.

Qoca dedi:

- Xəlinin tayı var, amma uzaq yerdədi, gərək bir neçə gün gözləyəsən.

Qoca gedib əhvalatı Gülnara dedi. Gülnar da elə o günü ikinci xəlini kəsmişdi. Ancaq hekayəti qəsdən qurtarmamışdı. O yerində saxlamışdı ki, qırxıncı gün, yuxu ona əsər eləyir, o yatır, qız başlayır qur`anı oxumağa. Qız dedi:

- Bu xəlini beş yüz tüməndən əskiyə verməzsən.

Qoca da eləcə elədi. Lotu Abbas bir az həndə-məndə eləmək istədi ki, ucuzlaşdıra, qoca dedi:

- Çox o yan bu yan eləyirsən, heç satmıram.

Lotu Abbas məəttəl qalıb xəlini beş yüz tümənə aldı, apardı, verdi Məlik Məmmədə. Məlik Məmməd oxuyub dedi:

- Abbas, biri də var, gərək onu da tapasan.

Gülnar xanım gecəni-gündüzə, gündüzü-gecəyə salmışdı. Bu üçüncü xəlidə hekayət qurtarırdı. Özü də orada yazmışdı ki, bu saat qoca dəyirmançının evində qalır.

Məlik Məmməd bu xəlini də oxuyandan sonra əhvalatı atasına ərz elədi. Qoşun atlandı, getdilər qızı gətirməyə.

Lotu Abbas da qabaqda gedirdi. Amma ki, nə qədər elədilər, dəyirmançı dedi:

- Vermərəm ki, vermərəm.

Axırda dəyirmançını da gətirdilər qəsrə.

Namərd qızı bağladılar bir dəli qatırın quyruğuna. Bəli, tədarük başlandı toya. Gülnar xanım dedi:

- Yox, sənin lələn orda mənim atamın girovundadı. Gərək qabaqca oraya gedək.

Bəli, qoşun adlandı, böyük cəlal-dəsgahla bunlar düşdülər yola, Istanbula tərəf getməyə.

Bunlar getməkdə olsunlar, sənə kimdən deyim, Istanbul padşahından. Onlar axı iki ilə şərt kəsmişdilər ki, Gülnar gəlməsə lələni öldürsünlər. Iki il tamam oldu, padşah gördü, yox Gülnar gəlmədi. Əmr elədi ki, lələni assınlar.

Vəzir bir dünyagörmüş qoca, ağıllı kişi idi. Zəmin-ədəb öpüb xahiş elədi, bir az da gözləsinlər. Bu gözləməklə düz iki il də gözlədilər.

Dörd ilin tamamında padşah dedi:

- Yox, ta asdıracağam.

Vəzir hər nə qədər xahiş elədi, padşah qulaq vermədi. Meydan quruldu, padşah qəzəb paltarın geyib çıxdı meydana. Lələni gətirdilər. Elə ipi boğazına keçirirdilər ki, məşriq tərəfdən başdan dırnağacan toza bulanmış bir qasid gəldi. Bu Məlik Məmmədlə Gülnar xanımın göndərdiyi qasid idi. Gülnar xanımdan namə gətirmişdi. Qoşun atlandı, çıxdılar pişvaza. Ta ata ilə qızın, lələ ilə Məlik Məmmədin görüşmələrini özünüz hesablayın. Padşah başladı ki, mən gərək qızımın toyun burada eləyəm. Lələ də başladı ki:

- Yox, gərək öz vilayətimdə ola.

Axirüləmr vəzir zəmin-ədəb öpüb dedi:

- Indi ki, belədi, qırx gün burada eləyək, qırx gün orada.

Eləcə də oldu.

Onlar yedilər, içdilər, qarıdılar. Siz də yeyin, için, qarıyın. Siz də sağ olun, mən də. Siz yüz yaşayın, mən iki əlli. Hansı çoxdu, siz götürün, hansı azdı mənə qalsın.

QUŞ DILI BILƏN ISGƏNDƏR

Biri vardı, biri yoxdu, allah vardı, şəriki yoxdu. Bir naxırçı, bircə də oğlu vardı ki, adına Isgəndər deyərdilər.

Naxırçının arvadı öldü, bir ayrı arvad gətirdi. Bu zaman Isgəndər altı yaşındaydı, amma çox ağıllı, fərasətli bir oğlandı. Isgəndər hər bir quşun dilini bilirdi, dedikcə də göyçək, padşahyana bir

uşaqdı. Bunların evlərinin qabağında bir bağçaları vardı. Bir gün ögey ana həmən bağçada qazan asıb paltar yuyurdu. Isgəndər çör-çöp yığıb ocağa qoyur, analığına kömək eləyirdi. Isgəndər baxıb gördü ki, bir bülbül oxuyur, ayrı bir bülbül də deyir:

- Ay bülbül, bir vaxt gələcək, Isgəndər bu şəhərin padşahı olacaq, bu bağçaya qonaq gələcək həmən bu analığı onun qabağına xörək gətirəcək.

Isgəndər güldü. Arvadın bunun gülməsinə acığı tutdu, ocaqdan bir kösöv götürdü. Isgəndəri vurub dedi:

- Nəyə gülürsən? Koram, şiləm, keçələm? Yaxşı, nəyimə gülürsən?

Isgəndər dedi:

- Ay ana, vallah, sənə gülmürəm. O bülbül oxuyub deyir ki, Isgəndər bir vaxt bu şəhərin padşahı olacaq, bu bağçalarına qonaq gələcək, analığı da bunun qabağına xörək gətirəcək. Mən də ona gülürəm.

Arvad təzədən başladı onu döyməyə, dedi:

- Sən nəsən ki, şəhərə padşah olasan, mən də sənə xörək gətirəm. Gör sənin başına nə gətirəcəyəm.

Axşam kişi naxırdan gəldi.

Arvad dedi:

- Bax, sənə deyirəm, Isgəndəri bu gecə öldür, ya da bu torpaqdan rədd elə. Elədin, elədin, eləmədin səndə oturmayacağam.

Kişi nə qədər minnət, sünnət elədi, arvad razı olmadı. Əlacı kəsilib Isgəndərə dedi:

- Bala, dur gedək.

Kişi Isgəndəri götürüb gəldi. Bazardan bir sandıq da alıb dedi:

- Bala, arvad deyir ki, gərək Isgəndəri öldürəsən, mən səni öldürməyib suya atacağam. Allah kərimdi, gəl gedək. Heç fikir eləmə.

Isgəndər dedi:

- Ata, indi ki, məni suya atırsan, bir müşəmbə götür, sandığın ağzını müşəmbələ. Qoy sandığın içinə su dolmasın.

Kişi bir müşəmbə götürdü. Gəldilər bir dəryanın kənarına. Isgəndəri qoydu sandığa, ağzını müşəmbə ilə bağladı, ağlaya-ağlaya dəryaya saldı.

Dərya sandığı ora-bura vura-vura o vilayətdən çıxartdı. Isgəndəri su ayrı bir padşahın vilayətinə gətirdi. Burda bir torçu tor atırdı, gördü bir sandıq gəlir. Toru atdı, sandığı dəryadan çıxarıb dedi:

- Yaxşı oldu, görən hansı sövdəgərin malıdı.

Bu kişinin övladı yoxudu, elə bir özü idi, bir də arvadı. Sandığı açıb gördü sandıqda elə bir oğlan uşağı var ki, üzünə baxanda göz qamaşır. Uşağı durquzub soruşdu:

- Bala, adın nədi?

Isgəndər dedi:

- Adım Isgəndərdi.

Kişi dedi:

- Allah səni mənə yaxşı yetirib, övladım yox idi.

Kişi Isgəndəri sevinə-sevinə evə gətirib dedi:

- Arvad, allah bizə bir yaxşı oğul yetirib.

Hər üçü sevindi; arvadla kişi sevindi ki, oğlanları oldu, Isgəndər də sevindi ki, dəryadan sağ-salamat qurtardı.

Kişi gedib bazardan bir dəst padşahyana libas aldı, gətirib Isgəndəri geyindirdi, mollanı çağırıb tapşırdı ki, bu mənim oğlumdu, buna yaxşı dərs verərsən.

Molla başladı ona dərs verməyə. Gördü ki, bu uşaq elə fərasətli, elə zehinlidi ki, dediyini əlbəhəl götürür.

Bu məktəbdə bir Yəhya adlı uşaq vardı. Isgəndər içəri girəndə deyərdilər Yəhyadı, Yəhya girəndə deyərdilər Isgəndərdi. Bunlar o qədər bir-birinə oxşayırdı ki, biri o birindən seçilmirdi.

Bunlar siğə oxutdurub, qardaş oldular. Onların arasındakı dostluq elə böyük idi ki, bir-birini gec görəndə az qalırdılar dəli olsunlar.

Bir gün Isgəndər məktəbdən çıxanda padşahın vəziri onu gördü. Yan alıb bir az danışdırdı, gördü ki, bu çox ağıllı, mə`rifətli bir uşaqdı. Vəzir də Isgəndərlə siğə oxudub qardaşlıq oldu. Isgəndəri götürüb evinə apardı. Onlar xörəkdən-zaddan yedilər. Iskəndər evlərinə qayıtdı.

Axşam oldu, Isgəndər balıqçıya dedi:

- Ata, sabah mənim baxtıma bir tor at, nə düşsə aparacağam vəzir qardaşıma.

Bu kişi Isgəndəri çox istəyirdi. Səhər açıldı, kişi toru götürüb, dəryaya getdi. Toru atdı, gördü tor çox ağırdı. Çəkib gördü ki, toruna düşən bir qızıl balıqlı. Kişi öz-özünə dedi: «bizim ata-babalarımız deyərdilər ki, bu dəryada qızıl balıq olmaz. Gör Isgəndər nə qədər xoşbaxtdı ki, baxtına qızıl balıq çıxdı».

Kişi balığı da götürüb sevinə-sevinə evlərinə gəldi. Arvad bu balığı yarıb təmizlədi, xonçaya qoydu.

Isgəndər məktəbdən qayıdıb dedi:

- Ata, balığı neylədin?

Atası dedi:

- Bala, sən çox xoşbaxt adamsan. Mən yaşımdan bəri o dəryada qızıl balıq olduğunu eşidib, görməmişdim. Atababamız da deyərdi ki, bu dəryada qızıl balıq olmaz.

Səhər cümə günü idi. Isgəndərin dərsi yoxdu. O, bu xonçanı da götürüb vəzirə apardı. Vəzir baxıb gördü ki, bu bir qızıl balıqdı, dedi:

- Isgəndər, bu necə işdi? Heç mən yaşımdan bəri bu dəryada qızıl balıq olduğunu eşitməmişdim.

Xörəyi yedilər, içdilər. Vəzir həmən xonçanı qızılla doldurdu, Isgəndər götürüb evlərinə getdi.

Isgəndər hər cümə axşamı atasına tapşırardı ki, «ata, sabah mənim dərsim yoxdu, bu gün də toru mənim baxtıma at. Səhər vəzirə aparacağam». Toru da hər dəfə atanda bir qızıl balıq düşərdi. Isgəndər balığı xonçada vəzirə gətirərdi, hər dəfə vəzir onun xonçasını qızılla doldurardı, Isgəndər də qızılı götürüb atasına verərdi. Balıqçı bu qızıllarla özünə yaxşı bir ev tikdirdi, imarət düzəltdi. Kişi öz-özünə deyirdi: «allah sənə şükür, nə yaxşı Isgəndəri yetirdin. Adamın heç öz oğlu da belə olmaz».

Bir gün padşah divanxanada oturmuşdu ki, camaatın nə şikayəti olsa, gəlib orda padşaha desin. Bir də gördü, bir dəstə ala qarğa qapıya töküldü, qır-qır eləməyə başladı. Padşah bu ala qarğaların səsindən nə şikayətə baxa bildi, nə də divan eləyə bildi. Nə qədər elədilər, ala qarğalar uçub getmədilər. Padşah divanxananı bağlayıb evinə gəldi. O gecəni yatdı, səhər durub dedi:

- Gedim divanxanaya şikayətə-zada baxım.

Divanxanaya gəlib şikayətə baxmaq istəyirdi ki, yenə həmən qarğalar tökülüb gəldilər, qır-vır eləməyə başladılar.

Padşah yenə qapını bağlayıb evinə gəldi, dedi:

- Vəzir, quş adamdan qaçar. Bəs bu necə işdi, bu qarğalar niyə qaçmır?

Vəzir dedi:

- Qibleyi-aləm, yəqin şikayətləri var. Quş dilini kim bilir ki, onların dərdini də bilə.

Padşah dedi:

- Bir quş dili bilən tapıb gətirərsən.

Vəzir dedi:

- Ay padşah, mən hardan bunu tapım?

Padşah dedi:

- Qırx gün sənə vaxt verirəm, qırx günəcən tapdın, tapdın, tapmadın, boynunu vurduracağam.

Vəzir bikef evinə gəlib dedi:

- Arvad, dəsmala bir az çörəkdən-zaddan bağla, gedəcəyəm qırx günün səfərinə. Qırx gündən sonra boynum vurulacaq.

Arvad dedi:

- Niyə, nə olub?

Vəzir əhvalatı arvadına söylüyüb dedi:

- Nə bada Iskəndərə deyəsən, demə. Özü də evə gələndə həmişəki qayda ilə hörmət elə.

Bunu deyib, vəzir yola düşdü.

Isgəndər yenə cümə günü bir qızıl balığı xonçada gətirib vəzirin evinə verdi. Soruşdu:

- Bəs qardaşım hanı?

Arvad dedi:

- Padşah onu qırx günün səfərinə göndərib.

Isgəndər soruşdu:

- Nə işə gedib?

Arvad dedi:

- Bilmirəm vallah.

Isgəndər nə qədər elədi arvad demədi, onu həmişəki kimi yola saldı.

Isgəndər hər cümə onlara gəlirdi. Vəzirin haçan gələcəyini soruşurdu. Otuz doqquzuncu günün tamamında o, xonçaya bir qızıl balıq qoyub gəldi.

Vəzir də gəlmişdi. Isgəndər xonçanı verəndə baxıb gördü ki, vəzirin üzünə ölü bənizi çəkilib, soruşdu:

- Qardaş, niyə belə olmusan?

Vəzir dedi:

- Heç, bir az azarlamışam.

Isgəndərin qabağına çay, çörək gətirdilər. O, yeməyib dedi:

- Xeyir, yemərəm, gərək sənin dərdini biləm. Sən azarlı deyilsən, ayrı dərdin var. Qardaşın qardaşdan gizlin dərdi olmaz.

Vəzir nə qədər dedi ki, xörəyini ye, neyləyirsən. Isgəndər dedi:

- Xeyir, yemərəm, gərək deyəsən.

Vəzir gördü olmayacaq, dedi:

- Gündə padşahın divanxanasına bir sürü ala qarğa tökülür, qoymurlar ki, padşah şikayətə baxa, səsləri aləmə düşür. Padşah da mənə qırx gün möhlət verib ki, gərək bir quş dili bilən adam tapasan. Mən də bütün şəhərləri gəzdim, quş dili bilən tapmadım. Sabah qırx gün tamamdı, boynum vurulacaq.

Isgəndər dedi:

- Qardaş, məni burda qoyub şəhərləri gəzirsən?

Vəzir dedi:

- Nə deyirsən!? Sən quş dili bilirsən?

Isgəndər dedi:

- Canın üçün, quşların hamısının dilini bilirəm.

Vəzirin kefi köklədi. Hər ikisi xörəklərini yedilər. Səhər vəzir Isgəndəri padşahın yanına gətirdi.

Padşah dedi:

- Quş dili bilən tapdın?

Vəzir dedi:

- Bəli, bu oğlandı.

Padşah nəzər saldı, gördü bu bir padşahyana, göyçək oğlandı. Isgəndəri yanına çağırıb dedi:

- Qoçağım, quş dili bilirsənsə, gör o qarğalar nə deyir.

Isgəndər quş dilincə qarğalara dedi:

- Sakit olun!

O saat camaat gördü ki, qarğalar elə sakit oldular, ta birindən bir səs çıxmadı. Isgəndər dedi:

- Şikayətiniz nədi? Biriniz deyin.

Ana qarğa dedi:

- Bir il elə aclıq oldu ki, quşlar özlərinə dən tapa bilmədilər. Bu ata qarğa da balaları töküb mənim üstümə, çıxıb getdi. Mən saxladım, böyütdüm. Indi ata gəlib ki, mən də balalara şərikəm.

Isgəndər ana qarğanın dediklərini padşaha yetirib dedi:

- Qibleyi-aləm, şikayətləri budur.

Padşah dedi:

- Balalar ana qarğanındı, ata qarğanın haqqı yoxdu, bir söz deyə bilməz.

Isgəndər padşah dediyi sözü quş dilincə bunlara dedi.

Ata qarğa ağzını çevirdi bir tərəfə, çıxıb getdi. Ana qarğa da balalarını yığıb, bir tərəfə getdi.

Padşah dedi:

- Məni istəyən, Isgəndərə xələt!

Hərə Isgəndərə bir xələt verdi, Isgəndər nə ki, xələt aldı, balıqçı atasına göndərdi.

Padşah dedi:

- Vəzir, bu nə bilikli oğlandı.

Vəzir dedi:

- Qibleyi-aləm, gəl buna bir yüngül qulluq verək, əlimizin altında dolansın.

Padşah dedi:

- Yaxşı olar. Nə qulluğa qoyaq?

Vəzir dedi:

- Mən bir qulluq deyim, gör nə təhərdi. Gündə üç dəfə ki, qızına xörək çəkilir aparılır, qoy o xörəyi aşbazxanadan Isgəndər aparıb qıza versin.

Padşah dedi:

- Yaxşı olar.

Isgəndəri çağırıb işini dedilər. Isgəndər də razı oldu. Səhər xörəyi çəkdilər, verdilər ki, aparsın. Isgəndər xörəyi gətirdi, içəri girəndə qız bir könüldən min könülə bu oğlana aşiq oldu.

Isgəndər xörəyi qıza verdi. Qız dedi:

- Ay oğlan, otur söhbət eləyək.

Isgəndər dedi:

- Xeyir, oturmuram.

Qız dedi:

- Aləm deyir, o qızı bir görəydik, amma sən oturub söhbət eləmək istəmirsən?

Isgəndər dedi:

- Xeyir, gedəcəyəm.

Isgəndər çıxıb getdi. Günorta vaxtı xörəyini gətirib qıza vermədi, qapının ağzında qoydu. Qız nə qədər yalvardı ki, ədə, bəri gəl, Isgəndər baxmayıb qapıdan çıxdı. Axşam yenə xörəyi gətirdi, qapının ağzında qoydu. Qız nə qədər yalvardısa, baxmayıb getdi. Beləliklə, Isgəndər həmişə xörəyi gətirib qapının ağzında qoyardı, qız nə qədər eləyərdi, o içəri girməzdi. Tamam bir ay xörək gətirib, qapının ağzına qoydu. Bir ayın tamamında Isgəndər xəstələndi, Yəhyanı yanına çağırıb dedi:

- Yəhya, mən xəstələnmişəm. Bu gündən sən padşahın qızına xörək apararsan.

Səhəri gün Yəhya Isgəndərin əvəzinə padşahın qızına xörək apardı. Yəhya xörəyi gətirəndə padşahın qızı elə bildi ki, bu Isgəndərdi, yenə dedi:

- Gəl söhbət eləyək.

Yəhya oturdu, söhbətə başladılar.

Yəhya gündə xörək aparanda söhbətin nazik yerindən başlayırdılar. On beş günün tamamında Isgəndər dedi:

- Qardaş, ta yaxşıyam. Gəl sən get işinə, xörəyi özüm aparım.

Isgəndər xörəyi aparıb yenə qapının ağzına qoydu. Istədi geri qayıtsın, qız dedi:

- Ay oğlan, elə dünən mənnən söhbət eləyirdin, bu gün sənə nə oldu?

Isgəndər o saat barmağını dişləyib dedi:

- Bəli, ta iş ayrı cür oldu.

Isgəndər vəzirin yanına gəlib özünün yalandan padşah oğlu olduğunu söyləyib dedi:

- Mən də filan padşahın oğluyam. Indi istəyirəm gedəm.

Vəzir Isgəndəri də götürüb padşahın yanına gəldi dedi:

- Qibleyi-aləm, bu da filan padşahın oğludu, indi getmək istəyir.

Padşah dedi:

- Onda mənim qızımı alsın, mənim yerimdə şahlıq eləsin.

Nə qədər yalvardılar, Isgəndər razı olmadı. Buna bir dəst padşahyana libas verdilər, hamama apardılar, bir dəstə qoşunla öz şəhərinə yola saldılar. Isgəndər qoşunla yola düşdü, o qədər gəldi ki, ta öz şəhərlərinə çatdı. Bu şəhərdə padşah ölmüşdü, qızı yerində padşahlıq eləyirdi.

Bu qıza xəbər getdi ki, qoşun gəlib şəhərə tökülüb. Qız adam göndərdi ki, gedin görün nə işə gəlib, bizlə davayamı gəlib, yoxsa ayrı işə gəlib. Isgəndər gələn adama dedi:

- Xeyir, heç bir işə gəlməmişəm, ayrı padşahın oğluyam, gedirəm öz yerimə.

Xəbəri qıza gətirdilər. Qız dedi ki, onda mənə qonaqdı. Gəldilər Isgəndərə dedilər ki, xanım deyir bizə qonaqdı. Isgəndər razı olub padşah qızının evinə getdi. Oturub söhbət elədilər, xörək-zad yedilər. Qız dedi:

- Isgəndər atam ölüb, yerində padşahlığı mən eləyirəm, gəl məni al, padşahlığı sən elə.

Isgəndər razı oldu. Qoşunu azad eləyib geri qaytardı. Bir molla gətirdilər, qızın kəbinini Isgəndərə kəsdi. Isgəndər qızı alıb, yerində padşahlıq elədi. O, bir müddət bu şəhərdə padşah oldu.

Bir gecə yatmışdı, gördü qapı döyülür. Isgəndərin əlindən pəhlivanlıq da gəlirdi. Durdu, öz pəhlivan paltarını geydi, xas-polada qərq oldu, getdi qapını açdı, gördü qardaşı Yəhyadı.

Yəhya dedi:

- Qardaş, filan padşah bir pəhlivan göndərib, padşahdan həmin qızı da istəyir, yeddi ilin badi-xəracını da.

Isgəndərin arvadı bu əhvalatdan bixəbərdi, yatmışdı. Isgəndər dedi:

- Qardaş, gəl sən yavaşca soyun, gir mənim yerimə. Məndə də gedim. Indi allaha pənah, görək nə olar.

Isgəndər yola düşdü. Yəhya da soyunub, qılıncı arvadla öz arasına qoydu.

Isgəndər gecəni - gündüzə, gündüzü - gecəyə verdi, getdi çıxdı həmin yerə, yetirib gördü ki, camaat meydana yığışıb. Kağız möhürlənir ki, yeddi ilin badi-xəracını da, qızı da versinlər. O qədər gözlədi ki, kağız buna gələndə alıb dörd parça elədi, yerə tökdü. O saat pəhlivan Isgəndərin üstünə qalxdı. Elə bildilər ki, bu Yəhyadı, çünki Isgəndərlə Yəhya bir-birinə o qədər oxşayırdılar ki, ayırmaq olmurdu.

Isgəndər dedi:

- Qibleyi-aləm, bu adam sənin neçə pəhlivanını öldürüb, adamını qırıb?

Padşah dedi:

- O, mənim çox adamımı öldürüb.

Isgəndər qılıncını siyirdi, qalxanını götürdü. Pəhlivan da durdu, meydana gəldilər.

Pəhlivan dedi:

- Növbə sənindi, ya mənim?

Isgəndər dedi:

- Xeyir növbə sənindi.

Isgəndər qalxanı başına çəkdi. Bu pəhlivan Isgəndərin başına üç qılınc vurdu. Isgəndər qalxanın altından silkinib çıxdı, dedi:

- Mən dəmirçi zindanı deyiləm ki, dəmirçiliyi mənim başımda öyrənəsən, düşməmisən qoç davasına, düşmüsən tülkü-mülkü davasına, çək qalxanı başına.

O, qalxanı başına çəkdi.

Isgəndər dedi:

- Üç qılınc vurmusan başıma. Ikisini bağışlayıram sənə, tək bircə qılınc vuracağam.

Isgəndər qılıncı qalxızıb elə vurdu ki, pəhlivan iki bölündü, hər parçası bir tərəfə düşdü. Isgəndəri camaat alqışladı, hərə ona bir xələt verdi. Isgəndər yığılan xələtləri Yəhyanın evinə göndərdi. Padşah bir yaxşı kamil molla gətirdi, qızının kəbinini Yəhyaya kəsdirdi. Isgəndər gecə qalıb, səhər yola düşdü. Gəlib çıxdı öz şəhərinə, qapını yavaşca taqqıldatdı. O saat Yəhya durub geyindi, gəldi qapını açdı, gördü Isgəndərdi. Soruşdu:

- Qardaş, nə təhər oldu?

Isgəndər dedi:

- Qardaş, pəhlivanı öldürdüm, qızın kəbinini də kəsdirdim sənə. Nə qədər də xələt verilmişdi, göndərdim evinizə.

Yəhya ondan razılıq edib öz evlərinə getdi. Isgəndər də soyundu, arvadının yanına girdi. Arvad buna acıqlanıb dedi:

- Neçə gündü araya qılınc qoyursan, indi gəlmisən mənə tərəf?

Arvad qayıdıb bir əfsun oxudu, Isgəndəri çox iyrənc bir heyvan şəkilinə saldı. Özünə də bir aclıq verdi ki, nə qədər yesə doymasın.

Arvad o saat geyindi, çağırıb nökərlərə dedi:

- Ay köpək uşağı, bu necə heyvandı gətirmisiz bura?

Hərə bir ağac götürüb onu döyə-döyə şəhərdən çıxartdılar. Isgəndər gəlib bir meşəyə çıxdı, meyvələrdən-zaddan nə qədər yedi, gördü elə acından ölür.

Bu burada qalsın, sizə xəbər verim Yəhyadan. Yəhya evinə gəldi, gördü o qədər xələt veriblər ki, evdə xələt əlindən yer yoxdu. Padşah da adam göndərdi ki, toy ehtiyatını görsün. O, toy ehtiyatı gördü, yeddi gün, yeddi gecə toy vurdurdu, padşahın qızını gəlin gətirdi. On beş günün tamamında padşah öldü. Yəhyanı bunun yerində padşah elədilər. Yəhya burda qalsın, sizə kimdən xəbər verim, Isgəndərdən.

Isgəndər bu meşədən, o meşədən meyvə yeyə-yeyə gəldi Yəhyanın şəhərinin meşəsinə çıxdı. Yəhya padşaha xeyrat verirdi. Adam töküb meşədən odun qırdırırdı. Isgəndər soruşdu:

- Bu odunu neyləyirsiniz, bir bu qədər qırıb?

Odunçu baxıb gördü bu bir pis heyvandı, qorxub qaçdı.

Isgəndər dedi:

- Qorxma, adam yeyən deyiləm, səndən söz xəbər alıram.

Odunçu gendən durub dedi:

- De sözünü.

Isgəndər dedi:

- Deyirəm ki, bu odunu neyləyirsiz?

Odunçu dedi:

- Padşahımız ölüb, Yəhya onun yerində padşah olub. Indi ölən padşaha xeyrat verir.

Isgəndər dedi:

- Yəhya xörək yeyiləndə gəlib aralıqda gəzəcək ki, görüm kimin xörəyi azdı, yağlıdı, yavandı. Onda ətəyindən tut, denən: - Filan meşədə bir heyvan var, deyir ki: «o olsun Isgəndərin canı, məni doyursun».

Odunçu gəldi padşahın imarətinə. Xeyrat yeyilməkdə idi. Yəhya aralıqda gəzirdi. Odunçu Yəhyanın ətəyindən tutdu.

Yəhya dedi:

- Nə deyirsən, bala, xörəyin azdı, yavandı?

Kişi dedi:

- Xeyir, filan meşədə bir heyvan var, deyir: «O olsun Isgəndərin canı, məni doyursun».

O saat Yəhya dedi:

- Ay aman, durun gedin, onu gətirin bura.

Gedib Isgəndəri gətirdilər. Bir nimçə verdilər Isgəndərə, yeyib dedi:

- Sən Isgəndərin canı, məni doyur.

Birini də verdilər, genə heylə. Axırda baxdılar, gördülər ki, ta xörəkxanada xörək qalmır.

Yəhya gəlib dedi:

- Bu sirrdən məni agah elə, görüm sən kimsən, nəçisən?

Heyvan dedi:

- Mən Isgəndərəm. O arvad mənim başıma bu oyunu gətirib.

Yəhya nə ki münəccim, həkim vardısa, tökdü bura. Hamısı baxım dedi:

- Buna əlac yoxdu.

Bunların biri dedi:

- Filan yerdə bir qoca cadukün var, qocalıb əldən düşüb, bəlkə o əlac elədi. Adamlar gedib onu da gətirdilər. O baxıb dedi:

- Mənim filan yerdə bir kitabım var, əgər əlac olsa, onda olar, olmasa buna əlac yoxdu.

Gedib o kitabı gətirdilər. Kitaba baxıb dedi:

- Budu, tapdım.

Yəhyaya bir vürd öyrədib dedi:

- Bu vürdü oxuyub, bunu filan hamamda çimdirərsən. O zaman bu cilddən çıxacaq, öz cildinə düşəcək.

Isgəndəri hamama apardılar. Yəhya o vürdü oxuyandan sonra onu çimdirdilər. Isgəndər o cilddən çıxıb, öz cildinə düşdü. Paltar gətirib geyindirdilər. Yəhya dedi:

- Qardaş, nə qədər qoşun istəyirsən, hazırdı.

Isgəndər dedi:

- Xeyir, mənə qoşun lazım deyil.

Dava libasını geyindi, qılıncını, qalxanını götürdü, yola düşdü. Gecəni-gündüzə, gündüzü-gecəyə vurub gəldi öz evinə çıxdı. Kəmənd atdı, barıdan aşıb içəri girdi. Otağa girib gördü arvadı taxtın üstə yatıb. Qılıncı siyirib elə vurdu ki, iki parça olub yerə düşdü. Padşah paltarını geyinib, taxta çıxdı.

Günlərin bir günü adam göndərdi ki, filan naxırçıya deyin ki, padşah deyir bu gün ona qonağam. Naxırçıya xəbər apardılar. Naxırçı xörək-zad hazırladı, bağçanı döşətdirdi, padşahyana bir məclis düzəltdirdi. Xörək vaxtı padşah gəlib əyləşdi. Atası əlində aftafa, ləyən, analığı da xonçada xörək gətirirdi. Onlar Isgəndərə baş endirdilər, dil-ağız elədilər. Atası Isgəndərin əlinə su tökmək istədi. Isgəndər ayağa durub dedi:

- Mehriban ata, layiq deyil ki, ata oğlunun əlinə su tökə. Mən sənin oğlun Isgəndərəm.

Isgəndər analığını çağırıb dedi:

- O zaman sən mənə zülm elədin, didərgin saldın. Anam olduğum üçün günahından keçirəm. Analığımsan mən sənə həmişə hörmət eləyəcəyəm.

Isgəndər bir dəst də padşahyana paltar gətirtdirdi. Atasını geyindirdi, yanına çağırıb dedi:

- Ata, nə qədər canıda can var, yeyin, için, kef eləyin, heç fikir eləməyin.

O yedi, yerə keçdi, siz də yeyin, dövrə keçin.

G U L O Ğ L A N

Biri var idi, biri yox idi, iki qardaş var idi. Bu qardaşların biri dövlətli, biri kasıb idi. Dövlətli qardaş sonsuz idi. Kasıb qardaşın Güloğlan adlı bir yaxşı oğlu var idi. Dövlətli qardaş kasıb qardaşın oğlu olduğuna paxıllıq eləyirdi. Bir gün dövlətli qardaş uzaq bir yerə qoyun satmağa gedirdi. Dövlətli qardaş kasıb qardaşına dedi:

- Qardaş, gəl oğlunu qoy mənimlə getsin, qoyuna kömək eləsin. Gələndə əvəzində sənə pul verərəm. Kasıbsan, dolanarsan.

Kasıb qardaş dövlətli qardaşın ürəyindəkini bilmirdi deyin, razı oldu. Dövlətli qardaş Güloğlanla qoyunları qabağına qatıb, yola düşdü. Yolda dövlətli qardaş Güloğlanı gecənin birində yatdığı yerdə qoyub, çıxdı getdi. Elə ki, evlərinə yetişdi, kasıb qardaş onun yanına gəlib dedi:

- Ay qardaş, bəs Güloğlan niyə gəlmədi?

Dövlətli qardaş dedi:

- Qardaş, yolda canavarlar bizim üstümüzə töküldü. Mən qaçdım, yaxamı qurtardım. Güloğlanı yedilər.

Kasıb qardaş bundan ağladı. Bikef, mə`yus qayıtdı evinə. Bunlar burda qalsınlar, sənə kimdən xəbər verim, Güloğlandan. Güloğlan gecənin birində yuxudan oyandı gördü əmisi yoxdu. Bildi ki, əmisi paxıllıqla onu burda qoyub gedibdi. Güloğlan bir gün, bir gecə yol getdi, gəldi bir şəhərə çatdı.

Şəhərdə bir qocaya qonaq oldu. Qoca Güloğlanı qərib görüb, ona bacardığı qədər hörmət elədi. Evində olanı azdan-çoxdan onun qabağına qoydu. Güloğlan yedi, yatdı, sabahısı elə yuxudan təzəcə qalxmışdı ki, birdən şəhərə səs-küy düşdü.

Güloğlan dedi:

- Ay baba, bu nə səs-küydü?

Qoca dedi:

- Oğul, dağda bir əjdaha peyda olub, hər nə verirlər, qəbul eləmir, padşahın qızını istəyir. Deyir ki, ya padşahın qızını mənə verin, ya da şəhəri alt-üst eləyəcəyəm. Padşah da deyib ki, bir qızdan ötrü şəhəri dağıtdırmaq olmaz, əlac yoxdu, gərək qızı əjdahaya verəm. Indi bu gün padşahın qızını əjdahaya aparırlar. Bu səs-küy onun üçündü.

Güloğlan dedi:

- Baba, izin ver, mən də gedim görüm, o əjdaha necə əjdahadı.

Qoca dedi:

- Oğul, sözünü sındırmıram, get, ancaq əjdahaya yaxın durma, səni də kamına çəkər.

Güloğlan yaxşı, deyib, evdən çıxdı. Camaat əjdahaya tamaşa etmək üçün dəstə-dəstə gedirdilər. Şahzadələr, vəzirlər, vəkillər, qullar, qarabaşlar da padşahın qızını gözü yaşlı, əlləri qoynunda, əjdahaya aparırdılar. Güloğlan bir tərəfdən gəlib, özünü dağa yetirdi. Dağın ətəyində bir daşın üstündə oturdu. Güloğlan oturan yerdə heç kəs yox idi.

Camaat o biri tərəfdən, dağa, əjdahanın yanına tərəf gedirdilər. Güloğlan daşın üstündə oturub fikrə getmişdi. Əllərini başına qoyub dayanmışdı. Bir azdan bir quş uçub oraya gəldi. Quş Güloğlanın oturduğu daşdan bir az aralı bir kola qondu, birdən-birə adam kimi dil açıb dedi:

- Ay Güloğlan, yatıbsan oyan, oyanıbsan eşit. O sən oturan daşın altında bir yay-ox var. Daşı qaldır, o yay oxu götür, dağın başına get. Əjdahanı o yay-oxdan savayı heç nə öldürməz. Yay-oxla vur əjdahanı öldür, padşahın qızını qurtar.

Quş bunu deyib, uçub getdi. Güloğlan sevinmiş yerindən qalxdı, daşı qaldırdı. Gördü doğurdan da daşın altında bir yay-ox var. Güloğlan yay-oxu götürüb, dağa dırmaşdı. Gəlib o zaman yetişdi ki, adamlar padşah qızını gətirib əjdahaya vermək istəyirlər. Əjdaha padşah qızını udmaq istəyəndə Güloğlan çıxarıb yay-oxu çəkdi, əjdahanın kəlləsindən bir ox vurdu. Əjdaha nərilti, gurultu ilə yıxılıb öldü. Padşah qızı şadlığından özünü Güloğlanın üstünə atmaq istəyəndə, Güloğlan hələlik bu sirr açılmasın deyə qızdan aralandı. Yeyin-yeyin enib qocanın evinə yetişdi. Yay-oxu da bir yanda gizlədib oturdu. O tərəfdən padşah qızı dağda nə qədər hərləndisə, Güloğlanı tapa bilmədi. Sevinmiş yüyürə-yüyürə evlərinə gəldi. Əhvalatı ata-anasına nağıl elədi.

Padşah hökm elədi, şəhərə car çəkdirdi, əjdahanı öldürüb qızını qurtaran oğlanı axtardı. Adamlar Güloğlanı nə qədər axtardılarsa, tapa bilmədilər. Qayıdıb padşaha xəbər apardılar ki, tapa bilmədik.

Güloğlan evə gələndə qoca kişi evdə deyildi. O da səsə-küyə şəhərə çıxmışdı. Qoca bir də toyşümüş evə gəldi gördü Güloğlan evdədi. Güloğlan üzünü qocaya tutub dedi:

- Ay baba, nə gördün, nə eşitdin?

Qoca dedi:

- Ay oğul, nə görəcəyəm? Eşitdim ki, dağda bir oğlan çıxıb yay-oxla vurub əjdahanı öldürüb, padşah qızını qurtarıbdı. Oğlanın baxtı açılıb, padşah indi şəhərdə car çəkdirib onu gəzir ki, böyük xələt versin, hörmət eləsin. Padşah qızı da əjdahanı öldürən oğlanı çox bəyənibdi. Onun igidliyini dilində əzbər eləyibdi. Ancaq hardadırsa, oğlan tapılmır.

Güloğlan bir söz demədi. Bundan bir xeyli keçdi.

Gecələrin birində padşahın vəziri küçə ilə gedirdi. Birdən bir gözəl qız gördü. Qız əl eləyib vəziri çağırdı özü isə yoluna davam eləyib getməyə başladı. Vəzir bu sirri bilmək üçün qızın dalınca getdi. Qız getdi, vəzir getdi, o qədər getdilər ki, axırda şəhərdən çıxdılar. Bir xeyli getdilər, meşənin kənarında bir hündür qayaya rast gəldilər. Qız, qayanın bir tərəfindən keçdi, yuxarı çıxdı. Vəzir də onun dalınca getdi. Bir qalaçaya yetişdilər. Qız qalaçanın içinə girdi. Qalaçanın qapısı bağlandı. Bir az keçdi, içəridən bir qoca sehirkar qarı çıxdı. Qarı oxudu, üfürdü, vəziri bir daş elədi. Sonra dönüb qalaçaya girdi.

Bunlar burda qalsınlar, sizə vəzirin oğlanlarından xəbər verim. Vəzirin oğlanları gözlədilər, gecədən xeyli keçdi, ataları gəlmədi, axırda atlanıb şəhərə çıxdılar atalarını gəzməyə başladılar. Şəhərdə atalarını tapa bilmədilər. Şəhərdən çıxdılar, o qədər getdilər ki, axırda qayadakı qalaçaya yetişdilər. Düşüb qalaçaya girmək istəyəndə qalaçanın qapısı açıldı, sehirkar qarı eşiyə çıxdı, oxudu, üfürdü, vəzirin oğlanlarını da daş elədi. Bu tərəfdən xəbər tutdular ki, vəzir oğlanları ilə itibdi. Hər yana ün saldılar, car çəkdilər, ancaq onlardan bir xəbər çıxmadı ki, çıxmadı.

Bunlar da burda qalsınlar, sizə padşahdan xəbər verim. Günlərin bir günü bir xoş saatda padşah atlanıb maral ovuna çıxmışdı. Başının atlıları ilə çox gəzdi, axtardı, axırda bir gözəl maral tapdı. Maralı tutmaq üçün başının atlıları ilə onun dalınca düşdü. Maral qaçdı, onlar qovdular. Axırda padşahın başının atlılarının atları yoruldu, gerilədilər. Şah maraldan aralanmadı. Maralı dağdan-daşdan uçura-uçura qovurdu. Maral axırda qaça-qaça gəldi haman vəzir oğlanları ilə daş olan qalaçaya yetişdi. Maral qalaçaya tərəf gələndə qalaçanın qapısı açıldı. Maral içəri girdi, qapı örtüldü. Bir az keçdi, qapı açıldı, içəridən qarı çıxdı. Oxudu, üfürdü, padşahı da daş elədi. Padşahın başının atlıları geri qayıdıb, padşahın oğlanlarına xəbər verdilər ki, ataları bir maral dalınca düşüb getdi, geri qayıtmadı. Padşahın oğlanları atlanıb çıxdılar. Dağları, daşları, hər yeri gəzdilər. Atalarından bir əsər tapa bilmədilər. Axırda atlarını sürüb qalaçaya gəldilər. Qalaçanın qapısını açıb içəri girmək istədilər. Birdən qalaçanın qapısı açıldı. Içəridən sehrkar qarı çıxdı. Oxudu, üfürdü, padşahın oğlanlarını başının atlıları ilə daş elədi.

Bunlar burda qalsınlar, sizə Güloğlandan xəbər verim. Güloğlan qoca kişinin evində olurdu. Gündüzlər şəhərə çıxır gəzir, axşamlar evə gəlirdi. Bir gün yenə şəhərə çıxmışdı. Gördü şəhərdə danışırlar ki, padşah, vəziri, vəkili, oğlanları ilə bərabər itiblər. Neçə vaxtdır ki, tapılmırlar. Camaat padşah tapılana qədər onun yerinə qızını taxta çıxardıbdır. Qız da taxtda qərar tuta bilmir. Bir yandan atasının, qardaşlarının itməsi, bir yandan da onu əjdahanın ağzından qurtaran oğlanın tapılmaması qızı rahat qoymur. Qız padşahlığı aparmaq istəmir, ancaq camaat razı olmur. Hələlik taxtda oturur.

Güloğlan şəhəri dolanıb axşam evə qayıtdı. Qoca kişi də evdə idi. Xörək gətirildi, yedilər, içdilər, söhbətə başladılar. Söhbət arasında Güloğlan dedi:

- Ay baba, bilmirsənmi padşah, vəzir, vəkil, oğlanları ilə harda itiblər? Hayana gedib, qayıtmayıblar, başlarına nə gəlib, nə olubdu?

Qoca kişi dedi:

- Bilmirəm, şəhərdə danışırlar ki, vəzir gecənin birində yox olub. Evdən çıxıb bir də geri dönməyib, oğlanları da vəziri axtarmağa gedəndə itiblər. Padşah da bir maralın dalına düşüb, gecə-gündüz qovlayıb-qovlayıb, bütün atlılar yorulub qalıblar, o isə maraldan əl çəkməyib. Indi haraya gedib, heç kim bilmir. O da maralın bəlasına rast gəlib. Padşahın oğlanları da atalarının dalınca gedib, qayıtmayıblar. Şəhərin ətrafı dağdı, meşədi, əjdaha var, hərami var, yırtıcı heyvanlar var, sehrkarlar var. Kim bilir, hansına rast gəldilər, tələf oldular, getdilər.

Güloğlanla qoca gələcəkdən, keçmişdən söhbət elədilər, gecədən xeyli keçmiş yatdılar. Elə ki, sabah açıldı Güloğlan sıçrayıb yerindən qalxdı, yay-oxunu götürdü, çiyninə keçirtdi. Bir az çörək də götürəndə qoca dedi:

- Ay oğul, haraya belə səfərin var? Sən qonaq olsan da indi qonaqlıqdan çıxıb mənim oğlum olubsan, sənə elə isinişmişəm ki, bir gün gözümdən uzaq olmağını istəmirəm.

Güloğlan dedi:

- Ay baba, çox sağ ol. Mənə çox yaxşılıq, hörmət eləyibsən, mən onu itirmərəm. Əlbət, olar ki, onların altından çıxaram. Indi mən, sən gecə söylədiyin dağları, daşları, meşələri gəzməyə çıxıram. Görüm bu yerin dağlarında, daşlarında nə var, nə yox. Nə sirr var ki, gedən geri qayıtmır.

Qoca dedi:

- Ay oğul, mən sənə dedim ki, bu dağlarda, daşlarda həramilər, yırtıcılar var. Gəl sən getmə, tələf olarsan.

Güloğlan dedi:

- Baba, qorxma. Sağlıq olsa, mənə heç nə olmaz, yenə qayıdıb gələrəm.

Qoca ha elədi, Güloğlan dayanmadı, üzünü dağlara çevirib getdi. Güloğlan üç gün, üç gecə dağları, daşları, meşələri gəzdi, dolandı, axırda həmən padşah, vəzir, oğlanları daş olan qalaçaya yetişdi. Güloğlan qalaçanın çöl tərəfində oturdu. Yorulmuşdu, həm də fikir-xəyala cummuşdu. Güloğlan fikir xəyalda ikən oturduğu yerdə onu yuxu apardı. Güloğlan gözü yuxuda, könlü isə oyaq olan zaman yenə həmən quş uçub gəldi, ona yaxın bir budağa qondu, dedi:

- Ay Güloğlan, yatıbsan oyan, oyanıbsan eşit! Bu qalaçada bir sehrkar qarı var. Sehrlə hər dona girə bilir. Sehrkar qarı bir gözəl qız sifətinə düşüb, vəziri gətirib qalaçanın qapısında daş eləyib. Oğlanları da dalınca gələndə onları da daşa döndərib. Bir gün də maral cildinə girib, padşahı dalınca gətirib, burada onu da daş eləyib, sonra da oğlanlarını, başının atlıları ilə daşa döndərib. Indi o sehrkar qarı qalaçadadı. Yaxşı eşit mənim dediklərimi! Qalxıb gedərsən qalaçanın qapısını itələrsən, açılar, içəridən sehrkar qarı çıxar. Onda sən deyərsən: - Süleyman eşqinə sehrkar qarının sehri batil olsun!

Onda sehrkar qarı nə qədər sehr oxuyub, səni də daş eləmək istəsə, eləyə bilməz. Sehri batil olar. O zaman sən yay-oxu çəkib onun sinəsindən vurarsan. Sehrkar qarı ölər, sehri pozular, qalaçası dağılar. Daş olmuşlar da dönüb adam olarlar.

Quş bunu deyib, uçub getdi. Güloğlan quşun dediklərini bütün eşitdi. Yerindən qalxdı, qalaçanın yanına gəldi. Itələdi, qalaçanın qapısı açıldı. Içəridən sehrkar qarı çıxdı. Qarı çıxanda Güloğlan dedi:

- Süleyman eşqinə qarının sehri batil olsun!

Qarının sehri batil oldu. Qarı nə qədər istədi ki, sehr oxuyub Güloğlanı daş eləsin, sehri baş tutmadı. Güloğlan qarıya aman vermədi. Yay-oxu çəkdi, sehrkar qarının sinəsindən bir ox vurdu. Sehrkar qarı yıxılıb öldü. Sehr pozuldu, qalaça dağıldı. Daş olanlar dönüb adam oldular. Padşah, oğlanları, vəzir, oğlanları başının adamları ilə Güloğlanın yanına gəldilər. Onu aralığa alıb, başına dolandılar. Padşah Güloğlana çox hörmət elədi. Sehri necə batil etdiyini ondan soruşdu. Güloğlan sehrkar qarını öldürüb, sehri batil elədiyini, onları qurtardığını söylədi.

Onlar hamısı şadlıqla şəhərə qayıdıb gəldilər. Şəhər əhli bunların gəldiyini eşidib görüşə toplandılar... Padşah qızı da oraya gəldi. Qız Güloğlanı görən kimi tanıdı, ancaq hələlik danışmadı, işin axırını gözlədi. Padşah üzünü camaata tutub, başlarına gələnləri başdan-ayağa nağıl elədi. Güloğlanın onları necə qurtardığını, onun igidliyini bir-bir söylədi. Camaat Güloqlanın igidliyinə, qoçaqlığına mat qaldı. Bu zaman padşah qızı dedi:

- Ay ata, sizi sehrdən qurtaran Güloğlan, o oğlandı ki, məni də əjdahanın çəngindən qurtarıb. O vaxtdan bəri mən də bunu axtarırdım, indi burda tapdım.

Güloğlan əhvalatı bir də camaata danışdı. Bundan hamı çox şad oldu. Güloğlanı evində saxlayan qoca hamıdan çox sevindi.

Padşah, Güloğlanın rə`yini biləndən sonra yaxşı toy eləyib, qızını Güloğlana verdi. Güloğlan bir müddət burda qaldı. Bir gün öz yerlərinə getmək üçün padşahdan izin aldı. Padşahla,

vəzir-vəkillə, evində olduğu qoca ilə görüşüb padşahın qızını da götürüb yola düşdü. Gecə-gündüz yol gedib, gəldi öz yerlərinə yetişdi. Güloğlanın atası oğlunun gəlməyindən xəbər tutub, şad oldu. Oğluyla görüşdü. Başına gələnləri ondan xəbər aldı. Güloğlan başına gələnləri əvvəldən axıra kimi atasına nağıl elədi. Atasının öz qardaşının onun oğluna xəyanət elədiyinə çox acığı tutdu. Onda bu hayıfın qalmaması üçün oğluna dedi:

- Oğul, gərək hayıfını paxıl əmindən alasan.

Güloğlan getdi, yay-oxu çəkdi, paxıl əmisini öldürdü. Güloğlan özü ilə böyük var-dövlət gətirmişdi. Evlərinə dolanacaq düzəltdilər, gün gördülər, ömür sürdülər, öldülər, yerə keçdilər. Nağıl da onlardan yadigar qaldı.

HƏSƏN QARANIN NAĞILI

Həkan-həkan içində, qoz girdəkan içində, dəvə dəlləklik elər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı. Milçək mindik, körpü keçdik, yabaynan dovğa içdik. Şah Abbas cənnət məkan, tərəziyə verdi təkan. Iki qoz, bir girdəkan.

Günlərin bir günündə, sizə kimdən xəbər verim, şah oğlu Şah Abbasdan. Bir gün Şah Abbas oturub vəzir Allahverdi xanla şam eləyirdi. Birdən xörək boğazında qaldı. Üzün tutub vəzir Allahverdi xana dedi:

- Ey vəzir Allahverdi xan, nəysə mənim şəhərimdə bir iş var, ya ac qalan, ya da bir çətin işə düşən var, xörək boğazımdan getmir. Dur ayağa, dərvişlibas olaq, bir şəhəri dolanaq.

Hər ikisi durub padşahlıq, vəzirlik paltarını çıxardıb bir dəst dərviş libası geyindilər. Kəşküllərini qızılla doldurub düşdülər şəhərə gəzməyə. Isfahan-nisficahan deyirlər, çox böyük şəhərdi. Şah Abbasla vəzir Allahverdi xan gəzə-gəzə gəlib çıxdılar bir küçəyə. Burda bir imarət var idi. Şah Abbasın öz imarətindən yaxşı idi. Şah Abbas imarətə yaxınlaşanda, üzünü vəzir Allahverdi xana tutub dedi:

- Ey vəzir Allahverdi xan, bilirsən nə var?

Vəzir Allahverdi xan cavab verdi:

- Xeyir, təsəddüqün olum, bilmirəm.

Şah Abbas dedi:

- Vəzir, bu imarət işsiz deyil, gəl bir bura baxaq!

Vəzir Allahverdi xan cavab verdi:

- Qibleyi-aləm, fərmayiş sənindi, necə buyurursan, heyə də eləyək.

Şah Abbasla vəzir Allahverdi xan imarətə tərəf yaxınlaşıb gördülər ki, bu imarətdə çilçıraqlar yanıb, aləmi işıqlandırır. Bir oğlanla bir qız oturub, yastıqlara təkiyə verib, söhbət edirlər. Şah Abbas yavaşca vəzir Allahverdi xanın qulağına dedi:

- Vəzir Allahverdi xan, yaxşı gəlmişik, hər nə əngəl var, burda var. Gərək gözləyək.

Çəkilib pəncərənin qabağında bir küncdə durdular. Bir də gördülər, vallah bu oğlan, bu qız o qədər gözəldi ki, deyirsən allah-taala xoş günündə, xoş saatında bunları xəlq eləyib. Oğlan olar iyirmi beş yaşında, qız da olar iyirmi yaşında, özləri də bir-birinə elə oxşayırlar ki, deyərsən bir almadılar, ortadan tən bölünüblər. Qız oğlanı bir qədər öpəndən sonra dedi:

- Mənim canım, başını qoy dizimin üstə yat, mən də gül camalına baxım!

Oğlan başın qoydu qızın dizinin üstə, qız da başladı onun başını tumarlamağa. O qədər tumarladı ki, oğlan yuxuya getdi. Qız baxıb gördü, oğlan yatıb. O saat oğlanın aşın dizinin üstündən üsullu götürüb qoydu yerə. Ayağa qalxıb, göydən xəncəri aldı, qəfildən oğlanın başını kəsib, bədənindən ayırdı. Bu işi qız elə cəld gördü ki, oğlan hərəkət eləyə bilmədi. Oğlanın gözündən bir damcı yaş çıxıb yanağında durdu.

Vəzir Allahverdi xan bunu görən kimi əl atıb əbasının altından qılıncı çəkdi, istədi içəri girsin, qızı öldürsün. Şah Abbas onu dayandırıb, yavaşca qulağına dedi:

- Tələsmə, gizlən, bu işi elətdirəni tapmalıyıq.

Vəzir Allahverdi xan başı ilə razılıq verdi, çəkilib bir yanda gizləndilər. Gördülər qız oğlanın başını bir qızıl xonçaya qoyub üstünə də sərpuş çəkdi. Əl-üzünün qanını yuyub təmizlədi. Yeddi qələm ilə özünə zinət verim tavuz quşu kimi bəzəndi. Oğlanın bədəninin üstünə bir palaz çəkib, xonçanı da alıb əlinə evdən çıxdı. Düşüb gücə ilə başladı bir tərəfə getməyə. Şah Abbasla vəzir Allahverdi xan da düşdülər bunun dalına, başladılar qarabaqara getməyə. O qədər getdilər ki, gördülər qız şəhərdən çıxdı kənara. Gethaget, getdi çıxdı qəbirsanlığa. Bir tərəfdən altı qəbir sanadı, yeddinci qəbirin üst daşın qalxızdı, girdi içəri. O saat həmin daşı qalxızdılar, bir yırtıq altından bir pilləkən açıldı. Şah Abbasla vəzir Allahverdi xan pilləkəndən düşdülər aşağı, gördülər ki, paho, bura böyük bir zirzəmi imiş... O yan-bu yana gəzirdilər. Bir tərəfdən çalğı səsi eşidib başladılar ora tərəfə getməyə, yetirib gördülər, elə qız da təzəcə bir qapını açıb girdi içəri. Bunlar da haman qapını açıb qızın dalınca girdilər içəri, bir tərəfdə gizləndilər. Gördülər bir az aralı bir işıq gəlir, həmin çalğı da ordadı.

Qız gedib həmən işıq gələn qapını açıb girdi içəri. Şah Abbasla vəzir Allahverdi xan da o saat yetirib qapının arasından başladılar baxmağa. Gördülər, paho, burada qırx hərami oturub kef eləyir. Həramibaşı da yuxarı başda bir taxt üstə əyləşib, qıçını-qıçının üstündən aşırıb, buğunu eşib aparıb qulağının dibinə. Qız elə ki, həramibaşına yaxınlaşdı, əl-əl üstə qoyub dayandı. Həramibaşı, başın qalxızıb qızı görəndə dedi:

- Çəpəl, niyə bu gecə gec gəldin? Eyş-işrəti mənə haram elədin?

Qız yalvara-yalvara dedi:

- Mənim mə`şuqim, məni bağışla! Əmim oğlu yatmırdı. Onu bir təhər yatırdım gəldim.

Həramibaşı cavab verdi:

- Di yaxşı, gəl otur. Bu gecə səni bağışlayıram. Amma bir də belə iş görmə!

Qız dedi:

- Mənim mə`şuqim, agah ol, bu gecə fikirləşib axırda əmim oğlunu öldürdüm, başını da sənə gətirmişəm. Indi tay mən həmişə sənin yanıda qalacağam, bir də geri qayıtmayacağam.

Həramibaşı bunu eşitcək diksinib oğlanın başını istədi.

Qız xonçanı qoydu həramibaşının qabağına. Həramibaşı sərpuşu qalxızıb, başı çıxartdı. Oğlanın gül kimi solmuş üzünə baxanda, başladı ağlamağa. Üzün tutub qıza dedi:

- Çəpəl, haramzada, belə oğlanı necə qıyıb öldürdün? Necə bu gözəllikdə oğlana xəyanət elədin? Heç sənin insafın yoxdumu?

Qız başın aşağı salıb, başladı yalvarmağa. Həramibaşı üzün yoldaşlarına tutub dedi:

- Bu çəpəli öldürün, oğlanın qanın alın. Mən bu qızı tay görmək istəmirəm. Belə gözəl oğlanı öldürən qız, mənə nə vəfa göstərəcək?

O saat həramilərdən bir neçəsi yerindən qalxıb qızın saçlarından yapışıb çəkdilər çölə. Qızı parça-parça doğruyub tökdülər zirzəminin bir bucağına, sonra qayıtdılar geri. Şah Abbasla vəzir Allahverdi xan da bir gəmin-gahda durub tamaşa eləyirdilər. Genə gəlib qapının dalına, kördülər həramibaşı gözünün yaşın silib dedi:

- Uşaqlar, üç gün, üç gecə eyş-işrəti yığışdırıb, bu oğlana matəm tutmalıyıq. Indi bir neçəniz gedin, o oğlanın meyitini gətirin bura, dəfn eləyin.

Həramilərdən bir neçəsi qalxıb düşdülər yola, zirzəmidən çıxıb gəldilər şəhərə tərəf.

Şah Abbasla vəzir Allahverdi xan da bir az fikirləşəndən sonra qərar qoydular ki, çıxıb getsinlər. Onlarda zirzəmidən çıxıb üz qoydular öz mənzillərinə. Elə ki, mənzilərinə çatdılar, sabaha kimi Şah Abbas yata bilmədi. Elə ki, sabah oldu, şah fərraşları çağırıb yığdı bir yerə. Üç yüz fərraş verib vəzir Allahverdi xana, göndərdi ki, gərək o həramilərin qırxın da tutub mənim hüzuruma gətirəsən, amma nəbada birini öldürəsən.

Vəzir Allahverdi xan üç yüz fərraşı da götürüb gəldi qəbirsanlığa. Həmən daşı qalxızıb hamısı zirzəmiyə girdilər.

Vəzir Allahverdi xan qabağa düşüb gəldi həmən qapını açıb girdi içəri. Gördü həramilər hamısı qara geyinib yas saxlayırlar. Həramilər vəzir Allahverdi xanı görəndə istədilər qılınca əl atsınlar, həramibaşı onları dayandırıb dedi:

- Qoyun əvvəl görək kimdi, nə işə gəlib, ondan sonra asandı. Üzün Allahverdi xana tutub dedi:

- Əhali söylə, görək kimsən, nəçisən? Bizim mənzilimizdə nə axtarırsan.

Vəzir Allahverdi xan dedi:

- Ay həramibaşı, bil və agah ol! Mən Şah Abbasın vəziri Allahverdi xanam. Çoxlu süvariylə gəlmişəm ki, sizi aparam şah Abbasın hüzuruna, heç ayrı fikrə düşüb özünüzü qırdırmayın. Bu qədər dilavərə qırx adam nə qədər qoçaq da olsa, heç nə eliyə bilməz. Əgər siz qılınc çəkməyib təslim olsanız, mən sizə söz verirəm ki, Şah Abbasdan təvəqqe edərəm, sizin cəzanızı yüngülləşdirər.

Həramilər fikirləşib gördülər, doğrudu. O saat təslim olub, düşdülər vəzir Allahverdi xanın qabağına, gəldilər Şah Abbasın hüzuruna.

Şah Abbas üzün həramibaşıya tutub dedi:

- Ey həramibaşı, indi düzün deyinən görüm, dünən axşam sənin məkanında nə iş olub? Əgər düzün dedin, canın qurtardı, yox, demədin, and olsun babamın cıqqasına, sizin hamınızın boynunu vurduracağam.

Həramibaşı cavab verdi:

- Qibleyi-aləm sağ olsun, iyit bir qaşıq qanından qorxmaz, heç vaxt yalan danışmaz. Bir qız mənə aşiq olmuşdu. Əvvəlcə mən onu qəbul eləmək istəmirdim. O əl götürmədi, yalvardı dedi: «Mən əmim oğluna ərə getmişəm, amma o məni incidir, məni boşamaq istəyir. Allah xatirinə məni al, sənə aşiqəm». Mən də elə bildim düz deyir, razı oldum. Qız da hər gecə gəlirdi mənim yanıma, söhbət eliyirdik. Ötən axşam da gəlmişdi, mən ona acıqlandım ki, niyə gec gəlibsən? O cavab verdi ki, əmim oğlu yatmırdı, onu yatırtdım, özün də öldürdüm. Tay bir yolluq sənin yanına gəlmişəm. Mən o saat başı istədim, baxdım, nə gördüm?.. Bir oğlandı, deyirsən Rüstəmdi, qəbirdən çıxıb, gülkimi. Mən çox yandım, qəzəbləndim. O saat əmr elədim, qızı parça-parça doğradılar, özümüz də o oğlanın nə`şin gətirib hörmətlə dəfn-kəfn elədik. Başladıq qara geyib yas saxlamağa ki, vəzir Allahverdi xan gəldi, bizi hüzura istədi. Biz də gəldik. Indi sahibi-ixtiyarsınız. Nə cəzamız olsa hazırıq.

Şah Abbas başın qaldırıb dedi:

- Mən özüm bu işləri gözümlə görmüşdüm, amma bilmək istəyirdim, görüm düz danışacaqsan, yoxsa yox. Yəqin elədim ki, sən düz danışan mərd adamsan, ona görə də sizin hamınızı bağışlayıram.

Həramilər hamısı baş endirib razılıq elədilər. Şah Abbas əmr elədi, həramilərin hərəsini bir işə təyin etdilər. Həramibaşını da öz yanında saxladı. Şah Abbas üzün vəzir Allahverdi xana tutub dedi:

- Vəzir Allahverdi xan!

Vəzir Allahverdi xan baş endirib dedi:

- Nə fərmayişiniz var, qibleyi-aləm, buyurun yerinə yetirim.

Şah Abbas dedi:

- Vəzir Allahverdi xan, mənim qələmim işləyən yerdə nə qədər zənən tayfası var, gərək qırx günə kimi siyahısını tutub sahibindən iltizam alasan. And olsun allaha, əgər bir zənən tayfası qalsa, nəslini yer üzündən kəsdirəcəyəm.

Vəzir Allahverdi xan bu sözü eşidən kimi baş endirib, Şah Abbasdan soruşdu:

- Qibleyi-aləm sağ olsun, bu siyahını neyləyəcəyik?

Şah Abbas cavab verdi:

- Vəzir Allahverdi xan, qızın gördüyü iş mənə o qədər ağır gəlib ki, tamam zənən tayfasın qırdıracağam. Gərək mənim torpağımda arvad xeylağı qalmasın. Öz arvadlarımızın, qızlarımızın da siyahısını tutmalısan.

Bu sözləri eşidəndə hamı donub yerində mat qaldı. Heç kəs bilmədi ki, nə desin. Genə vəzir Allahverdi xan ayağa qalxıb, yeddi yerdə səcdə qılandan sonra ərz elədi:

- Qibleyi-aləm sağ olsun, əgər izin versən, bir neçə kəlmə ərzim var.

Şah Abbas izin verdi. Vəzir Allahverdi xan dedi:

- Qibleyi-aləm sağ olsun, bir arvad bu qələti eləyib cəzasına da çatıb, tay başqalarının günahı nədi ki, bu qədər nahaq qana bataq? Əgər mənim məsləhətimi eşitsən, bu əmrdən vaz keçərsən.

Hamı məclisdəkilər vəzir Allahverdi xana əhsən oxuyub, Şah Abbasdan xahiş elədilər ki, arvadların qanından keçsin. Vəzir, vəkil, əmiri-üməra nə qədər çox dedi, Şah Abbas az eşitdi. Hamı bikef evinə qayıtdı. Elə ki, bu küy Isfahana yayıldı, hər kimin qızından, arxasından, bacısından, nəyi var idi başladı dağlara, meşələrə qaçırtmağa, ya da bir yerdə gizlətməyə. Camaat tamam əliyandıya düşmüşdü. Bilmirdi nə eləsin. Hamı qaraya boyanmışdı. Indi sizə kimdən xəbər verim, Həsən Qaranın oğlu Hüseyn Kürddən. Hüseyn Kürd on beş yaşına təzəcə çatmışdı. Amma çox «zərif, kəmxörək» bir adam idi. Hər yeyəndə bir batman düyünün xörəyini, başında da bir quzu, 17 lavaş ilə içəri ötürüb, üstündən və bir sərninc ayran içib ayağa dururdu. Başına da yeddi qoyunun dərisindən bir papaq qoyurdu. Əlində də bir ağac var idi. Başına at nalından, kavahın parçasından, aftafa qırığından o qədər vurmuşdu ki, ağırlığı yeddi batman gəlirdi, camışa bircə dəfə vursaydı, yerində qalardı. Hamı deyərdi, bəli, Hüseyn Kürd düz deyir, qatıq qaradı. Hüseyn Kürd qonşularının qızına nişanlıydı. Özü də qoyun otarırdı, çoban idi. Hər gün qoyunu sağına gətirəndə bir mahnaynan gəlib, buradan da qonşuya gedib, qız ilə görüşürdü.

Bir gün də Hüseyn Kürd genə getmişdi nişanlısının yanına söhbətə, gördü qız çox bikefdi. Qızı bağrına basıb, o üzündən, bu üzündən öpüb dedi:

- Sevgilim, düzün de görüm, niyə bikefsən?

Qız əvvəlcə istədi əhvalatı Hüseyn Kürdə bildirməsin amma olmalı, dedi:

- Hüseyn Kürd, heç darıxma, ürəyini də sıxma, allah kərimdi. Ancaq ki, qırx gündən sonra mən öləcəyəm, neynək sən sağ ol.

Hüseyn Kürd bu əhvalatı eşidən kimi dik qalxıb, acığından çomağını yerə elə vurdu ki, yer titrədi. Az qaldı ev uça, dedi:

- Bu saat de görüm, Hüseyn Kürdün sevgilisin kim öldürəcək? Onu mənə de, bu saat gedim, ona elə bir çomaq vurum ki, beyni qatıq kimi dağılsın.

Qız Hüseyn Kürdü belə görəndə qorxdu ki, əhvalatı deyə, Hüseyn Kürd də gedə Şah Abbasın yanına. Çoban adamdı, bir nalayıq söz danışa, Şah Abbas da onu öldürtdürə.

Ona görə yumşaqlıqla qalxıb Hüseyn Kürdün boynun qucaqladı, sonra dilə tutub onu oturtdu. Şah Abbasın əmrini necə ki, eşidibsiniz, başdan-başa Hüseyn Kürdə nağıl elədi. Hüseyn Kürd bunu eşidən kimi ayağa qalxıb dedi:

- And olsun allaha, o Şah Abbasdı, nədi, bu əmrin pozmasa, ona bir ağac vuracağam, özü taxtına qarışsın, taxtı da özünə.

Qız Hüseyn Kürdə yalvarıb dedi:

- Sən getmə, çoban adamsan. Qoy əvvəlcə atan getsin, əgər bir fayda verməsə, onda özün gedərsən. Indi get atanı göndər Şah Abbasın qulluğuna.

Hüseyn Kürd qızı bağrına basıb yanaqlarından bir cüt öpüş alandan sonra dedi:

- Qorxma, Şah Abbas deyil, atası da dirilib qəbirdən çıxsa, sənə heç nə eliyə bilməz. Mən ölməmişəm ki, mənim yarımı aparıb öldürələr. Evdən də heç yana tərpənmə, gizlənmək-zad lazım deyil. Mən bu saat atamı göndərəcəyəm Şah Abbasdan təvəqqe eləsin ki, arvadları qırmasın. Qəbul elədi, elədi, eləmədi, onda mən billəm ona neyləyəcəyəm. Vay onun halına...

Hüseyn Kürd qızdan ayrılıb gəldi atasının qulluğuna. Atası gördü Hüseyn Kürd çox qaşqabaqlıdı, bildi ki, əhvalatı bilib. Həsən Qara arvadına tapşırdı ki, Şah Abbasın əmrin nəbada Hüseyn Kürd eşitsin. Amma Hüseyn Kürdün üz-gözündən bildi ki, hər şeyi bilib. Üzünü oğluna tutub dedi:

- Oğul, de görüm, niyə belə qaşqabaqlısan?

Hüseyn Kürd cavab verdi:

- Ata, belə bir xəbər eşitmişəm. And olsun allaha, əgər o Şah Abbasdı, nədi, arvadları qırdırmaq istəsə, gedib ona bir toy tutacağam, anasının toyu yadına düşsün!

Həsən Qara dedi:

- Oğul, sən get işinə! Mən bu gün gedərəm şah Abbasın qulluğuna, təvəqqe elərəm, arvadları qırmasın. Əgər təvəqqemi qəbul eləməsə, ondan sonra mən də sənə köməkçi, nə bilirsən elərsən.

Hüseyn Kürd şad olub atasının əlindən öpdü. Atası da oğlunun alnından öpdü. Həsən Qara geyinib, Şah Abbasın yanına getdi. Hüseyn Kürd də çomağın atıb çiyninə üz qoydu qoyuna tərəf, yola düşdü.

Sizə kimdən xəbər verim Şah Abbasdan. Şah Abbas, vəzir, vəkili də yanında oturub, vəzir Allahverdi xanla söhbət eləyirdi. Birdən qapıçı içəri girib lazımi təzimi yerinə yetirəndən sonra ərz elədi:

- Qibleyi-aləm sağ olsun, Həsən Qara sizin hüzura gəlmək istəyir.

Qapıçı əl-əl üstə qoydu, xidmət məqamında durub cavaba müntəzir oldu. Şah Abbas Allahverdi vəzirə dedi:

- Vəzir Allahverdi xan, atam vəfat eləyəndən bəri həsən Qara bura gəlməyib, görünür vacib işi var. Həsən Qara hər şeydən ötəri gəlməz. O, atamın qoca vəziri idi, gərək lazımi hörməti yerinə yetirək.

Qapıçıya dedi:

- Izindi, xəbər ver, buyursun içəri.

Qapıçı çıxıb, Həsən Qaranı içəri daxil elədi Həsən Qara qapıdan daxil olan kimi, Şah Abbas, vəzir, vəkil, hamı əmir-üməra ayağa qalxıb, Həsən Qaraya ehtiram elədilər. Həsən Qara salam verib, Şah Abbasa lazımi ehtiramı yerinə yetirəndən sonra əl bağlayıb dayandı. Şah Abbas hörmət üçün Həsən Qaranın əlindən tutub öz yanında əyləşdirdi. Sonra hal-əhval soruşub dedi:

- Ey Həsən Qara, sən atamın yadigarısan, sənin hörmətin hamımıza vacibdi. Hər nə xahişin olsa, göz üstə, yerinə yetirərəm. Sən bizə xoş gəlibsən, səfa gətiribsən. Indi buyur, görək, nə qulluğun var? Nə üçün bu vaxta qədər bizi yaddan çıxardıbsan?

Həsən Qara dedi:

- Qibleyi-aləm sağ olsun, özün bilirsən ki, çox qocalmışam, hər yerə gedə bilmirəm. Çoxdan ürəyim istəyirdi, bir səni görəm, heç olmasa rəhmətlik atanın yadigarısan. Amma neyləyim, çox qocalmışam, xəcalətliyəm, bağışla. Indi də eşitmişəm əmr edibsən ki, gərək sənin torpağında nə qədər arvad var hamısının boynu vurulsun. Ona görə də bir təhər hüzura gəldim. Qibleyi-aləmin əgər meyli olsa, bu barədə bir neçə kəlmə söz soruşmaq istəyirəm.

Şah dedi:

- Hər nə ki, arzundu, buyura bilərsən. Mən sənə doğru cavab verərəm.

Həsən Qara dedi:

- Qibleyi-aləm sağ olsun, doğurdanmı sən bütün zənən tayfasın qırdırmaq istəyirsən?

Şah Abbas cavab verdi:

- Bəli, doğrudu. Gərək mənim qələmim işləyən yerdə zənən tayfası qalmasın.

Həsən Qara bunu eşidəndə başını aşağı salıb fikrə getdi. Bir azdan sonra başın qaldırıb dedi:

- Qibleyi-aləm sağ olsun, əgər gizlin bir şey yoxsa, mənə demək olarsa, bu işin səbəbini söylə.

Şah Abbas gülüb dedi:

- Ey Həsən Qara, bizim səndən gizlin heç bir sirrimiz ola bilməz. Sən atamın qoca vəzirisən, səndən nə gizləmək olar. Həm də burda heylə gizlənəsi şey yoxdu.

Sonra Şah Abbas boğazında xörək qalmaqdan başlayıb, dərvişlibas olub vəzir Allahverdi xanda şəhəri gəzməyə çıxmasından tutmuş, qızla əmi oğlusunun, həramilərin əhvalatın mən sizə

nağıl eləyən kimi, bütünlüyünən, hamısın Həsən Qaraya nağıl elədi. Həsən Qara bu əhvalatı eşidəndən sonra başın aşağı salıb dərin fikrə getdi sonra başını qaldırıb gülə-gülə Şah Abbasa dedi:

- Qibleyi-aləm sağ olsun, yadında varmı, filan tarixdə hər gecə rəhmətlik atanın bir vəziri yox olurdu?

Şah Abbas cavab verdi:

- Bəli, Həsən Qara, yadımdadı. Necə?

Həsən Qara genə gülüb dedi:

- Qibleyi-aləm sağ olsun, onda mənim başıma bir iş gəlib ki, heç kim indiyə qədər ondan xəbər tutmuyub. Görünür, o işi gizlin saxlamağım qəzadanmış ki, bu gün lazım olsun.

Şah Abbas təəccüb eləyib dedi:

- Həsən Qara, gərək onu bizə nağıl eləyəsən, görək, o necə işdi?

Həsən Qara baş üstə deyib başladı söhbət eləməyə:

- Şah sağ olsun, həmən tarixdə hər gecə bir vəzir yox olurdu. Bilinmirdi bu necə işdi. Nə ölüləri tapılırdı, nə də diriləri. Hamı mat qalmışdı. Tainki otuz doqquz vəzir gəldi, hamısı yox oldu, tay heç kim vəzir olmurdu. O vaxt mən rəhmətlik atanın baş vəziriydim. Hamımız qalmışdıq məəttəl, bilmirdik nə qayıraq.

Bir gecə soyunub yatmışdım, gecə yarısına yaxın birdən darvaza bərk döyüldü. O saat qapıçı gedib, əhval bilib qayıtdı ki: «ağa, səni bir şəxs darvazada istəyir». Mən o saat yerimdən qalxıb çiynimə bir şey atdım ki, çıxam qapıya, arvadım qabağımı kəsib dedi: «a kişi, sən vəzirsən, adam da qapıya belə çıxarmı? Libasını gey, sonra isbatdı çıx». Mənim ağlım kəsdi, o saat libasımı geydim. Elə mən geyinib qurtarmışdım, gördüm arvadım əlində qılınc, qalxan, gürz nə ki, dava paltarım var, hamısını gətirdi. Dedim, arvad bu nədi? Arvad acıqlanıb dedi: «a kişi, elə bu ağılla vəzirlik eləyirsən? Bəlkə qapıda duran elə düşməndi, bəlkə bir yerə gedəcəksən? Hamı ehtiyatını gör, atını min, sonra darvazadan çıx. Əgər bir şey olmaz genə qayıdarsan, paltarını çıxardarsan, allah ölümü deyil ha. Bu hamısı bir neçə dəqiqənin işidi».

Mən gördüm arvad çox kamallı söz deyir. Dava paltarımı geydim, qalxanımı qoluma keçirdim, çıxdım, gördüm arvad da atımı hazır eləyib, yəhərli, yüyənli qapıda saxlayıbdı. Mən «ya allah!» - deyib aşırıldım ata. Qapıçı darvazanı açdı, çıxdım çölə, gördüm qapıda bir oğlan ata suvar olub, başdan-ayağa kimi polada qərq olub. Deyirsən Rüstəmi-Zaldı qəbirdən çıxıb. Məni belə hazır görəndə, oğlan şad olub, ədəblə mənə salam verdi:

- Ey həsən Qara, bu gecə mənə səfərdə yoldaş olarsanmı? Əgər sən mən deyəndən çıxmasan, özün bir bəd hərəkət eləməsən, sənə söz verirəm ki, məndən sənə ziyan toxunmaz.

Mən öz könlümdə dedim ki, vəzirlərin başına nə iş gəlibsə, bundan gəlib, gərək bununla gedəm, görəm bu necə işdi. Bir də fikir elədim ki, Isfahanda mənim qabağıma çıxan bir pəhlivan yoxdu. Bu mənə neyləyə bilər? Görsəm ki, pis fikirdədi o saat boğazın quş boğazı kimi üzərəm. Üzümü o cavana tutub dedim:

- Ey cavan, mən hazıram, buyur, hara gedirsən, gedək.

Oğlan bu sözü məndən eşidəndə şad olub dedi:

- Afərin, Həsən Qara, doğurdan da sən vəzirliyə layiqsən!

Sonra atın başın döndərib bir tərəfə çapdı, mən də onun dalınca sürdüm. Bir saatdan artıq yol getdik. Bu oğlan nə qayıdıb dala baxdı, nə də mənə bir kəlmə söz dedi. Mən təəccüb elədim ki, bu oğlan necə adam olsun? Mən Həsən Qara olum, məni dala salıb gedə. Qayıdıb bir arxasına da baxmaya ki, görüm bu necə adamdı? Bəlkə mən daldan bunu öldürdüm? Bəlkə bunu birdən tutub, qollarını bağladım? Niyə bu adam bu işləri heç fikir etmir? Görünür məni adam saymır. Mən belə-belə fikirləşirdim. Axırda qəzəblənib istədim onu qəfildən vurub öldürəm, sonra lə`nət, - sənə şeytan, - deyib, fikrimi dəyişdim: - Yox, bu namərdlik olar, əvvəlcə gərək bunun fikrin biləm, sonra öldürmək hasandı.

Bir az da dinməz-söyləməz yol gedib, axırda təngə gəldim. Atı çapıb ona yanaşdım, əl atıb atının cilovundan yapışıb dedim:

- Ey oğlan, əvvəl de görüm, fikrin nədi? Məni hara aparırsan? Yoxsa mən tay getməyəcəyəm, özü də sənin də işin yaxşı olmayacaq.

Oğlan heç mənə e`tina etməyib, cilovu çəkib əlimdən aldı, atı sürə-sürə gülüb dedi:

- Ey Həsən Qara, mənim zənnimi itirmə, hayıf ki, səbrin iyitliyinə görə deyil. Bir də ürəyinə ayrı fikir gəlməsin. Mənim sənnən heç bir düşmənçiliyim yoxdu. Bir gecəliyə mənə söz vermisən, sözünün üstə də dur, mənə yoldaşlıq elə! Kişi sözündən qaçmaz, əgər belə qorxacaqdınsa, söz verməyəydin, mən də özümə ayrı bir yoldaş tapaydım.

Bunun bu sözlərindən əvvəlcə utandım. Sonra fikirləşdim ki, bu kimdi ki, mən Həsən Qara olam, hələ bundan da qorxam. O saat ata hey verib onun üstünə atıldım. Qışqırdım ki, ey dilavər, sən kimsən ki, səndən qorxam, yazıq sənə, dilin başına bəla gətirdi, al gəldim. Qılıncı çəkib, ata ildırım kimi onun üstünə saldım. Oğlan bu halı məndə görən kimi atı qəfildən saxladı. Qılınc göydəykən biləyimdən yapışıb mənə elə şillə çəkdi ki, ağlım başımdan gedib tappıltıynan atdan yerə düşdüm. Bilmirəm nə qədər üstən keçib, bir vaxt ayılıb gördüm ki, atlar otluyur, oğlan da üzümə su töküb məni ayıldır. Mənim ayıldığımı görən kimi şad olub dedi:

- Həsən Qara, sənə bihürmətlik elədim. Məni bağışla, səndən başqa hər kim olsa öldürərdim. Amma doğrudan da sən igid imişsən, ona görə də mən səni bağışlayıram. Amma bir də belə iş eləmiyəsən. Mən əvvəldən sənə demişəm, genə də deyirəm. Sənin haqqında yaxşılıqdan başqa bir fikrim yoxdu. Dur atını min, vaxt keçir, gedək.

Durub atımı mindim. Bu oğlan da atlanıb genə düşdü yola. Bu qabaxca, mən də bunun dalınca suyu süzülmüş qarı kimi gedirdim. Öz-özümə fikirləşirdim ki, adə, bu necə işdi mənim başıma gəldi? Bununla heç kəs bacarmaz.

Amma bu oğlan aramızda guya heç bir şey olmamış kimi, kefdə idi, heç dalına da baxmırdı. Dinməz-söyləməz atın sürüb gedirdi. Bir az yol gedəndən sonra allah şeytana lə`nət eləsin, başladım genə vəsvəsəyə. Tay qılınc çəkməkdən qorxub, qəfildən ortasından qucaqlayıb, iki qolundan bərk-bərk tutdum. Oğlan qayıdıb mənə baxdı, sonra yumşaq səs ilə dedi:

- Həsən Qara, fikrin nədi?

Cavab verdim:

- Fikrim səni tutub qolunu bağlamaq. Sonra geri qaytarmaq. Görüm bu necə sirrdi. Sən kimsən ki, bu şücaətdəsən. Mən elə bilirəm ki, bizim vəzirlərin hamısını qıran sənsən. Əgər iş belə olsa, öldürüb cəzanı verəcəyəm.

Oğlan dinməzcə sözlərimə qulaq asıb, axırda gülüb dedi:

- Həsən Qara, sən elə bu ağıl ilə vəzirlik eləyirsən? Əgər məni heylə asan tutmaq olsaydı, mən sənin qabağına düşməzdim. Qolumu burax, özünə zəhmət vermə. Amma sən doğru bilibsən, sizin vəzirlərin hamısın mən qırmışam. Çünki onlar ölməyə layiq idilər.

Mən bu sözləri oğlandan eşidən kimi qəzəblənib, onun qollarını lap bərk tutub dedim:

- Məni aldada bilməzsən, indi tay sənə nicat vermərəm.

Oğlan bu sözləri eşidən kimi qolun elə dartdı ki, az qaldı biləklərim yerindən qopsun, qollarım boşaldı. Oğlan əlimdən çıxıb atını sıçratdı irəli, əl atıb kəmərimdən yapışdı, məni uşaq kimi atın üstündən götürüb qalxızdı başına. Tay mən ölümümü yəqin eləyib, kəlməyi-şəhadətimi deyirdim. Amma oğlan məni yerə vurmayıb genə qoydu atımın belinə. Üzün mənə tutub dedi:

- Həsən Qara, bu dəfə də səni bağışladım. Ancaq bu şərtlə ki, and olsun allaha, bir də səndən bir pis iş baş versə, tay aman yoxdu.

Mən razı olub düşdüm bu oğlanın dalınca, ancaq qorxumdan tay heç bir şey fikirləşmirdim. Bir qədər yol gedəndən sonra gəlib çıxdıq bir meşənin kənarına. Oğlan atın başın çəkib durdu. Elə ki, ona çatdım, üzünü tutub mənə dedi:

- Ey Həsən Qara, indi dalımca gəl! Sənə vəzirləri görsədim.

Genə düşdü qabağa mən də dalınca. Yoldan buruldu meşənin içinə, başladı bir tərəfə getməyə. Bir qədər getdik, bir açıqlığa çıxdıq. Gördüm nə?.. Vəzirlərin otuz doqquzunun da burda başı kəsilib. Hamısının da əynində bir dizlik, bir köynəkdən başqa heç nə yoxdu. Mən bunları belə

görəndə öz ürəyimdə dedim, vay, evi yıxılan canım, elə bu hərami imiş! Məni də soyub belə öldürəcək. Başladım udqunmağa.

Oğlan arif idi, mənim fikrimi o saat anlayıb dedi:

- Həsən Qara, ağlına ayrı şey gəlməsin, mənə dünya malı lazım deyil. Mənim bir düşmənim var, ondan intiqam almağa gedirəm. Mənə bir yoldaş lazım idi ki, mən düşmanımı öldürüncə kənarda durub məni gözləsin. Ona görə də mən fikirləşib öz ürəyimdə dedim: - Hər halda şahın vəzirləri ağıllı və qoçaq adamlar olar. Gedim onları götürüm. Hər kəsin gecə qapısını döydüm, bax, burda gördüyün kimi, tumanpaça, bir köynəknən mənim qabağıma çıxdılar. Mən də bildim ki, bunlarda nə tədbir, nə də ağıl var. Qanacaqları, şücaətləri də yoxdu. Tay düşman dalınca da getmirdim. Bu meşədə gizlənib hər gecə bir vəziri çağırdım. Hamısı mənim qabağıma lüt çıxdılar, mən də gətirib burda öldürdüm. Belə-belə otuz doqquzun öldürdüm. Tainki axırda gəlib səni çağırdım. Amma sən mənim qabağıma arvad kimi çıxmadın. O saat bildim ki, əsil vəzir sənsən. Ona görə də səni öldürmədim. Indi düş atdan, bir az çörəkdən-zaddan yeyək, dincələk, ondan sonra düşək yola. Inşallah, səhər tezdən düşmanım olan yerə çatarıq.

Atları çəkib meşənin bir tərəfində saxladıq, özümüz də bir yerdə əyləşdik. Oğlan üzün tutub mənə dedi:

- Həsən Qara, sən ocaq yandır. Mən günüzdən ov eləyib gizləmişəm, onu gətirim, kabab eləyib yeyək.

Mən başladım ocaq qalamağa, oğlan da üz qoydu meşənin bir tərəfinə getdi. Bir az keçdi, gördüm budu oğlan bir maral gətirir. Meşənin çubuxlarından qırıb, bu maralı kabab eləyib yedik. Oğlan dedi:

- Həsən Qara, mən sabah böyük bir düşmanla dava eləyəcəyəm. Özüm də qırx gündü yuxusuzam. Indi sən bir az gözlə, mən yatım. Qurd-quş atları yeyər, gözdən qoyma. Bir şey olsa, o saat məni oyat. Özü də sabaha iki saat qalmış məni oyadarsan.

Oğlan qalxanı qoyub başının altına yatdı. Mən gözlədim, səhərə iki saat qalmış oğlanı durquzdum. Ikimiz də atımızı minib meşədən çıxdıq. Düşdük yolun ağzına. Az getdik, çox getdik, dərə, təpə, düz getdik, gün çıxınca yol gedib, çıxdıq bir təllin başına.

Bu oğlan cilovu çəkib durdu, üzün mənə tutub dedi:

Ey Həsən Qara, tay sənin yoldaşlığın bəsdi. Mən sənnən çox razıyam. Indi sən düş burda atları gözlə. Bax, qalaça ki, görürsən, mənim düşmanım o qalaçadadı. Mən gedəcəyəm o qalaçaya davaya. Düşmanımı öldürəcəyəm, ya da özüm öləcəyəm. Sənlə şərtim budu: elə ki bir nə`rə eşitdin, bil ki, düşmanımı tapmışam. Ikinci nə`rəmdə bil ki, tutaşmışıq. Günortaya qədər gözlərsən, gördün üçüncü nə`rə gəlmədi, bil ki, mən ölmüşəm. Onda mənim atımı da götürüb qaçarsan. Bax, bu atın tərkindəki də tamam lə`l-cavahiratdı. Onları da bağışlayıram sənə. Ananın südü kimi halalın olsun, götürüb gedərsən. Bax, dediklərimə əməl edərsən. Nəbada mənim dalımca gələsən. O düşmən elə bir mə`lundu ki, ona gücün çatmaz. Sən çalış başını götür, qaç.

Mən oğlanın üzün görməmişdim. Indi gün işığında baxıb gördüm nə, bu elə bir oğlandı ki, yemə, içmə, xətti-xalına, gül-cəmalına tamaşa elə. Hələ bığ yeri tərləməyib, on altı, on yeddi yaşında bir oğlandı.

Oğlana hayıfım gəlib dedi:

- Oğul, mən səni heç vaxt o məl`unun yanına tək buraxmaram, ikimiz də gedərik, ölərik bir yerdə ölərik, qalarıqsa, genə bir yerdə qayıdarıq.

Oğlan gülüb dedi:

- Ey Həsən Qara, allah səndən razı olsun, bu heç vaxt mümkün deyil. Mən əhd eləmişəm, düşmanımı tək öldürəcəyəm. Bir də mən sənlə bir gecəlik səfər yoldaşlığını şərt qoymuşam. O şərti də pozmaram.

Qibleyi-aləm sağ olsun, mən nə qədər çox dedim, oğlan o qədər az eşitdi. Axırda əlacım kəsilib razı oldum. Oğlan üz qoydu qalaçaya tərəf getməyə. Mən də oturub onu gözləməyə başladım.

Oğlan gedəndən bir saat yarım keçmişdi. Bir də gördüm elə bir nə`rə gəldi ki, dağ-daş hamısı titrədi. Bildim ki, oğlan düşmanın tapdı. Bir az keçdi, ikinci nə`rə ondan qüvvəli gəldi. Bildim ki, oğlan düşmanı ilə tutaşdı. Mən təzədən üz torpağa qoyub, başladım zar-zar ağlamağa. O qədər ağladım ki, günortaya yaxınlaşdı. Bir də gördüm bir nə`rə səsi də gəldi. Bildim ki, oğlan düşmanını öldürdü. Şad olub yerimdən qalxdım. Şükür-səna eləyib baxırdım, gördüm qalaçanın başından qanlı bir baş atdılar. Dalınca da oğlan kəmənd ilə qalaçadan endi. Başı da götürüb gəldi mənim yanıma. Baxdım gördüm bu elə nər div daşıdı ki, buynuzları çinar ağacı kimi, qulaqları palaz kimi. Mən heyran qalmışdım. Bilmirdim nə deyim. Axırda özümü toxdadıb, oğlana gözaydınlığı verdim. Hər ikimiz atları mindik. Yavaş-yavaş qayıtdıq geri. Bir qədər yol gəlmişdik, bir dağın ətəyində oğlan atı saxladı. Atdan düşüb üzün mənə tutub dedi:

- Ey Həsən Qara, allah səndən razı olsun. Indi tay biz ayrılmalıyıq. Bax, genə də həmən bu ata və lə`l-cavahiratı bağışlayıram sənə. Çıx get, allah sənə yaxşı yol versin!

Mən dedim:

- Oğlum, əvvəla, mənə at, pul lazım deyil. Ikinci, mən heç vaxt səndən ayrılmaram.

Oğlan dedi:

- Ey Həsən Qara, bu tay mənim mənzilimdi, mənə at lazım deyil. Ikinci, biz bir yerdə ola bilmərik. Mənim özümə görə bir fikrim var. Bu ata dövləti sənə yadigar verirəm.

Qibleyi-aləm, nə qədər elədim, gördüm mümkün olmayacaq. Bildim ki, bu oğlanda bir sirr var, öz ürəyimdə fikirləşdim ki, gərək bu sirri öyrənəm. Atı oğlandan alıb xudahafizləşdim. Düşdüm yola getməyə. Oğlan da başladı dağa tərəf çıxmağa. Mən bir az gedib dayandım. Gözlədim, oğlan gözdən itən kimi, atları bir səfalı yerdə bağladım, özüm qayıtdım oğlandan ayrıldığım yerə. Elə ki, həmən yerə çatdım, başladım oğlan hansı tərəfə getmişsə, mən də o tərəfə getməyə.

Çox ehtiyatlı tərpənirdim ki, oğlan məni görməsin. Axırda oğlanı görüb əyilə-əyilə düşdüm dalınca. O getdi, mən getdim, axırda gəlib çıxdıq dağın döşündə bir açıqlığa. Gördüm bura basəfa bir yerdi. Sular şırhaşır hər tərəfdən axır, bülbüllər cəh-cəh vurur, güllər pəh-pəh verir. Vallah bir yerdi, deyirsən cənnətin bir guşəsidi. Dünyada nə qədər gül, çiçək varsa, hamısından burda var.

Çəmənliyin gözəl bir yerində, gördüm, qalaça kimi bir yer var. Oğlan başladı qalaçaya tərəf getməyə. Mən bildim ki, əgər mən də açıqlığa çıxsam, oğlan məni görəcək, onda bütün əməyim zaya gedəcək. Ona görə bir ağacın dalında gizləndim. Gördüm, oğlan elə ki, qalaçaya çatdı, dayanıb dörd tərəfə nəzər saldı. Gördü heç kəs yoxdu, devin başın əvvəlcə qalaçanın divarından atdı içəri. Belindən kəməndi açıb atdı qalaçanın başına, təkan verib gördü kəmənd möhkəm bənd olub. Əl atıb yapışdı, kəmənddən tuta-tuta dırmaşdı divarın başına. Divarın başına çatandan sonra genə kəmənddən tuta-tuta endi qalaçaya.

Qibleyi-aləm sağ olsun, oğlan qalaçaya enən kimi, mən gizləndiyim yerdən çıxdım, yavaş-yavaş özümü yetirdim qalaçaya, kəməndi belimdən açıb, atdım divarın başına, bənd oldu divara. O saat allah səndən mədəd, deyib qalxdım barının üstünə. Qalaçanın içinə baxıb gördüm heç kəs yoxdu. Amma qalaçanın ortasında bir günbəz var. Bildim ki, oğlan həmən günbəzdədi. Mən də kəmənddən tutub endim qalaçaya. Günbəzə yaxınlaşıb, gördüm, içəridən həzin-həzin ağlamaq səsi gəlir. Günbəzin qapısının bir tərəfində gizlənib başladım pusmağa. Gördüm ki, burda bir qəbir var, tamam tutublar daş-qaşa. Belə ki, günbəzin içi par-par parıldayır, elə bil alışıb yanır. Oğlan oturub qəbirin baş tərəfində devin də başını atıb ayaq tərəfinə. Ağlaya-ağlaya deyir: - Əmi oğlu, arxayın ol, sənin qanlını öldürdüm. Tay dünyada mənim heç bir qəmim yoxdu.

- Qibleyi-aləm sağ olsun, sənə nə baş ağrısı verim, oğlan o qədər ağladı, ağladı, yoruldu. Ondan sonra durub qılıncı sivirdi, dəstəsini qoydu qəbrin üstünə, kəlmeyi-şəhadətin söyləyəndən sonra dedi:

- Əmi oğlu, səndən sonra yaşamaq mənə haramdı. Arxayın ol, bivəfa deyiləm. Mən də sənin dalınca gəlirəm, mən sənin intiqamını almaq üçün yaşayırdım. Çox şükür, bu gün düşmanımı öldürdüm. Tay mənə dirilik lazım deyil.

- Qibleyi-aləm sağ olsun, istədi oğlan yıxılsın qılıncın üstünə, mən özümü atdım içəri, bir əlimlə oğlanı kənara çəkdim. O biri əlimlə də qılıncı itələdim, düşdü qəbirin o tərəfinə. Oğlan dartındı ki, əlimdən çıxsın, dəbilqəsi başından düşdü. Dəbilqə başından düşən kimi, bulut kimi zülflər tökülüb kürəyinin ortasın doldurdu. Görəm nə? Bu oğlan deyil, bir qızmış! Mən donub yerimdə qaldım, qız da çaşıb bilmirdi neyləsin. Axırda qız dedi:

- Ey Həsən Qara, sən gərək məni pusmayaydın. Mənim bu sirrimi istəmirdim heç kim bilsin. Bu qədər ki, mən yaşamışam, hələ bir kəs bilmirdi ki, mən qızam, yoxsa oğlanam. Indi bircə sən mənim sirrimi bildin. Əgər sən məni pusmasaydın, indi mən özümü öldürüb, bir yolluq bu dərdqəmdən azad olardım. Amma neyləyək?.. Mənim də qismətim belə imiş. Ey Həsən Qara, bil və agah ol ki, mən Hələb padşahının qızıyam, adıma da Günəş xatun deyərlər. Bu qəbir ki, görürsən, bu mənim əmim oğlunun qəbridi. Biz bir birimizi sevirdik. Atam məni vermişdi həmən bu əmim oğluna. Birinci gələn günü oğlan mənim gərdəgimə daxil oldu, gecə söhbət edirdik. Birdən qapıda səs gəldi. Əmim oğlu tələsik qapıya çıxdı. O çıxmaqdı ki, daha gəlmədi. Elə ki, sabah oldu, gördüm ki, qapıda öldürüb başını da aparıblar. Əmim oğlunun atasından xəbər aldım ki, bu nə işdi? Dedi: Isfahan şəhərinin kənarında bir qalaça var. O qalaçada yeddi nəfər hərami var. O həramilər mənim oğlumun düşmanıdırlar. Oğlan dişarı çıxanda səndən utanıb heç bir kəsi çağırmayıb, odu ki, düşman fürsəti qənimət bilib öldürüb.

Mən dedim:

- Hərgah belə olsa, əmim oğlunun başı o qalaçada olar.

Bir dəst mərdanə libas geyib bir gecə qalaçaya varid oldum. Bir qədər gəzdikdən sonra oğlanın başını burda tapıb, evə gətirdim. Oğlanı dəfn etdik. Mən and-yad etdim ki, ya gərək mən də öləm, ya bu həramiləri məhv edəm. Bir dəst mərdana libas geyinib, qılınc, qalxan götürdüm. Bir yaxşı yoldaş axtarırdım ki, onu yanımla götürəm, düşmanımı öldürəm, sonra özümü öldürəm. Nakam əmim oğlusuz mən yaşamaq istəmirəm. Bu gecə gəlib səni özümə yoldaş gətirib düşmanımı öldürdüm. Bununla muradıma çatdım.

Mən dedim:

- Günəş xatun, yaxşı, düşmanını məhv etdin. Daha özünü niyə həlak edirsən? Hərgah razı olsan, səni alaram.

Qız bir qədər fikirdən sonra dedi:

- Razıyam! Qismətim belə gətirib.

Mən yeddi gün, yeddi gecə toy edib, həmin qızı aldım.

Indi, şah sağ olsun, dünyada elə pis arvadlar varsa, belə namuslu, iyit, qeyrətli arvadlar da var. Odur ki, əxlaqsız arvadın ucundan Isfahan kimi şəhərin bütün arvadlarını qırmaq olmaz.

Şah oğlu Şah Abbas, Həsən Qaranın bu hekayəsinə mərhəba deyib, arvadları öldürmək fikrindən əl çəkdi.

I B R A H I M

Biri var idi, biri yox idi, Əhməd ilə Məhəmməd adlı iki qardaş var idi. Bu qardaşların ikisi də tacir idilər. Ticarətdə daha bu şəhərdə elə bir adam yox idi ki, onların əlinin qabağına əl qoya. Bütün bazarı dəstələyib almışdılar əllərinə. Ticarətləri günü-gündən böyüyürdü. Daha elə olmuşdular ki, dövlətləri yer batırırdı. Buna görə də heç bir qüssələri, qəmləri, dərdləri yox idi, amma ki, heç birisinin övladı olmurdu. Ona görə də dar dünyada özlərindən sonra bir vərəsə qoyub getmək üçün gündə bir arvad alırdılar. Iki qardaşın ikisinin də adı olmuşdu arvad çodarı, amma neyləsinlər ki, yenə də uşaqları olmurdu ki, olmurdu.

Günlərin bir günündə Məhəmməd öz dərdinin çoxluğundan evdə oturmayıb durub gəldi qardaşının yanına. Qardaşı gördü ki, Məhəmmədin halı pərişandı. Soruşdu ki:

- Qardaş, nə olub, yenə qəm dəryasına qərq olubsan? Ticarətində nə əskiklik var?

Məhəmməd bir ah çəkib dedi:

- Qardaş, ticarətdən heç bir əskikliyim yoxdu.

Əhməd məsələni başa düşdü. O da bu dərddə idi, bu da o dərddə idi. Əhmədi də fikir götürdü. Durdular iki qardaş atları yəhərləyib, dedilər gedək bir qədər gəşt eyləyək, ta ki bəlkə bir fikrimiz dağıla.

Atları minib düşdülər yola. Bir qədər gedib şəhərdən çıxdılar. Gəzib-gəzib axırda gəlib bir bulağın başında düşdülər. Dedilər ki, bir az rahatlanıb əl-üzümüzü yuyub gedək.

Elə Məhəmməd bir ovuc su götürdü, Əhməd də bir ovuc su götürəndə bulağın gözündən bir dənə qıpqırmızı alma çıxdı. Əhməd tez almanı tutdu. Göz gəzdirdilər ətrafa ki, görsünlər bu alma haradandı, bu yaxınlarda harada alma ağacı var, baxdılar ki, göz işlədikcə bir dənə dingələn də yoxdu. Bəs bu alma görəsən haradan düşüb? Iki qardaşı böht apardı. Çox fikirdən sonra Əhməd dedi:

- Qardaş, hər nə deyirsən de, bu almada bizim bəxtimiz var. Daha taleyimiz bu alma ilə açılacaq. Gəl bu almanı yarı bölək, yarısını özün ye, yarısını da mənə ver, görək aqibət nə olar.

Qardaşlar durub atların minib yol elədilər şəhərə. Gəlib çatdılar bir danənişan bıçaq ilə bu almanı tən dörd yerə böldülər. Ikisini Məhəmməd öz arvadı ilə yedi, ikisini də Əhməd öz arvadı ilə. Ürəklərinin sidqini almaya bağlayıb yatdılar.

Gün keçdi, ay dolandı, vaxt gəlib çatdı doqquz aya. Əhmədin bir dənə oğlu, Məhəmmədin bir dənə qızı oldu. Iki qardaş bir qonaqlıq düzəldib bütün şəhərin əhalisini çağırdılar. Elə oradaca qız ilə oğlanı bir-birinə göbəkkəsmə elədilər.

Bəli, müəllimlər tutuldu, uşaqlar verildi tərbiyə olunmağa. Bu minvalnan bunlar düz beş il bir yerdə ömür sürdülər.

Günlərin bir günündə Əhməd naxoşladı. Həkim, dərman heç bir şey əlac eləmədi. Əhməd ömrünü bağışladı öz oğlu Ibrahimə.

Əhməd öləndən sonra Məhəmməd köçüb getdi ayrı şəhərə ki, daha mən burada qala bilmərəm. Mən onun dükanına belə baxa bilmərəm.

Qərəz Məhəmməd köç-külfətin də yığışdırıb satmalısın satdı, almalısın aldı, götürdü getdi lap uzaq şəhərlərin birində dükan açıb başladı ticarətə. O, orada ticarətində olsun, sənə kimdən deyim, Əhmədin zənənindən.

Elə ki əri öldü, bütün mal-dövlət hamısı qaldı buna, daha camaat buna göz verdi, işıq vermədi. Gündə qapını döyüb elçilər gəlib bunu istədilər. Amma zənən nəcib bir zənən idi. Heç kəsə ərə getməyib başladı oğlunu böyütməyə. Bu minval ilə Ibrahim böyüyüb çatdı on səkkiz yaşına. Amma bir oğlan olmuşdu, bir oğlan olmuşdu ki, daha yemə, içmə xətti-xalına, gül camalına tamaşa elə! Gözəllikdə misl-Yusif, qüvvətdə, biləkdə də misl-Rüstəm bir oğlan olmuşdu. Özü də dərrakəli bir cavan idi. Elə ki, yaşını çatdırdı on səkkizə, anası ona pul verib bir dükan açdı, qoydu iş üstünə. De bir gün, iki gün, bir ay, iki ay, bir il, iki il Ibrahim günü-gündən ticarətinə ronəq verib böyük bir tacir oldu. Yavaş-yavaş başladı atasının yolu ilə getməyə. Heç kəs onun qabağında dura bilmədi. Elə ki, anası gördü iş belədi, atasından qalan bütün qızılları verdi ona. Günlərin bir günündə anası ona dedi:

- Bala, sənin filan şəhərdə bir əmin qızı var, özü də sənin göbəkkəsməndi. Tay böyüyüb əməlli-başlı kişi olubsan. Gəl get əminin yanına, nişanlını götür gəl!

Bəli, oğlan çoxlu mal aldı, yükünü tutdu, günlərin bir günündə bir karvana qoşulub yola rəvan oldu. Anası da bir namə yazıb verdi ki, versin əmisinə. Di günə bir mənzil, təyyi-mənazil, çox getdilər az dayandılar, az getdilər çox dayandılar, gəlib axırda çıxdılar o şəhərə ki, əmisi Məhəmməd orada sükunət eləmişdi. Ibrahim başladı soraq eləməyə ki, bəs tacir Məhəmmədin dükanı hardadı? Axtarıb tapdı, girdi içəri, anasının verdiyi naməni verdi əmisinə, özü də kəmal-ədəb ilə dayandı hüzurunda. Məhəmməd naməni oxudu, başını qalxızıb Ibrahimə gözləri sataşcaq gözlərindən yaş töküldü. De əmi qardaşoğlu oldular qolboyun. Ibrahim əyləşdi. Bir az söhbətdən sonra Ibrahim dedi ki, elə gəlib onu görməyə, bir də ki, bir az mal gətirib xırıd eləməyə. Amma ikinci namə ki, anası yazmışdı qızdan ötrü, onu hələ əmisinə verməmişdi. Əmisi tez qalxdı ayağa, gəldilər meydana, tökdülər malları ortalığa, əyləşdilər xırıda. Bir neçə saatın içində bütün malları satıb qurtardılar, axşam gəldilər evə. Məhəmmədin zənəni gəlib Ibrahimi öz balası kimi bağrına

basdı, başladı duz kimi yalamağa. Şam yeyildi, çay içildi, elə ki, yatmaq məqamı gəldi, Ibrahim çıxardıb cibindən ikinci naməni də verdi əmisinə. Əmisi naməni oxudu, sonra Ibrahimin üzünə baxıb dedi:

- Bala, doğrudu siz göbəkkəsməsiniz. Ancaq elə səni görəndən mən bu barədə fikirləşirəm, bilmirəm nə təhər eləyim. Bu barədə mən rəhmətlik qardaşımdan bədbəxt olmuşam. Mənim qızım sənə layiq qız deyil.

Ibrahim fikirləşdi ki, yəqin bu qızı mənə verməк istəmir, dedi:

- Əmi, niyə?

Məhəmməd dedi:

- Bala, mənim qızımın bir gözü kor, bir qıçı topal, özü də ki, keçəl, çopur bir qızdı. Sənin kimin, gözəl, dərrakəli oğlana onu layiq görmürəm. Şəhərdə çox-çox gözəl-gözəl qızlar var. Bax, bəyən, seç, hansını istəyirsən alım sənin üçün.

Ibrahim bir az fikrə cumub dedi:

- Yox əmi, sənin qızın mənim baxtımdı. Baxtım hər nədirsə, onu da mən alacağam. Mənə ayrı qız lazım deyil.

Məhəmməd çox dedi, Ibrahim az eşitdi, axırda çar-naçar Məhəmməd razı olub bina qoydular toy tədarükünə. Ancaq Ibrahim şərt qoydu ki, mən aparıb anamın yanında toy eləyəcəyəm ki, o da öz arzusunu görsün.

Bəli, vur çatdasın, çal oynasın, yeddi gün, yeddi gecə toy eləyib axırıncı gün Ibrahimi gətirib qatdılar qızın otağına. Ibrahim girdi içəri, gördü vallah burada bir qız oturub ki, elə bil on beş gecəlik aydı. Elə işi belə görcək düz qayıtdı geri. Xəbər getdi əmisinə ki, Ibrahim qızın yanından çıxıb getdi öz otağına.

Əmisi gəldi:

- Bala, nə olub?

Ibrahim dedi?

- Əmi, bu nə işdi ki, sən görürsən? Mən sənə dedim ki, mənə ayrı qız-zad lazım deyil. Öz əmimin çopur, kor qızı mənə padşah qızından da yaxşıdı.

Əmisi gülüb dedi:

- Bala, mən səni qəsdən imtahana çəkmək istəyirdim. O elə sənin öz əmin qızıdı ki, var. Mən qəsdən elə deyirdim ki, görüm sən nə deyirsən.

Sən demə əmisi doğrudan da Ibrahimi imtahana çəkmək istəyirmiş ki, görsün Ibrahim nə deyəcək. Ibrahim işi bilib tay söyündüyündən bilmədi neyləsin... Elə bil ki, anasından elə bu gün olub. Durub gəldi qızın yanına. Qol-boyun olub bütün gecəni beləcə səhər elədilər. Səhər Ibrahim durub getdi bazara. Yenə də ipək, qumaş alıb, yükünü öz şəhərlərində yaxşı xırıda gedən şeylərlə bağlayıb, bir dəvənin üstündə də bir kəcavə bina eləyib, əmisi qızını qoydu içinə, əmisilə, əmisi arvadı ilə vidalaşıb düzəldi yola.

Məhəmməd Ibrahimi bağrına basıb görüşəndən sonra belindən bir toqqa açıb verdi Ibrahimə, dedi:

- Bala, bu toqqanı belindən açmazsan.

Ibrahim toqqanı alıb belinə bağlayıb axırıncı dəfə onunla görüşüb düşdü yola. Gəlhagəl, qaranlıq qovuşanda gəlib çıxdılar bir bulağın başına. Qəflə-qatırın yükünü açıb gecəni burada keçirməli oldular. Hamı yatdı, amma Ibrahimin gözlərinə yuxu getmədi. Axırda durub geyinib çadırından çıxdı bayıra, başladı düşərgahı gəzməyə. Ay batmışdı, amma Ibrahim baxıb gördü ki, ədə, bu hara gedirsə, ora işıqlanır. Qaldı məəttəl ki, görəsən bu nə sirri-ilahidi. Çox fikirdən sonra bir də baxdı ki, bu işıq bunun belindəki toqqadan düşür. Indi toqqanın sirrini başa düşdü. Yavaşca üstdəki paltarının qabağını bir az açdı, elə bil ki, bütün buralar oldu çıraqban. Elə bu dəmdə idi ki, bir də gördü yer titrədi, göy guruldadı bir nərilti gəldi, bir nərilti gəldi ki, Ibrahimin başının tükləri durdu biz-biz. Belə baxanda bir də gördü vallah bir div gəlir, bir div gəlir, day nə deyim... Ibrahim tez əlini-ayağını yığışdırıb özünü verdi bir çinar ağacı var idi, onun dibinə, qılıncını çəkib saxladı əlində hazır. Div buna yanaşıb dedi:

- Ibrahim, anan sənin matəmində əyləşsin, bəs sən mənim toqqamı oğurlamısan. Mən neçə ildi ki, gəzirəm.

Div Ibrahimi halaylayıb tutdu çiyinlərindən, vurdu oyana, bu yana. Ibrahim bunun əlindən bir təhər ki, özünü qurtarıb atdı bir tərəfə, qılıncı qalxızıb şığıdı buna, div yıxıldı yerə, cəhənnəmə vasil oldu. Ibrahim tez çinar ağacının dibindən çıxıb onun başını bədənindən cida elədi. Sonra bir quyu qazıb başını da, bədənini də sürütdüyüb saldı ora. Qanı-zadı da təmizləyib, süpürdü ki, heç bir əsər qalmasın.

Elə ki, bu işdən fariq oldu, əlini-ayağını bulaqda yuyub üz qoydu əmisi qızının kəcavəsinə. Gəlib gördü ki, əmisi qızı oturub bunu gözləyir. Iki yar-mehriban sübh açılanacan əyləşdilər şirin-şirin söhbətə. Ta sübh açılanda Ibrahim durub kəcavədən çıxdı, əmr elədi nökər-nayib qəflə-qatırı yüklədi, yenə düzəldilər yola. Gəlhagəl, gəlib axırda iki-üç gündən sonra çatdılar bir bulağın başına. Ibrahim gördü ki, atlar, dəvələr lap əldən düşüb. Əmr elədi ki, qəflə-qatırın yükünü açsınlar, bu gecəni burada keçirəcəklər. Bəli, yenə də o gecəki kimi hamı yatıb yuxuya gedəndən sonra, Ibrahimin gözü o biri gecədən qorxduğuna görə ki, gəlib birdən əmisi qızını apararlar, durub başladı düşərgənin ətrafını gəzməyə. Elə həmin gecənin vaxtı idi, bir də gördü ki, yer, göy titrədi, budu bir div gəlir, özünün də üç başı. Ibrahim hən-hün eləyib ona hücum eləyənəcən div yüyürüb tutdu onun çiyinlərindən, əlindəki qılıncı da vurub saldı yerə. Bir nə`rə vurdu ki: - Anan matəmində əyləşsin, görünür sənin ölüm şərbətin mənim əlimdə imiş. Mənim qardaşımın əvəzində gərək sənin ətini aşıqcan eləyəm, qanını qaşıqcan.

Küştü başlandı. Səhərə yaxın Ibrahim bir təhər divi yıxdı yeri. Əl atıb tez qılıncı yerdən götürdü, bir dənə çaldı onun boynuna, başının üçü də düşdü yerə. Kötürüb bunu da tez pünhan eləyib, arxayın gəldi əmisi qızının yanına.

Yenə gecəni burada səhər eləyib səhərnən düşdülər yola. Gəlib çatdılar öz şəhərlərinin bir neçə ağaclığına. Yenə bir bulağın başında düşüb, düşərgə elədilər. Ibrahim öz-özünə dedi: əgər bu gecəni də bir təhər sabaha çıxarda bilsəm, daha bir şey olmaz. Yenə hamı yatandan sonra Ibrahim başladı gəzməyə. Ta sübhə bir az qalanacan gəzdi. Gördü yox, heç bir şey yoxdu. Bir az da gözlədi. Gördü yox, daha vaxt keçdi, gələn olmadı, arxayınlaşıb üz qoydu bulağa tərəf ki, bir yuyunub getsin əmisi qızının yanına. Gəlib çatdı bulağın başına. Paltarını soyunub qoydu bir tərəfə, toqqanı da çıxarıb qoydu bir tərəfə ki, işıq olsun, girdi bulağa. Birdən deyəsən qulağına bir səs gəldi. Tələm-tələsik sudan başını qaldırıb gördü ki, bir quş toqqanı caynağına vurub qalxdı göyə. Ibrahim tez çıxıb paltarını tələm-tələsik geyib düşdü quşun altıynan qaçmağa. Quş uçdu, o qaçdı, quş uçdu, o qaçdı, Ibrahim axırda quşu gözdən itirdi. Baxdı ki, səhər açılır, gün yavaş-yavaş çıxır, üzüqoylu yıxılıb başladı fikirləşməyə. Ey dadi-bidad, gecələr divlər ilə boğuş, toqqa saxla, axırda bir quş onu sənin əlindən alıb aparsın. Indi mən nə üzlə qayıdım qızın yanına.

Başını qaldırıb gördü ki, bu bir şəhərin yanındadı. Durub üz qoydu şəhərə ki, gedib görüm başıma nə gəlir?

Bu getməkdə olsun mən deyim, sən də eşit qızdan.

Qız ha gözlədi ki, indi Ibrahim gələr, bu saat Ibrahim gələr, gördü yox, Ibrahim deyəsən heç burda yoxmuş. Axırda ürəyi dağdağaya düşdü. Tab gətirə bilməyib durdu başladı Ibrahimi axtarmağa. Əvvəl-əvvəl getdi onun çadırına. Baxıb gördü ki, Ibrahim burda yoxdu. Bir düşərgəni gəşt elədi, gördü yoxdu, öz-özünə dedi: görəsən bunun başına nə iş gəldi. Elə bu fikri eləyə-eləyə gəlib çatdı bulağın kənarına. Nə gördü? Ibrahimin çəkmələri, papağı burdadı. Tez bunları götürdü, diqqətlə baxıb gördü ki, Ibrahimin ləpiri gedib düz çöllü-biyabana, bildi ki, onun başına bir iş gəlib. Qız başladı fikir eləməyə ki, eyhana, bu adamlar bilsə ki, Ibrahim yoxdu, mən burda təkəm, görəsən başıma nə gələr? Çox fikirdən sonra tez Ibrahimin çadırına qayıtdı. Onun yükünü açıb paltarlarından bir dəst götürüb geydi öz əyninə, özünü saldı aynaya, baxdı ki, elə Ibrahimdi ki, var. Elə bil bir almanın iki üzü imişlər, deyir elə oyana getmə, sənəm ki, varam. Ancaq Ibrahimin gözləri qara idi, bunun gözləri ala. Odu ki, elə bu paltarda qayıtdı öz kəcavəsinə, bir az pambıq yandırdı, hisindən çəkdi gözlərinə, baxdı aynaya, gördü yox, deyəsən bilinəcək.

Bir az fikirləşib dedi: hamısından yaxşısı budu ki gözlərimi bağlayım. Tez gözlərini ağ dəsmalnan bağlayıb gəldi Ibrahimin çadırına, başladı gözləməyə. O qədər gözlədi ki, hamı oyandı. Qəflə-qatır yükləndi, nökərlərdən biri gəlib girdi Ibrahimin çadırına. Gördü ki, Ibrahim uzanıb, başladı onu oyatmağa ki:

- Ağa dur, gün çıxıb, yola düşmək lazımdı.

Qız durdu ayağa, çıxdı çölə. Mindi Ibrahimin atına düzəldilər yola.

Nökərlər baxdılar ki, Ibrahim deyəsən gözlərini bağlayıb, soruşdular:

- Ağa, gözlərinə nə olub?

Qız dedi:

- Bəs gecə bulağa gedəndə çöp batıb.

Qərəz, günə bir mənzil, təyyi-mənazil, gəlib çatdılar Ibrahimgilin şəhərinə. Ibrahim nökərlərə dedi ki:

- Mən gözlərimi açammıram, qəfləni sürün düz evə!

Ibrahimin anasına xəbər getdi ki, bəs oğlun gəlir. Anası çıxıb qabağa gördü ki, oğlunun gözləri bağlıdı. Qucaqlayıb onu basdı bağrına ki:

- Bala, anan sənə qurban, gözlərinə nə olub?..

Qız dedi:

- Ana, gözümə çöp batıb.

Gəldilər evə. Nökərlər həyətdə qəflə-qatırı yükdən azad eləməkdə olsunlar, sənə kimdən xəbər verim, Ibrahimin anasından. Ibrahimin anası özünü yetirdi kəcavəyə, gördü ki heç kəs yoxdu. Qayıtdı evə ki:

- Bəs oğul, nişanlın hanı?

Ibrahim bir qəzəbli-qəzəbli anasına baxıb dedi:

- Nə nişanlı?.. Məni göndərmisən bir qıçı çolaq, gözü kor, özü də keçəl düdəmeyi-hindinin yanına ki, get al! Daha dünyada qız başına qəhət idi?

Anası dedi:

- Bir əməlli danış görüm nə deyirsən? Nə çolaq? Nə keçəl?

Qız başladı ki:

- Əmimin bir qızı var, bir qıçı topal, bir gözü kor, üzü çopur, elə çopur ki, toyuq dimdikləmiş qarpız qabığıdı. Üzünə bir sigəzi darı töksən yerə düşməz, özü də ki, keçəl. Başından üfunət qalxır ki, vaxt eləyir adamın başı çatlasın.

Anası bir dərin fikrə getdi, bir barmağın qoyub alnına dedi:

- Bala, əmin qızı sənə vermək istəməyib, yoxsa əminin qızı nə keçəldi, nə çopur. Dünya gözəli bir qızdı ki, aya, günə naz eləyirdi. Yəni nə oldu ki, o elə günə düşdü? Yox, bu hiylədi. Səni aldadıblar.

Qız dedi:

- Indi hər nə. Ya aldadalar, ya qala. Axır ki, almadım, gəldim, burada özüm evlənəcəyəm.

Bəli, yedilər, içdilər Ibrahimin anası dedi:

- Di bala, dur get öz otağına yat! Yoldan gəlmisən yorğunsan.

Yazıq qız hara getsin? Nə bilir ki, otaq hardadı?

Dedi:

- Ana, gözümü açа bilmirəm, gəl yapış əlimdən gedək!

Anası tutdu onun əlindən, aparıb ötürdü Ibrahimin otağına. Elə ki anası getdi, qız qapının dalını möhkəmləşdirib soyundu girdi yerinə. Səhər qız yerindən durdu, yenə gözlərini bağladı, çaydan-zaddan içdi, çağırdı nökəri ki:

- Gəl, məni apar dükana!

Nökər tutdu onun əlindən, gətirdi dükana. Qız girdi içəri, malları açdı, gözünün də dəsmalını bir az qaldırıb başladı ticarətə. Günorta vaxtı dükanı bağlayıb çıxdı, bir bazarı ötəri gəzdi, bir əttar dükanından bir az sürmə alıb qayıtdı dükana, qapının tayını çəkdi, aranı xəlvət eləyib sürməni əzdi, çəkdi gözlərinə. Baxdı ki, az-maz qaraldı, amma daha lap Ibrahimin gözlərinə

oxşamadı. Qız istəmirdi ki, işi açıb Ibrahimin anasına desin, çünki fikirləşirdi ki, desəm, arvad dözə bilməz başına bir işzad gələr, mal-dövlət də ortalıqda dağılıb batar.

Axşam durub gözünü açdı, düzəldi yola evə tərəf gəlməyə. Səhər gedəndə gözaltı baxıb yolu bələdləmişdi. Çatdı evə. Anası durub yüyürdü qabağına. Bəli, gəlib əyləşdilər. Ibrahimin anası baxıb gördü adə, deyəsən oğlunun gözləri bir az göyərib, amma daha bir söz demədi, gördü ki, oğlu bir az qəzəblidi, fikirləşdi ki, yəqin ticarəti düz gətirməyib.

Bir sözlə qız Ibrahimin adından başladı burda qalıb ticarət eləməyə. Şəhərdə tacirlər arasında dayaman hörmət qazanmışdı. Daha bir sözünü iki eləmirdilər.

Bu burda qalmaqda olsun, sənə kimdən deyim Ibrahimdən.

Ibrahimi biz qoyduq yolda. Özü də ki, gedirdi şəhərə. Bu minvalnan yazıq dəryayi-qəmə qərq olub, fikir eləyə-eləyə gəlib çıxdı şəhərin kənarına. Baxdı ki, burada lap kənarda qobunun üstündə balaca bir daxma var. Girdi daxmaya, gördü bir qarı oturub təndirdə çörək bişirir. Içəridə bir tüstü var, bir tüstü var ki, ərəsət ayağıdı. Salam verdi, salam aldı, girdi daxmaya. Qarı bir allah bəndəsi qarıydı. Tez bir dənə mindər götürüb atdı daxmanın yuxarı başına, Ibrahimə dedi:

- Əyləş!

Ibrahim əyləşdi. Qarı gördü ki, Ibrahim çox bərk pərişandı, soruşdu ki:

- Bala, nə olub belə qəm dəryasına batıbsan? De görüm, bəlkə məndə sənə bir çarə oldu.

Ibrahim başına gələn qəzavü-qədəri danışdı. Qarı dedi:

- Bala, sənin toqqanı yeddiqanad ifritə aparıb. O quş deyil ifritədi.

Ibrahim soruşdu:

- Bəs indi mənim təklifim nədi? Mən necə eləyim?

Qarı dedi:

- Bala, ifritə Ənbərguh dağında olur. Onun yanına getmək hər oğulun işi deyil. Ora gedən gərək canından keçib gedə. Indiyədək kim ki, ora gedib, sağ-salamat gəlməyib. Ancaq mən sənə onun tilsimini öyrədərəm.

Ibrahim dedi:

- Tez ol, qarı nənə, başına dönüm!

Qarı dedi:

- Bala, mən onu tilsimini sənə öyrədərəm, ancaq ki, o tilsimi sındırmaq özü də elə bir igidlik istəyir.

Ibrahim dedi:

- Sən de, işin olmasın.

Qarı dedi:

- Bala, o ifritənin dünya boyda bir tiyanı var. O tiyanın altı həmişə cəhənnəm kimi zəbanə çəkib yanır. Bütün əlinə keçən adamları da o tiyanın içində qaynadır. Sən tilsimi sındırmaq üçün gərək əvvəlcə o tiyanı söndürəsən. Indi qulaq as, deyim, gör tiyanı necə söndürəcəksən.

O tiyan burdan düz yeddi aylıq yoldadı. Elə ki, tiyana on gün qaldı, sən istidən gedə bilməyəcəksən. O ocağın istisi vaxt eləyəcək ki, səni boğsun. Amma gərək gedəsən. Elə ki, çatdın tiyana, elə ki, tiyan göründü, qorxma daha sənə heç bir şey olmayacaq. O tiyanın sağ tərəfində, dağın sıldırım daşı üstündə bircə dənə alma var. Gərək cəhd eləyib o almanı vurub salasan yerə. Əgər saldın tiyan sönəcək, yox, əgər sala bilmədin, ifritə səni də tutub atacaq həmin tiyana. Amma elə ki, almanı vurub saldın, hər tərəfdən sənə hücum eləyəcəklər. Gərək qorxub özünü çaşdırmayasan.

Ibrahim tilsimi öyrənib durdu ayağa, qarıya bir az pul verdi, yolu da bələdləyib düzəldi yola. Bu getməkdə olsun sənə kimdən deyim qızdan, yə`ni bizim yalançı Ibrahimdən.

Axı onu hamı Ibrahim bilirdi. O da ki, özünü vurmuşdu hiyləyə, bu kələk ilə işini aparıb ticarətin eləyirdi. Özü də çox həlim təbiətli olduğuna görə, çox çəkmədi bütün tacirlərin müştərisini çəkdi özünə tərəf. Daha bir şöhrət qazandı ki, olmayan kimi. Bunun bu şöhrəti gedib çatdı padşahın qulağına.

Padşah vəzirini bir gün çağırıb hüzuruna dedi:

- Vəzir, bilirsən nə var?

Vəzir zəmin-ədəb öpüb cavab verdi:

- Yox, sənə qurban olum, əmr elə görüm nə olub?

Padşah dedi:

- Deyirlər ki, bizim şəhərimizdə bir yaxşı sövdəgər peyda olub, adına da tacir Ibrahim deyirlər. Şöhrəti daha dünyanı basıb. Gərək bu işin həqiqətini öyrənib onun halını, nəcabətini bilib mənə xəbər verəsən.

Vəzir «bəçeşm»,-deyib bir gün möhlət istədi, dərviş libasını geyib çıxdı bazara. Gəlib çatdı Ibrahimin dükanının qabağına. Gördü vallah bu bir oğlandı, bir oğlandı ki, nə qədər tə`rif eləsən yenə də o tə`riflərin hamısından yaxşıdı. Qərəz, daha uzun baş ağrısı olmasın, padşah nə ki istəmişdi vəzir hamısını öyrənib gəldi padşaha dedi. Padşah böyük bir qonaqlıq düzəldib Ibrahimi qonaq çağırdı.

Ibrahim padşahın gözünə çox xoş gəlmişdi. Daha lap hayıl-mayıl olmuşdu. Tutdu onun yaxasından ki, qızımı verəcəyəm sənə. Yazıq Ibrahim nə qədər elədi, nə qədər sürüşmək istədi, baş tutmadı ki, tutmadı. Axır naəlac öz razılığını verdi. Baxdı ki, əgər desə almıram, padşahdı, hər nə istəsə eyləyəcək.

Ibrahimin anasının ayağı daha yerə dəymirdi. Çeşn eyləyirdi. Zarafat deyil, oğlu padşah qızı alırdı.

Bəli, tədarük görüldü, alınmalı alındı, çağırılmalı çağırıldı, toy başlandı, düz qırx gün, qırx gecə bir çilovqanlıq oldu, bir çilovqanlıq oldu ki, heç Şah Abbas da belə toy eləməmişdi. Qırx birinci gün qızı köçürtdülər Ibrahimin evinə.

Sənə kimdən deyim Ibrahimdən yə`ni bizim qızdan, yalançı Ibrahimdən. Yazıq qız tutuldu qarın ağrısına ki, indi mən başıma haranın külünü töküm? Mən yazıq neyləyim?

Bir çox fikir-xəyaldan sonra gəlib girdi qızın otağına, gördü ki, qız əyləşib, amma doğrudan da heç özündən qalan qız deyil. Gözəllikdə heç Züleyxa ona deyə bilməz ki, yerin əyridi düz otur.

Gəldi qızın yanına, bir az söhbət elədilər, danışdılar, gülüşdülər, elə ki, yatmaq məqamı gəldi, Ibrahim çıxdı çölə, hamını dağıtdı ki, çıxıb getsinlər, özü də gəlib soyundu, üzünü divar tərəfə çevirib yatdı.

Bəli, sabah gecə oldu, yenə də üzünü divara tərəf çevirib yatdı. Bir gün, iki gün, üç gün, axırda qız bir gün dilə gəlib dedi:

- Bu nə hoqqadı ki, sən çıxardırsan? Belə niyə eyləyirsən? Əgər məndən xoşun gəlmir, üzümə de da!

Ibrahim baxdı ki, qız hazırlaşır getməyə, soruşdu ki:

- Hara gedirsən?

Qız dedi:

- Gedirəm atama deyəm, görəm məni niyə sənə verib? Indi ki, sənin məndən zəhlən gedir, daha mən burada niyə qalım? Sənin deyəsən gözün özgəsindədi.

Ibrahim hərçi elədi ki:

- Sən dayan, bu bir sirdi, vaxt olar sənə deyərəm.

Qız qulaq vermədi ki, vermədi. Axirüləmr Ibrahim, yə`ni bizim yalançı Ibrahim məcbur oldu ki, açıb işin həqiqətini ona desin. Bəli, necə ki, biz danışmışdıq eləcə açıb bütün əhvalatı qıza danışdı. Qurtarandan sonra papağı başından götürüb uzun saçlarını dağıtdı dalına. Padşahın qızı gördü nə? Bunun əri bir dənə qızdı ki, yemə-içmə xətti-xalına, gül camalına tamaşa elə! Elə bil bir dənə huridi, qılmandı, bu saat göydən yerə enib.

Ibrahim dedi:

- Mən sənə bir sirr açdım ki, bir səndən, bir allahdan savayı heç kəs bilmir. Sən də gərək bu sirri heç kəsə açmayasan. Necə ki, mən gözləyirəm, eləcə sən də gözlə! Inşallah bir gün olar Ibrahim gəlib çıxar, onda ikimiz də gedərik ona, iki bacı olub dolanarıq.

Ikisi də öpüşüb əhd elədilər ki, iki bədəndə bir can olub bir yar-vəfadar kimi Ibrahimin yolunu gözləsinlər.

Bunlar burda gözləməkdə olsunlar, sənə kimdən xəbər verim, yazıq Ibrahimdən.

Biz onu o yerdə qoymuşduq ki, qarıdan tilsimi öyrənib düşmüşdü yola ki, gedib Ənbərguh dağında ifritənin tilsimin sındırıb toqqasını gətirsin.

Bəli, Ibrahim altdan geyinib üstdən qıfıldandı, üstdən geyinib altdan qıfıllandı, ya mədəd deyib düşdü yola, başladı getməyə.

Dərələrdən yel kimi, təpələrdən sel kimi, badi-sərsər kimi, ha gedib, hu gedib yeddi aydan sonra gəlib çıxdı bir yerə. Gördü adə, qabaqdan bir isti boğanaq hava gəlir ki, vaxt eləyir adamın bağrı çatlasın. Bildi ki, bəli, qarının dediyi yerə gəlib çıxıb. Bir az irəlilədi, gördü yox, getmək mümkün deyil. Paltarlarının döşünü cırıb, gözünü yumdu, hərçi badəbəd deyib başladı getməyə. Bir vaxt gördü ki, qantərin içindədi. Heç bir şeyə fikir verməyib getdi. Bir az da gedəndən sonra gördü deyəsən indi bir az hava düzəlir, di bir az da, bir də, hə, hə, hə... daha isti çəkildi. Qarının dediyi yadına düşdü. Bildi ki, tilsimin birinci pilləsini keçib. Gördü uzaqdan yekə bir od görsənir. Vallah bu od elə nərə çəkib yanır, elə nərə çəkib yanır ki, lap zəbanəsi ərşə qalxır. Amma üstündə də qarının dediyi kimi, bir yekə tiyandı paqqapaq qaynayır. Ibrahim özünə bir ürək verib irəlilədi. O qədər ki, gəlib çatdı bu tiyanın yanına. Sağ tərəfə gedib gördü ki, dağın damənində bir sıldırım var, bunun ortasında ilahinin əmriynən susuz, otsuz bir daşın üstündə bir alma ağacı göyərib ki, vallah yamyaşıl kölgəsi canlar alır. Baxıb gördü ki, aşağıda bir dənə qıpqırmızı qan kimi alma var. Yeridi, qılıncı çəkdi, ya mədəd deyib hoppandı göyə, almaya bir qılınc vurdu, alma iki bölünüb düşdü yerə. Tiyanın altından bir zəbanə çıxdı, bir zəbanə çıxdı ki, Ibrahim dedi: bu saat dünya qurtarır. Baxdı ki, hər tərəfdən əjdahalar, ilanlar, divlər yüyürürlər bunun üstünə. Dalını verdi dağa, qolun çırmayıb qılıncın aldı əlinə, sidq ürək ilə bir nə`rə çəkib özünü vurdu bu ləşkərə. Bunu burada vurdu, onu orada vurdu, bir də gördü ki, bir əjdaha elə handa handadı ki, onu çəksin kamına. Qılıncı soxdu bunun sol böyründən, qan fəvvarə verib fışqırdı göyə. Bir gurultu qopdu ki, Ibrahimin başının tükləri ayağına salama gəldi.

Gözün açanda bir də gördü nə əjdaha var, nə div, nə də tiyan. Burada bir dənə bulaq var, bu bulaqdan bir su axır, bir su axır, vallah elə bil göz yaşıdı. Bulağın başında bir yekə sal var, bu salın da üstündə onun toqqası. Yüyürüb əlini atdı toqqaya, elə götürmək istəyəndə bir əl daldan yapışdı onun çiynindən dik qalxızdı göyə. Ibrahim başını qaldırıb baxanda gördü bu bir nahamvar ifritədi ki, alt dodağı yer süpürür, üst dodağı göy süpürür. Ifritə bunu qaldırdı buludların üstünə. Ibrahim öz-özünə dedi:

- Bəli, mənimki də elə buracan imiş.

Gözlərini yumub qulaqlarını şəklədi ki, görək nə vaxt məni buradan salacaq yerə. Ifritə onu lap göyə qaldırıb dedi:

-Ibrahim, anan matəmində əyləşsin! Mənim oğlumun toqqasını oğurlamısan bəs deyil, özünü də öldürmüsən, ikinci oğlumu da öldürmüsən. Indi də cür`ət eləyib gəlib mənim dünya boyda tiyanımı söndürmüsən. Mən səni göydə axtarırdım, yerdə əlimə düşmüsən. Ya budu ki, səni bu saat buradan salacağam yerə, ya da budu ki, mən görürəm sən igid oğlansan, gərək mənim bir dərdim var, ona çarə eləyəsən.

Ibrahim dedi:

- O nə dərddi?

Ifritə dedi:

- Mənim bir düşmənim var, o da ki, ağ divdi, dünyanı-ruzigarı mənə haram eləyib. Mən onnan nə qədər əlləşmişəm bacarmamışam, amma onun ölümü bəni-adəmin əlindədi. Özü də o bəni-adəm o bəni-adəmdi ki, mənim dünya boyda tiyanımı söndürəcək. Indi əgər onu gedib öldürsən, onda toqqanı verib, özünü də götürərəm düz atanın vilayətinə. Yox, əgər öldürmədin, balıq olub suya cumsan, quş olub göyə uçsan, ilan olub torpağa girsən, mənim əlimdən qurtarmayacaqsan.

Ibrahim gördü bu xına o xınalardan deyil. Bu elə bir nahamvar, nanəcib ifritədi ki, dünyada hər nə pislik desən əlindən gələr. Çar-naçar razı olub dedi:

- Yaxşı, öldürərəm.

Ifritə onu qanadının altına vurub qalxdı buludların üstünə, üz qoydu məşriğə tərəf uçmağa.

Bu minval ilə nə qədər yol getdilər Ibrahim bilmədi, bir vaxt ifritə dedi:

- Bax, Ibrahim, div odu gedir.

Ibrahim yerə baxıb gördü yernən bir dağ gedir. Ifritə onu şəhərin kənarında yerə qoyub dedi:

- Bax, haman div bu dağın o tərəfində bir mağara var, orada olur. Sən gedib orada onu öldürməlisən.

Bunu deyib qanadını vurub qalxdı yenə havaya.

Ibrahim saldı başını aşağı, öz gününə yana-yana başladı şəhərə tərəf getməyə. Gəlib çatdı şəhərə, gördü bütün şəhər əhli qara geyinib. Gəldi, girdi bir çayçı dükanına ki, bir balaca rahatlansın. Əyləşdi, gətirib qabağına bir dənə ə`la çay qoydular. Bir dənə də qəlyan alıb şirmayı müştüyünü keçirdi dodaqlarına, başladı çəkməyə. Bir də Ibrahim mültəfit olub, gördü bunun yanında bir cavan oğlan oturub elə hey ah çəkir. Bir az bu oğlana fikir verib gördü yox, elə bu oğlan başını qoyub iki dizlərinin üstünə, bir ucdan ah çəkir. Özü də elə ah çəkir, elə ah çəkir ki, elə bil bütün dünyanın xəracatını bundan alırlar. Axırda özünü saxlaya bilməyib soruşdu:

- Qardaş, nə olub sənə? Nə dərdin var? Bəlkə sənin dərdinə məndə bir dərman tapıldı?

Oğlan buna baxıb dedi:

- Əh, səndən mənim dərdimə nə çarə olacaq!

Ibrahim əl çəkmədi. Axırda ah çəkən oğlan Ibrahimi dükanın bir tərəfinə çəkib başladı dərdini danışmağa.

Oğlan dedi:

- Mən dövlətli bir tacirin oğluyam. Atam öləndən sonra əmim bütün var-yoxuma sahib olmaq üçün məni yox eləmək fikrinə düşdü. Əmimin bir qızı var idi. Biz bir-birimizə nişanlı idik. Əmim baxdı ki, əgər qızı mənə versə, dövlət onun əlindən çıxacaq. Ona görə də bir gün mənim boynuma oğurluq atıb şəhərdən sürgün elətdirdi. Mən atamın bütün dövlətindən, mal-mənalından əlimə bir dənə ağac alıb düzəldim yola. Gethaget, gəlib çatdım bir meşənin kənarına. Baxdım ki, ayaqlarımın altı qabar eləyib yaman göynəyir. Əyləşdim ki, bir az yorğunluğumu alım, bir də gördüm budu daldan bir cavan oğlan bir ağ atın üstündə çapa-çapa dörd ayağa gəlir. Atlı gəlib çatdı mənə. Bu atlı kim ola, kim ola, bir baxam ki, əmim qızı. Əmim qızı yetişib məni görcək ağladı, atdan düşüb özünü saldı mənim üstümə, qolunu saldı boynuma, başladı məni öpməyə ki:

- Əmioğlu, sənin əmin qızı vəfasız deyil.

Sən demə əmim qızı işi bilir, durur ayağa, vəzndə yüngül, qiymətdə ağır şeylərdən götürür, bir heybə doldurub gecə ilə bir ata minib düşür dalıma. Qərəz, mən də durdum ayağa. Əmim qızı ilə tərkləşib gəldik çıxdıq haman bu şəhərə. Burada bir dükan açdım, əmim qızını da aldım, başladıq güzəran eləməyə. Güzəranımız da heç pis keçmirdi.

Mənim dükanımın qonşuluğunda bir də bir cavan gözəl oğlan var idi, tacir idi. Bu oğlannan qardaş olmuşduq. Bir gün evə gəlib gördüm əmim qızı evdə yoxdu. Ora əmim qızı, bura əmim qızı, əmim qızı bir parça ət oldu uçdu göyə. Hər yeri ayaqdan saldım, tapa bilmədim ki, bilmədim. Işi o qardaşıma açdım. O, iki əli ilə dizinə vurub dedi:

- Qardaş, sənə gələn mənə gələ idi. Yəqin qızı həramilər aparıb.

Soruşdum:

- Necə həramilər?

Qardaşlığım dedi ki:

- Burada həramilər dəstəsi var. Şəhərdə nə qədər gözəl qız olsa aparırlar. Yəqin onu da onlar aparıblar.

Soruşdum:

- Bəs o həramilər harada olur?

Qardaşlığım mənə göstərdi ki:

- Bax, o dağın dalında bir bulaq var. O bulaq onların yeridi.

Mən sabahı gün yemə, içmə, durub getdim haman ora. Gedib əyləşdim bulağın başında, başladım gözləməyə. Bir də gördüm budu əmim qızı, əlində bir kasa gəlir bulağa su doldurmağa. Sevincək ayağa qalxdım ki, götürüb qaçam. Baxdım ki, əmim qızı heç mənə fikir verməyir. Əmim qızı nazü-qəmzə ilə gəldi bulağın başına. Gözləri də məndəydi. Kasanı doldurub başladı getməyə. Durdum ayağa ki:

- Əmi qızı, hara?

Əmim qızı bir mənə baxdı, güldü, çıxıb yenə də nazü-qəmzə ilə getdi həramilərin olduğu mağaraya. Mən kor-peşiman qayıtdım evimə.

Qardaşlığım gəldi ki;

- Nə oldu?

Dedim:

- Bəs, hal-əhvalat belə.

Qardaşlığım bir az fikrə cumub dedi:

- Onu həramilər yoldan çıxarıblar. O da tay mehri salıb onlara. Indi özünü gözlə, ondan sənə ziyan dəyər.

Mənim doğrusu ki, ürəyim tab gətirmədi, sabahı yenə getdim. Yenə bir az gözləyəndən sonra baxdım ki, budu çıxıb firavan-firavan gəlir bulağa su doldurmağa. Gözlədim, lap gəlib çatdı, durdum ayağa. Əmim qızı məni görcək dedi:

- Əmim oğlu; get! Bir də buralara gəlsən, mən sənnən ayrı cür danışaram.

Mən yapışdım bunun əlindən ki:

- Necə yə`ni necə? Sən mənim zənənimsən.

Əmim qızı itələyib məni yıxdı yerə, özü çıxıb getdi. Durub gəldim evə. Qardaşlığıma tay heç bir söz demədim. Sabahısı yenə getdim haman yerə, gözlədim, əmim qızı gəldi. Elə ayağa durmaq istəyirdim ki, ona bir neçə söz deyəm, bəlkə yola gəldi, bir də gördüm əmim qızı istəyi haray salıb məni öldürtdürə. Mən bunu görcək cəldlik eləyib əlimdəki bıçaq ilə onu öldürüb qayıtdım evə. Qardaşlığım gəldi ki:

- Haradaydın?

Əhvalatı açıb ona dedim. Bundan sonra qardaşlığım daha mənim yanımdan əl çəkmədi. Amma mən çox pərişan hal olmuşdum. Günü-gündən dala gedirdim. Axırda qardaşlığım mənə dedi:

- Qardaş, gəl səni evləndirək, bəlkə bir az fikrin dağıla.

Mən razı oldum. Qardaşlığım mənə dedi ki:

- Gəz, dolan, axtar, hansı qızı istəsən alım sənin üçün. Mən də başladım axtarmağa. Bir gün axşamüstü bilmirəm haradan gəlirdim, bir də gördüm küçədən bir qız gedir, bir qız gedir, elə bil ki, kəklikdi səkir. Düşdüm bu qızın dalına. Bu qız gedib girdi bir ağ qapılı həyətə. Qapını yaxşıca nişanlayıb gəldim evə. Gözlədim qardaşlığı gəldi bizə, açıb ona dedim ki, bəs hal, qəziyyə belə. Qardaşlığım soruşdu:

- Hansı qapı?

Mən ona nişan verdim. Qardaşlığım çox pərişan oldu. Bir az fikirdən sonra mənə dedi:

- Qardaş, sən gəl o qızı istəmə! Ondan sənə xeyir gəlməz.

Bu çox dedi, mən az eşitdim, dedim:

- Olmaz ki, olmaz. Alsan odu, almasan daha heç kəs. Əgər məni doğrudan da istəyirsənsə, gərək onu alasan mənə.

Qardaşlığım çar-naçar razı oldu. Bəli, durdu ayağa, get di, necə ki qaydadı elçiliyə. Gəldi ki, bəs düzəldi.

Mən başladım toy tədarükü görməyə. Hər şey hazırlandı. Bəli, toy başlandı. Üç gün, üç gecə toy eləyib mən bu qızı aldım. Gəlin gələn gecə qardaşlığım yox oldu. Gəlini gətirəndə baxdım ki, doşab almışam bal çıxıb. Doğrudan da min əmim qızına dəyər. Bu qardaşlığım yox oldu ki, yox oldu. Mən dükana getmədim. Gözlədim, gözlədim, bu gəlmədi. Axırda özümü saxlaya bilməyib dedim:

- Ay namərd qardaşlıq!.. Gör heç bir gəlir?

Aradan bir az keçdi, bir də gördüm qardaşlığım girdi içəri. Görüşdük. Elə o yandan, bu yandan soruşdum bəs harada idin? Bu mənə min dil tökdü ki, vallah yaman azarlamışdım. Döndüm ki, qıza deyəm çay versin, gördüm qız yoxdu. Dedim yəqin bayıra çıxıb. Qardaşlığım bir az oturub durdu ki:

- Bəs məni bağışla, gərək gedəm.

Hərçi elədim olmadı. Bu çıxıb getdi. Bu gedəndən sonra qız gəldi. Mən elə doğrusu bir az pərişan oldum ki:

- Qonaq gedəndən sonra nəyə gəlirsən?

Qız bir söz demədi. Bundan sonra bu qız xasiyyət elədi, elə qardaşlığım gəlcək, bu yox olurdu. Axırda mən şübhələnməyə başladım. Bir gün qapını bağlayıb qılıncı çəkib, qıza dedim:

- Ya bunun səbəbini de, ya da ki, səni bu saat doğrayacağam.

Qız məsələni açdı. Sən demə bu qız elə mənim qardaşlığımın özü imiş. Təzədən bununla olduq qol-boyun. Bu minval ilə ilə düz üç il dolandıq. Indi düz iki aydı ki, ağ div onu oğurlayıb aparıb. O gündən də mənim işim olub belə ah çəkmək.

Ibrahim soruşdu:

- Bəs ora necə getmək olar?

Ah çəkən oğlan dedi:

- Nə bilim? Budu bir aydı ki, padşahın da qızını aparıb. O da vəzirin oğlunun nişanlısıdı. Vəzirin oğlu qoşun götürüb hər gün orada dava eləyir. Bir yerə çıxmır ki, çıxmır.

Ibrahim onu da götürüb düzəldi yola, dedi:

- Qorxma, gəl sənin köməkliyinlə o ağ divin canı mənim əlimdədi. Mən elə gəlmişəm, onu öldürməyə.

Getdilər dağın damənində. Axtarıb bir quyu tapdılar. Quyunu ifritə Ibrahimə demişdi. Ibrahim ah çəkəni orada qoyub necə ki, ifritə demişdi, girdi quyuya. Baxdı ki, sola tərəf bir yol gedir. O yol ilə gedib çatdı bir otağa. Gördü haman padşahın qızı burada saçlarından asılıb, amma ayağının altında bir qızıl cam var, sağ ayağının dabanından bir iynə boyda deşiblər, qan cikkə-cikkə düşür bu qızıl camın içinə.

Qız oğlanı görcək dedi:

- Ey oğlan, yazıqsan, çıx qaç! Indi div gələr, sənin ətinin aşıqcan eylər, qanını da qaşıqcan.

Ibrahim heç bir söz deməyib əyləşdi. Başladı divi gözləməyə. Aradan bir az keçdi, bir də gördü budu yer titrədi göy guruldadı, div girdi içəri. Ibrahimi görcək bir əlini öz qarnına çəkib yüyürdü onun üstünə. Ibrahim ifritənin öyrətdiyi kimi cəld tərpənib qızıl camdakı qanı götürüb atdı divin gözlərinə. Divin gözləri kor oldu, yıxıldı yerə, başladı çapalamağa. Oğlan fürsəti fota verməyib, onun başını bədənindən ayırıb cəhənnəmə vasil elədi. Qızı açdı, düşürüb yerə, dedi:

- Sən otur burada.

Bunu deyib keçdi ikinci evə. Gördü ki, ah çəkən qardaşın qızı əyləşib, bir nahamvar bədheybət div də başın qoyub onun dizlərinin üstünə yatıb. Elə Ibrahim otağa girdəcək div oyandı. Küştü başlandı. Düz yeddi gün, yeddi gecə gah bu ona güc gəldi, gah o buna güc gəldi. Amma heç birisi bir-birini yıxa bilmədi. Axırda səkkizinci günün ikinci çağı idi ki, Ibrahim bir ya mədəd deyib divi başının üstündən qaldırıb vurdu yerə. O qalxanacan Ibrahim cəld özünü o biri otağa tullayıb haman camda qalan qanı da tulladı bunun gözlərinə, onu da yıxdı yerə, çökdü sinəsinə, qılıncı vurmaq istəyirdi, bir də gördü ki, div deyil, öz əmisi qızıdı. Qılıncı salmaq istəyirdi, bir də gördü ifritə buludların içindən qışqırır:

- Vur, anan matəmində otursun! O səni aldadır, bu saat səni öldürəcək.

Ibrahim gözünü yumub qılıncı basdı onun gözünə. Sonrada başını kəsdi. Baxdı ki, əmisi qızı deyil, divdi. Ifritə göydən enib, bir yekə qab götürüb, tutdu onun qanının altına. Elə ki, qab doldu, Ibrahimə verib dedi:

- Al, bu qandan hər nəyə vursan dönüb olar qızıl. Bu haman ağ divdi ki, sən öldürdün. O qəsdən sənin gözünə elə görünürdü ki, aldanasan.

Qərəz, ifritə toqqanı da çıxarıb verdi Ibrahimə. Ibrahim qızların ikisini də götürüb gəldi quyunun ağzına. Ah çəkən qardaş ipi salladı, üçünü də çəkib çıxartdı. Onun qızını verdi özünə, vəzirin oğlunun nişanlısını verdi özünə, özü də mindi ifritənin qanadının üstünə, gəlib çıxdı öz vilayətlərinə.

Işlər açıldı. Əsil Ibrahim gəldi, yalançı Ibrahim hər şeyi ona təhvil verdi, padşah qızı ilə olan əhdi də ona dedi. Təzədən qırx gün, qırx gecə toy eləyib öz muradlarına çatdılar.

Mən də orada idim, aş yedim, nə əlim batdı, nə ağzım daddı, nə də qarnıma bir şey getdi. Siz də eləcə yeyin, doyun!

Siz yüz yaşayın, mən iki əlli. Hansı çoxdu, siz götürün! Siz sağ, mən də salamat.

I B R A H I M I N N A Ğ I L I

Biri var idi biri yox idi, Isfahanda Xacə Həsən adında bir tacir var idi. Xacə Əzim adında bir tacir də Hindistanda yaşayırdı. Bunlar dünyada ən zor tacir hesab edilirdilər.

Bir gün Xacə Həsən qürrələnib dedi:

- Görəsən dünyada məndən zor xoca varmı?

Ona dedilər:

- Hindistanda Xacə Əzim səndən zor tacirdi.

Bir gün də bu sözləri Hindistanda Xacə Əzim dedi.

- Görəsən dünyada məndən zor xacə varmı?

Ona dedilər:

- Səndən zor xacə Isfahanda Xacə Həsən ola bilər.

Xacə Həsən Xacə Əzimi görmək üçün ticarət səfərinə çıxdı. Hindistana gedib Xacə Əzimlə görüşdü. Gördü doğrudan da Xacə Əzim zor tacir imiş. Varı-dövləti həddən aşıb. Xacə Həsən Xacə Əzimlə siğə oxuyub qardaş oldular. Deyirlər, Xacə Həsənin Ibrahim adlı bir oğlu, Xacə Əzimin də bir qızı var idi. Xacə Həsənlə Xacə Əzim əhd elədilər, şərt qoydular ki, qızı oğlana versinlər. Hələ nişan da taxdılar.

Xacə Həsən bir müddət Xacə Əzimgildə qalandan sonra Isfahana öz evinə gəldi. Necə deyərlər, yaranan hamı öləcək. Səfərdən qayıdandan sonra Xacə bərk xəstələndi, oğlunu yanına çağırıb dedi:

- Oğlum, Hindistanda Xacə Əzim adlı bir tacir var. O, mənim siğə qardaşımdı. Onun qızı sənin nişanlındı. Gedib gətirərsən.

Xacə Həsən sözünü qurtarıb, canını tapşırdı oğluna. Onu kəfn-dəfn elədilər. Qara geydilər, qırx gün, qırx gecə yas saxladılar.

Xacənin ölümündən bir neçə il keçdi. Oğlanın nənəsi tədarük gördü, oğluna dedi:

- Oğul, get Hindistana, nişanlını gətir.

Oğlu dedi:

- Nənə, mən əmim Xacə Əzimin evini tanımıram, Hindistanda mən hara gedəcəyəm?

Nənəsi dedi:

- Dədən minib Hindistana getdiyi dəvəni minib gedərsən. Dəvə gedib harda yatarsa, ora əmin Xacə Əzimin qapısıdı.

Oğlan dəvəni minib yola düşdü. Böyük səhralar, cadalar, bələnlər keçdi, ta ki, Hindistana çatdı. Dəvə gedib bir çarhovuzun üstündə yatdı. Oğlan da yuxusuz idi. O da dəvənin yanında uzanıb yatdı. Kənizlər suya gedirdilər. Dəvəni görüb xanıma xəbər verdilər. Xanım gedib gördü bir qəşəng oğlan dəvənin yanında yatıb. Dəvəyə baxan kimi tanıdı, gördü əmisinin dəvəsidi. Amma qız oğlanı heç görməmişdi. Onu oyatdı, soruşdu.

- Oğlan, sən kimsən?

Oğlan dedi:

- Mən Xacə Həsənin oğluyam.

Qız da özünü ona tanış verib dedi:

- Mən də sənin əmin qızıyam.

Tanış oldular. Oğlan dedi:

- Bəs mən əmimi nə cür görüm?

Qız dedi:

- Səhər dükana gedərsən. Dükanda bir qırmızısaqqal kişi görəcəksən. O sənin əmindi. Özünü ona tanış verərsən.

Qız sözünü qurtarıb oğlandan ayrıldı. Oğlan gecəni keçirdi, səhər dükana getdi, qırmızısaqqal kişini tapdı,

Xacə ondan soruşdu:

- Oğlan, sən kimsən, qəribə oxşayırsan?

Oğlan dedi:

- Əmi, mən Xacə Həsənin oğluyam.

Xacə onun üzündən-gözündən öpüb evlərinə apardı, ondan soruşdu:

- Qardaşım necədir?

Oğlan dedi:

- Atam ölüb.

Xacə Əzim bu xəbəri eşidəndə başına vurdu ağladı.

Qırx gün, qırx gecə yas saxladı. Qardaşına xeyrət verdi. Bir gün Xacə Əzim arvadına dedi:

- Arvad, bu oğlanı göndər nişanlısının yanına.

Arvad onu qızının yanına apardı. Oğlan qızla çarhovuz başında tanış olmuşdu. Qız oğlana dedi:

- Gedək bağçada çarhovuz başında səyahət eliyək.

Onlar bağçaya getməyə başladılar. Qız qabaqda oğlan da onun dalınca gedirdi. Qız baxdı ki, pərilər padşahının qızları çarhovuzda çimirlər. Qız onlara dedi:

- Xoş gəlmişsiniz.

Pərilər padşahının xırda qızı dedi:

- Mən də Ibrahimnən varam.

Sözü qurtaran kimi uçub getdilər. Bu söz qızın ürəyində nisgil qaldı. Bağçada Ibrahimlə çox gəzib geri qayıtdılar. Bir müddət oğlanla qız belə dolandılar. Bir gün Ibrahim əmisi Xacə Əzimə dedi:

- Əmi, izn versən biz gedərik. Nənəmin gözü yolda qalıb.

Xacə Əzim razı oldu. Böyük tədarük gördü, qul qaravaşla bunları Isfahana yola saldı. Yolda qız oğlanın hər xasiyyətini öyrəndi. Onlar bir bulağın başına çatdılar. Burada əylənməli oldular. Çörək yedilər. Ibrahim bir hovuzda çimirdi. Birdən bir qaraquş şığıyıb onun köynəyini caynağına aldı, havaya qalxıb gözdən itdi.

Bu, oğlana çox pis tə`sir elədi. Qıza dedi:

- Əzizim, iki gözüm, məni burda gözlə. Mən köynəyimin dalınca gedəcəyəm.

Qız onun getməsinə əvvəl razı olmadı, sonra razı olub dedi:

- Get, ancaq tez gəl.

Ibrahim qaraquş uçduğu tərəfə yola düşüb getməkdə olsun. Qız burada qaldı. Bir gün, iki gün, üç gün ha gözlədi Ibrahim gəlib çıxmadı. Baxdı ki, qız xaylağı burda çox qalsa, pis olacaq. Oyudu ki, Ibrahimin paltarını geyib, kişi donuna düşdü; adını da Ibrahim qoydu. Qız kənizi oyadıb dedi:

- Qız hanı? Necə oldu?

Kəniz dedi:

- Görəsən kimnən gedib.

Kəniz də qızın paltarını geydi. Yola düşdülər. Az getdilər, çox getdilər, şəhərə yaxınlaşdılar. Qız dedi:

At çapmaq istəyirəm.

At çapanda at büdrədi, qız atdan yıxıldı. O danışmadı. Onu nənəsinin yanına apardılar. Öpüşdülər, görüşdülər. Adamlar gəldilər, nənəsinə göz aydınlığı verdilər.

- Gözün aydın olsun, Ibrahim salamat gəldi, nişanlısını da gətirdi.

Adamlar, nənəsi kənizi qız hesab edirdi, qızı da Ibrahim.

Qıza dedilər.

- Ibrahim, toyu başla.

Qız məsələni ləngitmək üçün dedi:

- Evi söküb, təzə ev tikəcəm, sonra toy edəcəm.

Ibrahimin nənəsi razı olmadısa da, qız evi sökdürdü, təzə toy evi tikdirmək bəhanəsilə toyu bir il ləngitdi. O, Ibrahimin yolunu gözləməkdə olsun, eşit Ibrahimdən.

Ibrahim quşun izi ilə gecə-gündüz yol gedib bir meşəyə çıxdı. Bərk yuxusuz idi. Bir ağacın dibində uzanıb yuxuya getdi. Vağyada ona dedilər:

- Durub gedəndə tuba yarpağı görəcəksən, onu yığarsan. Qarışqa görəcəksən, tuba yarpağını onların qabağına tökərsən. Saqqız ağacı görəcəksən, bir qədər saqqız yığarsan. Bir az gedəndən sonra bir qarı görəcəksən. Saqqızı qarının ağzına atarsan. Qarı köynəyi tapıb sənə verər.

Ibrahim yuxudan ayıldı. Yola düşüb bir qədər getmişdi, qabağına tuba yarpağı çıxdı. Tuba yarpağını yığdı. Gedib bir çaylağa çatdı. Gördü burada at böyüklükdə çoxlu qarışqa var. Yığdığı tuba yarpağını onların qabağına tökdü, ona yol verdilər. Az getdi, çox getdi, deyə bilmərəm, qabağına bir qarı çıxdı. O saat saqqızı qarının ağzına atdı. Qarı başladı saqqızı çeynəməyə.

Ibrahim qarıdan köynəyini istədi.

Qarı ona dedi:

- Gedərsən, qabağıva bir çarhovuz çıxacaq. O, çarhovuzun kənarında gizlənərsən. Görəcəksən üç qız gəldi. Soyunub çimində sən köynəyi götürərsən, sonrası ilə işin yoxdu.

Ibrahim qarıya razılıq eləyib yola düşdü. Gedib bir çarhovuzun kənarına çıxdı, hovuzun kənarında bir xəlvət yerdə gizləndi. Az sonra üç qız gəlib çıxdı. Qızlar köynəklərini soyunub çimməyə başladılar. Onların başı çimməyə qarışanda, Ibrahim gizlindən çıxıb köynəyi götürdü. Qızlar nə qədər yalvardılar, Ibrahim köynəyi vermədi. Axırda köynəyi götürüb qızınan birlikdə qarının yanına gəldilər, hər kəs sözünü söylədi. Qarı kiçik qıza dedi:

- Oğlanın köynəyini ver.

Qız dedi:

- Gülnən Sinavərdən xəbər versin. Həm köynəyini verim, həm də ona gedim.

Oğlan dedi:

- Gedim öyrənim, gəlib xəbər verim.

Getmək istəyəndə qarı Ibrahimə dedi:

- Ey oğlan, yeddi dərya keçəcəksən. Hər dəryanın kənarında mənim oğlum var. Al bu kağızları onlara verərsən. Səni dəryadan keçirərlər. Sonrasını özün bilərsən.

Ibrahim kağızları qarıdan alıb yola düşdü. Dərələrdən sel kimi, təpələrdən yel kimi gedib birinci dəryaya çıxdı. Bir nəhib dev ona hücum elədi, onu yemək istəyəndə Ibrahim qarı verən kağızı verdi ona. Dev kağızı oxuyandan sonra onu hörmətnən dəryadan keçirdi. Ibrahim baxdı ki, üç dənə dağ toqqaşır. Yaxına gedib gördü, dağ deyil, üç devdi. Demə bunlar üç şey üstündə dalaşırlarmış. Ibrahimi görüb dedilər:

- Ey bəni adam, şərimizi sən kəs. Həzrət Süleymandan bizə bir tac, bir xalça, bir ağac qalıb. Tacı başına qoysan, heç kəs səni görməz, xalçanın üstündə otursan, səni istədiyin yerə aparar. Ağacnan kimi vursan, hər nə desən o dona düşər. Bunları nə cür bölək?

Ibrahim dedi:

- Mən üç ox atacağam. Hər kəs onu tez götürüb gəlsə, tac onundu. Sonrasın deyərəm.

Ibrahim oxu atdı. Bunlar oxun dalınca qaçanda Ibrahim o saat tacı götürüb başına qoydu. O biri şeyləri də götürdü. Devlər gəlib gördülər bəni adam şeyləri götürüb qaçıb. Hər üçü özünü daşla öldürdü. Ibrahim lap arxayın oldu. Xalçanı açdı, üstündə oturub dedi:

- Istəyirəm Gül ilə Sinavərin qapısında olam.

Xalça o saat göyə qalxdı. Ibrahimi aparıb Gül ilə Sinavərin qapısında yerə qoydu. Ibrahim evin qapısını döyüb dedi:

- Qonaq istəyirsinizmi?

Ona ev yiyəsi dedi:

- Bizdə adət belədi, qonaq saxlamarıq, saxlasaq da öldürərik. Ev yiyəsi ona qırx adam başı göstərib dedi: Görürsənmi, bunlar qonaqların başıdı.

Ibrahim dedi:

- Eybi yoxdu, mənim də başımı kəsərsiniz.

Ibrahim ondan Güllə Sinavərin əhvalatını soruşdu, dedi:

- Bilmək istəyirəm Gül Sinavərə neylədi?

Ev yiyəsi bir qızılquş, bir tula gətirdi, dedi:

- Sinavər padşah mənəm. Bu qızılquş da əmim qızı Güldü. Sənin soruşduğun əhvalatı deyib qurtarandan sonra başını kəsəcəyəm, razısan, deyim?

Ibrahim dedi:

- Nağıl elə, qurtaranda başımı kəsərsən. Görüm Gül Sinavərə neylədi?

Sinavər padşah başladı Ibrahimə nağıl eləməyə, dedi:

- Ey cavan, bir gün mənə iki at gətirdilər. Bunlar çox yaxşı at olduğu üçün hərəsinə bir mehtər tutdum. Otuz gündən sonra tavlaya gedib gördüm, atlar arıxlayıb. Mehtərin biri qaçdı, o birin tutub o ki, var döydüm. Qaçan mehtər mənə dedi:

- Niyə onu öldürürsən, qoy açım hamısını sənə deyim.

Mən onu xəlvət yerə çağırıb soruşdum:

- Qoçağım, de görüm bu nə əhvalatdı?

Mehtər dedi:

- Atları gecə əmin qızı Gül minib harasa gedir. Onun üçün də atlar dincəlmir, arıxlayır.

Mən ondan soruşdum:

- Bu gecə də minib gedəcəkmi?

Mehtər dedi:

- Əlbəttə gedəcək.

Barmağımı yarıb duz doldurdum, gecə yatmayıb pusdum. Gördüm əmim qızı mənim paltarımı geydi, atı tavladan çəkib mindi, yola düşdü. Mən də qarabaqara onun dalına düşdüm. Əmim qızı gedib bir dağa çıxdı, atı bağlayıb bir mağaraya girdi. Mən yaxına gedib gördüm mağarada qırx haramı var. Haramıbaşı əmim qızına bir şillə çəkib dedi:

- Padşahı niyə öldürməmiş gəlmisən?

Əmim qızı onun ayaqlarına yıxılıb dedi:

- Aman ver, sabah öldürüb gələrəm.

Haramıbaşı ona bir tubulğa çöpü verib dedi:

- Al bu çubuğu, ona vurarsan, hər nə desən o dona düşəcək.

Əmim qızı haramılarla oynayırdı. Mən bərk əsəbiləşdim, qan beynimə sıçradı, çöldə olan haramıların hamısını öldürüb içəri girdim. Haramıbaşı ilə tutuşdum. O çox qüvvətli olduğu üçün onunla bacarmırdım. Daldan tula haramını çəkib yerə yıxdı, mən fürsəti fovta verməyib onu da öldürdüm. Haramıbaşının başını kəsdim. Başı da götürüb yola düşdüm. Əmim qızı dedi:

- Mənim ürəyimə dağ çəkmisən, bunu səndə qoymayacağam.

Məni danışığa tutdu. Birdən mənə bir çubuq vurub dedi:

- Hey tazı.

Mən tazı oldum. Axşama kimi itlər məni boğurdu. Vəzirin oğlu məni götürüb evinə apardı. Vəzir məni görüb dedi:

- Bu padşahın tulasıdı.

Yaxşı tula olduğum üçün vəzir, və oğlu mənə yaxşı qulaq asırdılar. Vəzirin oğlu bir gün məni şikara apardı. Mən bir ceyran tutdum. Bundan sonra məni bağlı saxlamayıb açıq buraxdılar. Fikirləşdim, həmişəmi tazı olacağam. Bir gün bir cadugərin qapısına getdim. Cadugər mənə baxıb dedi:

- Bu Sinavər padşahdı, tula eləyiblər.

Cadugərin mənə rəhmi gəldi, məni öz donuma qaytardı.

Getdim ki, əmim qızını öldürəm. Əmim qızı məni gördü, tez mənə bir çubux vurub dedi:

- Ay eşşək, bura niyə gəlmisən.

O saat oldum bir eşşək. Axşama kimi küllüklərdə ağnayırdım. Bir kişi məni evinə apardı. Axşama kimi mənlə tikan və daş daşıyırdı. Belim tamam olmuşdu yara, gecələr mənə arpa verirdi. Mən arpa yeyə bilmirdim. Kişi elə bildi, mən damağ olmuşam. Damağımı kəsib ağzımı tamam yara elədi. Bir gün mən qaçıb cadugərin qapısına getdim. Cadugər məni yenə öz halıma salıb dedi:

- Bu dəfə əmin qızı bacarsa ya səni daş edəcək, ya da göyərçin. Göyərçin olsan, səni ancaq Simürğ adam şəklinə qaytara bilər. Ey şah, Simürğün yanına getmək üçün gedərsən bir qamış üstünə qonarsan. Dəryanın lap ortasında suyun içinə girərsən. Qara dəryanın ortasında Sümürğü görəcəksən.

Cadugərə dua eləyib qayıtdım ki, əmim qızını öldürəm. Əmim qızı cəld mənə bir çubuq vurub göyərçin elədi. Mən uçub göyün üzünə qalxdım. Bir cüt qamış gördüm. Qamışın üstünə qondum. Qamışın üstündə bir həftə uçdum. Gördüm qamış tərpənir. Düşdüm dəryaya. Qamışdan düşdüm. Gördüm Simürğün ayağına qara tikan batıb. Dimdiyimlə qara tikanı onun ayağından çəkdim. Simürğ məni insan cildinə saldı, qanadları arasına alıb öz vilayətimə gətirdi.

Mən evə getdim, tez tubulğa çubuğunu əlimə keçirib əmim qızına bir çubux vurub onu qatır elədim. Bu qatır ilə qırx gün gecə-gündüz qara tikan daşıdım. Nə qədər edirdim deyirdi:

- Qatır olaram, sənlə barışmaram.

Beli yağır oldu, yenə də mənlə barışmadı. Indi qızıl quş eləmişəm. Padşah bir çubuq vurub onu öz halına gətirdi, dedi.

- Gül, məni qəbul elə.

- Qəbul eləmərəm, sən ürəyimə dağ çəkmisən.

Sinavər padşah Gülü yenə də qızılquş elədi.

Sinavər padşah sözünü qurtardı. Oğlanın kəlləsindən bir çubux vurmaq istəyəndə, oğlan papağı qoydu başına. Onun gözünə görünmədi. Xalçanın üstündə oturub dedi:

- Xalça, pəri qızının yanında olmaq istəyirəm.

Xalça o saat göyə qalxdı, qarının və qızın yanına gətirdi. "Gül Sinavərə neylədi" əhvalatını, mən sizə nağıl elədiyim kimi, pəri qızına nağıl elədi. Qız ona könül verdi. Hər ikisi Xalçanın üstündə oturdular. Xalça onları Ibrahimin imarətinə gətirdi. Gördü köhnə imarət sökülüb yerində üç mərtəbəli imarət tikilib. Soruşdu:

- Bu imarəti kim tikdirib?

Dedilər:

- Ibrahim tikdirib.

Ibrahim o saat başa düşdü ki, Ibrahim deyilən öz sevgilisi padşah qızı olacaq. Qapını döydü. Nənəsi gedib qapını açanda gördü öz oğludu. Lap məhəttəl qaldı. Bu zaman oğlan paltarında Ibrahim adlanan padşah qızı donunda kənizlə gəlib çıxdı. Paltarlarını dəyişdi. Ibrahim və qız başlarına gələn əhvalatları, mən sizə nağıl elədiyim kimi, yığılanlara nağıl elədilər. Ibrahim toyuna başladı, qırx gün, qırx gecə toy eləyib şadlıq keçirdi. Onlar yedilər yerə keçdilər, siz də yeyin dövrə keçin.

I B R A H I M Ş A H

Naqilani asar, tutiyani şəkər şirin göftar. Belə nağıl eləyirlər ki, Samirədə Fəraməz adlı bir padşah var idi. Bu padşahın üç qızı var idi. Oğul züryəti yox idi. Bir gün Fəraməz padşah vəzirdən soruşdu:

- Vəzir, bu qızların hansı mən öləndən sonra mənim yerimdə padşah olacaq?

Vəzir dedi:

- Şahım, hansı qızın səni yıxa bilsə, o qız sənin yerində padşah olacaq.

Padşah bir gün qızlarına dedi:

- Hər gecə biriniz qoruğa gedərsiniz, oğru gəlsə, öldürərsiniz.

Qızlar dedilər:

- Ata, baş üstə, gedərik.

Birinci qoruğa, qarovul çəkməyə böyük qız getdi. Padşah gecə oğru paltarı geyinib qoruğa getdi. Böyük qız onu yaxaladı, küştü tutdular, axırda padşah onu yıxdı. Qız bunu nə bacılarına, nə də atasına demədi.

Ikinci gün qoruqda qarovul çəkməyə ortancıl qız getdi. Yenə də padşah oğru kimi pusqu ilə qoruğa getdi. Ortancıl onunla tutaşdı, padşah bunu da yıxıb xəlvət qaçıb getdi. Ortancıl qız da bunu xəlvət saxladı.

Üçüncü gün qoruğa qarovul çəkməyə kiçik qız getdi. Atası yenə də oğru paltarında qoruğa getdi. Kiçik qız onu yaxaladı, tutaşdılar. Xırda qız atasını götürüb yerə vurdu. Başını kəsmək istəyəndə, gördü saqqalı atasının saqqalına oxşayır. Onun üçün də öldürməyib buraxdı, tapşırdı ki, əgər bir də qoruğa oğurluğa gəlsən, başın bədənindən götürüləcək.

Bəli, atasını yıxandan sonra, xırda qızın dişi şirəyə batdı. Bir gün atasından gizlin bir at minib səfərə çıxdı. Gedib başqa bir padşahın vilayətinə çıxdı. Adını da Ibrahim qoymuşdu. Bir gün adamların hamısı meydançaya gedirdi. Birindən soruşdu:

- Camaat niyə meydançaya toplanır?

Ona dedilər:

- Padşah qızını ərə vermək istəyir. Bütün cavan oğlanlar onun qabağından keçəcəklər. Padşah qızı hansı cavana getmək istəsə, əlindəki almanı ona verəcək. Padşah da qızının toyunu edəcək.

Oğlan donunda olan padşah qızı da öz-özünə dedi: "Mən də gedim, padşah məni nə tanıyır? Görəcək qərib adamam, mənə alma-zad verməyəcək".

Bəli, bu qız da adamlara qoşuldu, meydançaya getdi. Cavanlar bir-bir gəlib qızın qabağından keçirdi. Padşah qızı heç kəsə alma vermirdi. Elə ki, Ibrahim keçmək istəyəndə padşah qızı bir könüldən min könülə aşiq olub, almanı ona verdi. Bunu apardılar padşahın yanına. Padşah şərtə əməl elədi, sorğu-sualsız qızını buna toy elədi. Padşah ondan soruşdu:

- Oğul, sən kimsən?

Qız dedi:

- Mən Samirə padşahının oğluyam, adım da Ibrahimdi.

Ibrahim qıznan şərt kəsdi ki, bir il bir-birinə səmt gəlməsinlər. Yaxınlıqları ancaq öpüşməkdən, zarafatdan oynamaqdan ibarət olsun. Belə də günlərini keçirirdilər. Bir gün sözləri çəp gəldi, Ibrahim padşah qızına acıqlandı. Qız gedib atasına şikayət elədi. Padşah Ibrahimi çağırıb dedi:

- Ibrahim, gərək gedib mənə qırx dərya madyanının südünü gətirəsən. O süddə çimənlər nə qocalmaz, nə də ölməzlər.

Ibrahimin atı dərya atı idi. Odur ki, padşaha dedi:

- Mənim atımın anası dəryada yaşayır. Deyərəm o verər, çimərsən.

At yolun yolağını Ibrahimə öyrətdi. Ibrahim ata mindi. At onu apardı dəryanın kənarına. O, bir yerdə gizləndi. Günorta zamanı at dəryadan kənara çıxıb ağladı, dedi:

- Mənim qara balam bu bulaqdan su içib.

Ibrahim gizlindən dedi:

- Qara balanı özünə versəm, mənə nə verərsən?

At dedi:

- Hər nə istəsən verərəm, ta ki, balamı ver.

Ibrahim dedi:

- Səndən qırx tuluq süd istəyirəm.

At dedi:

- Ibrahim, sən get evinizə. Südü biz gətirib evində sənə verərik. Səni piyada yola salmıram, qara balam səndə qalsın.

Ibrahim qayıdıb ata-anasının yanına gəldi. Görüşdülər, öpüşdülər, çox şad oldular. O biri tərəfdən ana at Ibrahimə qırx tuluq süd gətirdi. Ibrahim qırx tuluq südü aparıb padşaha verdi. Padşah ondan razılıq elədi.

Ibrahim evə getdi, yenə də padşah qızını incitdi. Qız gəlib atasına şikayət elədi. Padşah vəziri çağırıb dedi:

- Vəzir, bu Ibrahim gör nə qudurğandı ki, mənim qızımı incidir. Tədbir...

Vəzir dedi:

- Padşah sağ olsun, nə qədər ki, o qızının əridi, ona heç zad eləyə bilməyəcəksən. Onu göndər divin bağından dilli nar, dilli heyva, dilli alma gətirsin. Gedər, divin əlində ölər, canın da qurtarar. Qızını bir yaxşı oğlana ərə verərsən, onun da canı qurtarar.

Padşah vəzirin tədbirini bəyəndi. Ibrahimi çağırıb dedi:

- Gedərsən, yeddibaş divin bağından mənə dilli nar, dilli heyva, dilli alma gətirərsən.

Ibrahim gəlib ata dedi:

- Padşah məndən dilli nar, dilli heyva, dilli alma istəyir.

At dedi:

- Padşah səni öldürtmək istəyir. Amma qorxma, bacarmayacaq. Minərsən belimə. Mən səni divin bağının lap yanına aparacağam. Dərya atı olduğum üçün mənə heç şey toxunmayacaq. Sən bağa girib padşah dediyi meyvələri ağacla dərərsən. Əgər əlinlə dərsən, div duyuq düşər, səni parça-parça elər.

Ibrahim ata mindi. At onu düz divin bağının yanına apardı. Ibrahim bağa girib dilli narı, dilli heyvanı, dilli almanı ağacla dərdi, xurcunu doldurdu.

Meyvələr ha çığırdılar:

- Ay, bizi ağac dərdi.

Div fikir verməyib dedi:

- Sayaqlayırlar. Ağac da meyvə dərərmi?

Ibrahim bağdan çıxdı. Xurcunu atın belinə aşırdı, özü də mindi, meyvələri gətirib şaha verdi. Ibrahim evə qayıtdı, şah qızına ağzına gələn sözü söylədi. Qız bu dəfə də vəzirə şikayət elədi. Vəzir ona dedi:

- Zəhər ver, öldür.

Qız dedi:

- Onu çox sevirəm, əlimlə ona heç zad eləyə bilmərəm.

Vəzir padşahın yanına gedib dedi:

- Şah, oğlan qızı yenə incidib. Onu göndər flan quyuda bir meyid var, onun belində bir şal vər, o şalı kim qurşasa, dünya durduqca yaşar heç ölməz.

Padşah o saat çağırıb Ibrahimə dedi:

- Flan quyuda bir meyid var, o meyidin belində bir şal var, o şalı gərək meyidin belindən açıb gətirəsən. Mən qurşayacağam.

Oğlan dedi:

- Şah ədalətinə güc eləmə. Mən o quyunu hardan tapım. O şalı quyudan nə cür çıxarım.

Padşah dedi:

- Bilmirəm, sənə qırx gün möhlətdi, gətirməlisən.

Ibrahim atın yanına gəldi. At onu bikef görüb soruşdu:

- Ibrahim, niyə keysizsən? Yenə padşah səni hara göndərir?

Ibrahim dedi:

- Deyir, flan quyuda bir ölü var. O ölünün belində bir şal var. Gərək o şalı açıb mənə gətirəsən.

At dedi:

- Ibrahim, qəm yemə, düzələr. Minərsən belimə, səni quyunun başına apararam. Quyuya enərsən. Görəcəksən ölünün başının üstündə bir gümüş şamdan, ayağının altında bir qızıl şamdan. Onların yerlərini dəyişərsən. Qızıl şam danı götürüb meyidin başının üstünə qoyarsan, gümüş şamdanı da ayağının altına. Sonra görəcəksən meyidin yanında xörək, bir də qur`an var. Xörəyi yeyərsən, qur`anı da oxuyarsan. Sonra meyidin belindən şalı açarsan. Nə dinməzsən, nə də geri baxmazsan.

Ibrahim atı mindi, at yelə dönüb onu quyunun başına gətirdi. Ibrahim pilləkənlə quyuya endi, meyidi gördü. Baxdı ki, at dediyi kimidi. Başının üstündə gümüş şamdan, ayağının altında qızıl şamdan var. Oğlan qızıl şamdanı götürüb meyidin başının üstünə qoydu, gümüş şamdanı ayağının altına qoydu. Baxdı ki, xörək var. Xörəyi qabağına çəkib yedi. Qur`an oxudu. Sonra meyidin belindən şalı açdı. Şalı götürüb çıxmaq istəyəndə meyid çığırdı.

- Ey adam, mənim şalımı aparıb, məni şalsız qoyma!

Ibrahim dinməz quyudan çıxmağa başladı. Meyid dedi:

- Ey mənim şalımı aparan oğlansansa qız olasan, qızsansa oğlan olasan.

Oğlan kənara çıxanda bildi ki, oğlan olub. Ata mindi, şalı aparıb padşaha verdi. Gülə-gülə evinə getdi, padşah qızını bağrına basdı. Qucaqlaşıb bir yerdə yatdılar. Qız çox şad oldu. Qız lap tezdən atasının və vəzirin yanına gedib dedi:

- Oğlan şalı gətirməyə gedəndən sonra dəyişilib, lap yaxşı oğlan olub.

Padşahla vəzir də şad oldular. Bəli, Ibrahim bir müddət padşah qızı ilə mehriban yaşadı. Padşahdan icazə aldı, arvadını da götürüb öz ölkəsinə getdi. Atasına muştuluqçu getdi ki, bəs oğlun Ibrahim gəlir. Padşah vəzirə dedi:

- Vəzir, mənim ki, oğlum yoxdu. Görəsən bu kimdi?

Vəzir dedi:

- Hər kəsdisə, səni özünə ata hesab eləyir. Çıxaq pişvazına.

Padşah vəzir-vəkillə, ə`yan-əşrəflə Ibrahimin pişvazına çıxdılar. Onu təntənə ilə bargaha gətirdilər.

Padşah ondan soruşdu:

- Ey cavan, sən kimsən?

Ibrahim dedi:

- Mən sənin oğlunam, məgər məni tanımırsan?

Padşah dedi:

- Axı mənim oğlum yoxdu.

Ibrahim dedi:

- Bir vaxt vəzir sənə dedi ki, sənin qızlarından hansı yıxsa, yerində padşah olacaq. Sən də qızların hər gecə birini qarovulda qoydun. Gecə ikisini yıxdın. Amma xırda qız səni yıxdı. Qız səni yıxandan sonra yox oldu. Başqa ölkəyə getdi. O mənəm.

Padşah məhəttəl qalıb dedi:

- Necə o mənəm, axı sən oğlansan! Başa düşmürəm. Bu necə əhvalatdı?

Ibrahim başına gələn əhvalatı, mən sizə nağıl elədiyim kimi, atasına nağıl elədi, dedi:

- Axırda padşah məni öldürtmək üçün quyuda olan ölünün şalını gətirməyə göndərdi. Gedib şalı gətirəndə ölü mənə dedi: "Oğlansan qız olasan, qızsan oğlan olasan". Mən də oğlan oldum. Bu da sizin gəlininizdi. Rum padşahının qızıdı.

Padşah çox sevindi, şadyanalıq keçirdi. Qırx gün, qırx gecə oğlu Ibrahimə toy elədi. Onu öz taxtında əyləşdirdi, tacını başından götürüb onun başına qoydu. Ibrahim ədalətli bir padşah olub dövran keçirdi, ömrünü başa verdi.

I K I Y O L D A Ş

Biri varıymış, biri yoxuymuş, bir qarının Ilyas adında bir nəvəsi varıymış. Ilyas həm gözəl, həm də ağıllı iymiş.

Nənə-bala çox əzab-əziyyətlə, kasıblıqla dolanırmış. Qarı yun əyirib corab toxuyarmış, Ilyas da aparıb bazarda satarmış.

Ilyasla nənəsi nə qədər çalışırlarmış ki, güzaranları bir az yaxşılaşsın, amma heç bir şey çıxmırmış. Axırda Ilyas təngə gəlib, nənəsinə dedi:

- Nənə, görürsən ki, corab toxuyub satmaqla heç nə qazana bilmirik, indi mən istəyirəm kəndimizdən baş götürüb gedəm özgə şəhərlərə, kəndlərə, bəlkə oralarda bir işdən-gücdən tapıb işləyəm, bir az puldan-paradan qazanam.

Qarı əvvəlcə istədi nəvəsini buraxmasın. Dedi:

- Oğul, sən hələ uşaqsan ağzınnan süd iyi gəlir, haranı tanıyırsan ki, ora gedəsən. Gedərsən yolda-izdə nanəcibə rast olarsan. Gəl sən heç yerə getmə, mən də qocalmışam, bir əlimnən tutanım yoxdur. Məni qoyub hara gedirsən?

Ilyas dedi:

- Nənə, qorxma, hara getsəm tez qayıdıb gələcəm, sən mənə xeyir-duva ver, dalısıycan işin olmasın.

Qarı gördü nəvəsinin tərs damarına düşüb, dediyinnən dönməyəcək, dedi:

- Oğul, indi ki, sözümə baxmırsan, get, allah köməyin olsun. Amma sənə üç söz öyrədəcəm. Yolda bir adamla yoldaşlıq eləsən bu sözləri yadına salıb o adamı sınayarsan.

Qarı gətirib Ilyasın heybəsinə dörd fətir, bir az da soğannan, şordan qoydu, özünə də tapşırdı:

- Yolda sənə yoldaşlıq eləmək istəyən bir adama rast olsan bir az gedəndən sonra bu fətirin birini çıxardıb verərsən həmin adama, özünə də deyərsən ki, kəs yeyək. Əgər həmin adam fətirin çox hissəsini kəsib özü götürsə, az hissəsini sənə versə, bil ki, o adam tamahkardı, sənə zərər verər, bir bəhanə tapıb ondan ayrılarsan. Yox, əgər fətiri ya tən bölsə, ya da çox hissəsini sənə verib, az hissəsini özü götürsə, onda onunla yol yoldaşı olarsan. Bir az gedənnən sonra bəhanə eləyib deyərsən ki, məni burda bir saat gözlə, dəyəsi yerim var, ora dəyib gəlirəm, gedib kənardan baxarsan, əgər həmin adam səni gözləsə, onunla ürəkdən dost olarsan. Yox, çıxıb getsə, ondan uzaq olarsan. Üçüncü sözüm də odur ki, əgər qabağınıza çay çıxsa, sən yoldaşına deyərsən ki, gəl min dalıma, sudan keçirdim. Əgər o dalına minsə, ondan da uzaq olarsan, yox, işdi, o səni dalına alıb çaydan keçirsə, onnan əl çəkməzsən.

Qarı nəsihətini eləyib, xeyir-duvasını verənnən sonra Ilyas başladı yol getməyin binasın qoymağa. Az getdi, çox getdi, yolda bir adama rast oldu. Bu adam ədəb-ərkanla Ilyasa salam verib dedi:

- Qardaş, xeyir ola, hara belə gedirsən?

Ilyas dedi:

- Uzağa səfərim var.

Həmin adam dedi:

- Elə mən də səfərə çıxmışam, təkcə getmək çətindi, sənnən yol yoldaşı olaram, söhbət eləyə-eləyə gedərik.

Ilyas dedi:

- Yaxşı olar, mən də özümə bir belə yol yoldaşı axtarırdım.

Ilyasla həmin adam bir xeyli yol getdilər. Bir bulağın başına çatanda Ilyas dedi:

- Qardaş, mən yaman acmışam, bir az oturaq çörək yeyək.

Hər ikisi oturdular bulağın başında, göy otluğun üstündə. Ilyas heybəsindən bir dənə fətir çıxardıb verdi həmin adama, dedi:

- Al, bu fətiri yarı böl, yeyək.

Həmin adam fətiri kəsib çox payını özünə götürdü, az hissəsini Ilyasa verdi. Ilyas bir altdan yuxarı baxıb, gördü ki, həmin adamın gözündən elə bil cin çıxır, ürəyində dedi:

- Hə, sənnən mənə yoldaş olmadı.

Bir az çörək yeyəndən sonra dinclərini alıb, təzədən başladılar yol getməyə. Bir xeyli yol gedəndən sonra birdən Ilyas dedi:

- Qardaş, sən məni burda bir saat gözlə, bu yaxın kənddə bir balaca işim var, ora dəyim, sonra qayıdıb gedərik.

Kişi razı oldu. Ilyas bir təpənin dalında gizləndi.

Bir də gördü ki, kişi heç beş dəqiqə də gözləmədi. Elə Ilyas bu tərəfə gələn kimi, o da başladı o biri tərəfə getməyə.

Kişi uzaxlaşıb gedəndən sonra Ilyas ayrı yolnan başladı getməyə. Bir xeyli gedəndən sonra indi də qabağına bir cavan oğlan çıxdı. Ilyas bu oğlanla başladı söhbətə. Bu oğlan da Ilyasdan xəbər aldı:

- Qardaş, xeyir ola, səfərin haradı?

Ilyas dedi:

- Heç, gedirəm bir iş tapıb işləyəm, bir az puldan paradan qazanam.

Oğlan dedi:

- Elə mən də özümə bir sənin kimi yoldaş axtarırdım, yaxşı oldu səni tapdım.

Ilyasnan oğlan şirin söhbət eləyə-eləyə başladılar yol getməyə. Bir az gedənnən sonra Ilyas dedi:

- Qardaş, mən yaman acmışam, bir az oturaq çörək yeyək.

Oğlan razı oldu. Oturdular yolun kənarında, bir göy otluğun üstündə. Ilyas heybəsindən bir fətir çıxardıb verdi oğlana, dedi:

- Al, bu fətiri böl, yeyək.

Oğlan fətiri yarı bölüb, çoxunu Ilyasa verdi. Ilyasın bu iş çox xoşuna gəldi, ürəyində dedi: "Deyəsən elə mən axtardığım adamı tapmışam!".

Hər ikisi çörəklərini yeyib durdular ayağa, başladılar yol getməyə. Ilyas oğlanı sınamaq üçün nənəsinin ikinci sözünü də yadına saldı, dedi:

- Qardaş, gəlsənə məni burda bir saat gözləyəsən, bu yaxın kənddə mənim bir balaca işim var, onu düzəldim, sonra gəlim bir yerdə gedək.

Oğlan dedi:

- Get, arxayın ol, lap sabaha qədər də gəlməsən səni burda gözləyəcəyəm.

Ilyas oğlannan ayrılıb bir xeyli getdi. Bir ağacın dalında gizlənib başladı baxmağa. Gördü ki, yox, bu oğlan heç yerinnən də tərpənmir. Oturub onu gözləyir. Ilyas bir az ora-bura gedib axırda gördü oğlan sədaqətli adama oxşayır, odur ki, gəldi yanına, dedi:

- Qardaş, çox sağ ol, məni çox gözləmiyəsən deyə tez qayıtdım, di dur gedək.

Oğlanla Ilyas təzədən başladılar yol getməyə. O qədər getdilər ki, axırda gəlib çatdılar bir çayın qırağına. Ilyas öz-özünə dedi ki, atalar üçə qədər deyiblər, gəl elə bu dəfə də oğlanı sına. Dedi:

- Qardaş, indi bu çaydan keçmək lazımdı, ikimiz də qılçalarımızı çırmayınca elə mən soyunum səni alım dalıma, keçək o tərəfə.

Oğlan dedi:

- Qardaş, elə iş yoxdur, mən dura-dura qoymaram ki, sən soyunub məni dalına alasan. Gəl min dalıma, mən səni keçirəcəm.

Oğlan tez qılçalarını çırmayıb Ilyası aldı dalına, çaydan keçirib qoydu o tərəfdə yerə. Ilyas tamam arxayın oldu ki, nənəsinin dediyi adam elə budur.

Ilyasnan oğlan o qədər biri-birinə isnişmişdilər ki, yolun uzaxlığı heç yadlarına da düşmürdü. Bir də başlarını qaldırıb gördülər ki, hər yan düzənlik, çəmənlikdir. Qabaxlarında isə ucu-bucağı görünməyən bir dərya var.

Dəryanın lap kənarında qəşəng bir hündür bina var. Amma uzaxda bir çoban qoyun otarır. Gedib çobandan xəbər aldılar:

- Çoban qardaş, de görək bu ev kimindi, niyə buralarda başqa ev-eşik görünmür?

Çoban dedi:

- Qardaş, bura şəhər deyil, kənd deyil. Qaldı o böyük bina, orda bu torpaxlar padşahının qızı olur. Qız analığının zülmünnən cana doyub, gəlib burda insan ayağı dəyməyən bir yerdə bu binanı tikdirib, təkcə ömür, gün keçirir.

Onun yanında kişi tayfası yoxdur, amma çoxlu qulluqçuları, qarabaşları var.

Ilyas bu əhvalatı eşidəndən sonra başını aşağı salıb başladı fikir eləməyə. Oğlan gördü Ilyas qəm dəryasına batıb, soruşdu:

- Qardaş, düzünü de görüm sənə nə oldu belə fikrə getdin?

Ilyas dedi:

- Hal-qaziyə, allahdan gizli deyil, bəndədən nə gizlin, çoban bu əhvalatı söyləyəndə ürəyimnən keçdi ki, nə olaydı, o qızı bircə dəfə görə biləydim.

Oğlan dedi:

- Qardaş, bu mənim əlimdə bir su içimi kimidir. Indi ki, belə oldu, sən çobandan bir keçi al, dalısıynan işin olmasın.

Ilyas o saat çobana pul verib ondan bir yaxşı keçi aldı, keçini qabaxlarına alıb gəldilər düz qızın külafirəngisinin qabağına. Oğlan dedi:

- Ilyas, mən nə eləsəm, sən mənnən heç nə soruşma. Sonra özün görəcəksən ki, mən niyə belə eləyirəm. Bəli, oğlan keçini yerə uzadıb başladı qulağını qatlayıb əzməyə. Keçi qulağının əzildiyinə dözə bilməyib bərkdən bəyirdi. Oğlan gah keçinin quyruğunu qatladı, gah tükünü yoldu, gah da qulağını əzdi. Keçi ağrıya dözə bilməyib hey bəyirirdi. Keçinin səsinə şahzadə qız yuxudan ayılıb qulluqçusuna dedi:

- A qız, get gör bu nə səs-küydü.

Qız külafirəngiyə çıxıb gördü iki adam keçini gah o tərəfə çevirir, gah bu tərəfə, quyruğunu qatlayır, qulağını əzirlər. Qız dedi:

- Ay qardaşlar, siz neyləyirsiniz?

Oğlan dedi:

- Bu keçini kəsmək istəyirik, amma təhərini bilmirik.

Qulluqçu qız bərkdən gülüb dedi:

- Qəribə kişidilər, bir keçini kəsə bilmirlər.

Qız gedib xanımına dedi:

- Xanım, iki bığıburma cavan oğlan bir keçini kəsə bilmirlər.

Xanım bu işə bir az gülüb, qulluqçusuna dedi:

- Ay qız, bir biçaq götür get, onlara öyrət ki, keçini necə kəsərlər.

Qulluqçu qız əlində biçaq Ilyasgilə sarı getməkdə olsun, görək Ilyas neylədi. Bu vaxt idi ki, şahzadə qız külafirəngidən baxırdı.

Oğlan dedi:

- Qardaş, gördün fəndim baş tutdu, şahzadə qız külafirəngiyə çıxdı, indi nə qədər keyfindi bax.

Ilyas baxıb gördü ilahi pərvərdigarə, bu elə bir gözəl qızdı adam baxanda ağzının suyu tökülür. Qız bir az baxandan sonra getdi evə.

Oğlan dedi:

- Qardaş, de görüm şahzadə xoşuna gəlir, ya yox?

Ilyas dedi:

- Vallah qız o qədər xoşuma gəldi ki, onu bircə dəfə də görsəm, ölsəm də ürəyimdə dərdim qalmaz.

Oğlan dedi:

- Yaxşı, bu dəfə də onu sənə göstərərəm.

Indi də oğlan başladı ki, guya keçini soya bilmir. Bir ağac özü götürüb, birini də verdi Ilyasa. Özünə də öyrətdi ki, qışqır-bağır sala-sala keçinin cəmdəyini başla döyəcləməyə. Oğlanla Ilyas keçinin cəmdəyinə bir hərəkət gəldilər ki, şappıltı az qalırdı yeddi ağaclıq yol getsin.

Bu hay-küyü eşidib şahzadə qız yenə çıxdı külafirəngiyə, gördü bu iki oğlan elə hey keçinin cəmdəyinə ağac vururlar. Şahzadə yenə qulluqçusuna dedi:

- Soruş gör, indi nə eləmək istəyirlər.

Qulluqçu səslədi:

- Ay çobanlar, nə eləmək istəyirsiniz?

Dedilər:

- Keçinin dərisini soymaq istəyirik, amma bilmirik necə soyaq.

Şahzadə qız dedi:

- Qız, bunlar yazıq, avam adama oxşayırlar, get onları çağır həyətə, özlərinə də öyrət ki, keçini necə soyarlar.

Qulluqçu gedib xanımının tapşırığını bunlara yetirdi. Elə bunlar da onu istəyirdi ki, bir təhər həyətə girsinlər. Tələsik keçini də götürüb getdilər həyətə. Qulluqçu bunlara keçini soymaq qaydasını öyrətdi. Ilyasnan oğlan yalannan hıqqana-hıqqana o qədər əlləşdilər ki, axşam şər qarışdı. Oğlan qulluqçuya dedi.

- Qəşəng qız, get xanımına de ki, bunlar qərib adamlardı, qalmağa heç bir yerləri yoxdu, bu gecəliyə bizə yatmağa bir yer versin, səhər durub gedərik.

Qulluqçu gedib xanımına dedi. Xanım razılıq verib, tapşırdı ki, onlara bir otaqda yer versin. Qız gəlib Ilyasla yoldaşını apardı bir evə. Tapşırdı ki, burda gecələyin, amma səhər durub gedərsiniz. Qız getdi ki, bunlara yorğan-döşək gətirsin. Ilyas dedi:

- Qardaş, xanımı görmək istəyirəm, nə eləyək ki, onu bir də görüm.

Oğlan dedi:

- Bu dəfə qorxuram gəlməyə.

Ilyas əl çəkmədi ki, gör bir təhər eləyə bilərsənmi. Oğlan dedi:

- Indi ki, elə oldu, onda sən başını qoy yerə, ayaxlarını qaldır yuxarı, qulluqçu gəlib səni belə görsün, sonra dalısıynan işin olmasın.

Ilyas ayaxlarını göyə qaldırıb təpəsi üstə dayandı. Bu halətdə qulluqçu əlində yorğan-döşək içəri girdi. Xəbər aldı:

- Bu niyə təpəsi üstə durub?

Oğlan dedi:

- Bizim yerlərdə adamlar belə yatırlar.

Qız gəlib əhvalatı xanımına danışdı. Xanım gəlib özü bu əhvalatı gördü, başladı bunları ordan-burdan danışdırıb ürəklərini öyrənməyə. Xanım başa düşdü ki, bunların kələyi var, əmr elədi, o saat ikisini də qapıdan eşiyə atdılar.

Ilyasla oğlan qaldılar gecənin qaranlığında düzün üzündə. Bir xeyli gedənnən sonra qabaxlarına bir qəbiristanlıq çıxdı. Bərk yağış yağıb, yel əsirdi. Eşikdə qalmaq mümkün deyildi. Oranı-buranı axtarıb bir də gördülər ki, qəbirlərin arasından yerin altına bir lağım gedir. Lağımnan bir az gedib çıxdılar bir yekə sərdabənin içinə. Gördülər sərdabənin küncündə beş-altı meyit də var. Ilyasla oğlanı vahimə bürüdü, amma neyləsinlər, eşikdə qalıb qurt-quş dağıdınca elə burda qalmağı məsləhət bildilər.

Ilyasla oğlan yenicə yanlarını yerə qoyub dincəlmək istəyəndə, gördülər lağımın içindən adam səsi gəlir, elə bil ağır bir şey gətirirlər. Ilyası vahimə basdı. Oğlan dedi:

- Qardaş, deyəsən bu gələn quldurlara oxşayır, özü də bura onların gizlənmək yerləridir. Indi bizim bircə yolumuz var, o yolnan qurtara bildik qurtardıq, yox, qurtara bilməsək, hökmən bizi öldürəcəklər. Indi gəl hərəmiz o ölülərin kəfənini üstümüzə örtək, uzanaq meyitlərin arasında, əgər bizi ölü bilib dəymədilər, səhər durub qaçarıq, yox, işi başa düşsələr, onda mən tez kəfəni üstümnən atıb deyəcəm:

- Ey ölülər, nə durubsunuz, qalxın ayağa, bu insanları qıraq, canımız onların əlindən qurtarsın. O saat mənim sözüm ağzımdan çıxan kimi sən də kəfəni onların üstünə atıb de ki, gəlin bunları qıraq. Onda quldurlar qorxub qaçarlar. Onlar qaçandan sonra biz də çıxıb gedərik. Oğlan sözünü deyib işıqları keçirdi, kəfəni çəkdi üstünə, amma gözünün ucuyla kəfənin altınnan baxırdı ki, görsün bu gələnlər kimdi, budu, qırx quldur dalbadal doldular sərdabənin içinə. Quldurbaşı əmr elədi, işıqları yandırdılar, ortalığa o qədər qızıl, gümüş, daş-qaş tökdülər ki, gəl görəsən. Başladılar bölüşdürməyə. Gətirdikləri şeylərin hamısını tən yarı böldülər, amma bu şeylərin içində bir qəşəng qılınc var idi. Qılıncın qəbzəsi, qını tamam başdan-ayağa lə`l-cavahiratla bəzədilmişdi. Hamının qılıncda gözü var idi. Quldurbaşı dedi:

- Hər kim bu qılıncla yerdəki meyitləri bircə dəfə vurmaqla tən yarı bölə bilsə, qılınc onun olacaq.

Quldurbaşı qılıncı əlinə götürüb getdi ki, əvvəlcə meyiti özü iki bölsün. Qılıncı qaldırdı ki, oğlanı iki bölsün. Tez oğlan yerdən sıçrayıb kəfəni atdı onun üstünə, bərkdən qışqırıb dedi:

- Ey bədbəxt ölülər, nə durmusunuz, görmürsünüzmü bu insanlar bizi qəbirdə rahat yatmağa da qoymurlar, tez qalxın bunların hamısın qıraq, canımız dincəlsin.

Söz oğlanın ağzınnan qurtarmamış, Ilyas ondan da bərk qışqırıb qalxdı ayağa:

- Qardaş, gəl buları qıraq.

Quldurları vahimə bürüdü. Qızıl-gümüşü də burda qoyub başladılar qaçmağa. Quldurlar qaçandan sonra Ilyasla oğlan qızılları böldülər. Qılıncı da oğlan götürdü. Quldurlar gedib bir xeyli fikirləşdilər ki, bu nə olan işdir, bəlkə bizi qara basır. Odur ki, quldurbaşı qoçaq, ürəkli oğlanlardan iki nəfərini göndərir ki, gedib görsünlər ölülər ordadı, ya qaçıblar. Quldurlardan iki nəfəri yaraqlanıb-yasaqlanıb qayıtdılar qəbiristanlığa. Sinə-sinə, yavaşca, ayaxlarının ucu ilə yeriyib sərdabənin qapısından baxdılar. Ilyasla oğlan gördülər ki, hənir gəlir. Oğlan başa düşdü ki, gələn quldurlardandı, onları yoxlamağa gəliblər. Ilyasın qulağına pıçıldadı ki, sən dava salıb de ki, heç olmasa mənə bir quruş verin. Bəli, Ilyas o saat başladı qışqırmağa ki, di mənim də bir quruşumu verin. Oğlan dedi:

- Ay ölülər, gördünüz pulları payladım, hərənizə bir quruş düşdü, indi daha qızıl qalmadı ki, hamınıza verəm. Gözləyin, bəlkə buralara bir adam gəlsə, onu öldürüb sizin quruşunuzu da verərik. Oğlan tez əlin atıb qapıdan busan adamın papağını götürüb atdı Ilyasın üstünə, özünə də dedi:

- Al, allahın yetirdi, quldurlar qaçanda birinin papağı qapının küncünə ilişib qalıb, bu da sənin bir quruşunun əvəzi.

Qapıdakı iki nəfər bu əhvalatı görən kimi başladılar əkilməyə. Düz gəlib başçılarına söylədilər ki, sərdabədə o qədər meyit var ki, qızılların hamısını bölüşüblər. Hələ üstəlik mənim papağımı da alıb birinə verdilər.

Quldurlar qaçıb gizlənməkdə olsun. Ilyasla oğlan qızılları yığışdırıb gecəynən yol başladılar getməyə. Gethaget, gethaget, gəlib çatdılar Ilyasın evinə. Başladılar yeyib-içib keyf çəkməyə. Bir neçə gündən sonra Ilyas qızıllardan bir az da xırdalayıb özünə toy tədarükü görməyə başladı.

Bunlar burda qalsınlar, görək qırx quldur necə oldu.

Həmin gecəni səhərə qədər quldurlar yatmadılar, fikirləşdilər ki, burda deyəsən kələk var, heç ölü də dirilib pul bölüşərmi. Yəqin görəsən hansı lotu imiş bizə kələk gəlib, biz də qorxub qaçmışıq. Səhər sübh tezdən qırx quldurun hamısı yaraqlı-yasaqlı gəldilər qəbiristanlığa. Girdilər sərdabəyə, gördülər ölü nədi, zad nədi, lələ köçüb yurdu qalıb. Lap yəqin elədilər ki, axşam bunları qorxudan ölü yox, diri adamlar imiş. Düşdülər hər yeri axtarmağa. Bir-iki gündən sonra soraq aldılar ki, bəs Ilyas hardansa çoxlu qızıl tapıb, toy eləyib evlənmək istəyir. Quldurlar yəqin elədilər ki, yeməyə çörək tapmayan Ilyas bu qədər qızılı hardan ala bilər, elə bizim qızıllarımızı aparıb. Quldurlar gecənin bir vaxtı doluşdular Ilyasın evinə, qılınclarını çəkib dedilər:

- De görək bizim qızılları hara qoyubsan? Deməsən səni tikə-tikə doğrayacayıq!

Ilyas dedi:

- Qardaşlar, bir az səbirli olun, qılıncları taxın yerinə. Qızıllarınızın hamısı durur. Nə vaxt istəyirsiniz götürüb apara bilərsiniz.

Quldurlar Ilyasın sözündən sonra bir az sakit olub oturdular. Oğlan dedi:

- Ey quldur qardaşlar, siz gördünüzmü biz qəbiristanlıqda sizə nə kələk gəldik. Özümüz də əhli-keyf adamıq, gəlin dostlaşaq, gecənin bu vaxtı harda gedib qalacaqsınız, bu gecə bizə qonaq olun, yatın burda, səhər tezdən qızıllarınızı da götürüb gedərsiniz.

Quldurlar fikirləşdilər ki, gecədən xeyli keçib, doğrudan da gedib qalmağa başqa yerləri yoxdur. Bir də iki-üç adam qırx quldura nə eləyə bilər. Razı oldular gecələməyə. Quldurlar hərəsi evin bir tərəfinə döşənib yatmaqda olsun, sizə xəbər verim Ilyasın dostundan. Oğlan eşiyə çıxıb tez quldurların birinin atını minib özünü yetirdi padşahın yanına, əhvalatı danışdı:

- Sənin xəzinəni yaran qırx quldur bu saat bizdədir, tez qoşun göndər tutsunlar.

Padşah əmr elədi, qoşun Ilyasın evin üzük qaşı kimi mühasirəyə aldı. Quldurların hamısını tutdular. Ilyasla oğlan qızıllardan bir xeyli gizlədib özlərinə saxladılar, qalanını padşahın adamları apardı.

Ilyas həmin pulnan bir yaxşı imarət tikdirdi. Özünə ev-eşik düzəltdi. Ilyas ha istəyirdi ki, yolda gördüyü qızı yadından çıxartsın, çıxarda bilmirdi. Dərdini yoldaşına danışdı. Oğlan dedi:

- Ilyas, bilirəm sən o qızı almaq istəyirsən. Amma onu elə-belə asanlıqla ala bilməzsən. Burda bir tədbir işlətmək lazımdır. Əgər biz elə-belə bu paltarda bir də ora getsək, qız o saat tanıyacaq. Gedib hərəmizə bir yaxşı köhlən at, bir dəst gözəl şahanə paltar alarsan.

Ilyas gedib oğlanın dediklərini elə həmin gün tapdı.

Ilyas nənəsini evdə qoydu, ata suvar olub, yoldaşıynan getdilər. Gəlib çıxdılar həmin qızın imarətinin qabağına. O qədər gözlədilər ki, axşam qaranlığı düşdü. Oğlan gəlib darvazanı bərkdən döydü. O, saat qulluqçulardan biri gəlib qapını açıb dedi:

- Ay qardaş, kimsiniz, nəçisiniz? Gecənin bu vaxtı kimi istəyirsiniz? Oğlan dedi:

- Bacı, uzaq yerdən gəlirik, qərib adamıq, qalmağa yerimiz yoxdu. Bu gecəliyə bir yer verin, yataq, səhər durub gedərik.

Qulluqçu dedi:

- Ay qardaşlar, burda durun, gedim xanıma deyim, icazə versə gələrsiniz.

Qız gedib xanımına əhvalatı söylədi. Xanım dedi:

- Yoxsa o keçini kəsə bilməyən adamlardı?

Quluqçu dedi:

- Xanım, yox, bunlar əməlli-başlı adamdılar. Şahzadəyə oxşayırlar.

Xanım razılıq verdi. Quluqçu gedib onları içəri buraxdı. Xanımın qulluqçuya ürəyi qızmadı, özü çıxıb onları yoxlamaq istədi. Qulluqçuya dedi:

- Tövlədən bir qoç gətir qonaqlar kəssinlər.

Oğlan bu sözü eşidən kimi Ilyasın qulağına pıçıldadı ki, nə durmusan, qız bizi yoxlamaq istəyir. Qoçu elə kəsib soyarsan ki, elə bil bir sərçə başı kəsirsən. Qız qoçu gətirən kimi Ilyasnan oğlan bir göz qırpımında qoçun başını kəsib, soyub şaqqaladılar. Xanım baxıb gördü yox, bunlar igid adamdılar. Onlara əməlli-başlı yer verdirib getdi. Oğlanlar çörəkdən-xörəkdən yeyib yatdılar. Səhər açıldı. Qız onların yanına gəlib dedi:

- Axı mən heç sizdən soruşmadım ki, kimsiniz, hardan gəlib hara gedirsiniz?

Ilyas bir ah çəkdi, dedi:

- Xanım, vallah düzünü deməyə utanıram, səni də aldatmaq istəmirəm.

Qız dedi:

- Nədən utanırsan, de. Bəlkə dərdinə əlac elədik.

Ilyas dedi:

- Vallah allahdan gizlin deyil, bəndədən nə gizlin, bir analığım var idi. Mənə o qədər divan elədi, o qədər şər-böhtan atdı ki, axırda onun əlindən cana doyub baş götürüb çıxdım. Indi hara gedəcəyimi özüm də bilmirəm.

Qız dedi:

- Elə bunu deməyə utanırdın.

Ilyas dedi:

- Xanım, bəli, bunu deməyə utanırdım. Qorxurdum deyəsən ki, sən necə kişisən ki, bir arvadın əlindən baş götürüb qaçırsan. Mən şahlarla, şahzadələrnən vuruşmuşam. Nər kimi pəhlivanların arxasını yerə vurmuşam. Şirlər, pələnglərlə üz-üzə gəlmişəm. Amma arvada əl qaldırıb, qılınc vurmağı özümə ar bilirəm. Odu ki, baş götürüb, bu diyardan uzaqlaşmışam. Indi xanım, mənim bu fikirlərim sənə bir təhər gələr. Çünki belə işlər sənin başına gəlməyib. Bir də yaxşı deyiblər, kotan nə bilir qayış nə çəkir.

Xanım dedi:

- Oğlan, mən görürəm ki, sən yaxşı adama oxşayırsan. Mən də öz dərdimi sənə deyim, qulaq as. Mən də səndən dərdli adamam. Analığımın zülmündən, şərindən, xatasından baş götürüb bu diyara gəlmişəm.

Xanımın ürəyi yumşalmışdı. Bütün başına gələn qəzavü-qədərin hamısını birbəbir Ilyasa nağıl elədi. Qız dedi:

- Oğlan, bəs indi nə eləmək fikrindəsən?

Ilyas dedi:

- Xanım, vallah mən burda qərib, yersiz, kimsəsiz adamam. Indi hara gedəcəyimi özüm də bilmirəm. Biz də səndə bir gecəliyə yer istəmişdik. Indi çıxıb getməliyik.

Xanım dedi:

- Ey oğlan, əgər yerə görə getmək istəyirsinizsə, getməyin. Nə qədər istəyirsiniz qalın.

Ilyas xanımnan çox razılıq eləyib dedi:

- Xanım, sizə zəhmət versək də keçib, onda bir neçə gün qalıb fikirləşək.

Bəli, aradan beş gün, on gün keçdi. Qız Ilyasa tamam alışdı. Elə oldu ki, Ilyas bir-iki saat evdən çıxanda qız onnan ötəri darıxası oldu. Ilyasın yoldaşı gördü qız tamam məhəbbətini salıb oğlana. Ilyası bir tərəfə çəkib dedi:

- Indi sən qıza de ki, daha biz yığışıb, getmək istəyirik, nə deyirsən?

Ilyas elə də elədi. Xanımın yanına gedib dedi.

- Xanım, sən bizə o qədər hörmət elədin ki, biz bilmirik bu hörmətin əvəzini necə çıxacayıq. Indi çıxıb getmək istəyirik. Sən nə məsləhət görürsən?

Xanım bu sözləri eşidən kimi, gözləri doluxsundu, bir ah çəkib, başını aşağı saldı. Ilyas gördü firsətdi, dedi:

- Xanım, niyə ah çəkdin?

Qız əvvəlcə səbəbini demək istəmədi. Ilyas çox yalvar yapış eliyənnən sonra qız utana-utana dedi:

- Vallah sənə o qədər isnişmişdim ki, indi getməyini istəmirəm.

Ilyas dedi:

- Xanım, onu bil ki, mən getmək istəsəm də ürəyim burda qalır. Mən sənin məhəbbətini çoxdan ürəyimə salmışdım. Gəl götürüm səni gedək mənim vətənimə, orda bir yaxşı toy eləyib evlənək.

Qız bir xeyli fikirləşəndən sonra, başını aşağı salıb, razılıq işarəsi verdi. Elə həmin günü atları, dəvələri yükləyib, qızın qul-qarabaşını da götürüb, yola düşdülər. Yola düşməmişdən əvvəl qız dedi:

- Bu evi-eşiyi burda qoyub gedirik. Mən bir neçə söz yazım, apar vur qapının başına. Qız qələmi əlinə alıb bir kağıza yazdı: "Ey bu yoldan keçən qərib adamlar, bu evi sizə halal eləyirəm. Ölənə kimi qalıb gününüzü keçirə bilərsiniz".

Ilyas həmin kağızı aparıb, darvaza qapısına yapışdırdı. Sonra yol başlayıb gəldilər Ilyasın evinə üç gün, üç gecə toy eləyib evləndilər.

Ilyasın yoldaşı da kimsəsiz adam idi deyə o da qaldı bunların yanında. Ilyas nənəsini də yanına gətirib, keyf-damağnan ömür sürüb, gün keçirdilər. Siz də xoş günlər görüb, uzun ömür sürəsiniz.

I L Y A S I N N A Ğ I L I

Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik edər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı sındı. Hamamçının tası yox, baltaçının baltası yox, orda bir tazı gördüm, onun da xaltası yox. Günlərin bir günündə, Məmməd Nəsir tinində. Biri var idi, biri yox idi, allahdan başqa heç kim yox idi. Çoxlu şilaşı yemişəm, belə yalan deməmişəm. Bir tacir var idi. Bu tacirin Ilyas adlı bir qulu var idi. Tacir Ilyası öz oğlu kimi istəyirdi. Ilyas da taciri öz dədəsi kimi.

Bir gün tacir əlində olan var-yox mayasını batırdı. Tacir çox fikirli-fikirli oturmuşdu. Ilyas bunu qüssəli görüb yanına gəldi, dedi:

- Ağa, nə fikir eləyirsən? Dərdini de, bəlkə çarə elədim.

Tacir gülüb dedi:

- Ay Ilyas, sən bir qul adamsan, mənim dərdimə nə çarə eləyə bilərsən?

Ilyas dedi:

- Ay ağa, sən özün bilirsən ki, mən səni nə qədər istəyirəm. Bəlkə ikimiz bir yerdə dərdüvə dərman elədik.

Tacirin çarəsi kəsildi, dedi:

- Ilyas, mən var-yox mayamı batırmışam. Indi əlimdə bir qəpik mayam yoxdu. Onun fikrini eləyirəm ki, indi mən nə eləyəcəyəm.

Ilyas dedi:

- Ağa, bunnan hasan şey yoxdu, apar məni sat, həmin pulu əlində maya elə!

Tacir gülüb dedi:

- Ilyas, əvvəl, mən səni çox istəyirəm. Necə səni aparım satım? Bir də ki, sənə nə pul verəcəklər ki, mən onu əlimdə maya eləyim?

Ilyas dedi:

- Ağa, mən qiymətli qulam. Mən dünyada üç şeyi yaxşı tanıyıram. Atı, daş-qaşı, adamı. Odu ki, apar məni bazara, beş yüz tümənnən aşağı satma. Həmin pulu gətir, əlində maya elə!

Tacir bir az fikir elədi, gördü başqa çarə yoxdu. Ilyası qul meydanına apardı. Kim gəlib qiymət soruşurdu, tacir beş yüz tümən deyib, özü də üç şey bildiyini xəbər verirdi.

Bu vaxt padşahın vəziri buradan keçirdi. Bu səsi eşidib tacirin yanına gəldi, dedi:

- Qulu neçə deyirsən?

- Beş yüz tümən deyirəm. Özü də üç şeyi yaxşı tanıyır: adamı, atı, daş-qaşı.

Vəzir dedi:

- Sən dəli olmusan nədi? Heç padşahın bütün qulları beş yüz tümənə dəyməz. Sən bu qulu beş yüz tümənə deyirsən?

Tacir dedi:

- Bu qulun qiyməti hələ beş yüzdən də yuxarıdı. Keyfin çəkir al, keyfin çəkmir alma.

Vəzir gedib padşaha əhvalatı danışdı. Padşah dedi:

- Get, həmin qulu al!

Vəzir beş yüz tümən gətirib tacirə verdi, Ilyası aldı, gətirib padşahın qullarının içinə ötürdü.

Tacir də həmin pulu əlində maya eləyib alış-verişinə başladı.

Tacir alış-verişində olsun, Ilyas da qulların içində olsun, sənə kimdən deyim, bizim bu şəhərin cavan padşahından. Bir gün padşaha bir gözəl at gətirdilər. Hamı ata baxıb bəh-bəh dedi, heç kim atda bir eyib tapmadı. Birdən padşahın yadına düşdü ki, axı mənim bir qulum var, atı çox yaxşı tanıyır. Tez əmr elədi Ilyası gətirdilər. Padşah dedi:

- Ilyas, bu at necə atdı?

Ilyas baş əyib dedi:

- Qibleyi-aləm sağ olsun, bu ata heç söz yoxdu. At birinci atdı. Amma bunun bir eybi var ki, suya girsə yatar.

Hamı dedi:

- Heç elə şey olmaz.

Ilyas dedi:

- Padşah sağ olsun, mənim dövlətim yoxdu, ancaq başımı girov qoyaram. Atı salaq suya, əgər yatmasa mənim boynumu vurun!

Bəli, atı mindilər, suya vurdular. At suya girən kimi yatdı. Hamı məəttəl qaldı.

Padşah Ilyasdan soruşdu:

- Ilyas, bu at niyə suya girən kimi yatdı?

Ilyas dedi:

- Padşah sağ olsun, bu ata camış südü veriblər, odu ki, camış kimi suya girən kimi yatdı.

Padşah Ilyasın bu sözünü yoxlamaq üçün atı satandan soruşdu:

- Sən bu ata camış südü vermisən?

At satan baş əyib dedi:

- Padşah sağ olsun, bu at anadan olandan sonra anası öldü, mən də onu camışımızla əmizdirdim.

Padşahın Ilyasdan çox-çox xoşu gəldi, dedi:

- Bu atı alın, ilxıya qatın! Çapışmada lazım olar.

Özü də əmr elədi ki, bundan sonra mən yeyən xörəkdən Ilyasa da verin!

Bəli, Ilyas hər gün padşah yeyən xörəkdən yeyirdi. Bunlar burada yeməkdə olsunlar, sənə kimdən deyim, bizim padşahın qonaqlarından.

Bir neçə şəhərlərin padşahları bizim padşaha qonaq gəlmişdilər. Bir nəfər də padşaha yumurta boyda bir almaz gətirmişdi. Hamı almaza baxıb bəh-bəh eləyib deyirdi bu almazın heç qiyməti yoxdu. Bu qiymətdə şey ola bilməz.

Birdən padşahın yadına düşdü ki, axı mənim Ilyas adında qulum var, daş-qaşı yaxşı tanıyır. Tez əmr eylədi Ilyası çağırtdırdı. Ilyas gəldi, baş əydi, dayandı.

Padşah dedi:

- Ilyas, oğul, bu almaza qiymət qoy!

Ilyas almazı aldı əlinə, bir o tərəfinə baxdı, bir bu tərəfinə baxdı, dedi:

- Padşah sağ olsun, bu almaz otuz tümənnən yuxarı dəyməz, çünki bunun üzü almazdı, içi torpaqdı.

Hamı dedi:

- Heç elə şey ola bilməz.

Ilyas dedi:

- Padşah sağ olsun, əmr eləyin almazı sındırsınlar, içindən torpaq çıxmasa boynumu vurdurun.

Bəli, padşah əmr elədi, almazı sındırdılar. Almaz sınan kimi içindən torpaq töküldü. Həmin almaza qiymət qoyanlar ki, deyirdilər bu almazın qiyməti yoxdu, hamı utandı, başını aşağı saldı. Padşah fərəhləndi ki, belə bir qulu var. Qonaqların yanında qoltuğu şişdi. Bəli, padşah əmr elədi ki, bundan sonra Ilyas mənim özümlə çörək yeyəcək. Bəli, bu gündən Ilyasnan padşah həmişə bir yerdə çörək yeyirdilər.

Bunlar burda yeməkdə olsun, içməkdə olsun, sənə kimdən deyim, bu şəhərdə gözəllikdə misli-bərabəri olmayan bir qız var idi. Bu qızın gözəlliyi bütün şəhərdə məşhurdu. Amma bu qızı heç kim görməmişdi, ancaq adını eşitmişdi. Bir gün padşah fikirləşdi ki, bir özünü bu qızın yanına versin. Coş fikirləşdi, axırda belə tapdı ki, əmr eləsin heç kim şəhərə çıxmasın, özü xəlvətcə qızın yanına getsin. Bəli, bir gün padşah əmr elədi ki, axşam saat səkkizdən sonra bir adam eşikdə qalmasın, bir adamın haquşqaları açıq olmasın. Əmrinə tabe olmayanların başını bədənindən ayıracağam.

Bəli, elə ki, axşam saat səkkiz oldu, məmə yeyəndən pəpə yeyənə kimi hamı qorxudan gizləndi. Elə ki, bir az da keçdi, padşah yavaş-yavaş evdən çıxıb həmin gözəl qızgilə tərəf getməyə başladı. Bəli, padşah gəlib qızın qapısını döydü, qulluqçu qapıya gəldi.

Padşah dedi:

- Get, xanıma de ki, padşah gəlib.

Qulluqçu gəlib xanıma dedi.

Xanım dedi:

- Get, padşaha de ki, bir inəyim var, nə arıqdı, nə kök, öldürsəm nə qədər piyi çıxar?

Qulluqçu gəlib xanımın dediyini padşaha dedi.

Padşah bir az fikirləşdi, axırda dedi:

- Get, xanıma de ki, dörd pud.

Qulluqçu gedib xanıma dedi.

Xanım dedi:

- Get, denən xoş gəldi, gedə bilər.

Elə padşah istəyirdi qayıtsın, gördü ki, bir qaraltı gəlir. Özü-özünə dedi: bu kimdi mənim əmrimdən çıxıb şəhərdə gəzir. Yaxşı, mən sabah onun atasını yandıraram, qoy yaxınlaşsın görüm kimdi.

Qaraltı yaxınlaşdı. Padşah gördü ki, öz vəziridi. Tez gizləndi orada olan ağacların dalında. Dedi qoy görüm vəzir nə qayıracaq. Vəzir padşahı görmürdü, amma padşah onu görürdü. Vəzir qızın qapısına yetişdi, qapını döydü, qulluqçu gəldi, vəzir dedi:

- Get, xanıma de ki, vəzir gəlib.

Qulluqçu getdi xanıma dedi... Qayıdıb gəldi ki:

- Xanım deyir ki, bir inəyim var, nə arıqdı, nə kök; öldürsəm nə qədər piyi çıxar?

Vəzir fikirləşdi nə desin. Neçə pud desin. Axırda dedi:

- Yeddi pud.

Qulluqçu gedib xanıma xəbər verdi, gəlib dedi:

- Xanım deyir ki, gedə bilər, xoş gəldi.

Vəzir istəyirdi qayıtsın, bir də gördü ki, aha budu, bir qaraltı gəlir. Öz-özünə dedi: Ədə, bu kimdi eşiyə çıxıb. Səhər padşaha deyəcəyəm bunun başını bədənindən ayırsın. Tez ağacların dalına girdi ki, gizlənsin, gördü padşah da burada mısıb. Vəzir istədi səs eləsin, padşah dedi:

- Dinmə, görək bu gələn kimdi. Görək bu nə deyəcək.

Bunlar burada mısdılar. Qaraltı yaxınlaşdı, gördülər ki, bu gələn Ilyasdı. Ilyas qızın qapısını döydü, qulluqçu gəldi, Ilyas dedi:

- Get xanıma de ki, padşahın qullu Ilyas gəlib.

Qulluqçu gedib xanıma xəbər verdi, gəlib Ilyasa dedi:

- Xanım deyir ki bir inəyim, nə arıqdı, nə kök; öldürsəm nə qədər piyi çıxar?

Padşahnan vəzir dedilər, dayan görək indi bu nə deyəcək.

Ilyas dedi:

- Get xanıma de ki, qəbuldu.

Padşahnan vəzir lap məəttəl qaldılar, dedilər nə olsun ki, bunu biz də deyərdik də.

Bəli, qulluqçu gəlib qapını açdı. Ilyas içəri girdi. Padşahnan vəzir işi belə görüb tez bir təhər özlərini qızın bağçasına saldılar, ağacların altında gizləndilər. Gördülər ki, Ilyas gəlib balkonda əyləşib.

Bəli, qulluqçu əlində bir podnos, üstündə ağ örtük, gətirib Ilyasın qabağına qoydu. Ilyas podnosdan örtüyü götürdü, gördü ki, podnosda bir qayçı, bir varaq kağız, bir Quran, bir top iynə, bir də bir nar var. Padşahnan vəzir dedilər, hələ qoyaq ki, biz də demişik «qəbuldu», yaxşı, bəs bu nə olsun. Nar, Quran, iynə, qayçı, indi ki, bu sirri bilməyəcəkdik. Qoy görək Ilyas neyləyəcək.

Ilyas iynələri götürüb hamısını bir-bir narın üstünə taxtı. Sonra kağızı götürüb qayçı ilə cıqqılı-cıqqılı doğradı. Sonra Quranı öpüb yerə qoydu. Padşahla vəzir bir-birinə dedilər:

- Yaxşı, bu nə olsun?

Bu halda qulluqçu gəldi, podnosu apardı. Bəli, elə ki, qulluqçu podnosu apardı, xanım balkona gəldi. Qolunu Ilyasın qoluna saldı. Xanım nə xanım... Aya, günə deyir sən çıxma, mən çıxacağam. Adam deyir yeməyim, içməyim, bu xanımın xətti-xalına, gül camalına tamaşa eləyim.

Padşahla vəzirin ağzının suyu axırdı. Xanımla Ilyas öpüşdülər, görüşdülər, sonra girdilər evə. Vəzirlə padşahın az qalırdı paxıllıqlarından bağırları çatlasın.

Bəli, padşahgil gördülər ki, az qalıb sübh açılsın, tez durub evlərinə getdilər.

Ilyas səhər çox bivaxt evə gəldi. Padşah dedi:

- Ilyas, gecə haradaydın?

Ilyas dedi:

- Padşah sağ olsun, məni sənə satan tacirin anasını mən özümə ana kimi bilərdim. O da məni çox istəyərdi. O ölübdü, getmişdim onun qəbrinin üstünə. Qəbrin üstündə ağladım, ağladım, yuxu tutdu, qaldım qəbrin üstündə. Bir də gördüm ki, səhərdi.

Padşah bilirdi ki, gecə Ilyas haradaydı, çünki özü öz gözü ilə görmüşdü. Odu ki, bildi ki, Ilyas yalan deyir, yenə dedi:

- Ilyas, düzün de, gecə haradaydın?

Ilyas dedi:

- Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Padşah hirsləndi, dedi:

- Ilyas, düzünü de, gecə haradaydın? Yoxsa başuvu bədənindən ayıraram.

Ilyas yenə dedi:

- Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Əlqərəz, padşah nə qədər dedisə elə Ilyas dedi:

- Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Padşah əmr elədi ki:

- Aparın, bu məl`unu oxlayın.

Amma ox atanları öyrətdi ki, oxu elə atın ki, Ilyasa dəyməsin. Çünki bu sirləri öyrənmək istəyirdi.

Bəli, Ilyası oxa basdılar. Amma ox Ilyasa dəymirdi, boynunun, qoltuğunun altından keçirdi. Padşah gəldi, dedi:

- Ilyas, düzün de görüm, gecə haradaydın? Yoxsa bu saat səni asdıraram.

Ilyas yenə dedi:

- Padşah sağ olsun, yuxu tutmuşdu, qalmışdım qəbrin üstündə.

Padşahın qəzəbi artdı. Hirs beyninə vurdu, gördü ki, bu dediyin deyir, əmr elədi:

- Bu saat bunu asın!

Bəli, Ilyası dar ağacının altına gətirdilər. Kəndiri boğazına saldılar. Elə ki, istədilər kəndiri çəksinlər, bir də gördülər ki, bir atlı çapa-çapa gəlir. Atlı elə yeyim gəlirdi ki, atın üstündəkini görmək mümkün deyildi.

Elə ki, dar ağacının altına yetişdi, çapa-çapa verə bir nar vurub getdi. Nar dağıldı.

Ilyas dedi:

- Dayanın deyim.

Bəli, Ilyasın boynundan kəndiri açdılar.

Ilyas dedi:

- Padşah sağ olsun, gedək otağa, bu sirri tək sənə deyəcəyəm.

Padşahla Ilyas getdilər otağa. Ilyas dedi:

- Padşah sağ olsun, gecə mən filan gözəl qızın yanında idim.

Padşah dedi:

- Yaxşı, o piy məsələsi nə idi ki, sən dedin qəbuldu.

Ilyas dedi:

- Padşah sağ olsun, xanım o sualnan demək istəyirdi ki, sən məni görməmisən, bilmirsən arığam, kökəm, gözələm, çirkinəm. Onda mən dedim ki, qəbuldu. Yə`ni hər necə olsan, gözəl də, çirkin də, arıq da, kök də mənə qəbulsan. Onda qapını açdılar, məni içəri buraxdılar.

Padşah dedi:

- Yaxşı, o podnos məsələsi nə idi?

Ilyas dedi:

- Podnosdakı iynələri narın üstünə vurdum ki, yə`ni bədənimi belə oxlasalar yenə bu sirri heç kimə deməyəcəyəm. Sonra kağızı qayçıynan doğradım ki, bədənimi bu kağız kimi doğrasalar da heç kimə bu sirri açmaram. Sonra Qur`anı öpdüm, yerə qoydum ki, and olsun bu Qur`ana heç kimə heç nə demərəm. Odu ki, demirdim də.

Padşah dedi:

- Yaxşı, bəs niyə sirri açıb indi deyirsən?

Ilyas dedi:

- Padşah sağ olsun, o atlı ki, keçdi, narı vurdu yerə, nar dağıldı, həmin qızdı. Narı yerə vurdu, dedi ki, bu sirr mənim deyil qoy dağılsın, sən ölmə. Odu ki, mən də dedim.

Padşah Ilyasa pəh-pəh deyib öz yanında oturtdu, dedi:

- Ilyas, axı sən adamı da tanıyırsan. Indi de, görüm mən necə adamam?

Ilyas dedi:

- Padşah sağ olsun, sən çörəkçi oğlusan.

Padşah dedi:

- Sən nə danışırsan, mən padşah oğluyam. Mənim atam da bu şəhərin padşahı olub, babam da.

Ilyas dedi:

- Padşah sağ olsun, əmr elə anan gəlsin, soruş, elə olmasa boynumu vurdur!

Padşah anasını çağırdı, dedi:

- Ana, düzünü de, mən kimin oğluyam? Mənim atam kim olub?

Anası dedi:

- Bala, mən sənə həmlə olanda atan dedi ki, əgər qız doğsan, səni öldürəcəyəm, oğlan doğsan, nə desən gözüm üstə. Mən doğan gecəsi qonşuda çörəkçinin arvadı da doğdu. Mənim qızım, onun oğlu oldu. Işi belə görəndə mamaya pul verdik, çörəkçiyə də pul verdik, uşaqları dəyişdirdik. Indi sən doğrudan da çörəkçi oğlusan.

Padşah Ilyasa afərin deyib soruşdu:

- Ilyas, sən nə bildin ki, mən çörəkçi oğluyam.

Ilyas dedi:

- Padşah sağ olsun, mən ondan bildim ki, sən əvvəl dəfə əmr elədin ki, mənə sənin çörəyindən versinlər. Sonra da bir yerdə çörək yedik. Ta sən mənə nə pul, nə başqa şey bağışlamadın. Odu ki, mən bildim sən çörəkçi oğlusan.

Padşah dedi:

- Yaxşı, Ilyas, bəs o qız kimdi?

Ilyas dedi:

- Padşah sağ olsun, o qız padşah qızıdı.

Padşah anasından soruşdu, gördü doğrudan da həmin qız bunun yerinə dəyişilən qızdı. Padşah soruşdu:

- Ilyas, bəs sən kimsən?

Ilyas dedi:

- Padşah sağ olsun, mən bir bağban oğluyam. Mən uşaq olanda bizim şəhərə hücum eləyib basırlar, məni əsir eləyirlər, sonra da gətirib qul yerinə satırlar.

Padşah Ilyasın bütün xasiyyətlərinə fərəhləndi. Həmin qızı Ilyasa aldı, qırx gün, qırx gecə toy elədi, öz tacını başından götürüb Ilyasın başına qoydu, dedi:

- Padşahlığa sən yararsan. Sənin biliyin mənim kindən çoxdu. Bundan sonra bu şəhərin padşahı Ilyas oldu.

Yedilər, içdilər, mətləbə yetişdilər. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də özümün. Sən yüz yaşa, mən iki əlli. Hansı çoxdu sən götür! Sən sağ, mən salamat.

YAXŞILIĞA YAXŞILIQ

Həmid adlı yoxsul bir kişi var idi. Bu kişinin altı xırda uşağı var idi. Həmid kişi hər gün meşədən şələ ilə odun gətirib satar, aldığı pulla uşaqlarını yarı qarnı ac, yarı qarnı tox dolandırardı. Bir gün Həmid kişi yenə tezdən durdu. Əl-üzünü yudu, oturub bir az çörək yedi, sonra dəhrəsini, baltasını götürüb meşəyə odun yığmağa getdi. Az getdi, çox getdi, meşənin lap qalın yerinə çatdı. Bir də gördü bir şey od tutub yanır. Kişi yaxına gedib gördü alovun içində bir qutu var. Bu qutunun içindən səs gəlir.

- Ay aman, kömək eləyin, məni bu alovun içindən qurtarın!

Həmid kişi çox rəhmli adam idi. Ürəyi yandı. Özünü alovun içinə atıb qutunu kənara çıxartdı. Qutunun ağzını açan kimi, içindən bir ilan çıxıb, kişinin boğazına dolandı, qışqırıb dedi:

- Səni elə vuracağam ki, parça-parça olasan.

Kişi yalvarıb dedi:

- Ilan qardaş, insaf elə, mürvət elə. Mən səni ölümdən qurtardım, sənə yaxşılıq elədim. Yaxşılığın əvəzini vermirsən-vermirsən, tay məni niyə vurursan? Məndən əl çək, bir bölük çolma-çocuğum var. Onları yetim qoyma!

Ilan onun boğazını sıxıb dedi:

- Nahaq yerə mənə yaxşılıq eləmisən. Niyə, bilmirdin ki, biz nəsil yaxşılıq qabağında pislik elərik? Yaxşılığın əvəzində səni vurub balalarını yetim qoyacağam.

Kişi dedi:

- A ilan qardaş, gəl sən bu daşı ətəyindən tök. Bu dəfə yaxşılığın qabağında pislik eləmə, adətini poz, məni vurma.

Ilan dedi:

- Üz vurma, səni vuracağam. Mən qaydanı poza bilmərəm.

Kişi naəlac qalıb dedi:

- Ilan qardaş, onda aman ver, üç şərtə gedək, sən də sözünü de, mən də deyim. Onlar səni haqlı bilsələr, sözüm yoxdu, vurarsan ölərəm.

Ilan kişinin sözünə razı oldu. Kişi qutunu da götürüb ilan boğazında yola düşdü. Az getdi, çox getdi, bir bayquşa rast gəldi. Kişi bütün əhvalatı bayquşa nağıl eləyib dedi:

- Bayquş qardaş, bizim şərimizi kəs. De görək, bu yaxşılığın qabağında ilan məni vurmağa haqlıdırmı?

Bayquş bərkdən ulayıb dedi:

- Əlbəttə vurmağa haqlıdı. Siz insan nəslinin yaxşılığının qabağında pislik eləmək lazımdı. Sizdən mənim də ürəyim yaralıdı. Məni qoymursunuz ulayıb istədiyim yerləri xaraba qoyam. Mən dağıdıram, siz tikirsiniz. Ilan qardaş, bunu elə vurarsan ki, parça-parça olar.

Ilan istədi Həmid kişini vursun. Həmid kişi şərtlərini onun yadına salıb dedi:

- Bizim hələ iki şərimiz qalıb, aman ver.

Ilan razılaşdı. Həmid ilan da boynunda yola düşdü. Bir qədər gedəndən sonra bir canavara rast gəldi.

Kişi dedi:

- Ay canavar lələ, bu ilan alov içində yanırdı. Mən onun köməyinə çatdım, özümü alovun içinə salıb onu ölümdən qurtardım. Bu yaxşılığın qabağında ilan deyir səni vuracağam. Sən nə deyirsən, bu haqlıdırmı?

Canavar bərkdən ulayıb dedi:

- Əlbəttə haqlıdı. O, sənə böyük xətir qoyub ki, hələ bu vaxta kimi vurmayıb.

Kişi dedi:

- Canavar qardaş, düz demirsən. Məgər yaxşılıq eləyənə pislik elərlər.

Canavar dedi:

- Mən düz deyirəm. Ilan ondan ötrü haqlıdır ki, bu insanlardan mənim də ürəyim yaralıdı. Qoymurlar istədiyim qoyunu, quzunu yeyəm. Məni görəndə vurub öldürürlər. Indicə bir sürüyə

təpindim. Çoban itlərə "tut" dedi. Birtəhər ölümdən qurtardım. Dad bu insanların əlindən. Onların yaxşılıqlarının qabağında pislik lazımdı. Ilan qardaş, bunu elə vur ki, parça-parça olsun.

Ilan Həmid kişiyə dedi:

- Eşitdin ki, bu da ikinci şər. Indi düş yola üçüncü şərə gedək.

Kişi ilan boğazında yola düşdü. Dərələrdən sel kimi, təpələrdən yel kimi gedib bir tülküyə rast gəldilər.

Kişi tülküyə baş əyib dedi:

- Salam-əleyküm, tülkü baba, xoş gördük.

Tülkü yuxarı tullanıb dedi:

- Əleyküməssəlam, ay topqarasaqqal kişi! Xoş gəlmisən, beş gətirmisən. Bu ilanı boynuna dolayıb, hara belə gedirsən?

Kişi dedi:

- Ay tülkü baba, bu ilan meşədə alov içində yanırdı. Mən onun imdadına çatıb ölümdən qurtardım. Bu yaxşılığın qabağında deyir "Səni vuracağam". Indi sən şərimizi kəs, görək bu məni vurmağa haqlıdı, ya yox?

Tülkü bərk qəzəbləndi, gözlərini bərəldib dedi:

- Gözünün içinə qədər yalan danışırsan. Bu yekəlikdə ilan heç vaxt o qutuya sığmaz. Ilan qardaş, sən qutuda idin, yoxsa bu kişi sənə böhtan atır?

- Yalan demir, mən qutuda idim.

Tülkü dedi:

- Sən də yalan deyirsən. Sən heç vaxt o qutuya sığmazsan. Şahidinizi göstərin, şərinizi kəsim.

Ilan hirslənib dedi:

- A tülkü baba, nə şahid? Şahid bu qutu. Istəyirsən içərisinə girim, bax gör sığıram, yoxsa sığmıram.

Tülkü dedi:

- Yaxşı, onda razıyam. Amma heç ağlım kəsmir ki, sən bu qutuya sığasan. Şərinizi kəsərəm, bu kişini buradaca vurarsan ölər. Üç gündü ki, dilimə ət dəyməyib, acından qarnım cur-cur curuldayır. Bir az ətindən mən yeyərəm.

Ilan dedi:

- A kişi, qutunu yerə qoy.

Kişi qutunu yerə qoydu. Ilan qutunun içinə girib qıvrılan kimi, tülkü cəld qutunun ağzını örtdü və kişiyə dedi:

- A kişi, yaxşılığa yaxşılıq hər kişinin işidi. Amma yamanlığa yaxşılıq hər ötənin işi deyil. Fürsəti fövtə vermə, bu kafəri tez öldür, canın qurtarsın.

Kişi o saat bir tonqal ocaq qaladı, qutunu götürüb alovun içinə atdı. Ilan nə qədər qışqırdı, yalvardı, onun sözünə baxan olmadı. Ilan qutu ilə bərabər yanıb kül oldu. Kişi tülküyə dua, alqış eləyirdi ki. birdən ovçuların qıyhaqıy səsi, tazıların hürüşməsi eşidildi. Tülkü əl-ayağa düşüb kişiyə dedi:

- A kişi, o ovçular məni axtarırlar. Mən onların əlindən qurtarıb buraya gəlmişəm. Sənə yaxşılıq eləyib ölümdən qurtardım, əvəzində sən də mənə yaxşılıq elə, məni gizlə.

Həmid kişi fikirləşməmiş ovçular gəlib çıxdılar. Tülkü işi belə görüb qaçmaq istədi. Amma tazılar imkan verməyib, başının üstünü kəsdilər. Ovçular tülkünü diri tutdular.

Kişi ovçulara salam verib dedi:

- Ovçu qardaşlar, mən çoxdandı ki, bu hiyləgər tülkünün dalınca gəzirdim. Amma ki, tuta bilmirdim. Çox yaxşı oldu ki, siz onu tutdunuz. Bunu mənə verin.

Ovçular soruşdular:

- Tülkü sənin nəyinə gərəkdi?

Kişi dedi:

- Bu tülkü məndə toyuq-cücə qoymayıb, hamısını yeyib qurtarıb. Istəyirəm onun dərisini özüm soyam, içərisinə saman doldurub saxlayam. Gündə bir dəfə ona baxam ki, ürəyim soyuya.

Tülkü Həmid kişidən bu sözləri eşidəndə bir altdan yuxarı ona baxıb dedi:

- Ay namərd insan, heyf mənim sənə elədiyim yaxşılığa. Belə bilsəydim, heç səni ilanın əlindən qurtarmazdım, qoyardım vurardı.

Həmid kişi dedi:

- Çox danışma. Bir yaxşılıq eləyibsənsə, min də pislik eləyibsən.

Sonra üzünü ovçulara tutub dedi:

- Qardaşlar, neçə istəyirsiniz verim, bunun dərisini soyub mənə verin.

Ovçulardan biri bıçağını çıxartdı. Tülkünü yerə yıxdı, dərisini boğazından çıxartmaq istəyəndə, Həmid kişi dedi:

- Dayan, elə soyma!

Ovçu dedi:

- Bəs necə soyum?

Həmid kişi soruşdu:

- Bir mənə deyin görüm, siz bu tülkünün dərisinə, bir də onu soymaq üçün çəkdiyiniz zəhmətə məndən neçə alacaqsınız?

Ovçu dedi:

- On tümən.

Həmid kişi on beş tümən pul çıxardıb ovçuya verdi, dedi:

- Al, bu on beş tümən, soymaq zəhməti də sizə qalsın. Tülkünü elə diri-diri mənə verin. Beləliklə, mənim ürəyim soyumaz. Mən gərək onu öz əllərimlə diri-diri soyam.

Ovçular pulu alıb getdilər. Elə ki, gedib gözdən itdilər, Həmid kişi tülküyə dedi:

- Tülkü qardaş, sən mənə yaxşılıq eləmişdin, mən də sənin xəcalətindən çıxdım. Get, yaşa!

Bunu deyib Həmid kişi tülkünü buraxdı, özü də ipini açıb arasına odun yığmağa başladı.

Tülkü də ona kömək elədi. Həmid kişi şələsini dalına alıb evlərinə getdi. Tülkü də balalarının yanına qaçdı.

YEDDI QARDAŞ BIR BACI

Biri var idi, biri yox idi, bir kişinin yeddi oğlu var idi. Günlərin bir günü yeddi qardaş yaraqlanıb ova gedəsi oldular. Analarını çağırıb dedilər:

- Ana, biz ova gedirik. Düz bir ildən sonra qayıdacağıq, bax, bu qabaqdakı dağda olacağıq. Bu müddətdə əgər qızın olsa, qapıya ələk asarsan, yox, oğlun olsa, ox-yay asarsan. Oğlan olsa, biz baş götürüb gedəcəyik, qızın olsa, qayıdıb gələcəyik. Heç insaf deyil ki, yeddi qardaşın bir bacısı olmasın.

Yeddi qardaş dağa ova getdi. Gün keçdi, ay keçdi, ananın bir qızı oldu. Adını Nardanxatun qoydular.

Ata-ana sevinib qapıdan ələk asdılar. Bunların bir paxıl qonşuları var idi. Oğlanların qayıtmasını istəməyib gecə ələyi götürdü, yerinə bir yay asdı. Yeddi qardaş səhər baxdılar ki, qapılarından yay asılıb. Baş götürüb çıxıb getdilər. Az getdilər, çox getdilər, neçə gündən sonra bir dağa çatdılar.

Bu dağda yeddi qardaşdan başqa bəni-adəm yox idi. Dağın ətəyi meşəlik, göy çəmənlik idi. Yaxşı ov yeri idi. Yeddi qardaş bu dağda bir mağara tapıb orada qaldılar. Ov ovlayıb, dolanmağa başladılar.

Ay keçdi, il dolandı. Nardanxatun böyüyüb gözəl bir qız oldu. Amma tək idi. Nə bacısı var idi, nə qardaşı. Odur ki, mehrini salmışdı danalarına, səhərdən axşama kimi dana otarırdı, suvarırdı, bütün gününü onunla keçirirdi.

Günlərin bir günündə dana azarladı. Ata baxdı ki, dana öləcək, tez başını kəsdi. Nardanxatun ağlaya-ağlaya dananın qarnını yumağa apardı. Birdən bir qarğa gəlib suyun qırağındakı ağaca qondu. Bir dəfə qarıldayıb dedi:

- Nardanxatun, niyə ağlayırsan?

Nardanxatun dedi:

- Bu kənddə bütün qızların bacısı var, qardaşı var. Amma mən təkəm. Var-yox bir ala danam var idi, o da öldü. Indi ona ağlayıram.

Qarğa dedi:

- Ay Nardanxatun, sənin yeddi qardaşın var. Sənə nə olub ki, dana üçün ağlayırsan?

Nardanxatun qardaşlarının olduğunu bilmirdi.

Ata-anası ürəyi sıxılmasın deyə bu işi ondan gizlətmişdilər.

Qarğa dedi:

- Paxıl qonşu sənin qardaşlarını itgin salıb. Mənim yeddi gündür ki, balalarım acdır. Sən o qarnı mənə ver, aparım balalarımı doydurum, səni qardaşlarına yetirərəm.

Nardanxatun dananın qarnını qarğaya verdi. Qarğa dananın qarnını balalarına verdi. Nardanxatunun yanına gəlib dedi:

- Get bir torba dən götür, gəl səni aparım qardaşlarına çatdırım.

Nardanxatun getdi, bir torba dən götürüb qarğanın yanına qayıtdı.

Qarğa dedi:

- Nardanxatun, torbanı mənim ayağıma keçir, altını da dəl. Mən göynən uçaram, torbadan dən tökülər, sən də dənin izi ilə gələrsən.

Nardanxatun torbanı quşun ayağına keçirdi. Altını da dəldi. Quş göy ilə uçurdu. Dən bir-bir torbadan yerə düşürdü. Nardanxatun da dən düşən yerlə yeriyirdi.

Qarğa göylə, Nardanxatun yerlə o qədər getdilər ki, axırda qardaşları olan dağa çatdılar. Qarğa dedi:

- Qardaşların bu dağdadı. Salamat qal, mən gedirəm.

Qarğa uçub geri qayıtdı. Nardanxatun dağda gəzə-gəzə gəldi, qardaşlarının mağarasına çatdı. Gördü qapıda bir oğlan yatıb. Nardanxatun oğlanı oyatmadı. Içəri girib gördü burada ət, çörək, hər şey var. Çörəkdən yedi. Evi, eşiyi sildi, süpürdü, əti də doğradı, xörək bişirdi. Hazır qoydu. Sonra çıxdı, bir yanda gizləndi.

Axşam oldu. Çöldəki qardaşlar gəldilər. Gördülər xörək bişib, ev-eşik silinib-süpürülüb. Çöldən gələn qardaşlar evdə qalan qardaşa dedilər:

- Bu işi sən görmüsən?

Qardaş utanıb dedi:

- Bəli, mən görmüşəm.

Qardaşlar yeyib-içib yatdılar. Sabah açıldı, qalxdılar. Indi də qardaşların bir ayrısı evdə qaldı. Qalanı ova getdi.

Evdə qalan qardaş tək olduğundan bir az oturdu, durub uzandı, yatdı.

Bu yatan kimi yenə Nardanxatun gəldi evi-eşiyi sildi, süpürdü, xörək bişirdi, özü də bir az yedi, getdi yerində gizləndi.

Yatan qardaş oyandı, gördü ev silinib-süpürülüb, xörək bişirilib, hazır qoyulub.

Axşam oldu. Çöldən qardaşlar gəldilər. Gördülər ev-eşik süpürülüb, xörək hazırdı. Dedilər:

- Ay qardaş, bu işləri sən gördün?

Qardaş dedi:

- Bəli, mən gördüm

Qardaşlar yenə də yeyib-içib yatdılar.

Sabah açıldı, qalxdılar. Bu dəfə də evdə qardaşların o birisi qaldı. Qalanı çıxdı, ova getdi.

Evdə qalan qardaş da bir az oturub, tək olduğundan durub yatdı. Yenə Nardanxatun çıxdı, evə gəldi, sildi, süpürdü, xörək bişirdi, bir az da özü yedi, gəldi yerində gizləndi. Evdə qalan qardaş yuxudan oyanıb gördü ev süpürülüb, xörək bişirilibdi.

Axşam oldu, çöldən qardaşlar gəldilər. Gördülər ev-eşik süpürülüb, xörək bişib hazırdı. Dedilər:

- Ay qardaş, bu işləri sən gördün?

Qardaş dedi:

- Bəli, mən gördüm.

Qardaşlar yeyib-içib yatdılar. Sabah açıldı, yenə qalxıb ova getdilər. Bu dəfə lap böyük qardaş evdə qaldı. Bu da tək olduğundan uzanıb yatdı. Yenə Nardanxatun çıxıb evi süpürdü, xörəyi bişirdi, getdi yerinə girdi. Axşam oldu, qardaşlar gəldilər. Böyük qardaşa dedilər:

- Bu işləri sən gördün?

O dedi:

- Yox, mən görmədim. Mən yatmışdım, oyandım, baxdım ki, ev süpürülüb, xörək bişibdi.

Bu sözü eşidəndə o biri qardaşlar da dedilər:

- Biz də evdə qalanda belə gördük.

Dedilər:

- Yəqin bura adam dadanıb, durun gəzək.

Qardaşlar durub hər yanı gəzdilər, amma heç bir şey tapa bilmədilər.

Sabah açıldı, qardaşların altısı ova getdi. Bu dəfə kiçik qardaş evdə qaldı. Kiçik qardaş qapının ağzında uzandı, ancaq yatmadı. Nardanxatun bunu yatmış bilib gəldi. Evi süpürüb, xörəyi bişirdi, istədi ki, getsin, kiçik qardaş yay-oxu çəkib dedi:

- Getmə, vurdum! De görüm kimsən?

Nardanxatun dedi:

- Vurma, düzünü deyim.

Kiçik qardaş dedi:

- Vurmaram, de!

Nardanxatun dedi:

- Mən yeddi qardaş bacısı Nardanxatunam. Paxıl qonşu mənim qardaşlarımı itgin salıb. Onda mən uşaq idim. Böyüdüm, yeddi qardaşım olduğunu bilib axtarmağa çıxdım.

Nardanxatun əhvalatı ətraflı danışdı.

Qardaş baxdı ki, bu öz bacılarıdı. Onu qucaqlayıb dedi:

- Bacı, sənin qardaşların bizik.

Nardanxatun qardaşı ilə öpüşüb görüşdü. Axşam oldu, altı qardaş da gəldi. Əhvalatı eşidib onlar da bacıları Nardanxatunla görüşdülər, öpüşdülər, yeyib-içib yatdılar.

Sabah açıldı, yeddi qardaş ova gedəsi oldu. Dedilər:

- Bacı, sən evdə qalırsan. Buralarda od tapılmaz, gözlə, ocağın odunu keçirmə. Bizim bir qonur pişiyimiz var, sən hər nə tapsan, hər nə yesən, onunla yarı böl. O sənin qulaq yoldaşın olacaq.

Qardaşlar ova getdilər. Nardanxatun evdə qaldı, sildi-süpürdü, xörək bişirdi. Axşam oldu, qardaşlar gəldilər, yedilər-içdilər, yatdılar. Sabah oldu yenə ova getdilər.

Nardanxatun hər gün xörək bişirib, qardaşları ilə yeyib dolanırdı.

Bir gün yenə Nardanxatunun qardaşları ova getmişdi. Qız yerləri yığırdı, birdən kiçik qardaşının yerindən bir dənə kişmiş tapdı. Kişmişi ağzına atıb yedi. Pişik bunu gördü, acıqlandı. Nardanxatun eşiyə çıxanda ocağı keçirtdi. Nardanxatun içəri girdi, gördü ocaq keçib. Bildi ki, qonur pişiyin işidi. Qardaşların gəlmək vaxtına az qalmışdı, xörək isə hazır deyildi, gördü uzaqdan tüstü görünür. Tez tüstü gələn tərəfə yüyürdü. Xeyli getdi, gördü tüstü gələn yer bir imarətdi. Imarətə çatdı, içəri girdi, otaqları gəzməyə başladı. Bir otağa girdi, baxdı ki, burda bir qız saçından asılıb. Qız Nardanxatunu görüb dedi:

- Ay bacı, sən buraya nəyə gəlibsən?

Nardanxatun dedi:

- Od aparmağa gəlmişəm. Bəs səni kim saçından asıb?

Qız dedi:

- Bura div məkanıdı. Məni buraya gətirib saçımdan asan da odur. Indi gəlib səni də öldürər, tez çıx get.

Nardanxatun dedi:

- Mən necə od aparım?

Qız dedi:

- Odlara dəymək olmaz, div bilər. Orada qayçı var, götür, oddan bir balaca kəs, əski arasına qoy, apar. Nardanxatun qızın dediyi kimi elədi. Qayçı ilə oddan kəsib götürdü, əski arasına qoydu. Amma yadından çıxdı, qayçı ocağın qırağında qaldı. Qaça-qaça imarətdən çıxıb gedəndə cibindəki yumaqdan sapın ucu açıldı. Sap açıla-açıla Nardanxatun evlərinə gəldi. Ocağı qaladı, xörəyi bişirməyə başladı.

O tərəfdən div gəldi, imarətə girən kimi, adam iyi aldı, dedi:

- Qız, düzünü de görüm, sənin yanına kim gəlmişdi?

Qız dedi:

- Sənin qorxundan kim buraya ayaq basa bilər?

Div bir də baxdı, ocağın qırağında qayçını görüb dedi:

- Bu qayçı niyə burdadı? Od kəsib aparıblar?

Qız dedi:

- Mənim yanıma heç kim gəlməyib.

Div eşiyə çıxdı, o tərəf, bu tərəfə boylandı. Birdən sapı gördü. Bildi ki, buraya bəni-adəm gəlib. Sapın ucundan tutub yığa-yığa getdi. Gəlib mağaraya çıxdı. Gördü qapı kilidlidi. Div qapının deşiyindən baxıb içəridə Nardanxatunu gördü, dedi:

- Ay qız, ağzım çox acıdır, nə olar, barmağını qapının arasından çıxart, sorum, ağzımın acısı kəsilsin.

Nardanxatun dedi:

- Ağzına zəhər tökülsün, barmağımı niyə sənin ağzına verirəm ki, çeynəyəsən?

Div dedi:

- Çeynəmərəm. Ya barmağını ver, sorum, ya da gedib qardaşlarını tutub yeyəcəyəm.

Nardanxatun qardaşlarını çox istəyirdi. Odur ki, əlacsız qalıb barmağını qapının deşiyindən çıxartdı.

Div bir sordu, iki soranda qızın barmağından qan axmağa başladı. Div o qədər sordu ki, qız yarımcan düşdü. Div çıxıb getdi. Qız haçandan-haçana ayıldı.

Axşam oldu, qardaşları gəldilər. Baxdılar ki, bacılarının rəngi elə solub ki, yüz ilin xəstəsinə oxşayır. Qardaşları Nardanxatundan bunun səbəbini soruşdular. Nardanxatun əvvəl dandı, amma sonra boynuna aldı, əhvalatı qardaşlarına söylədi. Qardaşlar qapılarında dərin bir quyu qazdılar. Quyunun üstünü örtdülər. Dedilər:

- Bacı, biz gizlənirik. Sən yenə evə gir. Mağaranın qapısını özün tərəfdən bağla. Div qapıya gələndə qoy bu quyuya düşsün, oxla vurub öldürək.

Yeddi qardaş əllərində yay-ox hərə bir yanda gizləndi. Nardanxatun içəri girdi, qapını bağladı. O tərəfdən div gəldi. Qapıya çatan kimi quyuya düşdü. Yeddi qardaş hər tərəfdən onu oxa tutdular. Div öldü. Yeddi qardaş divin üstünü daşla, ağacla, torpaqla təpə kimi qaladılar.

Qardaşlar yenə də gündə ova gedirdilər. Ceyran, əlik vurub gətirirdilər, bacıları bişirirdi, yeyib dolanırdılar.

Div basdırılan yerdən yaxşı pencər çıxmışdı. Bir gün Nardanxatun o pencərdən yığıb bişirdi. Qardaşlar axşam evə gəldilər. Nardanxatun pencəri çəkib onların qabağına qoydu. Qardaşlar pencəri yeyib qoyun oldular.

Nardanxatun onları qabağına qatıb ağlaya-ağlaya çölləri gəzdirdi. Bir qoca buna rast oldu.

Qoca dedi:

- Ay qızım, niyə ağlayırsan?

Nardanxatun dedi:

- Bu qoyunlar mənim qardaşlarımdı. Bunlar bir div öldürüb qapımızda basdırmışdılar. Divin üstündən pencər çıxmışdı, mən pencərləri dərib bişirdim, qardaşlarıma verdim. Qardaşlarım yeyib qoyun oldular. Indi qabağıma qatıb ağlaya-ağlaya çölləri gəzdirirəm.

Qoca dedi:

- Ay qız, mən sənin qardaşlarını adam eləyərəm, ancaq hər nə eyləsəm, uf deməyəsən.

Nardanxatun dedi:

- Demərəm.

Qocanın əlində bir ağac vardı. O ağacla qardaşları bir-bir vurmağa başladı. Nardanxatun heç uf da demədi. Qardaşların altısı adam oldu. Qoca kiçik qardaşı vuranda Nardanxatun dözə bilməyib "uf, bacın ölsün ay qardaş" dedi. Bu sözdən kiçik qardaş qurşaqdan aşağı qoyun, qurşaqdan yuxarı adam oldu. Qoca dedi:

- Ay qız, uf deməsəydin, bu da bütün adam olardı. Indi istəsən ki, bu da bütün adam olsun, onda qardaşlarınla haman öldürülmüş divin imarətinə get. Orda saçından asılmış bir qız var. O qızı aç, yerə düşürt. Divin canını ondan istə. O divin canını sənə verər. Divin canı şüşədə bir göyərçindi. Şüşəni qır, göyərçin çıxanda tut, öldür.

Nardanxatun qocaya sağ ol deyib qardaşları ilə öldürülmüş divin imarətinə getdi. Içəri girdi, qızı açdı, yerə düşürtdü. Ondan divin canını istədi. O gedib bir şüşə gətirdi. Nardanxatun şüşəni daşa vurdu, şüşə qırıldı, içindən bir göyərçin çıxdı. Nardanxatun göyərçini tutub öldürdü. O saat kiçik qardaş da adam oldu. Nardanxatun və qardaşları sevindilər, qızdan razılıq edib dedilər:

- Bu yaxşılığın əvəzində bizdən nə istəyirsən?

Qız dedi:

- Sizdən heç nə istəmirəm, məni ata-anama yetirin.

Qardaşlar razı oldular. Divin var-dövlətini də götürüb yola düşdülər. Getdilər, qabaqca o qızı ata-anasına çatdırdılar. Sonra oradan yola düşüb, yeddi gün, yeddi gecə yol getdilər. Gəlib öz evlərinə yetişdilər.

K E Ç Ə L

Biri var idi, biri yox idi, bir qarı var idi. Bu qarının gözünün ağı-qarası bir keçəl oğlu var idi. Qarının keçəl oğlu camaatın buzovunu otarardı.

Bir gün Keçəl buzovları yığıb otarmağa aparmışdı. Buzovları bir göy çəmənlikdə otarırdı. Bir də gördü ki, göyün üzünü bulut aldı, yağış yağmağa başladı. Keçəl o saat paltarını soyunub bir daşın altında gizlətdi. Bərk yağış yağdı. Yağış kəsəndən sonra Keçəl paltarını daşın altından çıxardıb geydi.

Eşit şeytandan. Şeytan adam paltarında gəzirdi. Onun güzarı keçəlin yanına düşdü. Gördü keçəlin paltarı qupqurudu, heç islanmayıbdı. Şeytan təəccüb eləyib Keçəldən soruşdu:

- Ay Keçəl, bu yağışda sənin paltarın niyə islanmayıb?

Keçəl cavab verdi:

- Bunun əməli var, eləyirəm, paltarım islanmır.

Şeytan dedi:

- Keçəl, kəl onu mənə öyrət.

Keçəl dedi:

- Sən mənə bir yaxşı əməl öyrət, mən də onu sənə öyrədim, əvəz-əvəzi olsun.

Şeytan dedi:

- Ay Keçəl, mən sənə nə əməl öyrədim?

Keçəl dedi:

- Sən mənə elə əməl öyrət ki, oxuyub hər kəsə üfürsəm, yerə, divara yapışsın.

Şeytan istədi onu aldatsın, dedi:

- Əvvəlcə sən fənd-fe`lini öyrət, sonra da mən öyrədim.

Keçəl dedi:

- Aldada bilməzsən. Əvvəl sən öyrədəcəksən, sonra da mən.

Bir az cəhl çəkəndən sonra, şeytan razı oldu, yapışdırmaq əməlini ona öyrətdi, dedi:

- Di, sən öyrət!

Keçəl dedi:

- Indi bu saat öyrədim. Qardaş, gördün ki, göyə bulut gəldi, yağış havası var, o saat paltarını soyun, bir daşın altında, ya kahada gizlə, yağış kəsəndən sonra genə əyninə gey.

Şeytan dedi:

- Sənin əməlin elə bu idi?

Keçəl dedi:

- Bəli, bundan yaxşı əməl olmaz.

Şeytanla Keçəl başladılar dava eləməyə. Bayaq əldən Keçəl çomağı çəkib şeytanın üstünə cumdu. Şeytan işi fırıq görüb qaibə çəkildi.

Keçəl çox peşiman olub, öz-özünə dedi ki, ay dadi-bidad, mən nahaq yerə ondan çox əməllər öyrənmədim.

Bəli, peşimançılıq fayda verməz.

Axşam oldu, Keçəl buzovu yığıb oynaya-oynaya evlərinə gəldi. O saat qarı nənəsinin üzünə dirənib dedi:

- Gedib xanın qızını mənə alarsan.

Nənəsi dedi:

- Ay oğul, xan qızını sənə verməz. Bu sövdadan əl çək.

Keçəl çomağı çəkib dedi:

- Deyəsən mənimlə örkən üstündə darı sərirsən. Sənə deyirəm, get, get!

Qarı çar-naçar gedib, xanın elçi daşının üstündə oturdu. Xan bir adam göndərib dedi:

- Get, gör, qarı yəqin pay istəyir, ver getsin.

Qarının yanına gedib, ona pay vermək istədilər.

Qarı dedi:

- Mən pay almağa gəlməmişəm. Mənim ölmüş oğlum Keçəl xanın qızını istəyir. Ona elçiliyə gəlmişəm.

Adamlar geri qayıdıb xana dedilər:

- Bəs Keçəl sənin qızını istəyir. Nənəsi elçiliyə gəlibdi.

Xan onu rədd eləmək üçün dedi:

- Keçəl gedib dağlardan mənə göy muncuq tapıb gətirsin, qızımı ona verim.

Qarı qayıdıb oğluna dedi:

- Ay Keçəl, səni görüm yerə girəsən. Buzovu buraxdın, xanın qızını istədin. Xan səni gedər-gəlməz yola göndərir.

Keçəl dedi:

- Ay nənə, de görüm, məni hara göndərir?

Qarı dedi:

- Belə tilsimli dağlara, göy muncuğa... qandın?

Keçəl dedi:

- Nənə, mən göy muncuğa gedəcəyəm. Mən gəlincə kəndin buzovunu sən otararsan.

Nənəsi qorxusundan razı oldu. Keçəl çomağını da götürüb fışdırıq çala-çala üz qoydu dağlara tərəf getməyə. Keçəl çox gəzdi, dolandı, axırda göy muncuğu tapıb evlərinə gətirdi, dedi:

- Nənə, göy muncuğu apar, xana ver, qızını mənə al.

Nənəsi göy muncuğu götürüb genə gəldi, elçi daşının üstündə oturdu.

Xan adam göndərdi ki, gedin, görün qarı indi nə deyir. Gəlib gördülər ki, qarı göy muncuğu gətirib. Xana xəbər apardılar:

- Bəs nə durmusan? Keçəl göy muncuğu gətirib.

Xan başın tutub dedi:

- Vəzir, bir tədbir, qız əldən getdi.

Vəzir dedi:

- Nə tədbir, onu elə yerə göndər ki, gedib geri qayıtmasın.

Bəli, Keçəli xanın hüzuruna gətirdilər. Keçəl xidmət məqamında dayanıb dedi:

- Xan, mənim üçün qulluq.

Xan dedi:

- Keçəl, bir söz demirəm, qızı sənə verirəm. Ancaq bu şərtlə ki, dünyada mənim qazıma layiq bir şey var, gərək onu gətirəsən.

Keçəl dedi:

- O nədir?

Xan dedi:

- Uzaq cəzirədə bir bulaq var. Bu bulağın başında bir əjdaha var. O əjdahanın ağzında bir lə`l var. Gərək gedib o lə`li qızıma gətirəsən.

Keçəl əlini gözünün üstünə qoyub qapıdan çıxdı. Bərkitdi çarıqların dabanın, qırdı yerin damarın, günə bir mənzil gedib bir şəhərə çıxdı. Keçəl bu şəhərdən bir put qır, bir put da köhnə çaxır aldı. Bunları götürüb, uzun mənzil kəsəndən sonra gedib əjdaha olan yerə çatdı. Əjdahanın adəti idi, hər günorta çıxıb səyahətə gedərdi. Əjdaha yox idi. Keçəl o saat bulağın gözünü qır ilə möhkəm sıvadı, hovuzunu da boşaldıb içinə çaxır tökdü. Sonra da özü qaçıb kənarda gizləndi. Əjdaha çox susamışdı. Yetirib çaxırdan doyunca içdi. O saat məst olub yerə yıxıldı. Keçəl qılıncını sivirib əjdahanı öldürdü, lə`li onun ağzından çıxartdı. Sonra əjdahanın başını kəsib götürdü, daban aldı bir baş xanın yanına. Xan genə vəzir, vəkili yığıb dedi:

- Eviniz yıxılsın, Keçəl bu ölümdən də qurtardı. Indi tədbir tökün, onu elə yerə göndərək ki, getsin, tay gəlməsin.

Vəzir dedi:

- Keçəli göndərin qırx dev tilsiminə. O qırx devin əlində elə bir nar var ki, hər kəs bir dənəsini yesə, on beş yaşında gözəl oğlan olar. Deyərsən get o narı gətir.

Xan bu tədbirə afərin deyib, Keçəli yanına də`vət eləyib dedi:

- Gərək gedəsən qırx dev tilsiminə. Devlərin əlində bir cavanlıq narı var, onu gətirəsən, sonra qızımı sənə verərəm.

Keçəl kor-peşiman evlərinə gəlib, çörəkdən-zaddan götürüb yola düşdü. Çox ənvai-müsibətlə qırx devin tilsiminə gəldi. Qırx dev qırx günün yuxusuna getmişdi. Keçəl o yana-bu yana baxıb, saçlarından asılmış bir gözəl qız gördü. Irəli gedib saçlarını açıb, qızı yerə qoydu.

Qız Keçələ dedi:

- Ey Keçəl, bura devlərin məkanıdı, onlar yatıblar, indi durub səni öldürəcəklər.

Keçəl dedi:

- Ey nazənin sənəm, qorxma. Bu, devlərin hamısını mən öldürəcəyəm.

Qız dedi:

- Ey Keçəl, bu devlərin canı o şüşədədi. Kim onu bir oxla vursa, hamısı qırılar. Vura bilməsə, daş olub yerə yapışar.

Keçəl bu sözü eşidən kimi dizini yerə söykədi, oxu çilləyə mindirib atdı. Ox yaydan qurtaran kimi şüşənin ortasından dəydi... Bərk şaqqıltı, gurultu qopdu, devlərin hamısı cəhənnəmə vasil oldu. Keçəl baxıb gördü, göy şaqqalandı, bir nərilti eşidildi. Qızdan soruşdu:

- O nədi?

Qız dedi:

- Ey oğlan, bil və agah ol, bu devlərin sehirkar anasıdı. Bizi parça-parça edəcək. Tez gəl burdan qaçaq.

Qız Keçəllə bərabər bir daşın yanına gəldi, bir dua oxuyub daşa üç dəfə çubuqla vurdu. Bu zaman bir qəmər ülgə kişnəyə-kişnəyə çıxıb, qızın bərabərində dayandı.

Oğlan soruşdu:

- Bu nə atdı?

Qız dedi:

- Bu devlərin nənələri minən atın balasıdı. Mən devlərdən bunun yerini öyrənmişəm. Min qaçaq, qurtarsa bizi bu qurtaracaq.

Keçəl narı da götürüb atın belinə sıçradı, qızı tərkinə aldı. At yel kimi uçmağa başladı. Bir zaman sonra qız dedi:

- Keçəl, gör daldan nə gəlir?

Keçəl geri baxıb dedi:

- Xanım, qara duman gəlir.

Qız dedi:

- Bərk sür.

Keçəl genə atı qamçıladı. Bir müddət gedəndən sonra qız dedi:

- Keçəl, bax, gör indi nə gəlir?

Keçəl geri baxıb dedi:

- Xanım, boran, tozanaq gəlir.

Qız dedi:

- Bərk sür!

Bunlar yenə bir müddət getdilər. Qız genə Keçəldən soruşdu:

- Bax, gör indi nə gəlir?

Keçəl baxıb dedi:

- Xanım, bir gün doğdu ki, bütün qara dumanı, boranı qovdu.

Qız dedi:

- Keçəl, atı yavaş sür, tay ölümdən qurtardıq. Bəli, bunlar gəlib evə çıxdılar. Keçəl narı xana aparmaq istəyəndə qız verməyib, ona oxşar bir nar verib dedi:

- Bunu apar, onu özümüz yeyərik.

Keçəl narı aparıb xana verdi. Xan şərtinə əməl etmədi, qızı vermədi. Keçəl o saat şeytandan öyrəndiyi sehri oxuyub xanı, vəziri, vəkili bir-birinə yapışdırdı. Xan qızı gəlib yalvarıb dedi:

- Bunları azad elə, sənə gedərəm.

Keçəl bir dua oxuyub onu da atasına yapışdırdı. Narı kəsib qızla yedilər, oldular on beş yaşında cavan. Keçəl özünə qırx gün, qırx gecə toy elədi, gətirdiyi qızı aldı, keflə, damaqla yaşayıb ömür sürdülər.

K I Ç I K B A C I

Biri var idi, biri yox idi bir padşah var idi. Bu padşahın üç qızı var idi. Böyük qız vəzirin oğluna, ortancıl qız vəkilin oğluna ərə getmişdi. Amma kiçik qız heç kəsə ərə getmirdi. Könlü tutan yox idi. Bir gün qız oturmuşdu, gördü bir it gəlib bunun yanında oturdu, başladı quyruğunu bulamağa. It qızın xoşuna gəldi. It bir az oturandan sonra çıxıb getdi. Günorta yenə it gəldi, qızın ayaqlarına sürtüşür, balaca zingildəyirdi. Qıza yemək gəldi. Qız dayəsinə dedi.

- Bu yeməyi apar itin qabağına tök, qoy yesin.

Dayə yeməyi aparıb itin qabağına tökdü, it xörəyi yeyib getdi. Bəli, ikinci gün yenə belə, üçüncü gün yenə belə. Qız itə o qədər məhəbbət bağladı ki, it gəlməyəndə darıxırdı, dayana bilmirdi. Dayə bu əhvalatı padşaha xəbər verdi. Padşah qızını çağırıb dedi:

- Qızım, bu nə əhvalatdı? Itnən oynayırsan? Bir də o it sənin yanında olmamalıdı.

Qız dedi:

- Ata, o itə öyrənmişəm, bir gün də görməsəm, dura bilmirəm. Heyvandı, sənə nə eləyir?

Padşah dedi:

- Dur get, iti yanına qoyma.

Qız dedi:

- Ata, mən o itsiz yaşaya bilmərəm.

Padşah qızına acıqlanıb qovdu. Dayəni çağırıb dedi:

- Əgər it bir də qızın yanına gəlsə, gəlib mənə deyərsən.

Dayə:

- Baş üstə, - deyib getdi.

Bəli, həmişəki kimi it gəlirdi, qız da ona hörmət eləyirdi. Hətta it gec gələndə qız onun yolunu gözünün yaşını tökə-tökə gözləyirdi. Dayə gedib padşaha xəbər verdi. Padşah qızını çağırıb dedi:

- Sən ki itdən ayrılmırsan, tapşıracağam iti öldürsünlər.

Qız dedi:

- Ata, iti öldürtsən, mən də özümü öldürəcəyəm.

Padşah bərk qəzəbləndi, dedi:

- Indiki belə, səni də itə qoşub sürgün edəcəyəm.

Qız dedi:

- Ata, buna razıyam.

Padşah əmr elədi, qızı da itə qoşub şəhərdən qovdular. It qabağa düşdü, qız da bunun dalınca gedib bir mağaraya çıxdılar. Qız baxdı ki, bu mağara elə itin mağarası imiş. Özü də itin üç küçüyü vardı. Qız gözlərinin yaşını tökürdü. Bir müddət belə keçdi. It ovlayıb, quşlayırdı, gətirib qıznan, balalarıynan bir yerdə yeyirdilər. Günlərin bir günü qız qəmgin oturmuşdu. Bir də gördü qapıdan bir oğlan girdi içəri. Qız ondan soruşdu:

- Oğlan, sən kimsən?

Oğlan dedi:

- Mən həmin itəm. Özüm də pərilər padşahının oğluyam. Adım da Həsənzardı. It donunda sənin yanına gəlirdim. Sənə aşiq olmuşam.

Qız bu sözü eşidəndə çox sevindi. Bu mağarada bir müddət xoş gün, xoş saatnan yaşadılar.

O biri tərəfdən qızın bacıları başladılar qızı axtarmağa. Çox axtardılar, ta ki, gəlib bu mağarada tapdılar. Qız əhvalatı, mən sizə nağıl elədiyim kimi, bacılarına danışdı. Bacıları ona dedilər:

- Onun donunu yandır.

Qız nə qədər elədi oda atdı, genə don yanmadı. Qız bir gün Həsənzardan soruşdu:

- Pəri oğlu, sənin donun nəynən yanır?

Həsənzar dedi:

- Soğan qabığıynan.

Bacılarının sözüynən bir gün qız Həsənzarın donunu yandırdı. Həsənzar o saat bir göyərçin olub, pəravanda qondu, dedi:

- Ayağıva dəmir çarıq geysən, əlivə dəmir hasa alsan, dəmir çarıq dağılanda, dəmir hasanın ucu əyiləndə ancaq məni tapa bilərsən.

Sözün qurtarıb havaya qalxdı, uçub gözdən itdi. Qız ağlayıb başına döydü. Yerdən qalxıb dəmirçinin yanına getdi, dəmir çarıq, dəmir hasa qayırtdırdı. Dəmir çarığı ayağına geydi, dəmir hasanı əlinə aldı, cibinə də arpa çörəyi qoyub yola düşdü.

Qız yeddi il yol gedəndən sonra baxdı ki, dəmir çarığı dağılıb, hasanın ucu da əyilib. Cibində arpa çörəyi də cücərib. Gedib bir bulağın başında oturdu. Gördü bir kəniz su aparmağa gəldi. Qız kənizdən soruşdu:

- Bu suyu kimə aparırsan?

Kəniz dedi:

- Həsənzar ağaya.

Qız dedi:

- Sən Həsənzar ağanın canı, bardağı ver su içim.

Kəniz bardağı qıza verdi. Qız üzüyü saldı bardağın içinə. Kəniz çıxıb getdi. Həsənzar su içəndə üzüyü bardağın içində gördü. Həsənzar soruşdu:

- Bulaqda kim var idi?

Kəniz dedi:

- Bir oğlan.

Həsənzar fikrə getdi: "Qızın üzüyün gətirən oğlan kim olsun?" Həsənzar durub bulağın başına gəldi. Baxıb gördü padşah qızıdı oğlan paltarında. Görüşdülər, öpüşdülər. Həsənzar bir əfsun oxuyub, qızı bir alma elədi, qoydu cibinə.

Həsənzar gedib nənəsinə dedi:

- Nənə, padşah qızı gəlib.

Deyirlər, bu qarı küp qarısı idi. Adına köpəyi napak qarı deyərdilər. Şər işi çox sevərdi, gözü yox idi yaxşı işi görsün. Bir səsi var idi, danışanda adamın qulaqları tutulurdu.

Qarı Həsənzardan bu sözü eşidəndə dedi:

- Bura gəlsə, onu tikə-tikə doğrayacam.

Həsənzar əfsun oxuyub qızı öz donuna saldı. Qarının ağzından od parladı, qaş-gözündən ilan-qurbağa töküldü, küpə minib dedi:

- Mən gəlincə o mirvarı süpürgə ilə qapını elə süpürərsən qırılmaz, gözlərinin yaşıynan qapı-bacanı elə sularsan damcılar bir-birinə dəyməz.

Qarı küpü işə salıb ərşə qalxdı. Həsənzar o saat bir əfsun oxudu, bir dəstə kəniz hazır oldu. Mirvarı süpürgə ilə qapını elə süpürdülər, qırılmadı. Duzlu su ilə qapını elə suladılar damcılar bir-birinə dəymədi.

Qarı gəlib çıxdı. Qıza dedi:

- O xaralı quş tüküynən doldurarsan.

Qız gözlərinin yaşını başladı tökməyə. Axı o, quş tükünü hardan alsın ki, xaralı doldursun.

Həsənzar qapıdan gizlin ona dedi:

- Get flan dağa, degilən yığılın quşlar, yığılın. Həsənzar ağanın toyudu. Quşlar toplananda deyərsən, dağılın quşlar, dağılın Həsənzar ağanın yasıdı.

Qız Həsənzarın dediyi dağa getdi, bərkdən dedi:

- Quşlar, yığılın, Həsənzar ağanın toyudu.

Quşlar yığıldılar.

Qız quşları görüb dedi:

- Quşlar, dağılın, Həsənzar ağanın yasıdı.

Quşlar bu sözü eşidən kimi ağladılar, tüklərini yolub yerə tökdülər. Ağlaya-ağlaya dağılıb getdilər.

Qız quş tükündən yığıb gətirdi, xaralı doldurdu.

Həsənzar qızı xəlvətcə öyrətdi, dedi:

- Bu qarı səni gecə də qoymayacaq yatasan, bitməz iş buyuracaq. Bir az nəfəs almaq, rahat olmaq üçün ona deyərsən:

- Adı gözəl, özü nabat, adı şirin, özü şirin qarı, nə desən yerinə yetirərəm.

Axşam yatan çağı qarı istədi qıza iş buyursun, gecə yata bilməsin. Qarının ağzından qor qalxanda, qaş-gözündən ilan-qurbağa yağmağa başlayanda, qız dedi:

- Adı gözəl, özü nabat, adı şirin, özü şirin qarı, acıqlanma, nə desən yerinə yetirərəm.

Qarı bu sözləri eşidən kimi sakit oldu, başını yerə qoyub yatdı. Qız da o gecə səhərə kimi rahat yatdı. Qarı səhər tezdən durub qıza sabun və bir qara keçə verib dedi:

- Al, bu sabunnan qara keçəni yuyub ağardarsan.

Axı qara keçəni yumaqla ağarmaz. Qız gözlərinin yaşını tökə-tökə qara keçəni yuyurdu. Qarı küpü minib şərə çıxanda, Həsənzar bir əfsun oxudu, keçə ağardı.

Qarı ərşdən qayıtdı. Bir namə yazıb qıza verdi, dedi:

- Apar bu naməni bacıma ver, qavalı götürüb gəlsin, sənin toyunu eləyək.

Həsənzar kəsə yolla gedib, qızın qabağına çıxdı, naməni ondan alıb oxudu, gördü qarı yazıb.

- Bacı, ora çatan kimi bu qızı yeyərsən, bəni adəmdi.

Həsənzar qıza dedi:

- A qız, küp qarısı ya səni özü yeyəcək, ya da başqasına öldürdəcək. Bu yolnan düz gedərsən, qabağına bir qara su gələcək. Suya deyərsən, nə gözəl sürmədi, göz qaşıma çəkəydim. Ordan keçib görəcəksən süddən ağ bir su axır, suya deyərsən, kaş işim olmayaydı, soyunub səndə çiməydim. Bundan da keçib, damla-damla su görəcəksən. Suya deyərsən, kaş sarma olaydı, boynuma taxaydım. Bunlardan keçib örtülü və açıq qapı görəcəksən. Örtülü qapını açarsan, açıq qapını örtərsən. Sərili və qatdalı kəbə görəcəksən. Sərili gəbəni qatlarsan, qatdalı gəbəni açarsan. Açıq və qatdalı kilim görəcəksən. Açıq kilimi qatlarsan, qatdalı kilimi açarsan. Itin qabağında arpa, atın qabağında sümük görəcəksən. Itin qabağından arpanı götürüb atın qabağına qoyarsan, atın qabağından da sümüyü götürüb itin qabağına qoyarsan. Gedib görəcəksən pinəçi döşündən tük çəkib pinələyir. Al bu ipi ver ona, de. "Al ipin". Buradan keçib kağız apardığın qarının yanına gedəcəksən. Qarı sandığa girəndə, sən qavalı götürüb qaçarsan. Səni heç bir şey tutmayacaq.

Bəli, qız Həsənzardan ayrıldı, yola düşüb getməyə başladı, Qabağına bir qara su gəldi. Qız qara suya dedi:

- Nə gözəl sürmədi, kaş qaşıma çəkəydim!

Bir az getdi gördü süddən ağ su gəlir. Qız dedi:

- Kaş işim olmayaydı, soyunub bu gözəl suda çiməydim.

Yola davam elədi, bir damla-damla daman su gördü, dedi:

- Kaş sarma olaydı, boynuma taxaydım.

Bir az da gedib bir örtülü və açıq qapı gördü. Örtülü qapını açdı, açıq qapını örtdü. Qabağına it və at çıxdı. Itin qabağında arpa, atın qabağında sümük var idi. Arpanı götürüb atın qabağına, sümüyü də itin qabağına qoydu. Gördü pinəçi döşündən tük çəkib pinəyləyir. Qız ipi ona verib dedi:

- Al, bu da ipin.

Burdan keçib bir evə girdi, gördü qarı evdədi. Qarı bunu görüb sandığa girəndə, qız qavalı götürüb qaçdı.

Qarı qışqırdı:

- Pinəçi tut.

Pinəçi dedi:

- Niyə tuturam, döşümdən tük çəkib pinəçilik eləyirdim, o mənə ip verdi.

Qarı dedi:

- At tut.

At dedi:

- Niyə tuturam, qabağıma sümük qoymuşdun. Bu sümüyü götürdü, mənim qabağıma arpa qoydu.

Qarı dedi:

- It tut.

It dedi:

- Niyə tuturam, nə müddət idi, qabağımda arpa var idi. Bu arpanı götürdü, sümük qoydu, indi gəmirirəm.

Qarı dedi:

- Ay örtülü qapı tut!

Örtülü qapı dedi:

- Niyə tuturam, nə vaxt idi, örtülü qalmışdım. Bu açdı, rahat oldum.

Qarı dedi:

- Ay açıq qapı tut.

Açıq qapı dedi:

- Niyə tutum, nə vaxt idi açıq qalmışdım, bu örtdü.

Qarı dedi:

- Ay açıq gəbə, tut!

Açıq gəbə dedi:

- Niyə tuturam, nə vaxt idi, açıq qalmışdım, bu örtdü.
Qarı dedi:
- Ay örtülü gəbə tut!
Örtülü gəbə dedi:
- Niyə tuturam, nə vaxt idi, örtülü qalmışdım, bu açdı.
Qarı dedi:
- Ay açıq kilim tut!
Açıq kilim dedi:
- Niyə tuturam, nə vaxtdan açıq idim, bu qatladı.
Qarı dedi:
- Ay örtülü kilim tut.
Örtülü kilim dedi:
- Niyə tuturam, nə vaxt idi örtülü idim, bu açdı, dincəldim.
Qarı dedi:
- Ay damla su tut!
Damla su dedi:
- Niyə tuturam, o məni mərcana oxşatdı.
Qarı dedi:
- Ay ağ su tut!
Ağ su dedi:
- Niyə tuturam o məndə çimmək istəyirdi.
Qarı dedi:
- Ay qara su tut!
Qara su dedi:
- Niyə tuturam, o məni sürmə kimi qaşına çəkmək istəyirdi.
Hamı qıza yol verdi. Qız qavalı gətirib küp qarısına verdi, dedi:
- Adı gözəl, özü nabat, adı şirin, özü şirin, indi toyumu elərsənmi?
Qarı dedi:
- Bir şərtim də var, onu yerinə yetirsən, elərəm. Göydə bir küləfirəngi tikin, çıxım küləfirəngidən sizin toyunuza baxım. Damağım nabat dadsın.
Qız bu sözləri xəlvətcə Həsənzara söylədi. Həsənzar ona dedi:
- Düzələr.
Axşam Həsənzar bir əfsun oxudu, yeddinci çərxdə bir küləfirəngi tikildi. Səhər qız qarının yanına gəlib dedi:
- Adı gözəl, özü nabat, sözü nabat. Adı şirin, özü şirin, küləfirəngi hazırdı. Nağaranı ver, çıx küləfirəngiyə.
Qarı ənginin altına bir batman nabat atdı, ağzını marçıldada-marçıldada küpə minib göyə qalxdı. Həsənzar da toyu başladı. Toy qurtaranda Həsənzar bir əfsun oxudu, adı nabat, özü zəhər qarı küləfirəngiynən birlikdə yeddinci çərxdən gəlib yerə düşdü, hər tikəsi bir yerə səpələndi.
Həsənzar o saat qılıncı çəkib qarının bacısı qızını da öldürüb yola düşdülər. Qarının bacısı ikinci qarı duyuq düşdü, küpə minib bunların dalına düşdü. Həsənzar gördü qarı gəlir. Tez bir əfsun oxudu, qız oldu duz dağı, özü də oldu ülgüc dağı. Qarı dedi:
- Ay duz dağı, Həsənzarın yeri olmayaydın, ülgüc dağını aparaydım. Burada özüm duz dağı olub qalaydım.
Qarı duzdan bir az ağzına atdı, qızın bir barmağı olmadı. Həsənzar bir əfsun oxudu, qız oldu kəhriz, Həsənzar oldu cam. Qarı gəlib dedi:
- Ay kəhriz, Həsənzarın canı üçün, Həsənzarın yeri olmasaydın, camını aparardım, il on iki ay burada kəhriz qalardın.
Həsənzar qarının gözünü oğurlayıb bir əfsun oxudu, qız oldu bağ, Həsənzar oldu bağban. Qarı gəlib dedi:

- Ay bağ, Həsənzarın yeri olmayaydın, bağbanı aparaydım, həmişə bağ olub burda qalaydım.

Qarı bir armud qırdı, yeyə-yeyə getməyə başladı. Qızın üç barmağı olmadı.

Həsənzar dedi:

- Gərək bunu da adı irin, yeri dərin bacısının yanına göndərək.

Bir yerdə gizləndi, qarı gələndə onun təpəsinə bir əmud vurdu, qarı xıncım-xıncım olub torpağa qarışdı. Həsənzarnan qızın canı da onların şərindən qurtardı. Bir əfsun da oxudu, qızın barmaqları yerinə gəldi.

Yola düşüb genə həmin qəl`əyə gəldilər. Gördülər küçüklər hələ burdadı.

Həsənzar yaxşı imarətlər tikdirdi, içinə yığışdılar. Qıza dedi:

- Bir də hər deyilən sözə baxmazsan.

Qızın bacıları da gəldilər. Birlikdə atalarının yanına getdilər. Ataları tutduğu işdən xəcalət çəkdi, qızından üzr istədi.

Yeddi gün, yeddi gecə toy eləyib, ömür sürdülər.

GÜL VƏ NƏSTƏRƏN

Keçmiş zamanlarda Hələb padşahının Gül və Nəstərən adında iki oğlu var idi. Padşah bu uşaqları oxudurdu. Günlərin bir günü anaları xəstələnib, canını tapşırdı oğlanlarına. Gül ilə Nəstərən analarını gözlərinin yaşını tökə-tökə dəfn elədilər. Qırx gün oxumağa getmədilər, qara geyib yas saxladılar. Qırx gün tamam olanda qardaşlar söz bir yerə qoydular ki, atalarını evləndirsinlər. Axşam oldu axşamınız xeyir, padşah evə gələndə Gül dedi:

- Ata, izn ver səni evləndirək.

Padşah dedi:

- Misir padşahının qızını ala bilsəniz evlənərəm.

Gül dedi:

- Ala bilərik.

Sabahı Gül ilə Nəstərən güclü qoşunla Misir ölkəsinə getdilər. Axşam padşahın qızına elçiliyə getdilər. Hələb padşahı zor şah idi. Hamı şahlar onu sayırdılar. Odur ki, Misir padşahı qızını razılıqla Hələb padşahına ərə verdi. Gül ilə Nəstərən toy-nağara ilə qızı Hələbə gətirdilər. Qız elə bildi ki, onu Gülə toy edirlər. Çox şad idi. Axşam oldu, padşah qızın yanına getdi. Qız onu görəndə diksindi. Bir də gördü onun yanına bir saqqallı kişi gəldi. Qız onu tanımaq da istəmədi, dedi:

- Sən kimsən, məni alan oğlan bu saat gələcək.

Oğlanlar böyük ən`am, xonçaynan qızın yanına gəldilər. Qız Gülü yaxaladı. Gül göz vurdu, atası ilə Nəstərən getdi, tək qaldı qız, bir də Gül.

Qız Gülə dedi:

- Bu nə kələkdi mənim başıma gətiribsiz? Məgər məni sən özünə almamısan?

Gül dedi:

- Xeyr, xanım, səni atama almışam. Sən mənim anam hesab edilirsən.

Qız dedi:

- Xeyr, mən sənə ərə gəlmişəm, səni sevirəm. Gərək mənlə baş bir yasdığa qoyasan.

Qız oğlanı qucaqlamaq istəyəndə Gül ona bir şapalaq vurdu. Qız qışqırdı. Padşah, Nəstərən, vəzir və başqaları tökülüb evə doldular. Qız ağlaya-ağlaya dedi:

- Gül məni zorlayırdı!

Padşah çox sözəbaxan, hər sözə inanan adamdı. O saat hökm elədi, oğlanlarının ikisini də başqa ölkəyə sürgün elədilər.

Bunlar gəzə-gəzə gedib bir meşəyə çıxdılar. Nəstərən yatdı, Gül qarovul çəkirdi. Gördü iki quş ağacın başına qondu. Quşun biri dedi:

- Bacılı, bu oğlanları tanıyırsanmı? Bunlar Hələb padşahının oğlanlarıdır. Qəza üz döndərdi, anaları öldü. Oğlanları atalarına Misir padşahının qızını aldılar. Qız elə bildi, onu padşaha yox, oğlu Gülə almışlar. Baş bir yasdığa qoymağa Güldən tələb elədi. Gül ona bir şillə vurdu. Qız qışqırıb dedi:

- Gül məni zorlamaq istəyirdi.

Padşah onun sözünə inandı, oğlanlarının ikisini də sürgün elədi.

Bacısı dedi:

- Ay bacı, kim mənim ürəyimi yesə padşah olar, başımı yeyənin başının altında hər gecə bir kisə qızıl olar.

Gül bunu eşidən kimi quşu oxla vurdu. Ürəyini özü yedi, başını qardaşına saxladı. Bu zaman göydən bir əl uzandı, Nəstərəni götürüb apardı. Nəstərəni aparan div qızı idi. Demə o, Nəstərəni görüb aşiq olubmuş. Div qızı Nəstərənə dedi:

- Oğlan, sənə aşiqəm, gərək məni alasan.

Oğlan ona cavab verdi:

- Ala bilmərəm...

O biri tərəfdən Gül qardaşını tapa bilmədi, ağlaya ağlaya gedib bir ölkəyə çıxdı. Baxdı adamlar yüyürürlər. Birindən soruşdu:

- Bəs bu adamlar hara gedirlər?

Ona cavab verdilər.

- Padşahımız ölüb. Dövlət quşu uçurdacaqlar. Quş kimin başına qonsa, onu padşah qoyacaqlar.

Gül də adam toplanan yerə getdi. Dövlət quşu uçurdular. Quş göydə fırlandı, sonra Gülün başına qondu. Camaat onu özlərinə padşah qoydular. Gül çox ədalətli, işbilən, ağıllı padşah oldu...

O biri tərəfdən Nəstərən bir il div qızının yanında qaldı. Bir gün gözlədi, div qızı yuxuya gedəndə onun ürəyinin başından bir qılınc vurub onu öldürdü. Elə həmin gün ordan yola düşdü. On iki gün yol gedəndən sonra bir şəhərə çatdı, onu şəhərə buraxmadılar, dedilər.

- Gül padşahdan icazə yoxdu.

Nəstərən gördü şəhərin dörd tərəfi xarabadı, soruşdu:

- Niyə buralar xaraba olub?

Dedilər:

- Bir əjdaha peyda olub. Şəhərin ətrafında yaşayan əhalini, yerləri xarabalığa çevirib. Onun üçün şəhərin qalan yerinə hasar çəkmişik. Nəstərən əjdahanın yerini bu adamdan salıq aldı. Düz ora getdi.

Əjdaha ağzını açıb, onu kama çəkmək istəyəndə Nəstərən ona bir qılınc vurub öldürdü. Qəl`əban bunu gördü, daldan Nəstərənin başına bir qılınc vurub yerə sərdi. Bir neçə yerdən doğrayıb bir çapıta sarıdı. Qəl`əban düz padşahın yanına gedib dedi:

- Bəs əjdahanı öldürüb, camaatın canını onun bəlasından qurtardım.

Padşah ona çoxlu ən`an verdi. Qəl`əban, ən`amı götürüb evinə gəlməkdə olsun, odunçu Əhməd oduna gedirdi. Gördü çapıt arasında bir şey büküblər. Açıb gördü bir gözəl oğlandı, doğrayıblar. Odunçu Əhməd baxıb gördü, oğlan ölməyib, canı var, ürəyi döyünür, vəzmi vurur. Nəstərəni dalına alıb evinə apardı. Qırx tümən pul verib, Nəstərəni sağaltdırdı. Odunçu Əhməd o qədər borc eləmişdi ki, altından çıxa bilmirdi. Bunu Nəstərən bilib dedi:

- Əmi, hər gecə mən tezdən duranda yasdığımın altında bir kisə qızıl olacaq, götürərsən.

Odunçu Əhməd çox şad oldu, onun yasdığının altından hər gün bir kisə qızıl götürdü. Kasıblıq daşını atdı., Borc altından çıxdı, yaxşı evlər tikdirdi. Günlərin bir günü oğlan səyahətə çıxmışdı, qəl`əban onu görüb tutdurdu. Zindanbanın yanına aparıb dedi:

- Padşah deyir bunu zindana salsın, sonra işinə baxacam. Nəstərəni zindana saldılar, Odunçu Əhməd çox axtardı, soraq saldı, oğlanı tapa bilmədi. Bu münvalla Nəstərən bir il zindanda əzab çəkdi. Bir gün bir tacir zindanbanın yanına gedib dedi:

- Dəryada bir nəhəng balıq gəminin qabağını kəsib, qoymur gedək. Bir sahibi olmayan çox cəzalı dustaq varsa, ver aparım nəhəngin ağzına atım, götürüb getsin, gəmiyə yol açılsın.

Qəl`əban da burda idi. O zindanbanı öyrətdi. Zindanban tacirə Nəstərəni verdi. Tacir Nəstərəni götürüb getdi. Nəstərəni naqqanın ağzına atanda o dedi:

- Tacir, mənə bir qılınc verin, belimə də bir ip bağlayın, əgər naqqanı öldürə bilsəm, çəkərsiniz gəmiyə.

Tacir razı qaldı. Ona bir saz qılınc verdi, belinə də bir ip bağlayıb dəryaya salladı. Nəstərən naqqanı parça parça eləyib öldürdü. Qan dəryanı qırmızı elədi. Onu dəryadan kənara çəkdilər. Tacir Nəstərəni oğulluğa götürdü. Gəmi yola düşdü, gedib bir ölkəyə çıxdı. Tacir çox karlı adam idi. Onu hər yerdə tanıyırdılar. Tacir bu ölkənin padşahına ən`am apardı. Padşah ondan çox razı qalıb onunla oğlunu qonaq çağırdı. Tacirlə Nəstərən padşaha qonaq getdilər. Nəstərəni ziyafətdə padşah qızı görüb aşiq oldu. Tacir elçi getdi, padşah qızını Nəstərənə verdi. Qırx gün, qırx gecə toy elədilər. Şah qızını Nəstərənə verdilər. Tacir şah qızına baxanda ağlı başından çıxdı. Qız o qədər gözəl idi ki, aya deyirdi sən çıxma, mən çıxacam, günə deyirdi sən çıxma, mən çıxacam. Tacir şah qızını görüb aşiq oldu. Bu fikrə gəldi ki, Nəstərəni dəryaya salsın, qız ona qalsın. Qız bunu hiss eləyib Nəstərənə dedi:

- Səni tacir öldürəcək. Əgər səni dəryaya atmaq istəsələr, tacirə de səni bir sandığın içinə qoyub dəryaya atsınlar.

Tacir şeyləri gəmiyə yığıb yola düşdü. Dəryanın lap ortasında Nəstərəni dəryaya salmaq istədi. Nəstərən ona yalvarıb dedi:

- Ey tacir, rəhm elə, dəryaya atma. Əgər atmaq istəsən, bir sandığın içinə qoy at. Qoy naqqalar parçalayıb yesinlər, boğulub ölməyim.

Tacir fikirləşdi: "Bu böyük dəryanın içindən o hara çıxacaq, naqqalar sandığı parçalayıb onu yeyəcəklər". Onun sözünə razı oldu, bir qutu gətirtdi, Nəstərəni qutuya qoydu. Qız gözlərinin yaşını tökə-tökə qutunun ağzını müşəmmələdi. Tacir onu dəryaya atdı, ləpələr onu götürüb gözdən itdilər. Ləpələr onu gətirib Gül padşahın ölkəsinə çıxartdılar. Bağban qutunu gördü, özünü dəryaya atıb qutunu kənara çıxartdı. Ağzını açıb gördü bir gözəl oğlandı. Bağban Nəstərəni evinə aparıb oğulluğa götürdü. Nəstərən bağbanın evində yaşamaqda olsun, tacir gəlib çıxdı, qız onu qətiyyən səmtinə qoymadı, dedi:

- Əgər mənə səmt gəlsən, özümü öldürəcəyəm. Mənim sevgilim var, sən mənim atamsan.

Tacir baxdı ki, bu qıza səmt gedə bilməyəcək, getsə də biyabır olacaq. O idi ki, tacir qızı aparıb Gül padşaha verdi. Gül qızı görən kimi ona aşiq oldu, tacirə çox ən`am verdi.

Qız padşaha dedi:

- Şah sağ olsun, mənə dörd ay on gün möhlət ver, mənə səmt gəlmə. Ərim təzə ölüb.

Gül şah ona möhlət verdi. Qızın Gülə bağışlanmasını, qıza dörd ay on gün möhlət verilməsini Nəstərən eşitdi. Bir gün bağban padşahın hərəmləri üçün gül dərirdi. Nəstərən ondan soruşdu:

- Ata, bu gülü kimə dərirsən?

Bağban dedi:

- Oğul, padşahın hərəmlərinə.

Nəstərən bir dəstə çöl gülü dərib, bağbana verdi, dedi:

- Ata, bu gülü padşahın təzə hərəminə verərsən.

Bağban dedi:

- Oğul, çöl gülü yaxşı deyil.

Oğlan dedi:

- Ata, deyərsən, Nəstərən gülüdü.

Bağban bir söz demədi, gülü ondan aldı. Bağban gülləri aparıb qızlara payladı. Təzə qıza da çöl gülü verdi. Qız dedi:

- Mənə niyə çöl gülü verirsən?

Bağban dedi:

- Sənin gülün güllərin hamısından yaxşıdı.

Qız dedi:

- Yox, mən qəribəm, onunçün mənə belə gül verirsən.

Bağban dedi:

Bu gülə Nəstərən gülü deyərlər. Bunu mənim oğlum Nəstərən dərib.

Qız mətləbi başa düşdü. Bildi ki, Nəstərən bağbanın evindədi, dedi:

- Bu gülü dərən oğlanı mənim yanıma göndərərsən.

Bağban dedi:

- Baş üstə.

Bağban qayıdıb əhvalatı Nəstərənə danışdı, dedi:

- Təzə qız səni görmək istəyir, nə deyirsən?

Nəstərən dedi:

- Ata, bil və agah ol, o qız mənim arvadımdır. Mənə bir dəst qız paltarı geyindir, apar məni ona kəniz ver.

Bağban şad oldu, ona bir dəst qız paltarı geyindirdi, təzə qızın yanına aparıb dedi:

- Xanımların hamısının kənizi var, sənin yoxdu. Bunu da sənə kəniz gətirmişəm.

Qız razı olub, Nəstərəni öz yanında saxladı. Qızların hamısı dağılıb gedəndən sonra, Nəstərən üzünü açdı. Iki aşiq-mə`şuq bir-birinin boynuna sarmaşıq kimi sarıldılar.

Nəstərən qıza dedi:

- Mənim əzizim, padşah mənim qardaşımdı. Sən dur onun yanına get, degilən bir sualım var, ona cavab versən, nə desən razı olaram. De görüm Gül Nəstərənə neylədi?

Qız durub Gül padşahın yanına getdi. Gül padşah dedi:

- Indi razısanmı?

Qız dedi:

- Bir sualım var, əgər ona cavab versən, hər nə desən razı olaram.

Gül padşah dedi:

- Sualını de.

Qız dedi:

- Şah, de görüm Gül Nəstərənə neylədi?

Bu sözü eşidən kimi padşah özündən getdi. Qız onu ayıltdı. Gül padşah ayılan kimi Nəstərəni soruşdu. Elə bu zaman Nəstərən qapıdan içəri girdi. Görüşdülər, öpüşdülər, çox şad oldular. Nəstərən bütün başına gələn əhvalatı Gülə nağıl elədi. Gül bərk qəzəbləndi, qırmızı geyinib taxta çıxdı. Əvvəl-əvvəl qəl`əbanı çağırtdırıb dedi:

- Əjdahanı Nəstərən öldürür, sən öz adına çıxarırsan, üstəlik onu da ağır yaralayırsan? Sənin cəzan ölümdü.

Taciri çağırtdırıb dedi:

- Öz oğlunun arvadına aşiq olursan? Sənin də cəzan ölümdü.

Əmr elədi cəllad hazır oldu. Qəl`əbanla, taciri dar ağacından asdırıb öldürdü.

Odunçu Əhmədi, bağbanı da çağırıb onlardan çox razılıq elədi. Onları özünə vəzir tə`yin elədi. Qardaşına da yeddi gün, yeddi gecə toy elətdirdi.

Günlərin bir günü Gül qardaşına dedi:

- Nəstərən, gedək atamızın yanına, onu görək, yenə qayıdarıq.

Onlar atlanıb yola düşdülər. Hələb şəhərinə yaxınlaşanda atalarının yanına bir qasid göndərdilər ki, sürgün elədiyin oğlanların səni görməyə gəlirlər, izn verirsən, ya yox?

Qasiddən oğlanların gəldiyini eşidən kimi padşah bütün vəzir, vəkil, əyanlarla onların pişvazına çıxdılar. Padşahla oğlanları görüşüb-öpüşdülər. Böyük dəstə ilə bargaha gəldilər.

Atası bütün əhvalatı öyrənmişdi, onları nahaqdan sürgün etdiyi də ona aydın olmuşdu. Ölkənin hər yerində şadyanalıq keçirdi, şəhəri çırağban elədi.

Onlar atalarının yanında bir müddət qalandan sonra ondan icazə aldılar, vidalaşıb öz ölkələrinə getdilər. Onlar yeyib, içib, yerə keçdilər, siz də yeyin, için dövrə keçin.

L O Ğ M A N

Biri varıydı, biri yoxuydu, bir zalım padşah varıydı. Camaata o qədər zülm eləmişdi ki, hamı gecə-gündüz ona qarğış eləyirdi. Camaat o qədər qarğamışdı ki, padşah azara düşmüşdü, rəngi sap-sarı, ölü rənginə oxşayırdı, üzü-gözü yupyumru şiş tökmüşdü, qarnında xərçəng peyda olmuşdu. Dünyada nə qədər həkim-təbib varıydı, hamısı gəlib baxmışdı, amma heç biri yaxşı eləyə bilməmişdi. Padşah gələn həkimlərin hamısıynan şərt bağlamışdı ki, əgər onu yaxşı eləsələr çoxlu ən`am alacaxlar, yox, yaxşı eləyə bilməsələr onda boyunları vurulacax. Nə qədər həkim gəlirdisə, padşahın dərdinə əlac eləyə bilmirdi. Cəlladlar o saat həmin həkimlərin boynunu vururdular. Padşah o qədər həkim öldürtdürmüşdü ki, yekə bir qəbiristanlıx düzəlmişdi. Axırda xəbər gedib Loğmana çatdı ki, nə durubsan, dünyada həkim qalmadı, padşah hamısını qırıb tərk elədi. Loğman soraxlaşa-soraxlaşa düz gəldi padşahın yanına. Padşahnan şərt bağlayıb işə başladı. Loğman dedi:

- Şah sağ olsun, sənin qarnında xərçəng var. Mən səni sağaldaram, amma gərək oğlunun öldürülməsinə icazə verəsən. Sənin dərmanın oğlunun qanıdı.

Padşah bu sözü eşidən kimi az qaldı dəli olsun, gözləri çıxdı kəlləsinə. Dedi:

- Gözümün ağı-qarası bircə oğlum var, mən bu işə necə razı ola bilərəm?

Loğman dedi:

- Özün bil, razı olmazsan çıxıb gedərəm.

Padşah razı olmadı ki, olmadı. Loğman vəziri, vəkili bir tərəfə çəkib dedi:

- Mən yalandan belə deyirəm. Oğlanın başını kəsməyəcəm, onun əvəzinə bir qoyun başı kəsəcəm. Bu haqda nə badə padşaha bir söz deyəsiniz ha, onda onu sağaltmaq olmaz. Indi siz gedin padşahı bu işə razı salın ki, oğlunun başını kəsməyə icazə versin.

Loğmanın bu sözünnən sonra vəzir, vəkil padşaha yalvar-yapış elədilər:

- Qibleyi-aləm sağ olsun, sən gəl taxtı-tacı buraxıb camaatı başsız qoyma. Bir oğul nədi ki, bu cahi-cəlalı ona verirsən. Evlənərsən, təzədən övladın olar. Sən gəl razı ol.

Hərə bir tərəfdən yalvar-yapış eləyib padşahı razı saldılar. Loğman oğlanı gətirib atasının gözünün qabağında əl-ayağını bağladıb yıxdı yerə, əlinə pıçağı alıb oğlana sarı getdi ki, guya başını kəsir. Padşah qışqırıb dedi:

- Heç olmasa oğlumun başını gözümün qabağında kəsməyin.

Loğman dedi:

- Padşah sağ olsun, ayrı cür yolu yoxdu, gərək belə ola. Indi ki, görmək istəmirsən, onda aralığa bir pərdə tutaq.

Gətirib padşahnan oğlunun arasına pərdə tutdular. Loğman bilirdi ki, iş belə olacax, odu ki, oğlana göz vurub dedi:

- Dostum, indi tez bura bir qoyun gətirt, mən qoyunun başını kəsdikcə sən başla səs-küy salıb xırıldamağa, qoy atan elə bilsin ki, sənin başını kəsirəm.

O saat qoyun hazır oldu. Loğman başladı pərdənin dalında qoyunun başını kəsməyə, oğlan da xırhaxır salmışdı. Padşahın yanında da vəzir, vəkil onu bir təhər sakit eləyirdilər. Loğman kəsdiyi qoyunun qanınnan bir kasa doldurub padşahın hüzuruna apardı, dedi:

- Əgər sağalmaq istəyirsənsə, al bu qanı iç.

Padşah nə qədər elədi içə bilmədi. Axırda Loğman barmaxlarını qana batırıb padşahın üzünə çilədi. Padşah o saat qusdu. Ağzınnan bir yekə xərçəng düşdü. Loğman dedi:

- Ey padşah, daha canın qurtardı, bu günnən sən oldun sapbasağ.

Sonra Loğman pərdəni açıb padşahın oğlunu özünə görsətdi. Padşah gördü oğlu budu gülür, başa düşdü ki, kəsilən qoyunun başı imiş. Padşah dedi:

- Loğman, bu nə sirridi sən elədin?

Loğman dedi:

- Sənin dərmanın təkcə bu idi, əgər belə eləməsəm səni sağalda bilməzdim.

Hamı Loğmana afərin deyib dua elədi. Padşah ona çoxlu xələt verdi. Vəzirnən vəkil də Loğmanın ayağına düşüb dedilər:

- Ey həkimi-Loğman, bizim də dərdimizə əlac elə.

Loğman dedi:

- Sizin dərdiniz nədi?

Vəzir dedi:

- Mənim başımda qurt var, həmişə ağrıyır.

Vəkil də dedi:

- Mənim də beynimdə qurbağa var, elə hey quruldayır.

Loğman dedi:

- Vəzir, sən düz deyirsən, başında qurt var. Amma vəkil yalan deyir, fikrinə gətirir ki, beynimdə qurbağa var, elə bilir ki, doğrudanda var. Beyində qurbağa olmaz.

Qərəz, Loğman bunların hər ikisini hamama aparıb dedi:

- Mən sizə burda müalicə edəcəm.

Əvvəlcə vəkilə bir az bihuşdarı verib onu yuxulatdı. Sonra başının dərisinnən bir balaca çərtib qan çıxardı. Bir boşqaba da bir qurbağa ölüsü qoyub üstünü də qana batırdı. Sonra vəkilin başını bərk-bərk sarıyıb ayıltdı. Vəkil baxıb gördü ki, başı sarıxlı, qabağında da qanlı bir qurbağa balası. Elə bildi ki, bunu onun başınnan çıxardıblar. Odu ki, dedi:

- Ay Loğman, sənin əlinə qurban olum, nə yaxşı eləyib qurbağanı başımnan çıxartdın, indi tamam rahatlandım.

Vəzir bu əhvalatların hamısını görürdü. Elə bilirdi ki, onunku da belə asanlıqla keçəcək.

Loğman vəziri qabağında oturdub bihuşdarı verəndə vəzir dedi:

- Həkim, neyləyirsən bihuşdarı verirsən, burda nə var ki. Mən elə-belə də dözərəm.

Loğman başa düşdü ki, vəzir yuxarıdan baxırmış, odu ki. Mən elə-belə də dözərəm.

- Hə, elə sən düz deyirsən, burda nə çətin iş var ki, sənə bihuşdarı verim.

Bəli, Loğman vəzirin kəlləsini çəkic-kəlbətinlə tamam iki yerə ayırdı, gördü beynində yekə bir qurt var. Istədi maqqaşnan qurdu götürsün. Birdən hamamın bacasından Loğmanın şagirdi qışqırıb dedi:

- Usta, maqqaşı isit, sonra qurdu götür.

Loğman gördü ki, şagirdi yuxarıdan xəlvətçə baxır, tez maqqaşı qaynar suda bərk qızdırdı, qurdun başınnan tutub kənara atdı. Sonra xəstənin başını yenə bitişdirib bərk sarıdı. O günnən vəzirin də başının ağrısı tamam kəsdi. Loğman hamamnan çıxanda şagirdini çağırıb dedi:

- Bala, de görüm sən niyə dedin ki, usta maqqaşı qızdır?

Şagird dedi:

- Usta, mən gördüm ki, qurdun çoxlu əl-ayağı var. Sən soyux maqqaşnan qurdu götürəndə o əl-ayağıynan beyindən bərk-bərk yapışacaqdı ki, onu qopartmasınlar. Beyin də zərif bir şey olduğunnan zədələnə bilərdi. Amma isti maqqaş qurda dəyən kimi onun bədənini yandıracaqdı, o saat qurdun əl-ayağı boşalıb heç yerdən tuta bilməyəcəkdi, sən də asanlıqla onu götürəcəydin.

Loğman dedi:

- Əhsən oğlum, mən bilirəm ki, sən çox ağıllı həkim olacaxsan.

Bu işdən sonra Loğmanın şücəti hər yerə yayılmışdı. Odu ki, canı-başı ağrıyan qaçıb gəlirdi onun yanına. Loğman bütün xəstələri düzürdü yanına, bir-bir, üzlərinə baxıb hamısının dərdini deyirdi. Bir gün Loğman 39 xəstənin hamısının dərdinin dərmanını tapdı, amma birinin üzünə baxıb dedi:

- Oğul, sənin dərmanın məndə yoxdu, get özünə çarə tap.

Kişi kor-peşiman qayıdıb evinə, arvadına dedi:

- Arvad, mənim dərdim gör necədi ki, Loğman da ona çarə eləyə bilmədi, baş götürüb gedirəm, harda öləm-öləm.

Arvadı nə qədər yalvar-yapış elədi ki, getmə, kişi razı olmadı. Baş götürüb getdi. Az getdi, çox dayandı, çox getdi, az dayandı, dağlar aşdı, təpələr keçdi, gəlib bir düzəngaha çıxdı. Gördü

acınnan qılçalarında taqət yoxdu ki, getsin. Göydən yağış elə tökürdü ki, sel kimi. Göy guruldadı, ildırım çaxdı, birdən-birə şaqqıltı qopdu, yekə bir qoz ağacının başına ildırım düşdü. Ağac o saat yanıb külə döndü. Ağacın başınnan yerə ildırım vurmuş bir göy qarğa düşdü. Taqətdən düşmüş xəstə acından dayana bilməyib ölü qarğanı yedi. Qarğanı yeyəndən sonra kişi gördü ki, gözünə bir az işıx gəldi. Başladı yenə yol getməyə, yolda bu dəfə də bir çobana rast gəldi. Aclıx kişini əldən salmışdı. Çobandan bir az süd istədi. Çoban südü sağmağa qab tapmadı. Gördü ki, yerdə bir qırıx kəllə sümüyü var, südü ona sağıb verdi. Xəstə canını dişinə tutub bir təhər bu südün yarısını içdi. Qabın içində bir az süd qalmışdı. Onu da qırağa qoydu ki, əlacsız qalsa onuda içsin. Elə yenicə yerə qoymuşdu, ki, bir qara ilan gəlib südün qalanını içdi, sonra da hamısını təzədən kəllənin içinə qusdu. Ilan südnən bərabər yam-yaşıl zəhərini də tökmüşdü. Kişi bu əhvalatı gözüynən görmüşdü. Öz-özünə dedi: "Mənim ki dərdimə dərman yoxdu, ölüb gedəcəyəm, qoy elə bu zəhərli südü içim, bir yolluq canım qurtarsın". Bu fikirnən südü çəkdi başına. Ha gözlədi, gördü ölmür. Ayağa qalxıb gördü xəstəliyi tamam gedib, lap anadangəlmə olub. Düz gəldi Loğmanın yanına, dedi:

- Loğman, sən deyirdin ki, mənim dərmanım yoxdu, bəs necə oldu ki, mən sağaldım?

Loğman dedi:

- Qardaş, mən hardan alaydım ildırım vurmuş göy qarğanın ətiynən qara qulun kəlləsindəki südün içinə qusmuş ilan zəhərini ki, sənə verə idim? Bunlar sənin dərmanın idi.

Kişi Loğmandan bu sözləri eşidəndə lap mat qaldı, doğrudan da onun böyük həkim olduğunu gördü. Kişi Loğmanla qardaş olub onun yanında qaldı.

Loğman çox qocalmışdı, daha tez-tez xəstələrin evinə gedə bilmirdi. Kimin xəstəsi olsaydı onu gəlməyə də qoymurdu ki, birdən yolda soyux-zad dəyər. Odu ki, evdəki xəstənin nəbzinə bir ip bağladıb bir ucunu öz olduğu yerə gətirdərdi. Əvvəlcə ipi qulağına tutub, sonra da bir o yana, bir bu yana oynadıb xəstənin dərmanını deyərdi.

Bu şəhərdə bir ayrı da həkim var idi. Bu həkim Loğmanı yoxlamaxdan ötəri camaatı öyrətdi ki, mən bir kələk işlədəcəm, əgər Loğman onu başa düşsə, doğrudan da çox böyük həkimdi, yox, başa düşməsə, onu şəhərdən qovub biabır eləyərik. Camaat sözbir olub küçədən yenicə beş bala doğmuş taqətsiz, arıx bir pişik tutdular. Pişiyin ayağına bir ip bağlayıb ipin o biri ucunu da apardılar Loğmana.

- Həkim, de görək bizim xəstəmizin dərmanı nədi?

Loğman kəndiri qulağına tutub bir az oyana, bu yana tərpədib dedi:

- Bu xəstə yenicə beş bala doğub, özü də acınnan taqətdən düşüb, ona bir neçə siçan tutub yedirtmək lazımdı.

Camaat bu sözü eşitcək Loğmanın ağlına heyran qaldı, onun həkimlər həkimi olduğunu bir daha təsdiq etdilər.

Camaatla gələn həkim gördü ki. Loğmanın hörməti bir idisə, innən belə on qat artacax. Paxıllıx ona güc elədi.

Həkim dedi:

- Loğman, mən də sənin kimi həkiməm, özü də elə dərmanlarım var ki, onların səndə heç biri də yoxdu, amma camaat hamısı bir balaca başı ağrıyanda qaçıb sənin yanına gəlir. Innən belə heç mənim adımı da çəkən olmayacax. Bir şəhərdə iki həkim olmaz. Bir də ki, iki qoçun başı bir qazanda qaynamaz. Ya bu şəhərdə sən qal, ya da mən.

Loğman buna bir altdan-yuxarı baxıb dedi:

- Ey həkim, fikrini bir azca açıx de, görüm nə istəyirsən?

Həkim dedi:

- Loğman, gəl şərtləşək, ikimiz də zəhərli dərman hazırlayax. Mənim dərmanımı sən iç, səninkini də mən. Kimin dərmanı güclü olsa, o biri öləcək. Ikimizdən birimiz qalarıx.

Loğman bu şərtə razı oldu. Hər ikisi çəkilib öz evlərinə getdilər. Həkim kişi evinə gedən kimi yeddi-səkkiz dərmanı bir-birinə qatıb elə bir zəhər hazırladı ki, daşın üstünə tökəndə, daş yeddi yerdən parçalandı.

Həkimi qoyax evdə, görək Loğman neylədi? Loğman davacat otağına gedib, bir həvəngdəstə götürdü, içinə bir parça keçə qırığı salıb başladı döyməyə. Loğman həvəng dəstədə keçə qırığını o qədər döyəclədi ki, bir də gördü sabah açılır. Bu tərəfdən də həkimin ürəyi dayanmadı ki gedim görüm Loğman nə elədi. Həkim yavaş-yavaş qapıya yaxınlaşıb başladı qulaq asmağa. Gördü elə Loğman həvəngdəstədə dərman döyəcləyir. Öz-özünə fikirləşdi ki, ey dili-qafil, mənim dərmanım bir saatın içində düzəldi. Amma Loğman dünənnən çalışır, hələ qurtarmayıb. Gör bunun dərmanı nə qədər güclü olacax. Həkimin qorxudan ürəyi partladı, tappıltıynan yerə yıxılıb öldü. Tappıltıya Loğman eşiyə çıxdı, gördü ki, həkim ölüb. Əhvalatı başa düşdü. Dedi:

- Ey həkim, mən hələ sənə dərman verməmişdən öldün. Həvəngdəstədə döydüyüm bir tikə keçə qırığı səni bu günə salanda, gör mənim hazırladığım zəhər neyləyərdi.

Bu əhvalatı hamı bildi. Loğmanın ağlına heyran qaldılar.

M Ə H Ə M M Ə D I N N A Ğ I L I

Biri var idi, biri yox idi. Rumda iki gözləri də kor bir padşah var idi. Bu padşahın üç oğlu var idi. Padşah nə eləyirdi, gözlərini açdıra bilmirdi. Bir gün padşah hökm elədi; bütün rəmmalları, cadugərləri, həkimləri topladılar. Padşah üzünü bunlara tutub dedi:

- Mənim gözlərimin açılması çarəsini kim desə, onu dünya malından qani eləyəcəyəm.

Hamı bir-birinin üzünə baxdı. Axı korun gözlərini nə cür açа bilərdilər. Bir qoca rəmmal qabağa çıxıb dedi:

- Şah sağ olsun, gedər-gəlməz qəl`ədə bir quş var. O quş sənin başıvun üstündə oxusa, gözlərin açılar. Burdan quşun yanına min illik yoldu.

Padşah oğlanlarını səsləyib dedi:

- Oğlanlarım, o quşu tapıb gətirərsiniz, mənim gözüm açılar, işıqlı dünyanı görərəm.

Oğlanları dedi:

- Ata, üçümüz də gedərik.

Padşahın oğlanları ataları ilə salamatlaşıb, bərkitdilər çarıqların dabanın, qırdılar yerin amanın, günə bir mənzil gedib üç yol ayrıcına çıxdılar. Bu yolların biri gedər-gələr, biri gedər-qalar, biri də gedər-gəlməz idi. Qardaşlar üçü də üzüklərini barmaqlarından çıxardıb bir daşın altına qoydular. Böyük qardaş gedər-gələr, ortancıl qardaş gedər-qalar, kiçik oğlan da gedər-gəlməz yolnan getməyə başladılar.

Xırda qardaş Məhəmməd gedər-gəlməz yolnan gedib bir şəhərə çıxdı. Baxdı ki, bu şəhərdə adam-zad yoxdu. Çox gəzdi-dolandı, bir qarı tapdı. Qarıdan soruşdu:

- Bu şəhərin əhalisi hara gedib?

Qarı dedi:

- Dağa gedib.

Məhəmməd qarıdan soruşdu:

- Bəs sən niyə getməmisən?

Qarı dedi:

- Orada qəzilim var, onu gözləyirəm. O qəzili ver mənə.

Məhəmməd əlini qəzilə vuranda, göy guruldadı, o saat bir dev hazır oldu. "Adam, adam iyisi gəlir, Çaqqala badam iyisi gəlir" - deyib Məhəmmədin üstünə həmlə elədi. Məhəmmədlə axşama kimi küştü tutdu, axşam Məhəmməd bir nə'rə çəkib onu yerə vurdu, dev bir göyərçin oldu, uçub getdi. Məhəmməd burdan keçib getməyə başladı. Az getdi, çox getdi, bir qəbiristanlığa çatdı, gördü bir göyərçin gəlib qəbiristanlığa düşdü. O saat göyərçin donunu dəyişib bir gözəl qız oldu. Qızın əlində bir tubulğa çubuğu var idi. Hansı qəbrə vururdu, qəbirdə olan ölü dirilirdi. Məhəmməd gizlənib göyərçinin donun oğurladı. Qız çox yalvardı. Məhəmməd ona dedi:

- Tubulğa çubuğunu mənə ver, donunu verim.

Qız naəlac qalıb tubulğa çubuğunu ona verdi, donunu aldı. Məhəmməd gedib bir şəhərə çıxdı. Həkim paltarı geyib özünü ölüdirildən həkim oldu. Padşah bunu eşitdi, həkimi bargaha apartdı, dedi:

- Doğrudanmı sən ölüdirildənsən?

Məhəmməd dedi:

- Dirildirəm.

Padşah dedi:

- Bir oğlum ölüb, onu dirildərsənmi?

Məhəmməd dedi:

- Dirildərəm.

Məhəmməd padşahın oğlunun qəbrinin üstünə getdi.

Padşah, vəzir, vəkil, bütün ə'yanlar da gəldilər. Məhəmməd qəbrə bir çubuq vurdu, qəbir tərpəndi, bir vurdu qəbir yarıldı, bir də vurdu, oğlan qəbirdən çıxdı. Padşah oğluynan görüşdü, öpüşdü, şadyanalıq keçirdi. Padşah üzünü Məhəmmədə tutub dedi:

- Bir qızım var, gəl sənə verim, damadım ol.

Məhəmməd dedi:

- Şah sağ olsun, atamın gözləri kordu. Deyirlər flan qəl`ədə bir quş var, o quş atamın başı üstündə oxusa, gözləri açılar. O quş üçün gedirəm.

Padşah ondan çox razı oldu, onu tən-tənə ilə yola saldı. Məhəmməd buradan keçib yol aldı, ta ki gedib bir şəhərə çıxdı. Bir nəfər ona rast gəlib dedi:

- Niyə bura gəlmisən? Buranın əhalisi adam əti yeyir. Səni də yeyəcəklər.

Məhəmməd şəhərə girmədi, kənardan keçib getməyə başladı. Az getdi, çox getdi, yenə bir şəhərə çıxdı. Gördü adamlar toplanıb, nağara vurulur. Oğlan birindən soruşdu:

- Bu nə əhvalatdı?

Ona dedilər:

- Bir əjdaha sərçeşmənin qabağını kəsib, bütün suyu içir. Gündə ağzına bir qız atırıq. Qızı yeyincə bir az su axır, camaat su götürür. Bu nobat padşahın qızına düşüb. Onu əjdahanın ağzına atacaqlar.

Məhəmməd dedi:

- O əjdahanı mənə göstərin.

Əjdahanı ona göstərdilər. Məhəmməd yaxına getdi, sıçrayıb əjdahanın qabağında dayandı, qılıncı çəkib əjdahanı öldürmək istəyəndə, əjdaha bir sehr oxuyub, dev oldu. Məhəmməd devi yaxaladı. Götürüb yerə çalanda dev sehr oxuyub oldu göyərçin, göyə uçdu. Göydən bir lə`l saldı. Məhəmməd lə`li götürüb qoydu cibinə.

Göyərçin uçub getdi. Su hər yerə axdı, şadyanalıq keçirdilər. Padşah Məhəmmədi təntənə ilə bargaha apardı. Nə xələt və`d elədi, Məhəmməd heç birini qəbul eləmədi. Axırda dedi:

- Pərdeyi-ismətdə bir gözəl qızım var, verim sənə, damadım ol.

Məhəmməd ona dedi:

- Şah, gedər-gəlməz qəl`əyə gedirəm. Bir quş var onu aparım, atamın gözləri açıla.

Padşah ona dedi:

- Ay oğlan, sən nə danışırsan. Gedər-gəlməz qəl`ə min illik yoldadı. Ora insan gedə bilməz.

Məhəmməd dedi:

- Yolu gödəldib keçərəm.

Məhəmməd onlarla salamatlaşıb yola düşdü, dərə, təpə düz getdi, gedib bir mağaraya çıxdı. Gördü mağarada heç kəs yoxdu, ancaq plov dəmə qoyulub. Məhəmməd plovu qabağına çəkib yedi, bir yerdə gizləndi. Gördü üç göyərçin gəldi. Donunu dəyişib gözəl qızlar oldular. Qalan xörəyi qabaqlarına çəkdilər. Gördülər bir az yeyilib. Qızlar nağıla başladılar. Biri dedi:

- Mən bir əjdaha olub şəhəri-tamam yedim. Bir qarı donuna girib oturmuşdum, bir də gördüm bir oğlan gəldi. Bununla tutuşdum, gördüm məni öldürəcək, göyərçin oldum, göyə qalxdım. Göydən bir lə`l saldım onun qucağına. Onun sağlığına yeyirəm.

Ikinci qız dedi:

- Padşahın oğluna aşıq idim. Oğlan öldü. Hər gün gedib qəbiristanlığa onu dirildirdim, söhbət edirdik. Bir gün gedib dirildəndə, hardansa bir oğlan gəlib cilidimi götürdü. Nə illah elədim, vermədi. Tubulğa çubuğumu alıb donumu verdi. Onun sağlığına yeyirəm.

Üçüncü qız dedi:

- Suyun qabağını kəsmişdim. Padşahın oğluna aşıq idim. Onun sağlığına yeyirəm.

Bu zaman Məhəmməd gizlindən çıxıb dedi:

- Mən də sizin sağlığınıza yedim.

Məhəmməd onların lə`llərini, tubulğa çubuğunu özlərinə qaytardı.

Qızlar dedilər:

- Oğlan, gərək bizim üçümüzü də alasan. Birimiz Cin padşahının, birimiz pərilər padşahının, birimiz də hurilər padşahının qızıyıq. Biz bir yerdə də oxumuşuq, bacılığıq.

Məhəmməd dedi:

- Mən gedər-gəlməz qalaya gedirəm. Qayıtsam, sizi alaram.

Cinlər padşahının qızı onu götürdü, min illik yolu bir gündə qət edib gedər-gəlməz qəl`əyə apardı, dedi:

- Məhəmməd, gedərsən, qabağına açıq qapı çıxacaq, onu örtərsən, açıq suyu bağlarsan, açıq gəbəni yığarsan, örtülü kilimi sərərsən, sonra girərsən qızın mənzilinə. Sərpuşuna baxıb oxuyarsan, yazılanlara əməl elərsən. Əlini yuyub qızın yanına gedərsən. Qızın qırx tumanının bağını açarsan, birinə əl vurmazsan. Bu zaman quş düşəcək əlinə.

Məhəmməd yola düşdü, qabağına açıq qapı çıxdı. Açıq qapını örtdü, açıq suyu bağladı, açıq gəbəni yığdı, örtülü kilimi sərdi. Gedib girdi qızın mənzilinə. Sərpuşu açdı gördü yazılıb: "Sərpuşu götürərsən, qabda olan aşın yarısını yeyərsən. Sonra əlini çəkərsən, çox aş yesən daş olarsan". Məhəmməd "ya mədəd" deyib aşın yarısını yedi, gördü daş olmadı. Əlini yuyub qızın yanına girdi. Qızın qırx tumanının bağını açdı. Biri qalanda əlini vurmayıb kənarda dayandı. Quş gəlib onun əlinin üstünə qondu. Quşu götürüb cin padşahının qızının yanına gəldi. Qız ona dedi:

- Məhəmməd, gözünü yum.

Məhəmməd gözlərini bərk yumdu. Qız dedi:

- Aç gözlərini.

Məhəmməd gözlərini açanda gördü qızların yanındadı. Məhəmməd qızları da götürüb birinci padşahın ölkəsinə gəldi. Bunun da qızını götürdü, ikinci padşahın ölkəsinə getdi, bunun da qızını götürüb, üç yolun ayrıcına gəldi. Daşı qaldırıb gördü üzüklər burdadı, qardaşları hələ gəlməyib.

Məhəmməd qızlara dedi:

- Mən qardaşlarımı tapınca siz burda məni gözlərsiniz.

Məhəmməd çadır qurdu, qızları içində qoydu, özü atı minib orta yolnan getməyin binasın qoydu. Dərələr keçdi, təpələr aşdı, ta ki gedib bir şəhərə çıxdı. Bir aşpaz dükanının qabağına gedib dedi:

- Aşpaz, yeməyə nəyin var?

Aşpaz dedi:

- Kababım.

Məhəmməd dedi:

- Aşpaz, min şiş kabab hazır elə.

Aşpaz min şiş kabab hazırladı. Oğlan kababı Məhəmmədin qabağına gətirəndə, gördü öz qardaşı Məhəmməddi. Görüşdülər, öpüşdülər. Məhəmməd qardaşını götürüb dükana apardı. Min tümən verib, ona paltar aldı. Yüz tümən də verib bir yaxşı at aldı. Atlarını minib yola düşdülər, ta ki gedib bir meşəyə çıxdılar. Gördülər ki, qardaşları Həsən odun yığır. Bununla da öpüşdülər. Şəhərə gəlib ona da bir at, bir dəst libas aldılar. Atlara suvar olub qızların yanına gəldilər.

Qardaşlar baxdılar ki, Məhəmməd atası dediyi quşu və beş də dünya gözəli gətirib. Bunlar qardaşları Məhəmmədə həsəd apardılar. Öz aralarında onu öldürmək qərarına gəldilər. Ona görə ki, özləri əliboş geri qayıdırdılar.

Yola düşdülər. Bir səhrada onlara susuzluq qələbə çaldı. Çox at sürüb bir su quyusu tapdılar. Məhəmmədi quyuya salladılar ki, su çəksinlər. Suyu çəkdilər. Məhəmmədi yuxarı çəkəndə dedilər:

- Quş gətirən sən, padşah qızlarını gətirən sən. Bəs biz nəçiyik?

Ipi kəsib Məhəmmədi quyuya saldılar. Geri qayıdıb qızlara dedilər.

- Məhəmmədi şir parçaladı.

Qızlar bu sözə inanmayıb, onları səmtlərinə buraxmadılar. Gedib padşahım ölkəsinə çıxdılar. Şah şadyanalıq keçirdi, şəhəri çırağban elədi. Quşu padşahın yanına apardılar. Quş oxudusa da, padşahın gözləri açılmadı.

Padşah dedi:

- Vəzir, bəs niyə gözlərim açılmadı?

Vəzir dedi:

- Şah, quş gətirən burda yoxdu, onunçün gözlərin açılmadı.

Padşah çox qəmgin olmaqda olsun.

Sizə kimdən xəbər verim? Bir tacir karvanı səhradan keçəndə quyunun başına gəldi. Su çəkmək istəyəndə, Məhəmməd ipdən tutub kənara çıxdı. Məhəmməd tacirdən çox razılıq eləyib dedi:

- Tacir, çox sağ ol ki, məni ölümdən qurtardın! Ancaq, dəvə gördüm qığın görmədim. Məni çıxarmağını heç kəsə deməzsən.

Məhəmməd bir çobanın yanına gəldi. Öz paltarını ona verdi, onun paltarını alıb geydi, çoban donuna düşüb şəhərə getdi. Bu o zaman idi ki, bir qız devlərnən şəhəri mühasirəyə almışdı. Padşahdan quşu gətirən oğlanı istəyirdi.

Böyük qardaş gedib dedi:

- Quşu mən gətirmişəm.

Qız ona baxıb dedi:

- Sən deyilsən. Mənim quşumu sənin kimi səfeh-süfeh gətirə bilməz.

Ortancıl qardaş gedib dedi:

- Quşu mən gətirmişəm.

Qız ona baxıb dedi:

- Sən deyilsən. Sənin kimi ağzından horra tökülənlər mənim quşumu gətirə bilməz.

Məhəmməd çoban donunda padşahın bargahına gəldi.

Məhəmməd padşahın yanına gələn kimi quş oxudu, padşahın gözləri açıldı. Vəzir Məhəmmədi tanıdı. Məhəmmədi qızın yanına apardılar. Qız Məhəmmədi görən kimi tanıdı, onu yuxarı başda əyləşdirdi. Qız Məhəmməddən soruşdu:

- Quşumu nə cür gətirdin?

Məhəmməd bütün əhvalatı qıza nağıl eləyəndən sonra qız öz vəzirlərinə üzünü çevirib dedi:

- Gedə bilərsiniz. Atama deyərsiz mən Məhəmmədə ərə getdim, salamat qalsın.

Devlər çəkilib getdilər. Padşah qızlarla Məhəmmədə yeddi gün, yeddi gecə toy elədi. Padşahın damadı oldu qardaşlarının da günahından keçdi. Padşah tacını götürüb Məhəmmədin başına qoydu. Onlar yeyib yerə keçdilər, sizdə yeyib dövrə keçin.

M Ə L I K M Ə M M Ə D

Biri varmış, biri yoxmuş, bir padşah varmış. Bu padşahın da bağında bir alma ağacı varmış. Bu ağac birinci gün çiçək açarmış, ikinci gündə çiçəyini tökərmiş, üçüncü gündə bar verərmiş. Bu almanı hər kəs yesəymiş, on beş yaşında oğlan olarmış.

Padşah hər gün səhər tezdən sübh açılan kimi durub gedərmiş bağa ki, almanı dərib yesin, amma görərmiş ki, alma dərilib. Kor-peşiman geri qayıdarmış. Bir gün belə, beş gün belə, axırda padşah təngə gəlib böyük oğlunu yanına çağırdı. Oğul atasının qulluğuna gələn kimi baş endirib dedi:

- Ata, sənə fəda olum, mənə görə qulluq?

Atası dedi:

- Belə də iş olar? Mən padşah ola-ola bağımdakı almaya həsrət qalam, heç ondan yeməyəm. Gərək nə təhər olsa, almanı oğurlayanı tutasan ki, tənbih oluna.

Oğlan atasının əlindən öpüb çıxdı, ox-kamanını götürüb dava libasını geyinib bağa getdi.

Oğlan bir saat gözlədi, iki saat gözlədi, sübh alma yetişən vaxt yuxu onu tutdu. Bir zaman ayılıb gördü ki, alma ağacda yoxdu, dərilibdi. Padşahın böyük oğlu kor-peşiman evə qayıtdı. O biri gün padşah ortancıl oğlunu yanına çağırıb dedi:

- Belə də iş olarmı? Mən özüm padşah ola-ola bağımdakı almaya həsrət qalam, heç ondan yeməyəm. Gərək nə təhər olsa, alma oğurlayanı tutasan ki, tənbih oluna.

Ortancıl oğlan atasının əlindən öpüb çıxdı, ox-kamanını götürdü, dava libasını geyib bağa getdi. Bu da bir saat gözləyib, iki saat gözləyib axırda alma yetişən vaxtı yuxuya gedib yatdı. Bir zaman ayılıb gördü alma dərilib. Kor-peşiman evə qayıtdı.

Bu xəbəri padşahın balaca oğlu Məlikməmməd eşitcək, atasının yanına gəldi, ədəblə baş endirib dedi:

- Ata, izin ver, bu səfər də alma ağacının keşiyini mən çəkim.

Atası dedi:

- Səndən böyük qardaşların deyirdilər, alma ağacının keşiyini çəkib oğrunu tutacağıq, amma tuta bilmədilər, kor-peşiman geri qayıtdılar. Indi sən gedib nə qayıracaqsan?

Məlikməmməd əl çəkməyib, atasından təvəqqə elədi ki, ona izin versin. Atası çar-naçar izin verdi. Məlikməmməd kefi kök, damağı çağ, qayıdıb öz otağına gəldi. Elə ki, gün batdı, axşam oldu, Məlikməmməd qıvraq geyinib ox-kamanını götürüb bağa getdi. O biri qardaşları kimi bir saat gözlədi, iki saat gözlədi, axırda gördü yuxusu gəlir.

Xəncərini çıxarıb, barmağının başını yardı, yerinə duz tökdü. Gecə ta səhərə kimi barmağının ağrısından yata bilmədi.

Sübhə yaxın gördü ki, bir gurultu, bir nərilti gəlir, ta nə təhər... Durub ağacın dalında gizləndi ki, görsün bu nədir. Bir vaxt gördü ki, bir dev gəlir, boyu minarə kimi, adam baxanda bağrı yarılır, elə bilirsən bir dağ qopub gəlir.

Məlikməmməd o saat barmağını dişləyib dedi:

- Aha, almanı aparan bu imiş.

Dev gəlib alma ağacına yaxınlaşanda Məlikməmməd birdən onun başına elə bir qılınc vurdu ki, qılınc zərbdən iki parça olub əlindən yerə düşdü. Dev o saat qayıdıb, nə`rə çəkə-çəkə qaçdı.

Sabah olan kimi Məlikməmməd almaları yığıb bir məcmeiyə qoydu, üstünə də bir örtük çəkib atasına apardı.

Padşah almaları görcək çox şad oldu.

Məlikməmməd dedi:

- Ay ata, izin ver, qanın iziynən gedib devi öldürüm.

Padşah razı oldu. Məlikməmmədə bir qədər də qoşun verib, o biri oğlanlarını da ona qoşdu və yola saldı. Az gedib, üz gedib, dərə, təpə, düz gedib bir quyuya rast gəldilər. Bildilər ki, dev bu quyuya giribdi. Quyunun ağzına bir dəyirman daşı qoyulmuşdu. Padşahın oğlanları istədilər daşı götürüb içəri girsinlər. Əvvəl böyük oğlan daşdan yapışdı, nə qədər çalışdı, yerindən tərpədə bilmədi. Ortancıl oğlan irəli yeridi, bu da nə qədər çalışdı daşa gücü çatmadı. Növbə Məlikməmmədə yetişdi. Bu daşa yapışdı, bir dəfə güc verib daşı götürdü, kənara atdı. Daşı atandan sonra devin dalınca quyuya girmək lazım idi. Yenə böyük oğlan qabağa yeriyib dedi:

- Gərək məni sallayasınız.

Dedilər:

- Yaxşı.

O saat bir kəndir götürüb, bunun belinə bağladılar quyuya sallamağa başladılar. Bir az sallamışdılar ki, bərk çığırdı:

- Ay yandım, çəkin!

Padşahın böyük oğlunu quyudan çəkdilər. Ortancıl oğlan qabağa yeriyib dedi:

- Məni quyuya sallayın, devin dalınca gedim.

Yenə razı oldular, kəndiri belinə bağlayıb, onu quyuya salladılar.

Padşahın ortancıl oğlunu da elə bir az quyuya sallamışdılar, quyudan səs gəldi:

- Ay yandım, çəkin!

Yenə çəkdilər.

Axırda növbət Məlikməmmədə yetişdi. Məlikməmməd qabağa yeriyib dedi:

- Məni quyuya sallayın, amma nə qədər yandım desəm, qulaq asmayın.

Məlikməmmədi quyuya sallayanda o da o biri qardaşları kimi çığırmağa başladı:

- Ay yandım, çəkin!

Bu sözlərə qulaq asmadılar. Məlikməmməd bir az aşağı enmişdi, gördü ki, yavaş-yavaş isti azalır. Quyunun tərkinə çatan kimi, bir o yana, bir bu yana baxıb gördü ki, bir yol var. Belindən kəndiri açıb yolnan başladı getməyə. Məlikməmməd az getdi, çox getdi, gedib bir otağa çıxdı. Qapını açıb bir boş otağa girdi, gördü ki, bu otağın içindən də bir qapı var, bu qapını açdı bir ayrı otağın içində də bir qapı var, bu qapını açdı, bir ayrı otağa girdi. Onun da qapısını açdı... Belə-belə Məlikməmməd yeddinci qapını açdı. Gördü burda taxtın üstündə elə bir nazənin əyləşib ki, yemə, içmə, xətti-xalına gül-camalına tamaşa elə. Qızın dizi üstə bir dev başını qoyub yatmışdı.

Qız Məlikməmmədi görcək dedi:

- Ey cavan, kimsən, nəkarasan? Heyifsən, qaç gizlən. Dev yaralanıb, acığı tutub. Ayılıb, səni bir dəqiqə də sağ qoymayıb yeyəcək.

Məlikməmməd dedi:

- Mən elə bu devi öldürməkdən ötrü bura gəlmişəm.

Məlikməmməd xəncərini çıxarıb, devin ayağını dəlməyə başladı. Dev gözlərini açıb qıza dedi:

- Qoyma, ayağımı milçək yedi.

Məlikməmməd bir az sakit olub yenə başladı devin ayağını dəlməyə. Dev gözlərini açıb çığırdı:

- Qoyma, ayağımı milçək yedi.

Üçüncü dəfə Məlikməmməd devin ayağını dələndə dev yerdən qalxıb qıza bir şapalaq vurdu, dedi:

- Sənə demirəm ayağımı milçək yedi?!

Bu halda Məlikməmməd yerindən şir kimi sıçrayıb devnən güləşməyə başladı. Bunlar qırx gün, qırx gecə güləşdilər. Heç biri o birisini yıxa bilmədi. Axırda hər ikisi gücdən düşdü. Dev dedi:

- Hər kəssən, buraya gəlmisən, bir az möhlət ver yatım, sonra yenə güləşərik.

Məlikməmməd razı oldu. Dev başını yenə qızın dizi üstünə qoyub yatdı. Durdu, yenə başladılar güləşməyə. Bu münvalnan yeddi gün, yeddi gecə güləşdilər.

Axırda qız Məlikməmmədə dedi:

- Ey cavan, o taxçada bir şüşə var, bu devin canı o şüşədədi. Onu sındırmasan, devə güc gələ bilməyəcəksən.

Məlikməmməd sıçrayıb taxçadakı şüşəni yerə çırpdı. Şüşənin içindən bir quş çıxıb uçmaq istəyəndə Məlikməmməd o saat onu tutdu. Dev yerindən qalxıb yalvarmağa başladı:

- O quşa dəymə, dünyada nə istəyirsən sənə verim. O quşu öldürmə, o mənim canımdı.

Məlikməmməd qəbul etməyib dedi:

- Mənim elə axtardığım bu idi.

Sonra quşun başını üzüb yerə atdı; haman saat dev gurultu ilə taxtdan düşüb öldü.

Məlikməmməd devi öldürdükdən sonra başını qızın dizinin üstə qoyub doyunca rahat oldu. Bir qədər keçdi, durub o biri otağa keçdi.

Məlikməmməd gördü ki, burda əvvəlkindən də gözəl bir qız oturubdu, bunun da dizi üstə bir dev başını qoyub yatıb. Qız Məlikməmmədi görəndə dedi:

- Ey cavan, yazıqsan, qayıt qaç. Indicə dev oyanar, səni parça-parça elər.

Məlikməmməd dedi:

- Qorxma, ay, qız, bunu da öldürəcəyəm.

Məlikməmməd qılıncını çıxarıb devin ayağını dəlməyə başladı. Dev gözlərini açıb qıza dedi:

- Qoyma, ayağımı milçək yedi.

Məlikməmməd bir az sakit olub, yenə başladı devin ayağını dəlməyə. Dev gözlərini açıb qıza dedi:

- Qoyma, ayağımı milçək yedi.

Məlikməmməd üçüncü dəfə devin ayağını dələndə, dev yerdən qalxıb qıza bir şapalaq vurdu, dedi:

- Sənə demirəm ayağımı milçək yedi?!

Məlikməmməd yenə sıçrayıb devnən güləşməyə başladı. Bunlar qırx gün, qırx gecə güləşib bir-birini yıxa bilmədilər. Axırda Məlikməmməd devi yuxuya verdi, taxçadakı şüşəni sındırıb quşu tutdu, başını üzən kimi dev gurultuynan yıxılıb öldü.

Məlikməmməd qızın dizi üstə başını qoyub bir az rahat oldu, sonra üçüncü otağa girdi. Burda taxtın üstə bir nazənin sənəm əyləşmişdi ki, o biri qızların ikisindən də gözəl idi. Elə gözəl idi ki, yemə, içmə, xətti-xalına, gül-camalına tamaşa elə.

Məlikməmməd qıza lap ürəkdən aşiq oldu. Qızın da gözü Məlikməmmədə düşdü.

Qız yalvardı ki, ay cavan, heyifsən, qaç gizlən. Dev gəlib səni yeyəcək.

Məlikməmməd qulaq asmayıb bir az oturdu, bir də gördü nə, göy guruldadı, ildırım çaxdı, dağ kimi bir dev gəldi.

Bunlar qırx gün, qırx gecə güləşdilər. Bu devin də canı şüşədə idi. Məlikməmməd şüşəni cəld götürüb yerə çırpdı, quşun boğazını üzdü, dev öldü.

Məlikməmməd kefi kök, damağı çağ, başını qızın dizi üstə-qoyub yatdı.

Məlikməmməd yuxudan duran kimi, qızları başına yığıb, vəzndən yüngül, qiymətdən ağır şeylərdən götürüb quyunun tərkinə gəldi. Əvvəl böyük qızın belinə kəndir bağladı qardaşları yuxarı çəkdilər, ondan sonra ortancıl qızın. Növbət balaca qıza gələndə qız Məlikməmmədə dedi:

- Qoy əvvəl sənin belinə kəndir bağlayım, yuxarı çəksinlər, sonra da mən çıxaram. Qorxuram qardaşların görərlər ki, mən o birilərdən gözələm, paxıllıqları tuta, kəndiri kəsib, səni quyuya salalar.

Məlikməmməd razı olmadı. Qız dedi:

- Indi ki razı olmursan, barı bu dediklərimə qulaq as. Kəndiri kəsəcəklər, genə quyunun tərkinə düşəcəksən. O vaxt döyüşə-döyüşə iki qoç gələcək; biri ağ, biri qara. Ağ qoç qara qoçu qovacaq, onda atıl min ağ qoçun belinə. Ağ qoçun belinə minən kimi, işıqlı dünyaya çıxacaqsan. Qara qoça minsən, qaranlıq dünyaya düşəcəksən.

Məlikməmməd qızın sözünə qulaq asandan sonra onun belinə ip bağladı, qızı yuxarı çəkdilər. Kiçik qız quyudan çıxanda qardaşların ağılları başlarından çıxdı, dedilər:

- Bəs Məlikməmməd kiçik qardaş olduğu üçün gözəl qızı özünə götürəcək.

Bunların paxıllığı tutdu, yarı yolda Məlikməmmədin kəndirini kəsdilər. O, şappıltıynan quyunun tərkinə düşdü.

Quyuda Məlikməmməd bikef oturmuşdu. Bir də gördü ki, qız deyən ağ qoçnan qara qoç, budu, döyüşə-döyüşə gəlir. Məlikməmməd o saat sıçrayıb ağ qoçun belinə mindi. Amma qoç bunu qara qoçun belinə tulladı. Qara qoç da Məlikməmmədi götürüb qaranlıq dünyaya apardı.

Burda Məlikməmməd bir ağacın dibinə gəldi. Elə bir az oturmuşdu, gördü bu ağaca bir əjdaha dırmaşır. Əjdaha bir az yuxarı qalxmışdı ki, ağacın başında çoxlu quş balasının səsi gəldi.

Demə, bu ağacda Zümrüd quşunun yuvası var imiş. Bu Zümrüd quşu ha vaxt ki, yumurtadan bala çıxarıb bəslərmiş, balaları böyüyəndə əjdaha gəlib onları yeyərmiş. Zümrüd quşu da bala üzünə həsrət qalarmış. Bu dəfə də əjdaha ağaca dırmaşırdı ki, yenə Zümrüdün balalarını yesin. Məlikməmməd bunu gördü, cəld qılıncını çəkib əjdahanı iki parça elədi. Sonra ağacın dibində yatdı.

Sizə kimdən deyim, Zümrüd quşundan. Zümrüd quşu balalarına dən gətirməyə getmişdi, qayıdıb gələndə ağacın dibində gözünə bir qaraltı dəydi. Quş elə bildi ki, balalarını yeyən bu adamdı. Cəld gedib dimdiyinə bir, iri daş aldı, istədi Məlikməmmədin üstünə salsın. Balaları yuvadan çığırışıb qoymadılar, dedilər:

- Bəs əjdaha bizi yemək istəyirdi, bu oğlan əjdahanı öldürüb, canımızı qurtardı.

Zümrüd quşu daşı kənara atıb aşağı endi, qanadlarını Məlikməmmədin üstünə çəkdi.

Məlikməmməd yuxudan ayılıb quşu gördü, çox qorxdu.

Quş dedi:

- Hər kəssən, nakarasan, qorxma. Mən sənə pislik eləmərəm. Mən neçə ildi ki, sən öldürdüyün əjdahanın əlindən bala üzünə həsrət idim. Indi sən əjdahanı öldürüb, mənim balalarımı ölümdən qurtardın. Bu yaxşılığın əvəzində nə istəyirsən?

Məlikməmməd başına gələn qəzavü-qədəri açıb quşa nağıl elədi, dedi:

- Heç zad istəmirəm, ancaq məni işıqlı dünyaya çıxart.

Zümrüd dedi:

- Onda gərək qırx şaqqa ət, qırx tuluq da su alıb gətirəsən.

Məlikməmməd bilmədi ki, qırx şaqqa əti, qırx tuluq suyu haradan tapsın. Quş Məlikməmmədin bikef olduğunu görüb dedi:

- Ey Məlikməmməd, qırx ağaclıqda bir padşahın ölkəsi var. Bir əjdaha gəlib suyun qabağını kəsib. Nə qədər ərzuman pəhlivanlar gedirsə, onu öldürə bilmir. Yeddi ildi ki, əjdaha suyun qabağını kəsib. Hər gün bir qız aparıb onun ağzına atırlar. Əjdaha qızı yeyəndə bir az su axır, camaat da su götürür. Indi görürəm, sən qüvvətli pəhlivansan, olsa-olsa o əjdahanı da sən öldürə bilərsən. Get, o əjdahanı öldür. Padşahdan qırx şaqqa ət, qırx tuluq su al. Elə ki, mən dediklərimə əməl elədin, bu tükümü oda tut, mən hazır olaram, səni işıqlı dünyaya çıxardaram.

Bəli, Məlikməmməd quşdan tükü alıb, yola düşdü. Az getdi, üz getdi, dərə, təpə, düz getdi, gəldi Zümrüd dediyi padşahın ölkəsinə çıxdı. O, gəzə-gəzə bir qarının qapısına gəlib dedi:

- Qarı nənə, allah qonağı istərsənmi?

Qarı dedi:

- Niyə istəmirəm. Allaha da qurban olum, qonağına da.

Məlikməmməd gördü ki, bütün şəhər əhli qara geyib. Qarıdan soruşdu:

- Qarı nənə, bu camaat niyə qara geyib?

Qarı dedi:

- Qadan alım, bir əjdaha suyun qabağını kəsib, hər gün onun ağzına bir qız atırıq, qızı yeyənə qədər bir az su axır, biz də götürürük. Ölkədə qız qurtarıb. Padşahın gözünün ağı-qarası bir qızı var, sabah onu əjdahanın ağzına atacaqlar. Odu ki, camaat qara geyib.

Məlikməmməd axşam qarının evində yatdı. Səhər tezdən əjdahanın yerini qarıdan öyrəndi, ora getdi. Bir də gördü ki, camaat kəbirdən-səğirə ağlaşa-ağlaşa padşahın qızını suyun qabağına gətirdilər. Qızı əjdahanın ağzına atmaq istəyəndə Məlikməmməd irəli getdi, qılıncı sivirib, əjdahaya elə bir qılınc vurdu ki, o iki parça oldu. Padşaha muştuluqçu getdi. Təntənə ilə Məlikməmmədi padşahın hüzuruna apardılar. Padşah üzünü Məlikməmmədə tutub dedi:

- Ey oğlan, o əjdaha mənim ərzuman pəhlivanlarımın hamısını yeyib. Sən bizim ölkəni əzabdan qurtardın. Indi gəl padşahlığımı sənə verim, qızımı da al, bütün taxt-tacıma sahib ol.

Məlikməmməd ədəblə gərnuş eləyib dedi:

- Padşah sağ olsun, səndən heç zad istəmirəm. Mənə qırx şaqqa ət, qırx tuluq da su ver, işıqlı dünyaya çıxım.

Padşah əmr elədi, Məlikməmmədə qırx şaqqa ət, qırx tuluq su hazır elədilər. Məlikməmməd şeyləri alandan sonra padşahnan xudahafizləşib kənara çıxdı, Zümrüd verdiyi tükü oda tutdu.

O saat Zümrüd hazır oldu. Əti quşun bir qanadının üstünə qoydu, suyu da birinə. Özü də Zümrüdün belinə mindi, yola düşdülər. Quş göyün üzünə qalxdı, qaranlıq dünyadan uzaqlaşmağa başladılar. Məlikməmməd aşağı baxdı, gördü ki, yer xəlbir kimi görünür. Bir az da qalxdılar. Məlikməmməd bir də baxıb gördü ki, yer lap gözdən itib. Elə quş havaxt "qa" dedi, Məlikməmməd ətdən verdi, "qu" dedi, sudan verdi. Işıqlı dünyaya bircə mənzil qalmışdı ki, bir şaqqa ət Məlikməmmədin əlindən yerə düşdü, quş "qa" deyəndə Məlikəmməd məəttəl qaldı, bilmədi nə eləsin. Əlacı kəsildi, qılıncı çıxarıb baldırının ətindən kəsib quşun ağzına atdı. Zümrüd quşu gördü ki, bu ət o biri ətlərə oxşamır, çox şirindi. Odu ki, dilinin altına qoydu, yemədi. Axırıncı mənzil də qurtardı. Zümrüd quşu Məlikməmmədi işıqlı dünyaya çıxartdı, qanadının üstündən yerə qoyub dedi:

- Di get.

Məlikməmməd dedi:

- Sən get, mən özüm gedərəm.

Zümrüd dedi:

- Yox, gərək gedəsən.

Məlikməmməd axsaya-axsaya getməyə başladı.

Zümrüd dedi:

- Ey oğlan, səbəb nədi ki, axsayırsan?

Məlikməmməd əhvalatı açıb nağıl elədi dedi:

- Daha nə gizlədim, sənə verdiyim axırıncı ət baldırımın əti idi.

Quş o saat dilinin altından əti çıxardıb Məlikməmmədin baldırına yapışdırdı. Tüpürcəyindən də sürtüb yaxşı elədi. Sonra öz tükündən çıxarıb bir az da Məlikməmmədə verdi, dedi:

- Ha vaxt dara düşsən, bu tükləri yandır, mən o saat gəlib səni dardan qurtararam. Quş sözünü deyib, uçub getdi. Məlikməmməd yavaş-yavaş gəlib bir dərzi dükanının qabağına çıxdı, dedi:

- Ay usta, allah rizasına, məni yanında şəyird saxla.

Ustanın buna yazığı gəlib saxladı. Məlikməmməd yamaq-sökükdən tikirdi, ustasına qulluq eləyirdi. Bir gün adam gəldi ki, padşah böyük oğluna toy eləyir, usta gəlsin, paltar biçsin. Dərzi sevinə-sevinə qayçısını da götürüb padşahın imarətinə getdi. Məlikməmməd bir az oturdu, sonra dükanı bağlayıb bir güşəyə getdi, Zümrüd quşunun tükünü çıxarıb yandırdı. O saat Zümrüd hazır olub dedi:

- Mənə görə nə quluq?

Məlikməmməd dedi:

- Bu saat mənə bir dəst sarı paltar, qılınc, qalxan, bir də sarı yel atı gətir.

Zümrüd "baş üstə" - deyib, uçub getdi, bir az çəkmədi ki, Məlikməmməd deyən şeylər hazır oldu. Məlikməmməd paltarları qıvraq geyindi, qılıncını belinə bağladı, qalxanı qoluna taxdı, bir baş atı padşahın evinin qabağına sürdü. Şəhər camaatı, bütün qoşun tamaşaya yığılmışdı. Padşahın böyük oğlu da at çapırdı.

Məlikməmməd atını meydana salıb bir o başa çapdı, bir bu başa çapdı, sonra qılıncını çıxarıb padşahın böyük oğlunun boynunu vurdu.

Qoşun bir-birinə qarışdı. Camaat bir-birinə dəydi. Hamı Məlikməmmədin dalınca tökülüb onu oxa basdılar. Məlikməmməd atı çapıb yel kimi gözdən itdi. Yenə gəlib dükanı açıb oturdu. Bir azdan sonra dərzi başına döyə-döyə dükana gəldi. Məlikməmməd durub, yalandan ustanın o tərəfinə, bu tərəfinə keçib dedi:

- Ay usta, qurbanın olum, nə olubdu?

Usta dedi:

- Nə olacaq, padşahın evinin qabağında at çapışında hardansa suya dönmüş sarı paltarlı bir atlı gəldi, bir az o başa, bir az bu başa at çapdı; birdən qılıncını çəkib padşahın oğlunun boynunu vurdu. Dalınca töküldülər, tuta bilmədilər.

Məlikməmməd yalandan bir az heyfsilənib, gedib yerində oturdu. Aradan bir neçə vaxt da keçdi. Padşahın böyük oğlunun qırxı çıxdı.

Bir gün yenə adam gəldi ki, padşah ortancıl oğluna toy eləyir, usta gəlsin paltar biçməyə.

Dərzi sevinə-sevinə qayçısını götürüb yola düşdü Məlikməmməd də dükanda qaldı. Usta gedəndən sonra Məlikməmməd yenə durub dükanı bağladı. Haman küçəyə gedib, Zümrüdün tükünü yandırdı. O saatda Zümrüd hazır olub dedi:

- Mənə görə nə qulluq?

Məlikməmməd dedi:

- Bu saat mənə bir dəst qırmızı paltar, qılınc, qalxan, bir də qırmızı at gətirərsən.

Zümrüd "baş üstə" - deyib, bir dəqiqədə gedib atı, paltarı gətirdi. Məlikməmməd qıs-qıvraq geyinib padşahın imarətinə tərəf getdi.

Orda yenə qoşun, camaat düzülüb padşah oğlunun at çapmağına tamaşa eləyirdilər.

Məlikməmməd atı meydana salıb bir o başa, bir bu başa çapdı, sonra padşahın ortancıl oğlunun başını, qılıncnan vurub yerə saldı, qaçdı. Qoşun nə qədər onun dalınca at çapdısa tuta bilmədi, ox atdısa vura bilmədi.

Camaat, qoşun təzədən qara geyib yasa batdı.

Məlikməmməd paltarını dəyişib dükana gəldi. Yenə dərzi başına, gözünə döyə-döyə geri qayıtdı.

Məlikməmməd dedi:

- Ay usta, sənə nə olub ki, elə hər yerə gedəndə başına, gözünə döyə-döyə qayıdırsan?

Usta dedi:

- Mərdimazar, kim idisə, qırmızı paltar bir atlı gəlib padşahın gözünün ağı, qarası bircə oğlu qalmışdı, onun boynunu vurub qaçdı. Dalınca nə qədər töküldülərsə, tuta bilmədilər, ox atdılar, vura bilmədilər.

Bu işdən bir neçə vaxt keçdi, il ötdü, ay dolandı, günlərin bir günü, yenə ustaynan şəyirdi dükanda oturmuşdu. Birdən şəyird ustasına dedi:

- Dur get, padşaha muştuluq ver ki, balaca oğlunu tapmışam.

Usta cavabında dedi:

- Ədə, dəli olmamısan. Padşah deməz ki, balaca oğlum hardadı? Onda nə cavab verərəm?

Məlikməmməd başına gələn qəzavü-qədəri açıb dərziyə nağıl elədi. Dərzi burdan sevinə-sevinə bir baş padşahın evinə getdi. Elə darvazadan içəri girmişdi ki, tələsdiyindən ayağı daşa ilişib yıxıldı. Padşah pəncərədən bunu görüb dedi:

- Yəqin dərzidə bir xəbər var. Gedin bura gətirin.

Qul-qarabaş tökülüb dərzini padşahın qulluğuna gətirdilər.

Dərzi yetişən kimi, padşaha baş endirib dedi:

- Padşah, sənə fəda olum, muştuluğumu ver, balaca oğlun Məlikməmmədin yerini deyim.

Padşah az qaldı özündən getsin, dedi:

- Məlikməmməd quyuda ölübdü. Bəs ölü də dirilərmi? Tez de görüm, bu nə əhvalatdı?

Dərzi dedi:

- Muştuluğumu verməsən, deməyəcəyəm.

Padşah və`də verdi ki, ona özü ağırlıqda qızıl versin.

Dərzi Məlikməmmədin başına gələn qəzavü-qədəri nağıl elədi.

Padşah dedi:

- Ay məni istəyən, dərziyə xələt!..

Dərziyə o qədər xələt verdilər ki, çəkib apara bilmədi. Vəzir, vəkil tökülüb Məlikməmmədin dalınca getdilər. Padşah oğlunun üzündən, gözündən öpdülər, sonra hamama

apardılar, şahzadələrə layiq paltar geyindirib, atasının qulluğuna apardılar. Padşah oğlunu duz kimi yaladı, bağrına basdı.

Məlikməmməd başına gələn əhvalatı atasına nağıl eləyib dedi:

- Ata, meydanda qardaşlarımı öldürən mən idim. Quyuda neçə vaxt devlərlə əlləşib üç qız gətirmişdim. Bəs rəvadırmı, onlar kəndiri kəsib məni quyunun dibinə salsınlar, nişanlımı özlərinə götürsünlər?

Padşah oğlunun alnından öpüb, şükür elədi ki, o sağ-salamatdı. Böyük qızı vəzirin oğluna, ortancılını vəkilin oğluna, kiçiyini də Məlikməmmədə verdilər. Qırx gün, qırx gecə toy oldu. Onlar yedilər, yerə keçdilər, siz də yeyin, dövrə keçin.

MƏRD VƏ NAMƏRD

Bir kənddə bir Mərd, bir də bir Namərd adlı iki adam yaşayırdı. Mərd çox ağıllı, rəhmli, igid bir adam idi. Namərd isə çox xain idi. Hamı Mərdin xatirini istəyirdi, başına and içirdi, Namərddən isə zəhləsi gedirdi.

Namərd çox fikirdən sonra bu qərara gəldi ki, "nə qədər Mərd sağdı, camaat onun mərdliyini görüb mənim üzümə baxmayacaq. Bircə əlacım var ki, gərək onu öldürəm, sonra rahat yaşayıb istədiyimi eləyəm".

Günlərin bir günü Mərd səfərə getməli oldu. Bir az çörəkdən-zaddan götürüb yola düşdü. Namərd bunu bildi. Çox sevindi, cildini dəyişib başqa dona girdi. Mərdin dalınca yola düşdü. Bir müddət yol getdi, gəlib bir yerə çatdı, gördü ki, Mərd çörəyini yanında qoyub yatıbdı. Bir istədi onu öldürsün. Sonra öz-özünə dedi: "Yox, o məni o qədər yandırıb ki, öldürməklə ürəyim soyumaz. Gərək mən də onu yandıram". Onun çörəyini oğurladı, qaçıb bir yerdə gizləndi.

Səhər Mərd ayılıb gördü çörəyi yoxdu. Durub kor-peşman yola düşdü. Yeddi gün, yeddi gecə ac-susuz yol getdi, ta ki, acından dizləri qüvvətdən düşdü, yerə yıxıldı.

Namərdin də istədiyi bu idi. Onun yanına gəlib, soruşdu.

- Yolçu, burda niyə oturmusan?

Mərd dedi:

- Qardaş, bir həftədi acam. Dilimə çörək dəyməyib. Çörəyin varsa, bir tikə ver mənə.

Namərd dedi:

- Var, ancaq özüm üçündü.

Mərd yalvarıb dedi:

- Nə istəsən verərəm

Namərd dedi:

- Indi ki, nə istəsəm verərsən, onda qoy gözünün birini çıxardım, əvəzində sənə çörək verim.

Mərd dedi:

- Axır belə şey olmaz. Bir parça çörək nədir ki, sən ondan ötəri mənim gözümü çıxardırsan?

Namərd dedi:

- Mənə göz lazımdı, sənə çörək, özün bil, istəmirsən vermə.

Mərd dedi:

- A kişi, insafın olsun. Məni gözsüz qoyma.

Namərd gülə-gülə dedi:

- Zarafat eləyirəm. Al, doyunca ye.

Namərd ona bihuşdarı qatılmış çörək verdi. Mərd çörəyi yeyib bihuş oldu. Namərd o saat onun iki gözünü də çıxardıb yola düzəldi.

Mərd haçandan-haçana özünə gəlib gördü ki, dünya qaranlıqdı. Elə bildi gecədi. Sonra bildi ki, gözlərinin ikisini də çıxarmışlar. Sürünə-sürünə, əlini yerə sürtə-sürtə gedib çıxdı bir xarabalığa.

Burada özünə yumşaq bir yer tapıb oturdu. Bu burada qalmaqda olsun, xəbəri sənə kimdən verim, şirdən, pələngdən, qurddan, tülküdən. Bir şir, bir pələng, bir qurd, bir də bir tülkü dost olmuşdular. Gündüzləri gəzib dolanar, gecələri bu xarabalığa gələr, söhbət edərdilər.

Dostlar bu gecə də qaranlıq düşəndən sonra buraya gəldilər. Oturdular, söhbətə başladılar.

Pələng soruşdu:

- Şir qardaş, dünyada təzə xəbər nə var?

Şir dedi:

- Pələng qağa, sağlığın. Elə bir təzə xəbər yoxdu.

Şir qurddan soruşdu:

- Qurd lələ, səndə nə təzə xəbər var?

Qurd gözünün yaşını axıda-axıda dedi:

- Bazarım yaman kasaddı.

Şir dedi:

- Qurd lələ, bazarın niyə kasaddı?

Qurd dedi:

- Bu dağı ki, görürsən, onun ətəyində bir çoban var. Bu vaxta kimi bu çobanın tulası yox idi. Mən də hər axşam gedib quzudan, qoyundan nə rastıma gəldi, çalıb çapırdım. Amma indi bu çobanın bir tulası var. Nə qədər eləyirəm çobanın qoyunlarına yaxın durum, tulanın qorxusundan heç bir iş görə bilmirəm.

Şir dedi:

- O tulanın qanı dərmandı. Hər kim naxoş olsa, o tulanın qanından içən kimi yaxşı olar.

Mərd bu sözü yadında saxladı.

Tülkü dedi:

- Mənim işim yaxşıdı. Bu qabaqdakı dağın o üzündə bir siçan olur. Yaman bollu qızılı var. Hər gün qızılları günə sərir. Mən də qızılların qarovulunu çəkirəm, əvəzində mənə çörək verir.

Mərd bunların hamısını eşitdi. Səhər oldu. Qurd, pələng, şir, tülkü çıxıb getdilər. Mərd ayağa durub xarabalıqdan çıxdı, gedib oturdu bir ağacın dibində, amma bərk acmışdı, bilmirdi neyləsin. Bu dəmdə iki göyərçin qanad-qanada verib, gəlib oturdular haman ağacın budağında. Göyərçinlərdən biri o birinə dedi:

- Bacılı bacı. Mərdnən Namərdin hekayəsini eşitmisənmi?

- Yox, bacı, eşitməmişəm. Danış, mən də bilim.

Göyərçin başladı danışmağa:

- Günlərin bir günündə bir Mərd olur, bir Namərd. Bir gün Mərd səfərə gedir, Namərd onun dalınca düşür, onun çörəyini oğurlayır. Axırda Mərdi bihuş, edib gözlərini çıxardır. Budur, Mərd kor olub qalıb burda, dadı fəryadı heç bir yana çatmır.

- Bacı, bəs bu Mərdə heç bir kömək eləmək olmaz?

Göyərçin dedi:

- Ey Mərd, yatmısan ayıl, ayıqsan eşit! Biz ki, tərpəndik, qanadımızdan bir lələk düşəcək, o lələyi gözlərinə çəkərsən, gözlərin olar anadangəlmə.

Göyərçinlər sözlərini deyib uçdular. Bu vaxt lələk Mərdin dizinin üstə düşdü, Mərd tez lələyi götürüb çəkdi gözlərinə, gözləri oldu anadangəlmə. Durub təzədən çıxdı yola, gəlib çatdı bir dağın təpəsinə. Gördü ki, burda bir siçan var, qızılı töküb qabağına, onların keşiyini çəkir. Mərd əlinə bir daş alıb tulladı siçana. Siçan qaçıb qorxusundan girdi yuvaya. Mərd qızılları yığışdırıb getməyə başladı. Az getdi, çox getdi, bir dərəyə çıxdı, gördü ki, bir çoban qabağında bir sürü qoyun otarır, yanında da bir tula var, Mərd dedi:

- Çoban qardaş, bu tulanı gəl sat mənə.

Çoban dedi:

- Neçə verərsən?

Mərd bir çəngə qızıl verib tulanı çobandan aldı. Bir az aralanıb tulanın başını kəsdi. Qanını yığdı bir şüşəyə, cibinə qoyub düzəldi yola. Mərd getməkdə olsun, xəbəri sənə kimdən verim, bu

şəhərin padşahından. Padşahın qızı neçə il idi ki, naxoş idi, nə qədər həkim çağırırdılar, heç kəs əlac eləyə bilmirdi. Mərd özünü şəhərə yetirib gördü ki, burda bir dəstə adam padşahın imarətinin qabağına yığışıb. Adamlardan xəbər aldı:

- Nə olub?

Adamlardan biri dedi:

- Məgər bilmirsən ki, padşahın qızı neçə ildi ki, naxoşdu?

Mərd bu adamlardan ayrılıb getdi, özünə həkimlərə layiq bir dəst libas aldı, geyindi, gəldi padşahın imarətinin qabağına, dedi:

- Həkiməm.

Dedilər:

- A kişi, yazıqsan, çox həkimlər gəlib, heç biri əlac eləməyib, hamısını öldürüblər. Indi səni də öldürüb yollayarlar onların yanına.

Mərd dedi:

- Mən oyan-buyan bilmirəm. Həkiməm ki, həkim. Gərək padşahın qızına baxam.

Dedilər:

- Indi ki, belədi, qoy gedək padşaha xəbər verək.

Padşaha xəbər gedib çatdı ki, bəs şəhərə təzə bir həkim gəlib, deyir, qızı sağaldaram.

Padşah dedi:

- Gedin çağırın bura.

Gəlib Mərdi apardılar padşahın yanına. Padşah Mərdə dedi:

- Həkimsən?

Mərd dedi:

- Bəli, həkiməm.

Padşah dedi:

- Əgər qızımı sağaltsan, verəcəyəm sənə. Əgər sağalda bilməsən, sənin boynunu vurduracağam.

Mərd razı oldu. Mərdi apardılar padşahın qızının yanına. Mərd tulanın qanından bir neçə damcı suya qatışdırıb ona verdi. Qız qanı içən kimi ayıldı. Padşaha xəbər getdi ki, gözlərin aydın olsun, qızın sağaldı. Padşah bu xəbəri eşidən kimi yerindən qalxıb əmr elədi, təbil vurulsun. Təbil vuruldu, qazan qazan yanına düzüldü.

Aşpazlar əl-qollarını çırmalayıb düyü tökdülər, aş bişirdilər, payladılar. Padşah qırx gün, qırx gecə toy eləyib qızını verdi Mərdə.

Xəbər sənə kimdən verim, Namərddən.

Namərd evə qayıdıb camaata xəbər verdi ki, bəs Mərdi quldurlar öldürdü. Adamlar bu xəbərdən çox qəmgin oldular, ağladılar. Mərdin yasını saxlayıb qara geydilər.

Günlərin bir günü Namərd öz-özünə dedi:

- Gedim görüm, Mərd necə oldu? Ölməyibsə, öldürüm, gəlim.

Namərd gəzə-gəzə gəlib Mərdin gecələdiyi xarabalığa çıxdı. Qaranlıq düşdüyündən gecə orada qalası oldu. Gecə yenə də pələng, şir, qurd, tülkü gəldilər bu köhnə xarabalığa. Pələng şirdən xəbər aldı:

- Dünyada nə var, nə yox? Nə təzə xəbər eşitmişsən?

Şir dedi:

- Sağlıq-salamatlıqdı, pələng qağa! Heç bir təzə xəbər yoxdu.

Şir qurddan xəbər aldı,

- Qurd lələ, indi kefin necədi?

Qurd dedi:

- Bu saat kefim bərk kökdü. O çobanın yanındakı tula indi yoxdu. Mən də gündə bir qoyun aparıb yeyirəm.

Pələng soruşdu:

- Tülkü baba, sənin kefin necədi?

Tülkü dedi:

- Kefim kök deyil, pələng qağa! Bazarım kasaddı.

Pələng soruşdu:

- Nə üçün?

Tülkü dedi:

- O siçan ki, vardı, gedib qızıllarının qarovulunu çəkirdim, onun qızıllarını oğurlayıblar. Indi işim yaxşı keçmir.

Pələng dedi:

- Yəqin buraya insan gəlir, gizlənib bizi pusur, dediklərimizi eşidir. Gəlin buranı axtaraq.

Başladılar axtarmağa, Namərdi tapdılar. Namərdi parçalayıb, hərəsi bir tikəsini götürüb yedi.

Mərd padşahın sarayında keflə yaşayırdı. Bir gün öz-özünə dedi: "Ey dili-qafil, bu necə ola bilər ki, Namərd mənim gözümü çıxartsın, özü də yaşasın, gərək onu tapıb intiqamımı alam".

Mərd padşahdan, öz arvadından izin aldı, Namərdi axtarmağa başladı. Oraya-buraya soraq saldı, axırda gəlib onun sümüklərini köhnə xarabalıqdan tapdı. Mərd onun sümüklərini yığıb orada dəfn elədi, bütün elədiyi işləri başdaşına yazdı.

Oradan geri qayıdıb evinə gəldi. Bir neçə gün burda qaldı, sonra padşahdan izin aldı, arvadını da götürüb öz vətəninə döndü. Camaat onun gəldiyini eşidib şadyanalıq elədi. Mərd başına gələn əhvalatı camaata nağıl elədi. Hamı Namərdə lə`nət oxudu.

N A R Q I Z I

Biri vardı, biri yoxdu, bir padşahın bir oğlu vardı. Bu oğlan bir gecə yatıb yuxuda Nar qızını gördü və ona aşiq oldu. Sübh olanda vəziri çağırıb yuxusunu ona söylədi, dedi:

- Gərək gedib Nar qızını mənə alasan.

Vəzir ərz elədi:

- Başqa hər nə əmrin varsa, söylə yerinə yetirim, amma onu gətirməyi mənə tapşırma. Onu mən bacarmaram, çünki Nar qızı devlərin içindədi.

Padşah oğlu dedi:

- Hökmən gərək gedəsən. Yoxsa boynunu vuraram.

Vəzirin əlacı kəsilib razılıq verdi. Şahzadə buna xeyli pul verib, tədarük görüb yola saldı. Vəzir gedəndə bazardan bir qır-saqqız aldı. Bir müddət yol gedəndən sonra gəlib bir evə çıxdı. Içəri girəndə baxıb gördü ki, burda bir qarı oturub ki, alt dodağı yer süpürür, üst dodağı göy süpürür. Qarı bunu görəndə sevinib dedi:

- Qadan alım, nə yaxşı gəldin, altı ay olar ki, adam əti yeməmişəm. Tez gəl, səni yeyim. Yoxsa oğlanlarım gəlib səni mənim əlimdən alıb yeyərlər, mənə bir şey verməzlər.

Bu sözləri eşidəndə vəzir qarının ağzına bir qədər qır-saqqız tulladı. Qarı saqqızı çeynəməyə başladı və yazığı gəlib bunu yemədi. Vəzir özü də sehr bilirdi. Qarının oğlanları gəlməyə yaxınlaşanda sehr oxuyub, bir çuvalduz oldu, girdi deşiyə. Bu halda oğlanlar evə gəlib analarına dedilər:

- Ana, adam-badam iyisi gəlir, yağlı badam iyisi gəlir. Qatır gələr - dırnaq salar, quş gələr - qanad salar. De görək, bura kim gəlmişdi?

Qarı cavab verdi:

- Bura kimsə gəlməyib, yəqin özünüz adam tapıb yemisiniz, iyi dişlərinizin dibindən gəlir. Hərgah bura adam gəlsə, yeyərəm, sizə də saxlıyaram.

Qarının oğlanları inanıb yatdılar. Sübh olanda genə işlərinə getdilər.

Oğlanlar gedən kimi vəzir genə də adam olub, qarıdan Nar qızının yerin soruşdu.

Qarı cavab verdi:

- Onu görmək müşküldü, bu fikirdən əl çək. Devlər səni öldürərlər.

Vəzir cavab verdi:

- Hər nə olsa, gərək gedəm, o qızı tapam.

Qarı gördü ki, əlac yoxdu, Nar qızının yerin söyləyib dedi:

- Buradan bir az uzaqda bir bağ var. O bağda nar ağacı var. Ağacın başında üç nar var. Amma ağacın ətrafında devlər keşik çəkirlər. Gərək o narları elə dərəsən ki, devlərin xəbəri olmasın.

Vəzir qarıdan Nar qızının yerini öyrənəndən sonra yola düşüb, haman bağa yetişdi. Divardan baxıb gördü ki, doğrudan da devlər keşik çəkirlər. Qorxusundan əfsun oxudu, bir milçək olub, divarın arasında gizləndi. Gecə yarısı, devlər yuxuya gedəndə xəlvətcə gedib bu üç narı üzüb geri qayıtdı. Devlərin ondan xəbərləri olmadı.

Vəzir kənara çıxan kimi dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi gəlib öz şəhərlərinə çatdı.

Bir kənarda oturub əvvəlcə narın birini parçaladı. Içindən bir şey çıxmadı. Ikincisinnən də bir şey çıxmadı. Üçüncüsünü parçalayanda içindən bir gözəl qız çıxdı. Qız nardan çıxan kimi, böyüyüb on beş yaşında bir nazənin sənəm oldu. Vəzir istədi ki, onu padşaha aparsın.

Qız dedi:

- Məni bu hal ilə aparma. Get, libas gətir geyinim. Özü də toy edin, sonra aparın.

Vəzir qızı bir çinarın başında qoyub gəldi, əhvalatı evdə söylədi, həm də şahzadəyə dedi ki, toy tədarükünə başlasın. Vəzirin qulluqçusu su üçün qab götürüb, haman çinarın dibindəki quyuya tərəf gəldi. Baxıb gördü ki, suda gözəl bir qızın əksi görünür. Yuxarı baxanda gördü ki, çinarın başınla bir nazənin sənəm əyləşibdi. Qulluqçu əhvalatı bilirdi. Bu da çinarın başına çıxıb qız ilə bir az söhbət eləyəndən sonra itələyib qızı quyuya saldı, özü onun yerində oturdu. Nar qızı quyudan çıxıb, kənarda bir gül ağacı oldu.

Qərəz, toy tədarükünü gördülər. Şahzadə paltar götürüb, vəzir, vəkil və xeyli qoşun ilə qızı aparmağa gəldilər. Gəlib gördülər ki, ağacın başında bir qara qız əyləşib. Şahzadə vəzirdən soruşdu:

- Bu qız niyə belə qaradı?

Vəzir təəccüb edib dedi:

- Acdır, həm də yəqin günün qabağında qalıb, odu ki qaralıb.

Xülasə, qara qızı götürüb şəhərə gəldilər. Toy edib şahzadəyə tapşırdılar.

Vəzir çinarın dibindəki güldən bir dəstə dərib gətirdi evlərinə. Ertəsi gün bunu şahzadənin arvadı qara qıza göndərdi. Qara qız bu gülü alıb pəncərədən eşiyə atdı. Gül dönüb oldu bir çinar ağacı.

Bir ildən sonra şahzadənin həmən qara qızdan bir oğlu oldu. Arvad şahzadəyə dedi:

- Çinarı kəsdirib uşağa beşik qayıtdırarsan.

Şahzadə çinarı kəsdirib, taxta yondurdu. Bu taxtanın birini bir qarı aparıb evində taxçaya qoydu. Hər gün bu qarı gedib bazardan yun alıb, əyirib satar, qazancı ilə dolanardı. Bir gün genə gedib, bazardan on girvənkə yun aldı, evə qoyub, getdi. Bu zaman taxta dönüb Nar qızı olub evi süpürdü, bir yaxşı plov bişirdi. Plovun üstündən bir az yeyib qalanını qarıya saxladı. Bundan sonra Nar qızı yunun hamısını darayıb cəhrədə əyirdi, genə də taxta olub, taxçada öz yerində oturdu. Qarı evə gələndə gördü ki, ev təmiz süpürülüb, yun tamam daranıb, əyirilib. Ocağa baxanda gördü ki, plov da dəmdədi. Qarı bu işə təəccüb elədi. Həmin gün ipi aparıb bazarda satdı. Ertəsi gün bu əhvalat genə oldu. Belə-belə hər gün qarı hər şeyi hazır gördü. Axırda gedib əhvalatı qonşularına söylədi. Qonşuları buna məsləhət gördülər ki, evdə gizlənib pussun. Qarı bu sözə əməl edib, ertəsi gün bazara getmək bəhanəsilə bir tərəfdə gizləndi. Bir də baxıb gördü ki, şahzadənin evindən gətirdiyi taxta dönüb bir qız oldu. Evi təmiz süpürüb, yunu daradı, əyirdi. Sonra yaxşı bir plov bişirib üstündən bir az yedi, qalanını genə ocağın üstünə qoydu. Bu halda qarı gizləndiyi yerdən tez çıxıb qızı tutdu. Qız buna yalvarıb dedi:

- Bu sirri heç kimə söyləmə.

Qarı cavab verdi:

- Xatircəm ol, söyləmərəm. Burda mənim yanımda qal, mənə kömək et.

Qız buna razı olub, qarının yanında qaldı. Bir gün şəhərə xəbər çıxdı ki, padşahın oğlu səfərə getmək istəyir. Ona görə də bir ayın müddətində hər kəs ata yaxşı baxsa, ona padşah çox pul verəcək. Bu xəbəri eşidəndə Nar qızı qarıya yalvarıb dedi:

- Gedib şahzadədən sən də bir at al.

Qarı cavab verdi:

- Bizim nə otumuz var, nə arpa-samanımız, nə də tövləmiz. Atı saxlaya bilmərik, daşı ətəyindən tök.

Qız dedi:

- Sən get, al gətir, sonrası mənim işimdi.

Xülasə, qarı gedib şahzadədən at istədi. Şahzadənin adamları onu başdan eləmək üçün bir arıq at verdilər. Qarı da atı evə gətirdi. Qız atı görəndə bir o tərəfə üfürdü, bir bu tərəfə üfürdü. Çoxlu arpa-saman oldu. Qız atı töyləyə çəkib, burada ona baxmağa başladı.

Ay tamam olanda atları yığdılar. Şahzadə atlara baxanda heç birisini bəyənmədi. Bu halda şahzadəyə xəbər verdilər ki, bir at da filan qarıda qalıb. Şahzadənin adamları gəlib qarının qapısını döyəndə, qarı qabağa çıxdı, baxıb gördü ki, atı aparmağa gəliblər. Gedib qıza xəbər verdi.

Qız söylədi:

- Get, atı ver aparsınlar.

Adamlar gəlib töyləyə girəndə, at bunları yanına qoymadı. Qabağa keçəni dişləyirdi, dala keçəni təpiklə vururdu. Xülasə, apara bilməyib, gedib şahzadəyə xəbər verdilər. Bu dəfə şahzadə adamları götürüb özü gəldi. Nə qədər çalışdılarsa da, atı tövlədən çıxarda bilmədilər. Axırda qarını çağırıb dedilər:

- Atı kim bəsləyibsə, gəlsin tövlədən çıxartsın.

Nar qızı bunu heç kəs tanımasın deyə, başına bir palaz parçası salıb, gəlib tövlədən atı çıxarıb şahzadəyə verdi. Qərəz, bir növlə atı apardılar.

O zaman qayda beləydi ki, şahzadələr səfərə gedəndə üstü inci-muncuq ilə tikilmiş paltar geyərlərmiş. Odu ki, şahzadə bir dəst paltar alıb əmr elədi ki, şəhərdə nə qədər inci-muncuq tikməkdə ustad arvad varsa, gəlib bunun paltarına inci-muncuq tiksinlər.

Bu xəbəri eşidəndə Nar qızı qarıya yalvardı ki, qarı buna da izin versin, gedib padşahın paltarına inci-muncuq tiksin. Qarı izin verdi.

Xülasə, arvadlar, qızlar, şahzadənin evinə toplandılar. Şahzadənin arvadı inci-muncuqları gətirib ortaya qoydu. Arvadlar da növbə ilə, oxuya-oxuya tikməyə başladılar. Növbə Nar qızına çatanda oxumağa başladı:

- Mən bir Nar qızı idim, incim, düzül, düzül!
  Almadan qırmızı idim, incim, düzül, düzül!
  Çıxdım ağac başına, incim, düzül, düzül!

Qız belə söyləyəndə padşahın arvadı qara qarabaş mətləbi anlayıb ölümünü gözünün qabağına gətirdi. Bir tərəfdən də padşahın oğlu gəlib pəncərənin qabağında oturub arvadların oxumasına qulaq asırdı. Qara qarabaş, arvadların utanmasını bəhanə edib, şahzadəyə dedi:

- Pəncərənin qabağından get. Arvadlar utanırlar.

Şahzadə pəncərənin qabağından çəkildi. Qız oxumağa başlayanda genə pəncərənin qabağına gedib, qulaq asdı.

Qız dedi:

- Qara qarabaş gəldi, aftafanı doldurdu, incim, düzül, düzül!
  Aftafanı vurdu daşdan-daşa, incim, düzül, düzül!
  Çıxdı, qondu ağac başına, incim düzül, düzül!

Qara qarabaş baxıb gördü ki, şahzadə genə pəncərədən baxır. Nə qədər elədisə şahzadəni pəncərənin qabağınnan uzaqlaşdıra bilmədi. Bu halda vəzir də gəldi. Bərabər qızın sözlərinə qulaq verdilər. Qız sözünə davam edib, dedi:

- Məni ağacdan saldı quyuya, incim, düzül, düzül!

Bitdim, oldum gül ağacı, incim, düzül, düzül!
Məndən bir dəstə gül dərdilər, incim düzül, düzül!
Məni şah evinə gətirdilər, incim, düzül, düzül!

Bu sözləri vəzir eşidəndə şahzadəyə dedi:

- Mənim gətirdiyim qız budu. Qulaq ver, görək daha nə söyləyəcək.

Qız sözünə davam edib dedi:

- Otaqdan məni tulladılar, küllüyə, incim, düzül, düzül.

Qalxdım oldum çinar ağacı, incim, düzül, düzül!
Mənim taxtamdan qarı apardı, incim, düzül, düzül!
Indi gəldim inci düzməyə, incim, düzül, düzül!

Vəzir şahzadəyə dedi:

- Yəqin, bu həmin mən gətirdiyim qızdı.

Həmin saat arvadları yola salıb, onu saxladılar. Vəzir bundan soruşdu:

- Sən Nar qızısanmı?

Qız cavab verdi:

- Bəli!

Qız üstəlik əhvalatı başdan-ayağa bunlara söylədi. Bundan sonra qırx gün, qırx gecə toy eləyib, Nar qızı şahzadəyə aldılar. Qara qarabaşı da bir xam atın quyruğuna bağlayıb, səhraya buraxdılar. At onu dağa-daşa çırpıb parça-parça eləyib öldürdü.

Nağıl qurtardı. Siz sağ, mən salamat.

NARDAN QIZIN NAĞILI

Keçmiş qədimlərdə Qoquz adında bir padşah varmış. Belə deyirlər ki, günbatandan, günçıxana kimi nə ki, padşah var, hamısı ondan qorxarlarmış. Quş quşluğu ilə Qoquzun adını eşidəndə göydə qanad salarmış. Qoquz çox zülmkar imiş.

Qoquz padşah bir gün yatıb yuxuda görür ki, göydən bir mələkə endi, padşahın ağzına bir sillə vurub, çıxıb getdi.

Qoquz qorxudan yorğan-döşəkdən atılıb, başladı haray çəkib tir-tir əsməyə. Qoquzun yanına vəzir, vəkil yığışıb xəbər aldılar ki, nə olub? Qoquz yuxusunu danışıb əmr verdi ki, bu yuxunu yorsunlar. Vəzir, vəkil yığılıb münəccim çağırdılar, hər nə illah elədilər, yuxunu yorub bir yana çıxarda bilmədilər. Axırda münəccimbaşı dedi:

- Bu yuxunu yoran bir adam var.

Qoquz dedi:

- Kimdi o adam, de, bu saat çağırtdırım?

Münəccim dedi:

- Urum vilayətində bir qoca münəccim var, düz üç yüz ildir ki, ömr sürür. Bu yuxunun mə`nasını tapsa, o tapar, çünki belə yuxuların mə`nasını tapmaq bizim işimiz deyil.

Qoquz dedi:

- Vəzir, bu işi sənə mühəvvəl edirəm. Gərək qoca münəccimi götürüb gələsən hüzuruma.

Vəzirin boğazının yolu quruyub öz-özünə dedi:

- Urum hara, bura hara? Urum burda nə gəzir?

Çarəsi kəsilib durub ayağa, arvadıynan halallaşır bina qoydu yol getməyə. Az gedib çox dayandı, çox gedib az dayandı, nağıllarda mənzil olmaz, neçə müddət yol gedib, neçə mənzil gedib, axırda gəlib çatdı Urum torpağına.

Gəzib Urum şəhərinin dolandı. Gördü ki, bir dərviş bir sandıq qoyub qabağına satır:

- Ay sandıq alan! Ay sandıq alan!.. Alan alıb xeyrin görər, açıb baxan ziyan çəkər.

Vəzir dedi:

- Ey dərviş, sandığı neçiyə deyirsən?

Dərviş dedi:

- Yüz tümənə. Başıbağlı satıram.

Vəzir dedi:

- Qoy alım, baxım.

Dərviş dedi:

- Mən sandığı başıbağlı satıram, alırsan al, almırsan çıx get.

Vəzir çıxardıb yüz tümən dərvişə verdi. Sandığı alıb çıxdı bayıra, soraqlaşıb qoca münəccimin evini tapdı. Döyüb qapını içəri girdi. Gördü ki, pirani bir kişi oturub pambıq içində. Saç-saqqal ağappaq, əlində kitab, qabağında manqal.

Münəccim vəziri görən kimi dedi:

- Ey Ibrahim, xoş gəlmisən. Buyur, otur!

Vəziri xof götürdü. Amma ki, dinib danışmadı. Əyləşib münəccimin yanında, istədi münəccimə deyə ki, gəlmişəm səni aparam.

Münəccim dedi:

- Səhər inşallah gedərik.

Vəzir mat qaldı. Elə ki, çay-çörək yeyib toqqalarının altını möhkəmləndirdilər, münəccim dedi:

- Sən dur get, mən özüm gələrəm.

Vəzir durub ayağa, gəldi öz mənzilinə. Götürüb sandığı bina qoydu yol getməyə. Neçə gün yol gəlib axır çatdı evinə. Arvad çıxıb qabağına dedi:

- Ay kişi, evimizə qonaq gəlib.

Vəzir girdi içəri, gördü ki, qoca münəccim gəlib. Vəzirin lap boğazının yolu qurudu. Ədəb salamını verib oturdu.

Qoca münəccim dedi:

- Dur, məni apar padşahın yanına.

Vəzir durub ayağa, qoca münəccimi götürüb gəldi Qoquzun yanına. Qoquz münəccimə yer görsədib oturtdu yanında.

Dedi:

- Ey pirani münəccimbaşı, yuxuda gördüm ki, oturmuşam çəməndə. Bir də gördüm göy guruldadı, göydən bir mələkə enib oturdu dizimin üstə. Ağzıma bir sillə vurub çıxıb getdi.

Münəccim dedi:

- Ey Qoquz şah, bil və agah ol! Çox çəkməyəcək dünyaya bir qız uşağı gələcək. O, böyüyüb on dörd yaşına çatan kimi səni öldürəcək.

Qoquz şah çox bikeyf olub münəccimbaşıya dedi:

- Tədbir gör! Sənə nə istəsən verərəm.

Münəccim dedi:

- Olacağa çarə yoxdu.

Münəccimbaşı belə deyəndə Qoquz şah qəzəblənib əmr verdi ki, pirani münəccimbaşının boynunu vursunlar. Pirani münəccimbaşı bərkdən gülüb qalxdı göyə, gözdən itib getdi.

Qoquz şah əmr verdi ki, qoca münəccimbaşını tutsunlar. Heç kim münəccimi tuta bilmədi. Qoca münəccim bu getməknən gəlib çıxdı öz evinə. Qoquz vəzirə əmr verdi ki:

- Tədbir gör!

Vəzir dedi:

- Bu bəladan canuvu qurtarmaq üçün bir yol var, o da budu ki, təzə anadan olan qız uşaqlarının boynunu vurdurasan. Bu işi elə görəsən ki, camaat səndən görməyə.

Qoquz vəzirin bu tədbirinə razı olub, bu iş üçün məvacibnən dörd nəfər cəllad tutdurdu. Bu cəlladlar başladılar doğan arvadların qız uşaqlarını beşikdən oğurlayıb öldürməyə.

Sənə xəbər verim vəzirdən.

Vəzir ki, Urum şəhərindən bir sandıq almışdı, götürüb qoymuşdu evinə. Amma açıb sandığın içinə bu günə kimi baxmamışdı ki, görsün bu sandığın içində nə var.

Bir gün evdə oturmuşdu. Birdən yadına düşdü ki, Urum şəhərində dərvişdən bir sandıq almışdı. Durub ayağa arvadına dedi:

- Arvad, Urumdan alıb gətirdiyim sandığı bəri ver, açaq, görək içində nə var.

Vəzirin arvadı durub sandığı götürüb gəldi. Vəzir durub sandığı açdı. Açan kimi sandığın içində bir nar gördü. Alıb narı əlinə, istədi uzada arvadına, nar sıçrayıb vəzirin əlindən düşdi yerə. Düşən kimi partlayıb, narın içindən on yaşında gözəl bir qız çıxıb oturdu evin küncündə. Vəzirin ürəyi gedib bir tərəfə yıxıldı, arvadın ürəyi gedib o biri tərəfə yıxıldı. Haçannan-haçana vəzir özünə gəlib arvadını da ayıltdı, qıza yaxın gəlib xəbər aldı:

- Ay qız, sən kimsən? Bu sandığın içində neyləyirsən?

Qız dedi:

- Mən Firəng vilayəti padşahının naxırçısının qızıyam. Firəng padşahının qızı olmazdı. Mən anadan olan günü Firəng padşahı atama xəbər göndərir ki, qızını versin mənə, qızlığa. Atam da padşahın sözündən keçə bilməyib götürüb məni verdi padşaha. Padşah məni bəsləyib düz on yaşına yetirəndən sonra mənim gözəlliyimə heyran olub, istədi məni özünə arvad eyləyə. Atamın da bu işdən acığı tutub məni elədi nar, qoydu bir sandığa, götürüb bazarda satdı, sən də almısan.

Vəzir dedi:

- Arvad, bizim nə qızımız, nə də oğlumuz var. Elə yaxşı oldu, götürək bunu qızlığa.

Vəzirin arvadı razı olub bu qızın adını qoydular Nardan xanım, götürüb saxladılar.

Sənə xəbər verim şəhər əhlindən.

Şəhərdə yaşayan camaat baxıb gördü ki, şəhərdə uşaq oğrusu törəyib. Yığılıb, yığışıb padşaha şikayətə getdilər. Padşah çıxıb camaatın qabağına dedi:

- Nə üçün gəlmisiniz?

Şəhər əhli dedi ki:

- Bu şəhərdə uşaq oğrusu peyda olub. Arvadlarımız qız doğan kimi gecə ilə gəlib oğurlayıb aparırlar.

Padşah şəhər əhlini rahat eləyib dedi:

- Siz gedin, mən uşaq oğrusunu taparam.

Şəhər əhli dağılıb getdi. Sənə xəbər verim Nardan xanımdan.

Nardan xanım böyüyüb on iki yaşa çatmışdı. Bir gün vəzirin arvadıynan hamama gedirdi. Padşah da çıxıb eyvandan baxırdı. Gördü ki, vəzirin arvadıynan bir nazənin sənəm hamama gedir.

Qoquz padşah tez vəzirdən soruşdu:

- Vəzir, sənin arvadınla hamama gedən qız kimdi?

Vəzir dedi:

- Mənim qızımdı.

Padşah dedi:

- Ey vəzir, sənin qızın haçan olubdu ki, mənim xəbərim olmayıb.

Vəzir dedi:

- On iki il bundan qabaq.

Qoquz padşah başını salıb aşağı, dinmədi.

Aradan bir neçə müddət keçəndən sonra Qoquz padşah Nardan xanıma məhəbbətini salıb ürəyində dedi: - necə olsa gərək qızı görəm.

Durub vəziri çağırtdırıb dedi:

- Vəzir, bu axşam sizə gələcəyəm.

Vəzir baş əyib durub gəldi evinə, arvadına dedi:

- Arvad, Qoquz padşah bizə qonaq gələcək, axşama qonaqlığa hazırlıq gör!

Vəzirin arvadı axşama tədarük görüb, aş bişirib qazan qaynatdı. Axşam Qoquz padşah durub vəzirin evinə qonaq gəldi. Bir az şirin-şirin gülüb danışandan sonra Qoquz padşah göz gəzdirdi ki, Nardan xanımı görə. Nə illah elədi Nardan xanımı görə bilmədi. Axırda əlqabı mahnasilə durub bayıra çıxdı. Nardan xanım da vəzirin arvadıyla mitbaxda aş bişirirdilər. Qoquz

padşah mitbax qapısında Nardan xanımı görən kimi tez əlqabını yerə qoyub qayıtdı dala. Özünü saxlaya bilməyib gəlib vəzirə dedi:

- Vəzir, mən bərk sancılanmışam, gedirəm.

Vəzir nə illah elədi ki:

- Qal, xörək ye!

Qoquz padşah qalmayıb, durub gəldi evinə. Neçə gün, neçə gecə divan işinə baxmayıb, bir yanı üstə yatıb Nardan xanımın eşqindən dəli-divanə oldu.

Bir gün vəzir durub gəldi Qoquz padşahın yanına, dedi:

- Padşah sağ olsun, neçə gündü ki, divana baxmırsan, səbəb nədi?

Qoquz padşah dedi:

- Dərdim çoxdu.

Vəzir dedi:

- Gəl dərdini mənə de, bəlkə mən dərdüvə əlac eləyəm.

Padşah dedi:

- Allahdan gizlin deyil, səndən nə gizlədim? Gərək qızını verəsən mənə.

Vəzir bu sözdən başın salıb aşağı dinmədi. Ürəyindən keçirtdi ki, ay aman, bizə Nardan xanımı görmək üçün gəlibmiş. Vəzir getdi fikrə.

Qoquz padşah dedi:

- Vəzir, daha səbir eləyə bilmirəm. Gərək Nardan xanımı verəsən mənə.

Vəzir dedi:

- Padşah sağ olsun, izin ver gedim qıznan məsləhətləşim, bəlkə qız razı olmadı.

Qoquz padşah izin verdi. Vəzir durub gəldi evinə, gördü ki, Nardan xanım evdə təkdi. Nardanı çağırıb dedi:

- Qızım, bizim padşaha ərə gedərsən?

Nardan xanım dedi:

- Mən ərə gedən deyiləm.

Vəzir suyu süzülə-süzülə durub gəldi Qoquz padşahın yanına. Nardan xanım necə demişdi, elə də dedi Qoquz padşaha.

Padşah od götürüb lap dəli-divanə oldu. Gün keçdi, həftə dolandı, bir gün padşah bağda gəzib dolanırdı, gördü ki, küçədə iki uşaq aşıq-aşıq oynayır. Uşaqların biri başladı cığallığa. Keçəl aşığı götürüb qaçdı. Uşaq dedi:

- Aşığımı ver!

Keçəl dedi:

- Allah vurmuşdu səni. Mən də sənin üçün Qoquz padşah deyiləm ki, Nardan xanımın dərdindən saralıb solam, aciz qalam.

Keçəl belə deyən kimi Qoquz padşah yapışıb keçəlin biləngindən çəkdi bağa, dedi:

- Ey vələdizna, sən nə bilirsən ki, mən Nardan xanımın eşqindən bu kökə düşmüşəm?

Keçəl dedi:

- Nə üçün bilmirəm?

Qoquz padşah dedi:

- Indi ki, bilirsən, de mənə görüm mən necə eləyim ki, onu alım?

Keçəl dedi:

- Əvvəl qarnımı doydur, sonra deyim.

Qoquz padşah durub keçəli apardı aşbazın yanına, qarnını doydurub, götürüb gəldi otağına, dedi:

- Keçəl, əgər mənim dərdimə əlac eləsən, sənə qızıl verərəm, yox hətərən-pətərən danışsan boynunu vurduraram.

Keçəl dedi:

- Padşah sağ olsun, bir yandan Nardan xanım sənə getmək istəmir, o biri yandan da vəzir qızı sənə vermək istəmir. Sən ta ki, vəziri öldürməsən qızı ala bilməzsən.

Qoquz padşah dedi:

- Bəs necə eləyim ki, vəziri öldürüm?

Keçəl dedi:

- Mənim nənəm yaxşı xalça toxuya bilir. Sən vəziri göndər bizim evə ki, bizdən sənin üçün xalça alsın. O xalçaya gələndə mən də çıxaram dama. Evimizə girəndə başına daş salıb öldürərəm.

Padşah razı oldu. Keçələ bir qızıl verib yola saldı. Bu tərəfdən də vəziri çağırıb dedi:

- Vəzir, filan keçəlin evində bir əntiq xalça var. Gəl sənə gedib xalçaya bir baxasan. Əgər xoşuna gəlsə, elə orda pulunu ver, xalçanı al gətir.

Vəzir durub keçəlgilə gəlməkdə olsun, eşit keçəldən.

Keçəl çıxıb damda oturmuşdu, gördü ki, vəzir gəlir. Tez böyük bir daş tapıb içəri girən kimi saldı vəzirin başına. Vəzir elə oradaca öldü. Götürüb vəzirin meyidini gecəynən atdı bazarın ortasına, çıxıb gəldi.

Səhərdən Qoquz padşaha xəbər getdi ki, vəzir ölüb. Padşah vəzirini kəfi-dəfn eləyib durub gəldi vəzirin arvadının yanına. Başsağlığı verib, bir də Nardan xanıma məhəbbətnən baxıb, çıxıb getdi.

Aradan bir müddət keçdi. Bir gecə Nardan xanım oturmuşdu evdə, bir də gördü ki, qapı döyüldü. Otağa iki adam girib dedi:

- Padşah səni çağırır.

Nardan xanım getməyib gələn elçiləri də qovub, qapıları bağlayıb oturdu içəridə.

Qoquz padşaha xəbər çatdı ki, Nardan xanım gəlmir. Padşah qəzəbləndi, əmr verdi ki, səhərnən Nardan xanımın boynu vurulsun.

Gecəni Qoquz padşah yatdı. Bu dəfə yuxuda gördü ki, göydən bir mələkə enib dəydi ürəyinin başından. Qoquz tez yuxudan ayılıb səhərə kimi yata bilmədi. Səhər divanxana vaxtı durub gəldi divanxanaya, adam göndərdi münəccim üçün. Münəccim gəldi. Qoquz padşah yuxusunu münəccimə nəql elədi.

Münəccim dedi:

- Qabaq gördüyün yuxunun mə`nası yavaş-yavaş yaxınlaşır, özünü gözlə!

Münəccim çıxıb gedəndən sonra Qoquz padşah qoca münəccimin dediyi sözü yadına salıb, Nardan xanımı yaddan çıxardı. Bu tərəfdən də camaat şikayətə gəldilər ki, bəs arvadımız qız doğur, səhəri oğurlayırlar. Bizim səbir kasamız doldu. Qız üzünə həsrət qaldıq.

Qoquz padşah baxıb gördü ki, işlərin qabağı çox qarışıq gəlir. Birdən ağlına gəlib dedi:

- Camaat, mən baxıb görürəm ki, sizin şikayətiniz qurtaran deyil, mən də o uşaq oğrusunu tapa bilməyəcəm. Sabahdan başlayın bir mərtəbəli ev tikin! Pulu məndən. Arvadlarınız nə ki, qız doğdu, gətirin yığın o otağa, görək başımıza nə gəlir.

Camaat padşahın tədbirindən xoşlanıb günü o gün başladılar bir mərtəbəli imarət tikməyə. Çox çəkmədi ki, imarət tikilib qurtardı. Qoquz padşah xəzinədən pul ayırıb, iki dənə daya tutub doğan arvadların qız uşaqlarını yığıb bu təzə imarətdə saxlamaqda olsun, sənə xəbər verim kimdən, Nardan xanımla Qoquz padşahdan.

Bir gün yenə də Qoquz padşahın eşqi cuşa gəldi. Durub gəlməkdə olsun Nardan xanımın yanına. Nardan xanım oturmuşdu evdə, gördü ki, Qoquz padşah gəlir, tez durub ayağa istədi çıxa bayıra. Padşah qırğı kimi alıb Nardan xanımın başının üstünü dedi:

- Nardan xanım, gəl bu daşı ətəyindən tök!

Nardan xanım baxıb gördü ki, Qoquz padşah bundan əl çəkən deyil, dedi:

- Padşah sağ olsun, bir il mənə möhlət ver! Bir ildən sonra mən sənin, sən mənim.

Qoquz padşah razı oldu, burub gəldi evinə.

Indi sənə xəbər verim Nardan xanımdan.

Nardan xanım eşitmişdi ki, bu şəhərdə uşaq oğrusu var, amma tapmayırlar.

Durub bir gecə geyinib-kecinib pəhləvan paltarında çıxdı bayıra. Gördü ki, hansı evə gedirsə, yasdı. Amma şəhərin qırağında bir ev var, burda çalğıdı, oxumaqdı, keyfdi. Əyilib pəncərədən gördü ki, bu evin başında qoca bir kişi altında döşək, dalında balış, yorğanı da

qurşağacan səriyib özünə oturubdu. Qabağında dəstə bir oğlan, dəstə bir qız, biri saz çalır, biri dəf çalır, qoca da qulaq asır. Arada da elə oxuyur ki, gəl görəsən.

Nardan xanım qapını döydü. Qapını açdılar. Nardan xanım girdi evə. Uşaq durub Nardan xanımdan xəbər aldı:

- Kimi istəyirsən?

Nardan xanım dedi:

- Allah qonağıyam. Mənə bu gecəliyə yer verin!

Nardan xanım keçib oturdu. Uşaqlar başladılar çalmağa, qoca kişi başladı oxumağa, Nardan xanım da oturub qulaq asırdı.

Oğlan birdən dəfi vurdu yerə, qız da sazı qoyub yerə, başladılar qurşaq yapışmağa. Qız oğlanı qoyub dizinin altına başladı əzişdirməyə. Qoca gülüb qəşş elədi. Haçandan-haçana əlini atıb döşəyin altından bir çubuq götürüb uşaqları vurdu. Uşaqlar ayrılıb bir-birindən, hərəsi bir yana yıxılıb yatdılar.

Nardan xanımı fikir aldı ki, bu necə olan işdi... Qoca üzünü Nardan xanıma tutub dedi:

- Ey qonaq, xoş gəlmisən!

Nardan xanım dedi:

- Sağ olasan!

Qoca əlini uzadıb yanındakı sandığın içindən bir parça quru çörək, bir nəlbəki bal götürüb uzatdı Nardan xanıma. Nardan xanım alıb çörəknən balı qoydu qabağına, bir tikə yeyib, əlini süfrədən çəkdi.

Qoca dedi:

- Ey qonaq yesənə!

Nardan xanım dedi:

- Ta mənə bu sirri deməsən mən sənin çörəyini yemərəm.

Qoca dedi:

- Ey pəhləvan, ləcliginə salma! Gəl otur çörəyini ye! Sənin mənim sirrimnən nə işin var?

Nardan xanım dedi:

- Ey qoca, əgər mənə sirr verməsən bu iki uşağın başın kəsib, durub gedəcəyəm.

Qoca fikrə gedib dedi:

- Ey pəhləvan, bil və agah ol, mənim bu sirrimi heç kəs bilməyir. Bax bu iki uşağı görürsən, heç onlar da bilməyir. Mən sirrimi heç kimə deməyib ürəyimdə saxladığım üçün bu kökə düşmüşəm.

Qoca yorğanı dizinin üstündən götürdü. Nardan xanım baxıb gördü ki, qocanın qıçlarını ta qurşağacan qurd yeyib. Qoca yorğanla dizini örtüb yenə dedi:

- Gəl mənim ölümümə bais olma!

Nardan dedi:

- Gərək danışasan.

Qoca dedi:

- Mən Qoquz padşahın bağbanı idim. Cavan idim, olardım on altı sinnində. Bir gün Qoquz padşah məni Ərəbistana xurma üçün göndərdi. Mən də getdim. Gələndə bir ərəb qızı mənə aşiq oldu. Alıb ərəb qızını da özümlə gətirdim. Xurmanı Qoquz padşahın bağında əkdim. O zaman padşah hələ cavan idi. Mən pul yığdım ki, toy eləyim, ərəb qızını alım. Gördüm ki, toya qüvvəm çatmır, mən də bir xonça tutub apardım Qoquz padşah üçün, öz dərdimi açıb dedim ona.

Qoquz padşah dedi:

- Götür gəl adaxlıvu görüm necə şeydi. Özünə layiq də toy eləyim.

Mən də razı oldum. Çünki ata-babadan biz eşitmişik ki, padşah olan şəxs yerin allahıdı. Mən də durub ərəb qızını aparıb göstərdim Qoquz padşaha. Qoquz padşah ərəb qızını görən kimi gördüm gözləri dörd oldu. Mən yenə bir şey başa düşmədim.

Mənə dedi ki:

- Bu qızın toy xərci mənim boynuma. Burax hərəmlərin yanında qalsın. Mən sənin üçün bir-iki günə toy elərəm.

Mən bu zalımı adil bilib inandım. Ərəb qızını öz əlimlə hərəmxanada qoyub gəldim. Aradan bir həftə keçəndən sonra durub padşahın yanına, gəldim ki:

- Ver, ərəb qızını aparım.

Padşah məni qovdu. Mən də cavandım. Səbir eləyə bilmədim, ağzımdan bir neçə pis söz çıxartdım.

Qoquz padşahın acığı tutub məni zindana saldı. Mən zindanda qaldım. Qoquz padşah da ərəb qızını istədi özünə arvad eləyə, ərəb qızı əl vermədi, nə ərəb qızı fikrindən döndü, nə də mən ərəb qızından əl çəkdim. Bir gecə ərəb qızını götürüb qaçdım. Qoquz padşah yenə də gəlib bizi tapıb ərəb qızını mənim əlimdən aldı, məni də tutub zindana saldı. Hər gecə Qoquz gələrdi yanıma, mənə deyərdi ki:

- Gəl razı ol, ərəb qızını mən alım.

Mən razı olmurdum. Zor-güc ərəb qızını Qoquz padşah özünə arvad elədi. Mən səbir eləyə bilmədim. Daha dərd ürəyimə vurdu. Bir yandan da nəmişlik iki qıçımı çolaq elədi. Qoquz padşah işi belə görüb məni açdı, buraxdı, mən də gəlib şəhərin qırağında özümə bu evi tikdim.

Bu iki uşağı da alıb saxlamışam. Bunlar çalırlar, mənim könlüm açılır, qurşağı da ona görə tutdururam ki, bəlkə böyüyüb pəhləvan olub, axırda mənim qisasımı Qoquz padşahdan alalar.

Qoca sözün tamam elədi. Nardan xanım gecəni qalıb səhərdən durub gəldi evinə.

Axşam olan kimi yenə Nardan xanım geyinib pəhləvan paltarı, düşdü bu şəhərə. O qapı mənim, bu qapı sənin, gəzib hər pəncərədən baxıb bir təzə söz öyrənirdi. Qayıdıb evinə gələndə gördü ki, evlərin birində vaveyladı. Ana deyir «qızım», qardaş deyir «bacım», Nardan xanım səbir eləyə bilməyib girdi içəri, xəbər aldı:

- Ay ev yiyəsi, bu nə vaveyladı?

Qoca bir arvad vardı, qayıdıb dedi:

- Ey pəhləvan, sən məgər bu şəhərə təzə gəlmisən?

Nardan xanım dedi:

- Bəli, qəribəm, təzə gəlmişəm.

Arvad dedi:

- Bizim şəhərdə qız oğrusu var, qız uşağı bu gün anadan olur, səhər oğurlanır.

Nardan xanım belə eşidən kimi dayanmayıb, çıxıb getdi evinə. Gecəni yatıb səhər tezdən durub gəldi Qoquz padşahın yanına. Qoquz padşaha dedi:

- Ey padşah, eşitmişəm sənin şəhərində qız uşaqlarını oğurlayırlar. Gərək uşaq oğrusunu tapasan. Tapmasan taxtanı qanla dolduraram.

Qoquz padşah qəzəblənib əmr verdi ki, tutun bunu.

Belə deyəndə Nardan xanım tez çıxıb bayıra pəhləvan paltarını soyundu, geyindi öz paltarını, oturdu evində.

Gecə olan kimi durub geyindi pəhləvan paltarını, çıxdı bazara. Gəzib dolanırdı, gördü ki, bir yerdən işıq gəlir. Yeridi irəli, gördü ki, Qoquz padşahdı, qucağında üç aylıq uşaq. Tutub uşağı aldı padşahın əlindən. Nardan xanım padşahı tanıdı, amma padşah Nardan xanımı tanımadı. Padşah uşağı Nardan xanımın qucağına verən kimi qaçdı. Nardan xanım da uşaq qucağında qaçdı padşahın dalınca. Qoquz padşah öz adamlarına çatıb qışqırdı:

- Tutun bunu!..

Qoquz padşahın adamları hücum elədilər Nardan xanıma. Nardan xanım istədi macal eləyib uşağı yerə qoysun, əl atsın qılınca, daldan yapışıb Nardan xanımın iki qolunu möhkəm sarıyıb, götürüb saldılar dustağa. Qoquz padşah gecəynən uşaq olan mənzilə od vurub odladı. Camaatın uşaqları yanıb tələf oldu.

Qoquz padşah səhər camaatı yığıb bir yerə e`lan verdi ki, uşaq oğrusunu tapmışam, sabah dara çəkiləcək.

Səhər meydan salınıb dar ağacı quruldu. Nardan xanımı götürüb gəldilər dar ağacının altına. Qoquz padşah çıxıb camaatın qabağına, dedi:

- Ey camaat, siz hələ məndən narazılıq eləyirdiniz ki, uşaq oğrusunu tapmırsan. Bütün sizin qız uşaqlarınızı oğurlayan budu.

Camaat hər yerdən Nardan xanıma min təsbeh lə`nət oxudular. Arvadlar istədilər Nardan xanımı daşa bassınlar, amma cəlladlar qoymadı. Padşah əmr verdi ki, salsınlar ipi bu məl`unun boğazına. Cəlladlar ipi hazır edib istədilər salalar Nardan xanımın boğazına, Nardan xanım tez niqabı üzündən götürüb üzünü padşaha göstərdi. Qoquz padşah Nardan xanımı tanıdı, amma əli heç bir yana çatmadı. Qoquz padşah tutduğu işdən çox peşiman oldu.

Cəlladlar ipi Nardan xanımın boğazına salan kimi, bərk bir xəzri qopdu, toz, torpaqdan göz-gözü görmədi. Nardan xanım ipi atıb özünü vurdu camaatın arasına, tez aradan çıxıb qaçdı.

Çox çəkmədi xəzri dayandı. Cəlladlar baxıb gördülər ki, dara çəkilən adam qaçıbdı. Camaat axtarmamış yer qoymadı, amma onu tapa bilmədilər.

Xəbər verim sənə Nardan xanımdan.

Nardan xanım qaçıb özünü saldı meşəyə. Bir neçə gün o yanda, bu yanda başını girləyib bir təhərnən meşədən çıxdı, üz qoydu getməyə. Az gedib çox dayandı, çox gedib az dayandı, gəlib çatdı Bəm şəhərinə. Girib şəhərə gördü ki, burda bir bağ var, gəl görəsən. Lalələr gül açıb bülbüllər cəh-cəh vurur, dünyada nə istəyirsən, hansı meyvəni deyirsən, bu bağdadı. Nardan xanım girib bağa meyvə dərib yedi, uzanıb reyhan küllərinin yanında yatdı.

Sənə xəbər verim Rəm vilayətinin padşahının qızı Zərnigar xanımdan.

Zərnigar üçün neçə müddətdi ki, şəhərbəşəhərdən elçilər gəlirdi. Zərnigar heç kimə ərə getmirdi. Zərnigarın atası lap təngə gəlmişdi, and içmişdi ki, Zərnigarın bir də işinə qarışmasın. Odu ki, gələn elçilərin də cavabını Zərnigar verib qaytarırdı.

Bir gün Zərnigar bağa çıxıb gəzirdi, gördü ki, ağacların dibində cavan bir oğlan yatıbdı. Oturub Nardan xanımın başının üstündə, başladı Nardan xanımın üzün, gözün silib təmizləməyə.

Nardan xanım ayılıb gördü ki, başının üstündə gözəl bir qız oturub. Dodaqaltı gülüb yerindən qalxdı.

Zərnigar Nardan xanıma dedi:

- Ey oğlan, adın nədi, nəkarəsən?

Nardan xanım işi başa düşüb dedi:

- Adıma Əhməd deyərlər, özüm də Urum padşahının oğluyam.

Zərnigar dedi:

- Istədiyimi allah yetirdi.

Zərnigar özünü saxlaya bilməyib öz ürəyindəki məhəbbəti Nardan xanıma açıb dedi:

- Ey Əhməd, sevirəm səni, gərək məni alasan.

Nardan xanımın boğazının yolu quruyub dinmədi. Zərnigar bir də məhəbbətini deyib sarıldı Nardan xanımın boynuna ki:

- Əhməd, dur gedək mənim mənzilimə.

Nardan xanım durub Zərnigarın mənzilinə gəldi, qapını bağlayıb gecəni yatdılar.

Səhər tezdən Nardan xanım ayılıb çıxdı bağa. Neçə vaxt idi ki, soyunub çimməmişdi. Öz-özünə dedi: yaxşı oldu, gedib çimərəm, sonra allah kərimdi. Durub verdi özünü çaya. Bir oyana baxdı, bir bu yana baxdı, gördü ki, heç kim yoxdu. Soyunub girdi çaya. Bu çimməkdə olsun, al xəbəri padşahın bağbanının oğlu Murtuzdan.

Murtuz gözəşirin oğlanların biriydi. Çıxıb səhər-səhər bağı gəzirdi, gördü ki, çayın içində bir süd kimi ağappaq şey görünür. Durub gəldi çaya tərəf, nə gördü... Cavan bir qız çayda çimir. Özün verdi irəli ki, qızın paltarını götürsün, gördü ki, yerdə oğlan paltarı var. Murtuz əl saxlayıb dayandı. Birdən Nardan xanım Murtuzu görüb dedi:

- Ey cavan, çəkil geyinəcəyəm, qoy geyinim.

Nardan belə deyəndə Murtuz çəkildi dərənin içinə. Nardan xanım alababat geyindi. Murtuz gəlib Nardan xanımın yanına, dedi:

- Ay qız, nəçisən!

Nardan əvvəl istədi Murtuza cavab verməyə. Sonra baxıb gördü ki, bu çox gözəşirin oğlandı. Murtuzun məhəbbətini salıb ürəyinə, yaxın gəldi Murtuza. Hər ikisi oturub çəməndə öz ürək sirlərini bir-birinə açdılar, söhbətdən sonra Nardan xanım başına gələn hekayəti başdan axıra kimi

Murtuza nəql elədi.

Sənə xəbər verim kimdən, Zərnigardan.

Zərnigar xanım ayılıb gördü ki, sevgilisi Nardan xanım yanında yoxdu. Durub çıxdı bayıra, özün yetirdi bağa. Nardan xanım başıaçıq oturmuşdu, saçları anduz yarpağı kimi tökülüb çiyinlərini bürümüşdü. Zərnigar baxıb gördü ki, bağbanın oğlu Murtuz bunun bağında bir qızınan söhbətdədi. Acığı tutub qayıtdı evinə. Qaravaş göndərdi ki, Murtuzu çağıralar. Bu tərəfdən də Nardan geyinib yenə pəhləvan paltarı, Murtuzdan ayrılıb çıxdı bağdan. Qaravaş gəlib Murtuzu tutub Zərnigar xanımın yanına apardı.

Zərnigar xanım Murtuza dedi:

- Ey haramzada, mən səni bağımda nökər saxlamışam, yoxsa qızlarnan keyf çəkməyə saxlamışam?

Murtuz dedi:

- Xanım, nə qız? Mən heç bağda qız görməmişəm.

Belə deyəndə Zərnigar xanımın acığı tutub Murtuzu saldı zindana.

Nardan xanım Zərnigarın yanına gəlirdi, gördü ki, Murtuzu dustaqxanaya aparırlar. Tez özün yetirdi, Murtuzdan xəbər aldı ki:

- Səni kim tutdurub?

Murtuz dedi:

- Zərnigar xanım.

Nardan xanım özün yetirib Zərnigara, dedi:

- Ey sevgilim, məni istəyirsən?

Zərnigar dedi:

- Bəli istəyirəm.

Nardan xanım dedi:

- Indi ki, məni istəyirsən, nə desəm yerinə yetirərsənmi?

Zərnigar:

- Yerinə yetirərəm. Təki sən mənə söz buyur.

Nardan xanım dedi:

- Ey sevgilim, gözümün işığı, Murtuzu mənə bağışla! Mən özüm onun tənbehini eləyim.

Nardan xanım belə deyəndə Zərnigar dedi:

- Ey Əhməd, get bağışladım.

Zərnigar adam göndərib Murtuzu buraxdırdı. Özləri də başladılar söhbətə. Gün batan kimi Nardan xanım durub gəldi Murtuzun yanına.

Hər gün bir-iki saat Nardan xanım durub gələrdi Zərnigarın yanına. Yalanbaşdan Zərnigarın başını aldadıb, tez durub gedərdi Murtuzun yanına. Gecəni səhərə kimi Murtuznan keçirərdi.

Xəbər verim sənə kimdən, Zərnigarın atasından. Zərnigarın atası padşahdı. Bir gecə durub əlqabına çıxırdı gördü ki, qızının bağından işıq gəlir. Tez özünü yetirib bağa, gəlib çatdı Murtuzun evinə, baxıb pəncərədən gördü ki, bağban oğlu Murtuz bir qızınan yatıbdı ki, dünyada heç misli yoxdu. Gözəllikdə bəeyni Züleyxa. Padşah dayana bilməyib yıxıldı yerə.

Haçandan-haçana özünə gəlib durdu ayağa. Geri dönüb, bir neçə nəfər adam göndərdi, Nardan xanımla Murtuzu götürüb gətirtdi. Əmr verdi ki, Murtuzu salsınlar zindana, Nardan xanımı da öz otağına, padşah necə dedi, elə də elədilər. Murtuz zindanda qalsın, al xəbəri Nardan xanımla padşahdan.

Padşah durub gəldi Nardan xanımın yanına. Nardan xanıma bir dəst zənən paltarı verib geyindirəndən sonra dedi:

- Ey taci-təxti-sərim, gəl ulduzumuzu barışdıraq.

Nardan xanım dedi:

- Bizim ulduzumuz barışan ulduz deyil.

Belə deyəndə padşah istədi güc göstərsin. Nardan xanım qalxıb padşaha bir sillə çəkdi. Padşah özündən gedib yıxıldı kənara. Ağız-burnu qan oldu. Sonra ayağa durub Nardan xanımı saldırdı zindana. Qəza işi avanda gətirdi, Nardan xanımın zindan otağı Murtuzun zindan otağının yanında oldu, aradan bircə arakəsmə var idi. Nardan xanım gecəyarı durub dedi:

- Hər təhər olsa buradan qaçmalıyam.

Durub ara divarı qazmağa başladı. Haçandan-haçana bir deşik açıb keçdi o biri otağa. Gördü ki, şam işığında burda bir cavan yatıbdı.

Şamla oğlanın üzünə baxıb gördü ki, Murtuzdu. Tez Murtuzu ayıldıb dedi:

- Sən paltarını ver mənə, sən də mənim kini gey! Mən çıxım burdan, sonra səni qurtarram.

Murtuz razı oldu. Soyunub paltarını Nardan xanıma verdi. Nardan xanım da soyunub paltarını Murtuza verdi.

Səhər Nardan xanım Zərnigara bir kağız yazıb göndərdi.

Zərnigar kağızı alıb oxuyub bildi ki, Əhməd (Nardan) zindandadı. Tez gəlib atasından gizlin Nardan xanımı zindandan çıxartdı. Nardan xanım zindandan çıxan kimi tez özünü yetirib evə, padşah paltarını geyib qılıncı bağladı, gəlib zindanın qabağındakı zindançıları vurub öldürüb, Murtuzu götürüb apardı.

Padşaha xəbər getdi ki, təzə pəhləvan peyda olubdu, durma özünü yetir. Zindanbanları vurub öldürdü.

Padşah əmr verdi, qoşunu sel kimi tökdü meydana. Nardan xanım açıb qollarını şir kimi vurub özünü dəryayi-ləşkərə, başladı qoşunu qırmağa. Nardan xanım gələn-gələn qoşunları qırıb tökdü, əl atıb padşahı taxtdan salıb, cəhənnəmə vasil elədi. Vəziri onun yerinə padşah tikib, Zərnigar xanımın yanına gedib dedi:

- Ey Zərnigar, bil və agah ol, mən qızam.

Bütün başına gələni Zərnigara danışıb dedi:

- Indi mən gedirəm.

Zərnigar dedi:

- Indi ki, gedirsən, məni də apar.

Nardan xanım üç at götürüb Murtuz və Zərnigar ilə bina qoydu yol getməyə. Gəlib Qoquz padşahın torpağına, orda ki, onu dara çəkirdilər, dayanıb meydanda bir nə`rə çəkdi. Qoquz padşah adam göndərdi ki, gedib görsünlər o nə`rə çəkən kimdi. Adam gəldi. Nardan xanım gələn adamın boynunu vurub saldı yerə.

Qoquz padşah gördü ki, gedən getdi, daha gəlmədi. Yenə adam göndərdi, Nardan xanım gələnin boynunu vurdu. Axırda padşah qəzəblənib qoşun göndərdi. Nardan xanım baxıb gördü ki, qoşun gəldi. Əl atıb qılınca vurdu özünü dəryayi ləşkərə, qırıb qoşunu axıra çatdı. Padşah qoşun göndərdi, pəhləvan göndərdi. Nardan xanım nə ki, vardı qırıb qurtardı. Axırda Qoquz padşah meydana gəlib Nardan xanımla qılıncbaqılınc gəldi. Gördülər ki, qılıncdan bir şey çıxmadı, əl atdılar toppuza. Baxıb gördülər ki, toppuzdan da bir şey çıxmadı, başladılar güc eləməyə. Əl atdılar bir-birinin kəmərlərinə. Heç birinin bir-birinə gücü çatmadı. Axırda Nardan xanım lap təngə gəldi, əl atıb tutdu Qoquz padşahın kəmərindən, nə`rə çəkib götürüb çırpdı yerə. Çıxıb Qoquz padşahın sinəsinin üstə, başını kəsib keçirtdi nizənin başına.

Nardan xanım yığıb camaatı, bu padşahın necə zülmkar olub beşikdəki qız uşaqlarını oğurlayıb qırmağını, hamısını camaata nəql elədi. Camaat Qoquz padşaha lə`nət oxuyub, Nardan xanımı özlərinə padşah tikdilər.

Nardan xanım bir neçə gün padşahlıq eləyib Murtuzu taxtda oturdub dedi:

- Mən gedirəm beş günə gəlləm.

Nardan xanım minib ata, üz qoydu öz vətəninə sarı. Yetişib şəhərinə, ata-anasını tapıb görüşəndən sonra atası qızının əhvalını xəbər aldı.

Nardan xanım başına gələni atasına danışıb dedi:

- Sən həya-abrından ötəri məni nar eləyib satdın, məni bu padşahın əlindən qurtardın, mən də gərək səni qurtaram.

Nardan xanım bu şəhərin də padşahını öldürüb, qoşunlarını özünə təslim elədi, sonra öz atasını burda padşah tikib, qayıdıb gəldi Murtuzun yanına. Yeddi gün, yeddi gecə toy eləyib Murtuznan murad hasil elədilər.

N A X I R Ç I

Biri var idi, biri yox idi, allahın bəndəsi çox idi. Bir naxırçıynan arvadı var idi. Naxırçının arvadı ölüdən yaman qorxardı. Qonum-qonşularında qocadan-qoltaxdan ölən olsaydı, az qalırdı bunun bağrı çatlasın.

Arvad günlərin birində ayağın yerə diriyib dedi:

- A kişi, gəl burdan köçək elə yerə gedək ki, oralarda ölüm-itim olmasın.

Kişi dedi:

- Ay arvad, sənin başına hava gəlib nədi? Heç elə yer olar ki, orda adam ölməsin? Gəl sən bu sövdadan əl çək, üzümüz-gözümüz bura öyrəşib, evimizi-eşiyimizi buraxıb hara gedək?

Arvad elə nırx deyib durdu, əl çəkmədi ki, çəkmədi. Axırda kişinin əlacı kəsildi. Hərəsi çiyninə bir xurcun salıb başladılar getməyə. Az getdilər çox dayandılar, çox getdilər az dayandılar, dağlar aşdılar, dərələr keçdilər, doyunca sulardan içdilər, gəlib bir şəhərə çıxdılar. Şəhərin hər yerini axtardılar, gördülər burda qəbiristanlıq yoxdu. Arvad dedi:

- A kişi, deyəsən elə mən axtardığım buradı. Yəqin buranın adamları ölmürlər, odu ki, qəbiristanlıqları da yoxdu, elə qalax burda.

Ər-arvad bir dəyə qurub qaldılar burda.

Ay dolandı, gün keçdi, bir gün naxırçının arvadı azarladı. Kişi də getmişdi naxıra, qonum-qonşu bildilər ki, naxırçının arvadı azarlayıb. O saat çıxıb küçədə car çəkdilər. Adamlar yığılıb arvadı kəsib alışma elədilər.

Axşam naxırçı evə gələndə gördü arvad nə gəzir, heç sümükləri də qalmayıb. Başladı hay-həşir salmağa ki, kimdi mənim arvadımı öldürən? Qonşular yığılıb naxırçını məzəmmət elədilər, ki:

- A kişi, sən bura təzə gəlibsən nədi, köhnə kəndə təzə nırx qoymaq istəyirsən? Bizim adətimiz belədi ki, kim azarlasa onu kəsib yeyirik.

Kişi gördü bir az çərən-pərən eləsə, bunu da kəsib yeyəcəklər, kor-peşiman gedib yatdı, sabah ala-toran vaxtı daban alıb buradan qaçdı.

Naxırçı yeddi gün, yeddi gecə yol gedib çatdı bir şəhərə. Ilan vuran ala çatıdan qorxan kimi kişi o saat xəbər aldı ki, burda ölünü neyləyirlər. Dedilər ki, burda ölünü basdırırlar. Naxırçı burda qalıb naxırçılıq elədi.

Kişi bir gün naxırdan qayıdıb gələndə gördü evi adamla doludu. Xəbər aldı bu nə işdi, camaat niyə bura yığılıb? Dedilər:

- Bizim yerin adəti belədi ki, kişi arvadsız olmaz, gəlmişik səni evləndirək.

Camaat ədəb-ərkanla naxırçını evləndirdilər. Ər-arvad bir müddət gün keçirib ömür sürdülər. Günlərin birində naxırçının bu arvadı da azarlayıb öldü. Camaat yığışıb gəldilər ölünü basdırmağa. Kişiyə dedilər:

- Sən də özünə qırx günlük azuqə götür, səni də aparacayıx basdırmağa.

Kişi dedi:

- Mən ölməmişəm, bəs məni niyə basdırmaq istəyirsiniz?

Adamlar dedilər:

- A kişi, deyəsən sən bizim adətimizi bilmirsən? Bizim yerdə adətdi, arvad öləndə kişini də onunla bir yerdə basdırırıx.

Kişi nə qədər dava-şava elədi, gördü yox, olası deyil odu ki, özünə qırx günlük azuqə götürüb uzandı kəcavənin içində. Bunları apardılar bir dağda mağara kimi yerə qoydular. Mağaranın qapısını bağlayıb getdilər. Naxırçı yan-yörəsinə göz gəzdirib gördü buralar tamam meyidlə, sür sümüklə doludu. Elə qaranlıxdı ki, göz-gözü görmür. Kişi mağaranın dibindən bir zarıltı eşitdi. Bir az gedib gördü bir arvaddı. Dedi:

- Sən kimsən?

Arvad dedi:

- Mən padşahın oğluna ərə getmişdim, o öldü, məni də diri-diri onunla basdırdılar bir yerə. Indi nə ölürəm ki, canım qurtara, nə də burdan çıxıb qaça bilirəm.

Kişi çaxmaq daşını çaxıb bir az qov yandırdı. Qovu püfləyə-püfləyə onun işığına mağaranın bir küncünə getdi, başladı oranı eşməyə. Eşhaeş, eşhaeş birdə gördü bir balaca deşik açıldı, deşiyi bir az da yekələndirdi. Arvadla ikisi də ilan ağzından qurbağa qurtaran kimi mağaradan çıxıb qaçdılar. O qədər yol getdilər ki, gəlib çatdılar bir vilayətə. Demə buranın adamları gecə it olarmış, günüz adam. Bir boş otaq tapıb ora girdilər. Elə ki, gecə oldu, kişi gördü küçədə-bacada bir boğuşma var, bir didişmə var ki, qulaxlar tutulur. Naxırçı bayıra çıxdı ki, görsün bu nə hay-küydü, gördü düz-dünya dönüb itə, bu onu qapır, o bunu. Bir-ikisi də naxırçının üstünə düşüb palpaltarını cırıx-cırıx elədilər. Kişi bir təhər özünü içəri salıb qapını bağladı. Gecəni bir təhər burda qaldılar. Sabah xoruz banından qabaq durub gəldilər öz vilayətlərinə. Burda ədəb-ərkanla arvad naxırçıya ərə getdi.

Ər-arvad şad-xürrəm dolanıb, gün keçirirdilər. Günlərin bir günü kişi dedi:

- Arvad, gəlsənə bir müddət gedim bir özgə vilayətə, bir az puldan-zaddan qazanım, kasıbçılığın daşın atax getsin.

Arvad razı oldu, ərinin heybəsinə bir az pendirdən-çörəkdən qoyub yola saldı. Kişi gedəndə dedi:

- Arvad, mən gələnətən abır-həyaynan dolanarsan. Əgər adına bir söz desələr qayıdıb gələndə yekə tikəni qulağın boyda doğrayacam ha!

Arvad and-aman elədi:

- A kişi, elə də iş olar? Əgər məndən bir pis iş eşitsən, tikə-tikə doğrayarsan, onda qanım halaldı.

Kişi gedəndən sonra qeybdən bu arvadın yanına üç gün hər dəfə bir adam gəldi. Adamlar gecə-gündüz arvadı dəngəsər elədilər ki, yoldan çıxartsınlar. Bu adamların fikri oydu görək arvad əhdinə düzmü çıxacaq. Elə ki, gördülər arvad mərd adamdı, ağlına, namusuna söz yoxdu, çıxıb getdilər. O gündən sonra qeybdən ona hər gecə bir qızıl göndərdilər. Arvad yatardı, sabah yuxudan duranda mütəkkəsinin altını qaldırıb görərdi ki, bir qızıl var. Arvad bu qızıllarnan bərli-bəzəkli bir ev tikdirdi ki, adam baxanda ağlı heyran qaldı.

Ay dolandı, il keçdi, naxırçı qayıdıb gəldi. Öz ev-eşiyinə baxıb məəttəl qaldı. Arvadından xəbər aldı ki, bu nə həngamədi, sən bunu nəynən tikdirdin? Arvad əhvalatı söylədi. Kişi gah bu işə inandı, gah da xofa düşdü.

Bir gün kişi bazara getdiyi yerdə qabağına bir küp qarısı çıxdı. Kişi gördü ki, bu qarı bir yazığın biridi, bel əyilib, diş tökülüb, üz qırışıb, tumanı cırıx, başmağı yırtıx. Kişi qarını götürüb gətirdi evə. Arvadına tapşırdı ki, qarıya bir az çörəkdən-çaydan versin.

Qarı bir altdan yuxarı baxıb gördü burda bir cah-cəlal var ki, adam heyran qalır. Qarı yağlı dilini işə salıb dedi:

- Ay nənən sənin qadanı alsın, sən nə yaxşı qızsan, gözəllik desən səndə, ağıl desən səndə, ev-eşik desən səndə, daha nə dərdin var?

Qarı arvadın o qədər qılığına girdi ki, durub gedəndə arvad dedi:

- Ay qarı nənə, mən də evdə hərdən yaman darıxıram, sən allah bizə tez-tez gəl, sənin sözün-söhbətin yaman xoşuma gəldi.

Qarının kürkünə birə düşmüşdü ki, ay gidi, bu kasıb naxırçının biriydi, bu cah-cəlalı hardan düzəldib, yəqin burda bir iş var, ölsəm də, qalsam da, gərək bu sirri öyrənəm.

Qarı bir əlinə əsa, bir əlinə də təsbeh alıb naxırçı evdən çıxanda getdi onlara. Naxırçının arvadı qarının altına döşək, böyrünə mütəkkə qoydu. Qarı bir az söhbətdən sonra dedi:

- A qızım, qarı nənən sənin ağrını alsın, demək ayıb olmasın, bu cahi-cəlalı hardan düzəldibsən?

Qarı arvadın qılığına girmişdi. Arvad da açıb hamısını söylədi.

Qarının könlündən keçirdi ki, bu qızıllardan ona da versinlər. Gördü yox, qızıl-zad verən olmadı. Ürəyində dedi: "Yaxşı, gör sənin başına nə iş gətirəcəm".

Qarı durub evdən çıxanda yolda naxırçıya rast gəldi.

Naxırçı dedi:

- Qarı nənə, evimiz-eşiyimiz xoşuna gəlirmi?

Qarı dedi:

- Oğul, mənim də başımın altına cavan oğlanlar gecədə bir qızıl qoysalar ondan da yaxşı evim olar.

Bu söz kişini yaman tutdu, dedi:

- Ay qarı nənə, nə oğlan, nə zad, bəs arvadım sənə demədi qeybdən hər gecə ona bir qızıl gəlir.

Qarı dedi:

- Ə, sən lap uşaqsan, adama da qeybdən qızıl gələr? Bəs elədi, niyə mənə də gəlmir?

Qarının fitnə-fəsadından sonra kişi düz gəldi evinə, arvadını qabağına salıb apardı bir quru dərəyə. Xəncəri sinəsinə soxub öldürdü, meyidi orda qoyub qayıtdı evə.

Bəli, kişi arvadını öldürüb getməkdə olsun, görək sonra nə oldu. Elə bu vaxt quru dərənin yanından bir tacirin dəvə karvanı keçirdi. Tacir baxıb gördü dərənin dibinnən bir su axır dum duru göz yaşı kimi, elə bil lap abikovsərdi. Tacir məəttəl qaldı ki, görəsən bu nə mö`cüzədi? Buralarda dodağa sürtməyə bir damcı su tapılmazdı, bəs indi bu su hardan gəlib?

Tacirin xurcununda üç-dörd dənə quru balıx varıydı. Tacir nökərlərə dedi:

- Ay uşaxlar, o quru balıxları bu suda təmiz suya çəkin gətirin yeyək.

Nökərlər balığı suya salan kimi hamısı dirildi, başladılar su yuxarı qaçmağa. Tacir bu işə lap məəttəl qaldı. Başladılar çay yuxarı balığın dalınca getməyə. Gethaget, gedib gördülər bu su bir gözəl arvad xaylağının sinəsinnən gəlir, özü də arvadın sinəsinə xəncər soxub öldürüblər. Tacir xəncəri çəkib çıxardan kimi arvad dirildi. Tacir nə qədər eləyirsə bu sirri öyrənsin, arvad heç nə demir.

Arvad bunlara qoşulub karvanın yanınca getdi. Yolda tacir arvaddan əl çəkmədi ki, gərək mənə gedəsən. Arvad tacirin əl çəkməyəcəyini görüb şəhərin girəcəyində kişini aldadıb qaçdı. Yolda bir qoca kişiyə rast gəldi. Gördü ki, qocanın iki yetimi var, onları da başına yığıb düzün ortasında ocax qalayıb isinirlər. Qız dedi:

- Ey qoca əmi, mənim heç kimim yoxdu, yolu azıb qalmışam tək, ya məni qızlığa götür, ya da yatmağa bir yer ver.

Qoca dedi:

- Mən belə bir adam göydə axtarırdım, yerdə əlimə düşüb, gəl elə sən mənim qızım ol, bu yetimlərə də bax, mənə də kömək elə.

Qız razı oldu. Qaldı qocanın yanında. Axşam oldu, yatmax vaxtı gələndə qız dedi:

- Ay dədəlik, bəs biz harda yatacayıx? Burda ev-eşik izi görükmür?

Qoca dedi:

- A qızım, bizim evimiz olsa burda nə gəzirdik, indi durub bu saat bir dəyə quracam, hamımız doluşub içində yatarıx.

Kişi bir dəyə qurdu, hamısı dəyəyə girib yatdılar.

Sabah açılan kimi qız durub başının altındakı bir qızılı kişiyə verib dedi:

- Bunu aparıb mənə bir dəst oğlan paltarı alarsan, özü də heç kimə deməzsən ki, mən qızam.

Qoca gedib bazardan bir dəst oğlan paltarı aldı. Qız paltarı geydi. O gündən hamı onu oğlan bildi.

Bu qalmağnan arvad düz qırx gün qaldı qocanın yanında. Hər gecə qızın başının altında bir qızıl peyda olurdu. Qız bu qızılların hamısını atalığına verib dedi:

- Ey atalığım, bu pullara burda bir yaxşı imarət tikdir.

Qoca qırx günün içində elə bir imarət tikdirdi ki, elə bil padşah evidi. Ev tikiləndən sonra hamısı ora köçüb keyf-damağnan günlərini keçirirdilər.

Bir gün hava çox istiydi, axşam üstü hamısı məhlədə uzanmışdılar. Birdən qoca dedi:

- Durun gedək evdə yatax, indicə yağış yağacax.

Qız dedi:

- Nədən bilirsən ki, yağış yağacax?

Qoca dedi:

- Qızım, mən yerin altını da bilirəm, üstünü də. Mən ulduzlara baxıb gələn il nə olacax onu da deyə bilərəm.

Qız dedi:

- Yaxşı, onda de görüm gələn il nə olacax?

Qoca dedi:

- Gələn il qıtlıx, qəhətlik olacax.

Qocanın söz ağzınnan qurtarmamış bir yağış yağdı ki, lap ucunnan tut göyə çıx. Tez durub hamısı evə doluşdular.

Qız elə həmin günün sabahı hər yerə car çəkdirdi ki, kimin nə qədər buğdası varsa gətirib artıx qiymətə satsın mənə. Camaat bu sözü eşidən kimi taxıllarını gətirib baha qiymətə qıza satdılar. Qız taxılların hamısını alıb doldurdu anbarlara.

Aradan bir il keçdi. Qocanın dediyi düz çıxdı. Şəhərdə bir aclıq oldu, bir aclıq oldu ki, az qalırdı adam adam əti yesin. O saat qız şəhərə adam saldırıb car çəkdirdi ki, gəlin filan yerə, ucuz qiymətə buğda satıram. Hər yerdən adamlar qarışqa kimi axıb gəldilər. Qız adamların çoxuna taxılı müfdə verib yola salırdı.

Qız baxıb gördü ki, köhnə əri naxırçı, xəncəri sinəsindən çıxardan tacir də bu gələnlərin içindədi. Arvad oğlan paltarındaydı, onu tanımadılar. Arvad hamıya buğda verib yola salannan sonra tacirnən naxırçını evinə apardı, özlərinə də dedi ki:

- Bu gecə mənə qonaxsınız.

Kişilər razı oldular. Axşam qız bunlara bir yaxşı qonaxlıq elədi. Çörək, xörək yeyilib qurtarandan sonra dedi:

- Qonax qardaşlar, mən görürəm ki, gecə uzun, vaxt da çoxdu, gəlsənə bir az söhbət eləyəsiniz, qulax asax?

Naxırçı dedi:

- Lap yaxşı olar.

Tacir dedi:

- Onda nədən başlayaq?

Arvad dedi:

- Elə hərə öz başına gələn əhvalatdan birini danışsa yaxşıdır.

Əvvəlcə naxırçı arvadıynan evlənib axırda onu öldürməyinnən danışdı. Sonra tacir, həmən arvadın sinəsinnən xəncəri çəkib çıxartdığını, arvadın sonra qaçmağını söylədi.

Arvad dedi:

- Indi o qızı görsəniz tanıyarsınızmı?

Kişilərin ikisi də dedi ki, tanıyarıx.

Arvad keçib o biri evdə paltarını dəyişib gəldi bunların yanına. Naxırçıynan tacir qaldılar mat-məəttəl. Əvvəlcə öz gözlərinə inanmadılar, sonra gördülər elə bu həmən arvadın özüdü.

Arvad bütün başına gələn əhvalatların hamısını bir-bir söylədi. Naxırçı elədiyi işə peşiman olub başını saldı aşağı.

Arvad tacirə çoxlu buğda bağışlayıb yola saldı. Təzədən kəbin kəsdirib, toy eləyib naxırçıya ərə getdi. Öz vilayətlərinə gedib, ömür sürüb gün keçirdilər.

O V Ç U P I R I M I N N A Ğ I L I

Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər köhnə hamam içində. Hamamçının tası yox, baltaçının baltası, burdan bir tazı keçdi, onun da xaltası yox. Qarışqa şıllaq atdı, dəvənin budu batdı. Milçək mindik kür keçdik, yabaynan doğa içdik. Günlərin bir günündə, Məmməd Nəsir tinində, biri varıydı, biri yoxuydu, bir ovçu Pirim varıydı. Bunun işi-peşəsi sabahdan axşama kimi dağda-daşda, meşədə ovçuluq eləmək idi.

Yenə bir gün ovçu Pirim şikara gedirdi. Yolda qabağına bir ceyran çıxdı, tez oxu çilləyə qoyub ceyranı vurdu, gətirib evdə dərisini soyub, ətini şişlərə taxıb kabab eləmək istədi. Ovçu Pirim elə ki, şişləri odun üstünə qoydu, bir də gördü ki, ətin hər tikəsi bir ceyran olub başladılar qaçmağa. Pirim bu işə lap məəttəl qaldı. Əllərinən gözlərini ovuşdururdu ki, görsün bu yuxudu, ya gerçək. Gördü ki, yox balam, elə doğrudu. Aradan bir neçə gün keçmişdi, ovçu Pirim fikirləşdi ki, ceyranın dərisi çox qəşəngdi, aparım bunu padşaha bağışlayım. Pirim dərini gətirib padşaha verdi. Vəzir-vəkil yığılıb gördülər ki, bu elə bir dəridi ki, heç qiyməti yoxdu. Vəzirin ovçu Pirimə paxıllığı tutdu. Onun başını batırmaq istədi. Odur ki, dedi:

- Qibleyi-aləm, bu cür gözəl dərini salmağa gözəl də bir imarət lazımdı. Özü də fil sümüyündən, o da ki, səndə yoxdu, əvvəlcə fil sümüyündən bir imarət tikdir, sonra ceyran dərisini də sal evə.

Padşah dedi:

- Vəzir, mən bu qədər fil sümüyünü hardan tapım?

Vəzir dedi:

- Ceyranın dərisini gətirən fil sümüyünü də gətirə bilər. Ovçu Pirimi göndər tapıb gətirsin.

Padşah o saat ovçu Pirimi çağırtırıb əmr elədi ki, yeddi günün müddətinə mənə fil sümüyündən bir imarət tikdirməsən boynunu vurduracağam. Yazıx Pirim kor-peşiman qayıtdı evə. Öz-özünə dedi: "Haqqı olur, mən niyə ceyran dərisini aparırdım ki, padşah da mənə belə deyirdi. Özüm öz əlimnən başıma bəla açdım". Bir az götür-qoydan sonra bu qərara gəldi ki, baş götürüb bu vilayətdən ilim-ilim itsin. Buxçasına bir az çörək qoyub, oxunu, yayını da əlinə alıb başladı getməyə. Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir dağın dibinə çatdı. Gördü ki, uzaxda bir qəşəng ağ ilanla bir bədheybət qara ilan biri-birinə sarmaşıb. Qara ilan ağ ilanı az qalır ki, boğsun. Ovçu Pirimin ağ ilana həm yazığı gəldi, həm də qeyrəti götürmədi. Oxu çilləyə qoyub qara ilanı nişan aldı. Amma bədbəxtlikdən ox ağ ilana dəyib, onu bərk yaraladı. Qara ilan qaçdı. Ağ ilanın qışqırığına bütün ilanlar tökülüb gəldilər . Demə ağ ilan ilanlar padşahının qızı imiş. Odur ki, padşah əmr elədi ki, qızımı vuranı yerdə də olsa göydə də olsa tez tapıb mənim hüzuruma gətirin! Bəli, o saat ilanlar düzü-dünyanı axtarıb ovçu Pirimi tapdılar. Qabaxlarına salıb ilanlar padşahının imarətinin qapısının ağzınatan qovdular. Ovçu Pirim çox bikeyf idi. Bu ilanlardan biri yolda Pirimə dedi:

Ey ovçu, niyə bikeyf olursan. Öz əməlinin cəzasıdı çəkirsən.

Pirim dedi:

Ey ilan, mən ağ ilana yaxşılıq eləmək istəyirdim, gəldi tərsinə çıxdı, ona görə bikeyfəm.

Ilan dedi:

Pirim qağa, ilanlar padşahı bilsə ki bu iş səni namusuna toxunub, onda sənin günahından keçər.

Pirim baxdı ki, böyük bir dağın altından yol gedir, gethaget, düz gəlib çıxdı şah olan yerə. Gördü burda bir cahi-cəlal var ki, heç deyiləsi deyil. Hər yer qızıldan, gümüşdən, lə`li-

cavahiratdandır. Yuxarıda qızıl taxtın üstündə yekə bir ilan oturub, başında da lə`l-cavahirdə bir tacı var ki, adam baxanda gözü qamaşır. Demə bu ilanlar padşahı imiş. Bunun hər tərəfindən rəngbərəng, irili-xırdalı ilanlar tim-tik qalxıb az qalırlar adama yesinlər, bir xışıltı, fışıltı var ki, gəl görəsən. Ovçu Pirim qorxusundan tərpənə bilmirdi, ayağının altında o qədər ilan var idi ki, sayı-hesabı yox idi.

Ovçu Pirimin yaraladığı ağ ilan da qapının yanında durmuşdu. Ilan dilə gəlib dedi:

- Ey ovçu Pirim, mən bilirəm, sən məni qəsdən vurmadın, qara ilanı vurmaq istəyirdin, amma ox mənə dəydi. Indi ilanlar padşahıynan danışıb qurtarandan sonra desə ki, məndən nə istəyirsən, onda qorxma, de ki, iki şey istəyirəm, biri yaşıl qaşlı üzüyü mənə ver, ikincisi də ağzıma tüpür. Atam nə qədər qəzəblənsə də qorxma, elə o şeyləri istə.

Ilanlar padşahı başını qaldırıb dedi:

- Ey oğul, sən nə cür`ətlə mənim qızımı vurubsan?

Ovçu Pirim dedi:

- Ey ilanlar padşahı, mən sənin qızını qəsdən vurmadım. Gördüm ki, bir qara ilan onun boynuna sarmaşıb boğmaq istəyir. Namus mənə güc elədi, bu kifirlikdə bədheybət qara erkək ilan belə göyçək ağ ilanla niyə oynasın. Odur ki mən o qara ilanı nişan aldım, amma bədbəxtlikdən ox ağ ilana dəydi.

Padşah bu sözü eşidən kimi dedi:

- Ovçu Pirim, mənim qızımın namusunu çəkdiyinə görə səni öldürməyəcəyəm. Əvəzində məndən nə istəyirsən de verim.

Ovçu Pirim dedi:

- Mənim taxsırım çoxdu, ölmək istəyirəm padşah sah olsun, elə ağzıma tüpür, qoy ölüm gedim, onda mənə yaxşılıq eləmiş olarsan.

Padşah dedi:

- Ay ovçu, axı mənim tüpürcəyim zəhərlidi.

Sonra padşah bir ilanı çağırıb dedi:

- Tüpür bu daşın üstünə, ovçu görsün.

Ilan daşın üstünə tüpürən kimi daş zəhərin gücündən parça-parça oldu.

Padşah dedi:

- Ovçu, gördünmü zəhərin gücünü?

Ovçu Pirim dedi:

- Mən, razıyam, tüpür.

Padşah əlacsız qalıb ovçu Pirimin ağzına tüpürdü.

Padşah dedi:

- Ovçu, məndən daha nə istəyirsən?

Pirim dedi:

- Padşah sağ olsun, bir şey də istəyərdim, amma utanıram deməyə.

Ilan dedi:

- Utanma, de!

Pirim dedi:

- Qorxuram verməyəsən, and iç ki, anamın südü haqqı verəcəm, sonra deyim.

Ilan gördü ki, Pirim əl çəkmir, odu ki, anasının südünə and içdi.

Pirim dedi:

Sənin iki üzüyün var, biri yaşıl qaşlı, o biri də sarı. Mən o yaşıl qaşlını istəyirəm.

Padşah bu sözü eşidən kimi tim-tik ayağa qalxıb gözləri çıxdı kəlləsinə, dili bir qarış çıxdı eşiyə, ağzından köpük daşdandı, qəzəblənib dedi:

- De görüm, sənə kim öyrətdi bu sirri?!

Pirim dedi:

- Heç kim, özüm.

Ilan and içmişdi, əlacı kəsildi, götürüb üzüyü verdi. Pirim üzüyü barmağına taxandan sonra dedi:

- Ey padşah, bir üzük nədi ki, onu vermək istəmirdin?

Ilan dedi:

- Pirim, bil, agah ol ki, mənim tüpürcəyim xalis sehirdi. Kimin ağzına tüpürsəm, o cəmi quşların, heyvanların, otların dilin biləcək, bu üzügü də kim barmağına taxsa, dünyada nə istəsə o saat yanında hazır olacaq. Bax ona görə də mən bunu vermək istəmirdim.

Ovçu Pirim padşahın yanından çıxan kimi gördü ki, bütün otların, çiçəklərin, ağacların, heyvanların, ilanların hamısının dilini bilir. Ovçu Pirimi görən kimi ilanlar yerin deşiyindən başlarını çıxarıb dedilər:

- Ovçu Pirim, burda qırx küp qızıl var, mən onun üstündə yatıb qoruyuram, istəyirsən gedim, gəl qızılları apar.

Pirim ilanların köməyilə yerin altında nə qədər qızıl varıydı, hamısının yerini öyrəndi. Odur ki, bu qızıllardan xeyli çıxarıb özüynən apardı. Özü də yol başladı Hindistana sarı getməyə. Qabağına böyük bir göl çıxdı, öyrən di ki, bütün fillər gəlib bu göldən su içib, sonra da çimirlər. Ovçu Pirim ilanlar padşahına ismarış göndərdi ki, mən nə cür eləyim ki, bu filləri öldürüb sümüklərini aparım. Ilanlar padşahı öz vəzirini köməyə göndərdi. Vəzir dedi:

- Ovçu Pirim, gərək biz bu gölü balnan dolduraq, fillər gəlib gölə girəndə bala batıb qalsınlar orda. Sonra da bütün ilanlara əmr elərəm fillərin ətini yeyərlər, qalar sümükləri, hər ilan da bir sümük gətirər sabağatan sənə fil sümüyündən bir imarət tikərlər.

Bəli, ovçu Pirim yolda aldığı qızılları götürüb getdi bazara, nə qədər bal satan vardısa hamısının pulunu verib yolladı ki, aparıb balı tökərsiniz filan gölə. Bir günün içində gölə o qədər bal tökdülər ki, göl palçıq kimi oldu. Fillər gəlib çimmək istəyəndə hamısı yapışıb qaldılar. Ilanlar padşahının vəziri əmr elədi bütün dünyadakı ilanların hamısı tökülüb gəldi. Filləri çalıb, öldürdülər, ətlərini yeyib, hərəsi də bir sümük gətirdi. Sabaha kimi fil sümüyündən gözəl bir imarət tikdilər.

Ovçu Pirim gördü ki, ev hazırdı, özü də padşaha verdiyi və`d tamamdı. Tez padşahın yanına gəlib dedi:

- Padşah sağ olsun, fil sümüyündən ev hazırdı.

Padşah baxıb gördü ki, doğrudan elə bir imarətdi ki, dünyanın heç bir yerində belə bir imarət yoxdu. Imarət o qədər hündürdü ki, dibi yerdən nəm çəkir, başı bulutdan. Vəzir ovçu Pirimin sağ gəldiyini görüb ürəyində bir az da kini artdı. Padşah təzə evinə köçüb vəzirinə dedi:

- Vəzir, indi mənim çatışmayan bir şeyim var, yoxsa, yox?

Vəzir dedi:

- Qibleyi-aləm, belə bir gözəl evə gözəl də bir qız lazımdı ki, o da Çin padşahının qızıdı. O qız da bu evdə olsa, onda sənin hər şeyin yerində olar.

Padşah təzədən ovçu Pirimi çağırıb əmr elədi ki, indi də gərək Çin padşahının qızını gedib gətirəsən. Yazıx Pirim əlacsız qayıtdı evinə. Bir az çörəkdən-zaddan götürüb başladı yol getməyin binasın qoymağa. Az getdi, çox, getdi, iynə yarım yol getdi. Yolda qabağına bir kişi çıxdı. Gördü ki, bir zorba adamdı. Elə bil dövdü. Hər ayağın bir dəyirman daşı, biri də boğazında. Bu kişi quş kimi cəlddi. Heç elə bil ki, bu dəyirman daşları bunun ayağında deyil. Ovçu Pirim kişiyə yaxınlaşıb dedi:

- Ay qardaş, bu dəyirman daşlarını niyə ayaxlarına keçiribsən?

Kişi dedi:

Ay ovçu Pirim, gəl məni də özünə yoldaş elə dərdimi sənə söyləyəcəm, həmi də sənnən hara desən gedərəm.

Ovçu Pirim razı oldu. Kişi dedi:

- Mən bir padşahın pəhlivanıydım. Özüm də elə bərk qaçardım ki, dünyada heç kim mənə çata bilməzdi. Bir gün padşah məni çağırıb bir kağız verdi ki, gərək bunu aparıb Dərgah padşahın vəzirinə verəsən. Dərgah padşahın torpağına yeddi gücnən getmək olardı. Mən bir günə gedib qayıtdım. Gələndə yolda gördüm ki, arvadım padşahın qara quluynan qucaxlaşıb bir ağacın dibində

yatıblar. Qılıncı çəkib qara qulu öldürdüm. Arvadım qaçıb meşədə gizləndi. Başladım arvadımı axtarmağa, düz üç gün axtardım, demə arvad gəlib padşaha xəbər verib ki, sənin pəhlivanın çoxdan qayıdıb gəlib, amma padşahın yanına gəlmək istəmir. Odu ki, padşah qəzəblənib əmr elədi ki, mənim ayaxlarıma, boynuma dəyirman daşı keçirsinlər. O günnən mənim ayaxlarıma, boynuma bu daşları keçiriblər ki, heç yerə qaça bilmiyim.

Kişi öz dərdini danışıb qurtarandan sonra ovçu Pirim də öz başına gələnləri danışdı. Gəlib çıxdılar bir çayın qırağına. Ovçu Pirimnən ayaxlarında dəyirman daşı olan kişi meşədən bir ağac qırıb çayın üstünə uzatdılar ki, o tərəfə keçsinlər. Bir də gördülər ki, bir yekə qənətli qarışqa, yanında öz qoşunnarı gəlib ovçu Pirimə dedi:

- Ovçu Pirim, mən qarışqaların padşahıyam. Mənim qoşunlarım çaydan o tərəf, bu tərəfə keçəndə suda boğulub ölürdülər. Indi sən bu körpünü düzəltdin, mənim qoşunlarım çaydan rahat keçib gedəcəklər. Biz səndən çox razıyıq. Nə işin varsa de, onu yerinə yetirək. Qarışqalar padşahının buynuzları, qənədi, həmi də tükləri var idi. Qənədinin ucundan bir azca qopardıb ovçu Pirimə verdi ki, nə vaxt dara düşsən bunu oda tutarsan. Onda bütün qarışqalar sənə köməyə gələr.

Bəli, bu iki yoldaş genə yol başlıyıb getməyin binasını qoydular. Az getdilər, çox getdilər, dərələr keçib dağlar aşdılar, ta ki, gəlib çatdılar Çin padşahının torpağına. Gedib padşahın elçi daşının üstündə oturdular. O saat xidmətçilər padşaha xəbər apardılar ki, bəs iki nəfər elçi daşının üstündə oturub.

Padşah əmr elədi ki:

- Gedin onları gətirin mənim hüzuruma.

Xidmətçilər gəlib ovçu Pirimi apardılar padşahın yanına.

Padşah dedi:

- Kimsən? Nəyə gəlibsən?

Ovçu Pirim dedi:

Mən Ovçu adamam, gəlmişəm sənin qızını alıb aparam.

Padşah dedi:

- Mənim üç şərtim var. Əgər onları yerinə yetirsən qızımı sənə verərəm. Yox, şərtləri yerinə yetirə bilməsən, onda səni öldürtdürəcəyəm.

Ovçu Pirim dedi:

- Mən razıyam, de!

Padşah dedi:

- Birinci şərtim budu ki, 12 çuvalda 12 gilə şeyi bir birinə qatıb 12 ağaclıq bir yerə səpəsən, özü də bir saatda onların hamısını yığıb ayırd eliyəsən.

Ikinci şərtim odu ki, qızım hər qoluna bir dəyirman daşı taxıb qaçacaq, sən də hər qoluna bir dəyirman daşı taxıb gərək qızımnan ötüşəsən, onu ötə bilsən, onda qızı sənə verərəm.

Üçüncü şərtim də odu ki, ilanlar padşahının oğlunun ağzında oynatdığı yekə lə`li gərək mənə gətirəsən.

Ovçu Pirim padşahın şərtlərinə razı oldu.

Əvvəl-əvvəl qarışqalar padşahının verdiyi qənədi oda tutub bütün qarışqaları yanına yığdı. Bir saatın içində qarışqalar on iki gilə şeyi 12 ağaclıqdan yığıb hamısını ayırd elədilər.

Padşah gördü ki, Pirim birinci şərti yerinə yetirdi.

Bu dəfə padşahın qızı hər qolunda bir dəyirman daşı çıxdı meydana. Qız doğrudan gözəl idi. Adam üzünə baxmağnan doymaq bilmirdi. Qələm qaşlı, uzun saçlı, incə belli, şirin dilli, ağ üzlü, qara gözlü, hündür boylu pəhlivan kimi bir qız idi. Ovçu Pirim gördü ki, yox balam, deyəsən qıznan bacarmayacaq, odu ki, fənd qurub dedi:

- Padşah sağ olsun, bu mənim kiçik qardaşımdı, özü də həm ayaqlarında, həm də boynunda dəyirman daşı var. Elə qoy qızın əvvəlcə bunnan ötüşsün, əgər bunu ötə bilsə, onda mənnən ötüşər.

Qız razı oldu. Başladılar ötüşməyə. Ayaqlarında dəyirman daşı olan pəhlivan qızı ötüb keçdi. Pirim dedi:

- Padşah, sənin qızın mənim kiçik qardaşımı ötə bilmədi, meydana girsəm məni heç ötə bilməz.

Padşah ovçu Pirimin sözünə razı oldu. Padşahın üçüncü şərti çox çətin idi. Ovçu Pirim ilanların dilini bilirdi. Odu ki, onları çağırıb kömək istədi. Ilanlar padşahının vəziri dedi:

- O lə`l ki, sənə lazımdı, o qara ilanların padşahının oğlundadı. O ilan həmişə gecələr çıxıb qaranlıqda lə`li göyə atıb tutur, ağzında oynadır. Onu almaq çox çətindi. Gərək biz gedib dağın dalında gizlənək, gecə qara ilan lə`li atıb tutanda, sən oxnan ilanı vur, biz lə`li götürək.

Ovçu Pirim ilanlarnan o qədər gözlədi ki, gecə qaranlıq düşdü. Qara ilan dilinin altında gizlətdiyi lə`li göyə atıb tutanda ovçu Pirim ilanı oxnan vurdu, tez ağ ilanlar lə`li gətirib Pirimə verdilər. Elə bu vaxt bir də gördülər bir nərilti, xışıltı gəlir ki, elə bil yer-göy lərzəyə gəlir; hər tərəfdən qara ilanların qoşunu hücum elədilər. Qırx gün, qırx gecə ilanların davası oldu. Bu davada qarışqalar da ovçu Pirimə kömək eləyib qara ilanların yaralarına girib qanları sorurdular. Axırda da gördülər ki, heç biri-birinə bata bilmir. Odu ki, çəkilib hərə öz yerinə getdi. Ovçu Pirim də lə`li aparıb Çin padşahına verdi.

Padşah gördü ki, Pirim bütün şərtləri yerinə yetirdi. Əlacsız qalıb qızını verdi ona. Ovçu Pirim qızı götürüb gəldi öz padşahının yanına. Yolda gələndə ovçu Pirim bütün başına gələn əhvalatın hamısını qıza söylədi. Qız dedi:

- Ay ovçu Pirim, məni ki, padşaha aparırsan, mən ona getməyəcəyəm. Gəl onu öldürək, canımız qurtarsın. Sonra sənə gedim.

Ovçu Pirim dedi:

- Padşahı necə öldürək?

Qız dedi:

- O sənin işin deyil, mən özüm onu öldürərəm.

Bəli, padşah gördü ki, ovçu Pirim qızı gətirib, istədi qıza yaxınlaşa, qız dedi:

- Yol gəlmişəm, yorulmuşam, mənə yeddi gün möhlət ver, sonra evlənək.

Padşah razı oldu. Qızı aparıb fil sümüyündən tikilmiş evə qoydular. Qız elə həmən gün xəlvətcə bir kənkan tapıb ev qapısının içində dərin bir quyu qazdırdı. Üstünü də həsirnən örtdü. Özü də bu qapıdan heç kimi qoymurdu ki, bura padşahındı. Yeddinci gün padşah bəzənib, keçinib qızın yanına gəldi. Qız qapını açıb padşahı həmən qapıdan apardı. Elə padşah ayağını içəri qoyan kimi guppultuynan getdi quyunun tərkinə. Sabah açıldı, gördülər padşahdan bir xəbər çıxmadı. Axırda vəzir durub gəldi qızın yanına ki, bəs padşah hardadı? Qız vəziri də həmən qapıdan qəbul elədi. O da ayağını içəri qoyan kimi gurubbaz getdi düz quyunun dibinə. Qız tez adam göndərib ovçu Pirimi çağırdı yanına. Ovçu Pirim Çin padşahının qızıynan evlənib başladılar keyf-damağnan gün keçirməyə.

Ovçu Pirim barmağındakı üzüyə baxıb ürəyindən nə keçirsəydi, o saat o şey qeybdən hazır olurdu. Pirim üzüyə baxıb padşahın imarətindən də qəşəng imarət istədi. O saat nəriltiynən-gurultuynan bir kərpici qızıl, bir kərpici gümüşdən elə bir saray tikildi ki, dünyada heç bir padşahın belə imarəti yox idi. Içində bir cahi-cəlal var idi ki, baxanda adamın ağlı başından çıxırdı, bir-birinin içindən qırx otaq varıydı ki, hamısı qızıl, gümüş, lə`l, cavahirat, yaqut, zəvərcat, mirvariynən doluydu.

Günlərin bir günü Pirimin köhnə peşəsi genə yadına düşdü, bir ova çıxmaq istədi. Odu ki, arvadına dedi:

- Arvad, ürəyim yaman ova çıxmaq istəyir, bugün oxu götürüb meşəyə gedəcəyəm. Arvad bu sözü eşidən kimi iki ayağını bir başmağa diriyib elə nıx dedi ki, gərək mən də gedəm. Pirim nə qədər dəlil dəlalət elədi ki, ay arvad, sənin bir uşaq qucağında, biri də qarnında, bu halnan hara gedirsən, meşədə sənin nə itin azıb? Arvad əl çəkmədi ki, çəkmədi. Axırda bir at özü mindi, qarnında bir balası, yanında da qulunu olan bir at da arvadına verdi ki, heç olmasa ağır olsun, yolda yıxılıb eləməsin. Arvad balaca oğlunu da dalına şəlləyib sıçrayıb mindi ata, başladılar yol getməyə. Pirim qabaq da, arvad da dalca gedirdi. Birdən Pirimin atı daldakı ata dedi:

- Ay madyan, niyə geridə qalırsan, gəlib mənə çata bilmirsən?

Madyan cavab verdi ki:

- Görmürsənmi, bir bala mənim qarnımda, bir gözüm də qalıb qulunda, üstümdə də bir uşaqnan bir arvad, qarnında da bir bala. Bu boyda yüknən sənə necə çatım?

Ovçu Pirim atların bu danışığını eşidib bərkdən güldü. Arvad ərinin güldüyünü görüb dirəndi ki:

- De görüm nə olub ki, öz-özünə gülürsən? Pirim istədi sirri açıb desin, bir də gördü ki, atı dayandı, irəli baxıb gördü ki, bir ilan tim-tik qalxıb dedi:

- Ey ovçu Pirim, sən onu bil ki, bu sirri açsan öləcəksən, nə badə deyəsən!

Pirim bu sözdən sonra arvadına heç nə demədi. Arvad mindi cin atına ki, sən məni istəmirsən, istəsəydin gülməyinin səbəbini deyərdin. Indi ki, belə oldu, daha mən səndə oturmayacam, qayıdıb gedəcəyəm atam evinə.

Arvad acıq eləyib düz qayıtdı evə. Pirim nə qədər elədi arvadı qaytara bilmədi.

Arvad qabaxda, Pirim də dalınca kor-peşiman geri qayıdırdılar. Pirim öz-özünə fikirləşirdi ki, mən neyləyim, arvada bu sirri deyimmi, yoxsa yox? Bu hində Pirim gördü ki, yolda bir xoruz bir toyuğu yanına çağırır, amma toyuq gəlmək istəmir, xoruz bir də çağırdı, toyuq bu dəfə də gəlmədi, başladı qaçmağa. Xoruz hirslənib toyuğun dalınca dedi:

- Kül sənin başına, elə bil səndən savayı dünyada toyux yoxdu, sən olma o biri olsun, gəlmirsən cəhənnəmə gəl, mən də ovçu Pirim deyiləm ki, arvadın dalınca düşüb yalvaram.

Pirim bu sözləri eşidən kimi dedi:

- Xoruz qardaş, bəs mən neyləyim ki, arvad qayıtsın?

Xoruz dedi:

- Heç nə, evə gedən kimi yıx yerə, bir-iki əngəzdə, sonra da deynən ki, hara gedirsən get.

Xoruzun sözü Pirimin ağlına batdı, evə gedən kimi elə də elədi, arvadı döyüb qovladı. Arvad bir az eşikdə qaranlıqda qalıb, sonra kor-peşiman qayıtdı evə, dedi:

- Ay Pirim, daha səndən heç bir sirr soruşmayacam. Bəlkə elə sirdi ki, mənə deyiləsi deyil.

O gündən arvad Pirimlə bir az mehriban dolandı. Arada beş-on gün keçdi. Arvad genə sımsırığını sallayıb başladı giley-güzar eləməyə ki, sən məni özünə arvad hesab eləsəydin, sirrini də mənə deyərdin. Arvad o qədər ah-zar eləyib Ovçu Pirimin baş-beynini apardı ki, axırda Pirim cana doyub sirrini açıb arvada söylədi. Sonra dedi:

- Arvad onu da bil ki, sirri sənə söylədiyimə görə məni bir də görə bilməyəcəksən, vəhşi heyvanlar, qurdlar-quşlar məni yeyib öldürəcəklər.

Arvad dedi:

- A kişi, elə şeydən niyə qorxursan, bir müddət yerin altından lağım atıb orda oturarsan, ara seyingiyənnən sonra çıxarsan.

Pirim dedi:

- Arvad, bu olan şey deyil, mən gedib ov ovlamalıyam.

Ovçu Pirim oxunu, yayını da götürüb getdi meşəyə tərəf. Gördü ki, bir sürü canavar buna sarı gəlir. Pirim baxdı ki, yaxında bir çoban qoyun otarır, özünü verdi çobanın yanına, əhvalatı söyləyib ondan kömək istədi. Çobanın on-on beş iti varıydı, hər biri əjdaha kimi. Çoban dedi:

- Qardaş, qorxma, itləri salarıq canavarların canına, hamısını boğub öldürərlər.

Bəli, bir də gördülər ki, canavarların sürüsünün ağzı açıldı, elə bil qoşun gəlir. Çoban itlərə kıs vurub saldı canavarların üstünə. Bir tərəfdən itlər, bir tərəfdən də çobanla Pirim canavarlarnan başladılar vuruşmağa, düz sabah açılana kimi vuruşdular. Canavarlar o qədər çox idilər ki, qırmağnan qurtarmaq olmurdu. Çobanın itlərinin hamısı şilküt olub taqətdən düşdülər. Yazıq itlər neyləsin, onlar on-onbeş idi, canavarlar minnən də çox. Çoban gördü ki, iş işdən keçib, Pirimi çadırın altında gizlətdi. Amma bu da Pirimi ölümdən qurtara bilmədi. Canavarlar Pirimi parça-parça elədilər. Ovçu Pirimin arvadı bu əhvalatı eşidib çox peşiman oldu.

Nağıl tamama yetdi, camaat da durub evlərinə getdi.

Göydən üç alma düşdü, birini nağıl söyləyən yedi, birini kəsin siz yeyin, birini də yolda Pirimin atının qabağına çıxan ilannan xoruz yarı bölüb yesinlər.

Mən sağ, siz salamat, mən yüz yaşıyım, siz iki əlli, hansı çoxdu siz götürün, yerdə qalanı mənim.

O Ğ L A N L A N U R A N I K I Ş I

Badi-badi giriftar, hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin budu batdı; hamamçının tası yox, baltaçının baltası yox, orda bir tazı gördüm, onun da xaltası yox.

Biri var idi, biri yox idi, bir tacir var idi. Bu tacir dəryanın üzündə iki otaq tikib, gəlib-gedən tacirlərin var-yoxlarını əlindən alır, özlərini də dəryaya batırırdı. Belə-belə bu tacir o qədər varlanmışdı ki, heç bir padşah onunla varda bəhsə girə bilməzdi. Bu tacirin bircə dostu var idi, həmişə onunla bir yerdə oturub-durardı. Bir gün tacirin dostu xəstələnib ölüm yatağına düşdü, oğlunu yanına çağırdı, vəsiyyət eləyib dedi:

- Oğul, sənə bir neçə vəsiyyətim var, yaxşı qulaq as, yadında saxla. Birinci vəsiyyətim budur ki, özündən böyük adamın sözünə bax, nə desə qulaq as. Ikinci vəsiyyətim, bir səfərə gedəcəksən, dağın başında bir bulağa rast gələcəksən. O bulağın başında su iç, yatma. Üçüncü vəsiyyətim, sənə borcu olan adamın evində yatma. Çalış borcunu tez al; borclu da qalma. Oğul, vəsiyyətlərimi yadından çıxartma.

Kişi sözünü tamama yetirən kimi canını tapşırdı oğluna. Oğlan dədəsini mafi-qaydaynan basdırdı, bir müddət ona yas saxladı. Bir dəfə oğlan dedi:

- Dədəmin filankəsdə borcu var, gedim alım.

Bəli, oğlan yol tədarükü görüb yola düşdü. Az getdi, çox dayandı, çox getdi, az dayandı, gedib bir nurani kişiyə rast gəldi. Nurani kişi ondan soruşdu:

- Oğul, hara belə?

Oğlan dedi:

- Dədəmin filankəsdə borcu var, gedirəm onu almağa.

Nurani kişi dedi:

- Mən də sənə yoldaş.

Bunlar yola düşüb, gethaget, bir dağın başına çatdılar. Baxdılar ki, burda bir gözəl bulaq var. Nurani kişi dedi:

- Bu bulaq çox qəşəng bulaqdı. Bunun qırağında çörək yeyib, su içib, bir az yataq.

Oğlan dədəsinin vəsiyyətlərini nurani kişiyə söylədi. Nurani kişi dedi:

- Dədən vəsiyyət eləyib ki, özündən böyüyün sözünə bax! Baxmasan ziyan çəkərsən.

Oğlan baxdı ki, nurani kişi düz deyir. Onlar bulağın başında uzandılar. Oğlan o saat yuxuya getdi. Amma nurani kişi yatmayıb ayıq qaldı. Qoca baxdı, gördü bulağın gözündən bir ilan çıxdı, oğlana tərəf gəlib onu vurmaq istədi. Kişi o saat yerdən qalxıb ilanı öldürdü. Oğlan durub ilanı görən kimi ürəyi keçdi. Hannan-hana özünə gəlib kişidən bu əhvalatı soruşdu. Kişi dedi:

- Hələ gəl, sonra biləcəksən.

Bunlar yenə yola düşüb getdilər. Axır gəlib bir şəhərə çıxdılar. Burada bir dükançıya rast gəlib dedilər:

- Dükançı qardaş, allah qonağıyıq.

Dükançı bunları qonaq saxlayıb, çox hörmət elədi. Səhər açıldı, padşah adından nurani kişini barigaha çağırdılar. Nurani kişi oğlanı da apardı.

Padşahın bir qızı da var idi. Nə sirr idisə, hər kəsə verirdilər, həmin gecə oğlan ölürdü.

Padşah qızını oğlana vermək istədi, dedi:

- Qızımı oğluna verəcəyəm.

Nurani kişi razı oldu. Oğlan razı olmayıb dedi:

- Mən padşah qızını almıram, deyir, onu alan ölür.

Nurani kişi dedi:

- Axı, dədən deyib, böyüyün sözünə qulaq as.

Oğlan bir söz demədi. Kəbin kəsildi. Padşah qızına qırx gün, qırx gecə toy edib, oğlana verdi. Gəlin gələn gecə nurani kişi dedi:

- Mən nə cür desəm, sən gəlinlə o cür yatarsan. Al bu dəsmalı, açıb baxmazsan. Gəlin gələndə bir köz dolu manqal istərsən. Qızı soyundurub manqalın havasına verərsən. Bu dəsmalı da atarsan közün üstündə yanar. Qızın yanından əl çəkməzsən, özündən gedəcəkdi. Sonra bax gör manqalda kömürün üstünə nə düşübsə onu götür, gətir mənə ver. Qorxma, ölməyəcəksən.

Bəli, oğlan qız olan otağa girdi. Bir köz dolu manqal istədi. Dəsmalı közün üstünə atdı. Qızı da tamam soyundurub manqaldan çıxan buğa, istiyə verdi. Bir zaman gördü ki, qızın ürəyi keçdi. Qızı birtəhər özünə gətirib baxdı ki, manqalın üstündə bir qara şey var. Onu götürüb gətirdi, nurani kişiyə verdi. Nurani kişi alıb baxdı dedi:

- Get, padşah qızı sənin arvadındı, kef elə, daha ölməzsən.

Oğlan qızın yanına gəldi, qızın üzündən öpdü, başladılar keflə yaşamağa.

Padşaha xəbər getdi ki, bəs oğlan ölmədi. Padşah çox şad olub, təzədən qırx gün; qırx gecə toy elədi.

Oğlan kefdə-damaqda olub, bir neçə vaxt nurani kişini və atasının borcunu yaddan çıxartdı. Amma bir gün o nurani kişiyə qoşulub, dəniz üzündə ev tikib, evlər yıxan tacirin yanına getdilər. Tacir oğlanı tanıyıb, onu gecə dəryaya salıb öldürmək fikrinə düşdü. Gecə oldu, oğlanın yerini ayrı saldılar. Nurani kişi ayrı yatmayıb onunla bir yerdə yatdı, tacirin oğlunu da özü ilə bir yerdə yatırtdı, dedi:

- Ay tacir, çox evlər yıxmısan, sənin də evini mən yıxacağam.

Nurani kişi gecənin bir aləmində oğlan ilə tacirin oğlunun yerini dəyişdi. Bəli, gecə yarı tacir yerdən qalxıb, yavaş-yavaş oğlan yatan yerə gəldi, öz oğlunu o biri oğlan hesab edib, dəryaya tulladı. Öz oğlu ləpələr arasında çapalayıb, öldü. Səhər tezdən nurani kişi yuxudan ayılıb oğlanı durğuzub dedi:

- Tacirdən dədənin borcunu istə.

Oğlan gəlib, tacirdən dədəsinin borcunu istədi. Tacir baxıb gördü ki, paho, dəryaya atdığı öz oğlu imiş Başına, gözünə vurdu. Daha haray-haraya çatacaq? Tacirin arvadı səsə gəlib, əhvalatı bildi, çox ağlayıb, dedi:

- Oğlanın borcunu ver, başına döymə. Öz əməlindi, öz qabağına çıxıb.

Tacir səssiz-küysüz gətirib oğlanın dədəsinə borclu olduğu pulu verdi. Nurani kişi oğlanı da götürüb, evlərinə gəldilər. Oğlan öz arvadıynan keflə yaşamaqda oldu.

Bir gün bunlar padşahdan icazə alıb, qatırlara, dəvələrə çoxlu qızıl-gümüş yükləyib, yola düşmək istədilər Nurani kişi dedi:

- Oğlan, cibindəki dəsmalı bura ver.

Sonra padşaha dedi.

- Ey padşah, sən qızını hər kəsə verirdin, ölürdü. Ona görə də ölkədə oğlan qalmamışdı. Buna səbəb o idi ki, qızının qarnında bir əqrəb var idi. Hanki oğlan qıza yaxın getsəydi onu çalıb o saat öldürərdi. O, əqrəbin dərmanı dağ başındakı bulaqda olan ilanın başı idi. Mən ilanın başını götürmüşdüm, iyini verdim, əqrəb öldü. Sənin qızının sirri bu idi.

Padşah nurani kişidən çox razılıq elədi. Bəli, bunlar padşahla görüşüb, yola düşdülər, gəlib nurani kişi ilə görüşən yerə çıxdılar. Nurani kişi oğlana dedi:

- Mənimki bura qədər idi. Mən sənə burada yoldaş olmuşam, burada da səndən ayrılacağam.

Oğlan dedi:

- Ey nurani şəxs, səndən çox razıyam. Sən məni ölümdən qurtardın.

Onlar xudahafizləşib, bir-birindən ayrıldılar. Oğlan evlərinə gəlib, padşah qızıynan həmişəlik kefnən, damaqnan gün keçirdi.

P A D Ş A H O Ğ L U

Biri var idi, biri yox idi, bir padşah var idi. Onun da qırx arvadı var idi. Bu arvadların heç birindən padşahın övladı olmurdu. Bir gün padşah qəm dəryasına batmışdı, övlad fikri edirdi. Bu zaman bir dərviş peyda olub dedi:

- Qibleyi-aləm, niyə fikir edirsən? Dərdin nədi?

Padşah dedi:

- Ağa dərviş, niyə fikir eləməyim ki, saqqalıma dən düşüb. Bir övladım yoxdu ki, məndən sonra taxt-tacıma sahib olsun.

Dərviş dedi:

- Padşah qonşuluqda olan əkinçinin qızından allah sənə övlad əta elər. Əkinçinin qızını al!

Padşah dedi:

- Ağa dərviş, qırx arvadımdan heç uşaq olmur, ondan olacaq? Məndən allah üz döndərib.

Dərviş ona bir alma verib dedi:

- Al bu almanı, əkinçi qızın gətirən gecə yarısını sən yeyərsən, yarısını da arvadın yeyər. Sizdən bir övlad olacaq.

Dərviş sözünü tamam eləyib qeyb oldu.

Padşah o gecəni sabah elədi, səhər əkinçi qızı üçün elçi göndərib onu aldı. Qırx gün, qırx gecə toy elədi. Əkinçi qızını hərəmxanaya aparan gecəsi dərviş verdiyi almanı ikiyə böldü, yarısını özü yedi, yarısın da əkinçi qızına verdi.

Bir müddət sonra əkinçi qızının boynuna uşaq düşdü. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyədən sonra əkinçi qızı bari-həmlini yerə qoyub bir oğlan doğdu.

Padşahın baş hərəmi dedi:

- Bu olan iş deyil ki, biz doğmayaq, əkinçi qızı doğsun. Gərək onun başın batıraq.

Baş hərəm mamanı çağırıb dedi:

- Əgər uşağı oğurlayıb, yerinə it küçüyü qoysan, səni dünya malından qani edərəm.

Üstəlik qızıl boyunbağını da ona verdi. Mama əkinçi qızının uşağını oğurlayıb, dəyirmançının arvadına verdi, əkinçi qızının da yanına bir it küçüyü qoydu.

Padşaha xəbər getdi ki, arvadın bir küçük doğub. Padşah o saat əmr elədi, əkinçi qızını uzaq bir ölkəyə sürgün elədilər.

Nağıl dili yüyürək olar. Uşaq böyüyüb səkkiz yaşa çatdı. Dəyirmançı onu molla yanına oxumağa qoydu. Oğlanın adı Məhəmməd idi. Özü də elə gözəldi ki, küçədən keçəndə bütün qızların ağızlarının suyu axırdı. Bir gün padşah seyrə çıxmışdı. Gördü ki, bir uşaq gedir, elə gözəldi ki, adam gözünü çəkmək istəmir, soruşdu:

- Bu uşaq kimindi?

Dedilər:

- Dəyirmançının oğludu.

Padşah həsrət çəkib dedi:

- Bəs rəvadırmı, dəyirmançının belə ay parçası kimi oğlu ola, sənin olmaya.

Padşah hərəmxanaya gəlib, dəyirmançı oğlundan baş hərəminə danışdı. Baş hərəm barmağını dişləyib, öz-özünə dedi:

- Ey dili-qafil, nə qayırırsan? Oğlanı öldürmək lazımdı. Bu əvvəl, axır sənin başına əngəl olacaq.

Baş hərəm axtarıb bir qarı tapdı, onun ətəyinə bir neçə ovuc qızıl töküb dedi:

- Dəyirmançının oğlunu elə yerə göndərərsən ki, gedər ölər, orda qalar.

Qarı dedi:

- Mən elə belə işlərin ustasıyam. Onu elə yerə göndərim ki, devlərə yem olsun.

Qarı bir ətək kişmiş götürüb gəldi Məhəmmədin yolunun üstündə oturdu. Məhəmməd dərsdən qayıdırdı, gördü yolda bir qarı oturub. Ondan soruşdu:

- Qarı nənə, niyə burda oturmusan?

Qarı dedi:

- Qadan alım, yorulmuşam. Al sənə kişmiş verim. Bala, sənin adın Məhəmməd deyil?

Məhəmməd dedi:

- Bəli, Məhəmməddi.

Qarı dedi:

- Qadan alım, Məhəmməd, bil və agah ol, sən dəyirmançının oğlu deyilsən. Sənin atan yetmiş beş ağaclıqda bir dağda olur. Onlar gecəynən burdan keçirdilər, sən yaddan çıxıb qaldın. Dəyirmançı götürüb saxladı.

Məhəmməd bu sözü eşidən kimi düz evə gəlib anasına dedi:

- Ana, mənim dədəm kimdi? Mən kimin oğluyam?

Anası dedi:

- Oğul, sən mənim oğlumsan, atan da dəyirmançıdı.

Məhəmməd dedi:

- Bir qarı mənə dedi ki, sən köçdən qalmısan, atan-anan da dağda olur. Mən ora gedəcəyəm.

Arvad nə qədər dedisə, Məhəmməd inanmadı. Məhəmməd gecə ata-anasını yuxuya verib evdən çıxdı, getməyin binasını qoydu. Gedib bir dağa qalxdı, gördü uzaqdan bir tüstü gəlir. Düz tüstünün yanına getdi. Gördü bir dev anası əmcəklərini çiynindən aşırıb yeddi qazan xörək bişirir. Qarı onu görən kimi dedi:

- Səni filan qarımı göndərdi?

Məhəmməd dedi:

- Bəli, nənə, mənim ata-anamın yerini mənə söylə!

Dev gülüb dedi:

- Ey oğlan, qarı səni mənə kabablıq göndərib. Amma baxıram yaxşı oğlansan, istəyirəm səni özümə oğul eliyəm.

Bu zaman bərk gurultu, nərilti səsi gəldi. Oğlan soruşdu:

- Ana, bu nə gurultu, bu nə nəriltidi?

Dev anası dedi:

- Oğlanlarım gəlir, səni yeyəcəklər. Tez gəl, sandığa gir.

Dev anası Məhəmmədi sandığa qoyub gizlətdi. Oğlanları gəlib dedilər:

- Adam-madam iyisi gəlir, yağlı badam iyisi gəlir. Ana, burda bəni-adam var, tez yerini bizə söylə!

Anaları dedi:

- Ay oğlanlarım, bəni-adam zad yoxdu, yəqin burnunuz iy çəkir.

Oğlanları ondan əl çəkmədi. Anaları dedi:

- Mənim südümə and için ki, heç zad eləməyəcəyik, adamı çıxardım, əhvalatı da sizə söyləyim.

Devlər dedilər:

- Ana sənin südün haqqı ona bir şey eləməyəcəyik. Bir şey eləsək, südün bizə haram olsun.

Devlərin anası dedi:

- Atanız öləndən sonra mən sizdən xəlvət bir bəni-insana ərə getdim. Ondan bir uşaq oldu. Uşaq uzaq yerdəydi, indi gəlib çıxıb.

Arvad durub sandıqdan Məhəmmədi çıxardıb, oğlanlarının yanına gətirdi.

Devlər yerdən qalxıb, Məhəmmədi duz kimi yaladılar. Ona qardaş deyib özlərindən bir dəqiqə də kənara qoymadılar. Bəli, Məhəmməd də bunlara qoşuldu. Az zaman içində bu elə qüvvətli pəhlivan oldu ki, kimin meydanına girsəydi, zəhri yarılardı. Məhəmməd dev qardaşlarını da götürüb həmin ölkənin padşahıynan davaya başladı. Yeddi gün, yeddi gecə dava eləyib, padşahın bütün pəhlivanlarını qılıncdan keçirtdi, özünü də taxtdan saldı. Onun xəzinələrini daşıyıb, böyük imarətlər tikdirdi.

Bəli, bir müddət belə gəldi keçdi, Məhəmmədin adı hər yerə yayıldı. Onun tə`rifini padşahın baş hərəmi də eşitdi. Padşahın baş hərəmi qarını çağırıb dedi:

- Evin yıxılsın, sən onu göndərdin ki, ölüb başımızdan rədd olsun. Amma tay da möhkəmlənib, qüvvətli pəhlivan olub. Tez bir çarə... Onu elə yerə göndər ki, getsin, gəlməsin.

Qarı dedi:

- Qorxma, mən onu göndərəcəyəm Kəlləgözün əlindəki şamdanı gətirməyə. Getsin Kəlləgözün əlində ölsün.

Xanım ona çoxlu qızıl verdi. Qarı yola düşüb, düz Məhəmməd olan imarətə gəlib dedi:

- Çox gözəl imarət tikdirmisən. Allah sağlığına qismət eləsin! Ancaq Kəlləgözün əlində olan şamdan bu evə yaraşar.

Məhəmməd bu sözü eşidən kimi düz ana devin yanına gəlib dedi:

- Ana, bu evin qızıl şamdanı əskikdi. Mən şamdan gətirməyə gedəcəyəm.

Dev dedi:

- Məhəmməd, o şamdan Kəlləgözün əlindədi. Kəlləgöz də yaman qüvvətli sehirkardı. Dünyada olan pəhlivanlar o şamdan üçün gedib, amma heç biri Kəlləgöznən bacarmayıblar. Gəl daşı ətəyindən tök, getmə.

Məhəmməd dedi:

- Yox, üz vurma, gedəcəyəm.

Dev dedi:

- Indi ki, gedirsən, sözümə qulaq as! Mən sənə yel atını verəcəyəm, minib gedərsən. Kəlləgöz bir hasarın içində olur, o hasarın yanına gedərsən. Orda bir qəbiristanlıq var, atı üç dəfə o qəbiristanlığın başına hərləyib, hasardan sıçradarsan. Hasarın içində gözünə nə dəysə, hamısına salam verərsən. Əgər bir şeyə salam verməsən, o səs eləyəcək, Kəlləgöz oyanıb səni öldürəcək. Elə ki, hamısına salam verdin, yavaşca gedib, Kəlləgözün əlindən qızıl şamdanı alıb ata minərsən.

Məhəmməd devin dediklərini yadında saxladı. Dev tükünü bir-birinə tutdu, o saat yel atı hazır oldu. Məhəmməd ata minib, düz Kəlləgözün hasarının yanına gəldi, atı üç dəfə qəbiristanlığın başına hərləyib hasardan sıçratdı. Məhəmməd hər nə gördü, hamısına salam verdi. Ancaq yadından çıxdı, bir aftafaya salam vermədi. Aftafa bərkdən səsləndi. Kəlləgöz yuxudan oyanıb, Məhəmmədin üstünə həmlə elədi. Məhəmməd ona aman verməyib, gözündən bir ox vurdu, Kəlləgözü cəhənnəmə vasil elədi. Şamdanı götürüb, düz imarətinə gəldi. Şamdan nə şamdan, hər rəngi şəfəq çalırdı, otağı min bir rəngə salırdı.

Bəli, Məhəmmədin qızıl şamdanı gətirməyi, Kəlləgözü öldürməyi xəbərini baş hərəm də eşitdi. Onun canına od düşdü, az qaldı hirsindən çatlasın. Qarını çağırıb dedi:

- A qarı nənə, çarə!.. Məhəmməd Kəlləgözü öldürüb, şamdanı da gətirib!

Qarı dedi:

- Qorxma, onu göndərəcəyəm tilsimlər ölkəsinin padşahının qızı Gülzar xanımı gətirməyə. Onu gətirməyə gedən daş olub, orda qalır.

Xanım ona bir ovuc qızıl verdi, qarının gözləri döndü oğurluğnan süd əmmiş yetim çəpişin gözlərinə. Tumanını çəkə-çəkə, burnunu silə-silə özünü saldı Məhəmmədin imarətinə, dedi:

- Bəh, bəh, bəh, əhsən!.. Nə gözəl şamdandı. Indi bunun bircə Gülzar xanımı əskikdi ki, yeriyəndə yerə naz eləyə deyə: «ey yer, fəxr elə ki, sənə qədəm basıram».

Məhəmməd dedi:

- Gülzar xanım kimdi?

Qarı dedi:

- Gedib gətirərsən, görərsən kimdi.

Məhəmməd dev anasının yanına gəlib dedi:

- Mən Gülzar xanımı gətirməyə gedəcəyəm.

Dev dedi:

- Oğul, bu daşı ətəyinnən tök! Gülzar xanım tilsimlər ölkəsinin padşahının qızıdı. Özü də təpədən dırnağa kimi tilsimlidi. Həm də şərt qoyub ki, kimin səsi üç dəfə mənim qulağıma gəlsə,

ona ərə gedəcəyəm. Hər kəs də gedib onu çağırırsa, daş olub orda qalır. Min sənin kimi igidlər ona aşiq olub gedib, amma daş olub orda qalıb.

Məhəmməd dedi:

- Ana, üz vurma, gedəcəyəm.

Dev anası ona yolların təhər-tühürün öyrətdi. Məhəmməd yel atına minib düz tilsimlər padşahının ölkəsinə getdi. Hər rəng çalan bağa girib bir dəfə Gülzar xanımı çağırdı, dizə qədər daş olub yerində qaldı. Ikinci dəfə çağıranda qurşağa qədər daş oldu. Öz-özünə dedi ki: «yox olsun o can ki, Gülzar kimi gözəl yolunda ölümündən qorxacaq».

Özünə ürək-dirək verib üçüncü dəfə çağırdı. O saat boğaza qədər daş oldu. Gülzar xanım dedi:

- Baxım görüm, bu nə cür oğlandı ki, nə qədər daş oldusa da, geri qayıtmadı.

Başını qaldırıb gördü nə, elə gözəl oğlandı ki, adam gözünü ondan kəsmək istəmir. Bığ yeri bənövşə kimi yenicə baş qaldırıb. Gülzar xanım bir könüldən min könülə Məhəmmədə aşiq olub, tilsimdən qurtardı, öz mənzilinə aparıb dedi:

- Oğlan, bura niyə gəlmisən?

Məhəmməd dedi:

- Səndən ötrü gəlmişəm.

Gülzar xanım dedi:

- Oğlan, səni həmişə tilsimdə çürüdərəm.

Məhəmməd dedi:

- Öldü var, döndü yoxdu. Göz gördü, könül sevdi.

Gülzar xanım dedi:

- Sən ki, belə qorxmaz oğulsan, səni öldürmürəm. Mən də sənə aşiq olmuşam.

Bəli, onlar sarmaşıq kimi bir-birinin boynuna sarılıb, bir müddət burda kefdə oldular. Sonra Məhəmməd onu da götürüb, öz vilayətinə gəldi.

Bir gün Gülzar xanım Məhəmmədə dedi:

- Padşahı bütün adamlarıynan qonaq çağır.

Məhəmməd padşahı bütün dəstəsi ilə evinə qonaq çağırdı. Gülzar xanım əlini tərpədən kimi qeybdən bir məclis düzəldi ki, hamının ağzı açıla qaldı. Padşah Gülzar xanımı görən kimi ona aşiq oldu, oğlanı öldürmək fikrinə düşdü.

Səhəri padşah Məhəmmədi qonaq çağırdı. Gülzar xanım dedi:

- Məhəmməd, padşah sənin xörəyinə zəhər qatacaq. Xörəyi yeyəndə gördün zəhər var, tez qaç gəl!

Məhəmməd padşahın qonaqlığına gəlib, məclisdə əyləşdi. Padşahın əmriynən onun xörəyinə zəhər qatdılar. Məhəmməd bir tikə yeyən kimi gördü, xörəkdə zəhər var. Yerindən durub evə qaçdı. Gülzar xanım əlini onun canına çəkdi, zəhər tamam çıxıb kənara töküldü.

Padşah elə bildi ki, Məhəmməd öləcək. Səhər gördü Məhəmmədə zəhər kar eləməyib. Vəziri yanına çağırıb dedi

- Vəzir, tədbir!..

Vəzir dedi:

- Qibleyi-aləm, oğlanı bir də qonaq çağır.

Bəli padşah Məhəmmədi bir də qonaq çağırdı. Məhəmməd gəldi, xörəkdən qabaq əlini yumağa çıxdı. Əlini yuyub qayıtmaq istəyəndə, baş hərəm bərkdən çığırıb dedi:

- Ay haray, gəlin, bu oğlan mənə sataşdı.

Padşah hökm elədi, Məhəmmədi dar ağacının dibinə çəkdilər. Cəllad onun boynunu vurhavurda, Gülzar xanım özün yetirib dedi:

- Padşah, izin ver, bir neçə söz deyim, sonra onun boynunu vurdur.

Padşah dedi:

- Buyur.

Gülzar xanım dedi:

- Padşah, dəyirmançını, mamanı, baş hərəmi bura çağır.

Padşah əmr elədi, dəyirmançını, mamanı və baş hərəmi gətirdilər.

Gülzar xanım dedi:

- Padşah sağ olsun, dara çəkdirdiyin sənin öz oğlundur. Bu oğlan əkinçi qızından olanda, baş hərəm mamaya çoxlu pul verib, sənin arvadının yanına bir it küçüyü qoydurdu. Dəyirmançıynan qarı desin, doğrudurmu?

Dəyirmançıynan qarı təsdiq elədilər. Padşah oğlunun gözlərindən öpdü, mamaynan baş hərəmi dəli qatırın quyruğuna bağlayıb yal-yamaca buraxdı. Dəyirmançını da barigaha gətirdi. Sonra Gülzarnan Məhəmmədə qırx gün, qırx gecə toy elədi, ölüncə şad yaşadılar.

PADŞAH VƏ DƏMIRÇI

Biri varıymış, biri yoxuymuş, bir padşah varıymış. Bunun varının, dövlətinin həddi-hesabı yoxuymuş, lap harunluq eləyirmiş. Bir gün padşah vəzirini hüzuruna çağırıb deyib:

- Vəzir, bilirsənmi nə var?

- Qibleyi-aləm sağ olsun, xeyr, bilmirəm.

- Vəzir, bax, Hatəm kimi cahi-cəlal desən məndə, qoşun desən məndə, qüvvətli pəhlivanlar desən məndə, yeddi iqlim torpağında mənim hökmüm keçir. Hansı padşahı desən onun torpağını at torbasında daşıtmağa gücüm çatar. Amma bununla belə başım fikirdən ayılmır. Günüzlər gülürəm, danışıram, gecələr sabaha kimi fikirləşirəm ki, yavaş yavaş saqqalıma dən düşür, günlərin birində başımı yasdığa qoyacağam. Öləndən sonra yerimdə oğuldan-qızdan bir övladım-zürüyyətim yoxdu ki, taxtı-tacımı ona tapşıram. Odu ki, deyirəm görəsən mənnən də çox fikir çəkən, dərdli adam varmı?

Vəzir söylədi:

- Şah sağ olsun, dünyada dərdsiz, fikirsiz adam tapılmaz.

Bu sözün üstündə padşahnan vəzirin arasında mübahisə başladı, o gündən padşahın adamları şəhərbəşəhər, kəndbəkənd gəzib dərdsiz adam axtardılar. Kimə yaxınlaşdılarsa, gördülər hərənin bir dərdi var. Axırda gəlib padşaha dedilər:

- Hər yeri gəzdik, dərdsiz adam tapa bilmədik.

Padşah yenə dedi:

- Vəzir, mən inanmıram, gəl təğyiri-libas olaq, çıxaq vilayəti özümüz gəzək, onda taparıq.

Bəli, padşahnan vəzir paltarlarını dəyişib düşdülər bazar-dükəni gəzməyə, ora getdilər, bura getdilər, axırda bir dükənə girib dedilər:

- Salaməleyküm!

Dükənçi dedi:

- Əleyküməssəlam. Ay siz xoş gəlibsiniz, beş gəlibsiniz, deyin görüm nə almaq istəyirsiniz, bu saat gətirim.

Padşah dedi:

- Heç bir şey almaq istəmirik, gəzirdik, elə bir az yorğunluğumuzu almaq üçün bura girdik, bir balaca söhbət eləyək, dərdimiz dağılsın.

Dükənçi qaş-qabağını turşudub dedi:

- Vallah oturub danışmağnan keyfim açılası deyil.

Padşah dedi:

- Niyə?

Dükənçi cavab verdi:

- Necə niyə? Neçə vaxtdı ki, malım satılmır. Elə bil heç kimin pulu yoxdu. Mal alan da nisyə aparır, bir qəpik də pul vermir. Indi anbar dolusu malım var, amma çörək almağa pulum yoxdu. Bu halnan nə keyfim olsun.

Padşahnan vəzir gördülər yox, kişinin dərdi var. Yavaşca çıxıb getdilər. Yolda bir bağbana rast gəlib onun keyfini xəbər aldılar. Bağban ahı-zarnan dedi:

- Ay qardaşlar, nə keyfim olacax, var-yox bir bağım varıydı. Padşahın cuarrarı suyumu kəsib bağı susuz qoyublar. Ağaclarımın hamısı quruyub, tələf olub, indi onun fikrindəyəm ki, görən neyləyim.

Padşahnan vəzir burdan da getdilər. Yolları bir ölü məclisinə düşdü. Girdilər yas məclisinə, kimə yanaşdılarsa, dərdsiz adam tapa bilmədilər. Biri dedi:

- Qızım cavan öldü, dünyadan nakam getdi.

O biri dedi:

- Gözümün ağı-qarası bircə oğlumu padşah dar ağacından asdırdı.

Padşah dedi:

- Vəzir, bura yas yeridi, burda hamı dərdli olar, gəl indi də bir toy məclisinə gedək.

Hər ikisi evdən çıxıb bir toy məclisinə getdilər. Qapıdan girən kimi gördülər çalan kim, oxuyan kim, oynayan kim, gülən kim. Bir keyf var ki, gəl görəsən. Padşah dedi:

- Vəzir, biz axtardığımızı tapsaq burda tapacayıq.

Vəzir dedi:

- Qibleyi-aləm sağ olsun, təki elə olsun, amma bu adamların ürəyini burda bilmək olmaz, toydan sonra görərik.

Birdən padşahın gözü bir adama sataşdı, gördü ki, məclisin lap başında bığıburma bir kişi oturub, üzünə baxan kimi başlayır gülməyə, ayağa duranda qolları özündən qabağa gedir, az qalır göyə uçsun. Özü də ona nə qədər deyirlərsə ye, deyir ki, vallah elə gündə evimizdə toydu, indicə yeyib gəlirəm. Padşahnan vəzir ha istəyirdilər ki, bu adamnan danışsınlar, firsət düşmürdü. Bunlar o qədər gözlədilər ki, toy məclisi dağıldı, həmən kişi evinə gedəndə qarabaqara onun dalınca getdilər. Kişi evinə girəndən bir az sonra padşahnan vəzir qapını döydülər. Içəridən bir nəfər gəlib qapını açdı. Qapıya gələnə dedilər:

- Qərib adamıx, gecə qalmağa yerimiz yoxdu. Sizdə gecələməyə yer verərsinizmi?

Ev sahibi dedi:

- Qardaşlar, gecə vaxtı qonağı qapıdan qaytarmazlar, buyurun içəri.

Padşahnan vəzir içəri girdilər. Ev sahibi onlara yer görsətdi, oturdular. Qonaxlar baxıb gördülər ki, bu kişinin evi padşahın evindən də qəşəngdi. Padşahın evi bunun yanında ayı balasınnan tikilmiş daxmaya oxşayır. Qapısında qulu, qulluxçusu, evi başdan-ayağa lə`l-cavahirat içində. Başladılar söhbətə, bir də gördülər ki, çay-çörək gəldi. Oturub çörək yeməyə başlayanda ev yiyəsi bir ah çəkdi. Padşahnan vəzir qaldılar məəttəl ki, yəqin bunun da dərdi var ki, belə ah çəkir. Odu ki, dedilər:

- Qardaş, niyə ah çəkdin?

Kişi dedi:

- Heç, elə belə.

Padşah nə qədər elədisə, kişi demək istəmədi. Axırda vəzir dedi:

- Qardaş, bizlərdə adətdi, qonağa hörmət eləyərlər, əgər sən dərdini bizə deməsən əlimizi süfrəyə uzatmayacayıx.

Kişi əlacsız qalıb dedi:

- Vallah allahdan gizlin deyil, bəndədən nə gizlin. Mənim çörək yeməyə qollarım yoxdu.

Vəzir dedi:

- Bəs axı biz sənin qollarını görürük.

Kişi dedi:

- O gördüyünüz mənim qolum deyil, paltarın qoluna saman doldurmuşam, odu.

Çuxanı kişinin əynindən çıxarıb gördülər doğrudan da qolları yoxdu. Vəzir bu əhvalatı görən kimi barmağını dişlədi. Padşah dedi:

- A kişi, sənin qolunu kim bu günə salıb?

Kişi dedi:

- Bizim bu zalım, ağılsız, hər yalana inanan padşahımız.

Padşah bu sözü eşidən kimi cin vurdu başına, amma özünü saxladı, dedi:

- Axı bir de görüm padşah niyə sənin qolunu kəsdirib?

Kişi dedi:

- Mənim dükənim varıydı, dəmirçilik eləyirdim, özü də ustalıqda adım çıxmışdı, hamı məni tanıyırdı. Bir gün padşahın darğası gəldi ki, padşahın əmrinə görə ona elə bir qılınc qayırasan ki, daşa vuranda iki parça eləsin, bir tük qədər də ağzı əyilməsin. Mən padşaha layiq gözəl bir qılınc qayırdım, sabahı günü oğlan gəlib qılıncı apardı. Üstündən bir gün keçmiş bir də gördüm ki, başdan-ayağa qırmızı geyinmiş iki cəllad dükənə girib elə oradaca qolumu qılıncla vurub saldılar.

Cəlladlardan biri dedi:

- Padşahı alladıb ona sınıx qılınc qayıranın qolların bax belə kəsərlər, padşah özü belə əmr eləyib.

Dedim:

- Mənim qayırdığım qılınc daşı parça-parça eləyir, bu olan iş deyil.

Cəlladlar gedib əhvalatı padşaha söyləyirlər. Padşah inanmır. Amma padşahın vəziri ağıllı adam idi. O, başlayır şübhələnməyə ki, yəqin darğanın qılınca tamahı düşüb, dəyişib, əvəzinə ayrısını verib. Başlayır bu sirri öyrənməyə. Bu tərəfdən də mən hər yerdə padşahın elədiyi zülmü camaata söyləyirdim.

Padşah özünü saxlaya bilməyib dedi:

- A kişi, sənin bu boyda dərdin var idi, bəs niyə üzünə baxana elə hırıldayıb gülürdün?

Kişi dedi:

- Qonax qardaş, bir az səbrin olsun, qoy sözümü danışım, elə bu saat deyəcəydim niyə mən həmişə gülürdüm. Sözümü kəsdin. Indi deyim, onun da səbəbini bil. Elə ki, mən padşaha lə`nət oxumağa başladım, bu söz gedib padşahın qulağına çatdı. Bu dəfə vəziri yanıma göndərdi ki, əgər bir də mənim zalımlığımnan danışsa, onu dar ağacından asdıracam. Yox ,əgər hər yerdə məni tə`rifləyib, gülüb-hırıldasa onda onunla işim yoxdu. Vəzir padşahın bu əmrini mənə söyləyəndən sonra mən başladım üzdə həmişə yalannan gülüb-danışmağa, amma ürəyimdə iki dəfə artıx qarğış tökməyə. Mən gördüm ki, yanıma gələn vəzir həm insaflı, həm də ağıllı adama oxşayır. Odu ki, əhvalatı olduğu kimi ona danışdım. Vəzir dedi ki, arxayın ol, bu iş olsa-olsa darğanın kələyidi, mən onu tapacam.

Padşah özünü saxlaya bilməyib bir də soruşdu:

- Qardaş, bəlkə padşahı aldadıblar. Onda nə taxsır var?

Kişi dedi:

- Qonax qardaş, niyə uşax kimi danışırsan? Elə əsil taxsır ondadı da. Bəlkə biri gəlib yalandan deyəcək ki, mənim xoruzum gündə yüz yumurta yumurtlayır, gərək padşah ona inansın. Belə padşaha ağılsız adam deyərlər. Mən özüm dəmirçi adamam, amma bilirəm ki, padşahın gərək ağıllı, tədbirli, dünyagörmüş adamları ola, onların sözlərini də eşidəndən sonra bir özü yoxlaya, bəlkə elə onu alladırlar. Nə olardı ki, ya padşah, ya da onun adamları məni yanlarına çağırıb soruşaydılar ki, ay yazıx, axı sənin taxsırın nədi? Mən də açıb düzünü deyəydim, onda qolumu da kəsməzdilər.

Padşahla vəzir bir-birinə baxıb gördülər ki, bu kişinin dərdi hamıdan çoxdu. Gecədən xeyli keçmişdi. Odu ki, başladılar yatmağa. Yerə girdilərsə də yata bilmədilər. Vəzir padşaha yaxınlaşıb yavaşca dedi:

- Qibleyi-aləm, yadınıza gəlirmi, bu kişinin qollarının kəsilməsinə siz əmr vermişdiniz...

Padşah dedi:

- Vəzir, yaxşı yadımdadı. Mən indi başa düşürəm ki, elə bütün əmrləri belə vermişəm. Lap əbləh olmuşammış.. Yaxşı ki, əbabil quşları mənim qoşunlarımı qırıb çatmayıblar. Öz adamlarıma inanıb, özgələrinin sözünə qulax da asmamışam. Bir də mənim torpağımdakı adamların dərdli, qəmli olmalarının da səbəbi deyəsən elə özüm olmuşam. Çünki biz rast olduğumuz adamların hamısı padşahın zülmündən danışırlar. Mən bu gündən zalımlığımdan əl çəkirəm. Bundan sonra lap

atam da olsa hamıya bir göznən baxacam. Kasıb-kusuba, əlsiz-ayaqsızlara, qocalara, yetimlərə, dullara əl tutacam. Amma vəzir, gərək burdan gedəndən sonra darğanı yoxlayax.

Vəzir dedi:

- Şahım, o işi mən özüm yoxlaram.

Padşah dedi:

- Vəzir, nə yoxlamaq, gedən kimi çağırıb deyərəm qılıncı gətir, o da gətirər, sonra da boynunu vurduraram.

Vəzir dedi:

- Qibleyi-aləm, elə sənin səhvin ordadı ki, kələkbazdan doğruluq gözləyirsən. Axı o bilir ki, qılıncı gətirib sənə görsətsə, işlərin üstü açılacax, onda heç onu gətirərmi? Bu işdə tədbir lazımdı. Indi o tədbiri mən görüm, sən də bax.

Bəli, səhər açıldı, qonaxlar ev sahibinə halalxoş eləyib gəldilər öz yerlərinə.

Padşah dedi:

- Vəzir, indi tədbirini gör görək.

Vəzir dedi:

- Şahım, əmr ver ki, sabah meydanda ox atmaq, qılınc vurmax, at çapmax günüdü, kimin yaxşı nəyi varsa çıxartsın. Kimin qılıncı yaxşı kəssə, atı ötsə, ona baxşeyiş veriləcək. Onda darğa da o qılıncı çıxardar, biz də tanıyarıx.

Bəli, padşah o saat əmr verdi. Səhər tezdən meydan doldu adamnan. Padşah, vəzir, vəkil, ə`yan, əşrəf, hamı yığıldı meydana. Şeypurlar çalındı, iyidlər meydana girdi. Kimi at çapır, kimi qılınc vurur, kimi qalxan tuturdu. Padşahnan vəzirin gözü darğadaydı. Bunlar baxıb gördülər ki, darğanın əlində bir qılınc var ki, baxanda adamın gözünü qamaşdırır. Özü də kimin qalxanına vurursa iki bölüb, bir qarış da başına yeriyir. Darğa bütün iyidlərin qalxanını qılıncıynan iki bölüb, özlərini də qanına-qaltan eləyirdi. Padşah əmr elədi ki, darğanı gətirsinlər. Darğanı o saat gətirdilər. Padşah qılıncı alıb baxdı, bəli, qılınc ona qayrılan qılıncdı, hələ üstündə adı da yazılmışdı. Padşah qəzəblə darğaya dedi:

- De görüm, bu qılıncı hardan alıbsan?

Darğa istədi dana, gördü iş-işdən keçib. Taxsırını boynuna aldı.

Padşah o saat əmr elədi. Cəlladlar elə ordaca həmin qılıncnan darğanın boynunu vurub cəhənnəmə vasil elədilər.

PISPISA XANIM VƏ SIÇAN SOLUB BƏY

Biri var idi, biri yox idi, bir Pıspısa xanım donuzan qurdu düz xatun var idi. Bir gün Pıspısa ərə getmək fikrinə düşdü. Geyindi, keçindi, bəzəndi, düzəndi, evinin qabağında olan bir təpəyə çıxıb bərkdən dedi:

Ərə gedirəm, ərə gedirəm,
Ər olmasa gora gedirəm.

Bir odunçu yol ilə keçirdi, onun səsini eşidib dedi:

- Pıspısa xanım, düz xatun, mənə gələrsənmi?

Pıspısa xanım dedi:

- Məni döymək istəyəndə, nəynən döyərsən?

Odunçu dedi:

- Baltaynan.

Pıspısa xanım dedi:

- Yeri, yeri, mən sənin tayın deyiləm.

Odunçu çıxıb getdi. Pıspısa yenə oxumağa başladı:

Ərə gedirəm, ərə gedirəm,
Ər olmasa gora gedirəm.

Bir kürəkçi onun səsini eşidib dedi:

- Pıspısa xanım, nəstə xanım, mənə gələrsənmi?

Pıspısa xanım dedi:

- Məni döymək istəyəndə, nəynən döyərsən?

Kürəkçi dedi:

- Kürəknən.

Pıspısa xanım dedi:

- Yeri, yeri, mən sənin tayın deyiləm.

Kürəkçi getdi. Pıspısa xanım yenə başladı:

Ərə gedirəm, ərə gedirəm,
Ər olmasa gora gedirəm.

Siçan solub bəy oradan keçirdi. Baxıb nə gördü? Pıspısa xanım bəzənib, düzənib, geyinib, keçinib elə hey deyir.

Ərə gedirəm, ərə gedirəm,
Ər olmasa gora gedirəm.

Siçan solub bəy ona dedi:

- Salam-əleyküm. Donuzan qurdu düz xatun, Pıspısa xanım, nəstə xanım, sevgilim, canım, ruhi-rəvanım, canı cananım, tabi-tavanım, kefin, halın? Həmişə beləcə kefdə, gəzməkdə, seyr-səfada...

Donuzan qurdu, düz xatun Siçan solub bəyə yaxşı-yaxşı baxıb gördü Siçan solub bəy, nə Siçan sulub bəy?.. Geyinib, bəzənib şir kimi quyruğun atıb kürəyinə, qulaqların dik tutub. Rüstəm-Zal kimi bığların burub, elə bilirsən dünya bunundu. Döşü ağ, gözləri qara, baxan deyir, bir də baxım! Pıspısa xanım dedi:

- Ay əleyküməsalam, dişlərin mixək, qılçları dirək, hamıdan göyçək, kefin kökdümü, damağın çağdımı? Canın, başın sağdımı?

Siçan solub bəy dedi:

- Sağ ol, Pıspısa xanım, əziz canım, de görüm, mənə gələrsənmi?

Pıspısa xanım dedi:

- Məni döymək istəyəndə, nəynən döyərsən?

Siçan solub bəy dedi:

- Əziz canım, səni döymərəm, döysəm də quyruğumu batıraram xanımların sürmədanına, gözlərinə sürmə çəkərəm.

Pıspısa xanım dedi:

- Sənə gedərəm, canımı qurban edərəm.

Hər ikisi razı oldu. Toya sazəndə kəpənəyi, xanəndə cırcıramanı çağırdılar, yeddi gün, yeddi gecə toy oldu, dırınqhadırınq. Pıspısa xanımı Siçan solub bəyin evinə gətirdilər. Çox məhəbbətli oldular, yeyib, içib, kef elədilər. Günlərin bir günü Siçan solub bəy Pıspısa xanıma dedi:

- Mənim ruhi-rəvanım. Pıspısa xanım, sən otur evdə, mən gedim şah evinə, sənə noğul, nabat, şirni, hər cürə xuş-kəbər gətirim. Qoy yanına, könlün istədikcə at ağzına xımırtdat.

Pıspısa xanım dedi:

- Get, amma tez gəl. Sənin ayrılığına dözə bilmərəm.

Siçan solub bəy dedi:

- Tez gələrəm, əzizim.

Siçan solub bəy Pıspısa xanımla öpüşdü, görüşdü, yola düşüb, şah evinə getdi. Pıspısa xanım evdə oturub onun yolunu gözləməyə başladı. Gözlədi, axırda lap darıxdı, öz özünə dedi: "Siçan solub bəy gəlincə, durum onun paltarını aparım, dəvə izi dərin göldə yuyum, sərim, qurudum, gələndə geysin əyninə, üstü-başı tər-təmiz olsun". Siçan solub bəyin paltarlarını götürdü, apardı yumağa. Yuyanda ayağı sürüşüb düşdü dəvə izi dərin gölə. Çox çapaladı, nə qədər əlləşdi, sudan çıxa bilmədi. Dəvə izi dərin göldə az qaldı boğulsun. Bir də gördü yol ilə bir neçə atlı gedir. Görək atlılara nə dedi:

Tappır, tuppur atlılar,
Qolları bazbəndlilər,
Şah evinə gedərsiz.
Siçan bəyə deyərsiz:
Pıspısa püstə xanım.
Dabanı xəstə xanım,
Düşüb dəvə gölünə
Boğulur xəstə xanım.

Atlılar o yana baxdılar, bu yana baxdılar heç kəs görmədilər. Istədilər getsinlər. Pıspısa xanım yenə başladı həmin sözləri oxumağa. Atlılar ora-bura baxıb gördülər ki, onlardan sifariş edən Pıspısa xanımdı, düşüb dəvə izi dərin gölə boğulur. Bunları görəndə Pıspısa xanım bir də dedi:

Saçı uzun saray xanım,
Donu uzun daray xanım.

Donuzan qurdu düz xatun paltar yuduğu yerdə sürüşüb düşüb dəvə izi dərin gölə, boğulub ölür, durmasın özünü tez yetirsin.

Atlı ar düz şah evinə getdilər. Pıspısa xanımın dediklərini orada danışdılar. Siçan solub bəy şirni qoyulan qabın içində idi. Pıspısa xanım üçün xonça bağlayırdı. Atlılardan bu xəbəri eşidən kimi, sandıqdan çıxdı, yola düşüb özünü Pıspısa xanıma çatdırdı. Gördü Pıspısa xanım dəvə izi dərin göldə batır, çıxır; az qalıb ki, boğulsun, lap əldən düşübdü. Siçan solub bəy əlini uzadıb dedi:

- Əlini mənə çəkərəcək.

Pıspısa xanım dedi:

- Yeri, yeri, mənciyəz səndən küsərəcək.

Siçan solub bəy yenə dedi:

- Əlini mənə çəkərəcək.

Pıspısa xanım dedi:

- Yeri, yeri, mənciyəz səndən küsərəcək.

Siçan solub bəy üçüncü dəfə dedi:

- Əlini mənə çəkərəcək.

Pıspısa xanım genə dedi:

- Yeri, yeri, mənciyəz səndən küsərəcək.

Siçan solub bəyin acığı tutdu, bir ovuc palçıq götürüb çırpdı donuzan qurdunun başına, dedi:

- Küsərəcəksən, küsərəcək.

Üstüvə palçıq eşərəcək.

Donuzan qurdu, düz xatının oradaca canı çıxdı. Siçan solub bəy də çıxıb evinə getdi.

S E H R L I S Ü N B Ü L

Naqilani-asar,
Tutiyani-şəkkər.
Şəkkəri şirin göftar.

Belə rəvayət ediblər ki, keçmiş zamanlarda bir padşah var imiş. Bu ədalətli padşah idi. Onun yanına şikayətə gələn adam naümid qayıtmırdı. Padşah camaatcanlı adam idi. Bu padşah həmişə fağıra, yoxsula əl tuturdu. Günlərin bir günü şah gördü onun elçi daşının üstündə bir şey var. Vəziri çağırıb dedi:

- Vəzir, get gör elçi daşının üstündəgi kimdi, razı sal, qayıt.

Vəzir gedib gördü elçi daşının üstündəki bir yekə ilandı. Vəzir bərk qorxdu, padşahın yanına qayıdıb dedi:

- Qibleyi-aləm, elçi daşının üstündəki bir yekə ilandı.

Padşah çox bilikli idi. O saat başa düşdü ki, ilan ona nədənsə şikayətə gəlib. Üzünü vəzirə tutub dedi:

- O ilan mənə şikayətə gəlib, tez bir heyvan dilini bilən adam tap, gətir.

Vəzir dedi:

- Şah sağ olsun, deyirlər rəmdar dərviş heyvanların dilini bilir.

Padşah dedi:

- Vəzir, rəmdar dərvişi bura çağır.

Vəzir adam göndərdi, rəmdar dərvişi padşahın hüzuruna gətirdilər. Padşah rəmdar dərvişdən soruşdu.

- Ey rəmdar, deyirlər sən heyvanların dilini bilirsən.

Rəmdar dedi:

- Padşah sağ olsun, bilmirəm.

Padşah dedi:

- Ey rəmdar, sənə çox xələt verəcəyəm, boynundan atma, gedək, görək elçi daşının üstündə oturan ilanın mənə nə şikayəti var.

Rəmdar dərviş baxdı ki, padşah onun heyvanların dilini bildiyini yəqin eləyib. O idi ki, bir söz deməyib padşahla, vəzir-vəkillə ilanın yanına gəldilər. Rəmdar dərviş nə şikayətə gəldiyini ilandan soruşdu. Ilan əhvalatı öz diliynən ona dedi.

Rəmdar dərviş padşaha dedi:

- Padşah sağ olsun, ilanlar padşahı bir maralı udmaq istəyəndə buynuzları kənarda qalıb boğazından keçmir. Bu ilan padşahın vəziridi. Gəlib səndən bir dülgər istəyir ki, aparsın, maralın buynuzlarını kəssin, ilanlar padşahı ölümdən qurtarsın.

Padşah o saat bir yaxşı dülgər çağırıb buna qoşdu. Ilan düşdü qabağa, dülgər də onun dalıncan yol getməyə başladılar. Az getdilər, çox getdilər, bir dağın daməninə yetişdilər. O qədər ilan var idi ki, daşın, çınqılın sayı olardı, ancaq ilanın sayı olmazdı. Dülgərlə gələn ilanı gördükdə hamısı ona rəsm-tə`zim eləyib yol verdilər. Ilan qabaqca, dülgər də onun dalınca gedirdi. Onlar dağın lap başına çıxdılar. Dülgər nə gördü? Gördü dağın başında bir yekə qara daşın üstündə gözəl bir ilan maralı udmuş, amma maralın buynuzları onun ağzından keçmir. Ilanın gözləri az qalıb pırtlayib çıxsın. Dülgər o saat daşın üstünə çıxdı, maralın buynuzlarını kəsdi. Ilan o saat maralı uddu. Ilan sürüşüb daşın dibinə düşdü və bir yoğun ağaca dolandı. Bu zaman maralın iniltisi ilanın qarnından eşidildi. Ilan ölümdən qurtarıb yenə daşın üstünə çıxdı. Dülgəri gətirən ilanın üzünə baxıb öz dilincə nə isə dedi. Dülgəri gətirən ilan tez getdi. Bir azdan sonra ağzında yeddi dənə taxıl sünbülü geri qayıtdı. Sünbülləri dülgərə tərəf uzatdı. Dülgər sünbülləri ondan alandan sonra, yenə də ilan düşdü qabağa, dülgər dalınca gedib dağın dibinə yetişdilər. Oradan ilan dülgərə yol göstərib geri qayıtdı. Dülgər yola düşdü, az getdi, çox getdi, şəhərə çatdı. Demə, padşahın adamları şəhərin

qırağında onu gözləyirlərmiş. Onu şahın yanına apardılar. Dülgər əhvalatı əvvəldən axıra qədər şaha nağıl etdi.

Ancaq sünbül haqqında ona bir söz demədi. Padşah məhəttəl qaldı. O, yaxşı bilirdi ki, ilanlar padşahı onu ənamsız buraxmaz. Dülgərə dedi:

- Oğlum, sən bir şeyi məndən gizlədirsən. Sən böyük bir padşahı ölümdən qurtarıbsan. Yəqin ki, o da sənə böyük bir ən`am verib. Sən onu məndən niyə gizlədirsən?

Dülgər baş əyib dedi:

- Qibleyi-aləm, çox kiçik olduğu üçün sənə demək istəmirdim.

Sünbüllərin yeddisini də cibindən çıxardıb şahın qabağına qoydu. Şah sünbülün birini əlinə götürüb gördü çox ağırdı. Barmağı ilə sünbüldən bir dən çıxardı, nə gördü? Dənlərin hər biri zoğal böyüklüyündə bir dürr dənəsidi. Özü də çıraq kimi yanır. Şah üzünü məclisdəkilərə tutub dedi:

- Mən elə bilirdim ki, dünyada mənim kimi varlı, dövlətli şah olmaz. Ilanlar şahının dülgərə bağışladığı yeddi sünbülün birinin qiyməti mənim xəzinəmdə yoxdu. Kim mənə bu sünbül dürrlərin nə cür əmələ gəlməsindən xəbər versə, o adama özü ağırlığında qızıl verəcəyəm.

Bir neçə gün keçdi. Bir gün dünya görmüş bir qoca şahın yanına gəldi. Baş əyib sünbüllərin əhvalatını nağıl edəcəyini şaha bildirdi. Şah yerindən qalxıb qocanın əlindən tutdu, öz yanında əyləşdirdi. Qoca nağıla başlayıb dedi:

- Ey böyük şah, bu dürrün əmələ gəlməsini indi sizə söyləyəcəyəm. Bu ölkədə keçmiş zamanlarda bir zalım padşah var idi. Özünün də gözünün ağı, qarası bircə qızı var idi. Qız pərdeyi-ismətdə saxlanılırdı. On dörd gecəlik ay kimi idi. Gözəllikdə misli-bərabəri yox idi. Qız evdən çıxan zaman gərək dükan-bazar tamamilə bağlanaydı, yollarda, döngələrdə olanlar öz evlərinə çəkiləydi. Əgər küçədə qalan olsa, başına şal salıb şahın yanına aparardılar, yada həmin saat başını bədənindən götürərdilər.

O şəhərdə bir palançı vardı, adı da Ibrahim idi. Ibrahimin on səkkiz yaşı var idi. Bir neçə il idi ki, onun atası palançı Ədhəm ölmüşdü. O da atası kimi palan tikib satar, anasını dolandırardı. Bir gün şah qızı hamama gedəcəkdi. Adamlar qaçıb evlərə dolurdular. Ibrahim dükanın qapısını bağlayıb dükanda qaldı. Fərraşlar da çəkilib getdilər. Süpürgəçilər yolları süpürüb fərş döşədilər. Padşahın qızı qırx kənizlə gəlirdi.

Ibrahim də qapının arasından baxırdı. Elə ki, Ibrahimin gözləri qızın gül camalına sataşdı, bir könüldən min könülə ona aşiq oldu. Bihuş olub dükana yıxıldı. Anası onun yolunu gözləyirdi. Ibrahim gəlib çıxmırdı.

Bu münvalnan üç gün, üç gecə Ibrahim gəlib çıxmadı. Üç gündən sonra Ibrahim evə gəldi. Onun rəngi sap-sarı zə`fəran kimi olmuşdu. Anası oğlunun başına dolandı, onun dərdindən halı olmaq istədi.

Ancaq Ibrahim dərdini anasına demədi. Ibrahim yaxşı bilirdi ki, bir daha qızın üzünü görməyəcəkdir.

Bu fikirlə də Ibrahim günü gündən saralmaqda olsun, qayıdaq görək qız necə oldu?

Bəli, şah qızı hamamda çimib evlərinə qayıdanda bir az kefsiz idi, ona soyuq dəymişdi. Qızın xəstəliyi getdikcə artırdı. Həkim, təbib, mümkün olmadı, qırx gün yatandan sonra qız öldü. Şəhər qara bəzəndi. Qızı aparıb dəfn elədilər. Qızın ölməsi Ibrahimə çox tə`sir eləmişdisə də, dərdini kimsəyə söyləyə bilmirdi. Belə qərarə gəldi ki, gizli gedib qəbiri açsın, onun üzünə doyunca baxsın. Anasına tapşırdı ki, səfərə gedir, ondan nigaran olmasın. Bir külüng, bir də bir bel götürüb girdi dükanına, qapısını bağladı, iki gündə dükandan lağım atıb qızın qəbrinə çatdı Kəfəni qatlayıb qızın üzünə baxırdı. Ona elə gəlirdi ki, qız ölməyib, yatıbdı. Qızı kəfəndə götürüb lağımla dükana gətirdi. Nə yeyir, nə içir, nə yatırdı. Gözlərini dikmişdi qızın üzünə, elə hey gözlərinin yaşını tökürdü. Hərdənbir qızın alnında tərə bənzər bir şey parlayır, yenə yox olurdu.

Şəhərdə qoca bir dəllək var idi. Ibrahim dükanı bağlayıb həmin qoca dəlləyin yanına qaçdı. Onun ayaqlarına yıxılıb ağladı. Kasıb bir palançı oğlu olduğunu, ata-anası öldüyünü, bir bacısı ilə palançı dükanında yaşadıqlarını ona söylədi. Indi birdən-birə bacısının da öldüyünü ona söylədi.

Xahiş elədi ki, ölünü dəfn eləməkdə ona kömək eləsin. Qoca dəllək Ibrahim ilə bərabər dükana gəldi. Qıza baxıb başını buladı.

Dedi:

- Ey oğlan, qızı qan aparıb, ölməyib. Mən bunun dabanına neştər vuracağam. Əvvəl sarı su axacaq, əgər sarı suyun dalınca qan axarsa, qız ayılacaq, qan axmazsa öləcək.

Cibindən neştərini çıxarıb qızın dabanlarına soxdu. Neştərin yerindən sarı su axdı. Dəllək dedi:

- Bir saat gözlərsən.

Dəllək çıxıb getdi. Ibrahim gözləyirdi, gördü sarı suyun get-gedə rəngi qızardı. Axırda çay kimi qan axmağa başlayanda qız gözünü açdı. Ibrahim dəlləyin verdiyi dərmandan neştərin yerinə sürtüb bağladı. Bu zaman qız hər tərəfə baxır, göz gəzdirir, heç bir şey başa düşmürdü. Ancaq kasıb evi görüb təəccüb eləyirdi. Birdən onun qaşları çatıldı. Qəzəblə Ibrahimin üzünə baxıb dedi:

- Mən haradayam? Sən kimsən? Nə cür`ətlə mənim ətrafımda dolanırsan?

Ibrahim göz yaşlarını tökə-tökə bütün əhvalatı əvvəldən axıra kimi ona danışdı. Ibrahim danışdıqca, qız qulaq asır, göz yaşı axıdırdı. Ibrahimə baxıb dedi:

- Məni qəbirdən çıxardıb ölümdən qurtarmısan. Sənə ölüncə duaçıyam.

Qız oğlanın üzünə baxırdı. Gördü kasıb olanda nə olar? Çiçək kimi oğlandı. Bir könüldən min könülə ona aşiq olub dedi:

- Bu sirri səndən başqa kim bilir?

Oğlan dedi:

- Heç kəs.

Qız soruşdu:

- Adın nədi?

Oğlan dedi:

- Ibrahim.

Qız dedi:

- Kimin var?

Oğlan dedi:

-Bircə anam var.

Qız soruşdu:

- O bu sirri bilirmi?

Oğlan dedi:

- Yox.

Qız dedi:

- Qoy bilməsin. Sən də bu sirri heç kəsə deməzsən. Dur get, mənə qadın paltarı tap gətir.

Ibrahim dedi:

- Gecədi, xanım, qorxarsınız.

Qız dedi:

- Qorxmaram. Dur get.

Ibrahim evlərinə çatanda anası oturub göz yaşı tökürdü. Ibrahim içəri girdi. Anasının boynunu qucaqlayıb öpdü. Ana oğlunu çox şad gördü.

- Oğlum, allah səni şad eləsin.

Ibrahim dedi:

- Ana, kənddən bir qız qaçırmışam, özü də lütdür. Dur paltar tap, tez ol.

Anası indiyə qədər saxladığı toy paltarını çıxarıb ona verdi. Ibrahim sevinə-sevinə buxçanı götürüb qaçdı qızın yanına. Qız geyindi. Ibrahimlə gəldi onun anasının yanına. Məhəbbətli yaşamalı oldular.

Doqquz ay, doqquz gün, doqquz saatdan sonra Ibrahimin bir oğlu oldu, adını qoydular Ədhəm.

Ədhəm on yaşına çatdı. O, məktəbdə oxuyurdu. Bir gün şah ovdan qayıdanda, Ədhəm də məktəbdən çıxıb evlərinə gəlirdi. Şah Ədhəmi görəndə, ürəyi bərk döyünməyə başladı, atından düşdü. Uşağı bərk-bərk bağrına basdı. Hamı şaha təəccüblə baxırdı. O, vəzirini çağırıb dedi:

- Vəzir, nə sirridir ki, mən bu uşağa birdən-birə bu qədər məhəbbət yetirdim? Istərdim bu uşaq həmişə mənim yanımda olsun.

Vəzir heç bir söz deyə bilmirdi. Şah Ədhəmi öz atına mindirib imarətinə apardı. Hamı elə bilirdi ki, şahın qocalıqdan başı xarab olmuşdur.

Ədhəmin anası oğlunun gec gəldiyinə görə çox narahat idi. Çölə çıxıb içəri girirdi. Ibrahim işdən gəlib gördü arvadının gözləri bahar buludu kimi yaş tökür. O özünü Ibrahimin üstünə atıb, ağlaya-ağlaya dedi:

- Ədhəm indiyə qədər gəlib çıxmayıb. Mən onsuz yaşaya bilmərəm. Bu saat onu tapmalısan.

Ibrahim mədrəsəyə getdi, baxdı ki, heç kəs yoxdu. Çox axtardı, gördüm deyən olmadı. Ibrahim "Ədhəm" - deyə, küçədə çığırır, o tərəfə-bu tərəfə qaçırdı. Axırda bir nəfər ondan kimi gəzdiyini xəbər aldı, Ibrahim:

- Oğlumu itirmişəm,- dedi:

O adam dedi:

- Şah aparan uşaq olacaq yəqin.

Ibrahim dedi:

- Şah uşaq aparıbmı?

Adam dedi:

- Bəli, gün batan çağı şah bir uşağı öz atına mindirib apardı.

Ibrahim daha da bərk qorxub qaçdı arvadın yanına, əhvalatı danışdı. Onlar sirrlərinin açılmasından qorxurdular.

Axırda qız dedi:

- Sən dur get şahın yanına, deynən yalnız bir övladımız var, onu da sən gətirmisən. Indi anası özünü öldürür. Bəlkə rəhmə gəlib verdi. Ancaq sirri möhkəm saxla.

Ibrahim getdi şahın yanına. Şah onu yaxşı qəbul elədi. Ancaq and içdi ki, Ədhəmi onun ürəyi bu qədər istəməsinin səbəbini bilməyincə onu vermiyəcək.

Ibrahim çox gedirdi şahın yanına, o yenə əvvəlki sözünü deyirdi. Axırda qız Ibrahimə dedi:

- Axırıncı dəfə get atamın yanına. O, yenə sənə həmin sözü desə, sən də ona deynən, Babavın tacına and iç ki, mənə, arvadıma, oğluma qəzəbin keçmiyəcək, biz üçümüzü heç vaxt bir-birimizdən ayırmayacaqsan. Səbəbini deyim. Əgər and içsə, qorxma, danış. Əgər and içməsə, gəl, bir də onun yanına getmə. Biz də oğulsuz yaşayarıq. Görərik axırda nə olar.

Elə ki, səhər açıldı, oğlan yenə padşahın yanına gəldi, oğlunu ondan istədi. Padşah dedi:

- Sözüm sözdü, ürəyim uşağı tutmağının səbəbini bilməsəm, uşağı verməyəcəm.

Ibrahim padşaha dedi:

- Şah, babavın tacına and iç ki, mənə, arvadıma, oğluma qəzəbin tutmayacaq, bizi bir-birimizdən ayırmayacaqsan, səbəbini deyim.

Şah dönə-dönə babasının tacına and içib dedi:

- Şah babamın tacına and içirəm ki, sənə, arvadıva, oğluva qəzəbim tutmayacaq. Sizi bir-birinizdən ayırmayacağam.

Ibrahim əhvalatı ona nağıl eləyib dedi:

- Şahim, mənim oğlum Ədhəm sənin doğmaca nəvəndi, mən sənin kürəkəninəm, qızın da hal-hazırda evimizdədi.

Şah çox şad olub dedi:

- Vəzir, di dur get qızımı qul, qarabaşla bura gətir.

Şah tacını başından götürüb Ibrahimin başına qoydu, dedi:

- Oğul, qocalıq məni əldən salıb. Ədhəm böyüyənə qədər sən şahlıq elə, mən də dincəlim.

O gündən Ibrahim ölkənin şahı oldu. Ancaq başqa şahlar kimi gecələr rəqqasələrlə eyş-işrətə məşğul olmadı. Çox ədalətli bir şah oldu. Rəiyyətlə yaxşı rəftar elədi. Yollar çəkdirdi, körpülər saldırdı.

Bir dəfə bir əkinçi bir parça əkin yerini başqa bir əkinçiyə satdı. Yer alan cütünü qoşub, yeri şumlamağa başladı. Ancaq ikicə dəfə o baş bu başa gedib-gəldi. Üçüncü dəfə onun xışı bir şeyə ilişdi. Əkinçinin xışı ilişən zəncir idi. Yerin altında yeddi küp qızıl bir-birinə bağlanmışdı. Əkinçi öküzlərini orada qoyub getdi, yer satanı gətirdi, ona dedi:

- Qardaş, bu qızılları çıxart, apar, bu sənindi.

Yer satan dedi:

- Mən bura qızıl basdırmamışam. Özüm də iyirmi-otuz il həmin bu yeri sürmüşəm. Mənim olsaydı, mən sürəndə çıxardı. Mənim baxtıma çıxmadı. Indi sən gəlib xışını yerə salan kimi sənin xışına ilişdi, sənin baxtına çıxdı, oldu sənin. Mənə dəxli yoxdur...

Sözləri çox uzandı, axırda Ibrahim şahın yanına getdilər, əhvalatı ona danışdılar. Ibrahim şah qabaqca yer alandan soruşdu:

- Sənin fikrincə qızıllar kimə çatar?

Yer alan dedi:

- Yer satana.

Şah soruşdu:

- Övladın varmı?

Yer alan dedi:

- Bir qızım var.

Sonra da yer satandan soruşdu:

- Sənin fikrincə qızıllar kimə çatar?

Yer satan dedi:

- Yer alana.

Şah soruşdu:

- Övladın varmı?

Yer satan dedi:

- Bir oğlum var.

Ibrahim şah dedi:

- Yer alan qızını versin yer satanın oğluna. Hər ikisi qızıllara sahib olsunlar. Razısınızmı?

Əkinçilər baş əydilər. Razı olduqlarını bildirdilər.

- Padşahlarına dua-səna eləyib evlərinə getdilər.

Əkinçilər qohum olub, yeri şərikli əkdilər. Əkinçilər həmin il o yerə taxıl əkdilər, dürr bitdi...

Ilanlar da həmin o dürr sünbüllərdən aparıb öz xəzinələrində saxlayıblar. Sünbülləri dülgərə verən ilan da yəqin ilanlar padşahının xəzinədarı imiş.

Söz bu yerə yetəndə, şah qocanın əlini sıxıb dedi:

- Ata! Sən bu sünbüllərdən xəbər verməklə hökmüranlığın da qaydasını mənə öyrətdin.

Dülgər dedi:

- Şahım, mən bu sünbülləri sənə bağışlayıram, qoy xəzinədə qalsın.

Hamı dülgərə afərin dedi. Qoca isə özü ağırlığında qızılı almayıb, şahın ömrünə dua-səna oxudu. Şah dülgərə və qocaya çoxlu ən`am verib yola saldı. Onları həmişə xəzinə hesabına saxladı. Onlar şad-şalayan ömür sürüb, dövran keçirdilər.

S E H I R L I Ü Z Ü K

Biri varıymış, biri yoxuymuş, allah varıymış, şəriki yoxuymuş, bir qarının bir keçəl nəvəsi varıymış.

Bunlar çox kasıblıxnan dolanırlarmış. Qarı hər gün bir kələf ip əyirib verirmiş nəvəsinə ki, aparıb bazarda satıb soğannan çörək alsın. Yenə bir gün qarı bir kələf ip əyirib verdi keçələ ki, satıb

çörək alsın. Keçəl kələfi götürüb gəldi bazara. Gördü yolun ortasında bir hay-küy var ki, gəl görəsən, adamlar bir-birinə qarışıb, hərənin əlində bir yekə dəyənək bir iti döyürlər. Yazıx it gah ora qaçır, gah bura, heç kim ona qahmar çıxmır. Elə qalıb zingildəyə-zingildəyə. Keçəlin ürəyi yumşaldı, itə yazığı gəldi, irəli durub dedi:

- Ay camaat, bu allahın heyvanı sizə neyləyib ki, onu döyüb öldürürsünüz? Iti öldürməynən əlinizə nə gələcək, alın bu kələfi sizə verim, o iti verin mənə.

Adamlar ipi alıb, iti verdilər keçələ. Keçəl iti götürüb qayıtdı evlərinə. Qapıdan içəri girəndə anası gördü ki, keçəl əli boş, yanında da bir it küçüyü gətirib, odu ki, dedi:

- Ay oğul, bəs çörək almadın?

Keçəl dedi:

- Ay nənə, yolda gördüm ki, bu iti döyüb öldürürlər, yazığım gəldi, kələfi verib bu iti aldım.

Arvad gördü ki, çərən-pərən eləməynən heç nə çıxmıyacaq, əlacı kəsilib bir söz demədi. Bir az acığı soyuyannan sonra yenə bir kələf ip əyirib verdi keçələ; özü də bərk-bərk tapşırdı ki, bu dəfə də çöräksiz qayıtsan vay halına.

Bəli, keçəl dinməz-söyləməz kələfi götürüb getdi bazara.

Indi də gördü ki, bazarda bir pişiyi döyürlər. Irəli durub adamlardan soruşdu ki, bu yazıq pişiyin taqsırı nədi ki, onu döyürlər? Dedilər ki, qəssab tükənindən ət oğurlayıb, odu ki, döyürlər. Keçəl dedi:

- Ə, ac olsanız elə siz də oğurlayarsınız da, alın bu ipi verim sizə, o pişiyi verin mənə.

Adamlar ipi alıb pişiyi verdilər keçələ. Keçəl indi də pişiyi götürüb gəldi evlərinə. Qarı gördü ki, keçəl gəlir, amma qucağında çörək əvəzinə bir pişik gətirir.

Qarı ağzın açıb gözün yumdu, gözün açıb ağzın yumdu, əlinə keçən daşı, kəsəyi keçəlin təpəsinə vurdu ki, əyə, acınnan ölürük, yeməyə bir tikə çörək tapmırıq, hələ gedib it-pişik də gətirirsən. Keçəl gördü ki, anası düz deyir, and içdi ki, bu dəfə da heç nə almıyacam. Qarı deyinə-deyinə bir kələf də ip əyirib verdi keçələ, özünə də tapşırdı ki, əgər bu dəfə də əli boş qayıtsan, evə gəlmə. Keçəl kələfi götürüb bazara getdi, satıb çörək aldı, evlərinə qayıtdı. Axşam çörəklərini yeyib, bir az da it-pişiyə verib yatdılar.

Keçəl gecə yatanda fikirləşirdi ki, yaxşı, mən bu itnən-pişiyi ki, gətirmişəm, özümüz yeməyə çörək tapmırıq, onlara nə verəcəm. Birdən ağlına gəldi ki, sabah itnən pişiyi də götürüb meşəyə apararam, bəlkə orda tülküdən, çaqqaldan, ətdən-mətdən bir şey tapıb yedilər. Bu fikirnən keçəl yatdı, səhər nənəsinə deyib itnən pişiyi də özüynən apardı. Bunlar o qədər yol getdilər ki, lap yoruldular. Çıxdılar bir hündür dağın başına. Keçəl gördü ki, bir mağaranın qabağında üç div var, vallah bunlar bir bədheybət divdilər, adam baxanda az qalır bağrı çatlasın; qulaxları lavaş boyda, dişləri fil dişi boyda, nəfəs alanda burunları dəmirçi körüyü kimi qalxır-düşür. Dırnaxları kotan kimi, özü də bir-birinin quyruğundan, buynuzundan yapışıb dalaşırlar. Keçəl bunları görən kimi istədi qaçsın, birdən it hürdü, divlər səs eşidib tez keçəli tutdular. Keçəl qorxusundan bilmədi neyləsin. Yeddi başlı div dedi:

- Ey bəni insan, qorxma bizim şərtimizi kəs, sənnən işimiz olmasın.

Keçəl dedi:

- Nə üstdə dava eləyirsiniz?

Üç başlı div dedi:

- Biz üç div iki qiymətli şey tapmışıq, biri həzrət Süleymanın xalçası, biri də üzüyüdü. Xalçanın üstündə oturub desən ki, məni həzrət Süleymanın eşqinə filan yerə apar, o saat aparacaq, üzükdən də nə dilək istəsən hazır olacaq. Bu iki şeyi üç divin arasında bölə bilmirik.

Keçəl fikirləşdi ki, bu divlərin əlindən qurtarmaq üçün bir yaxşı fənd işlətsin. Odu ki, dedi:

- Ay div qardaşlar, siz o şeyləri qoyun mənim yanımda.

Mən bu dağın başından uzağa bir daş atım, siz üçünüz də gedin o daşın dalıncan, kim daşı tez gətirsə xalça onun, üzük ikinci gələnin, kim lap axırda gəlsə, daha öz baxtından küssün.

Divlər ürəklərində fikirləşdilər ki, üçüncü gələn elə bu keçəli həzm rabedən keçirər.

Bəli, keçəl bir yekə daşı dağ aşağı yumarladı, daş təpəsi aşağı elə gedirdi ki, ildırım kimi. Divlər də daşın dalınca qaçırdılar. Elə divlər bir az aralanan kimi keçəl üzüyü barmağına taxıb, itiynən pişiyini də xalçanın üstünə oturdub dedi:

- Ey xalça, həzrət Süleyman eşqinə bizi apar düz evimizə.

O saat xalça göyə qalxıb bunları apardı. Keçəl göydən baxıb gördü ki, dəryanın qırağıynan gedirlər. Yadına düşdü ki, itnən-pişik də acdı, evdə anasının da yeməyə heç nəyi yoxdu. Öz-özünə dedi: Elə bu dəryanın qırağında yerə düşüb bir az balıxdan-zaddan tutsam yaxşı olar. Bu fikirnən dəryanın qırağında xalçaya dedi:

- Ey xalça, həzrət Süleyman eşqinə bizi burda endir yerə, bir az balıx tutax.

Xalça o saat bunları yerə endirdi. Keçəl üzüyü barmağından çıxardıb dedi:

- Ey üzük, həzrət Süleyman eşqinə bizə bir-iki balıx yetir.

Söz keçəlin ağzınnan çıxan kimi o saat gördülər ki, bir yekə ana balıx sudan iki balasını çıxardıb dedi:

- Alın, ikicə balam var, onu da sizə peşkəş verirəm.

Keçəl balıxları alıb, bir az çır-çırpı yığıb, bir yaxşı ocaq çatdı. Balığın birini kabab bişirdi. Itnən pişiyə də verəndə onlar yemədilər. Keçəl nə qədər elədisə yemədilər. Axırda keçəl dedi ki, ay allahın heyvanları, niyə naşükürlük eləyirsiniz, yeyin də.

Birdən it dilə gəlib dedi:

- Ey keçəl qardaş, biz naşükür deyilik, bizim insafımız götürmür ki, onu yeyək. O ana balığın cəmi iki balası vardı, onların ikisini də sənə peşkəş eləyəndə, gərək sən insafa gəlib balasının birini özünə qaytaraydın. Amma sən bunu eləmədin. Odu ki, bunun altını çəkəcəksən. Balığın gözü balalarının dalınca qalmışdı, odu ki, yemədik.

Bu söhbətdən sonra keçəl gördü ki, səhv eləyib. Durdu dəryanın qırağında əllərini yumağa, bir-iki ovuc su götürüb əllərini oxalayırdı ki, birdən üzük barmağından sürüşüb düşdü dəryaya, nə qədər axtardısa tapa bilmədi.

Axırda kor-peşiman evlərinə qayıtdı. Evləri lap yaxındaydı deyin, bu dəfə heç xalçaya da minmədi, büküb qoltuğuna vurdu, başladı getməyə, itnən pişik də bu işə peşiman olmuşdular. Odu ki, dedilər:

- Ay qardaş sən get, biz bir az buralarda hərlənək, görək üzüyü tapa bilərikmi?

Keçəl gəldi evlərinə, itnən pişik qaldılar dəryanın qırağında. Bir də gördülər ki, bir qoca balıxçı gəlib torunu atıb dəryaya, başladı balıx tutmağa. Qocanın toruna bir yekə balıx düşdü, ha çəkdisə gücü çatmadı. It dişiynən toru tutub çəkdi, qocaya kömək elədi. Toru bir təhər kənara çıxardılar, içindən bir yekə balıx çıxdı. Qoca fikirləşdi ki, bu itnən pişik buna kömək elədilər. Odu ki, balığın qarnını yarıb içalatını itnən pişiyin qabağına atdı ki, yazıxdılar, acdılar, yeyib doysunnar. Itnən pişik leşin içini axdarıb üzüyü ordan tapdılar. Sevinə-sevinə aparıb keçələ verdilər. Keçəl üzüyü alıb itnən pişiyin başını sığalladı, onlara çoxlu yemək verib razılıq elədi. Keçəlin keyfi kökəldi, nənəsinə dedi:

- Nənə, de görüm dünyada ən gözəl qız kimdi?

Qarı dedi:

- A bala, neyləyirsən kimdi?

Keçəl dedi:

- Alıb özümə arvad eləyəcəm.

Nənəsi dedi:

- A bala, kirimişcə otur yerində, sən bir keçəlin biri yatmağa heç yorğan-döşəyin də yoxdu, elə gözəl qızlar padşahlarda olur, onu da ki, sənə verməzlər.

Keçəl dedi:

- Sənin oralarnan işin olmasın, sən de görüm, gözəl qız kimin qızıdı?

Arvad dedi:

- Oğul, mən eşitmişəm ki, ən gözəl qız Hindistan padşahının kiçik qızıdı, amma onun da nişannısı var.

Keçəl dedi:

- Eybi yoxdu, mən o qızı alıb gətirəcəm.

Səhər keçəl durub üzüyü dilinin altına qoyub dedi:

- Üzük, həzrət Süleyman eşqinə sənnən bir imarət istəyirəm bir kərpici qızıldan, bir kərpici gümüşdən. Özü də o qədər hündür olsun ki, başı bulutdan, binəsi yerdən nəm çəksin.

O saat bir də gördü ki, gurultu-nəriltiynən bir imarət hazır oldu ki, keçəlin dediyinnən də qəşəng. Keçəlin nənəsi bu işə lap məhəttəl qaldı. Keçəl dedi:

- Nənə, ev hazırdı, mən gedirəm indi də haman qızı gətirəm.

Keçəl xalçanın üstündə oturub dedi:

- Xalça, həzrət Süleyman eşqinə məni apar Hindistan padşahının torpağına.

O saat xalça göyə qalxıb keçəli apardı Hindistan torpağına, düz padşahın evinin qabağında qoydu yerə. Elə bu vaxtıydı ki, padşahın qızı aynadan küçəyə baxırdı. Keçəl qızı görən kimi az qaldı ağlı başından çıxsın, o saat dedi:

- Elə əsil mən deyən gözəldi ki, var.

Tez üzüyü dilinin altına qoyub dedi:

- Üzük, sənnən istəyirəm ki, padşahın bu gözəl qızı bu saat mənim bu xalçamın üstündə olsun.

O dəqiqə gördü ki, qız xalçanın üstədi. Dedi:

- Xalça, bizi həzrət Süleyman eşqinə apar öz evimizə. Xalça göyə qalxıb bunları düz gətirdi bir kərpici qızıl, bir kərpici gümüşdən olan imarətin içinə. Qız baxıb gördü ki, bura elə bir imarətdi ki, heç onun atası yuxusunda da görə bilməzdi. Qərəz, qıznan bir gün-beş gün belə burda ömür sürsünlər, görək Hindistan padşahı neylədi. Hindistan padşahı bir də xəbər tutdu ki, bəs qızı yoxa çəkilib. Hər yerə adam saldırdı, car çəkdirdi, qızdan bir sorax çıxmadı ki, çıxmadı. Axırda padşah baş vəzirini yanına çağırtdırıb dedi:

- Vəzir, gündə on dəfə qolumun qarısı sıxılır, ürəyim qısılır, qızımın getməyinə dözə bilmirəm, bir tədbir gör.

Vəzir dedi:

- Qibleyi-aləm, mən neçə gündü fikirləşirəm, çox götür-qoy eləmişəm, çoxlu rəmmallar çağırmışam; heç biri ağıllı bir söz deyə bilmir. Bircə rəmmal dedi ki, qızı bir keçəl oğlan aparıb, özü də bir kərpici qızıl, bir kərpici gümüş bir imarətdə saxlayır. Indi bircə ümidim ona gəlir ki, bir küp qarısı tapax, göndərək hər yeri axtarsın, bəlkə bir xəbər gətirə bildi.

Padşah o saat əmr elədi bir küpə girən qarı tapıb gətirdilər. Padşah baxıb gördü bu elə bir qarıdı ki, üzünə baxan gərək kəffarə verə. Gözləri çaş, ağzı əyri, qılçası topal, beli donqar, qaş-qabağınnan da ki, lap zəhirmar tökülür. Padşah dedi:

- Vəzir, bu şil-kütün biridi, düz yerdə yeriyə bilmir, ağlım kəsmir ki, bunun əlinnən iş gələ.

Qarı dedi:

- Ey padşah, sən mənim sür-süfətimə baxma, gördüyüm işə bax. De görüm məni neyləyirsən çağırıb?

Padşah dedi:

- Qarı, mənim qızım birdən-birə yoxa çəkilib. Hər yeri ələk-fələk eləmişəm, tapa bilmirəm. Əgər sən onu tapa bilsən, nə istəsən verərəm.

Qarı gülüb dedi:

- Elə bu?

Padşah dedi:

- Bu azdı?

Qarı dedi:

- Sağ olmuş, belə işlər mənim əlimdə su içimi kimi bir şeydi. Günü bu gün taparam, amma gərək mənə xələt verəsən.

Padşah o saat əlin atıb qarının ovcuna bir xışma qızıl basdı. Qarı qızılı görən kimi gözləri siçan tutmuş pişik kimi dörd oldu. O saat dabanına tüpürüb evdən çıxdı. Vəzir, vəkil qarının dalınca

baxıb gördülər ki, elə bil ki, hacıleyləkdi. Qarı evinə gəlib girdi küpün içinə, puçunu burdu, o saat güp gurultuynan-pırıltıynan qalxdı düz yeddinci göyə. Qarı küpün içində göydə hər yeri dövran eləyirdi, bir də gördü ki, uzaxda bir imarət görünür, elə bil gün çıxıb hər yerə işıx salır. Küpü düz sürdü o tərəfə. Gəlib şəhər qırağında bir xarabalıxda endi yerə, küpdən çıxıb özünə yetmiş yerdən sığal verdi, bir əlinə əsa, bir əlinə də təsbeh alıb gəldi həmən imarətin qabağına. O qədər güddü ki, gördü padşahın qızı küləfirəngiyə çıxıb baxır. Tez qarı gəlib küləfirənginin yanından keçəndə birdən ayağını boş qoyub yıxıldı yerə, başladı yalannan ax-uf eliyib zarımağa. Qızın qarıya yazığı gəldi, nökərlərə əmr elədi ki, gedin o qarını gətirin evə, bir az çörəkdən-zaddan verək.

Nökərlər gedib qarını yerdən qaldırıb gətirdilər qızın yanına.

Yaxşı deyiblər kor nə istər iki göz, biri əyri, biri düz. Elə qarı da bunu istəyirdi ki, özünü bir təhər qızın yanına salsın.

Qız qarını görən kimi dedi:

- Qarı nənə, hara gedirdin, niyə yıxıldın?

Qarı təsbehini çevirə-çevirə dedi:

- Bıy, qarı nənə sənə qurban, nə gözəl-göyçək qızsan, lap padşah qızına oxşayırsan. Mən kasıb bir arvadam, heç kimim yoxdu, elə sənin kimi insaflı adamların süfrələrindən artıx qalan qır-qırıntıdan verirlər, bir təhər dolanıram. Indi durub məscidə gedirdim namaz qılmağa, acınnan qılçalarımda taqət qalmamışdı deyin daşa ilişib yıxıldım.

Qızın qarıya yazığı gəldi, gətirib ona yemək verdi. Qarı doyunca yeyib qurtarandan sonra yağlı dilini işə salıb qıza şirin-şirin elə söhbətlər elədi ki, qızın xoşuna gəldi. Qız da neçə vaxdıydı ki, ata-anasınnan ayrılmışdı, burda da bir keçəlin qoca nənəsinnən savayı söhbət eləməyə adam yoxuydu. Qarının söhbəti qızın ürəyini yumşaltdı. Qız da özünün bütün dərdini qarıya söylədi. Qarı gördü ki, qızın ürəyi tamam yumşalıb, nə soruşsa düzünü deyəcək, odu ki, dedi:

- Qızım, bu cahi-cəlal ki, görürsən, heç bir padşahda ola bilməz, bəs sənin ərin bu boyda dövləti hardan alıb?

Qız dedi:

- Qarı nənə, vallah bilmirəm.

Qarı gördü fürsətdi, tez dedi:

- Onda yəqin ərin səni istəmir.

Qız dedi:

- Yox qarı nənə, o mənnən ötəri ölür.

Qarı dedi:

- Qızım, onlar hamısı sözdü, əgər ərin səni istəsə, öz sirrini sənə deyər.

Qarı sözünü qurtarıb qalxdı ayağa getməyə. Qız yalvardı ki, qarı nənə, sən allah sabah da gəl bizə, bir az söhbət elə, təkəm, yaman darıxıram. Qarı, baş üstə, nənən sənə qurban, deyib getdi.

Axşam oldu, keçəl evə gələndə gördü arvadının qaş-qabağı yernən gedir. Dedi:

- Sənə nə olub?

Qız dedi:

- Sən məni istəmirsən.

Keçəl dedi:

- Nəyə görə deyirsən ki, səni istəmirəm.

Qız dedi:

- Məni istəsən bu var-dövləti hardan almağının sirrini mənə deyərsən.

Keçəl nə qədər istədi deməsin, gördü olmur, qız əl çəkmir. Axırda əlacı kəsildi, dedi ki, hal-qəziyə dilimin altında bir üzük var, onu əlimdə tutub desəm ki, həzrət Süleyman eşqinə filan şey filan olsun, o saat o dediyim şey olur. Bu yerə saldığımız yaşıl xalçanın da üstə çıxıb desəm ki, xalça, məni həzrət Süleyman eşqinə filan şəhərə apar, xalça o saat quş kimi uçub məni ora aparar. Bütün bu cah-cəlalı bu üzüynən xalçanın köməyiynən düzəltmişəm.

Qız ərindən bu sözləri eşidəndən sonra rahat yatdı.

Səhər oldu, günorta üstü qarı əsasını yerə diriyə-diriyə yenə gəldi qızın yanına, o yandan, bu yandan söhbət eliyənnən sonra qız dedi:

- Qarı nənə, axşam ərimdən öyrəndim ki, bu dövləti hardan alıb.

Qız keçəlin dediklərini tamam qarıya söylədi. Qarı istədiyinə çatmışdı deyin bu gün dünənkinnən də şirin söhbət elədi. Axşam oldu, keçəl gəldi, amma qarı getmək istəmədi. Yalannan özün yerə yıxıb dedi:

- Vay sancılandım.

Qarı yalannan bir hay-şüyən saldı ki, vay qarannıx düşdü, mən necə gedəcəm.

Qız dedi:

- Qarı nənə, nə çoxdu yerimiz, bu gecə bizdə yatarsan, sabah yaxşı olub gedərsən.

Elə qarı da bunu istəyirdi. O saat qızı qucaqlayıb marçahamarç o üzünnən, bu üzünnən öpüb dedi:

- Qızım, səni görüm xoşbaxt olasan, qalmışdım fikirdə ki, bu sancıynan mən hara gedəcəm.

Gecə yatmax vaxtı gələndə qarının yerini qapının yanınnan saldılar. Qızнan oğlan da evin yuxarı başında hərəsi bir yer salıb yatdılar.

Gecənin bir vaxtı imansız qarı durub bunların burnuna bihuşdarı iylətdi, barmağıynan oğlanın burnunu tutdu. Oğlanın nəfəsi darıxdı, ağzını açdı, qarı əlini salıb dilinin altınnan üzüyü götürdü. Dəstəmaz alıb namaz qıldı, xalçanın üstündə oturub üzüyə dedi:

- Xalça, həzrət Süleyman eşqinə qızнan məni bu imarətlə bərabər apar Hindistan padşahının torpağına.

Qarı bu sözü deyən kimi bir də gördü qalxdı göyün üzünə, bir göz qırpımında çatdı Hindistana. Üzüynən xalçanı da aparıb getdi padşahın yanına, əhvalatı tamam-kamal söyləyib dedi:

- Indi gedib qızına baxa bilərsən.

Padşah vəziri də götürüb getdi qızının yanına, gördü doğrudan belə bir imarət heç bir padşahın torpağında yoxdu. Özü də qızı hələ yuxudan ayılmayıb. Padşah qızını ayıldıb başladı dərdləşməyə.

Bunları burda qoyax, görək keçəlin başına nə gəldi. Keçəl bir də ayılıb gördü ki, nə qız, nə ev, lələ köçüb yurdu qalıb. Qoca nənəsiynən öz köhnə evlərində bir cırıx həsirin üstə qalıblar. O saat barmağını dişlədi ki, bizi didərgin salan yəqin o qarı olacaq. Arvadımın dili difdimiş dursaydı, məndən sirri soruşmasaydı belə də olmazdı.

Keçəl dedi:

- Nənə, yenə ipdən-zaddan əyir, aparım satım, bir az əppək alım.

Arvadın əlacı kəsildi, cəhrəni, iyi götürüb bir az yun əyirib iplik elədi verdi keçələ ki, aparıb satsın. Keçəl dedi:

- Eh, ay nənə bunnan nə çıxacax, bir-iki qəpik-quruş verələr, ya verməyələr.

Nənəsi dedi:

- Ay oğul, neyliyim əlimnən ayrı iş gəlmir.

Keçəl dedi:

- Ay nənə, kasıbın baxdı olmaz, cibimdə bir sağ yer yoxdu ki, qəpik-quruşumu ora qoyam, qorxuram itə. Bəlkə köhnə-kürüş bir kisədən-zaddan ola?

Nənəsi dedi:

- Bıy, ay oğul yaxşı yadıma saldın, dədənnən üç şey qalıb, bir pul kisəsi, bir düdük, bir də papax. Dədən həmişə deyərdi ki, bunları divlərin zağasınnan tapıb. Mən elə o vaxtdan onları sandıxda saxlayırdım, gətirim torbanı verim. Arvad gətirib boş kisəni nəvəsinə verdi. Keçəl ip yumağını da götürüb getdi bazara. Kələfi iki quruşa satdı, bir quruşuna əppək aldı, bir quruşunu da kisəyə saldı.

Axşam oldu, keçəl gəldi evlərinə, çörəklərini yedilər, yatdılar. Səhər arvad yenə bir kələf verdi ki, keçəl aparıb satsın. Keçəl dedi:

- Nənə, dünən bir quruşlux əppək almışdım, bir quruş da artırıb kisəmə salmışdım. Indi bu bir quruşu verim sən saxla, elə gündə bir quruş artırsam yaxşı olar. Keçəl kisəni açıb quruşu

çıxardanda gördü ki, pul dönüb qızıl olub. Nənə-bala bu işə məəttəl qaldılar. Keçəl sevinə-sevinə getdi bazara, ipi satıb iki quruş qazandı bir quruşlux çörək aldı, bir quruşu da kisəyə saldı. Evə gəlib kisəni açanda gördü ki, bu pul da qızıl olub. O saat bildilər ki, nə sirr varsa, bu kisədədi. Odu ki, nənə-bala əllərinə keçən daşı-dəmiri kisəyə doldurub boşaldan kimi hamısı qızıl olurdu. Bir gün, beş gün keçəl bu kisəynən o qədər varlandı ki, var-dövlət başınnan aşdı. Bir qəşəng imarət tikdirdi ki, əvvəlkinnən də yaxşı. Imarətə qızıl-gümüşdən, lə`l-cavahiratdan bir bəzək vurdurmuşdu ki, yeddi ağaclıxdan gün kimi işıx salırdı. Keçəlin keyfi lap kökəlmişdi, odu ki, dedi:

- Nənə, bu kişilikdən deyil ki, mən burda duram, arvadım Hindistanda, allaha şükür, var-dövlət desən bizdə ev-eşik desən bizdə, gəl sən burda ye-iç, dolan, mən gedim, bəlkə qızı tapa bildim.

Nənəsi istədi razı olmasın, gördü yox, nəvəsi deyəsən əl çəkməyəcək. Əlacı kəsildi, razılıq verdi ki, oğul, yaxşı bu gecə qal, sabah yola düşərsən.

Nənə-bala oturub dərdləşirdilər, birdən keçəl dedi:

- Nənə, əgər bu pul kisəsi olmasaydı, biz acından nə günə qalardıx, qapı-qapı düşüb dilənərdik.

Nənəsi dedi:

- Hə, ay oğul, neçə il idi ki, o kisə sandıxda dururdu, mən nə biləydim ki, bu kisə beləymiş.

Keçəl dedi:

- Nənə, sən deyirdin ki, dədəmnən bir papaxnan düdük də qalıb, birdən onlarda da bir sirr olar. Gətir bir baxaq, görək onlar necə şeydi.

Arvad durub sandıxdan papaxla düdüyü də gətirib oğluna verdi. Keçəl papağı qoydu başına ki, görsün necə olur.

Elə papağı başına qoyan kimi nənəsi dedi:

- Bıy, başıma daşlar, nəvəm qeyb oldu ki.

Arvad başladı hay-şivənə ki, bala sən necə oldun?

Keçəl elə bildi ki, nənəsi dəli oldu. Dedi:

- Ay nənə, sənə nə olub, görmürsənmi burda, yanında oturmuşam.

Arvad dad-fəryad elədi ki, ay oğul, vallah səni görmürəm. Birdən keçəlin ürəyinə gəldi ki, demək olmaz, şətəl bu papaxdan keçmiş olar, tez papağı başınnan götürdü. O saat nənəsi keçəli qucaxlayıb dedi:

- Ay bala, bu nə iş idi?

Keçəl dedi:

- Nənə darıxma, bu saat bu sirri tapacam.

Papağı qoydu nənəsinin başına, baxdı ki, indi də arvad yoxa çəkildi. Keçəl sevinə-sevinə dedi:

- Nənə tapdım, bu papağı kim başına qoyursa, gözə görükmür, indi də mən səni görmürdüm.

Keçəl şükür elədi ki, bu lap yaxşı oldu. Papağı qoyaram başıma, heç kim məni görməz, nə keyfim istəyər eləyərəm.

Keçəl dedi:

- Nənə, mənim gözüm bu düdükdən də su içmir. Görəsən bunda nə sirr var?

Düdüyü əlinə alıb o üzünə, bu üzünə çevirdi, heç bir şey olmadı. Birdən ağzına apardı ki, görsün çalınırmı, elə bircə dəfə üfürmüşdü ki, bir də gördü ki, eşikdən bir səs-küy gəlir, bir hay-həşir var ki, az qalır yer-göy lərzəyə gəlsin. Qapını açdı ki, eşiyə baxsın, gördü burda o qədər qoşun var, o qədər qoşun var ki, iynə atsan yerə düşməz. Keçəli görən kimi qoşun başçısı gəlib ona yalvardı ki, dünyada nə istəyirsən verək, hara getmək istəyirsən aparax, sən o düdüyü çalma, bizim hamımızın qulağı onun səsindən kar olub. Keçəl o saat başa düşdü ki, düdükdə də bu əlamət varıymış. Keçəl fürsəti fövtə vermədi, dedi:

- Məni aparın Hindistan torpağına, mən də düdüyü çalmayım.

Qoşun böyüyü o saat razı oldu.

Keçəl nənəsiynən halallaşıb düşdü qoşun böyüyünün yanına, başladılar getməyə. Elə bir az getmişdilər qoşun böyüyü nə elədi, nə eləmədi, keçəl bir də baxıb gördü ki, budu Hindistan torpağında, qızın imarətinin qabağındadı. Keçəl qoşun böyüyünü buraxıb özü başladı qızın yanına getməyə. Gördü ki, qızın imarəti hər tərəfdən elə hündür hasarla dövrələnib ki, ordan heç quş da səkə bilməz. Istədi qapıdan xəlvət getsin, gördü yox, bu da mümkün deyil. Qapıda iki elə bığıburma pəhlivan durub ki, adamı az qalır gözüynən yesin.

Keçəl o qədər gözlədi ki, qapı açılanda papağı başına qoyub bir böyürdən girdi içəri. Axtara-axtara düz gedib çıxdı qızın otağına. Qapının arasınnan baxıb gördü ki, arvadı evdə təkcə oturub, qabağında da bir yekə qızıl nimçədə aş. Keçəl papağı başına qoyub qapını açdı, girdi içəri, sonra da qapını örtüb cəftəsini də vurdu. Qız gördü qapı açıldı, sonra da öz-özünə bağlandı, amma içəri heç kim girmədi. Qızı vəhmə basdı ki, görəsən bu nə olan işdi. Keçəl yol gəlib bərk acımışdı, aşı görən kimi ədəbərkannan yerdə bardaş qurub başladı aşı yeməyə. Qız gördü aşı yeyirlər, amma gözə adam-zad görükmür. Qorxudan qız qışqırıb qaçmaq istəyəndə keçəl səsləndi ki, hara qaçırsan, mən sənin ərinəm, gəlmişəm səni aparmağa. Keçəl papağı başından götürüb yerə qoydu, qız baxıb gördü ki, öz əridi. Dili tutula-tutula dedi:

- A kişi, bu nə işdi, sən cinsən, şəyatinsən, nəsən, məni agah elə.

Keçəl dedi:

- Gəl otur bir az dərdləşək, sonra bilərsən.

Bunlar oturub başlarına gələn qəzavü-qədərdən danışdılar. Axırda keçəl dedi:

- Indi dur hazırlaş, səni aparmağa gəlmişəm.

Qız dedi:

- A kişi, sənin evin yox, yeməyə çörəyin yox, bu cür alaxana-balaxananı qoyub hara gedirsən, elə qal burda olax.

Keçəl dedi:

- Əşi sən nə danışırsan, indi elə bir cahi-cəlal düzəltmişəm ki, bu gördüyün mülk onun yanında tövləyə oxşayır.

Qız inanmadı ki, inanmadı. Dedi:

- Axı niyə məni aldadırsan, sən o qədər pulu hardan aldın?

Keçəl gördü olmur, axırı açıb dedi:

- Ay natərəs qızı natərəs, bax bu kisəni görürsənmi, bunun içinə hər nə qoysan dönüb olur qızıl. Bütün var-dövləti bu kisəynən düzəltmişəm.

Qız dedi:

- Bəs yaxşı, indi sənin xalçan yox, üzüyün yox, bu uzax yolu nə cür gəlib çıxdın?

Keçəl düdüyü çıxardıb dedi:

- Bax bunu bircə dəfə çalsam, hara istəsəm məni aparıb qoyarlar.

Bunları burda qoyax, sizə xəbər verək padşahdan.

Padşah qorxurdu ki, qızını gəlib apararlar. Odu ki, qızın otağının üstündən xəlvətcə bir baca açdırıb ora bir adam qoymuşdu ki, gecə-gündüz qızı pusub gözləsin. Bu işdən qızın xəbəri yox idi. Qızınan keçəlin bu danışıxlarını bacadan pusan adam eşidib, düz qaça-qaça daban aldı padşahın yanına, bütün gördüklərini danışdı. Padşah o qədər gözlədi ki, qıznan keçəl soyunub yatdılar. Bunlar şirin yuxuda yata-yata aynadan, bacadan düşüb keçəlin əl-ayağını sarıdılar, kisəni, papağı, düdüyü də aparıb padşaha verdilər. Keçəli möhkəm döyüb saldılar zindana.

Qızın da keçələ o qədər meyli yoxuydu deyə atasına heç bir söz demədi.

Keçəl zindanda qalmaxda olsun, sizə kimnən deyim, keçəlin nənəsindən, itnən pişikdən. Yazıx arvad hər gün keçəlin cahi-cəlalına baxıb ah çəkirdi. Itnən pişik də heç yerə getmirdilər, keçəlin nənəsinə hayanlıq eləyirdilər. Arvad da elə hörünü salmışdı itnən pişiyə. Bir gün keçəlin nənəsinin yenə nəvəsi yadına düşmüşdü deyin bikeyf idi. Itnən pişik sözü bir yerə qoydular ki, bu heç kişilikdən deyil ki, keçəl bizi ölümnən qurtardı, gərək biz də ona yaxşılıq eləyək, gedək onu tapax, üzüyü padşahdan alax.

Itnən pişik yol başlayıb düz getdilər Hindistan torpağına. Pişik qabaxda qaçırdı, it də onu qovurdu, elə gedirdilər ki, heç quş da onlara çata bilməzdi. Bunla bu getməynən düz qırx gün, qırx gecə yol getdilər çaylar keçdilər, dağlar aşdılar; axırı Hindistana çatdılar. Gedib qızın imarətini tapdılar. Pişik qapını açıb miyoldaya-miyoldaya girdi qızın yanına. Keçəlin arvadı o saat pişiyi tanıdı. Qız nə qədər pişiyi sığalladı, çörək verdisə, elə miyoltusu kəsmədi, gözü o üzə, bu üzə baxırdı. Qız başa düşdü ki pişik keçəli axtarır. Odu ki, dedi:

- Ay allahın heyvanı, bilirəm keçəli axtarırsan, o zindandadı.

Qızın söz ağzınnan qurtarmamış pişiklə it qapıdan çıxdı, zindana üz qoydular. Pişik bacadan özünü içəri saldı, başladı miyoldamağa. Keçəl o saat pişiyini tanıdı.

Pişik dil açıb insan kimi dedi:

- Itnən mən gəlmişik üzüynən, xalçanı oğurluyub səni burdan aparax.

Keçəl dedi:

Üzük padşahın dilinin altındadı, xalça da taxtın qabağında yerə salınıb.

Itnən pişik düz getdilər padşahın evinin qabağına.

Aynadan-qapıdan nə qədər boylandılarsa, girməyə bir yer tapmadılar. Pişik o tərəf, bu tərəfə boylanırdı, bir də gördü kü, bir siçan qapının altınnan çıxıb qaçır. Tez xirtləkləyib siçanı tutdu. Siçan gözünün yaşını sel kimi axıdıb başladı yalvarmağa, dedi:

- Səni and verirəm ananın südünə, məni yemə, balalarım var, acdılar onlara yemək aparıram.

Pişik dedi:

- Sənnən bir şərtim var, onu eləsən yemərəm.

Siçan dedi:

- Şərtin nədi?

Pişik dedi:

- Gərək sən qapının küncünnən bir deşik açasan, mən də sənnən ordan girək içəri. Padşahın dilinin altında bir üzük var, onu çıxardıb verərsən mənə, onnan sonra sənnən işim yoxdu.

Siçan əlini gözünün üstə qoyub dedi:

- Baş üstə, o mənim əlimdə.

Siçan o saat dişiynən qapının taxtasını xırhaxırnan kəsib bir deşik açdı. Pişiynən girdilər içəri. Pişik tez dırmaşıb cəftəni içəridən açdı, qapının arasını açıx qoydu. Gördülər padşah taxtın üstə fışhafısnan yatır. Pişik tez yerdən xalçanı qatlayıb verdi itə. Siçan taxtın üstə o üzə, bu üzə hoppanıb çıxdı padşahın sinəsinin üstünə, yavaşca quyruğunun ucunu padşahın burnunun deşiyinə saldı, o saat padşah asqırdı, üzük ağzından sıçrayıb yerə düşdü. Pişik üzüyü götürüb siçana razılıx eləyib çıxdı eşiyə. It xalçanı, pişik də üzüyü götürüb getdilər keçəlin yanına, üzüyü verdilər keçələ. Keçəl dedi:

- Üzük, həzrət Süleyman eşqinə məni bu zindannan qurtar.

Söz ağzınnan qurtaran kimi bir də gördü ki, zindanın qapısı açıldı. Keçəl çıxıb itnən də görüşdü. Üçü də oturdular xalçanın üstündə, keçəl yenə dedi:

- Xalça, həzrət Süleyman eşqinə arvadımı da burda səndən istəyirəm. Bizi apar öz evimizə.

Bir də gördülər arvadı da xalçanın üstündədi. Xalça qalxıb göyə, uça-uça bunları düz gətirdi öz evlərinə. Keçəlin nənəsi sevindiyindən bilmədi neyləsin.

Bunları burda qoyax, görək padşah necə oldu. Padşah yuxudan ayılıb gördü xalça yerdə yoxdu, dilini tərpədib gördü ki, üzük də qeybə çəkilib. Padşah dizinə döyə-döyə qaldı, ərəsət-şivən saldı, vəzir-vəkili başına yığdı, bir çarə istədi. Axırda vəzir dedi:

- Qibleyi-aləm sağ olsun, bu işə bircə küp qarısınnan savayı heç kim əncam çəkməyəcək, sən onu çağırtdır. Padşah o saat haman küpə girən qarını gətirtdi hüzuruna. Əhvalatı ona söyləyib kömək istədi. Qarı əvvəlcə çox nəm-nüm elədi ki, axı onlar məni tanıyırlar, bu dəfə harda görsələr tutub öldürərlər. Padşah qarının ovcuna iki xışma qızıl qoyub dedi:

- Mən bilmirəm neyliyirsən elə, qızımı tap gətir. Qarı qızılı körən kimi baş əyib getdi. Qarı küpün içinə girib düz qalxdı göyün bir qatına, gedib keçəlin olduğu şəhərə çatdı. Bir xarabalıxda

küpünü gizlədib, bir sehir oxudu, özünü elədi on beş yaşında bakirə bir qız. Düz gəlib keçəlin aynasının qabağında oturdu. Elə bu hində keçəlin arvadı aynadan qızı gördü, adam göndərdi ki, gedin o qızı çağırın görüm buralarda nə axtarır. Gedib qız sifətinə düşmüş küp qarısını gətirdilər. Keçəlin arvadı dedi:

- Ay qəşəng qız, buralarda nə axtarırsan?

Qız dedi:

- Ay xanım, vallah mən köçdən azıb qalmışam, ata-anamı axtardım tapa bilmədim, indi gecələməyə bir yer axtarıram, gəlib çıxmışam bura.

Padşah qızının buna yazığı gəldi, ərini himnən başa saldı ki, nə deyirsən, bunu yanımızda saxlayaxmı?

Keçəl fikirləşdi ki, arvadım atası evində hüröyün böyümüş adamdı, indi burda təkcə qulağı batmış adam kimi qalıb, elə bu qıznan gününü keçirər, darıxmaz, odu ki, başıynan razılıx verdi. Padşah qızı dedi:

- Ay qəşəng qız, mən də gündüzlər evdə tək qalıb darıxıram, gəl sən qal mənim yanımda, nə vaxt ata-anan gələr, onda gedərsən.

Yaxşı deyiblər kor nə istər iki göz, biri əyri biri düz. Qız elə belə bir işi allahdan istəyirdi. Odu ki, özünü tülkülüyə qoyub dedi:

- Xanım, sən ki, deyirsən qal, qalıram yanında.

Bəli, gecə oldu, yatmax vaxtı gəldi, yer salıb hərəsi bir tərəfdə yatdılar. Gecədən bir az keçmiş keçəl yenicə hənirə getməmiş qız durub ər-arvadın burnuna behişdarı iylətdi, sonra üzüyü keçəlin dilinin altınnan çıxardıb dedi:

- Üzük, bir göz qırpımında qıznan məni bu imarətnən bir yerdə, həzrət Süleyman eşqinə apar Hindistana.

Söz tamam olan kimi qarının mətləbi hazır oldu, qız gözün açanda gördü kü, Hindistanda atasının yanındadı. Bu tərəfdən keçəl də ayılıb gördü ki, nənəsiynən yenə qalıb öz köhnə daxmalarında bir cırıx təlisin üstündə. Keçəl boynunun süysününə bir yumrux vurdu ki, kül mənim başıma, bu şətəl yəqin o qızdan keçdi, mən niyə onu evə qoyurdum ki, belə də olurdu. Keçəl and içdi ki, vallah əgər mənim bir də yönüm düşsə Hindistana getsəm, gərək padşahnan qarıya bir turp əkdirəm, bir turp əkdirəm ki, qiyamatacan yadlarınnan çıxmasın.

Bu işlər keçələ yaman əsər eləmişdi. Nə yeyirdi, nə içirdi, acınnan quruyub laf ələngəyə dönmüşdü. Bir gün axşam vaxtı keçəl nənəsinə dedi:

- Nənə, məni rizə-rizə doğrasalar da, burda duran deyiləm, gedirəm, ya mənə verən allah, ya padşaha.

Nənəsi nə qədər yalvar-yapış elədi ki, oğul, bu vaxt hara gedirsən, qal sabah get. Keçəl dedi:

- Nənə, həmzatım tutub, daha dura bilmirəm, mən getdim.

Nənəsi gördü ki, keçəl dediyinnən dönməyəcək. Odu ki, dedi:

- Oğul, get, yolun uğur olsun.

Keçəl evdən çıxdı, az getdi, çox dayandı, çox getdi, az dayandı, dağlar aşdı, çaylar keçdi, gəlib bir meşəyə çıxdı. Keçəl acmışdı, yeməyə bir şey axtarırdı. Gördü ki, meşə doludu cır meyvəynən. Bir az almadan-armuddan, gavalıdan dərib, doldurdu xurcununa. Ürəyi əzilirdi, iki dənə gavalı götürüb ağzına atdı, elə gavalını yeyib qurtaran kimi bir də gördü ki, təpəsinin ortasınnan iki buynuz çıxdı. Nə qədər çalışdı ki, buynuzları qoparsın, gördü mümkün olmur. Qaldı məəttəl ki, görəsən bu niyə belə oldu, ağlına da gəlmədi ki, bunu eliyən gavalıdı. Bir azdan sonra xurcunnan bir armud çıxarıb yedi. Bu dəfə gördü ki, elə bil düz-dünya hərləndi bunun başına, kəlləmayallax dəydi yerə. O saat başı qaldı yerdə, ayaxları göydə. Keçəl tamam çaş-baş qaldı. Nə qədər elədi ayağa qalxa bilmədi. Başa düşdü ki, bunu bu günə salan yediyi meyvələrdi. Yazıx keçəl başı yerdə, ayaxları göydə əlləriynən ölüm-zülüm bir xeyli gedib meşədən çıxdı, gördü aşağıda bir qəşəng örüş var. Yendi örüşə, istədi bir az uzanıb dincini alsın, gördü yox, nə uzanmax, nə dincəlmək heç biri mümkün deyil. Keçəl lap təngə gəldi.

Öz-özünə fikirləşdi ki, məni bu günə salan gavalıynan armud oldu. Allaha təvəkkül, qoy almadan da birini yeyim, ya məni bir az da pis günə salsın, ya da öldürsün, canım qurtarsın. Bu fikirnən almadan birini yedi. Almanı yeyənnən sonra nə görsə yaxşıdı, bir də gördü ki, təzədən dönüb anadan gəlmə sappasağ. Nə buynuz var, nə bir şey. Başladı yenə həmişəki kimi yeriməyə. Keçəl istədi ki, xurcundakı meyvələri boşaltsın yerə, birdən ağlına gəldi ki, ay gidi elə yaxşı oldu. Gedərəm Hindistana, bunları bir təhər fırıldağnan-zadnan verərəm padşaha yeyər, buynuz çıxardıb, təpəsi üstə qalar. Keçəl xurcunu çiyninə alıb soraxlaşa-soraxlaşa yol başladı Hindistana getməyə. Elə bir az getmişdi ki, gördü bir kahanın qabağında bir bədheybət div, ayaxları qalxıb göyə, başı qalıb yerdə. Div elə qəzəblənib, elə qəzəblənib, dırnaxlarıynan yeri kotan kimi eşir, nərəsinnən dağ-daş lərzəyə gəlib əsir. Keçəl divi görəndə istədi qaçsın, div onu gördü çığırdı, dedi:

- Ey bəni-insan, mənim əlimnən heç yana qaça bilməyəcəksən, nahax əziyyət çəkmə, gəl yanıma, mən neçə illərdi ki, belə təpəsi üstə qalmışam, əgər dərdimə əlac eliyə bilsən, nə istəsən onu verəcəm, yox, əlac eliyə bilməsən, səni bircə tikiyə dürmək eləyib yeyəcəm.

Keçəl başa düşdü ki, div də onun kimi armud yeyib bu günə düşüb. Odu ki, xurcununnan bir alma çıxardıb verdi divə, dedi:

- Bu almanı ye, yaxşı olacaqsan.

Div almanı yeyən kimi, qalxıb durdu ayaq üstə, sevindiyinnən keçəli başladı duz kimi yalamağa. Div dedi:

- Qardaş, indi de görüm mənnən nə istəyirsən?

Keçəl dedi:

- Sənnən heç nə istəmirəm, bircə məni aparıb qoyasan Hindistana.

Div o saat əlini gözünün üstə qoyub dedi:

- Mənim gözüm üstə, min dalıma, özü də gözünü yum.

Bəli, keçəl xurcununu çiyninə salıb mindi divin dalına. Div bir lövh oxuyub tənur elədi göyə, uça-uça keçəli aparıb qoydu Hindistana, sonra özü qayıdıb gəldi.

Keçəl Hindistana çatmaxda olsun, sizə kimnən xəbər verim, padşahdan. Demə padşaha soyux dəyib bir az keyfsizmiş. Keçəl gördü ki, car çəkirlər ki, bəs padşah azarlayıb, kimdi yaxşı həkim gəlsin onu yaxşı eləsin, çoxlu xələt alsın. Keçəl fürsəti fövta verməyib tez bir həkim paltarı tapıb geydi, xurcundakı meyvələrdən də bir az cibinə doldurub getdi padşahın yanına, əhvalatı söylədi ki, bəs mən səni yaxşı eləyə bilərəm.

Padşah dedi:

- Həkim, mənim başımda bu saat bir ağrı var ki, bütün dünya gözümə qarannıx görünür. Məni yaxşı eləsən, nə istəsən verəcəm.

Keçəl cibinnən bir armudnan bir gavalı çıxarıb verdi padşaha, dedi:

- Al, bunların ikisini də birdən ye, sağalacaqsan.

Padşah armudnan gavalını yeyən kimi təpəsinnən bir buynuz çıxartdı, özü də ayaxları qalxdı göyə, başı endi yerə, qaldı təpəsi üstə. O saat hay-küy düşdü, keçəli tutdular. Keçəl dedi:

- Heç zəhmət çəkməyin, mən qaçıb eliyəsi deyiləm.

Vəzir arif adamdı, gördü ki, padşah kəlləmayallax olannan sonra həkim əlini belinə qoyub kələ kimi baxır, özü də suşdu adama oxşayır. Odu ki, dedi:

- Ah həkim, bu nə işdi, niyə belə oldu?

Keçəl dedi:

- Haqqı odur, belə padşaha bu da azdı.

Padşah həkimi belə görəndə cin vurdu beyninə ki, bu saat vurun bu məl`unun boynunu. Keçəl şaqqıltıynan gülüb dedi:

- Ay padşah, sən ağıllı adam olsan, mənim ölümümə fərman verməzdin. Sənin dərmanını məndən savayı heç kim bilmir. Mən olmayannan sonra heç kim səni yaxşı eliyə bilməyəcək, təpəsi üstə qalıb sən də öləcəksən.

Padşah gördü həkim düz deyir. Odur ki, onu dilə tutub dedi:

- Həkim, nə istəyirsən verim, məni yaxşı elə.

Keçəl dedi:

- Üzüyü, xalçanı, papağı, kisəni, düdüyü.

Padşah o saat bildi ki, bu qızını aparan keçəldi. Padşah keçələ nə qədər hədə-qorxu gəldisə, bir şey çıxmadı. Axırda əmr elədi gətirib keçəlin istədiyi şeylərin hamısını verdilər. Keçəl şeyləri alannan sonra dedi:

- Padşah, mən səni bu dəfə yaxşı eləyəcəm, amma sonra mənə xəyanət eləsən, and olsun atamın ərvahına sənə bir doan tutacam əlləzinəni əzbərdən oxuyacaxsan.

Padşah and-aman eləyənnən sonra keçəl çıxardıb ona bir alma verdi. Padşahın gözü qorxmuşdu deyin yemək istəmədi. Keçəl dedi:

- Ye, qorxma, sənin dərmanın bu almadadı.

Padşah almanı yeyən kimi durub oturdu yerində, buynuzu da düşdü yerə. Hamı bu işə məəttəl qaldı.

Keçəl xalçaynan üzüyü alandan sonra gəldi arvadının yanına, onu da xalçanın üstündə oturdub dedi:

- Xalça, həzrət Süleyman eşqinə bizi apar öz qızıl kərpicli evimizə.

Xalça göyə qalxıb bunları gətirdi öz imarətlərinə.

Keçəl nənəsiynən görüşüb öpüşdü. Itnən pişiyi də doyuzdurub öz yanında saxladı. O günnən itnən pişik imarətin dörd tərəfini gözləyib həndəvərə bir adam da buraxmırdılar.

Günlərin birində keçəl arvadına dedi:

- Yaxşı, sən mənnən hər nə xəbər alırdınsa, mən sənə deyirdim, indi sən də mənə de görüm sən ki, üzüyün sirrini bilirdin, qarı səni oğurlayıb aparannan sonra niyə məni axtarmırdın?

Qız dedi:

- Vallah, allahdan gizlin deyil, sənnən nə gizlin. Mən baxıb görürdüm ki, sən qoçaq, mərd oğlansan, amma başına baxanda adamın qol-qanadı sınıb yanına düşürdü. Sənin keçəl olmağın məni yaman mə`yus eləyirdi. Odu ki, qalmışdım iki dağın arasında.

Bu söz keçəli yaman bərk tutdu, bir xeyli fikrə getdi, birdən yadına düşdü ki, ay gidi, mənim barmağımdakı üzük dünyada nə istəsən onu verir, mən niyə dərdimə onnan əlac istəmirəm?

Keçəl tez üzüyü barmağınnan çıxardıb oturdu xalçanın üstündə, dedi:

- Üzük, həzrət Süleyman eşqinə məni elə yerə apar ki, orda başımın dərmanı olsun.

Söz tamam olan kimi xalça qalxdı ərşə, o qədər yol getdi, o qədər yol getdi ki, gedib dünyanın axırına çıxdı, orda bir meşənin içinə endi. Keçəl gördü yanında bir qəşəng bulax var ki, suyu dumduru göz yaşı kimi. Suyun içindəki daşlar elə gözəl, elə qəşəngdi ki, elə bil lə`l-cavahiratdı. Hava çox istiydi, keçəl də neçə gün idi yol gəlirdi deyin toz-torpağın içindəydi. Odu ki, paltarını soyunub özünü verdi bulağın suyuna, bir çala düzəldib doyunca çimdi. Sonra çıxıb qıraxda başladı suyunu dərməyə, əlini atdı ki, başını qurulasın, gördü əyə, başı teyzən tükdü. Özünə inanmadı, bir də əlini apardı saçına, gördü doğrudan da başına tük gəlib. Əyilib suda öz şəklinə baxdı, gördü nişanadan ötəri başında bir tük tapılmayan keçəlin başı tüknən doludu. Keçəl sevindiyindən bilmədi neyləsin. Oturdu xalçanın üstündə düz gəldi evlərinə.

Arvadı keçəli görəndə az qaldı tanımasın. Keçəl elə qəşəng oğlan olmuşdu ki, üzünə baxan deyirdi bir də baxım. Bayax qızın məhəbbəti bir idisə, indi artıb oldu min. Ər arvad yeyib-içib keyf çəkdilər, siz də yeyin, için, muradınıza çatın.

Göydən üç alma düşdü, biri mənim, biri itnən pişiyin, biri də qulaq asanların.

Ş Ə N G Ü L Ü M, Ş Ü N G Ü L Ü M, M Ə N G Ü L Ü M

Biri varımış, biri yoxumuş, bir keçi varımış. Bu keçinin gözünün ağı-qarası üç balası varımış. Bu çəpişlərin birinin adı Şəngülüm, birinin adı Şüngülüm, birinin də adı Məngülüm imiş. Keçi hər gün gedib, örüşdə, meşədə otlayarmış, geri qayıdanda da balalarına ağzında su,

buynuzunda ot, məmələrində süd gətirərmiş. Qapının ağzına çatanda qapını döyərmiş; Şəngülüm, Şüngülüm, Məngülüm də atıla-atıla, dingildəyə-dingildəyə qapının dalına gəlib soruşarlarmış:

- Kimdi qapını döyən?

Keçi cavab verərmiş:

Şəngülüm, Şüngülüm, Məngülüm,
Aç qapını mən girim.
Ağzımda su gətirmişəm,
Buynuzumda ot gətirmişəm.
Məməmdə süd gətirmişəm.

Şəngülüm, Şüngülüm, Məngülüm sevinə-sevinə qapını açarmışlar. Keçi içəri girib onların otunu, suyunu, südünü verər, yedirər, içirdər, yatırdar, rahatlayarmış. Sabahısı gedəndə yenə də hər üçünün üzündən öpüb, tapşırarmış:

- Bax, Şəngülüm, Şüngülüm, Məngülüm qurd sizi aldadar, aparıb yeyər ha... Hər kim qapını döydü, mən deyən sözləri oxumadı, qapını açmayın.

Şəngülüm, Şüngülüm, Məngülüm də keçinin o tərəfində, bu tərəfində tullanıb deyərmişlər:

- Yaxşı, səndən başqa heç kimə qapı açmarıq. Arxayın ol.

Günlərin bir günü qurd özünə söz verdi ki, Şəngülümü, Şüngülümü, Məngülümü yesin.

Bəli, keçinin qapısının ağzına gəldi, yavaş-yavaş qapını döyməyə başladı. Şəngülüm, Şüngülüm, Məngülüm dingildəyə-dingildəyə qapının dalına gedib səsləndilər.

- Kimdi qapını döyən?

Qurd keçinin oxuduğu sözləri bilmirdi. O, elə-belə dedi:

- Mənəm, keçiyəm, balalarım, açın qapını.

Şəngülüm, Şüngülüm, Məngülüm o saat bildilər ki, qapını döyən anaları deyil, qurddu, qapını açdırıb onları yemək istəyir. Qorxudan qaçıb, bucaqlarda gizləndilər. Qurd nə qədər qapını döydü, yalvar-yapış elədi, qapını açmadılar. Qurd qapını sındırmaq istəyirdi, bir də gördü keçi gəlir. Qaçıb bir kolun içinə girdi, orada gizləndi ki, görsün keçi qapını nə cür açır. O biri tərəfdən keçi gəlib qapını döyə-döyə dedi:

Şəngülüm, Şüngülüm, Məngülüm,
Aç qapını mən girim.
Ağzımda su gətirmişəm,
Buynuzumda ot gətirmişəm.
Məməmdə süd gətirmişəm.

Şəngülüm, Şüngülüm, Məngülüm oynaya-oynaya gəlib qapını açdılar. Keçi içəri girdi. Balalarının üzündən, gözündən öpdü. Həmişəki kimi onlara ot, su, süd verdi. Bir az oradan-buradan söhbət elədilər. Balaları qapının döyüldüyünü analarına söylədilər. Keçi dedi:

- O xain qurddu. Mən oxuduğum sözləri oxumayana qapı açmazsınız.

Dedilər:

- Yaxşı, açmarıq.

Keçi tapşırmalısını tapşırdı. Balalarının üzündən öpüb örüşə getdi. Indi sizə xəbəri qurddan verim:

Keçinin oxuduğunu qurd öyrənmişdi. Koldan kənara çıxdı, bir az gözlədi. Sonra yavaş-yavaş gedib qapını döyməyə başladı. Çəpişlər oynaya-oynaya qapının dalına gəlib soruşdular:

- Kimdi qapını döyən?

Qurd səsini keçinin səsinə oxşadıb dedi:

Şəngülüm, Şüngülüm, Məngülüm,

Aç qapını mən girim.
Ağzımda su gətirmişəm,
Buynuzumda ot gətirmişəm.
Məməmdə süd gətirmişəm.

Şəngülüm, Şüngülüm, Məngülüm sevinə-sevinə qapını açdılar. Qurd o saat Məngülümü tutub yedi. Şəngülümlə Şüngülüm də qaçıb gizləndilər. Qurd çox axtardı, onları tapmadı. Keçinin qorxusundan qaçıb getdi. Elə ki, qurd çıxıb getdi, Şəngülümlə Şüngülüm gizləndikləri yerdən çıxıb, qapını bağladılar, bir küncdə oturub ağlamağa başladılar. Axşam düşdü, axşamınız xeyir olsun. Keçi qapının dalına gəldi, nə qədər döydü, oxudu ona cavab verən olmadı. Çəpişlər elə bilirdilər bu yenə qurddu, ona cavab vermirdilər. Keçi geri çəkilib qapıya bir buynuz vurdu.

Dalbadal bir buynuz, iki buynuz... Şəngülümlə Şüngülüm gördü ki, qapını sındıracaq. Qapının dalına gəlib qulaq verdilər, balaca deşikdən baxdılar, gördülər analarıdı, soruşdular:

- Kimdi qapını döyən?

Keçi yenə də dedi:

Şəngülüm, Şüngülüm, Məngülüm,
Aç qapını mən girim.
Ağzımda su gətirmişəm,
Buynuzumda ot gətirmişəm.
Məməmdə süd gətirmişəm.

Çəpişlər qapını açdılar. Keçi onlardan soruşdu:

- Bəs Məngülüm hanı?

Onlar başladılar ağlamağa. Əhvalatı analarına, mən sizə nağıl elədiyim kimi nağıl eləyib dedilər:

- Məngülümü qurd yedi.

Keçi hirslənib dedi:

- Yaxşı, o qurdla mənimki qalsın... Siz qapını bağlayın, evdə oturun. Mən gedirəm, tez qayıdacağam.

Bəli, keçi düşdü yolun ağına, az getdi, çox getdi, gedib dovşanın damının üstünə çıxdı. Ayaqlarını yerə döyməyə başladı. Dovşan çıxıb dedi:

O kimdi damım üstə?
Divarım, damım üstə?
Tappıra, tuppur döyür,
Ayağın damım üstə.

Keçi dedi:

- Balamı sən yemisən.

Dovşan dedi:

- Yox, mən yeməmişəm, get tülküdən soruş.

Keçi gedib, tülkünün damının üstünə çıxdı. Ayaqlarını yerə döyməyə başladı.

Tülkü çıxıb dedi:

O kimdi damım üstə?
Divarım, damım üstə?
Tappıra, tuppur döyür,
Ayağın damım üstə.

Keçi dedi:

- Balamı sən yemisən?

Tülkü dedi:

- Yox, mən yeməmişəm. Get qurddan soruş.

Keçi dəmirçinin yanına gedib dedi:

- Dəmirçi qardaş, mənim buynuzlarımı poladla qılınc kimi iti elə, uclarını da nizə kimi şiş. Sənə bir kasa qaymaq, bir kasa da süd verəcəyəm.

Dəmirçi razı oldu. Keçinin buynuzlarını poladla sıvadı, qılıncdan iti, nizədən şiş oldu. Keçi onun qaymağını, südünü verdi. Düz gedib qurdun damının üstünə çıxdı.

Ayaqlarını yerə döyməyə başladı. Bu zaman qurd da bir qazan aş asmışdı ocağın üstündə bişirirdi. Keçi ayağını damın üstünə döyəndə onun aşının içinə torpaq töküldü.

Qurd çığırıb dedi:

O kimdi damım üstə?
Damım, dirəyim üstə?
Aşımı şor elədi,
Gözümü kor elədi:

Keçi ona cavab verdi:

Mənəm, mənəm mən paşa,
Buynuzum qoşa-qoşa.
Balamı sən yemisən.
Gəl girək bir savaşa.

Qurd cavab verdi:

- Çox gözəl, gəl savaşaq. Elə mən səni axtarırdım.

Qurd sözünü tamam elədi, dişlərini bir-birinə taqqıldatdı, istədi keçini yesin. Keçi ona aman vermədi. Geri çəkilib, irəli gəldi, ona elə bir buynuz vurdu ki, buynuzlar iki qarış onun döşünə işlədi. Qurd bərkdən ulayıb yerə yıxıldı. Keçi o saat onun qarnını yırtıb Məngülümü çıxartdı. Bağrına basdı. Gözlərindən öpdü.

Qurd qışqırıb dedi:

- Vay qarnım?

Keçi dedi:

- Məngülümü yeməyəydin,
Vay qarnım deməyəydin.

Xain qurd öldü. Keçi balası Məngülümü də götürüb sevinə-sevinə evinə qayıtdı. Şəngülümlə Şüngülüm Məngülümü görəndə çox sevindilər. Onun üzündən, gözündən öpdülər, şadlıq elədilər.

SÜLEYMAN ŞAH VƏ QARIŞQA

Bir gün Süleyman şah qoşunu ilə yoldan keçirdi. Gördü yolun üstündə bir qarışqa durub. Süleyman şah elə bildi ki, qarışqanın ondan bir diləyi var. Şah qarışqadan soruşdu:

- A qarışqa, burda niyə durubsan? Olmaya məndən bir diləyin var.

Qarışqa dedi:

- Dünyaya gəlib-gedən süleymanları saymaq üçün burda durmuşam.

Süleyman şah dedi:

- Dünyaya neçə Süleyman gəlib, gedib?

Qarışqa dedi:

- Sənlə yetmiş Süleyman.

Süleyman soruşdu:

- Bunu nə ilə bilirsən?

Qarışqa dedi:

- Ağılla, bacarıqla, qənaətimlə.

Süleyman dedi:

- Ağıllı olduğunu nədən bilim?

Qarışqa dedi:

- Başımın yekəliyindən.

Süleyman şah soruşdu:

- Bacarıqlı olduğunu nədən bilim?

Qarışqa dedi:

- Əl-ayağımın çevikliyindən.

Süleyman şah soruşdu:

- Qənaətliyini nədən bilim?

Qarışqa dedi:

- Belimin nazikliyindən.

Süleyman şah dedi:

- Sən necə qənaət eləyə bilərsən?

Qarışqa dedi:

- Mən bir buğda ilə yeddi il dolana bilərəm.

Süleyman şah dedi:

- Qarışqa, sənin bu sözlərini sınayacağam. Dediklərin doğru çıxdı, nə istəsən sənə verəcəyəm, yalan çıxdı, səni öldürəcəyəm.

Qarışqa dedi:

- Mənim sözlərim doğrudu. Sınaya bilərsən.

Süleyman şah qarışqanı götürdü, şəhərə gəldilər. Süleyman şah qarışqanı bir şüşənin içinə qoydurdu, yanına da bir buğda saldırdı. Şüşənin ağzını bərk-bərk müşəmmələtdi, sonra göydən asdırdı.

Nağıllarda vaxt tez gələr. Süleyman şahın başı kefə qarışdı, günlər gəlib keçdi. Birdən şah yadına saldı ki, qarışqanı şüşəyə saldığı vaxtdan yeddi il keçib. Adamlarına dedi:

- Qarışqanı buraya gətirin.

Qarışqanı şahın hüzuruna gətirdilər. Süleyman şah şüşənin ağzını açdırdı. Gördü qarışqa o gördüyü kimidi, sağ-salamatdı. Buğdanın da hələ üçdə biri durur. Süleyman şah ondan soruşdu:

- A qarışqa, bu buğdanın üçdə birini niyə yeməyibsən?

Qarışqa dedi:

- Süleyman şah bir əhlikef adamdı. Qorxdum ki, yeddi ildən sonra da yadına düşməyəm, acından öləm. Ona görə də buğdanın üçdə birini saxladım.

Süleyman şah dedi:

- Qarışqa, bu sözün doğru çıxdı. Indi bacarığını sınayacağam. Bir xırman taxılı nə vaxta yuvana daşıya bilərsən?

Qarışqa dedi:

- Mənə toxunan olmasa bir gündə.

Süleyman şah qarışqanı bir xırman taxılın üstünə buraxdı, əmr verdi ki, ona toxunan olmasın. Qarışqa taxılı yuvasına daşımağa başladı. O gün keçdi. Sabah Süleyman şah gəldi, gördü bir dənə də taxıl qalmayıb, dedi:

- Qarışqa, bu sözün də doğru çıxdı. Indi sənin ağlını sınayacağam. Get, hazırlaş, sabah qoşunumla sənə qonaq gələcəyəm.

Qarışqa yuvasına getdi. Qarışqaların hamısını çağırdı. Süleyman şah üçün hər nə lazım idi, hazır elədilər.

Sabah açılan kimi Süleyman şah atını minib qarışqaya qonaq gəldi. Qarışqa Süleyman şahı qarşıladı. Şah atdan düşdü. Qarışqa yoldaşlarına dedi:

- Atları tövlələrə çəkin.

Qarışqalar atları tövlələrə çəkdilər. Bu qarışqa özü də Süleyman şahla qoşununu evə apardı. Qonaqlar xalı üstündə oturdular.

Qarışqa dedi:

- Xörək gətirin.

Qarışqalar gümüş, qızıl sinilərdə buğlana-buğlana yağlı plov gətirib qonaqların qabaqlarına qoydular. Qonaqlar ləzzətli aşdan yeyib doydular.

Süleyman şah dedi:

- Qarışqa, yaxşı qonaqlıq verdin. Səndən razı oldum.

Dur bir sənin cahi-cəlalına tamaşa eləyək.

Qarışqa dedi:

- Onda sən ixtiyar üzüyünü mənə ver. Burdan qayıdanacan məndə qalsın. Bura mənim mülkümdü. Sənin burda hökm eləməyə ixtiyarın yoxdu.

Süleyman şah dedi:

- Verərəm, bu şərtlə ki, gərək itirməyəsən. Burdan çıxanda yenə özümə qaytarasan.

Qarışqa dedi:

- Ver, qorxma, mən əmanət saxlamaqda qoçağam.

Süleyman şah üzüyünü qarışqaya verdi. Qarışqa üzüyü alıb getdi, yenə tez geri qayıdıb dedi:

- Indi dur gedək, mənim cahi-cəlalımı gör.

Süleyman şah durub qarışqa ilə getdi. Gördü burda buğda bir yanda tağlanıb, arpa bir yanda, darı bir yanda, düyü bir yanda. Hər yana baxırsan anbar-anbar taxıldı. Atların qabağında arpa dağ kimi qalanıb. Qarışqalar yerə tökülən taxılı dənə-dənə götürüb anbarlara tökürlər. Süleyman şah qarışqa ilə birlikdə başqa bir dama girdi. Gördü bu dam da ağzına kimi yaraqla doludu. Hər yandan nizə ox asılıb. Qılınclar baş-başa çatılıb. Qalxanlar üst-üstə qalaq-qalaq yığılıb.

Süleyman şah burdan da keçib bir dama girdi. Gördü bu dam lə`li-cəvahiratla doludu. Ordan da keçib axırıncı dama girdi. Gördü bu dam da üzüklə doludu. Süleyman şah baxıb-baxıb dedi:

- Qarışqa, sənə Süleyman ixtiyarı, dövlət nə lazım, özün elə bir Süleymansan. Ver mənim ixtiyar üzüyümü gedim.

Qarışqa dedi:

- Hara gedirsən? Əhdinə vəfa elə. Bir üzük nədi ki, onu dilə gətirirsən. Axtar bu üzüklərin içindən öz üzüyünü tap götür.

Süleyman şah əyildi ki, üzüyünü tapsın, götürsün, baxdı ki, bütün üzüklərin qaşında Süleyman yazılıb, hamısı da bir-birinə oxşayır. Dedi:

- Qarışqa, bu üzüklərin hamısı Süleyman adınadı. Bunları haradan yığıbsan?

Qarışqa dedi:

- A Süleyman şah, sən bircə özünü görürsən. Mən bunları süleymanların yer-yurdundan yığmışam.

Süleyman şah qarışqaya dedi:

- Görünür, yaşın çoxdu?

Qarışqa dedi:

- Dünyaya görə hələ cavanam.

Süleyman şah dedi:

- Qarışqa, sənin dostun kim, düşmənin kimdi?

Qarışqa dedi:

- Mənim dostum torpaq, düşmənim sözündə doğru olmayanlardı.

Süleyman şah dedi:

- Qarışqa, mən sözümdə doğruyam. De görüm, sözlərinin doğruluğuna görə məndən nə istəyirsən?

Qarışqa dedi:

- Səndən heç nə istəmirəm, bircə bizim nəsildən xərac alma.

Süleyman şah dedi:

- Bundan sonra sizin nəslə xərac yoxdu. Mənim ixtiyar üzüyümü tap, ver gedim.

Qarışqa Süleyman şahın ixtiyar üzüyünü tapdı, özünə verdi. Süleyman şah atlandı, qarışqa ilə xudahafizləşib qoşunu ilə varıb getdi. Nağıl qurtardı. Siz sağ, mən də salamat.

T Ə L`Ə T I N N A Ğ I L I

Biri vardı, biri yoxdu, keçmiş əyyamlarda Təl`ət adına yetim bir uşaq vardı. Onun qoca nənəsindən, bir də uçuq daxmasından başqa heç bir şeyi yox idi.

Təl`ət balaca olduğu üçün nənəsi Şamama onu işə-gücə göndərməzdi. Özü sap əyirib, corab toxuyardı, aparıb bazarda satıb, axşam evinə dönərdi.

Bir gün Təl`ət nənəsi Şamama qarıya dedi:

- Nənə, corab toxu, bir cüt ver mənə, aparım bazarda satım.

Şamama qarı dedi:

- Oğul, bu il gəl sən bayır-bacağa çıxma, zəmanə çox pisdi. Yeni ildə çıxarsan.

Təl`ət ayağını yerə döyüb, dedi:

- Nənə, əgər məni bazara buraxmasan, acıq eləyib, çıxıb gedəcəyəm.

Şamama qarı Təl`ətin ürəyini sındırmadı, bir cüt də artıq corab toxuyub, onu yanınca bazara apardı. Təl`ət nənəsindən corabı alıb, özünü camaatın içinə vurdu. Corabı nənəsi deyən qiymətdən də artığa satdı. Şamama qarı nəvəsini belə fərasətli görüb çox şad oldu, ayından-oyundan alıb, evlərinə qayıtdılar.

Bir neçə gün Şamama qarı nəvəsini yanına salıb bazara apardı. Hər gedəndə də ona bir cüt corab verərdi.

Təl`ət də corabı artıq qiymətinə satıb, pulunu nənəsinə verərdi.

Bir gün Şamama qarı bərk naxoşladı. Toxuduğu corablar da evdə qaldı. Təl`ət nənəsindən gizlin corabları götürüb bazara çıxdı. O, corabları satmaqda olsun, sənə danışım bir nəfər kordan.

Bu mahalda bir kasıb kişi olurdu. Bu kişi kor idi. Belə ki, evdən bayıra çıxa bilməzdi. Bir gün bu kişi əlinə ağac alıb, evdən bayıra çıxdı, ağacını yerə sürtə-sürtə gəlib, "ya qismət" deyib bir daşın üstə əyləşdi. Təl`ət də corabları satıb yolla gedirdi. Gördü ki, qara daşın üstə bir kor əyləşib, elə deyir:

- Ya qismət!

Təl`ət onun ovcuna bir qədər pul basdı. Çəkilib bir tərəfdə gizləndi ki, görsün, bu bazardan uzaq oturub nə qismət axtarır? Gördü ki, bir dərviş əlində təbərzin, bu korun yanına gəldi, bir lə`l çıxarıb ona verdi, çıxıb getdi. Təl`ət bir də gördü ki, bir qarapaltar kişi gəlib lə`li korun əlindən aldı, ona bir-iki ağac da vurub getdi.

Təl`ət bu qara paltarlı adamın dalınca getdi, qarabaqara gəlib bir imarətin qabağına çatdı Qara paltarlı adam yuxarı çıxdı, bu da onun dalınca. Qara paltarlı adam içəri girdi, qapını örtdü. Təl`ət qapının deşiyindən baxdı gördü ki, o, paltarını soyundu, bir arvad gəlib onun qabağına süfrə döşədi, xörəklərini yeyib yatdılar. Təl`ət bu imarəti nişanlayıb getdi, gördü ki, həmin kor genə oturub. Çıxardıb ona iki qara pul verdi. Kor durub yola düzəldi. Təl`ət koru aparıb evinə saldı. Onun da evini nişanlayıb, nənəsinin yanına gəldi.

Şamama qarı Təl`ət gedəndən sonra durub taxçaya baxdı, gördü ki, axşama evdə çörək yoxdu. Istədi corabları aparıb satsın, gördü corablar da yoxdu. Istəyirdi bayıra çıxa, gördü nəvəsi əlində çörək budu gəlir. Xəbər aldı:

- Bala, hardaydın?

Təl`ət dedi:

- Nənə, corabları aparıb satdım. Çörək də alıb gətirmişəm.

Şamama qarı nəvəsinin bu zirəkliyinə çox sevindi. Özü də səhərdən bəri ac idi. Tez süfrə salıb, çörək yeməyə oturdular. Süfrə başında Təl`ət nənəsindən xəbər aldı:

- Nənə, filan küçədə bu rəngdə, bu nişanda bir imarət var, o kimin imarətidi?

Şamama qarı dedi:

- Oğul, o imarət tacirbaşının imarətidi. Özü də çox zalım, tamahkar adamdı. Öz köpüyündən keçməz, amma özgəsinin köpüyünü tez alar.

Təl`ət xəbər aldı

- Nənə, bəs filan daxmada bir kor kişi var, özü də qocalıb, o kimdi?

Qarı dedi:

- Oğul, o kor haman tacirbaşı Məlikin nökəri olub, Məlikin dövlətini o qazanıb, amma indi Məlik onu o hala salıb.

Təl`ət nənəsinin bu sözünün üstündən heç bir kəlmə də danışmadı. Rahatca çörəyini yeyib, yıxılıb yatdı.

Səhər tezdən durub bazara çıxdı, gördü ki, həmin qara paltar Məlik tacir bazarda gəzir, yanında da bir adam var. Bu adam bazarı dolanıb deyir:

- Məlik tacirə nökər lazımdı. Hər kimin meyli var, gəlsin, yaxşı pul verəcək.

Təl`ət birdən irəli yeriyib, dedi:

- Mən qalaram. Neçə verərsən?

Məlik tacir dedi:

- Ayda üç yüz tümən.

Təl`ət dedi:

- Qalaram. Amma gərək mənə dilindən kağız verəsən ki, bu adamı ayda üç yüz tümənə özümə nökər tuturam.

Məlik tacir razı oldu. Təl`əti götürüb, evinə gəldi. Təl`ət kağızı alıb, cibinə qoydu. Aradan bir neçə gün keçəndən sonra Məlik tacir Təl`ətə dedi:

- Hazırlaş, səfərə gedirik.

Təl`ət dedi:

- Tacirbaşı, mənim bir qoca nənəm var, aylığımı ver, aparım qoyum nənəmin yanında, sonra hər yana desən, gedim.

Məlik tacir haqverməz adamdı. Əlini cibinə salıb, əlli tümən çıxarıb Təl`ətə verdi, dedi:

- Pulları mala vermişəm. Hələlik bu əlli tüməni apar, qoy nənənin yanında, qalanını sonra verərəm.

Təl`ət özlüyündə dedi:

- Donuzdan bir tük də qoparmaq qənimətdi.

Əlli tüməni alıb, tez özünü nənəsinə yetirdi, pulu verib dedi:

- Nənə, mən gedirəm.

Şamama qarı xəbər aldı:

- Ay oğul, hara gedirsən?

Təl`ət dedi:

- Səfərə gedirəm.

Nənəsi dedi:

- Bala, kimlə gedirsən?

Təl`ət dedi:

-Məlik tacirə nökər dayanmışam, onunla gedirəm.

Şamama qarı dedi:

- Oğul, getmə, o bir imansız adamdı. Gedərsən, sənin başını batırar.

Təl`ət dedi:

- Heç qorxma! Onun başında mən acı turp əkməsəm, sənin nəvəliyinə layiq deyiləm.

Təl`ət nənəsi ilə halallaşıb, Məlik tacirin yanına gəldi. Gördü ki, Məlik tacirin qapısında üç qatır, bir də yəhərli at var. Haçannan-haçana bir adam bir yabı da gətirdi. Məlik tacir özü ata minib, Təl`əti də yabıya mindirdi. Atlarını sürməyə başladılar. Az gedib, çox dayandılar, çox gedib, az dayandılar, gəlib bir hündür dağın döşünə çatdılar. Atdan yerə düşdülər. Məlik tacir dedi:

- Təl`ət, bu dağı görürsən?

Təl`ət dedi:

- Bəli, görürəm.

Məlik dedi:

- Bu dağa çıxmağa heç yandan yol yoxdu. Biz səni çıxardacağıq bu dağa. Sən də dağda nə ki, qızıl rəngində daş-qaş var, tök aşağı. Sonra biz səni yenə bu dağdan düşürdərik.

Təl`ət bir xeyli fikirdən sonra öz-özünə dedi: "qoy razı olum, görək bunun axır sözü nə olacaq".

Məlik tacir diri-diri atın qarnını yarıb, nə ki, içalatı vardı, çəkib çıxartdı bayıra atdı, bir qədər də ətinin ora-burasından kəsib, atın cəmdəyini yüngülləşdirdi.

Təl`əti götürüb atın qarnının içinə saldı, əlinə də bir bıçaq verib dedi:

- Elə ki, gördün atın cəmdəyi yerə dəydi, bıçağı dəriyə çəkib bayıra çıxarsan.

Məlik tacir atın qarnını tikib, bir qıraqda gizləndi. Haçannan-haçana iyirmiyəcən iri-iri quş gəlib, atın cəmdəyini caynaqlarına aldılar, göyə qalxızdılar, aparıb dağın başına qoydular. Bir balaca dimdiklədilər, gördülər ki, quru sümükdü, uçub getdilər. Quşlar gedəndən sonra Təl`ət atın qarnından çıxdı, gördü ki, burda o qədər lə`l-cəvahirat var, gəl görəsən.

Təl`ət üç qatır yükü bu qiymətli daş-qaşdan yerə tökdü. Məlik tacir də qatırlarını yüklədi. Təl`ət dedi:

- Məni düşürün.

Məlik dedi:

- Sən orda qal oğlu qalsan.

Məlik tacir atına mindi, qatırları da götürüb getdi. Təl`ət dağın başında qaldı, heç bilmədi hayana getsin. Bir də gördü ki, burda çoxlu uşaq cəmdəyi var, öz-özünə dedi:

- Ey dad, qalıb burda mən də bunlar kimi olacağam Yaxşısı budu, baş götürüb qaçım.

Hər yana getdisə, gördü dağdan enib qurtara bilməyəcək. Oturub ağlamağa başladı. Bir də gördü ki. burda eniş-yoxuş bir yer var, dedi: "burda qalıb qurd-quşa yem olunca, qoy bu dağdan aşağı sallanım, bəlkə düşüb bir yana çıxdım".

Təl`ət dağdan sallandı, o daşdan, bu daşdan tuta-tuta bir təhərlə aşağı düşdü. Gördü bura dəryadı, hər tərəf sudu, heç bir yana yol yoxdu ki, çıxasan. Dəryanın da yanı meşədi.

Təl`ət oturub dizlərini qucaqlayıb fikir eləyirdi, axırda öz-özünə dedi: "Boş fikirdən nə çıxar, girim bu meşəyə, bəlkə yeməyə bir şey tapdım".

Durub meşəyə girdi, gördü burda ağaclar var ki, hər yarpağı bir yorğan boyda, özü də iki barmaq qalınlığında. dedi: "Əcəb oldu. Bundan dərib sal qayıraram, dəryaya ataram, özüm də içinə minərəm, bəlkə gedib bir yana çıxa bildim".

Yarpaqdan bir neçəsini dərib, qabağına qoydu, gördü ki, bu yarpaqları bir-birinə bitişdirə bilməyəcək. Bir neçə qədəm irəli yeridi. Gördü ki, burda bir ağac var, bu ağacın qol-budağından yapışqan kimi bir şey tökülür. Tez bundan bir-iki ovuc gətirdi, yarpaqları bir-birinə yapışdırmağa başladı. Işini tamam qurtarandan sonra götürüb dərya kənarına gəldi, dəryaya saldı. Gördü ki, su buraxmır. Keçib içində oturdu, əlinə də bir ağac alıb, sürməyə başladı.

Təl`ət dəryanın üzü ilə neçə gün, neçə gecə yol gedəndən sonra gəlib quruya çıxdı. Piyada yol getməyə başladı. Bir müddət yol gəlib çıxdı meşəyə, gördü ki, burada bir yuva var, yuvanın ağzında bir ilan. Ilan Simurq quşunun balalarını yemək istəyir. Təl`ət yerdən bir daş götürüb, ilanın başına saldı. Daş ilanın başına dəyən kimi ilan çapalayıb öldü. Simurqun balaları buna yerbəyerdən alqış elədilər. Bu da oturub bunların qarovulunu çəkməyə başladı. Birdən Simurq özü gəlib çıxdı. Təl`əti görən kimi caynağına alıb, onu öldürmək istədi. Balaları ağız-ağıza verib dedi:

- Ana, bu oğlan ilanı öldürüb, bizi onun əlindən qurtardı.

Simurq dedi:

- Indi ki, mənim balalarıma bu yaxşılığı eləyibsən, diləyini məndən istə. Mən sənin qulluğunda hazıram.

Təl`ət dedi:

- Ey Simurq, məni Isfahan şəhərinə apar.

Simurq dedi:

- O da mənim gözüm üstə. Bu gecəni qal, səhər səni aparım.

Təl`ət gecəni Simurq quşunun yanında qaldı, səhər tezdən durub, quşun qanadlarının arasında oturdu. Simurq göyə qalxdı, bir neçə qanad çalıb, aşağı endi, dedi:

- Gözlərini aç!

Təl`ət gözlərini açıb, o yan - bu yana baxıb, gördü ki, Isfahan şəhərinin kənarındadı.

Simurq dedi:

- Oğlan, indi gedə bilərsən.

Təl`ət Simurq quşundan ayrılıb bir baş evlərinə gəldi, gördü ki, nənəsi evdə oturub yun əyirir.

Şamama qarı nəvəsini görən kimi, qucaqlayıb öpdü, ondan xəbər aldı:

- Bala, necə gəldin?

Təl`ət dedi:

- Nənə, lap yaxşı gəldim.

Təl`ət gecəni nənəsinin yanıda qalıb, səhər tezdən durub gəldi. Məlik tacirin qapısını döydü. Məlik tacir qapını açıb gördü ki, Təl`ətdi. Boğazının yolu quruyub dedi:

- Təl`ət, gəl içəri.

Təl`ət içəri girib eyvana keçdi. Məlik tacirlə üzbəüz oturub, əlini cibinə saldı, qəbzi çıxardıb, dedi:

- Tacirbaşı, bir ilimin zəhmət haqqını ver.

Məlik tacir daha heç bir söz tapa bilmədi ki, buna desin.

Təl`ət genə dedi:

- Tacirbaşı, hesab elə, ayda üç yüz tüməndən, bir ilin zəhmət haqqını ver.

Məlik tacir dedi:

- Oğul, iki gün mənə möhlət ver, üçüncü günün tamamında gəl haqq-hesabını apar.

Təl`ət durub gedəndən sonra Məlik tacir öz ortağını çağırıb dedi:

- Ortaq, Təl`ət gəlib çıxıb. Məndən bir ilin zəhmət haqqını istəyir. Tədbir gör...

Ortaq dedi:

- Sən bu işi həvalə elə mənə. Mən ona heç zəqqum da vermərəm.

Məlik tacir razı oldu, ayağa durub, Təl`ətə xəbər göndərdi ki, bu axşam mənə qonaqdı. Təl`ət də gəldi.

Məlik tacir aş bişirtdirdi. Ortağı aşa bihuşdarı qatdı, Təl`ətə verdilər. Təl`ət aşı yeyib bihuş oldu, tez onu palaza səridilər, qatıra yükləyüb, qatırı da şəhərdən kənar buraxdılar.

Qatır Təl`əti bir kəndin qırağına gətirdi. Burda bir kişi xırman döyürdü. Gördü ki, yüklü bir qatır gəlir, amma qatırın yanında heç kəs yoxdu. Tez qatırın qabağın saxlayıb, yükünü açdı. Gördü ki, palazın arasında bir oğlan uşağı var, amma huşu özündə deyil. Qoca xırmançı onu huşa gətirdi.

Təl`ət ayılıb gördü ki, Isfahan burda nə gəzir, yanında bir qoca kişi var, özü də xırmanda oturub.

Təl`ət dedi:

- Əmi, mənə Isfahanın yolunu göstər.

Qoca dedi:

- Oğul, mənim heç fərzəndim yoxdu, gəl mənim yanımda qal.

Təl`ət dedi:

- Yox qala bilmərəm, gərək gedəm.

Qoça dedi:

- Indi ki, gedirsən, düş bu yola, gedib çıxarsan Isfahana.

Təl`ət qatırı qocaya bağışlayıb, bir az yola çörək aldı, bir müddət yol gedəndən sonra bir meşəyə çatdı... Birdə gördü ki, meşənin içində bir yekə dev var, əlində də qara toppuz. Təl`ətin ürəyinə qorxu düşdü, qaçmaq istədi, dev o saat Təl`ətin üstünü aldı. Təl`ətin biləyindən yapışıb götürdü çiyninə, öz imarətinə apardı.

Dev Təl`ətə dedi:

- Ey oğlan, neçə gündü acıdım, özümə ov axtarırdım. Rastıma sən gəldin, gərək səni yeyəm.

Təl`ət dedi:

- Ey devlərbaşı, mən də bərk acam. Əvvəl mənim qarnımı doydur, sonra ye.

Dev razı olub, Təl`ətin qarnını doydurdu. Yatmaq zamanı gələndə xəbər aldı:

- Devbaşı, o qara şey nədi?

Dev dedi:

- Ona qara toppuz deyərlər. Nə desən o tez əməl eləyir.

Dev yıxılıb yatdı. Amma Təl`ətin gözünə yuxu getmədi. Gecəni xəlvət eləyib, durub, toppuzu əlinə alıb, dedi:

- Toppuz, devi vur ölüncə!

Toppuz düşdü devin üstünə. O qədər vurdu ki, dev cəhənnəmə vasil oldu.

Təl`ət toppuzu götürüb, gecə ilə yol getməyin binasını qoydu. Az gedib, çox dayandı, çox gedib, az dayandı, bulaqlardan bir oymaq su içib, iynə yarım yol gedəndən sonra özünü çatdırdı Isfahana. Şəhərə girib, bir baş Məlik tacirin qapısına gəldi. Içəri girdi, gördü ki, bütün tacirlər burdadı. Əlini cibinə salıb, istədi ki, Məlik tacir verən qəbzi çıxartsın, gördü ki, qəbz yoxdu. Bildi ki, qəbzi tacir çıxardıb. Tez toppuzunu əlinə alıb, irəli yeridi, dedi:

- Məlik tacir, bir ilin zəhmət haqqını ver.

Məlik tacir dedi:

- Get, sabah gələrsən.

Təl`ət toppuzu göyə atıb dedi:

- Toppuzum, ölüncəyə qədər vur bunları!

Toppuz düşdü tacirlərin üstünə, o qədər vurdu ki, hamısını, Məlik taciri də onların içində xurdxəşil elədi.

Camaat səsə yığılıb xəbər aldı:

- Bu tacirləri niyə öldürdün?

Təl`ət camaatı bir yerə yığdı, sonra haman koru da çağırdı, Məlik tacir bunlara nə ki, zülm eləmişdi, açıb söylədi.

Camaat işi belə görəndən sonra yerbəyerdən Məlik tacirə lə`nət oxuyub, bütün var-yoxunu öz aralarında paylaşdırdılar.

Təl`ət kor kişini də yanına aldı, birlikdə şad ürəklə ömür sürüb yaşadılar.

Göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağıl deyənin.

T A P D I Q

Sizə hardan xəbər verim, az danışanlardan, qaradinməzlərdən, mırt-mırt arvadlardan, hürüməyən itlərdən, ulamayan çaqqallardan, çox danışanlardan, dilli arvadlardan, küsəyənlərdən, oğrulardan, yalançılardan, yoldaşa xain olanlardan, vəfasızlardan, əhdinə əməl etməyənlərdən, buzov minib çay keçənlərdən, yaba ilə dovğa içənlərdən, xoruz belində bostan əkənlərdən, kosasaqqallardan, göy-gözlərdən, nə bilim nədən, nə bilim nədən... Lə`nət quyruqlu yalana, rəhmət quyruqsuz düzə, bir qoz pozana, iki qoz düzənə. Rəhmət yazana, lə`nət pozana. Söz qalsın, insan getsin, yaxşılıq qalsın, pislik getsin. Dost var olsun, düşmən puç olsun, ağıllı yesin, ağılsız hesablasın. Indi gələk mətləbə.

Biri var idi, biri yox idi, allah var idi, şəriki yox idi, bir şəhərdə Süleyman adlı bir tacir var idi. Bu tacir çox varlı bir adam idi, dövlətdə heç bir padşah onun qabağına çıxa bilməzdi. Bunun Qəmər xanım adlı bir qızından başqa övladı yox idi. Oğul adı gələndə bu kişinin dodağı yeddi yerdən partlayırdı, ürəyi ütülüb soyulurdu. Süleyman tacir qızı Qəmər xanıma baxıb öz qəmini dağıdırdı. Qəmər xanım da bir Qəmər xanım idi ki, gün kimi işıq salırdı, ay kimi parıldayırdı. Aya deyərdi mən olan yerdə sən çıxa bilməzsən, günə deyərdi mən ki, varam, sən işıq sala bilməzsən. Firiştə girdarı, gəl məni gör, dərdimdən öl, incəmiyan, nazik bədən, billur buxaq, alma yanaq. Bütün aləm onun gözəlliyinə heyran idi. Bir yaxşı ustadlar ustadı olmalıdı ki, onun gözəlliyini tə`rif etsin. Qəmər xanım Süleyman tacirin yanında olanda deyərdi: «Qadam eymə ağız oğlanın ağzına, qızımı min oğlana dəyişmərəm». Kənara gedəndə oğul həsrəti çəkirdi.

Bir gün Süleyman tacir evdə oturub əlini alnına qoymuşdu, qəm dəryasına qərq olmuşdu, aranı dağa, dağı arana köçürürdü. Arvadı Minagərdən xanım onun yanına gəlib dedi:

- Ay kişi, niyə fikir eləyirsən, nəyin əksikdi. Süleyman peyğəmbər kimi sədd açmısan, heç padşah sənin qabağına çıxa bilmir, bu nə fikirdi, bu nə qəmdi?

Süleyman tacir başını yuxarı qaldırıb dedi:

- Ay mənim məhəbbətli arvadım, bəs mən fikir eləməyim kim eləsin, saqqalıma dən düşüb, bu gün, sabah dar-fənadan, dar-üqbaya rəhlət təbilini vuracam. Bəs mənim bu dövlətimə, cahi-cəlalıma kim sahib duracaq?

Minagərdən xanım dedi:

- Oğul fikrini eləyirsən?

Süleyman tacir dedi:

- Bəs nə? Bir oğlum da yoxdu ki, mənim yerimdə qalsın. Çırağım keçəcəkdir.

Minagərdən xanım dedi:

- Mən qızım Qəmər xanımı min oğlana vermərəm. Bütün oğul sahibləri köksün ötürüb deyir ki, kaş mənim Qəmər xanım kimi bir qızım olaydı, sən də fikir edirsən. Ağlını başına cəm elə.

Süleyman tacir dedi:

- Qızdı, çıxıb birinə gedəcək, mənim dövlətimə sahib durmayacaq. Oğul, oğul!...

Minagərdən xanım ona təsəlli verdi. Süleyman tacirin aynası açıldı, durub şəhərə çıxdı ki, bir qədər gəzsin, qəmi lap dağılsın. Süleyman tacir bir neçə küçə gəzdi, bir hücrə keçdi, axırda gecə yarı oldu. Süleyman tacir evə tərəf gəlirdi, bir də gördü bir nərilti gəldi, bir işıq qaranlığı yara-yara yerə düşdü. Süleyman tacir bu işə məəttəl qaldı, yavaş-yavaş işıq düşən yerə gəlib gördü ki, burda bir uşaq var. Süleyman tacir öz-özünə dedi: «Xudaya, sənə çox şükür. Yəqin rəhmin gəlib, göydən bu uşağı mənə saldın». Süleyman tacir uşağı qucağına alıb düz evinə gətirdi. Gördü ki, Qəmər xanımın gözəlliyi birdirsə, bunun gözəlliyi ikidir. Bütün əhvalatı arvadına nağıl eləyib dedi:

- Bu uşaq günün işığıynan göydən düşdü.

Onlar sözü bir elədilər ki, bu sirri heç yerdə deməsinlər. Çox sevindilər, böyük şadlıq keçirdilər. Süleyman tacir xəzinəsinin ağzını açıb yoxsullarla, əlsiz-ayaqsızlara pul payladı. Uşağın adını Tapdıq qoydular.

Nağıl dili yüyürək olar, nağılda illər, qərinələr bir dəqiqədə gəlib keçər, adamlar bir dəqiqədə böyüyərlər.

Uşaq böyüyüb məktəb yaşlı oldu. Onun adı elə Tapdıq qalmışdı. Süleyman tacir bir molla tutdu, Tapdığı onun yanına qoydu. Tapdıq elə zehinli uşaq idi ki, mollanın ağzından çıxan sözü o saat sinədəftər eləyirdi.

Indi al xəbəri Qəmər xanımdan. Qəmər xanım böyüyüb on beş yaşa dolmuşdu, dünyanın hər yerindən ona elçi gəlirdi, amma Süleyman tacir heç birinə vermirdi. Onun fikri bu idi ki, Tapdıq böyüyəndə sirri açıb, qızını ona versin. Bu əhvalatdan Qəmər xanımın da xəbəri yox idi.

Süleyman tacir Qəmər xanımı tək heç bir yerə buraxmırdı, qorxurdu ki, onu oğurlayıb aparalar. Günlərin bir günü şah Süleyman taciri arvadı ilə qonaq çağırdı. Süleyman Qəmər xanıma dedi:

- Qızım, biz şahın qonaqlığına gedirik, sən evdən heç yana çıxmazsan.

Qəmər xanım dedi:

- Ata, gedin, çıxmaram.

Bəli, onlar şahın qonaqlığına getdilər, evdə Tapdıqla Qəmər xanım qaldı. Bir az sonra Tapdıq da kitablarını götürüb, mollasının yanına getdi, Qəmər xanım tək qaldı. Qəmər bir qədər oturdu, çox darıxdı. Necə deyərlər, qəza ki, səndən əydi, çətin düzələrsən, bə`zən adamı bədbaxtlıq çağırır. Öz-özünə dedi: «Gedim, bağçada bir az gəzim». Qəmər bağçaya gəzməyə çıxsın, al xəbəri Gündən.

Günün Qəmər xanımla korası var idi, Qəmər xanım bayıra çıxanda onun gözəlliyinin qabağında utandığından üzünü buludların dalında gizləyirdi. O istəyirdi ki, Qəmər xanımı işıqlı dünyadan yox eləsin, qaranlıq dünyaya salsın. Gün xanım Qəmər xanımın bağçaya çıxmasını gördü: «yaxşı axtardığımı tapmışam» - deyib, bayaqdan Qaf dağının dalına getdi.

Gün xanımı Zülmat padşahı sevirdi; lap getmə gözümdən, gedərəm özümdən idi. Gün xanım hər nə desə idi, Zülmat padşah yerinə yetirərdi, ölümə desəydi, gedərdi. Gün bayaqdan özünü saldı Qaf dağının başına, bir nə`rə çəkib, Zülmat padşahı, Tufan devi çağırdı. Tufan dev hazır olub dedi:

- Ləbbeyk, xanım, mənim üçün nə qulluq? Can-başla yerinə yetirməyə hazıram

Gün xanım dedi:

- Bəs, Süleyman tacirin bir gözəl qızı var ki, bütün dünyada olan gözəllikləri batil edir. Indi bağa səyahətə çıxmışdı. Onu mənə qulluqçu gətirərsən, sənə gələrəm. Tez get gətir.

Tufan dev yeddi qat əyilib dedi:

- Xanım, gözünü açıb yumunca gətirim, ona nə var ki, kaş mənə həmişə belə buyuruqlar buyurasan.

Tufan dev tənur eyləyib havaya qalxdı, yeddi illik yolu bir saata gedib, Süleyman tacirin bağına çatmaqda olsun, indi görək Qəmər xanım necə oldu.

Qəmər xanım bağçaya gəldi, bütün otlar, ağaclar, güllər onun gözəlliyinə heyran qaldı. Oxuya-oxuya bir dəstə gül-bənövşə dərib iki şamamaların arasına sancdı, sonra bir ağacın dibində bənövşələrin üstündə oturdu. Qəmər xanım evə qayıtmaq istəyirdi, birdən bərk gurultu qopdu, ildırım çaxdı, Tufan dev ildırım içindən əl atıb qızı götürdü. Dev qızı Zulmat dünyasına aparmaqda olsun, sizə xəbəri verim Tapdıqdan.

Tapdıq mollanın yanından qayıdıb, evə gəlmişdi, gördu, Qəmər xanım yoxdu. Bildi ki, o, bağçaya səyahətə çıxıb, durub bağçaya getdi, uzaqdan gördü ki, Qəmər xanım bir alma ağacının dibində durub. Ona tərəf getmək istəyəndə gördü bir gurultu, nərilti qopdu, göydən bir əl uzanıb Qəmər xanımı götürdü yox oldu. Tapdıq ağlaya-ağlaya gedib əhvalatı Süleyman tacirə söylədi. Süleyman tacir arvadı Minagərdənlə bağa gəlib nə gördü, elə bil Qəmər xanım heç yox imiş. Başlarına döyüb şivən elədilər. Bütün ölkə qara geydi, yasa batdı. Şəhərin günü batmışdı. Padşah əmr elədi, hər yerə adam saldı, qoşun göndərdi. Qəmər xanımdan xəbər bilən olmadı. Süleyman tacir də hər yerə elçi saldı ki, hər kəs onun qızının yerini bilsə, onu dünya malından qani edəcəkdir. Genə də bir xəbər bilən olmadı. Süleyman tacirlə arvadı Minagərdən xanımı gözü yaşlı qoyaq, indi görək Qəmər xanım necə oldu. Tufan dev Qəmər xanımı düz Qaf dağının başına aparıb, Gün xanımla və`də yerində yerə qoydu. Qəmər xanımın ürəyi keçmişdi. Bir vaxt ayılıb gördü, elə bir yerdədi ki, az qalır başı göyə dəyə. Mat qaldı, yana dönəndə yanında Tufan devi gördü. Bərk qorxdu, başına döyüb ağladı, bildi ki, onu dev oğurlayıb gətirmişdir. Tay, haray hara çatacaq, özünə toxtaqlıq verib dedi:

- Ey dev, sən kimsən, bura haradı ki, məni gətirmisən?

Tufan dev dedi:

- Ey dünya gözəli, heç qorxma, səni Gün xanıma qulluqçu gətirmişəm.

Qəmər fəğan eyləyib ağladı, Tufan devə dedi:

- Ey dev, məni burax, baş götürüm gedim.

Tufan dev bərkdən qışqırıb dedi:

- Ey qız, sənə nicat yoxdu, ölüncə Gün xanıma qulluq etməlisən.

Qəmər xanım nə qədər yalvardısa, dev onun sözünə qulaq vermədi, axırda qaçmaq fikrinə düşdü. Tufan dev bunun fikrini bildi, bir lövh oxuyub onu bihuş elədi. Bəli, Qəmər xanım yeddi gün Qaf dağının başında bihuş qaldı. Tufan dev nə qədər gözlədisə, Gün xanım gəlib çıxmadı, axırda qızı burda qoyub, özü göyün lap qurtaracağına getdi, Gün xanımı tapıb dedi:

- Xanım, Qəmər xanımı gətirmişəm, Qaf dağının başındadı, gedək apar.

Gün xanım bərkdən zəbanə çəkib dedi:

- O nə qədər ki, Qaf dağının başındadı, mən o tərəflərə gələ bilmərəm. Onu zülmət dünyasına apar, ölü tilsiminə at, sonra gəl, Qaf dağına gedim.

Tufan dev dedi:

- O sənə qulluqçuluğa yarar, çox gözəl qızdı. Onu Gülüstani-Bağa-Irəmə apar. Heyifdir, ölü tilsimə aparmayım, ölü tilsimə düşənlər həmişə ölü qalırlar, onların dirilmək çarəsi ancaq məndədi.

Gün xanım dedi:

- Ey Tufan dev, iki qoçun başı bir qazanda qaynamaz, o, olan yerdə mən nəyə lazımam. Dediklərimə əməl etməsən səni dindirməyəcəyəm, səndən küsəcəyəm.

Tufan dev dedi:

- Xanım amandı, küsmə, gedim bu saat onu aparıb, ölü tilsiminə atım.

Gün xanım dedi:

- Dayan, sənə bir sözüm var.

Tufan dev dedi:

- Xanım, buyur.

Gün xanım dedi

- Ey Tufan, gərək and içəsən ki, Qəmər xanımı mənsiz azad etməyəcəksən.

Tufan dev dedi:

- Xanım, elə gözəli həmişə tilsimdə saxlamaq insafsızlıqdır.

Gün xanım dedi:

- Gərək and içəsən ki, onun ixtiyarını verdim sənə sənsiz onu azad etməyəcəyəm

Tufan dev nə qədər yalvar-yaxar elədi, Gün xanım razı olmadı. Axırda Gün xanım acıq eləyib getmək istədi. Tufan buna tab gətirə bilməyib dedi:

- Xanım, and olsun Süleyman peyğəmbərin cıqqasına, Qəmər xanımı sənsiz tilsimdən azad etmərəm.

Gün xanım çox şad olub onun boynunu qucaqladı, hər ikisi qol-boyun olum doyunca öpüşdülər. Tufan dev ondan ayrılıb düz Qəmər xanımın yanına gəldi, əhvalatı ona söylədi, dedi:

- Gözəl qız, sevgilimin əmridir, səni ölü tilsimə salacağam. Səni tilsimdən ancaq Gün xanım qurtara bilər.

Qəmər xanım gözlərinin yaşını sel kimi töküb dedi:

- Ey xudaya, kaş məni gözəl yaratmayaydın, Gün xanım da məni bu bəlayə salmayaydı.

Tufan dev dedi:

- Ey qız, ağlamaqdan bir fayda çıxmaz.

Tufan dev onu götürüb, düz ölü tilsimə apardı, öldürüb bir zərli pərdənin dalında qoydu, özü də genə Qaf dağının başına gəldi, Gün xanımla həmin gecə kef keçirdi. Belə-belə Gün xanım gündüzləri gəzib, gecələr Qaf dağının başında Tufan devlə kefə baxırdı. Öpüşün birini bir quruşa alan yox idi.

Indi sizə hardan xəbər verim, Gülüstani-Bağı-Irəmdən, Gün xanımın qızı Şəmsi xanımdan. Gülüstani-Bağı-Irəm Gün xanımın yaşadığı yer idi. O, hər gün bir dəfə bura gəlirdi. Onun bir gözəl qızı var idi ki, adı da Şəmsi xanım idi. Şəmsi xanım vaxtın tamamında ha gözlədi

anası gəlib çıxmadı, o biri gün genə gəlmədi. Belə-belə yeddi gün gəlib keçdi. Axırda qız darıxdı, öz-özünə dedi: «bir Qaf dağının başına çıxım görüm, anam hardadı». O, qanad açıb Qaf dağının başına çıxdı, bir də gördü ki, paho, anası burda bir devlə qol-boyun olub yuxuya gedibdi. Şəmsi xanım bərk qəzəbləndi, düz Gülüstani-Bağı-Irəmə qayıtdı, başladı anasının yolunu

gözləməyə. O gün də keçdi, Gün xanım eşq bihuşluğundan ayılmadı. O biri gün birdən bihuşluqdan ayılıb dedi:

- Ey dili-qafil, nə qayırırsan, indi qızım mənim yolumu gözləyir. Durum evə gedim. Tufan devlə görüşüb, öpüşüb Gülüstani-Bağı-Irəmə yola düşdü. Gəlib evinə çatdı, qızının boynunu qucaqlayıb öpmək istəyəndə, qızı qoymayıb dedi:

- Ana, de görüm bu günlərdə harda idin?

Gün xanım qızarıb-bozarıb iki rəng alandan sonra dedi:

- Bəs bilirsən, yolumu əjdaha kəsmişdi, gələ bilmirdim.

Şəmsi xanım dedi:

- Ana, de görüm rəngin niyə solub, üzünə niyə ləkə düşüb? Düzünü de.

Gün xanım dedi:

- Neçə gündü yuxusuz qalmışam, ona görə rəngim qaçıb.

Şəmsi xanım dedi:

- Gizlətmə, düzünü söylə!

Gün xanım dedi:

- Elə budu.

Şəmsi dedi:

- Ana, sən bütün yerə-göyə işıq salırsan. Heç utanmırsan gedib bir devlə qol-boyun olub, kef eləyirsən? Sənə çox ayıb olsun!

Gün xanım baxdı ki, qızı hamısını bilir, tay danmağın yeri deyil, dedi:

- Qızım, indi ki, əhvalatı bilirsən, qoy düzünü deyim. Mən Tufan devi sevirəm, o da məni sevir.

Şəmsi xanım dedi:

- Sən gözəllikdə bir qız, o ifritəni niyə sevirsən mən onun üzünə heç tüpürmərəm.

Gün xanım dedi

- Qızım, sənin eşqdən, sevgidən başın çıxmır. Tufan dev mənə özümdən gözəl görünür. Könül sevən göyçək olar mən onu sevmişəm.

Şəmsi xanım dedi:

- Mən könül-zad bilmirəm, bir də Tufan devlə görüşməzsən. Əgər görüşsən hər ikinizi parça-parça edib, özümüdə öldürəcəyəm.

Gün xanım başını aşağı salıb, hönkürə-hönkürə ağlamağa başladı, dedi:

- Qızım, axı onu sevirəm, nə təhər onunla görüşməyim?

Şəmsi xanım dedi:

- Çox ayıb olsun sənə, Ay kimi gözəl-göyçək bir oğlanı sevmirsən, bir qara kərtəngələyə oxşayan devi sevirsən. Mən nə qədər ki, sağam, elə şey olmayacaq. Ərə getmək könlündə varsa, get Aya, öz əlimlə toyunuzu edim.

Söhbətin kəsəsi, Şəmsi xanımın qorxusundan o gündən sonra Gün xanım Tufan devlə çox az-az görüşürdü. Qaf dağının lap dalında bir gizli yer düzəltmişdilər, ayaq üstü orada gündə bir saat, yarım saat görüşürdülər. Tufan devin baxtından idi, nədən idisə, Gün xanım Zulmata getmirdi, onun Zulmatdan zəhləsi gedirdi. Iki aşiq-məşuq yanıb qovrulurdular. Günlərin bir günü Tufan dev Günə dedi:

- Ey mənim həbibim, bil və agah ol, nə qədər ki, qızın Şəmsi xanım var, biz bir-birimizə çata bilməyəcəyik. Bir çarə elə.

Gün xanım dedi:

- Nə çarə eləyim? Bilirsən de.

Tufan dev dedi:

- Onu öldür, gəlim Gülüstani-Irəmdə yaşayaq.

Gün xanım bir qədər fikirdən sonra Tufan devin sözünə razı oldu. Gün xanım o gündən qızı Şəmsini öldürmək fikrinə düşdü. Eşit Şəmsidən.

Şəmsi hər bir gizlin sirri bilirdi. Dünyada heç bir lövh, tilsim ona kar eləməzdi. Axşam anası evə gələndə o saat bildi ki, anası onu öldürmək fikrinə düşüb. Şəmsi xanım bu işi açıb, ali eləmədi. Bir sərv ağacını tilsim-bənd elədi. Axşamlar o sərv ağacının dibində yatırdı, sərv ağacı onu yarpaqlarının arasında gizləyirdi, anası tapmırdı. Belə-belə bir müddət gəldi keçdi. Bir gecə genə Şəmsi gəlib, sərv ağacının dibində yatmaqda olsun, al xəbəri cin padşahının oğlu şahzadə Nurəddünyadan.

Şahzadə Nurəddünya özünə söz vermişdi ki, gərək bütün dünyanı gəzəm, elə bir gözəl tapıb alam ki, yaranmışlar içərisində ondan gözəli olmasın. O, nə müddət idi dünyanı gəzirdi, istədiyi gözəli tapmırdı. Bir gün Qaf dağının üstündən keçirdi, gördü ədə, bir ağacın dibindən işıq gəlir. Şahzadə Nurəddünya aşağı endi ki, görsün bu nə işıqdı. Gördü, vallah burda bir qız yatıb ki, gözəllikdə dünyada misli, bərabəri yoxdu. Elə istədiyi gözəl budu. Nurəddünya bir könüldən min könülə Şəmsi xanıma aşıq oldu. Şəmsi xanımı oyatdı ki, görsün bu kimdi. Şəmsi xanım yerdən qalxıb gördü nə, yanında elə bir oğlan var ki, belə gözəli allah tək yaradıbdı, dedi:

- Ey cavan, sən kimsən, nə hədlə Gülüstani-Bağı-Irəmə qədəm basmısan?

Nurəddünya dedi:

- Xanım, mən cinlər padşahının oğlu Nurəddünyayam, göynən keçirdim, sənin işığını gördüm, gəldim ki, baxam görəm nə işıqdır, səni gördüm.

Şəmsi xanım dedi:

- Gəldiyin yolla da düz get, bu saat əmr elərəm səni tikə-tikə edərlər.

Nurəddünya dedi:

- Xanım, əmr lazım deyil, özün parça-parça elə.

Şəmsi xanım dedi:

- Cavansan, sənə hayıfım gəlir, tez burdan get.

Şahzadə Nurəddünya dedi:

- Izin ver, bir söz deyim, sonra gedim.

Şəmsi xanım dedi:

- Buyur de.

Nurəddünya dedi:

- Ananın südünə and iç ki, səni öldürməyəcəyəm, deyim.

Şəmsi dedi:

- Anamın südünə and içirəm, səni öldürmərəm, de.

Nurəddünya dedi:

- Ey gözəl, səni sevirəm. Səndən cavab istəyirəm.

Şəmsi dedi:

- Heç kəs cür`ət edib bu sözü mənim gözümün içinə deyə bilməzdi. Sən ki, cür`ətlə bu sözü dedin, günahından keçdim. Çıx get, bu sevdadan da əl çək, çox adam sən düşən sevdaya düşüb sayaqlayıb, əlinə bir şey keçməyib.

Şahzadə Nurəddünya dedi:

- Xanım, ürək bir şişə deyil ki, hər toz qonanda silib atasan, göz gördü, könül sevdi, öldü var, döndü yoxdu. Əl mənim, ətək sənin.

Şəmsi xanım gülüb dedi:

- Xam xəyala düşmüsən.

Şəmsi xanım diqqətlə oğlanın gözlərinin içinə baxdı, onun ürəyi döyündü. Şahzadə Nurəddünyanın gözlərindən eşq odu sıçrayıb, onun ürəyinə girdi, yerə baxdı. Nurəddünya onun ayaqlarına yıxılıb dedi:

- Xanım, ölsəm də səndən əl çəkməyəcəyəm.

Şəmsi xanım əldən getmişdi, onu sakit edib dedi:

- Bir otur söhbət edək, görüm sən nəçisən, nə sənətin sahibisən. Nə hədlə mənim üzümə belə sözləri deyirsən.

Nurəddünya yerə əyləşdi, bütün əsil-nəcabətini qıza nağıl elədi. Qız baxdı ki, doğrudan da şahzadədi, özü də Tufan devlə qanlıdı. Öz-özünə dedi: «dünyada bundan gözəl qanacaqlı oğlan tapılmaz, elə buna gedərəm».

Nurəddünya qızın fikrə getdiyini görüb, bildi ki, eşq oxu ilə tuş qızın ürəyindən vurub. Ürəklənib dedi:

- Xanım, quluna rəhm et.

Şəmsi xanım dedi:

- Bir şərtim var, yerinə yetirsən, sözünü qəbul elərəm.

Nurəddünya gülümsünüb dedi:

- Xanım, şərtini söylə, ya ölərəm, ya da yerinə yetirərəm. Yox olsun o can ki, yar yolunda cəfalar çəkəməyəcək.

Qız dedi:

- Gərək Zulmat dünyasının padşahı Tufan devi öldürəsən.

Nurəddünya ikiqat olub dedi:

- Ey mənim gözəlim, o mənim əlimdə, təki qoy sənin könlün şad olsun.

Nurəddünya ilə Şəmsi xanım görüşüb ayrılmaqda olsun, al xəbəri Gün xanımdan.

Obaşdan Dan Günü çağırdı, gün ərşə çıxdı, axşama kimi seyr edib, axşamçağı ayaq üstü Tufan devlə görüşdü.

Tufan dev dedi:

- Ey həbibim, necə oldu, Şəmsi xanımı öldürə bildinmi?

Gün xanım dedi:

- Qız çox sehrkardır, dünyada olan örtülü sirrlərin hamısını bilir. Deyəsən bizim bu fikrimiz də ona əyan olub. Gecələr yerində olmur, öldürməyə gedirəm, görürəm yoxdu.

Tufan dev hərif idi, o saat barmağını dişləyib dedi:

- A gidi, o qız bizi öldürəcək. Tez bir çarə.

Gün xanım dedi:

- Nə çarə, öldürəcək də. Amma məndən arxayın ol, məni çox istəyir, öldürməz.

Tufan dev dedi:

- Onda mən bir lövh oxuyum, ikimizin də canını bir şişəyə salım, özümdə saxlayım, bəlkə sənin səbəbinə məni də öldürməyə.

Gün xanım razı oldu. Tufan dev bir lövh oxudu, ikisinin də canını bir şişəyə saldı. Indi ölsələr, ikisi də birdən öləcəklər, qalsalar ikisi də qalacaqlar.

Gün xanım qızının qorxusundan tez Gülüstani-Bağı-Irəmə qayıtdı. Şəmsi xanım anasının üzünə baxan kimi o saat ona əyan oldu ki, Tufan dev onun canını öz canı ilə birləşdirib özündə saxlayıbdır. Genə də özünü bilməməzliyə vurdu. Ancaq ürəyi döyünməyə başladı, anasına dedi:

- Ana, sən yeməkdən-zaddan hazırla, mən bu saat gəlirəm. Ürəyim darıxır, bir az gəzəcəyəm.

Şəmsi xanım anasını evdə qoyub, bağa çıxdı, baş-gözünə döyüb dedi:

- Ay aman, Nurəddünya gedib Tufan devi öldürəcək, anam da öləcək. Mən gərək onu tapam.

Şəmsi xanım qanad açıb Qaf dağının başına çıxmaqda olsun, al xəbəri Nurəddünyadan. Nurəddünya yeddinci göylə uçub özünü cin ölkəsinə çatdırdı, atasının yanına gedib dedi:

- Ata, mən Zulmat dünyasına gedəcəyəm.

Padşah dedi:

- Ay oğul, Zulmat dünyasında sənin nə işin var?

Nurəddünya dedi:

- Ata mən gərək Zulmat dünyasının padşahı Tufan devi öldürəm.

Cin padşahı dedi:

- Ay oğul, onu öldürə bilməzsən, o çox sehrkardır.

Nurəddünya dedi:

- Ata, ölsəm də gedəcəyəm.

Nurəddünya bütün fikrini atasına söylədi. Cin padşahı baxdı ki, oğlu eşq divanəsidi, onu yoldan qaytarmaq olmaz. Çar-naçar razı olub dedi:

- Oğul, indiki gedirsən, sözlərimə qulaq as. Tufan devlə üz-üzə gələndə çalış, onun gözlərindən və ürəyindən vur. Özü də fürsəti ona vermə, girəvəni əldə saxla, o, səndən çox sehr bilir.

Nurəddünya atasının tapşırıqlarını sinədəftər eləyib yola düşdü. Yolda öz-özünə dedi ki: gedim Şəmsi xanımla görüşüm. Şər deməsən xeyir gəlməz, bəlkə Tufan devin əlində həlak oldum. Nurəddünya qanad açıb, düz Gülüstani-Bağı-Irəmə, və`də yerinə gəldi, ancaq Şəmsi xanımı görmədi. O yan-bu yanı gəzirdi, bir də gördü, Şəmsi xanım ayağı dəryadan, başı bulutdan nəm çəkən bir imarətin eyvanında gəzir. Tez özünü eyvanın yanına saldı, üzynü ona çevirib dedi:

- Ey mənim gözəlim, gəlmişəm əhdini yerinə yetirəm, bəlkə bu səfərdə öldüm, gəl bir üzünə tamaşa eləyim.

Sən demə bu eyvanda gəzən Şəmsi xanımın anası Gün xanım imiş. Bunu deyim ki, Gülüstani-Irəmdə yaşayanların hamısı on beş yaşında olurdu. Onun üçün də Gün xanım da on beş yaşında idi, qızı da. Özləri də bir-birinə elə oxşayırdılar, elə bil bir alma idilər, yarı bölünmüşdülər.

Bəli, Gün xanım Nurəddünyanı görən kimi bərkdən bir zəbanə çəkdi, o saat bərk gurultu qopdu, bir quyu açıldı Nurəddünya içinə düşdü, eşit Şəmsi xanımdan.

Şəmsi xanım Qaf dağının başında Nurəddünyanı gözləyirdi ki, tapşırsın, Tufan devi öldürməsin. Birdən anasının səsini eşitdi. Şəmsi xanım o saat bildi ki, Nurəddünya bağa gedib, anasını ona oxşadıb. Tez geri qayıtdı. Xəbər ağacının yanına gəldi. Xəbər ağacı bütün əhvalatı ona söylədi. Şəmsi tez quyunun başına gəldi, mələikələrə əmr elədi, Nurəddünyanı quyudan çıxartdılar. Nurəddünya onun ayaqlarına yıxılıb dedi:

- Ey fəzalar padşahı, mənə niyə qəzəbin tutdu, mən nə cür danışdım ki, məni tilsimə saldın? Şəmsi yavaşcadan ona dedi:

- Ey Nurəddünya, bil və agah ol, sən danışdığın mənim anam imiş. Yaxşı ki, o səni parça-parça etməyib. Mənlə onu bir-birimizdən ayırmaq üçün həmişə mənim başımın üstünə baxarsan. Mənim başımın üstündə Ülkər ulduzu dayanır, anamın başının üstündə Ay.

Nurəddünya dedi:

- Xanım, gedirəm Tufan devi öldürməyə.

Şəmsi xanım dedi:

- Ey Nurəddünya, mənim anamın canı Tufan devdədi, əgər onu öldürsən anam da öləcək. Sən Tufan devi öldürmə. Sözlərimə qulaq as, əməl elə. Ey Nurəddünya, mən bir lövh oxuyacağam, Qaf dağı qırx yerə bölünəcək. Zulmat dünyası lap axırıncı dağda qalacaq. Gərək yeddi il Qaf dağına qarovul çəkib, Tufan devi anamla görüşməyə qoymayasan. Əgər bu şərtimi yerinə yetirsən nə desən razıyam. Nurəddünya dedi:

- Ey dünya gözəli, ölümə göndərsən də gedəcəyəm. Yeddi il deyirsən, on yeddi il də gözlərəm.

Şəmsi xanım ona qıyqacı baxıb dedi:

- Onda sən mənim olacaqsan, mən də sənin. Indi tez get anam durub bizi görər.

Onlar bir-birindən ayrıldılar. Nurəddünya düz Qaf dağının başına, Şəmsi də öz evinə getməkdə olsun, al xəbəri Tufan devdən.

Tufan dev Qaf dağının başında neçə gün idi ki, Gün xanımın yolunu gözləyirdi. Onun səbri lap tükənmişdi. Bir də gördü ki, cin padşahının oğlu Nurəddünya budu, Qaf dağının başına tərəf gəlir. Tufan dev başında qırx dəyirman daşı olan əmudunu götürüb, Nurəddünyaya tərəf getmək istəyəndə bir şaqqıltı qopub, Qaf dağı qırx parça oldu. Qaranlıq dünyası lap axırıncı dağa düşdü. Tufan dev başına-gözünə döydü, fəğan eyləyib ağladı, gördü ki, hara çatacaq, ağlamaqdan, sızıldamaqdan bir şey çıxmaz, tədbir görmək lazımdı.

Tufan dev barmağını dişləyib öz-özünə dedi: «a gidi, bu işi düzəldən, Qaf dağını parçalayan, məni sevgilimdən ayrı-salan Şəmsi xanımdı». Çox götür-qoydan sonra tənur eləyib,

işıqlı dünya olan Qaf dağına gəldi gördü ki, Nurəddünya burda qarovul çəkir. Tufan dev bir böyük daş götürüb, yavaş-yavaş gedib, onun başına salmaq istəyəndə, Gün böyürdən çıxdı, onun biləyindən tutub dedi:

- Bu kimdir, niyə öldürürsən?

Tufan dev dedi:

- Bəs bilmirsən? Şəmsinin qarovulçusudu.

Gün dedi:

- Ey Tufan, sən nə qayırırsan, Şəmsi bütün dünyanı alt-üstünə çevirər. Ayrı tədbir lazımdı. Sən gizlən, mən bununla söhbət edəcəyəm. Bəlkə aldada bildim.

Tufan dev gizləndi. Gün xanım Nurəddünyanın bərabərinə gəldi. Nurəddünya Günü görən kimi genə öz sevgilisi hesab edib dedi:

- Ey mənim sevgilim, nə bildin ki, mənim ürəyim səni arzulayır, gəldin.

Gün xanım çox ağıllı idi. O saat başa düşdü ki, ey dili-qafil, bu mənim qızıma aşiqdi, dedi:

- Ey cavan, mən sənin sevgilin deyiləm, onun anasıyam, yanılma.

Nurəddünyanın yadına Şəmsinin dedikləri düşdü, o saat yuxarı baxıb gördü ki, doğrudan səhv olub. Bunun başının üstündə ay durub. Başını aşağı salıb sakit dayandı.

Gün xanım dedi:

- Olmaya səni Şəmsi xanım bura göndərib ki, məni Tufan devlə görüşməyə qoymayasan?

Nurəddünya gizlədə bilməyib dedi:

- Bəli, xanım, elədi ki, var.

Kül xanım dedi:

- Ey avam, o, səni aldadır. Sənə gəlməyəcək.

Nurəddünya dedi:

- O məni aldatmaz.

Gün xanım gülüb dedi:

- Doğurdan da, avamsan. Qız mənimdi, xasiyyətini bilirəm. O istəyir ki, səni burda öldürtsün.

Bu söz Nurəddünyanın ağlına batdı, əl-ayağa düşüb dedi:

- Bəs mən nə cür eyləyim, axı ondan ötrü ölürəm?

Gün xanım baxdı ki, ovu bərəsində vurubdu, dedi:

- Bir müddət burda qarovul çəkərsən, sonra mən fəndini deyərəm, hasantlıqla onu alarsan. Bu şərt ilə, sənin Tufan devlə işin olmasın, həm də qız gələndə deyərsən ki, tay qoymuram görüşələr.

Nurəddünya onun sözünə aldanıb dedi:

- Işim yoxdu, ancaq sən qızını mənə verəsən.

Gün dedi:

- Verdim. Bizim qarovulumuzu çəkərsən, gələn olanda bizə xəbər verərsən.

Nurəddünya razı oldu. Gün xanım Tufan devi çağırdı. Tufan dev gəldi. Onlar arxayın kef edirdilər, Nurəddünya da onların qarovulunu çəkirdi. Belə-belə bir müddət gəldi keçdi. Günlərin bir günü Gün Qaf dağına gələndə Şəmsi onu gördü. Öz-özünə dedi, görəsən Nurəddünya hardadı ki, anam Qaf dağına gedir. Tənur eyləyib göyə qalxdı, düz Qaf dağına gəlib nə gördü, Nurəddünya qarovul çəkir, anası ilə Tufan dev kef edirlər. Çox qəzəbləndi, istədi hər ikisini parça-parça eləsin, özünü saxlayıb, analıq südünü yadına saldı. Şəmsi xanım sehr oxuyub Tufan devi bir meymun elədi, qaranlıq dünyaya tulladı, Nurəddünyanı da yüz ərşin quyunun dibində tilsimə saldı, anasını götürüb evinə gəldi.

Gün xanım bu gündən gününü ağlamaqla keçirsin, qayı dağ geri, görək Süleyman tacir nə eləyir.

Süleyman əlini Qəmər xanımdan üzüb, arvadı Minagərdən xanımla günlərini ağlamaqla keçirirdilər. Ağlamaqdan onların gözləri tutulmuşdu. Tapdıq da böyüyüb yekə oğlan olmuşdu. Bir gün ata-anası genə ağlayırdılar. Tapdıq onları sakit eləyib dedi:

- Ata, izin ver mən Qəmər xanımı axtarmağa gedim, bəlkə allah yar oldu, tapdım.

Süleyman tacir dedi:

- Oğul, elə sözü danışma, biz səndən təsəlli alırıq, sən bir yana getsən hər ikimiz ölərik.

Tapdıq dedi:

- Xeyir, ata, mən gedəcəyəm.

Süleyman tacir nə qədər elədisə, Tapdıq razı olmadı, axırda çar-naçar razı oldu. Tapdıq ata-anası ilə görüşüb, öpüşüb yola düşdü. Dərələrdən yel kimi, təpələrdən sel kimi gedib bir xarabalığa çıxdı. Tapdıq baxdı ki, bura elə xarabalıqdı ki, adamın bağrı yarılır. Bir neçə qədəm getməmişdi ki, bir gurultu qopdu, qaranlıq düşdü, bir tufan oldu. Tufan Tapdığı götürüb uzaq bir yerə tulladı. Sonra hava sakit oldu. Tapdıq gözünü açıb gördü ki, bir mağaranın içindədi. Hər yanı gəzdi, dolaşdı bir yana çıxa bilmədi. Ac-susuz burda qaldı. Bir gün Tapdığın ürəyi bitaqət olub, bir sərv ağacının dibində huşa getmişdi. Bir də gördü üç göyərçin gəlib sərv ağacının başına qondular. Göyərçinlərdən biri dedi:

- Bacılı, bilirsən bu oğlan kimdi?

O biri dedi:

- Bilmirəm bacılı, kimdi?

Dedi:

- Bu, Süleyman tacirin oğulluğu Tapdıqdı. Süleyman tacirin qızı Qəmər xanımı axtarmağa gedirdi. Gəlib ağ devin məkanına çıxıb, Ağ dev onu tilsimə salıb. Yazıq nə vaxtdı ki, tilsimin içində sərgərdan gəzir, acından ürəyi bitaqət olub.

O biri göyərçin dedi:

- Bacılı, bu yazıq bəs nə eləsə tilsimdən qurtara bilər?

Dedi:

- Bacılı, Ağ devi öldürməsə tilsimdən qurtara bilməz. Ey cavan, ayıqsansa eşit, ayıq deyilsənsə ayıl, bil və agah ol. Ağ dev yeddi ağaclıqda bir mağara içərisindədir. Hər dəqiqədə bir nəhib heyvan donuna düşür. Indi öz hünərinə baxar, bir yol tapıb onu öldürə bilsən, canın qurtarar.

Göyərçinlər Tapdığa bir lələk salıb dedilər:

- Ey Tapdıq, al bu lələyi burnuna tut aclığın sönsün, tox ol.

Göyərçinlər sözlərini tamam eləyib, qanad-qanada verib getdilər. Tapdıq lələyi götürüb burnuna verən kimi aclığı söndü, dizlərinə qüvvət gəldi. Lələyi cibinə qoyub, göyərçinlər isnad verdiyi səmtə yol aldı, taki gəlib yeddi ağaclıqda bir qapı-bacasız mağaraya çıxdı. Mağaranın ətrafını gəzdi, dolandı bir balaca kuful tapdı. Kufulun ağzında bir eybəcər əjdaha gördü. Tapdıq bildi ki, bu mağaranın qarovulçusu budu. Tez qılınca əl atıb əjdahaya hücum elədi. Əjdaha ağzını açıb, Tapdığı qılınclı-zadlı uddu. Tapdıq gördü, baho, əjdahanın qarnı pəhlivanlarla doludu. Pəhlivanlar onu görən kimi dedilər:

- Ey cavan, sən hardan bura gəldin? Bu əjdaha çoxlu igidlər udmuşdu. Bunun udduğu adamlar qırx gün sağ qalırlar, qırx gündən sonra əriyib gedirlər.

Tapdıq çox kefsiz oldu. Onun üzünün işığı əjdahanın qarnını gün kimi işıqlandırdı, işıqlı dünya elədi. Tapdıq əjdahanın qarnını gəzib dolandı, onun bağırsaqlarını tapdı, qılıncı sivrib bağırsaqları doğradı, əjdahanı bir qədər heydən saldı. Sonra gəzib, arayıb onun ürəyini tapdı, qılıncı çəkib, ürəyi parçaladı. Əjdaha o saat zəbanə çəkib öldü. Tapdıq onun qarnını cırıb, orada olan adamları azad elədi, özü mağaraya girdi. Tapdıq mağarada çox gəzdi, dolandı axırda gəlib bir otağa girdi, baxdı ki, baho, dev başını bir gözəl qızın dizi üstünə qoyub yatıbdı. Qız onu görəndə köksünü ötürüb dedi:

- Ay aman, oğlan, buraya nə cür gəlmisən, tez elə də çıx get. Ağ dev indicə durub səni parça-parça edəcək. O, adam ətinə yerikləyir.

Tapdıq dedi:

- Gözəl xanım, qorxma, bura gələn oğlan öz hünərinə güvənib.

Qız dedi:

- Ey cavan, min sənin kimi oğlanlar bu tilsimə gəlib, devlə bacarmayıb həlak olub. Bu dev başdan ayağa tilsim di, ayılmamış burdan uzaqlaş, dursa səni parça-parça elər.

Tapdıq gülüb dedi:

- Mən qarpız-qovun deyiləm ki, parça-parça eləyə. Bu nə vaxt duracaq?

Qız dedi:

- Indi ki, getmirsən sözümə qulaq as. Ey cavan, bu devin canı yuxarıdan asılan qəfəsin içindəki bayquşdadı. Hər kəs bir oxla o bayquşu vursa dev ölər, vura bilməsə, özü daşa dönüb tilsimdə qalar. Indi gör, bir oxla vura bilərsənmi? Devin yuxudan oyanmağına az qalıb.

Tapdıq dedi:

- Ey qız, mən gərək devi ayıldıb öldürəm. Yatdığı yerdə onu öldürmək igidlik deyil. Qoy dursun, görsün ki, analar nə cür oğlan doğub.

Qız dedi:

- Ey cavan, inad eləmə, ayılsa onu öldürə bilməzsən. Allaha təvəkkül de, oxu at. Bəlkə baxtın yar oldu, ox dəydi.

Tapdıq dedi:

- Üz vurma, mən yatdığı yerdə ona çırtıq da vura bilmərəm.

Bəli, qız nə qədər yalvardı, oğlan ox atmadı, taki devin ayılmaq vaxtı gəldi, bərkdən asqırıb yerdən qalxdı. Tapdığı görən kimi bərkdən zəbanə çəkib dedi:

- Ey Tapdıq, mən səni göydə axtarırdım, yaxşı ki, yerdə əlimə düşmüsən.

Tapdıq dedi:

- Ey dev, nə bildin ki, mən Tapdığam?

Dev dedi:

- Yaxşı bilirəm. Bu saat səni parça-parça eləyib, dişimin acısını alacağam, elə könlüm məni-adəm əti istəyirdi.

Tapdıq dedi:

- Can yiyəsi hələ ölməyib ki, yeyəsən. Boyu uzun, ağlı kəm dev, adam arxı tullanar, sonra bərəkallah deyər.

Dev bu sözü eşidən kimi qəzəblənib, əl atdı başında qırx dəyirman daşı olan ağacını götürdü, dedi:

- Indi anan gəlsin sənin tozunu torpaq içindən ayırsın!

Dev ağacı yuxarı qaldırıb, Tapdığın qalxanına elə bir ağac vurdu ki, Tapdıq boğaza qədər torpağa batdı. Tez sıçrayıb torpaqdan çıxdı, əl atdı qılınca. Devin tənəsinə nə qədər çırpdısa, qılınc devə batmadı, çünki dev tilsimli idi. Tapdıq qılıncı kənara tulladı, başladı devlə güləşməyə. Belə rəvayət eliyirlər ki, bunlar qırx gün, qırx gecə güləşdilər, bir-birini yıxa bilmədilər. Axırda Tapdıq bir nə`rə çəkib, onu yerə çırpdı, qılıncı götürüb nə qədər sürtdüsə, qılınc devin boğazını kəsmədi. Onu buraxıb, kənarda bir daşın üstündə oturdu, fikrə getdi. Dev də nə qədər lövh oxudusa, Tapdığı daş eləyə bilmədi.

Bir qədər dincələndən sonra bunlar yenə didişməyə başladılar. Qırx gün didişdilər, yenə də bir-birinə güc gələ bilmədilər. Axırda Tapdıq qəzəblənib, əl atdı devin boğazından tutdu, elə boğdu ki, devin gözlərinin ikisi də bərəldi. Dev bərkdən quva çəkəndə bayquş qəfəsdən çıxıb istədi Tapdığın iki gözlərini çıxartsın. Tapdıq devin boğazını buraxıb, cəld bayquşun boğazından tutdu. Bayquş elə qüvvə verdi ki, əgər dağ olsaydı yerindən qopardı, ancaq Tapdığın qolları yerindən qopmadı. Qoçaq Tapdıq onu elə boğdu ki, bayquş heydən düşdü. Dev bunu görəndə Tapdığın ayaqlarına yıxılıb ağlaya-ağlaya dedi:

- Ay Tapdıq, amandı o quşu burax, ölüncə sənə qul olaram. Amandı burax!

Tapdıq dedi:

- Xeyir, buraxa bilmərəm.

Tapdıq onun yalvarmasına fikir verməyib, elə güc verdi ki, bayquşun boğazını üzdü. Bayquşun boğazı üzülən kimi, dev bərkdən zəbanə çəkib öldü. Qız Tapdığın ayaqlarına yıxılıb dedi:

- Ey cavan, mən cinlər padşahının qızıyam. Bu dev məni yeddi ildir ki, bu tilsimdə saxlayır, nişanlımı da daş eyləyib. Deyildiyinə görə, devin qanından daşa vursan yenə əzəlki halına gələr. Məni bu zalım devin əlindən qurtardın. Devin qanından da sevgilimin daşına vur, bəlkə əvvəlki halına gəldi.

Tapdıq bu sözü eşidən kimi qılıncı sivirib, devin meyitini parçaladı, onun qanından oğlanın daşına çilədi. O saat oğlan əvvəlki halına düşdü. Iki aşiq-mə`şuq qucaqlaşıb özlərindən getdilər. Tapdıq onların üzlərinə su çiləyib özlərinə gətirdi. Bunlar Tapdığın ayağına yıxılıb dua elədilər. Tapdıq dedi:

- Deyin görüm, siz kimsiniz, dev sizi niyə tilsimə salıbdı?

Qız dedi:

- Ey cavan, mən cinlər padşahının qızıyam, bu da vəzirin oğludu. Mənim atamla bunun atasının övladı olmurmuş. Bunlar nəzir-niyaz edirlər, axırda biz anadan oluruq.

Atamla vəzir şərt qoyub, bizi bir-birimizə nişanlayırlar. Biz məktəbdə bir yerdə oxuduq, həddi-buluğa çatdıq. Bir-birimizdən bir dəqiqə ayrı dura bilmirdik. Bir gün vəzir atamın yanına gəldi, razılıq alıb toyumuzu etdilər. Demə bu dev də mənə aşiq imiş. Məni toy-nağara ilə oğlan evinin həyətinə gətirdilər. Mən içəri girmək istəyəndə göydən bir əl uzanıb məni havaya çəkdi. Mən o saat özümdən getdim. Bir vaxt gözümü açıb özümü burada gördüm. Bu zalım dev məni gündə döyüb, saçlarımdan asdı, mən onun rə`yinə tabe olmadım. Aradan bir müddət keçdi, bir də gördüm nişanlım gəlib çıxdı. Dev onu görən kimi əfsun oxuyub belə daş elədi. Indi sən bizi devin əlindən azad elədin, heç olmasa görüşdük. Ancaq ey cavan, buranın qapıçısı bir əjdahadır, içəri girən bayıra çıxa bilmir, əjdahaya yem olur.

Tapdıq dedi:

- Ey qız, qəm yemə, gələndə əjdahanı öldürmüşəm.

Bundan çox sevindilər, Tapdığın igidliyinə afərin söylədilər. Hər üçü bir-birinə qoşulub kənara çıxdılar.

Oğlanla qız dedilər:

- Ey cavan, bizə yaxşılıq eləmisən, bizdən bir dilək istə.

Tapdıq dedi:

- Ayrı diləyim yoxdu, Qaf dağının yerini mənə söyləyin.

Qız dedi:

- Biz səni aparıb Qaf dağında qoyub, sonra öz evimizə gedərik.

- Bəli, bunlar yola düşüb, mənzilbəmənzil, teyyi-mənazil, gedib Qaf dağına çıxdılar. Qız dedi:

- Ey cavan, Qaf dağının gün doğan tərəfi Gülüstani-Bağı-Irəmdi, gün batan tərəfi də zülmat dünyasıdı. Gülüstani-Bağı-Irəmin sahibi Gün xanım, Zülmat dünyasının padşahı da Tufan devdi. Buralara gedə bilməzsən.

Tapdıq fikirləşib dedi:

- Mən əvvəlcə Gülüstani-Bağı-Irəmə gedəcəyəm, bəlkə bacımın sorağını orada aldım.

Bunlar dedilər:

- Ey cavan, Gülüstani-Bağı-Irəmə bəni-adəm ayağı dəyəndə, o adamı yüz ağac kənara tullayır. Sən bu sevdadan əl çək.

Tapdıq razı olmadı. Onlarla xudahafizləşib, Gülüstani-Bağı-Irəmə getməyə başladı. Az getdi, çox getdi, gedib Gülüstani-Bağı-Irəmə çatdı. Tapdıq bağa girdi, bağ onu kənara tullamadı. O, gəzə-gəzə bir sərv ağacının yanına gəldi. Gördü ki, bu sərv ağacının dibində on beş yaşında bir gözəl qız yatıb ki, misli-bərabəri dünyada yoxdu. Onun üzü işıq verib, par-par parıldayır. Tapdıq bir könüldən min könülə qıza aşiq oldu. Bu qız kim ola, Gün xanımın qızı Şəmsi xanım. Tapdıq ayağını sərv ağacının dibinə qoymaq istəyəndə sərv ağacı bərkdən silkələndi, hər yarpağı bir zınqırova döndü, çalmağa başladı. Şəmsi xanım yerdən qalxınca, Tapdıq qaçıb gizləndi. Şəmsi xanım nə qədər gəzdisə, heç kimi tapmadı, qayıdıb yenə yerində uzandı, yuxuya getdi. Şəmsi xanım yatmaqda olsun, eşit Gün xanımla Tufan devdən. Tufan dev zülmat dünyasında küllüklərdə,

zibilliklərdə sümsünüb-qır-qırıntıdan tapıb yeyirdi, axşam da Gün xanımdan ötrü ağlayırdı. Onun gözündən tökülən yaş havaya qalxırdı, ordan damla-damla yerə süzülürdü. Ustadlar deyirlər ki, bulud, duman, yağış, qar, dolu Tufan devin gözündən tökülən yaşdan əmələ gəlibdir. O biri tərəfdən Gün xanım o qədər ağlamışdı ki, gül kimi solmuşdu. Gözəl saçları qarğa yuvasına dönmüşdü, üzünə tökülmüşdü; sərsəri kimi dolanırdı. Onun işığı dünyanı toran kimi işıqlandırırdı.

Günlərin bir günü, Gün xanım Gülüstani-Bağı-Irəmin bir ucqarı yerində oturub, qəmə batmışdı. Öz-özünə deyirdi, bəs bunun axırı nə olsun, sevgilim zulmat dünyasında həmişə meymun olacaq. Başına döyüb, göz yaşını axıdırdı. Onun göz yaşı damla-damla düşüb gül olurdu, ay parçası kimi açılıb pardaqlanırdı. Gün xanım çox fikirdən sonra öz-özünə dedi: «mən qızımı öldürməsəm, ürəyim soyumayacaq. Onu öldürsəm, bəlkə sevgilimə çatam».

Gün xanım tez yerindən qalxdı, bir dağ böyüklükdə başı götürüb havaya qalxdı. Havadan yavaş-yavaş sərv ağacının üstünə endi. Daşı qızın başına salanda, Tapdıq bunu gördü. O saat daşı göydə tutub kənara tulladı, qoymadı Şəmsi xanımın üstünə düşsün. Səsə Şəmsi xanım yuxudan qalxdı, genə heç kimsəni görmədi. O, bildi ki, bağda adam var. Şəmsi xanım gecə yatdı. Səhər durub bağa çıxanda gördü ki, bağın ortasında dağ böyüklükdə bir daş var. O saat bildi ki, anası onun başına salıb öldürmək istəyirmiş, nə təhər olubsa, kənara tullayıb, yəqin öldürmək istəməyib. Şəmsi xanım daşı görəndən sonra bağa başqa adam girdiyini gümanına gətirmədi. Çünki bu bağa günəş nəslindən olan pərilərdən, cinlərdən başqa kimsə girə bilməzdi. Şəmsi xanım əhvalatı açıb əyan eyləmədi, anasına bir söz də demədi. Özünü elə saxladı ki, guya bu işdən heç xəbəri yoxdu.

Bəli, bir neçə gün belə gəldi keçdi. Bir gecə genə Gün xanım bir dağ böyüklükdə daş götürüb, havaya qalxdı qızının başına salanda genə də Tapdıq tutub, kənara tulladı, qoymadı qızın üstünə düşsün. Genə səhər açıldı, Şəmsi xanım gördü ki, bağın içində bir daş da var. Qız öz-özünə dedi: «Yox, burda başqa iş var, bu gecə yatmayacağam». Qız özünü bilməməzliyə vurdu, barmağını yarıb içinə duz doldurdu, o biri gecə yatmadı. Gecənin bir aləmində gördü ki, anası bir dağ böyüklükdə daşı götürüb havaya qalxdı, onun üstünə salanda, bir oğlan çıxdı, əl atdı göydə daşı tutdu, kənara tuladı. Şəmsi o saat əl atıb Tapdığın biləyindən tutdu, dedi:

- Ey cavan, sən kimsən ki, məni ölümdən qurtarırsan, mənim bağıma nə cür gəlib çıxıbsan?

Tapdıq dedi:

- Ey gözəl qız, mən Süleyman tacirin oğlu Tapdığam. Bacımı oğurlayıb aparıblar, onu axtarıram.

Şəmsi xanım dedi:

- Bacının adı nədi?

Tapdıq dedi:

- Qəmər xanım.

Şəmsi xanım bu sözü eşidəndə rəngi dəyişildi, bir balaca fikrə getdi. Tapdıq onun sifətindən mə`na anlayıb dedi:

- Ey gözəl qız, sənin sifətində mə`na var. Əgər mənim bacımın yerini bilirsənsə, de, ölüncə sənə duaçı olaram.

Şəmsi xanım dedi:

- Ey Tapdıq, bil və agah ol, sənin bacını Tufan dev ölüm tilsiminə salıb. O tilsimə düşən çıxmaz. Əlini bacından üz.

Tapdıq bu sözü eşidəndə çox kefsiz oldu. Qəm dəryasına batdı. Şəmsi xanım onu götürüb öz otağına gəldi, ona təskinlik verdi. Bir neçə gün belə gəldi. Bir gün Şəmsi xanım ona dedi:

- Ey Tapdıq, Gülüstani-Bağı-Irəmə bəni adəm girə bilməz, onu kənara tullayar, bəs nə təhər oldu sən bura girdin?

Tapdıq dedi:

- Mənim canım tamam tilsimdi, heç bir sehr kar eləməz. Xanım, yaxşı yadıma düşdü, bəs sənin başına daş salmaq istəyən kim idi?

Şəmsi xanım ondan danıb dedi:

- Bir pəri qızdı, mənlə düşməndi, girəvə axtarır ki, məni öldürsün.

Tapdıq bu sözə inanıb, sözün gerisini çevirmədi, dedi:

- Şəmsi xanım, mən bacımı ölüm tilsimindən azad eləməyə gedəcəyəm. Ya ölüb orda qalaram, ya da bacımı tilsimdən qurtararam. Ancaq sənə bir deməli sözüm var, qəzəbin tutmasa deyərəm.

Şəmsi dedi:

- Qəzəbim tutmaz, de. Sən məni ölümdən qurtarmısan.

Tapdıq ürək eləyib dedi:

- Ananın südünə and iç ki, acığın tutmayacaq, deyim.

Şəmsi dedi:

- Anamın südü haqqı, sənə heç-zad eləmərəm, de.

Tapdıq dedi:

- Ey qız, sənə ürəkdən aşiq olmuşam, səndən ötrü ölürəm! Əl mənim, ətək sənin, ya məni öldür, ya mənə gəl.

Şəmsi gözlərini yerə tikib dedi:

- Mən elə bilirdim ayrı söz deyirsən. Bu sözlərdən əl çək.

Tapdıq ürəkləndi, dedi:

- Şəmsi xanım, öldü var, döndü yoxdu. Məni özünə qul qəbul elə.

Şəmsi xanım dedi:

- Sən mənə çox yaxşılıq etdiyin üçün dinmirəm. Bu sevdadan əl çək. Ayrı adam mənə bu sözü desə, onu parça-parça edərdim.

Tapdıq dedi:

- Mən bacımı tilsimdən qurtarmağa gedirəm, odur ki, məni qəmgin yola salma. Bəlkə öldüm, heç geri qayıtmadım, ürəyimdə intizar qalmasın.

Şəmsi xanım dedi:

- Get bacını qurtar, gəl, o vaxta kimi fikirləşərəm, bəlkə sözünü qəbul elədim.

Tapdıq əlacsız qalıb, bu sözə razı oldu. Qızla xudahafizləşib yola düşdü. Tapdıq gedəndən sonra qız öz-özünə dedi: «əgər Tapdıq məndən güclü olsa ona gedəcəyəm. Gedib onun gücünü sınayım». Şəmsi xanım bir dəst pəhlivan paltarı geyib, kəsə yolla gedib bir dar yerdə oğlanın qabağını kəsdi. Tapdıq gəlib keçmək istəyəndə gördü ki, yolu bir pəhlivan kəsibdi.

Şəmsi xanım dedi:

- Ey kimsən? Nə hədlə bura qədəm basmısan?

Tapdıq dedi:

- Ey pəhlivan, bacımı tilsimdən qurtarmağa gedirəm, yol ver keçim.

Şəmsi dedi:

- Sən ancaq mənim meyitimin üstündən keçə bilərsən.

Tapdıq dedi:

- Xoşam-xoşluqla yol verməsən, güclə keçəcəyəm. Deyirəm kişilik eləyib yol verəsən. Mənim ki, sənlə bir işim yoxdu.

Şəmsi qəzəblənib qılıncı çəkdi, ona hücum edib dedi:

- Indi davam gətir, sonra öyün.

Bunlar üç gün, üç gecə bir-birinin qalxanına qılınc çaldılar. Hər ikisinin qılıncı sındı, əl atdılar nizəyə. Üç gün də nizə davası elədilər. Nizələri də sındı. Qollarını çirməyib küşkü tutdular. Yeddi gün, yeddi gecə biri-birini didişdirdilər, heç biri güc eliyə bilmədi, axırda Şəmsi bir nə`rə təpib Tapdığı yuxarı qaldırdı yemə çırpıb, sinəsi üstündə əyləşdi. Başını kəsmək istəyəndə Tapdıq dedi:

- Ey pəhlivan, igid basdığını kəsməz. Məni öldürmə, qoy gedim bacımı azad edim. Bacımın üzünü görməmiş ölsəm, ruhum sənə qarğış edər.

Şəmsi dedi:

- Sənə aman yoxdu.

Tapdıq elə bir ah çəkdi ki, ağzından qalxan alov Şəmsini az qaldı yandırsın. Şəmsi dedi:

- Ey pəhlivan, niyə belə ah çəkdin?

Tapdıq dedi:

- Ona görə ah çəkdim ki, ürəyimdə arzum qaldı, nakam getdim. Sevgimə çatmamış öldüm.

Şəmsi dedi:

- Sevgilin kimdi?

Tapdıq dedi:

- Gün xanımın qızı Şəmsi xanım.

Şəmsi xanım onun döşünün üstündən durdu, rubəndini kənara atdı. Onu görəndə Tapdığı heyrət apardı. Şəmsi xanım dedi:

- Ey Tapdıq, sənin gücünü sınamaq üçün belə eləyirdim. Doğrudan da çox qüvvətli pəhlivansan. Qayıt gedək. O tilsimi heç kəs dağıda bilməz.

Tapdıq dedi:

- Ey gözəl, ya bacımı tilsimdən azad eləməliyəm, ya da ölməliyəm.

Şəmsi dedi:

- Mən də səni sevirəm. Gedək Gülüstani-Bağı-Irəmdə eyş-işrət eləyək, naz-qəmzə içində ömür sürək. Sonra bacını qurtarmaq üçün çarə eyləyərik.

Tapdıq dedi:

- Gözəl xanım, nə qədər ki, bacım tilsimdədi, işrət, kef mənə haramdı. Üz vurma, qoy gedim. Ancaq məni sevirsənsə, gözlə. Ölmərəm, qayıdıb gələrəm, ölərəm, dünyadan nakam gedərəm.

Şəmsi xanım dedi:

- Mərhəba, sən ki, bacını belə istəyirsən, onsuz keyfi haram bilirsən, sevgilinə də belə e`tibarlı olacaqsan. Get, allah sənə yar olsun. Ancaq o tilsimi dağıda bilməyəcəksən. Al sənə bir qılınc verirəm, dara düşəndə qılıncı çəkib məni çağırarsan. Köməyinə çatıb, səni dardan qurtararam.

Tapdıq Şəmsi xanımla xudahafizləşib yola düşdü. Az getdi, üz getdi, dərə, təpə, düz getdi, gedib bir xaraba qalaya çıxdı. Qalanı çox gəzdi, dolandı, bir quş da belə tapmadı. Bir barıya rast gəldi. Tapdıq kəmənd atıb barının başına bənd elədi, üstünə çıxıb, gördü ki, dünyada nə qədər əcayib, qorxulu heyvan, əcinnə varsa, hamısı bu barının içindədi. Onun tükləri biz-biz oldu. Istədi geri qayıtsın, bacı məhəbbəti onu irəli itələdi. Barıdan düşmək istəyəndə, hər tərəfdən çığırtılar qopdu:

- Ey Tapdıq, səni biz çoxdan gözləyirdik, yaxşı ki, gəlmisən.

Tapdıq qılınc çəkib barıdan içəri tullandı. Bütün əjdahalar, pələnglər, ifritələr ağızlarını açıb onun üstünə od tökməyə başladılar. Tapdıq özünü alovun içinə atıb, qılıncı çala-çala bir böyük daşın üstünə çıxdı. Onun canı tamam yanıb yara olmuşdu. Paltarı yanıb çılpaq qalmışdı. Bir böyük pələng onun üstünə hücum elədi. Tapdıq onun başına nə qədər qılınc çəkdisə, kar eləmədi. Axırda sıçrayıb onun ağzına düşdü, bir əli ilə alt çənəsindən, bir əli ilə də üst çənəsindən tutub elə bir güc verdi ki, pələngin çənələrini dartıb ayırdı. Pələngin qarnından qırx özü kimi böyük pələng çıxıb, hamısı Tapdığın üstünə həmlə elədi. Tapdıq bunları da öldürdü, hər birinin qarnından qırx pələng çıxdı. Belə-belə pələnglər artıb dünyanı tutdu. Tapdıq tamam heydən düşdü, daşın üstündə oturdu. Birdən bərk nərilti qopdu, daş parçalanıb, altından bir külək qopdu. Tapdığı götürüb bir yekə əqrəbin qarnına tulladı. Tapdıq əqrəbin qarnında nə qədər gəzdisə, bir yana çıxa bilmədi. Axırda bir mağara tapdı. Tapdıq bacısının ölüsünü gördü. Ona tərəf yüyürdü, bacısının meyiti yox oldu. Tapdıq bir müddət yol getdi. Bir də gördü bacısını çarmıxa çəkib döyürlər. Qılıncı çəkib irəli yüyürdü, kim səni görmədi. Belə-belə bacısı minbir əzab çəkdiyi vaxt onun gözünə görünürdü. Tapdıq lap dəli-divanə olmuşdu, az qalırdı öz-özünü öldürsün. Bir dəfə yenə gördü ki, bacısına əzab verirlər. Bacısı zarıya-zarıya onu haraya çağırdı. Tapdıq qılıncı çəkib elə bir nə`rə çəkdi ki, tilsim tamam titrədi, ulduzlar hərəkətə gəldi. Onun bu nə`rəsi həmişə havada qaldı, ildırım, göy gurultusu oldu. Yeddi əjdaha peyda olub ağızlarını açdılar, Tapdığın üstünə hücum elədilər. Tapdıq bərk qəzəblənmişdi. Bir saatın içərisində onların yeddisini də parçaladı, amma çifayda, əjdahanın

qarnından qırx özü böyüklükdə əjdaha çıxıb onun üstünə tökürdülər. Tapdıq bunların hansını öldürürdüsə, qarnından qırx əjdaha çıxırdı. Tapdıq baxdı ki, xeyr, işlər şuluqdu, bu əjdahanı qırmaq əvəzinə artırır. Gördü ki bir əjdaha peyda oldu ki, əjdahaların hamısından böyük. Tapdıq nə qədər elədisə, bu əjdahanı öldürə bilmədi. Axırda oxu çilləyə mindirib, yayı qurdu. Əjdahanın hər gözündən bir ox vurdu. Əjdaha nə`rə təpib, qaçmaq istəyəndə Tapdıq sıçrayıb onun belinə mindi. Əjdaha onu götürüb ilim-ilim itdi, ta ki, aparıb bir dağa çıxartdı. Tapdıq dağda əjdahanın belindən sıçrayıb yerə düşdü, onun kor gözlərinə genə də iki ox vurdu. Əjdaha yerə yıxılıb öldü. Tapdıq qılınc çəkib əjdahanın qarnını yırtdı. Əjdahanın qarnından ağsaqqal bir kişi çıxdı. Kişi Tapdığın alnından öpüb dedi:

- Ey cavan, mən qırx ildi ki, bu əjdahanın qarnında əziyyət çəkirəm, sən məni əzabdan qurtardın. Ölüncə sənə duaçıyam.

Tapdıq dedi:

- Ey qoca, sən kimsən, niyə tilsimə düşmüsən?

Qoca dedi:

- Ey cavan, mən cin padşahının oğluyam. Bir gözəl sevgilimi bu dev gətirmişdi. Onu qurtarmağa gəlmişdim, axırda mən də tilsimə düşdüm.

Tapdıq dedi:

- Ey qoca, yəqin indi cavanlıq eşqin sönüb, məhəbbət çiçəklərin saralıb, solubdu.

Qoca bir ah çəkdi. Onun ağzından bir qırmızı alov qalxdı, alov dönüb bir misli görünməmiş nazənin qız oldu.

Qoca qızı görən kimi hönkürtü ilə ağladı, saqqalının birçəklərinin tükünü yolub yerə tökdü. Sonra qəşş edib yerə yıxıldı. Tapdıq baxırdı. Qız irəli gedib, onun ağarmış saçlarını sığalladı, gözlərinin hər birindən onun üzünə damla-damla yaş axıtdı. Yaş dönüb oldu gülab, hər tərəfə ətir saçdı. Qız bircə kəlmə bərkdən dedi:

- Qalx ayağa, qoca aşiq!

Kişi o saat sıçrayıb ayağa qalxdı, əllərini yuxarı qaldırıb, yazıq səslə dedi:

- Gəl, mənim gözəlim!

Qız o saat qırmızı alova dönüb, geri qayıtdı, qocanın ağzından içəri girdi. Qocanın göz yaşları ağ saqqalını islatdı. Tapdıq ona təsəlli verdi. Qoca bir az sakit olub, göz yaşlarını sildi, üzünü Tapdığa tutub dedi:

- Mənim ürəyimdə olan məhəbbət çiçəyi ot çiçəyi deyil ki, vaxtı çatanda saralıb solsun. Mən onu saralıb solmayan, həmişə pardaqlanan toxumdan əkmişəm.

Tapdıq bir az fikrə gedib, dedi:

- Mən səhv etmişəm, bağışla. Bəs sənin gözəl sevgilin hardadı?

Qoca dedi:

- Bu tilsimdədi. Yəqin ki, o da mənim kimi qocalıbdı.

Tapdıq dedi:

- Ölmərəmsə, sənin sevgilini də tilsimdən qurtararam.

Qoca dedi:

- Ey cavan, bu tilsimdən adam azad eləmək çətindi. Biz bu saat bir əqrəbin qarnındayıq.

Tapdıq soruşdu:

- Bəs bu tilsimi nə cür sındırmaq olar?

Qoca kişi dedi:

- Ey cavan, bil, agah ol, bu tilsimin Tufan dev adlı bir sahibi var. O dev öldürülsə, tilsim dağılar. Tufan devə də heç bir qılınc, nizə batmır. Onu ancaq Günün qızı Şəmsi xanım öldürə bilər. O da öldürmür, çünki Tufan dev onun anasının ürəyini özündə saxlayır. Onu öldürsə, anası da ölər.

Şəmsi xanımın adını eşidəndə Tapdığın rəngi saraldı, ürəyi döyündü. Qoca onun gözlərinin içinə diqqətlə baxıb dedi:

- Niyə rəngin saraldı, olmaya sənin də sevgilini bu zalım dev gətirib?

Tapdıq dedi:

- Xeyir, mənim sevgilimi gətirməyib, bacımı gətirib. Bacımı azad etmək üçün gəlmişəm.

Qoca dedi:

- Bacının adı nədi?

Tapdıq dedi:

- Qəmər xanım.

Qoca dedi:

- Sənin bacın bu yaxındakı mağaradadı. Onu Tufan dev yatırdıb. Özündən başqa heç kəs ayılda bilməz.

Tapdıq fikrə getdi. Onun gözlərinə bacısı göründü. Bacısı yerə uzanıb inildəyirdi. Tapdıq ona tərəf yüyürdü, genə onu görmədi. Qoca onu sakit eləyib dedi:

- Gözünə bacınmı görünür? Mən də elə olurdum. Sakit ol, allah kərimdi.

Bəli, bunlar bir-birinə qoşulub, yeddi ağaclıq yol gedib bir dağa çıxdılar. Dağın başında bir barı gördülər. Barının hər tərəfində əcayib heyvanlar qarışqa kimi qaynaşırdı. Bu heyvanlar Tapdıqgili görən kimi ağız-ağıza verib başladılar ulaşmağa. Tapdıq qılıncı çəkib özünü heyvanların içinə vurdu. Nə qədər qılınc çaldısa, yol açа bilmədi. Heyvanlar onun ətini parça-parça edib, kənara tulladılar. Tapdıq qəşş edib, yerə yıxıldı. Qoca özünü ona çatdırıb başını dizinin üstünə aldı, qollarını ovub ayıltdı. Tapdıq bir neçə gün burda qaldı. Qoca onun yaralarını sağaltdı. Tapdıq qocaya dedi:

- Biz Tufan devi hardan tapaq? Onunla qabaq-qabağa gəlsəydim, ya mən onu öldürərdim, ya da o məni öldürərdi.

Qoca dedi:

- Ey Tapdıq, Tufan devin yeri bu mağaradı. Acaq o burda çox az olur. O, vaxtının çoxunu Qaf dağının təpəsində keçirir.

Tapdıq dedi:

- Sən burda qal, mən özümü heyvanların içinə vurum, bəlgə barıdan keçə bildim.

Qoca dedi:

- Mən də gedəcəyəm, səni tək buraxa bilmərəm. Ey Tapdıq, sıçrayıb heyvanların belinə minərik, onlar bizi barıdan o tərəfə salarlar, yoxsa ayrı yolla ora girə bilmərik.

Bəli, bunlar özlərini heyvanların içinə vurdular. Hər biri sıçrayıb bir əjdahanın belinə düşdü. Əjdahalar onları götürüb barının içinə tullandılar. Onlar barının içində əjdahaların belindən sıçrayıb yerə düşdülər. Tapdıq qılınc çəkib əjdahaların ikisini də öldürdü. Bunlar bir bağça gördülər. Bağçaya girmək istəyirdilər ki, birdən bir meymun bunların üstünə hücum elədi. Bunlar meymunla qırx gün, qırx gecə dava elədilər. Tapdıq nə qədər qılınc, nizə vurdu, heç biri ona kar eləmədi. Axırda kəmənd atıb, onun boynuna bənd elədi, aldı yedəyinə. Tapdıq bağda bir otaq gördü. Otağa girib baxdı nə, bacısı burda bir taxtın üstündə yuxuya gedib. Nə qədər çalışdı onu ayılda bilmədi. Baxdı ki, başının üstündə bir lövhə var. Bu lövhədə yazılıb ki, bu qızı Tufan devdən başqa heç kəs ayılda bilməz. Tapdıq burda çox qaldı, Tufan devi gözlədi, o, gəlib çıxmadı. Axırda qocaya dedi:

- Bu dev harda olur?

Qoca dedi:

- Qaf dağının başında. Ey Tapdıq, o, Günə aşiqdir. Günün qızı da anasını ona vermir.

Tapdıq dedi:

- Burda qalmağın adı yoxdu, Qaf dağına gedək. Orda ya allah ona verər, ya da mənə.

Bunlar burdan kənara çıxdılar. Hər ikisi meymunu mindilər. Baxdılar ki, hara gedirlərsə, bütün heyvanlar onlara yol verirlər, hamısı bu meymundan qorxurlar. Tapdıq dedi:

- Yaxşı oldu, bu meymunu da aparacağam. Bəlkə genə buraya gəldim. Bu çox sirrli heyvandı. Onlar meymunu da götürüb gecəni-gündüzə qatıb, uzaq yolu yaxın edib, Gülüstani-Bağı-Irəmə gəldilər. Tapdıqgil Gülüstani-Bağı-Irəmə getməkdə olsun, al xəbəri Gün xanımdan.

Gün xanım Tufan devi bir dəqiqə də olsun yadından çıxartmırdı. Gecə-gündüz onun xəyalı ilə yaşayırdı. Gün xanımın nə gecəsi gecə idi, nə gündüzü gündüz. O biri tərəfdən Ayın eşqi

artmışdı. O, Günün dalına düşmüşdü, ondan əl çəkmirdi. Günlərin bir günü Ay göydə Günü yaxaladı, dedi:

- Ey dünyaya işıq verən gözəl, mən eşqindən qovruldum, dərd çəkməkdən yoruldum. Ürəyinə bir zərrə rəhm sal! Məni özünə qul qəbul elə, ya da öldür qurtar!

Gün xanım dedi:

- Ey gözəl oğlan, hər kəsin bir sevgilisi olar. Mənim də sevgilim var. Məndən uzaq gəz.

Ay dedi:

- Sən mənim ürəyimə girmisən, səndən dönə bilmirəm. Ixtiyar öz əlimdə deyil. Mənə rəhm elə, ey gözəl!

Gün qəzəblənib dedi:

- Səni elə vuraram, parça-parça olarsan. Səni sevmirəm, məndən nə istəyirsən? Get özünə ayrı sevgili tap.

Ay dedi:

- Gözəllikdə misli-bərabərim yoxdu. Sənin kimi bütün dünyaya işıq verirəm. Özünə bərabərəm. Sən mənim babımsan, mən də sənin. Sənə yaraşmaz gedib devə aşiq olasan. O sənin babın deyil. Ondan əl çək, gəl bir yerdə ölüncə dövran sürək.

Gün xanım dedi:

- Könül sevən göyçək olar. Qara dev mənə səndən gözəl görünür.

Ay onun ətəyindən yapışıb dedi:

- Inad eləmə, səndən əl çəkən deyiləm.

Gün xanım dartışıb dedi:

- Ətəyimi burax, gedirəm.

Ay buraxmaq istəmədi. O, qucaqlayıb Gün xanımı öpmək istəyəndə, Gün xanım dartışıb onun əlindən çıxdı, başladı qaçmağa. Ay qovdu, Gün qaçdı. Axırda Gün xanım əyilib bir ovuc palçıq götürdü. Ayın üzünə çırpdı, onun üzünü ləkəli elədi. Ayın başı qarışdı, su başına endi ki, üzünü yusun. Gün də onun əlindən qurtarıb Gülüstani-Bağı-Irəmə gəldi. Gün xanım ora çatanda Tapdıqgil də yenicə gəlmişdilər. Gün xanım Tapdığın yedəyindəki meymunu görən kimi bərkdən qışqırıb yerə yıxıldı, özündən getdi. Meymun da yerə çöküb gözlərinin yaşını töküb ağlayırdı. Meymunun gözlərindən çıxan yaş böyük dəryalar, ümmanlar, göllər əmələ gətirirdi. Günün gözlərindən tökülən yaşın da hər damlası bir qızıl gül kolu olub, hər rəng çalır, qəh-qəhə çəkib gülürdü. Lap əcayib iş idi, göz yaşı gül olub gülürdü. Tapdıqgil yerlərində donub qalmışdılar, bilmirdilər bu nə sirrdi.

Bu zaman Şəmsi gəlib çıxdı, meymunu görəndə dəhşətləndi. Meymun da onu görəndə qəzəblənib, onun üstünə dartışmağa başladı. Tapdıq onu buraxsaydı, Şəmsi xanımı parça-parça elərdi. Şəmsi xanım dedi:

- Ey Tapdıq, bu meymunu nə cür tutmusan? Bu çox dəhşətli heyvandı.

Tapdıq dedi:

- Ey gözəl, məni bu sirrdən agah elə görüm, o qız bu meymunu görən kimi niyə qəşş elədi?

Şəmsi xanım dedi:

- O mənim anamdı, yəqin meymundan qorxmuşdur.

Şəmsi xanım anasının yanına getdi, onun başını dizinin üstünə aldı, qolunun qarısını boğub özünə gətirdi. Qolundan tutub evə apardı. Şəmsi xanım anasını rahat eləyəndən sonra Tapdıqgilin yanına gəldi, onları da bir ayrı evə apardı. Tapdıq bütün başına gələni qıza danışdı. Şəmsi onun igidliyinə afərin söyləyib dedi:

- Ey Tapdıq, bu meymunu tutan hələ anasından olmayıb. Bu heyvan təpədən dırnağa qədər tilsimlidi. Sənin igidliyinə heyranam.

Tapdıq dedi:

- Mən Tufan devi axtarmağa gedəcəyəm. Bacımın tilsimdən qurtarması ancaq ondan asılıdır.

Şəmsi dedi:

- Hələ bir az dincəl, sonra danışarıq.

Bəli, Tapdıq bir həftə burda qaldı, gözəl güllüklərdə, bənövşəliklərdə gəzdi. Bir axşam o Şəmsi xanıma dedi:

- Ey Şəmsi xanım, mən Qaf dağının başına gedirəm. Olsun ki, Tufan dev ordadı.

Şəmsi dedi:

- Tufan dev orda yoxdu, olsa da sən onunla bacarmazsan, yerində rahat otur.

Tapdıq qəzəblənib dedi:

- Mən burda kefdə əyləşəm, Qəmər orda ölü kimi əziyyət çəkə, bu olası iş deyil. And olsun namusuma, bacımı azad eləməyincə diz qatlayıb oturmayacağam.

Şəmsi çox dedi, Tapdıq az eşitdi, axırda Şəmsi xanım ona icazə verib dedi:

- Meymunu burda qoyub gedin.

Tapdıq razı oldu, sevgilisi ilə xudahafizləşib, yola düşdü. Bərkitdi çarıqların dabanın, qırdı yerin damarın, az getdi, çox getdi, qoca ilə gedib Qaf dağına çıxdı.

Qoca dedi:

- Biz Qaf dağının lap başındakı mağaraya getməliyik. Tufan dev ora çox gəlir.

Bunlar mağaraya çıxdılar. Ha gözlədilər, bura heç kəs gəlmədi. Belə-belə bir il gəldi keçdi. Axırda naəlac qalıb geri qayıdıb Gülüstani-Bağı-Irəmə gəldilər. Tapdıq Şəmsinin yanına gedib dedi:

- Biz Tufan devi tapmadıq. Deyildiyinə görə o sənin anana aşiqdi. Bəlkə yerin bilərsən.

Şəmsi dedi:

- Yerin bilmirəm. O mənim düşmənimdi.

Tapdıq bir müddət sevgilisinin yanında qaldı. Bir gün bacısı onun yuxusuna girdi. Yerdən sərsəm qalxdı, qocanı da oyadıb dedi:

- Dur gedək. Bacım yuxuma girib, məni haraya çağırır.

Qoca dedi:

- Mənim də sevgilim yuxuma girib. Ancaq çox şad idi, deyirdi, hər şey düzəlib. Deyəsən işlərimiz yaxşı olacaq, gedək.

Bunlar getmək istəyəndə, Şəmsi onları qabaqlayıb dedi:

- Tapdıq, hara gedirsən?

Tapdıq dedi:

- Ey mənim ciyərim, gözümün nuru, bacım yuxuma girib, tilsimə gedirəm. Bu dəfə ya ölərəm, ya da Tufan devi tapıb bacımı azad edərəm.

Şəmsi dedi:

- Tufan dev orda yoxdu, getmə.

Tapdıq dedi:

- Ey mənim gözəlim, bacımın iniltisi qulağıma gəlir. Mən gedəcəyəm.

Şəmsi onları dayandıra bilmədi. Tapdıq sevgilisi ilə görüşüb yola düşdü. Onlar gedəndən sonra Şəmsi elə bil yatmışdı oyandı. Barmağını dişləyib dedi: «ey dili-qafil, mən onları niyə buraxdım. O ki, mənim sevgilimdi, axı onu niyə incidirəm».

Şəmsi xanım qanad açıb havaya qalxdı, onları tapdı, dedi:

- Ey Tapdıq, gərək geri qayıdasınız.

Tapdıq haşa dedi, sözünün üstündə durdu. Şəmsi gördü sirri açmasa, onları geri qaytara bilməyəcək, dedi:

- Ey Tapdıq, axtardığın Tufan dev Gülüstani-Bağı-Irəmdədi, qayıt.

Tapdıq dedi:

- Yalan deyirsən.

Şəmsi dedi:

- Anamın südü haqqı düz deyirəm, qayıt geri.

Onlar geri qayıdıb Gülüstani-Bağı-Irəmə gəldilər. Axşam oldu, qabağa çörək gəldi. Tapdıq çörək yeməyib dedi:

- Tufan devin yerini deməsən, çörək yemərəm.

Qız nə qədər yalvar-yapış elədi, gördü xeyir, sirri açmasa Tapdıq çörək yeməyəcək, dedi:

- Ey Tapdıq, bu sirri mən heç kəsə açmazdım, ancaq sənə açıram. Sən axtardığın Tufan dev gətirdiyiniz meymundu. Onu mən meymun donuna salmışam. Bu saat onu dev halına salım. Şəmsi bir lövh oxudu, Tufan dev öz cildinə düşdü. Tapdıq çox şad olub dedi:

- Ey dev, mən bacımı səndən istəyirəm. Yoxsa səni ölüncə kəmsikdə saxlayacağam.

Tufan dev dedi:

- Ey Tapdıq, bacını məndən niyə istəyirsən? Şəmsi xanımdan istə.

Tapdıq üzünü Şəmsi xanıma tutub dedi:

- Şəmsi, bacımı səndən istəyirəm.

Şəmsi dedi:

- Bacın devin tilsimindədi, məndə deyil. Bu dev yalan danışır, iş özündədi.

- Yox, burda bir iş olmasa, bu dev o sözü deməzdi.

Şəmsi dedi:

- Ey dev, niyə qızı məndən istəsin? O nə sözdü, mənə deyirsən?

Tufan dev dedi:

- Düz deyirəm, sən istəsən bircə dəqiqədə azad edərsən.

Tapdıq Şəmsidən əl çəkmədi, bu sözün mə`nasını öyrənməyə çalışdı. Şəmsi demədi. Axırda dev özü açıb dedi:

- Ey Tapdıq, sənin bacını Şəmsinin anasının əmri ilə mən gətirib tilsimə salmışam. O da mənim sevgilimdi . Anası icazə versin, bu saat buraxım. O da Şəmsinin əlindədi.

Bəli, Gün xanımı çağırdılar. Gün xanımla Tufan dev bir-birini görən kimi qəşş eləyib yerə yıxıldılar. Tapdıq baxıb nə gördü, Tufan devin gözlərindən tökülən yaş od olub ətrafı yandırır, hər tərəfdə alovla Gün yazır. Günün gözlərindən tökülən yaş isə qızıl zərlə sevgi yazır. Bu göz yaşları bir-birinə qarışanda min bir rəng verirlər. Tapdıq dedi:

- Ey Şəmsi, bu yazıqlara rəhmin gəlsin, qoy kama yetsinlər. Səni nalələri tutar.

Şəmsi xanım dedi:

- Elə sözü bir də danışsan, səndən inciyərəm.

Tapdıq bunların üzlərinə gülab səpib, özlərinə gətirdi. Sonra Günə dedi:

- Ey Gün, mən bacım Qəmər xanımı səndən istəyirəm.

Gün xanım dedi:

- Sənin bacından mənim xəbərim yoxdu.

Tapdıq dedi:

- Xəbərin var, mənim bacımı ver.

Gün dedi:

- Məndən istəyincə, Şəmsi xanımdan istə. Ixtiyar ondadı.

Tapdıq genə Şəmsi xanımın üstünə düşdü. Şəmsi xanım tamam boynundan atdı. Axırda Gün dedi:

- Şəmsi razı olsun, mən öz sevgilimə gedim, mən də sənin bacını gətirdim.

Tapdıq Şəmsi xanıma yalvarmağa başladı. Bir müddət belə gəldi keçdi. Axırda Şəmsi xanım razı oldu və şərt qoydu ki, Tufan dev Gülüstani-Irəmdə olsun. Tufan dev razı oldu, tənur edib havaya qalxdı, beş dəqiqənin içində Qəmər xanımı gətirdi. Qəmər Tapdıqla qucaqlaşıb öpüşdü. Qoca bunu görüb başladı ağlamağa. Tapdıq Tufan devə dedi:

- Ey dev, bu kişinin sevgilisini də səndən istəyirəm.

Dev genə tənur elədi, az zamanda kişinin nişanlısını da gətirdi. Qız ağbirçək bir qarı olmuşdu. Qoca aşiq-mə`şuq qucaqlaşıb, özlərindən getdilər. Şəmsi bunları özlərinə gətirdi. Tapdıq eşq atəşi içində qovrulurdu. Axırda bir gün Şəmsinin razılığını aldı, Günə dedi:

- Izin ver, sevgilimi, bacımı götürüb atamın, anamın yanına gedim, genə qayıdaraq.

Gün bir söz demədi, burda toy edilməsinə icazə verdi.

Eşit, qoca ilə sevgilisindən. Qoca ilə sevgilisi həmişə mə`yus idilər, qaşqabaqları açılmırdı. Bir səhər Şəmsi onlara yanaşdı. Qocanın sevgilisi bir ah çəkdi. Şəmsi ondan soruşdu:

- Niyə ah çəkdin?

Qocanın sevgilisi dedi:

- Ona görə ah çəkdim ki, dünyada heç dövran sürmədig. Qoca vaxtı sevgilimə yetdim. Tez də ölüb ayrılacağıq.

Şəmsi onların hərəsinə bir alma verdi. Onlar almanı yeyən kimi oldular 15 yaşında oğlanla qız. Şəmsiyə dua elədilər. Şəmsi xanım əmr elədi bir dəstə çalan, oynuyan pəri hazır oldu. Pərilər qırx gün, qırx gecə toy eləyib. Gün xanımı Tufan devə, qoca sevgililəri bir-birinə, Şəmsi xanımı Tapdığa verdilər. Gəlin oğlan evinə gələn gecə, Gün xanım Tapdıqla Şəmsi xanımın otağına gəlib dedi:

- Dayanın, sizə bir yaxşı nağıl edim, sonra hər kəs öz otağına getsin, öz yarı ilə eyş-işrət etsin.

Dedilər:

- Nağıl elə!

Gün xanım dedi:

- Biri var idi, biri yox idi, Gün xanım adlı bir qız var idi. Bu qız Ay kimi dünyaya işıq verən gözəl oğlanı qoyub, bir qara devi sevmişdi. Amma onun qızı bu işə razı deyildi, qoymurdu ki, anası devlə görüşsün. Gün xanım devlə gizlin görüşürdü. Bir müddət belə keçdi. Gün xanımın Tufan devdən bir oğlu oldu. O, qızının qorxusundan bu uşağı aparıb, Süleyman tacirin yolunun üstünə tulladı. Süleyman tacir bu uşağı aparıb öz oğlu kimi böyütdü.

Indi ey Tapdıq, bil və agah ol ki, sən mənim oğlumsan, Şəmsi xanım da sənin bacındı. Sən bacını ala bilməzsən, sənə Qəmər xanımı alıb toy etmişəm. Allah toyunuzu mübarək eləsin.

Tapdıqla Şəmsi xanım bu sözü eşidən kimi qışqırıb özlərindən getdilər. Onları özlərinə gətirdilər. Tapdıq Şəmsinin üzünə baxdı, qılıncı çəkib öz ürəyinə soxdu, özünü öldürdü. Şəmsi xanım da onu qucaqlayıb, başına döydü, özündən getdi. Toy məclisi yas məclisinə döndü, toy-nağara yerinə şivən qopdu. Gün xanım, dirilik ağacından bir yarmaq gətirib Tapdığın yarasına çəkdi, sağaltdı, dirilik gülünü onların burnuna tutdu. Hər ikisi axsırıb durdular. Şəmsi xanım Tapdığın boynunu qucaqlayıb, üzündən öpdü, dedi:

- Qardaş, fikir eləmə, qardaş bacını, bacı qardaşı sevgilisindən artıq sevər Biz də şükür allaha bir-birimizi bacı-qardaş kimi sevmişik. Indi mən qardaşımın toyunu özüm eyləyəcəyəm.

Gün xanım dedi:

- Ey Tapdıq, bacın Şəmsinin Nurəddünya adlı bir sevgilisi var idi. Nurəddünya cin padşahının oğludu, Şəmsi xanımın acığı tutub, onu dərin quyunun dibinə tilsimə salmışdı. Mən deyirəm, Şəmsi xanım öz sevgilisini çıxartsın.

Hamı Şəmsi xanıma təvəqqe edib yola gətirdilər. Şəmsi xanım bir pəri çağırıb dedi:

- Nurəddünyanı bura gətir.

Pəri gedib Nurəddünyanı gətirdi. Onlar təzədən qırx gün, qırx gecə toy eliyib, Şəmsi xanımı Nurəddünyaya, sevgilisini qocaya, Gün xanımı Tufan devə və Qəmər xanımı Tapdığa verdilər. Tapdıq gedib, Süleyman taciri və Minagərdən xanımı da gətirdi. Tapdıq həm işıqlı dünyanın, həm də zülmət dünyasının padşahı oldu. Onlar Gülüstani-Bağı-Irəmdə keflə, damağı çağ dolanıb, dövran keçirdilər. Sizin də damağınız çağ, kefiniz şad olsun.

TAXTA QILINC

Biri var idi, biri yox idi, bir padşahın bir oğlu, bir də arvadı var idi. Bir gün bu padşah oğlunu, vəzirini, vəkilini götürüb qoşun ilə şikarə çıxır. Xeyli ov elədikdən sonra, bir gözəl çəməndə çadır qurub, oturaq edirlər.

Padşahın oğlu həya etdiyindən, öz çadırını bir kənarda qurur.

Padşah oğlunu çox istədiyindən, tez-tez onu yoxlar. Yenə də qalxıb oğlunu yoxlamağa gedir. Gəlib çadıra girdikdə, baxıb görür ki, çadırın dalından bir qızıl ilan daxil olub oğlunu çalmaq üzrədi. Tez padşah başmağının bir tayını su ilə doldurub, ilanın qabağına qoyur. Ilan su içir qayıdır. Padşah oğlunu oyadıb deyir:

- Istəkli oğlum! Bir çörəyim övsanata keçdi, qalx, burada yatmaq məsləhət deyil.

Padşah əhvalatı ona söyləyərək, oğlu ilə bərabər öz çadırına qayıdır. Bir az sonra köçüb şəhərə gedirlər. Bu əhvalatdan bir neçə gün sonra, padşahın arvadı bərk naxoşluyur. Oğlunu yanına çağırıb, ona belə bir vəsiyyət edir.

- Istəkli oğlum! Bu xəstəlikdən mən qalxmayacağam, öləcəyəm. Mən öləndən sonra atan gedib başqa-arvad alacaq. Təzə aldığı arvad səni yola aparmayacaq. Atan ilə sənin aranda zidlik düşəcək, get-gedə zidlik artacaq. Atan qeyzə gəlib səni öldürmək istəyəcək. Atanı o məqama qoyma! Baş götür bir müddət vilayətindən çıx, get! Yolda hər kəs ki, sənlə yoldaş oldu, çörəyi yeyəndə, sən öz çörəyini ortaya qoy! Hərgah yoldaşın çörəyin çox hissəsini sənin qabağına qoysa onunla yoldaş ol, yox, qabağına qoymasa, onda ondan ayrıl! Bir də yoldaşınla bir çayın kənarına yetişsən, sən ona təklif elə ki, gəl dalıma min, səni sudan keçirdim. Əkər o səni dalına alıb, sudan keçirtsə, onda onunla yoldaş ol, yox, sənin dalına minsə, onunla yoldaş olma, tez ondan ayrıl!

Bu sözləri söyləyib ana vəsiyyətlərin tamam eləyir. Oğlan ağlayıb ayağa qalxır, anasının əlindən öpüb otaqdan çıxır.

Bir neçə gündən sonra, padşahın arvadı ölür və bir müddətdən sonra, padşah gedib bir arvad alır. Bu təzə arvad nanəcib olduğundan, oğlanı yola verməyib hər nə ilə mümkündüsə atası ilə onun arasına zidlik salmağa çalışır. Odur ki, şahzadə anasının vəsiyyətinə əməl edib, baş götürür, atasının vilayətindən çıxıb gedir.

Eşit, səni deyim şahzadədən.

Şahzadə yolda həmin çadır qurduqları yerdə bir cavan oğlana rast gəlir. Oğlan ondan haraya getdiyini soruşur. Şahzadə:

- Başqa bir vilayətə - deyib cavab verir.

- Mənim adım Taxta Qılıncdı. Məni özünlə bərabər götür - deyib cavan oğlan şahzadədən rica eləyir. Xülasə, yoldaş olurlar. Bir qədər yol gedəndən sonra, bir yerdə oturub çörək yemək istəyirlər. Şahzadə bir çörək çıxardıb ortaya qoyur. Oğlan çörəyi kəsib çox hissəsini şahzadənin, az hissəsini öz qabağına qoyur. Oğlan görür ki, anasının vəsiyyət elədiyi kimi yoldaşlığa layiq bir oğlandı. Çörək yeyib yola düşürlər. Yolda bir çaya yetişirlər. Şahzadə ona təklif eləyir ki, gəl dalıma min, səni sudan keçirdim. Oğlan razı olmayıb, şahzadəni dalına alıb sudan keçirir. Bir müddət keçəndən sonra bir şəhərə yetişirlər, burda ev tutub mənzil eləyirlər. Ertəsi gün oğlan padşahın oğluna deyir ki:

- Qardaş, sən evdə otur, mən gedim qazanım, gətirim, bərabər yeyək!

Oğlan gedib, gündə qazanıb gətirirdi, bəham yeyirdilər.

Bir gün belə, beş gün belə, axırda padşahın oğlu fikir eləyir ki, nə vaxta kimi bu oğlan qazanıb gətirəcək, mən də yeyib bekar evdə oturacağam. Mənim də iş görməyim lazımdı. Bu fikir ilə başmağın geyib, evdən kənara çıxır, küçələri dolanır, bir vaxt baxıb görür ki, hündür bir imarətin pəncərəsindən gözəl bir qız baxır. Qızı görüb ona aşiq olur. Demə, bu imarət padşahınkı, qız da padşahın qızı imiş. Padşahın oğlu fikirli mənzilə qayıdır. Bir az keçir, yoldaşı gəlir. Oğlan baxıb görür ki, şahzadə çox bikeyfdi. Bundan səbəbini xəbər alır. Şahzadə əhvalatı ona danışır. Oğlan gülüb deyir:

- Elə bundan ötəri bikeyf olmusan? Bu ki, asan işdi. Yaxın bir vaxta o qızı sənə alaram.

Sabahısı gün oğlan gedib elçi daşının üstündə oturur. Padşaha xəbər gedir ki, elçi gəlib. Həmin saat adam göndərirlər ki, gedin görün, sözü nədi. Oğlan cavab verir ki:

Padşahın qızın qardaşım üçün istəyirəm.

Padşah xəbər göndərir ki, mənim imarətim kimi bir imarət tikdirsə, qızımı verərəm. Oğlan qəbul eləyir. Ertəsi gün xalq yuxudan oyananda baxıb görürlər ki, padşahın evin qabağında bir ev

tikilib ki, padşahın evindən min dəfə artıq. Oğlan padşaha xəbər göndərir ki, ev hazırdı. Padşahın deyəcək sözü olmayıb, qızı verir. Toy olur, şahzadə qızın yanına getmək istəyəndə oğlan deyir:

- Qardaş, hələ dayan, qoy qabaqca mən gedim gəlim, sonra sən get!

Şahzadə qəbul eləyir. Oğlan qızın yanına gəlib onun ağzından üfürür. Həmin saat qızın ağzından bir-birinin ardınca on bir ilan çıxır. Hər birisi çıxdıqca istəyir ki, oğlanı vursun. Amma oğlan zirəklik edib, bir-bir on birini də öldürür. Sonra qulağını qızın ağzına qoyub, görür ki, bir ilan da qalıb. Xülasə, qayıdıb oğlanı qızın yanına göndərir.

Demə ki, bundan qabaq qızı kimə verirlərmiş, əvvəlinci gecədə ilanın biri çıxıb oğlanı vurub öldürürmüş. Bununla qızı bir neçə ərə veriblər, ilanlar öldürüb. Odu ki, padşah yəqin edibmiş ki, bu oğlan da sabah salamat çıxmayacaq.

Ertəsi gün sübh tezdən padşah bir adam göndərir ki, oğlandan bir xəbər gətirsin. Gəlib görürlər ki, oğlan sağ salamat oturub qız ilə söhbət edir. Bu xəbəri padşaha aparanda padşah əmr eləyir ki, camaat üç gün şadlıq eləsin.

Xülasə, bir müddət burada qaldıqdan sonra, şahzadə öz vilayətinə qayıtmaq fikrinə düşür. Padşahdan rüsxət istəyir, çox tə`kiddən sonra padşahdan izin alır. Padşah bunlara çoxlu mal, qızıl-gümüş, dövlət verib yola salır, əmr eləyir ki, üç mənzil bunları ötürsünlər.

Müxtəsər, şahzadə oğlanla əvvəl görüşdükləri yerə gəlirlər. Burada oğlan şahzadəyə deyir.

- Qardaş, tay ayrılmalıyıq. Bu mal, dövləti də, qızı da bahəm qardaşlıqda gərək yarı bölək!

Şahzadə razı olur. Hər şeyi bölürlər. Ancaq bölünməmiş bir dəvə, bir qatır, bir də padşahın qızı qalır.

Oğlan deyir:

- Bunları da yarı bölməliyik.

Qılıncın çəkib əvvəl dəvəni, sonra qatırı ortadan yarı bölür. Növbə qıza gəldikdə, şahzadə nə qədər yalvarırsa qızı bölməsin, oğlan razı olmur. Axırda şahzadə təklif eləyir ki, cəmi dövlət onun olsun, ancaq qız bunun olsun. Oğlan yenə razı olmur. Sonra şahzadə təklif eləyir ki, qızı bütöv götürsün. Yenə də oğlan razı olmur, götürüb bir ağaca sarıyıb, qılıncı çəkib qaldırır, istəyir ki, qızın başın üzsün. Qız qorxusundan qusur, ağzından axırıncı ilan düşür. Bundan sonra oğlan qılıncı yerə qoyub şahzadəyə deyir:

- Mənə mal, dövlət, qız lazım deyil. Məqsədim həmin ilanı qızın ağzından çıxartmaq idi. Bu çıxmasaydı, bir gün çıxıb səni həlak edəcəkdi. Indi bu malı, dövləti, qızı götürüb atanın yanına get! Bir də mə`lumun olsun ki, mən insan deyiləm. Mən həmin ilanam ki, atan yaxşılıq edib başmaq tayında mənə su vermişdi. Indi mən yaxşılığın borcundan çıxdım. Xudahafiz!

Bunu deyib oğlan bir ilan olub, bir deşiyə girib, gözdən itir. Bundan sonra şahzadə atasının vilayətinə gəlir. Atası oğlunun gəlmək xəbərini eşidib pişvaza çıxır, onları cəlalla şəhərə gətirir. Təzədən toy başlanır. Onlar yeyib, içib yerə keçir, biz də yeyib, içək dövrə keçək! Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də qulaq asanın.

T Ü K L Ü C Ə

Əyyami-qədimdə biri varıdı, biri yoxudu, bir padşah varıdı. Bu padşahın gözünün ağı, qarası bircə oğlu varıdı. Padşahın iç-içə qırx otağı varıdı ki, bu otaqlara padşahdan savayı kimsə girə bilməzdi. Padşahın otaqları gözəl bəzənmişdi, divarlarında hər cür şəkillər varıdı. Döşəmələrə rəngbərəng xalılar, xalçalar salınmışdı. Padşahın ürəyi darıldığı zaman bu otaqların birini açıb, içində gəzərdi. Otaqlar o qədər böyükdü ki, içərisində bağlar, al-alvan çiçəklər, meyvələr də var idi. Bülbüllər güllər arasında gəzir, onlara razi-niyaz eləyirdi. Hələ bu azdı, evlərin içərisindən çay axırdı.

Günlərin bir günündə padşah seyrə çıxmaq üçün bütün ə`yan-əşrafı toplamışdı. Şah otaqların otuz doqquzunun haçarını arvadına verib dedi:

- Mənim oğlum Məlikəjdər darıxmasın. Haçarları verərsən otaqların ağızlarını bir-bir açıb gəzər.

Padşah sözünü tamam elədi, qırx günün azuqəsini götürüb qoşunla şikara getdi. Anası Məlikəjdəri çağırıb, qapıların haçarlarını ona verdi, dedi:

- Oğul, atan deyirdi, darıxanda otaqların ağızlarını açsın, içində gəzsin.

Məlikəjdər çox şad oldu, günü sabah otaqların ağızlarını başladı açmağa. Birinci otağa qədəm qoydu. Doğrudan da, Məlikəjdər beş yaşına çatmışdı, bu otaqların içinə girməmişdi. Qapıdan içəri girəndə ağzı açıla qaldı, dedi:

- Əhsən bunu tikən ustaya. Pəh, pəh, pəh nə gözəl otaqdı!

Məlikəjdər başladı otaqları gəzməyə. Birinci otaq o qədər də böyük deyildi. Otağı o qədər gəzdi ki, yorulub bir tərəfdə oturdu. Gördü otağın bir tərəfində cavahiratla bəzənmiş bir çarpayı vardı. Çarpayı par-par parıldayır.

Məlikəjdər ayağa durub, çarpayının yanına gəldi. Çarpayı cavahirlə, yaqutla, zümrüdlə bəzənmişdi. O, çarpayının pərdəsini qaldırdı. Çarpayıya bir mütəkkə qoyulmuşdu. Mütəkkənin üstünə bir örtük salınmışdı, ətrafına qızıl şamdanlar düzülmüşdü. Məlikəjdər baxanda gözü qamaşırdı. Təəccüb eləyib öz-özünə dedi: "Bu necə olan şeydi?" Əlini uzatdı ki, örtüyü qaldırsın. Bir şey onun qollarını vurub geri qaytardı. Əllərini yanına salıb bir qədər sakit dayandı, özünə gəldi. Bu dəfə qüvvəsin topladı, əlini uzadıb örtüyü qaldırdı. Örtüyün altında ipək dəsmala sarınmış bir şey gördü. Usdubla dəsmalı götürüb açdı. Dəsmalın içində bir gözəl qız şəkli gördü. Qıza baxanda bir könüldən min könülə ona aşiq oldu. Qəş eləyib yerə sərilməkdə olsun, anası ondan çox nigaran idi. Səhərdən gedən Məlikəjdər hələ də evə qayıtmamışdı. Gün batmışdı, hava qaralmışdı, amma o gəlib çıxmamışdı. Arvad hərəmlərdən bir neçəsini götürüb oğlunun dalısıycan getdi. Birinci otağa girib bir qədər gəzdilər. Çarpayının yanına gəlib gördülər, Məlikəjdər bihuş olub yerə sərilmişdir. Anası oğlunun başını dizi üstə aldı. Onun biləklərini ovdu, qərisini boğdu, Məlikəjdər özünə gəldi, gözlərini açıb gördü başı anasının dizi üstədi.

Anası gözlərinin yaşını silib, dedi:

- Oğlum, bu nə halətdi, niyə bihuş olmusan?

Məlikəjdər yerdən qalxdı, anasının əlindən öpüb dedi.

- Ana can, izn ver gedim bu şəkil sahibini tapım.

Anası onun gözlərindən öpüb dedi:

- Oğlum, nə danışırsan? Atan bu şəkli iki ildi burada saxlayır. Nə qədər soraq salırsa da, qızdan bir soraq verən olmur. Indi də sən istəyirsən avara vətən olub, dərələrə düşəsən.

Məlikəjdər anasının boynun qucaqlamaq istəyəndə gözündən bir damla yaş anasının əlinin üstə düşdü. Od kimi yandırdı. Anasının ürəyi gumbultu ilə yerə düşdü. O saat başa düşdü ki, oğlu aşiq olub, gedəcək, dedi:

- Oğul, indi ki, belə oldu, get, allah amanatında olasan. Ancaq onu bil ki, atan buna heç vaxt razı olmaz. Ancaq mən anayam, sənin göz yaşına dözə bilmərəm. Sənə yaxşı yol, oğul.

Oğlunun alnından öpdü. Anasının icazə verdiyinə Məlikəjdər çox sevindi. Anası xidmətçiləri çağırdı, oğluna yol tədarükü görməyi onlara tapşırdı. Məlikəjdər gecəni keçirdi, səhər tezdən başdan geyinib ayaqdan qıfıllandı, ayaqdan geyinib başdan qıfıllandı, anasının yanına getdi. Ana-bala qol-boyun oldular. Məlikəjdər gördü, anasının gözlərindən abi-leysan kimi yaş tökülür, dedi:

- Ana can, sən ağlayırsan, getməyimə özün icazə verdin. Ana, sənin ağlamağına mən dözə bilmərəm!

Anası dedi:

- Oğul, ana olmamısan, ana ürəyini bilmirsən. Uğurlu yol.

Məlikəjdər ata suvar olub yola düşdü. O günü axşamadək yol getdi, qabağına heç bir adam, heyvan rast gəlmədi. O, axşamı bir ağacın dibində yatıb səhər elədi, genə yola düşdü. Az getdi, çox getdi, iynə yarım yol getdi, bir qələçəyə rast gəldi. Onun qulağına bir səs gəldi. Başını yuxarı

qaldırıb nə gördü. Bir qız yuxarıdan aşağıya baxır. Qız Məlikəjdərə bir kəmənd atdı, onu yuxarı çəkdi. Bu qız kim olsun?

Pərilər padşahının qızı. Qız dedi:

- Vay, niyə gəldin? Indi dev gəlib səni öldürəcək.

Məlikəjdər bir söz deməyib sakit dayandı. Hər ikisi mat-mat bir-birinə baxırdılar. Pərilər qızının gözü Məlikəjdərə düşmüşdü. Amma Məlikəjdər şəkildəki qızı sevirdi, istəyirdi onu tapsın. Bu əsnada göy guruldadı, ildırım çaxdı, yer titrədi. Pərilər qızı dedi:

- Vay, dev budu gəlir.

Pəri qızı əfsun oxudu, Məlikəjdəri bir alma eləyib sandığa atdı. Dev gəldi, içəri girib qıza dedi:

- Adam, adam iyisi gəlir, çaqqala badam iyisi gəlir.

Qız dedi:

- Nə adam iyisi? Adamları qırılsın, heç biri gəlmir.

Dev başını qızın dizinin üstə qoydu, qırx günün yuxusuna getdi. Dev şirin yuxuda idi, xoruldayırdı. Pəri qızı devin başının altına bir daş qoyub, özü ayağa durdu, oğlanı sandıqdan çıxartdı. Əfsun oxuyub oğlanı genə öz halına saldı.

Məlikəjdər dedi:

- Mən bu devi öldürəcəyəm.

Qız ona dedi:

- Buna sənin gücün çatmaz. Onun canı bax o taxçadakı şişənin içində balığın qarnındadı. Onu ordan götürüb yerə çırpsan, o zaman dev yarımcan olacaq, bəlkə də öldürə bilərsən.

Məlikəjdər tez taxçadan şişəni götürdü, sındırıb balığı götürdü, qarnını yarıb devin canını çıxartdı, yerə çırpdı. Devdən elə bir nərilti qopdu, yeri, göyü zülmət qapladı. Dev ayağa qalxdı. Məlikəjdər ilə vuruşmağa başladı. Məlikəjdər qılıncla ikibaşlı devi parçaladı. Devin mağarasından vəzndə yüngül, qiymətdə ağır şeylərdən götürdülər. Məlikəjdər pəri qızını aparıb pərilər ölkəsinə yetirdi.

Özü geri qayıtdı. Şəhərlər keçdi, dağlar aşdı, cəzirələr dolaşdı, sevdiyi qızdan bir xəbər öyrənə bilmədi. Iki il meşədə dolaşdığından heyvan kimi tük gətirdi, Tüklücə oldu.

Bəli, Məlikəjdər bir gün meşədən çıxıb yola düşdü, meşənin axırında bir çinar ağacı varıdı. Bərk hirsləndi, çinarı çəkib kökündən çıxartdı, çiyninə aldı. Isfahan şəhərinə tərəf üz qoydu.

Deyirlər, Isfahan padşahının qızı qul, qarabaşlarla seyrdən geri qayıdırdı. Məlikəjdər çiynində çinar ağacı bu gözəl qız karvanına baxırdı. Diqqətlə baxıb nə gördü, şəkildəki aşiq olduğu qız burdadı. Onların dalına düşüb, yavaş-yavaş getməyə başladı. Qabaqda bir böyük bağ vardı.

Bağın bir tərəfində bir gözəl imarət görünürdü. Qızlar bağa girdilər. Qırx yerdən fəvvarə verən çarhovuzun kənarında dayandılar. Kəcavənin qapısı açıldı. Qız kəcavədən düşüb çarhovuzun qırağında durdu. Məlikəjdər bunu gördü, ağaclar arası ilə gedib, çarhovuzun o biri tərəfinə keçdi.

Sərin meh əsirdi, ağacların yarpaqları xırda-xırda tərpənirdi. Padşah qızı o tərəfə-bu tərəfə uçuşan göyərçinlərə baxırdı. Əlindəki dəsmalla üzünü siləndə, əlindəki dəsmal suya düşdü. Hovuzun qırağında olan quşlar dimdikləri ilə dəsmalı hovuzun ortasına çəkdilər. Şahzadə xanım kənizlərə əmr elədi ki, dəsmalı hovuzdan çıxartsınlar. Çarhovuz o qədər dərin idi ki, içərisində bir pələ də hərəkət edə bilərdi. Məlikəjdər bunu görüb hovuzun qırağına dırmaşdı, çiynindəki uzun çinar ağacı ilə dəsmalı çıxartdı. Şahzadə xanım tüklücəni yanına çağırdı, dəsmalı ondan almaq istədi. Xanım tüklücəyə diqqətlə baxdı. Külək Məlikəjdərin uzun tüklərini yellədirdi Şahzadə xanım: "Gözəl bir heyvandı" - deyə qızlara tapşırdı ki, onu otağına aparsınlar.

Bəli, kənizlər tüklücəni şahzadə xanımın otağına apardılar. Şahzadə xanım evdə başladı tüklücəyə öyrəşməyə. Onun üçün qızlara bir xalta qayırtdırdı. Öz yataq otağında tüklücəni bağlatdı. Hər axşam qızıl nimçədə aş tüklücənin qabağına qoyurdu. Deyirlər, saatlar, günlər, həftələr, aylar gəlib keçdi, qızıl xaltaya bağlı tüklücə evin küncündən başqa bir yer görmədi. Bir gün gecə yarısıydı, şahzadə xanım öz rəxtixabında yatmışdı. Onun yanında tüklücədən başqa bir qoca qarı da

vardı. Tüklücə qarını yuxuya verdi, boynundakı zənciri açdı. Dodaqlarını tər-təmiz sildi. Yaxın gedib şahzadə xanımın üzündən bir busə aldı, genə yerinə qayıtdı, qızıl zənciri boynuna keçirdi.

Sabah açıldı, sabahınız xeyir, şahzadə xanım rəxtixabdan qalxdı, əl-üzünü yumaq istədi. Əvvəl-əvvəl aynada üzünə baxdı, gördü üzündə ləkə var. Təəccübləndi, məsələnin üstünü vurmadı, örtülü saxladı. Geyindi, gecindi, o biri otağa keçdi.

Tüklücə gecələri yatmayıb oyaq qalırdı. Bunun əvəzində gündüzləri yatıb yuxusunu alırdı. Bir axşam şahzadə xanım tüklücənin yanına gəlib ona diqqətlə baxdı, öz-özünə dedi: "Ah nə gözəl heyvandı. Bunu yaradan əvvəl insan eləmək istəmişdir. Ya da əvvəl insanmış, cadu eləyib bu hala salıblar". Şahzadə xanım belə-belə fikirləri ürəyindən keçirdi. Sonra yıxılıb yatdı. Tüklücə də özünü yuxuluğa vurdu. Qoca qarı da ağzında saqqız çeynəyirdi, gah yatırdı, gah gözlərini açıb, o tərəf-bu tərəfə baxırdı. Axırda qarı da yuxuya getdi. Tüklücə yerdən qalxdı, zənciri boğazından çıxartdı. Yavaşca gedib şahzadə xanımın hər üzündən bir neçə busə aldı, yenə qayıdıb yerinə gəldi, zənciri boğazına keçirdi.

Səhər xanım yerindən qalxdı, baxdı ki, üzlərinə ləkə düşüb, onun üzündən öpüblər, çox qəzəbləndi: "Bu nə olan işdi?" - deyə çığırdı.

Üzünü qarıya çevirib dedi:

- Ey pədər süxtə, mən səni burda nə üçün saxlayıram?!

Qarı gözlərinin yaşını tökə-tökə dedi:

- Xanım, məndən başqa kimsə bu otağa girməyib.

Şahzadə xanım çox danışdı, hirsləndi, bir mətləb hasil olmadı. Axırda bu qərara gəldi ki, gecə yatmasın, güdsün. Bəli, gecə oldu Şahzadə xanım barmağını yarıb düzla doldurdu. Göynərtisindən gecə yata bilmədi, amma özünü yuxuluğa vurdu. Gecə yarıdan keçmişdi. Tüklücə elə bildi ki, şahzadə xanım yatıb. Boynundan zənciri çıxartdı, xanımın yaxınlığına getdi. Onu öpmək istəyəndə xanım onun qolundan tutdu, yataqdan qalxdı, tüklücənin üzünə baxıb dedi:

- Ey heyvan, mənim sənə yazığım gəlib, evimdə saxlayıram. Sən neyləmək istəyirsən? Bu saat səni parça-parça edimmi?

Məlikəjdər onun ayaqlarına yıxıldı, bütün əhvalatı mən sizə nağıl elədiyim kimi ona nağıl elədi. Şahzadə xanımın huşu başından getdi, bir neçə dəqiqə dayandı, sonra huşu özünə gəldi, baxdı ki, tüklücə yanında dayanıb.

Səhər açılan kimi, qulluqçuları çağırtdırdı, tüklücəni hamama göndərdi. Tüklücə dəlləyin yanına getdi, tüklərini təmizlətdi. Xanım göndərdiyi şahzadəyə layiq paltarı geydi. Ona baxan deyirdi, bir də baxım. Məlikəjdər şahzadə xanımın yanına gələndə anası yadına düşdü. Əlini alnına verib fikrə getməkdə olsun, görək onun anası, atası necə oldular.

Məlikəjdər qürbətə çıxan gündən anası onun intizarındaydı. Günlərin birində padşah şikardan qayıtdı. Həmişə oğlu Məlikəjdər onu peşvaz edərdi. Amma baxdı ki, bu dəfə onun peşvazına nə oğlu, nə də hərəmi gəlməyib. Padşah çox təşvişə düşdü. Qullar, qarabaşlar padşahın gəlməsini xanıma xəbər verdilər. Yazıq arvad o qədər ağlamışdı ki, gözləri şişib qıpqırmızı olmuşdu. Padşah içəri daxil oldu. Baş hərəmi onu görəndə başladı hönkür-hönkür ağlamağa. Padşahın ürəyi tab gətirmədi, o da ağladı. Hərəm ağlamaqdan şişmiş gözlərini açdı, qollarını onun boynuna saldı.

- Məlikəjdər getdi! - dedi.

Padşah dedi:

- Necə? Hara getdi, nə üçün getdi?

Hərəmi bütün əhvalatı, eşitdiyi kimi, ona nağıl elədi. Padşah iki əli ilə başına vurub taxta yıxılmaqda olsun, qayıdaq söhbətin gerisinə, görək Məlikəjdər necə oldu? Elə ki, Məlikəjdər fikrə getmişdi, şahzadə xanım ona dedi:

- Ey cavan, niyə fikrə cumdun?

Məlikəjdər yuxudan ayılmış kimi, fikirdən ayılıb ona dedi:

- Xanım, elə bir şey yoxdu, anam yadıma düşmüşdü.

Şahzadə diqqətlə ona baxıb heyran qaldı. Indi o tüklücə deyil, xalis şahzadəydi. Xanım onu mənzilinə aparıb, gizli yanında saxlamaqda olsun, sizə indi nədən danışım?

Günlərin bir günündə yad padşahdan isfahan padşahına bir namə gəldi. Namədə yazılmışdı:

"Ya yeddi ilin bac-xəracını verməlisən, ya da qızını mənim oğluma toy eləməlisən. Əməl eləməsən ölkəni dağıdacağıq".

Isfahan padşahı yad padşahın tələblərini rədd elədi, davaya hazırlıq görməyə başladı, qoşun topladı. Təbl-cəng çalındı, qoşun şəhərdən kənara çıxdı. Yad padşahın qoşunu da gəldi, səd çəkdilər. Meydan sulandı.

Yad padşah güclüydü. Isfahan padşahının pəhləvanlarını, qoşunu qırıb yarıdan keçirdi. Isfahan padşahının təslim olmaqdan başqa çarəsi yoxdu. Qız bu əhvalatı Məlikəjdərə xəbər verdi. Məlikəjdər altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı, qızdan icazə alıb, meydana getdi. Bir nə`rə çəkib, özünü düşmənin qoşununa vurdu. Onun nə`rəsindən yer, göy titrəyirdi. Düşmən qoşunu sınıq düşüb, geri qayıtdı. Isfahan padşahına xəbər çatdırdılar ki, şahzadə xanımın evində zəncirlənmiş adam düşmən qoşununu sındırıb geri qaytardı. Ikinci xəbər gəldi ki, bəs Məlikəjdər düşmən qoşunundan qırdığını qırdı, qırmadığını da şil-küt eləyib, torpağımızdan çıxartdı. Padşah Məlikəjdəri yanına çağırıb ona afərin söylədi. Əmr elədi şəhərdə üç gün, üç gecə şadlıq keçirildi.

Padşah Məlikəjdəri yanında oturtdu, ondan soruşdu:

- Ey cavan, sən kimsən, haradan gəlmisən?

Məlikəjdər padşah oğlu olduğunu ona söylədikdən sonra, bütün əhvalatı danışdı. Padşah Məlikəjdərin alnından öpdü, qırx gün, qırx gecə toy eləyib qızını ona verdi.

Bu gündən xeyli keçdi. Padşah məhəbbətini Məlikəjdərə saldı. Vəzir, vəkil buna həsəd apardılar. Bir gün bir yerə yığıldılar, bu qərara gəldilər ki, Məlikəjdəri yox eləsinlər. Bu işi vəzirin oğlanlarına həvalə elədilər.

Vəzirin oğlanları hiylə ilə Məlikəjdəri yox eləmək fikrinə gəldilər. Oyudu ki, vəzirin oğlanları padşahın hüzuruna gedib dedilər:

- Izn ver Məlikəjdər bizlə şikara getsin.

Padşah razı oldu. Məlikəjdər geyindi, yola düşdü. Ancaq bunun getməsinə şahzadə xanım razı deyildi, onun ürəyinə dammışdı. Məlikəjdər vəzir oğlanları ilə yola düşüb gecə-gündüz yol getdilər, bir dağa çatdılar, orada sakin olub vurduqları ov ətindən kabab bişirdilər, yedilər.

Sonra başladılar qurşaq tutmağa. Vəzirin böyük oğlu Məlikəjdərlə qurşaq tutanda qardaşlar, qəfildən itələyib dağın uçurum yerindən aşağı saldılar. Məlikəjdər ağır yaralanıb, yerdə sərili qalmaqda olsun, sizə xəbər verim pərilər padşahının qızından.

Pəri qızı anası ilə tənura çəkilib havada gəzirdilər. Pəri qızı anasını tənurda saxlayıb dedi:

- Ana can, aşağıda bir qaraltı görünür. Nə isə mənim ürəyimə bir xof gəldi. Gəl yenək aşağı, görək o nədi?

Anası razı oldu. Hər ikisi aşağı yendilər. Pəri qızı Məlikəjdəri görən kimi tanıdı, anasına dedi:

- Ana, haman bu oğlan o oğlandı ki, məni devin əlindən xilas elədi. Mən də o yaxşılığın qabağında gərək buna yaxşılıq eləyəm. Pəri qızı Məlikəjdəri tənura çəkdi, öz yerlərinə aparmaqda olsun, o biri tərəfdən vəzirin oğlanları geri qayıtdılar, gedib ağlaya-ağlaya padşahın ayağına yıxıldılar. Padşah onlardan Məlikəjdəri soruşdu. Vəzirin ortancıl oğlu dedi:

- Şah sağ olsun, sizin bizə qoşduğunuz adam lap gic imiş. Biz qabaqda gedirdik. O, daldan yavaş-yavaş gəlirdi. Bir də dala baxıb gördük yoxdu. Nə qədər gəzdik, soraq saldıq, ondan bir xəbər bilmədik.

Padşah çox qəmgin oldu. Bu qara xəbər əhalini də qəmgin elədi. Bütün adamlar qara geyinib matəm saxladılar. Amma şahzadə xanım bu xəbərə inanmır, Məlikəjdəri vəzirin oğlanlarından tələb edirdi. Bunlar burada qalsın, görək Məlikəjdər necə oldu?

Məlikəjdəri pərilər qızı öz atasının bargahına yetirdi. Məlikəjdər bihuş idi, gözlərini açmırdı, ancaq sağalmasına ümid var idi. Pərilər qızı Məlikəjdəri sağaltmaq üçün təbibləri topladı,

loğmanları çağırtdırdı. Bir müddət Məlikəjdər yaralı yatdı. Pərilər qızı onun yanından tərpənmirdi. Bir gün qız onun nəbzini tutmuşdu. Məlikəjdər gözlərini açıb pəri qızının üzünə baxdı, onu tanıdı, Pərilər qızı çox sevindi. Məlikəjdər az zaman içərisində sağaldı. Pəri qızı onu hər gün bağa səyahətə aparırdı. Bağda səyahətdə şahzadə xanım Məlikəjdərin yadına düşdü, Pərişan halda bir ağacın dibində oturdu. Bu zaman iki quş gəlib ağacın başına qondu. Bunlar iki bacı idilər. Quşun biri dedi:

- Bacılı, bacılı, hayıf bu oğlandan. Bu padşah oğludu. Bir qıza aşiq oldu, öz ata-anasını atdı, diyar qürbətə düşdü. Mənim bu oğlana çox yazığım gəlir. Ata-anasının ağlamaqdan gözləri kor olub.

O biri bacı dedi:

- Indi ki, belədi, tükümün birin çək, at onu aparsın, ata-anasının gözünə çəkib sağaltsın.

Məlikəjdər bu sözləri eşidirdi. Onun əhvalı pərişan oldu. Quşlar uçanda bir qanad saldılar, gün çıxana sarı uçub getdilər. Məlikəjdər getmək üçün pəri qızından, onun anasından izn istədi. Pəri qızı onu tənurə çəkdi. Göy üzü ilə aparıb, onu şahzadə xanıma yetirdi, özü qayıdıb getdi. Məlikəjdər şahzadə xanımla öpüşüb, görüşəndən sonra, padşahın bargahına getdi. Padşah Məlikəjdəri görüb çox şad oldu. Ondan əhval pürsan eləyəndə Məlikəjdər dedi:

- Vəzirin oğlanları da, şahzadə xanım da burda olsun.

Padşah əmr elədi, vəzirin oğlanlarını da, şahzadə xanımı da gətirdilər. Məlikəjdər bütün əhvalatı olduğu kimi nağıl elədi. Padşah əmr elədi, vəzirin oğlanlarının boyunlarını vurdular.

Məlikəjdər bir müddət burada qaldı, sonra padşahdan izn aldı, şahzadə xanımı götürüb öz atasının vilayətinə getdi. Ağlamaqdan ata-anasının gözləri kor olmuşdu. Məlikəjdər tükü cibindən çıxartdı, ata-anasının gözünə sürtdü, gözləri açıldı. Ata, ana, bala bir birinə qovuşdular. Təzədən Məlikəjdərlə şahzadə xanıma qırx gün, qırx, gecə toy elədilər. Onlar muradlarına çatdılar, arzu edənlər də çatsınlar.

T Ü L K Ü N Ü N K Ə L Ə Y I

Biri var idi, biri yox idi, bir tülkü var idi. Bir gün bu tülkü bərk acmışdı, yeməyə heç zad tapmırdı. Yol ilə gedirdi. Gördü ki, uzaqda bir xoruz durub banlayır. Tülkü sevinib dedi: "Yaxşı yemək tapmışam. Indi burada fənd qurmaq lazımdır, ona yaxınlaşsam qaçacaq". Tülkü tez özünə bir təsbeh qayırdı, çevirə-çevirə getməyə başladı. Xoruz onu görəndə uçub bir ağacın başına qondu. Tülkü gəlib keçəndə soruşdu:

- Tülkü baba, deyəsən abid olubsan?

Tülkü dedi:

- Bəli, xoruz qardaş, tutduğum işlərdən tövbə etmişəm. Indi ziyarətə gedirəm.

Xoruz onun sözünə inandı, yerə düşüb dedi:

- Tülkü baba, məni də yoldaş elə. Mən də ziyarətə getmək istəyirəm.

Tülkü özünü ağır tutub dedi:

- Yox, xoruz qardaş, özüm tək getmək istəyirəm. Məndən sənə yoldaş olmaz.

Xoruz dedi:

- Mən sənlə getmək istəyirəm.

Tülkü dedi:

- Görürəm ürəyin sınır. Gəl söhbət edə-edə gedək.

Xoruz tülkünün yanına düşdü. Bir qədər getdilər, bir qarğaya rast gəldilər. Qarğa onlardan soruşdu:

- Hara gedirsiniz?

Tülkü dedi:

- Ziyarətə gedirik.

Qarğa dedi:

- Məni də yoldaş edin.

Tülkü dedi:

- Yaxşı, sən də gəl, qoy üç olaq.

Bəli, qarğa da bunlara qoşuldu. Bunlar gedib meşəyə çıxdılar. Axşam olunca meşə ilə yol getdilər. Axşam tülkü dedi:

- Gəlin əməllərimizi bir-bir deyək. Kimin çox pis əməli varsa, onu yeyək, yolumuz xeyirli olsun.

Xoruzla qarğa bir söz demədi. Tülkü əvvəlcə qarğaya dedi:

- Sən yazıq-yuzuğun, heyvanların belini dəlirsən, ağzını həmişə bədliyə açırsan. Qədəmin bəddir.

Tülkü sözün tamam eləyib, qarğanı basıb yedi. Sonra üzünü xoruza tutub dedi:

- Sən də hər gecə çır-çır çığırıb qoymursan camaat rahat yata. Sənin də cəzan var.

Xoruz yerindən tərpənmək istəyəndə, tülkü sıçradı onu da tutdu, yedi.

Tülkü kefi kök yola düşüb gedirdi, gördü paho, budu atlıların ağzı açıldı. Atlar quş kimi uçur. Tülkü gördü ki, onların əlindən qurtara bilməyəcək, onu öldürəcəklər. Tülkü yolun kənarında uzanıb özünü ölülüyə vurdu. Demə bu atlılar da gəlin köçürürlərmiş. Atlılar gəlib çatanda, tülkünü ölmüş hesab etdilər, götürüb gəlinin atının tərkinə sarıdılar ki, oğlan evində dərisini soyub, gəlinə xəz qayırsınlar. Adamların başı at çapmağa, oynamağa qarışanda, tülkü gəlinə yavaşca dedi:

- Boynundakı qızılları mənə verməsən səni biabır edəcəyəm.

Gəlin abrının qorxusundan boyunbağını açıb ona verdi.

Tülkü dedi:

- Gərək qızıl kəmərini də verəsən.

Gəlin qızıl kəmərini də ona verdi.

Tülkü dedi:

- Di, məni aç burax, canın qurtarsın.

Gəlin o saat tülkünü açıb buraxdı.

Tülkü atın tərkindən sıçrayıb qaçdı, meşədə bir qurda rast gəldi. Qurd ondan soruşdu:

- Tülkü baba, bu qızılları hardan aldın? Yerini mənə də de.

Tülkü dedi:

- Quyruğumu bu dərədə olan Qaraman gölünün dibinə yeddi gün, yeddi gecə qoydum, bu qızıllar çıxdı. Sən də get qoy.

Qurd düz Qaraman gölünün qırağına gedib, quyruğunu suya saldı, quyruğu səhərə kimi suda qaldı. Səhər gördü quyruğu donub, buzda qalıbdı. Nə qədər çəkdi, qopara bilmədi.

Bir dəstə odunçu onun üstünə düşdü, o ki, var onu ağacla döydülər. Qurd birtəhər onların əlindən qurtarıb, özünü meşəyə saldı, bir ağacın dibində sızıldamaqda olsun, eşit tülküdən.

Tülkü qurddan ayrılandan sonra bir müddət yol getdi. Bir bağın yanında bir parça ət gördü. Əti yeyib, özünü meşəyə vurdu. Gördü qurd burda zarıldayır. Xəlvətcə geri qayıtdı. Bildi ki, qurd onu harda olsa tapıb yeyəcəkdi. Hiylə qurmağa başladı. Bir biz, bir cüt çarıqlıq gön alıb bir yolun kənarında oturdu, başladı çarıq tikməyə. O biri tərəfdən bir neçə gün içərisində canavarın yaraları tamam sağaldı. Dağ-dərəyə düşüb tülkünü axtarmağa başladı, gəlib tülkünü tapdı, ona dedi:

- Sən məni allatmısan. Səni parça-parça edəcəyəm.

Tülkü dedi:

- Mən günahkar deyiləm, quyruğunu suda çox qoymusan, donub, qızıl da çıxmayıbdı.

Qurd onun sözünə inanıb dedi:

- Bəs burda nə iş görürsən?

Tülkü dedi:

- Qazancın yolunu tapmışam. Gündə bir cüt çarıq tikib satıram, puluna o qədər ət alıram ki, yarısını da yeyə bilmirəm.

Qurd dedi:

- Ay aman, bu çarıq tikməyi mənə də öyrət.

Tülkü dedi:

- Bunu öyrətmək çox asandı, dilini bu gönün üstünə qoy, bir dua oxuyum, o saat öyrən.

Qurd dilini çıxardıb, gönün üstünə uzatdı. Tülkü onun dilinin üstündən bizi çalıb yola düzəldi. Az getdi, çox getdi, bir böyük dağa çıxdı. Çox fikirləşdi. Bir qom çubuq qırıb səbət toxumağa başladı. O biri tərəfdən qurd birtəhər dilindən bizi çıxarıb dedi:

- Yaxşı, ay tülkü sənin başına oyun gətirim, sən də tamaşa elə.

Qurd tülkünü axtarmağa başladı. Axırda gəlib onu dağın başında tapdı. Hücum eləyib onu yemək istəyəndə, tülkü dedi:

- Nə olub, bir söhbət elə, sonra ye.

Qurd əhvalatı ona söyləyib dedi:

- Səni tikə-tikə edəcəyəm.

Tülkü dedi:

- Günah özündədi, gərək qoyaydın biz yeddi gün dilində qalaydı. Yeddi gündən sonra sən mükəmməl usta olacaqdın. Çox səhv eləmisən.

Qurd yenə onun sözünə inanıb dedi:

- Bəs bu nədi ki, hörürsən?

Tülkü dedi:

- Səbət toxuyuram.

Qurd dedi:

- Bunu toxuyub nə eləyirsən?

Tülkü dedi:

- Hər səbəti içi dolu bala satıram.

Qurd dedi:

- Ay aman, baldan ötəri ölürəm, mənə də səbət toxumağı öyrət.

Tülkü dedi:

- Gir içinə mən toxuyum, bax, öyrən.

Qurd səbətin içinə girdi. Tülkü səbətin ağzını da hörüb qurtardı, qurd içində qaldı, sonra bir çoban çağırıb dedi:

- Bir səbət balım var, alarsanmı?

Çoban sevinib dedi:

- Alaram, neçəyə verirsən?

Tülkü dedi:

- Bir toğluya.

Çoban toğlunu verib, səbəti aldı, götürüb evlərinə gəldi. Axşam çörək zamanı çobanın atası gəlinə dedi:

- Dur get, o səbətdən bir az bal çıxart gətir, çörəklə yeyək. Sağ olsun oğlum, mağılca bizə bal alıb.

Gəlin getdi, əlini səbətin deşiyindən salanda, qurd onun barmağını dişlədi. Gəlib qayınanasına dedi:

- Bəs əlimi bir şey dişlədi.

Qayınanası onun başına bir qapaz vurub dedi:

- Yəqin arıdı da.

Qayınana durub özü getdi, əlini səbətin deşiyindən salanda onun əlini də qurd dişlədi, arvad bərkdən qışqırdı. Kişi ilə çoban səsə gedib səbətin deşiyindən baxdılar, gördülər səbətdə bir qurd var. Baltanı götürüb qurdu öldürdülər, tülkünün də canını onun bəlasından qurtardılar.

Ü Ç B A C I N I N N A Ğ I L I

Biri var idi, biri yox idi, allahdan başqa heç kəs yox idi. Bir kişi var idi, bunun üç dənə qızı var idi. Günlərin bir günündə bu kişi hazırlaşırdı getsin bazara, çağırıb qızlarını soruşdu ki, balam mən gedirəm bazara, deyin görüm, sizə nə alım gətirim.

Böyük qız dedi:

- Mənə bir dənə soğan qabağından köynək al!

Ortancıl qız dedi:

- Mənə bir dənə zər-qumaşdan çarğat al!

Kiçik Mazarat dedi:

- Mənə bir dənə pişik al!

Kişi getdi bazara. Satmalısın satdı, almalısın aldı, qayıdan baş kiçik qızına bir pişik, ortancıl qızına zərqumaşdan çarğat aldı, ancaq nə qədər vurnuxdu, soğan qabığından köynək tapmadı ki, tapmadı. Kişi axşamacan axtardı, qaş qaralanda çar-naçar bazardan çıxdı, düzəldi yoluna. Az getdi, çox getdi, yorulub bir daşın dibində oturdu. Böyük qızın istədiyini tapmamışdı deyin çox bekef idi. Bu vaxt yoldan bir dərviş keçirdi, diqqət ilə kişiyə baxdı. Baxıb gördü ki, kişi çox bekefdi. Yaxınlaşıb onun dərdini soruşdu. Kişi dedi, hal-qəziyyə belə... Qızım mənə soğan qabığından köynək tapşırmışdı, cəmi şəhəri ayaqdan saldım, tapmadım, indi əliboş qayıtdığıma görə belə bikeyfəm.

Dərviş dedi:

- Kişi, sən gəl o qızı ver mənə, mən ona soğan qabığından köynək alım.

Alışdılar, verişdilər, üç gün, üç gecə toy eləyib qızı dərvişə verdilər. Qız köçüb gəldi dərvişin evinə. Dərviş sabahısı günü evə gəlib qıza dedi:

- Canım qurban, gözüm qurban, bir dur ayağa, fırlana fırlana küpədən bir az qovurma çıxar, gətir yeyək!

Qız getdi küpənin ağzını açdı ki, qovurma çıxartsın, bir də nə gördü? Qovurma adam ətindəndi. Demə dərviş div cinsindən imiş. Əlqərəz, gətirdi qovurmanı qoydu ortalığa. Dərviş başladı yeməyə. Baxdı ki, qız yemir.

Dedi:

- Canım qurban, gözüm qurban, niyə yemirsən?

Qız dedi:

- Yox, yeyirəm.

Amma qız yemirdi. Tikələri dərvişin qorxusundan götürüb, yemək bəhanəsinə aparıb yaxasından salırdı can köynəyinin içinə. Dərviş bunu duydu. Bir az keçəndən sonra birdən qıza qayıtdı ki:

- Canım qurban, gözüm qurbana, dur bir ayağa, fırlana-fırlana bir az su gətir içək!

Qız durdu ayağa ki, su gətirsin, ətlər köynəyinin içindən töküldü yerə. Dərviş onu aparıb o biri otaqda saçlarından mıxladı divara.

Toydan bir neçə gün sonra ortancıl bacı fikirləşdi ki, durum gedim, görüm bacım necədi. Gəldi, gördü dərviş oturub, amma bacısı yoxdu. Dedi:

- Bəs bacım hanı?

Dərviş cavabında dedi:

- Bağa gəzməyə gedib. Otur, indi gələr.

Qız oturdu. Bir balaca keçəndən sonra dərviş ona dedi:

- Canım qurban, gözüm qurban, dur ayağa fırlana-fırlana küpədən bir az qovurma çıxart, gətir yeyək! Mən acmışam, bacın gələnəcən gözləyə bilmərəm.

Qız durdu ayağa, getdi küpənin sələyin açdı, bir də nə gördü?.. Qovurma adam ətindəndi. Ta heç bir söz deməyib gətirdi qovurmanı qoydu yeznəsinin qabağına. Dərviş başladı yeməyə. Amma qız o biri bacısı-kimi tikələri yaxasından can köynəyinin içinə salırdı. Dərviş birdən dedi:

- Canım qurban, gözüm qurban, dur bir ayağa, fırlana-fırlana bir az su gətir içək!..

Qız ayağa duranda ətlər köynəyinin içindən töküldü yerə. Dərviş bunu da aparıb, bacısının yanında saçlarından asdı divara.

Xırda Mazarat gözlədi, gördü bacısı gəlmir. Fikirləşdi ki, yəqin böyük bacım naxoşlayıb, odu ki, ortancıl bacım da gəlib çıxmadı, gedim görüm nə olub. Durdu ayağa, gəldi gördü ki, yeznəsi oturub, amma təkdi, bacıları evdə yoxdu. Soruşdu:

- Bə bacılarım hanı?

Dərviş cavab verdi ki:

- Getdilər bağa gəzməyə. Bir az otur, indi harda olsalar gəlib çıxarlar.

Qız oturdu. Bir azdan sonra dərviş bu qıza da üzün tutub dedi:

- Canım qurban, gözüm qurban, dur ayağa, fırlana-fırlana küpədən bir az qovurma çıxart, gətir yeyək!..

Qız durdu ayağa, gedib elə küpənin ağzını açanda adam ətinin qoxusu onu vurdu. Qız işi anladı, amma heç bir söz deməyib gətirib qoydu ortalığa. Başladılar yeməyə. Qız tikələri bir-bir götürüb salırdı yanına. O saldıqcan da pişiyi də yeyirdi. Dərviş bir azdan qayıtdı ona ki:

- Canım qurban, gözüm qurban, dur fırlana-fırlana bir az su gətir içək!..

Qız ayağa duranda dərviş baxdı ki, bu qızdan ət düşmədi. Ətlərin hamısını pişik yemişdi axı. Bunu görəndə dərviş öz ürəyində dedi: hey gidi namərd! Elə mənə layiq arvad budu ki, budu.

Ta onu evə qayıtmağa qoymadı. Gecəni qaldılar, səhər tezdən dərviş dedi:

- Canım qurban, gözüm qurban, mən qırx günün səfərinə gedirəm. Bacıların gələnəcən heç yana getmə! Ala, bu da otaqların açarları. Otuz doqquz dənədi. Qırxıncı otağın açarı məndədi. Onu açmazsan!

Qız dedi:

- Yaxşı.

Dərviş gedəndən sonra qız başladı otaqları gəzməyə. Otaqlarda o qədər qızıl, gümüş, lə`l, cavahirat var idi ki, ta hədsiz, hesabsız. Otuz doqquz otağın otuz doqquzunu da gəzdi, çatıb qırxıncının qabağına, gördü ki, qapısı bağlıdı. Mazaratın mazaratlığı tutdu. Öz-özünə dedi: yəqin bu otaqda o birilərdəkindən də qiymətli, tamaşalı şeylər var ki, dərviş açarını mənə vermədi.

Qızı maraq çulğadı. Fikirləşdi ki, bunu necə olsa gərək mən hökmən açam. Əlləşdi, vuruşdu, axırı ki, qapını güc-bəla ilə açdı, girdi içəriyə. Gözləri dara sataşanda qızın huşu başından dağıldı. Baxdı ki, bacılarının ikisi də burda saçlarından asılıblar dara. Lap handa handadı ki, nəfəsləri getsin, gəlməsin. Tez yüyürüb ikisini də açdı, yorğan-döşəyi salıb yerlərini rahatladı. De bir gün, de iki gün, qızlar yavaş-yavaş rəngə-rufa gəlməyə başladılar. Soruşdu ki:

- Bu çonənbər görmüş sizi niyə bu günə salıb?

Qızlar əhvalatı bizim bildiyimiz kimi bacılarına nağıl elədilər. Balaca Mazarat durdu ayağa, bir təlis götürüb qızıldan, gümüşdən doldurdu içinə, özün verdi bir zərgərin yanına.

- Zərgər qardaş, ala bu qızılları, mənə elə bir qutu qayır ki, onun içi üç adam, bir-iki aylıq azuqəsi ilə tutsun. Qutu öz-özünə yerisin. Elə ağır olsun ki, yerdən qaldırmaq mümkün olmasın. Özü də içindən bağlanıb, içindən açılsın.

Zərgər qızılları alıb, qızın dediyi kimi bir qutu qayırdı. Qız bir az yeməli, bir az vəzndə yüngül, qiymətdə ağır şeylərdən götürüb, bacıları da yanına alıb düşdü yola. Qutunun bir xırda pəncərə kimi deşiyi var idi. Bir neçə gün getmişdilər, qız bir də deşikdən baxdı ki, budu dərviş qabaqdan gəlir. Tez qutunun deşiyini örtdü. Doğrudan da dərviş gəlirdi. Baxdı ki, yolda bir qəşəng qutu öz-özünə gedir. Fikirləşdi ki, elə yaxşı oldu. Bunu tutub apararam canım qurban, gözüm qurbanıma. Yaxınlaşdı, ha əlləşdi, ha əlləşdi, qutunu yerdən qalxıza bilmədi ki, bilmədi.

- Eh, gedib ona bundan da yaxşısını qayırtdıraram deyib, düzəldi yoluna.

Qızlar yollarına davam etdilər. Az getdilər, çox getdilər, gəlib bir padşahdan vilayətinə çıxdılar. Rastrah qutunu sürdülər padşahın həyətinə. Camaat bir də baxdı ki, budu bir dənə qutu gəldi, girdi həyətə. Yığışdılar bu qutunun başına. Ha baxdılar, ha baxdılar, heç şey anlamadılar. Padşah əmr elədi qutunu sındırsınlar. Kiçik mazarat gördü ki, iş xarabdı, içəridən dedi:

- Biz qaçıb sənə pənah gətirmişik. Əgər qonaq qəbul eləyirsən, qoy burda qalaq, əgər eləmirsən çıxıb gedərik, ta bizim qutunu niyə sındırırsan?

Padşahın oğlu gördü ki, səs qız səsidi. Bildi ki, burda bir iş var. Odu ki, atasından təvəqqe elədi ki, qutunu sındırmasın. Padşahın da gözünün ağı-qarası bir oğlu var idi. Odu ki, onun xətrindən keçmədi. Qutu qaldı.

Qutu hər gün səhər həyətdən çıxıb gedir, gəzir, dolanır, axşam qayıdıb gəlirdi. Padşahın oğlu da həmişə onların dalınca gəzirdi ki, bir təhər eləyib onları bir görsün. Amma qızlar qutudan heç çıxmırdılar deyin padşahın oğlu onları görə bilmirdi.

Bir gün səhər tezdən qutunun içindən belə bir səs gəldi:

- Ay burda olan adamlar, bu qutunun üstünə bir qazan, bir spiçka, bir daraq, bir az da sabun qoyun!

Padşahın oğlu bunu eşidən kimi əmr elədi hamısını qoydular. Qutu yola düşdü. Padşahın oğlu da vəzirin oğluynan bərabər qarabaqara bunların dalınca gəlib, axırda çatdılar bir meşəyə. Elə ki qızlar arxayın oldular ki, ta şəhərdən uzaqlaşıblar, burda onları görən olmaz, qutudan çıxdılar ki, su qoyub başlarını yusunlar. Padşahın oğluynan vəzirin oğlu elə bunları görcək huşları başlarından dağıldı. Bir vaxt ayılıb gördülər ki, qızlar yuyunub da, gedib də, bunlar elə qalıblar meşədə. Oğlanlar ikisi də durub döndülər şəhərə. Səhər tezdən padşahın oğlu gəldi qutunun bərabərinə, dedi:

- Ta bəsdi! Çıxın qutunun içindən! Dünən başınızı yuyanda üçünüzü də görmüşük.

Qızlar gördülər ki, iş açılıb ta gizlənməkdə bir fayda yoxdu, qutudan çıxdılar. De padşaha, vəzirə xəbər göndərildi, məsləhət, məşvərət, axırda böyük qızı vəzirin oğluna, ortancıl qızı vəkilin oğluna, kiçik Mazaratı da padşahın oğluna aldılar, qırx gün, qırx gecə toy elədilər.

Amma kiçik Mazarat elə qorxudaydı ki, dərviş axırda gəlib çıxacaq. Ona görə də padşahın oğlu iki qatlı bir ev tikdirib, qızı yuxarıdakı qatda saxlayırdı. Birinci qatdan ikinci qata çıxan pilləkanın hər pilləsinə o tərəf bu tərəfli iki dənə zınqırov qayıtdırıb qoymuşdu ki, pilləyə ayaq bascaq zınqıldıyıb səs salırdı. Pilləkanın bir tərəfinə bir aslan, o biri tərəfinə də bir qaplan bağlatdırmışdı. Eyvanda da həmişə bir foc əsgər qaraul çəkirdi. Onlar beləcə şad, xürrəm yaşamaqlarında olsunlar, biz görək dərviş necə oldu...

Necə ki, demişdik, dərviş səfərdən qayıdanda yolda qutuya rast gəldi. Istədi götürsün, ancaq gücü çatmadı. Bu fikir ilə getdi ki, birini də özü qayırtdırsın. Gəldi, girdi evə, gördü nə qız, nə filan... Tez qaçdı qırxıncı otağa, gördü qapı sındırılıb. Girdi içəriyə nə gördü?.. Bir həsir qalıb, bir də Məmməd Nəsir, oba köçüb yurdu boş. Qızlardan bir əsər yoxdu. Qazıllara baxdı, gördü ki, onlardan da götürülüb. Bildi ki, yolda qabağına çıxan elə onlar özü imiş. De bir az puldan-muldan götürdü, düşdü şəhərbəşəhər axtarmağa. Axtara-axtara gəlib çıxdı həmin bu şəhərə. Ordan, burdan soraqlaşıb öyrəndi ki, bəli, bir belə qutu bura gəlib, içindən də üç qız çıxıb. Bəli, bunu da öyrəndi ki, kiçik qızı padşahın oğlu alıb. Bir neçə vaxt qaldı burda, amma heç bir yol ilə qızın yanına gedə bilmədi. Axırı, günlərin bir günündə gedib bazardan bir az pambıq aldı, iki şaqqa ət aldı, bir az da bihuşdarı alıb gəldi mənzilə. Bu bihuşdarıdan bir az noğul qayırıb tökdü cibinə. Gecə özün saldı bir qaraul sifətinə, girdi qızın keşikçilərinin arasına. O biri cibindəki doğurçux noğuldan bir-ikisini atdı ağzına. Qaraulçulardan biri gördü ki, bu noğul yeyir. Dedi:

- Nə yeyirsən? Mənə də ver!

- Noğuldu, ala, - deyib hərəsinə bir-iki dənə verdi. Qaraulçular noğulları yedilər. Bir az keçməmişdi ki, hamısı bihuş olub yıxıldılar yerə. Dərviş tez qalxdı ayağa.

Ətdən bir şaqqa atdı aslana, bir şaqqa atdı qaplana, pambığı bir-bir zınqırovlara basa-basa çıxdı yuxarıya ki, səs olmasın. Padşahın oğlu da çəpindən bu gecə qonaqlıqdaydı. Qız tək oturmuşdu, onun yolunu gözləyirdi. Bir də qapı açıldı, dərviş girdi içəriyə. Qız sapsarı saraldı. Dərviş qızın bir üzünə baxdı, acıqlı-acıqlı dedi:

- Dur, düş qabağıma!

Qızda cavab verməyə taqət olmadı. Durub dərvişin qadağına düşdü. Pilləkanın başına çatdılar. Səhərə az qalırdı, dərviş qıza dedi:

- Düş!..

Qız dedi:

- Vallah, məni gecəynən bura çıxardıblar. Odu ki, heç bilmirəm necə düşüm. Sən yenə bir dəfə çıxmısan, bacararsan. Sən qabaqda get, mən də dalınca gəlim.

Dərviş ayağın qoydu pilləyə. Qız bir o yana baxdı, bir boyana baxdı, bir ah çəkib dedi:

- Mənə kömək ol, ey sübhi-sadiq! Qarnımdakı sənə nəzir!..

Bir təpik dərvişə vurdu, dərviş yumbalandı. Qız tez qışqırdı:

- Aslan, tut! Qaplan, yırt!..

Aslan tutdu, qaplan yırtdı. Dərvişdən bir tük qaldı, bir sümük...

Aradan bir neçə vaxt keçdi. Qızın padşahın oğlundan bir qızı oldu. Qız nə qız... Demə görməmişəm, bir dənə mələk... Qız böyüyüb dörd-beş yaşına çatmışdı. Bir gün qapıya üç nəfər adam gəldi. Bunlara hər nə verdilərsə qəbul eləməyib dedilər:

- Gedin, xanıma deyin, nəzirin versin.

Gedib xanıma dedilər ki, hal-qəziyyə belə; üç nəfər adam gəlib, hər nə veririk almırlar. Deyirlər gedin xanıma deyin, nəzirini versin.

Xanım qızını geyindirib verdi, götürüb getdilər. Aparıb şəhərdən çıxartdılar kənara. Qızı qoydular yerə, dedilər: gəlin hərəmiz bu qıza bir qarqış eləyək! Birincisi dedi:

- Ay qız, ay qız, səni görüm, səni görüm, ağlayanda yel əssin, tufan qopsun!..

Ikincisi dedi:

- Ay qız, ay qız, səni görüm, səni görüm, güləndə ağzından dəstə-dəstə güllər tökülsün!..

Üçüncüsü dedi:

- Ay qız, səni görüm, yeriyəndə bir ayağın qızıl kəssin, bir ayağın gümüş.

Qızı güldürdülər, ağzından dəstə-dəstə güllər töküldü. Vurub ağlatdılar, yel əsdi, tufan qopdu, yeritdilər bir ayağı qızıl kəsdi, bir ayağı gümüş. Qaytarıb apardılar verdilər anasına.

Qız yekəldikcə şöhrəti dünyanı tuturdu. Axırda yeddi iqlimə, yeddi suya hökmü keçən bir padşahın oğlu bu qıza elçi göndərdi. Alışdılar, verişdilər, qızı padşahın oğluna verdilər. Bəli, toy qurtardı, kəcavələr bəzəndi, qızı gəlin apardılar.

Bu qızın bir dənə mürdəşir görmüş bibisi var idi. Bunun özünə oxşayan bir də bir qızı var idi. O qədər kifir idi ki, üzünə baxan gərək kəffarə verəydi. Ona görə də heç kəs almırdı, qalmışdı evin bucağında. Həmin bu bibisi də öz qızı ilə bərabər bizim qız ilə bir kəcavəyə minib yengə gedirdi. Bir neçə gün yol gedəndən sonra gəlib padşahın şəhərinin yaxınlığına çatdılar. Gecə idi. Qızın bibisi qıza qəsdən evdə bişirdiyi duzlu çörəkdən verirdi. Qız duzlu çörəyi yeyib, susadı, su istədi, bibisi dedi:

- Gözünün birini ver, sənə bir içim su verim.

Qız nə qədər yalvardı, olmadı. Baxdı ki, lap yanır, handa-handadı ki, ürəyi çatlasın. Dili ağzında yanıb part-part olub. Çar-naçar razı oldu. Bibisi onun bir gözünü çıxarıb ona bir qurtum su verdi. Bir az keçdi, qız yenə susadı. Bu dəfə də bibisi o biri gözünü çıxardıb bir az da su verdi. Gözlədi, gecənin bir yarısı, qız yuxulayandan sonra, onu soyundurub səssiz, səmirsiz itələyib kəcavədən saldı yerə. Heç kəs də bilmədi. Tez o paltarları geyindirdi öz qızına, ağzına da bir dəstə gül soxdu. Bəli, gəlib çatdılar padşahın imarətinə. Bunları pişvaz elədilər, qurban kəsdilər, atəşbazlıq elədilər. Gecə qızı qatdılar gərdəyə. Padşahın oğlı gördü, ədə, qız damdabacanın biridi. Gəlib bunu güldürdü, ağzından bir dəstə örüşgəmiş gül düşdü yerə. Ağlatdı heç nə yel əsdi, nə də tufan qopdu. Tutdu əlindən, yeritdi. Qızıl, gümüş hayandaydı, heç dəmir də kəsmədi.

Padşahın oğlu iki əlin vurub dizinə dedi:

- Bəli, yaman aldatdılar məni. Görüm hələ dalı nə olacaq.

Bunlar burda belə yaşamaqda olsunlar, bu şəhərdə bir kolçu var idi, gündə çöldən kol çıxardıb aparıb bazarda satardı, gətirib bir təhər külfətin dolandırardı. Bir gün yenə getmişdi kol çıxarmağa, bir də baxdı ki, bir kolun dibindən səs gəlir:

- Ay bura gələn adam, kimsən, məni də apar! Yazıq, kor bir qızam. Acından ölürəm.

Kolçu baxdı ki, gözəl bir qızdı, amma gözləri kordu. Dedi:

- Bala, səni mən hara aparım? Yeddi qızım var, gücnən dolandırıram.

Qız dedi:

- Kişi, apar məni! Xeyir görərsən.

Kişi dedi:

- Mən səndən nə xeyir görəcəyəm? Özün qız, gözün də kor.

Qız gördü yox, kişi o qədər kasıbdı ki, qorxudan onu aparmayacaq. Odu ki, dedi:

- Ay kişi, gəl yapış mənim əlimdən, bir az gəzdir, gör nə görərsən.

Kişi yapışdı onun əlindən, bir-iki addım yeritdi, bir də baxdı ki, nə... Qızın bir ayağı qızıl kəsir, bir ayağı gümüş. Tez qızıl-gümüşü ətəyinə yığıb, qızı da qucağına götürüb qaçdı evinə. Bir neçə gün keçəndən sonra qız güldü, ağzından bir neçə dəstə gül töküldü, verdi kişiyə dedi:

- Kişi, apar bunu padşahın həyətinə. Desələr neçə, deyərsən, qiyməti bir gözdü.

Qızın bibisi oturmuşdu evdə. Bir də gördü ki, həyətdə gül satılır. Tez düşdü ki, gedib, alıb, gətirib qızın ağzına qoysun.

- Ay kişi, neçə deyirsən?

Kişi cavab verdi ki:

- Bir göz.

Arvad nə qədər elədi, kişi pul ilə vermədi. Arvad axırda məəttəl qalıb, gözlərin birin verib gülləri aldı. Arvad qızın gözlərin çıxardanda atmamışdı, saxlayırdı. Bir neçə gündən sonra qız bir də gülüb, ağzından-tökülən gülləri yenə verdi kişiyə. Kişi gətirib satıb bibisindən o biri gözü də aldı. Qız gözlərinin ikincisini də qoydu, gözləri sağaldı, oldu anadan gəlmə. Bir gün qəsdən yeridi, bir-iki dənə qızıldan, bir-iki dənə gümüşdən, bir-iki dənə də güldən bir podnosa qoyub verdi kişiyə, dedi ki:

- Apar, bunu ver padşahın oğluna!

Kişi necə ki qız demişdi, aparıb verdi padşahın oğluna. Padşahın oğlu dedi, aha, deyəsən burda əngəl var. Dedi:

- Kişi, bunlar sənə hardan?

Kişi dedi:

- Qurbanın olum, bir qızım var. Belə yeriyəndə ayaqları qızıl-gümüş kəsir, güləndə ağzından dəstə-dəstə gül tökülür.

Padşahın oğlu tez əmr elədi atlandılar, getdilər kolçunun evinə. Gördü qız... nə qız... suya deyir axma, mən axacıyam, aya deyir baxma, mən baxacıyam. Soruşdu:

- Qız sən kimsən?

Qız əhvalatı bütün-bütünə danışdı. Padşahın oğlu onu güldürdü, doğrudan da ağzından gül töküldü. Ağlatdı yel əsdi, tufan qopdu. Yeritdi, bir ayağı gümüş kəsdi, bir ayağı qızıl kəsdi. Əmr elədi bibisini də, qızını da bağladılar bir dəli qatırın quyruğuna, saldılar dağa. Qatır onları dağa-daşa çırpıb öldürdü.

Toy quruldu, büsat başlandı. Padşahın oğlu qızı aldı. Kolçuya da otaq verib qız öz yanına köçürtdü.

Yedilər, içdilər, yerə keçdilər. Siz də yeyin, için, mətləbinizə yetişin! Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin. Siz sağ, mən də salamat.

Ü Ç Ş A H Z A D Ə

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşah çox pul xərcləyib oğlanlarını oxutmuşdu. Oğlanlar öz zamanlarının dərslərini irəvan eləyib elm dəryası olmuşdular. Günlərin bir günündə xəbər çıxdı ki, oğlanlar dərslərini qurtarıb gəlirlər. Di şəhər bəzəndi, dəsgah... Oğlanlar gəldilər. Bir neçə gün keçəndən sonra, padşah bir gecə böyük oğlunu yanına çağırıb dedi:

- Oğul, daha oxuyub dərsinizi qurtardınız, elə mən də qocalmışam, istəyirəm sabahdan padşahlığı verəm sənə, ortancıl qardaşını sənə vəzir, kiçik qardaşını da vəkil təyin eləyirəm.

Oğlan doğrudan da çox ağıllı oğlan idi, dedi ki:

- Dədə, mən təzə gəlmişəm. Bütün ömrümü qürbətdə keçirmişəm. Ona görə də camaatı, vilayəti necə dolandırmaq lazımdı, hələ bacarmaram.

Padşah oğlundan heç belə cavab gözləmirdi. Elə ki, bunu eşitdi, dedi:

- Get, ancaq qardaşlarına bu barədə heç bir söz demə!

Belə deyib oğlunu mürəxxəs elədi. Sabahı gecə ortancıl oğlunu çağırıb dedi ki:

- Oğul, istəyirəm padşahlığı verəm sənə, böyük qardaşını vəzir, kiçiyi də vəkil təyin eləyəm.

Oğlan dedi:

- Yox, bunu mən qəbul eləmərəm. Məndən böyük qardaşım var, padşahlıq ona verilməlidi. O, dura-dura mən padşah olmaram.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bir söz deməsin.

Üçüncü gecə kiçik oğlunu çağırıb ona da haman sözləri dedi, o da cavab verdi ki:

- Böyük qardaşım dura-dura mən padşahlığı qəbul eləmərəm.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bu barədə heç bir söz deməsin. Qardaşlar üçü də bu işdən pəjmürdə olmuşdular. Axırda ki, özlərini saxlaya bilməyib məsələni açdılar. Baxdılar ki, padşah üçünə haman sözləri deyib. Fikirləşdilər ki, indi ki, biz onun sözünü rədd eləmişik, bizə bundan sonra pis nəzərnən baxacaq. Yaxşısı budu ki, biz də hələlik hirsi soyuyanacan çıxaq səyahətə.

Di padşaha adam göndərdilər, padşah razılıq verdi. Tədarük görüldü, lazım olan şeylər hazırlandı, oğlanlar üçü də dədələrinin görüşünə gəldilər. Padşah böyük oğlunun alnından öpüb dedi:

- Get, oğul, ancaq yadında qalsın, qabağına çıxan qisməti təpikləmə...

Ortancıl oğlunun alnından öpüb dedi:

- Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!

Kiçik oğlunun alnından öpüb dedi:

- Həmişə dara düşəndə qocaların məsləhətinə qulaq as!

Oğlanların üçü də görüşüb, atları minib yola düşdülər. Gəlib yetişdilər bir özgə padşahın vilayətinə. Bir neçə vaxt qaldılar burda, bunların kamalları şəhərdə hamını heyran elədi. Bu şöhrət axırda gedib bu məmləkətin padşahına çatdı. Padşah bunların üçünü də qonaq çağırdı. Di bir az söhbət eləyəndən sonra yemək gəldi. Padşah ayağa qalxıb dedi:

- Mən ac deyiləm, siz özünüz necə ki, kefinizdi yeyin, məni bağışlayın!

Padşah bunu deyib o biri otağa keçdi. Onun məqsədi ayrı idi. O, istəyirdi ki, onları tək qoyub, özü onlara tamaşa edib görsün, doğrudan necə adamlardı. Odu ki, qapının dalında əyləşib onları seyr eləməyə başladı. Böyük oğlan ortadakı qızarmış quzudan bir az kəsib elə ağzına qoycaq tüpürdü yerə. O biriləri soruşdular ki:

- Nə olub?

Böyük qardaş üzünü turşudub dedi:

- Bu quzu əti deyil, it ətidi.

Padşah bunu eşidib hirsləndi ki, onlar necə cəsarət eləyib onun ətini it ətinə oxşadırlar. Elə istəyirdi ki, girib onları tutdursun, bu halda ortancıl qardaş əlini uzatdı şəraba. Şərabdan bir stəkan töküb ağzına yaxınlaşdırcaq, tüpürdü yerə.

Soruşdular:

- Nə oldu?

Dedi:

- Bu şərab deyil, insan qanıdı.

Kiçik oğlan dedi:

- Yaxşı, aşpazdan əmələ gəlmiş bicdən daha bundan artıq nə gözləmək olar ki?

Padşah bunu eşidəndə lap dəli oldu. Vaxt elədi ki, hirsindən bağrı çatlasın. Bir istədi ki, üçünün də boynunu vurdura. Ancaq bir az fikir eləyib öz-özünə dedi:

- Yaxşısı budu, çağırım bir aşpazdan, şərabçıdan soruşum, sonra.

Çağırdı aşbazı:

- De görüm, bu gün bişirdiyin quzunu haradan almışdın?

Aşpaz dedi:

- Şah sağ olsun, çoban sürüdən gətirmişdi.

Padşah əmr elədi çoban gəldi.

- Bu quzunu hardan gətirmişdin?

- Şah sağ olsun, sürüdən.

- Çoban, bu quzudan it əti tamı gəlir, bir əməlli fikirləş!

Çoban bu sözü eşidəndə başladı yarpaq kimi tir-tir titrəməyə.

Padşah dedi:

- Qorxma, de görüm bu nə işdi?

Çoban dedi:

- Padşah sağ olsun, həmin quzu anadan olandan iki gün sonra anasını qurd parçalamışdı. Biz fikirləşdik ki, ta bu böyüyüb bizə qoyun olmayacaq. Odu ki, ötürdük başına. Elə çəpindən həmin otlaqda bizim, üzdən iraq itimiz də qancıqlamışdı. Bir gün mən gəlib gördüm ki, həmin quzu iti əmir, ta buna heç fikir vermədim. Siz indi it ətinin tamı deyəndə yadıma düşdü, o yəqin o quzu olacaq.

Padşah baxdı ki, böyük oğlanın dediyi doğru çıxdı. Onun mürəxxəs eləyib çağırdı şərabçını. Soruşdu ki:

- Bugünkü şərabı hardan gətirmişdin?

- Meyxanadan, qibleyi-aləm sağ olsun!

- Bu şərab haranın üzümündəndi?

- Güllü bağın.

- Bu bağı kim saldırıb?

- Sənin rəhmətlik atan.

- Bilmirsən, o bağın yeri qabaqca nə imiş?

- Şah sağ olsun, o bağın yeri qabaqca qəbiristanlıq idi. Sənin rəhmətlik atan oranı sökdürüb üzüm bağı elədi.

Padşah baxdı ki, ortancıl oğlanın dediyi də doğru çıxdı. Öz-özünə fikirləşdi, yaxşı, bunlar doğru oldu. Amma xırdanın hökmən boynunu vurduracağam. Çünki ta mən heç vəchlə aşbazdan əmələ gəlmiş bic deyiləm. Atam bəlli, anam bəlli. Istədi cəlladı çağıra, sonra fikirləşdi, yaxşı, bunların ikisinin də sözü düz çıxdı. Bəlkə elə bu da düzdü, oldu-oldu da... Qoy bir anamdan soruşum.

Qılıncı çəkib girdi anasının yanına ki:

- Ana, düzün de görüm, mənim atam kimdi?

Arvad dedi:

- Buy, ay bala, bu nə sözdü? Sənin atan bu vilayətin padşahı Aslan şah. Bu nə sözdü soruşursan?

- Yox ana, düzün deməsən, bax bu qılıncdı, sənin canın. Mənə deyiblər ki, mən padşah oğlu deyiləm, aşbaz oğluyam.

Arvad gördü ki, iş xarabdı, kimsə əhvalatı bilib, ona xəbər verib. Ona görə də çar-naçar əhvalatın düzünü açıb deməyə vadar oldu. Dedi:

- Bala, indi ki, bilirsən, bil, ta allahdan gizlin deyil, səndən nə gizlin. Mənim həmişə qızım olurdu, heç oğlum olmurdu, Aslan şah da oğlan istəyirdi. Bir gün yenə allahın məsləhəti ilə mənim və`dəm keçdi. Sancım başlayan günü şah mənə dedi: - Əgər bu dəfə də qızın olsa səni öldürəcəyəm. Işin çəpindən uşaq yenə qız oldu. Mən düşdüm qarın ağrısına. Mənim bir yaxşı dayəm var idi. Gəlib gizlincə mənə dedi ki, bu gecə aşbazın bir oğlu olub, gəl uşaqları onunla dəyişdirək. Sən həmin o uşaqsan.

Padşahın gözləri heyrətindən bərəlib lap dörd oldu.

- Bəs mənim əsil atam, anam necə oldu?

- Sənin əsil atan, anan da, mənim əsil qızım da o böyük taunda öldülər.

Padşah daha heç bir söz deməyib çıxdı. Lap mat qalmışdı. Oğlanların dediklərinin hamısı doğru olmuşdu. Bir baş gəldi oğlanların yanına, əyləşdi, başladı söhbətə:

- Mən buna lap mat qalmışam. Siz çörək yeyəndə mən qapının deşiyindən qulaq asırdım. Sizin sözlərinizin hamısını eşitdim.

Oğlanlar qızardı.

Padşah dedi:

- Yox, qızarmayın! Məsələ burasındadı ki, dediklərіniz lap düz çıxdı. Indi mən bir şeyə mat qalmışam ki, siz bunları hardan bilirsiniz?

Böyük oğlan dedi:

- Şah sağ olsun, mən quzunun ətindən yeyəndə dedim ki, bu it ətidi. Çünki gördüm ki, bu qoyun əti tamı vermir. Demək bu başqa heyvan olacaq. Sürüdə də itdən başqa heyvan olmaz. Odu ki, dedim bu yəqin it əti olacaq.

Padşah ortancıla dedi:

- Yaxşı, hələ sən hardan bildin ki, şərab insan qanıdı?

- Şah sağ olsun, mən şərabı ağzıma alcaq məni bir cür iy basdı. Mən ondan bildim ki, bu insan qanı olacaq.

Padşah üzünü tutdu kiçik oğlana ki:

- Yaxşı, bəs sən niyə hələ elə başından yekə qələt elədin?

Oğlan dedi:

- Şah sağ olsun, düzdü, mənim dediyim yaxşı söz deyil. Ancaq məsələ burasındadı ki, elə deyəsən elədi ki, var. Axır hərçənd ki, biz sənə demişik ki, biz tacir oğluyuq, amma yalan demişik. Biz səndən də böyük bir padşahın oğluyuq. Bizim atamız gələn qonaqlarla oturar, durar, söhbət edər, amma heç xörək haqqında danışmaz. Amma sənin söhbətin elə bu barədə oldu ki, ay nə bilim küftəbozbaşı belə bişirirlər, dolmanı belə bişirirlər, plovun yağını nə vaxt tökərlər, qayğanağın şirəsini nə vaxt vurarlar. Mən gördüm ki, sən xörəkdən başqa heç bir söhbət eləmirsən, fikirləşdim ki, yəqin bunun aşbazla bir qarışığı var.

Gecə padşah böyük oğlanı çağırıb dedi:

- Oğlan, görürəm sən bir ağıllı, kamallı oğlansan. Mən də ta qocalmışam. Övlad qismindən yaxşı bir qızım var. Gəl elə onun kəbinini kəsdirim sənə, padşahlığı da verim sənə, mən bu qoca vaxtımda bir az rahatlanım.

Oğlan məsələni qardaşlarına açdı, onlar razı olmadılar.

Böyük oğlan dedi:

- Yox, dədəm mənə deyib ki, qabağına çıxan qisməti təpikləmə! Bu bir qismətdi ki, mənim qabağıma çıxıb. Mən qalacağam.

Atalarının sözü onların da yadlarına düşdü. Hamısı razılaşdılar. Qırx gün, qırx gecə toy elədilər, padşah qızı da, tacı da verdi oğlana. Qardaşları bununla görüşüb yola düşdülər. Bir neçə gün gedəndən sonra gəlib iki yolun ayrıcına çatdılar. Öpüşdülər, görüşdülər, ortancıl oğlan bir yolnan, kiçik oğlan da bir yolnan getməyə başladılar. Kiçik oğlan getməkdə olsun, biz görək ortancıl oğlanın başına nə gəldi.

Ortancıl oğlan gedib, gedib bir şəhərə çatdı. Şəhərin meydançasına çatanda gördü ki, camaat yığışıb divara vurulmuş bir şəklə baxırlar. Yaxınlaşdı, baxdı ki, bir qız şəklidi. Amma qız nə qız... Elə bir qızdı, elə bir qızdı ki, yemə, içmə xətti-xalına, gül camalına tamaşa elə!

Orada duranlardan birinə yanaşıb soruşdu:

- Qardaş, bu nə şəkildi?

- Yəqin ki, sən bu şəhərə təzə gəlmisən?

- Bəli.

- Bu bizim padşahın qızının şəklidi.

- Bəs bura niyə vurublar?

- Ərə vermək üçün.

Oğlan bir könüldən min könülə vuruldu bu qıza. Soruşdu ki:

- Bəs yaxşı, axı mən anlamıram, bunu bura niyə vurublar? Niyə alan yoxdu ki, belə müştəri axtarırlar?

- Yox, istəyən çoxdu. Indiyə kimi bir çox pəhləvanlar, bir çox şahzadələr gəlib bu qızı istəyiblər. Ancaq burda gizlin bir sirr var ki, o qızı istəmək üçün saraya girənlərin biri də qayıdıb eşiyə çıxmır. Bu saat bütün bu şəhər camaatı bu qıza aşiqdi. Ancaq bu işin qorxusundan bir adam cəsarət eləyib elçi göndərə bilmir.

Oğlan dedi.

- Bu qızı mən alacağam.

Kişi gülümsünüb dedi:

- Yazıqsan oğlan! Sən yaxşı bir cavansan, özünə hayıfın gəlsin, bu sevdadan vaz keç!

Oğlan dedi:

- Yox, hər nə təhər olsa, mən gərək bu qızı alam.

Kim ona nə dedisə beyninə girmədi. Sabahısı günü düz birbaş getdi padşahın yanına.

- Padşah sağ olsun, mən gəlmişəm sənin qızını almağa.

Padşah çox razılıqla onu qəbul elədi. Ancaq dedi ki:

- Doğrudu, axırda bir oğlan bir qızın, bir qız bir oğlanındı. O da doğrudu ki, mənim qızım mənim sözümdən çıxmaz. Ancaq mən onun sonrakı bədbaxtlığına bais olmaq istəmirəm. Sən çox da mənim xoşuma gəlirsən. Bəlkə heç qızın xoşuna gəlməyəcəksən. Ya elə qız özü sənin xoşuna gəlməyəcək. Mənim şərtim budu. Səni sabah qızımnan ötürərəm bir otağa. Orda bir-iki saat bir-birinizlə söhbət edərsiz. Əgər ikiniz də bir-birinizi bəyənsəniz, ondan sonra baş üstə!

Oğlan bu təklifə lap ürəkdən razı oldu. Özü də çox şad oldu. Daha bundan yaxşı nə ola bilər ki?..

Sabahısı oğlanı gətirdilər qızın otağına. Qız nə qız. Huri, mələk. Şəkildəkindən beş qat gözəl, şəhla gözlü, şirin sözlü, hilal qaşlı, balınc döşlü, fındıq burunlu, açıq alınlı, güləbətin ətəyi, dili bal pətəyi, dişləri siçan dişi kimi, ta nə deyim, gəl məni gör, dərdimdən öl...

Oğlan huş-bihuş yerində dayandı. Nazənin məxmər döşəyin üstündən qalxıb süd kimi ayaqlarını fərşin üstünə basa-basa oğlana tərəf gəlməyə başladı. Oğlan ta lap özünü itirdi. Elə handa-handaydı ki, yıxılsın, şümşad qollar Hindistan ilanı kimi dolandı oğlanın boynuna. Oğlan ayıldı, tez dala çəkildi, qız irəlilədi. Qız güclə onu qucaqlamaq istəyirdi. Oğlanın gözləri kəlləsinə çıxmışdı. Elə az qalırdı ki, qucaqlayıb o gülab süzülən dodaqlardan doyunca özünü sirab eləsin, birdən atasının sözü yadına düşdü:

«Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!..»

Oğlan elə bil ki, yuxudan ayıldı. Ilan vurmuş adamlar kimi yerindən tullanıb, dala qaçdı. Qız qovdu, oğlan qaçdı, qız qovdu, oğlan qaçdı, axırda oğlan gördü ki, yox, bunun əlindən qurtarmayacaq, özün vurdu qapıya, qapı da bağlı... Çəkildi dala, qız hən-hün eləyib bunu tutuncan oğlan qapıya bir təpik çəkdi, qapı sındı. Oğlan bayıra tullandı. Baxdı ki, əlində yalın qılınc bir adam orda hazır durub. Bayaq ha yıxılıb özündən getdi.

Bu əhvalatdan üç gün keçmiş oğlan yuxudan ayılıb özünü ipək yorğan-döşəkdə gördü. Yanında da bir çox dava-dərman var idi. Baxdı ki, başı yaman ağrıyır. Əlini atdı başına, gördü ki, başını səritdiyib bağlayıblar. Lap məəttəl qalı. Bu vaxtı bir də nə gördü. Qız barmaqlarının ucunda yavaş-yavaş girdi evə. Daha bu halı necə ki, lazımdı deyə demirəm. Həftə keçdi, gün keçdi, oğlan yaxşı oldu. Ta bir adama ki, öz mə`şuqəsi dava-dərman verə, bir naxoş ki, öz yari-nazəninin əlindən dərman içə, əlbət ki, sağalar. Indi yavaş-yavaş oğlan başlamışdı gəzməyə.

Bir gün yenə oğlan qızla oturmuşdular bağda, padşah gəldi bunların yanına. Oğlan ondan soruşdu:

- Şah sağ olsun, mən axı bir şeyə məəttəl qalmışam. Mən yıxılan günü, əlində qılınc qapıda durub məni qorxudan kim idi.

Padşah gülüb dedi:

- Mən qızımı bir halal süd əmmiş namuslu adama ərə vermək istəyirdim. Ona görə də belə bir qənir götürdüm. Kim mənim qızımı gəlib istəyirdisə, mən onu salırdım qızımın yanına. Özüm də əlimdə qılınc qapının deşiyindən baxırdım. Qıza da tapşırmışdım ki, oğlanla mazaq eləyib onu dingildətsin, necə ki, sən özün də bunu gördün. Elə ki, qız belə eləyirdi, oğlanın əlbəhəl halı dəyişib

ayrı fikirlərə düşürdü. Əlbəhəl namussuz adam olduğunu bilirdim. Mən də əlimdəki qılıncla başını bədənindən ayırıb yer üzünü beləncik nakəslərdən təmizləyirdim. Amma sən doğrudan da halal süd əmmiş adamsan. Çünki qız nə qədər sənə soxuldusa, sən qaçdın.

Oğlan dedi:

- Çünki mənim atam mənə vəsiyyət eləyib ki, «elə ki, gördün bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə».

Padşah toy eləyib qızı verdi ona, padşahlığı da ona tapşırıb qoca günlərində hərəmxanasına çəkildi. Bu da burda öz keyfində olsun, biz görək kiçik oğlan nə oldu.

Kiçik oğlan gedib-gedib bir şəhərə yetişdi. Bir gün şəhəri gəzə-gəzə lap çıxdı qırağa. Qabağına bir gözəl dam-daş çıxdı. Evin pəncərəsindən bir qız baxırdı, bir qız baxırdı ki, getmə gözümdən, gedərəm özümdən. Oğlan bir ürəkdən min ürəyə qıza elə vuruldu ki, heç məcnun da bu boyda vurulmamışdı. Axşamacan qaldı orda. Gecə çıraqlar yanandan sonra gəldi şəhərə, amma elə fikri oradaydı. Gecə düşdüyü hicrədəki yoldaşına dərdini açdı. O adam əhvalatı buna danışdı.

Deməginən bu qız padşahın qızı imiş. Padşah onu kimə vermək istəyibsə qız getməyib, ona görə də padşah onu dədə malından məhrum eləyib, evindən qovub. O da həmən o dam-daşı tikdirib özün də tilsimbənd eləyib oturub orda. Indi o tilsimi açmağa nə qədər pəhləvanlar gəlibsə, düşüb qalıblar orada.

Oğlan dedi:

- Mən o qızı alacağam.

Səhər getdi padşahın yanına. Padşah onu lap yaxşı ürəyi istəyən kimi qəbul eləyib dərdini soruşdu, oğlan öz fikrini dedi.

Padşah dedi:

- Mən lap ürəkdən buna şadam. Ancaq vallah onun ixtiyarı mənim əlimdə deyil. O olub bir çəpəl sehrkun.

Oğlan dedi:

- Mən onun tilsimini sındıraram. Ancaq necə ki, sən onun atası, başının sahibi, əvvəl sənin yanına gəlmişəm.

Oğlan ordan çıxıb soraqlaşdı, öyrəndi, bu şəhərdə lap qoca bir adam tapıb onun yanına getdi. Qoca ona dedi:

- Bala, o tilsimi sındırmaq üçün bircə yol var. O da budu ki, qızın iki qarabaşı var. Bunlar həftədə bir gün gəlib bazardan lazım olan şey-şüy alıb aparırlar. O qarabaşlardan birini gərək pul gücünə aldadıb tilsimin sirrini öyrənəsən.

Oğlan gedib kəsdi bazar yolunun üstünü. Qızları axır ki, aldadıb, tilsimin sirrini öyrəndi. Sabahısı gedib padşaha mə`lum elədi ki, mən bu gün tilsimi sındıracağam.

Bunu deyib üz qoydu şəhərin qırağına, qızın dam-daşına tərəf. Şəhərin əhalisi əhvalatı eşidib yığışdılar bura. Oğlan altdan geyinib üstdən qıfıllandı, iki şaqqa ət götürüb girdi evə. Baxdı ki, qarabaşların dediyi kimi pilləkanın qabağında bir aslan, bir də bir qaplan bağlanıb. Qızların öyrətdiyi kimi ətin bir parçasını aslana, o birini qaplana atdı, ayaq qoydu pilləkana. Qapıdan keçəndə göydən asılmış sehirli qılınc aşağı endi. Tez yanındakı divarda duran düyməni basdı. Qılınc sındı, düşdü yerə. Girdi evə. Baxdı ki, hər tərəf od alıb yanır. Odun içindən də bir əjdaha buna həmlə eləyir. Qızların öyrətdiyi kimi özün atdı əjdahanın üstünə. Yapışıb boğazından bunu boğdu. Hər tərəfi tüstü bürüdü. Tilsim sındı. Camaat çöldə durub oğlana heyifsilənirdilər. Bir də gördülər ki, oğlan budu qız qucağında çıxdı balkona. Camaatdan bir gurultu qopdu ki, ta nə təhər. Qız düşdü, gəldi atasının bərabərinə. Onun əlindən öpüb dedi:

- Ata, sən məni hər yoldan keçənə vermək istəyirdin, mən də buna razı deyildim. Indi bu oğlan, deyəsən, elə mən axtardığımdı. Sən urusqat versən, mən bu oğlana üç sual verərəm, cavablarını qaytara bilsə, gedərəm buna.

Padşah razı oldu. Qız oğlana dedi:

- Indi get, mənim sorğularımı gözlə!

Sabahısı-gün qız oğlana bir zümrüd göndərdi. Oğlan getdi bazara, bir dənə zəbərcəd alıb qoydu bunun yanına, qaytardı dala. O biri gün qız oğlana bir dənə almaz göndərdi. Oğlan almazı bir daş altdan, bir daş üstdən qoyub əzdi, bir dəsmala bağlayıb qaytardı dala. Üçüncü gün qız oğlana bir brilyant göndərdi. Oğlan gedib bazara, ondan da qiymətli brilyant aldı, iki dənə də yaqut, hamısını bir yerdə göndərdi qıza.

Qız atasına xəbər göndərdi ki, oğlan suallara cavab verib. Kəbin kəsildi, toy oldu. Elə ki, toy qurtardı, padşah oğlanı da, qızı da yanına çağırıb soruşdu:

- Yaxşı, iş qurtardı, indi sən mənə de görüm, bu tilsimi necə sındırdın?

Oğlan dedi:

- Mənə atam tapşırmışdı ki, çətinliyə düşəndə qoca adamların məsləhətinə qulaq as! Odu ki, mən də bir qoca tapıb onun məsləhətiynən tilsimi sındırdım.

Padşah üzünü qızına tutub dedi:

- Bəs sən nə sual verdin, o sənə nə cavab verdi?

Qız dedi:

- Mən birinci dəfə ona bir dənə zümrüd göndərdim ki, mən atam-anam üçün zümrüd kimi bahalıyam, sən məni ala bilməzsən.

Oğlan dedi:

- Mən sənin fikrini anladım. Odu ki, bir dənə zəbərcəd alıb göndərdim ki, çox da qoltuqların şişməsin. Elə mən də ata-anam üçün zəbərcəd kimi qiymətliyəm.

Qız dedi:

- Mən ikinci dəfə bir almaz göndərib dedim ki, mən almaz kimi bərkəm, sən mənim arzularımı yerinə yetirə bilməzsən.

Oğlan dedi:

- Mən başa düşdüm, ona görə də almazı əzib sənə göndərdim ki, əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm.

Qız dedi:

- Sonra mən bir dənə brilyant göndərdim ki, mən brilyant kimi gözələm.

Oğlan dedi:

- Mən başa düşdüm. Odu ki, ondan da qiymətli bir brilyant alıb sənə göndərdim ki, elə mən də gözələm. Ancaq yanına da iki yaqut qoydum ki, indi gör bizim kimi iki gözəldən iki dənə də yaqut kimi oğlan dünyaya gəlsə, nə qiyamət olar...

Padşah bunların ağıl-dərrakəsini görüb yavaşca durdu ayağa, tacı götürüb qoydu oğlanın başına.

Qardaşlar bir neçə ildən sonra birləşib getdilər atalarının yanına. Ataları böyük dəsgahla onların qabağına gedib gətirdi evə. Əhvalatı biləndən sonra onların alnından öpüb dedi:

- Mən onda qəsdən elə elədim ki, siz çıxıb, gedib özünüzə çörək axtarasınız. Çünki öz əli ilə qazanmayıb ata malına göz tikənlər axırda bədbəxt olarlar.

YEDDI DAĞ ALMASI

Biri var idi, biri yox idi, günlərin bir günündə bir padşah var idi. Bu padşahın bir qızı var idi, adı da Pərinuş xanımdı. Pərinuş o qədər gözəldi ki, dünyada elə gözəl qız yoxdu. Ölkələrdən yığın-yığın padşah, vəzir, tacir oğulları Pərinuş xanıma elçi göndərirdilər. Amma Pərinuş xanım heç kimə dil vermirdi.

Bir gün padşah, qızı Pərinuşu çağırtdırıb xəbər aldı ki:

- Qızım, gündə filan qədər elçi gəlir, nə deyirsən? Kimi bəyənirsən, de, o adama da nigah kəsdirək.

Pərinuş dedi:

- Atayi-mehriban, mən ərə getmək istəmirəm.

Padşah dedi:

- Indi ki, belə oldu, öz ixtiyarın özündədi. Kimi istəsən ona da gedə bilərsən.

Pərinuş durub atasının yanından, gəldi öz mənzilinə, çox fikir etdi, amma ürəyinə yapışan bir adam tapa bilmədi.

Aradan bir neçə müddət keçdi. Pərinuş çox darıxmışdı, atasına bir belə kağız yazdı ki: Atayi-mehriban, anam ölən gündən bəri sənin bağına gəzməyə getməmişəm. Izin ver, gedim bağa.

Yazıb kağızı göndərdi atasına. Padşah kağızı alıb oxudu, gördü ki, qızı Pərinuş bağa getmək istəyir. Bağban üçün xəbər göndərdi ki, «Qızım bağa gələcək, bağı sahmana sal! Bir nəfər kişi cinsindən bağda olsa, vay sənin halına». Bağban bu xəbəri eşidən kimi düşdü əl-ayağa. Bir günortaya bağı sahmana salıb padşaha xəbər göndərdi ki, bağ hazırdı.

Pərinuş qırx qızları götürüb gəldi bağa. Pərinuş gördü ki, bağban bağı çilçıraqban eləyib. Burada güllər, bül-büllər, hər hansı meyvəcat istəsən vardı. Baxdıqca adam həsəd aparır. Ətirli bir çəmən üstə taxtın qurub, başladılar çalıb oynamağa. Yemək vaxtı çatdı, yemək yeyildi, Pərinuş yeməkdən sonra yıxılıb yatdı. Pərinuş yumşaq yataqda yatmışdı, qırx qız da yanında onun qarovulunu çəkirdi. Sənə xəbəri verim kimdən, bağbanın oğlu Ibrahimdən. Bağban oğlu Ibrahim işdən gəlirdi, çox bərk yorğundu. Girib bağa gördü ki, heç kəs yoxdu. Çıxıb çarhovuz üstə əl üzünü yuyub, yıxılıb yatdı. Bir vaxtı Pərinuş yuxudan ayılıb qırx qıza dedi ki:

- Siz burada olun, mən gedim çarhovuz üstə, əl-üzümü yuyum, gəlirəm.

Qırx qız orda qaldı. Pərinuş isə kölgəliyini əlinə alıb üz qoydu çarhovuza tərəf. Istədi çıxıb əl-üzün yuya, nəfəs eşitdi. Tez dönüb bir neçə qədəm getdi, istədi qırx qızı çağıra harayına, sonra da özlüyündə dedi: Qoy tək gedim, görüm kimdi, atamın bağında belə rahat yatıbdı.

Pərinuş özün yetirdi qaysı ağacının altına. Bir o yana baxıb, bir bu yana, gördü ki, yumşaq göy otun üstə bir oğlan yatıb, üzünə cib yaylığı salıb. Pərinuş sol əlin vurub belinə, sağ əlini uzadıb oğlanın üzündən yaylığı götürüb atdı. Görən kimi tanıdı ki, bu bağbanın oğlu Ibrahimdi. Ibrahim çox gözəşirin oğlandı. Pərinuşla da həmyaşlı. Pərinuş dizin vurub yerə, bir xeylaq Ibrahimə baxdı. Məhəbbətin saldı ürəyinə dedi, gərək Ibrahimə gedəm.

Əlindəki ətirli yaylığı çəkib Ibrahimin üzünə, oturdu başının üstə. Istədi oyada Ibrahimi, bir az gülüb danışa, qıymadı. Bu tərəfdən də qızlar Pərinuşu çox gözlədilər, axır gördülər ki, Pərinuş gəlib çıxmadı, durdular çağırmağa. Pərinuş qızların səsin eşidən kimi, durub ayağa, qızları çağırdı. Qorxdu ki, sirri açıla. Qızlar gəlib çatdılar. Pərinuş dedi:

- Ey çəpəllər, məgər bilmirsiz ki, mən bağdayam, bu kimdi yatıbdı. Indi atam bilsə hamınızın boynun vurdurar.

Qızların hamısı yarpaq kimi Pərinuşun qabağında əsirdilər. Pərinuş əmr verdi ki, Ibrahimi götürüb aparsınlar öz otağının altında bir otaq vardı, salsınlar ora, özü Ibrahimin tənbehin edəcək. Qızlar qaş qaralanı gözlədilər. Qaş qaralan kimi Ibrahimi götürüb gəldilər, Pərinuşun otağının altında boş bir otaq vardı, salıb Ibrahimi otağa, çıxıb getdilər.

Pərinuş tez özünü Ibrahimə yetirdi. Ibrahim ayılıb gördü ki, o, bağda yatmışdı, amma indi evdədi, özü-də padşah qızı oturub başı üstə. Ibrahimi xof götürdü, istədi Pərinuşu qoyub qaça, Pərinuş Ibrahimin qabağını kəsib qoymadı qaça, dedi:

- Ibrahim, qaçma, səni mən götürmüşəm bura.

Ibrahim bir şey başa düşmədi, istədi gedə, Pərinuş Ibrahimin qabağın tutub qoymadı.

Ibrahim dedi:

- Xanım, mən bir bağban oğlu, sən bir şah qızı, mən hara, sən hara?

Pərinuş baxıb gördü ki, Ibrahim onu sınaqdan keçirir, dedi:

- Gəl məni sınaqdan keçirmə! Göz görüb, könül sevib, atam min deyə, mən sənimam ki, sənin.

Ibrahim Pərinuş xanımdan keçə bilmədi. Hər iki aşiq qol boyuna salıb, öpüşdülər. Pərinuş bütün gecəni səhərə kimi Ibrahimlə bir otaqda qaldı. Səhər durub Ibrahimə bir dəst paltar geydirib, pul verib göndərdi hamama, Ibrahim geyinib-kecinib, gəldi Pərinuşun yanına. Pərinuş Ibrahimi bu paltarda görən kimi əlin salıb boynuna, dedi:

- Ibrahim, ta səbir eləyə bilmirəm, gərək bu işi tez qurtaraq.

Ibrahim dedi:

- Çifayda ki, bir şey çıxmayacaq.

Pərinuş dedi:

- Ey sevgilim, nədən bir şey çıxmaz?

Ibrahim dedi:

- Doğrusu qorxuram ki, atan səni mənə verməsin. Bir də işdən xəbərdar olub boynumuzu vurdura.

Pərinuş dedi:

- Qorxma, mən özümü naxoşluğa vuraram. Ta o vaxta qədər ki, bütün həkimlərdən atamın əli üzüldü, sənə xəbər göndərərəm, sən gəlib atamla şərt bağlıyasan. O, şərtinin üstə duracaq. Ad olar ki, məni naxoşluqdan sən sağaldıbsan, sonra mən səninəm.

Ibrahim razı oldu. Sabah olub, Pərinuş özün vurdu naxoşluğa, atası üçün xəbər göndərdi. Padşah Pərinuşun naxoş olmasın bilib, durub gəldi qızının yanına. Pərinuş atasının gəlməyini bilibən, tez üzünə zə`fəran çəkib, rəngini sarımtıl eləyib girdi yerinə. Padşah gəlib Pərinuşun yanına, qızın əhvalın xəbər alıb gördü ki qızının dili, ağzı tutulub, heç danışmır. Sir-sifəti elə dönüb ki, elə bil meyiddir.

Padşah tez durub ayağa gedib çıxdı taxtına vəziri çağırtdırıb dedi:

- Vəzir, şəhərlərimdə nə ki, həkimlər var, çağır, qızıma əlac eləsinlər. Qızımın əhvalın çox pis görürəm.

Vəzir baş əyib getdi. Ta şəhərlərdə həkim qalmadı çağırmamış olalar, heç biri Pərinuşu sağalda bilmədi. Padşaha xəbər xəbər üstündən gedirdi ki, bəs qızın Pərinuşu əhvalı günü-gündən xarab olur. Padşahın axırda əlacı kəsilib əmr verdi ki, hər kim qızım Pərinuşu sağaltsa, qızımın kəbinini kəsdirib sağaldan adama verəcəyəm. Yazılıb divarlara vuruldu. Hər kim oxuyurdu, deyirdi ki, o qız sağalmaz, getməməyimiz yaxşıdı.

Eşit Ibrahimdən. Ibrahim Pərinuşdan tel alan kimi, özün yetirdi padşahın yanına. Baş əyib ədəb salamın yerinə yetirdi. Padşah Ibrahimdən xəbər aldı ki, niyə gəlmisən?

Ibrahim dedi:

- Gəlmişəm qızın Pərinuşu sağaldam.

Padşah dedi:

- Çox yaxşı. Neçə günə? Nə şərtlə?

Ibrahim dedi:

- Iki gün möhlət ver mənə, əgər qızını sağaltsam, qızın mənimdi, sağalda bilməsəm boynumu vurdur!

Padşah razı olub Ibrahimlə kağız bağlaşdılar, adam göndərdi qızının yanına. Ibrahim girib Pərinuşun otağına, heç kimi özündən qeyri qoymadı otaqda qala. Qapıları bağlayıb Pərinuşla başladılar keyfə.

Iki gün tamam olanda Ibrahim gəldi padşahın yanına. Ədəb salamını yerinə yetirdi. Padşah Ibrahimə yer göstərdi, Ibrahim əyləşdi. Pərinuşu Ibrahimdən xəbər aldı. Ibrahim dedi:

- Pərinuş sağalıbdı.

Padşah Ibrahimə inanmadı. Əmr verdi ki, Ibrahimi saxlasınlar, özü durub gəldi Pərinuşun yanına, gördü Pərinuş sağalıbdı. Oturub qızı ilə danışıb, bir az da əhval tutub, lap inanıb durub gəldi vəzirin yanına, dedi:

- Vəzir, Ibrahim Pərinuşu sağaldıbdı. Mənim də şərtim vardı, kim qızımı sağaltsa, qızımın kəbinini ona kəsdirib toyun edəcəyəm. Nə deyirsən, mənə bir tədbir, yoxsa qız əldən çıxar.

Vəzir gedib fikrə, dedi:

- Heç əlac yoxdu. Ya Pərinuşu verməlisən, ya oğlanı başını batırmalısan.

Padşah xəbər aldı ki:

- Nə yolla?

Vəzir dedi:

- Şəhr Qəzvində yeddi dağ var. O dağların adına «Yeddi dağ» deyirlər. Göndər Ibrahimi oradan alma götürə, ora gedən dala gəlməz.

Padşah razı olub, durub gəldi Ibrahimin yanına, dedi:

- Ibrahim, gərək mən sənin mə`rifətini biləm. Əgər mənə Yeddi dağ almasından üç alma dərib gətirsən, qızım Pərinuşu sənə verdim, yox götürüb gələ bilməsən, mənim sənlə qohumluğum tutmaz.

Ibrahim razı olub durub mürəxxəs oldu padşah qulluğundan, özün yetirdi Pərinuşa. Pərinuş Ibrahimi görüb xəbər aldı ki:

- Necə gəldin?

Ibrahim dedi:

- Padşah məndən Yeddi dağ alması istəyir. Bilmirəm ki, yeri haradı.

Pərinuş çoxbilən idi. Bildi ki, bu vəzirin hiyləsidi, dedi:

- Gəl getmə! Getsən qayıtmazsan. Atam səni gedər-gəlməz yola göndərir.

Ibrahim razı olmadı, çünki padşaha söz vermişdi, dedi:

- Yeddi dağ almasını qırx günə gərək gedib gətirəm.

Pərinuş bu sözü eşidən kimi qara gözlərindən yaş axıtmağa başladı. Bir neçə damcı töküldü yanaqlarının üstə. Ibrahim alıb Pərinuşun başın qoydu dizi üstə, dedi:

- Gəl sən qırx gün üçün darıxma, izin ver gedim.

Pərinuş razı olub Ibrahimi yola saldı. Ibrahim at minib üz qoydu şəhərdən çıxmağa. Az gedib, çox dayandı neçə mənzil keçib gəlib çatdı çöllü-bəri-biyabana. Ibrahim bərk yorulmuşdu, çəkib atın bir sərin bulağın üstə, yancidar elədi özü də uzanıb dincəlməkdə olsun, bir və`də gördü ki, bir dərədən tüstü çıxıb qalxdı havaya. Tüstünün içindən bir dərviş peyda olub, gəlib dayandı Ibrahimin qabağında, dedi:

- Ey Ibrahim, anan matəmində otursun! Neçə vaxtdı ki, sənin yolunu gözləyirəm. Yeddi dağ alması üçün getmə!

Ibrahim dedi:

- Bir başa sal məni, görüm ora necə yerdi, haradadı?

Dərvişlibas dedi:

- Ibrahim gəl şərt kəsək. Mən sənə tilsimi öyrədib, sən də o almalardan birini mənə ver!

Ibrahim razı oldu. Dərvişlibas Ibrahimi götürüb apardı evinə. Tilsim kitabların açıb tökdü qabağına. Ibrahimi düz bir ay ruzigar yanında saxlayıb tilsim öyrətdi. Bir ay tamam olanda Dərvişlibas Ibrahimi götürüb gəldi həmin yerə, dedi:

- Ibrahim, Yeddi dağ alması mənim qardaşımın bağındadı. Çox igidlər gedib tələf olubdu, o almadan götürüb gələ bilməyiblər. Amma sən gedib götürüb gələcəksən. Burdan quş olub uçub getməlisən. Altı dağ aşarsan, yeddinci dağın döşündə o bağda tapıb düşərsən yerə. Iki ağacdan maşa düzəldib, almalardan dərib, çıxıb gəl. Qorxma ağacda almalar dil olub deyəcəklər ki: «məni dərdilər», səs gələcək: «kim dərdi». Deyəcək ki, «ağac», «ağac ağacı dərməz», Bu kimi sözlər eşidəcəksən, qulaq asma, çıx gəl!

Ibrahim tilsimi oxuyub oldu bir quş, qanad çalıb qalxdı göyə, gəlib çatdı həmin yerə. Gördü ki, bura yeddi dağın döşüdü. Amma burada bir bağ var idi ki, gəl görəsən. Girib bağa, ağacdan tez maşa düzəldib üç alma dərdi. Almalar dil olub dedi:

- Dərdilər.

- Kim dərdi?

- Ağac.

- Ağac ağacı dərməz.

Ibrahim bunların sözünə baxmadı. Quş olub qalxdı göyə: Birdən yadına düşdü ki, dərviş üçün alma götürəcəkdi, amma alma üç idi. Ibrahim dedi: allah vurmuşdu dərvişi. Ibrahim göylə gedirdi, dərviş də oturub Ibrahimin yolunu gözləyirdi. Bu tərəfdən Ibrahim yolu kəsmə vurub, kəsmə yolla özün yetirdi şəhərə. Şəhərin qırağında cildin dəyişib özün yetirdi padşaha. Padşah gördü Ibrahim gəlib çıxdı, almaları da özü ilə gətirdi. Boğazının yolu qurudu.

Ibrahim almaları padşaha verib birbaş gəldi Pərinuşun yanına. Iki aşıq qol-boyun olub burada qalmaqda olsunlar, eşit padşahdan. Padşah vəziri çağırtdırıb dedi:

- Vəzir, tədbir! Ibrahim gəlib çıxdı, almaları da özü ilə gətirdi.

Vəzir dedi:

- Kəl, yolla Ibrahimi Nil qoluna. Orada bir çay var, o çayın içində yanan əskilər var ki, gecə-gündüz əjdahalar o əskinin qarovulunu çəkir. Ibrahim gedir salamat qayıtmaz.

Padşah razı olub, Ibrahimi çağırtdırıb dedi:

Ibrahim, gərək Nil qoluna gedib yanan əskilərdən mənim üçün götürəsən.

Ibrahim razı olub bu səfər Pərinuş xanımın yanına getməyib, girib quş cildinə, qalxdı göyə. Yetirib özünü Nilə, həmin qolu tapdı. Gördü ki, neçə parça əskidi suyun altında yanır, amma burada iki əjdaha yatıbdı. Ibrahim iki sərvəz enib yerə qanadın suya vurdu. Üçüncüdə olub durna, dimdiyini uzadıb əskinin birin götürüb gəldi. Ibrahim göylə gəlirdi, az qalmışdı öz şəhərlərinə çata. Dərviş libas yerlə gedirdi, görüb Ibrahimi, quş olub qalxdı göyə Ibrahimi tuta. Ibrahim baxıb dala, gördü ki, dərviş gəlir. Tez özün yetirib göydən yerə, olub bir siçan girdi deşiyə. Dərviş gördü ki, Ibrahim oldu siçan, istədi yenə yerə. Ibrahim pis başlamışdı, bildi tutulacaq, oldu tüstü çıxdı deşikdən, bir şir olub dayandı. Dərviş pələng olub gəldi Ibrahimin bərabərinə. Durdular vuruşmağa. Ibrahim şir cildindən çıxıb oldu bir ceyran, başladı qaçmağa. Dərviş olub tazı Ibrahimi tutmaq istədi. Ibrahim gördü ki, tutulacaq, bir tilsim oxuyub oldu bostan tağlarında bitən qarpız-qovun. Dərviş olub bir bağban əlinə aldı bıçaq, başladı qarpız-qovunu kəsməyə. Ibrahim baxıb gördü ki, qoca dərviş bütün qarpızları kəsib qurtardı, tez olub quş, qalxdı göyə. Dərviş olub bir qırğı, başladı Ibrahimi ovlamağa. Ibrahim olub bir ovuc darı səpildi çölün düzünə, bir giləsin atıb kolun dibinə gizləndi.

Dərviş dedi:

- Ibrahim, ölən günündü.

Dərviş olub cücəli toyuq, başladı qarını dənləməyə. Ibrahim bir tilsim oxuyub, oldu tülkü, çıxıb kolun dibindən, yapışdı dərvişin boğazından, boğub öldürdü. Ibrahim dərvişi cəhənnəmə vasil eləyib, əskini götürüb birbaş gəldi padşah yanına.

Padşah Ibrahimi görən kimi dedi:

- Ibrahim, əskini gətirdin?

Ibrahim dedi:

- Bəli, gətirdim.

Padşah Ibrahimin əlindən təngə gəlib dedi:

- Cəllad! Vurun Ibrahimin boynunu!

Ibrahim bu sözü eşidən kimi olub gürzə ilan, sərinib padşahın boynuna padşahı çaldı, vəziri də cəhənnəmə vasil eləyib, durub gəldi Pərinuşun yanına.

Pərinuş Ibrahimi görən kimi qolun salıb boynuna dedi:

- Necə gəldin?

Ibrahim bütün əhvalatı Pərinuşa danışdı. Pərinuş çox sevindi. Yeddi gün, yeddi gecə Ibrahim toy eləyib Pərinuşu aldı. Ibrahim öz atasını da yanına alıb xoş gün keçirməyə başladılar.

YETIM IBRAHIM VƏ SÖVDƏGƏR

Biri vardı, biri yoxdu, bir padşahın ölkəsində bir ovçu, onun da bir arvadı vardı. Ovçu çox kasıb güzəran keçirirdi. Bütün dağları, meşələri, çölləri gəzirdi, dolanırdı, ancaq ki, gündə bir quş vururdu. Bu quşu bazarda qəpik-quruma verirdi, çörək alırdı, arvadıynan yarı qarına ac, yarı qarına tox dolanırdılar. Ovçunun arvada bir qarın fətirə varlıların qapısını süpürərdi, zibilini atardı.

Bəli, bir gün ovçu çox gəzdi, dolandı, ov tapmadı, axırda bir böyük dağın başına çıxdı. Ov axtarırdı ki, birdən böyürdən bir pələng çıxdı. Kişi qorxusundan onu vura bilmədi. Pələng kişini parçalayıb yedi. Arvad ha gözlədi, kişi gəlmədi. Onun dağda öldü sorağını aldı. Başına döydü, ağladı, ərinə yas saxladı.

Arvad həmli idi. Kişi öləndən bir neçə ay sonra, bari-həmlini yerə qoydu, bir gözəl oğlan doğdu. Qohum-qonşu yığılıb oğlanın adını Ibrahim qoydular. Nağılda vaxt tez başa gələr, ay dolandı, il keçdi, Ibrahim gəlib on yaşa doldu. Bir gün Ibrahim anasından soruşdu:

- Ana, mənim atam varmı? Varsa hardadı, nə iş görür? Mənə söylə!

Anası oğluna cavab verdi:

- Oğul, sənin atan var idi, özü də ovçu idi. Dağda öldü.

Ibrahim dedi:

- Ana, atamdan nə nişanə qalıb?

Anası dedi:

- Bala, o çox kasıb idi, ondan heç bir nişanə qalmayıb. Ancaq ondan bir cələ, bir də bir tütək qalıb.

Ibrahim dedi:

- Onlar hardadı?

Anası cavab verdi:

- Bala, sandıqdadı.

Ibrahim dedi:

- Ana, onları çıxart görüm.

Anası sandığın ağzını açıb, cələ ilə tütəyi çıxartdı, Ibrahimə verdi. Ibrahim cələynən tütəyi alıb öpüb gözünün üstünə qoydu dedi:

- Ana, mən də atamın sənətini işlədəcəyəm, ovçu olacağam. Əslini itirən haramzadadı.

Anası dedi:

- Oğul, bu ovçuluq bir sənət deyil, atan ax-ufnan ömrünü başa verdi. Bundan əl çək, ayrı sənət dalınca get.

Ibrahim razı olmadı, sözünün üstündə dayandı. Ibrahim ovçuluqnan məşğul oldu. Üç öynə yeməyi bir eləyirdilər. Bə`zən də günlərlə ac qalırdılar. Bu münvalnan bir neçə il gəldi keçdi. Bir gün Ibrahim nə qədər ov axtardı tapa bilmədi. O, bu meşəni birinci dəfə idi ki, görürdü. Ibrahim baxıb gördü nə, bu meşə quşnan doludu. Tez cələni qurub tütəyi çaldı. Onun cələsinə bir gözəl quş düşdü. Bu quşun hər tükü bir rəng çalırdı, minbir havaynan oxuyurdu. Ibrahim bu quşu götürüb, sevinə-sevinə evlərinə gətirdi. Anası quşa baxıb dedi:

- Bala, bu gözəl quşu hələ satmayaq. Bir az saxlayaq, sonra satarıq.

Ibrahim bu sözü allahdan istəyirdi. Ana-bala bir qəfəs qayırıb quşu içərisinə saldılar. Bir neçə gün gəlib keçdi. Quş bir yumurta yumurtladı. Baxdılar ki, bu yumurta o qədər gözəldi ki, hər rəng çalır. Ibrahimin anası dedi:

- Bu yaxşı oldu, yumurtanı aparıb sataram.

Arvad yumurtanı aparıb, qonşuluqlarında olan sövdəgərə satdı. Sövdəgər baxdı ki, gözəl yumurtadı, dedi:

- Arvad, bu yumurtadan genə də gətir, sənə çox pul verim, kefnən dolanın.

Arvad sövdəgərə dua-sana eləyib sevinə-sevinə evlərinə gəldi. Eşit sövdəgərdən.

Sövdəgər bu yumurtanı götürüb padşaha ən`am apardı.

Padşah ömründə belə gözəl yumurta görməmişdi.

Sövdəgərdən çox razı qalıb, ona ən`am verdi. Sövdəgər ən`amı götürüb sevinə-sevinə evinə gəldi. Bir neçə gün keçdi, Ibrahimin anası genə iki yumurta gətirdi, sövdəgər bu yumurtaları alıb, arvada bir az pul verdi. Genə götürüb padşaha apardı. Padşah əmr elədi ki, bunu aparın xəzinəyə salın, nə qədər kefi istəyir lə`l-cavahirat götürsün. Sövdəgəri aparıb xəzinəyə saldılar, bacardıqca qızıl götürüb, xəzinədən çıxdı. Belə-belə bu kasıb sövdəgər varlanıb sövdəgərbaşı oldu. Bir sövdəgər onun qabağına keçə bilmədi. Yer qulaqlı olar, bu əhvalatı Ibrahimnən anası eşitdilər

Ibrahim dedi:

- Ana, yumurtaları özüm padşaha aparacağam. Bu zalım oğlu bizi aldadırmış.

Anası razı oldu. Ibrahim bir neçə yumurta götürüb düz apardı padşaha verdi. Padşah ona çoxlu qızıl verdi. Bunu sövdəgər eşitdi, gəlib Ibrahimin qabağını tutub dedi:

- Gərək padşahdan aldığın pulun yarısını mənə verəsən.

Ibrahim dedi:

- Tay məni aldatdığın bəsdi. Bir quruş da vermərəm.

Sövdəgər ona həsəd bağladı, ürəyində kin saxladı. Ibrahim evə gəlib, keflə dolanmaq binasını qoydu. Hər iki gündən bir padşaha yumurta aparıb çoxlu qızıl aldı, az zaman içində varlandı.

Sövdəgərin ürəyindən kin çıxmırdı, az qalırdı ki, bağrı çatlasın. O, Ibrahimin başını batırmaq fikrinə düşdü. Düz padşahın yanına gəlib dedi:

- Şah sağ olsun, Ibrahim yumurta gətirəndə alma, əmr elə ki, bunu yumurtlayan quşu gərək mənə verəsən. Quşu al, qoy öz evində yumurtlasın.

Bu söz padşahın ağlına batdı, sövdəgərə afərin söylədi. Bəli, sabah Ibrahim genə bir neçə yumurta götürüb, gətirdi verdi padşaha. Padşah yumurtaları almayıb dedi:

- Gərək bu yumurtaları yumurtlayan quşu mənə gətirəsən.

Ibrahim dedi:

- Şah sağ olsun, yumurtaları mən meşədən tapıram. Quşu hardan tapıb sənə gətirim?

Şah qəzəblənib dedi:

- Bilmirəm, sənə üç gün möhlətdi, quşu gətirməsən, boynunu vurduracağam.

Ibrahim əli qoynunda anasının yanına gəlib, əhvalatı ona nağıl elədi. Anası ona təskinlik verib dedi:

- Oğul, padşahnan padşahlıq eləmək olmaz, istəyir, ver getsin.

Üç gün tamam oldu. Ibrahim könüllü-könülsüz quşu götürüb, apardı padşaha verdi. Padşah əmr elədi, Ibrahimi xəzinəyə saldılar. Çoxlu qızıl götürüb evinə gəldi. Ibrahim çox varlandı. Sövdəgər gördü ki, xeyir a, Ibrahim varda onu keçib. Fikirləşdi ki, bunun başını tez batırmaq lazımdı. Sövdəgər padşahın yanına gedib dedi:

- Bu quş həftədə üç dəfə yumurtlayır. Bir azdan sonra yumurtadan kəsiləcək, çünki xoruzu yoxdu.

Padşah dedi:

- Mən nə eləyim, xoruzu hardan alım?

Sövdəgər dedi:

- Nə eləyəcəksən, Ibrahimi göndər, gedib bu quşun xoruzunu da gətirsin. O, yerini bilir.

Padşah sövdəgərin fikrinə bərəkallah deyib, Ibrahimi barigaha çağırtdırdı, dedi:

- Gərək bu quşun xoruzunu da gətirəsən.

Ibrahim dedi:

- Şah, ədalətinə güc eləmə, mən bu quşun xoruzunu hardan tapım?

Padşah acıqlanıb dedi:

- Uzun danışma, sənə üç gün möhlətdi, gətirməsən, başını bədənindən qoparacağam.

Ibrahim kor-peşiman anasının yanına gəlib əhvalatı ona söylədi. Anası onu sakit eləyib dedi:

- Oğul, qəm yemə, mıxı mismar eləyən tanrı, bizə də kömək durar. Sən həmin quşu tutduğun yerə get. Cələni qur, tütəyi çal, inşallah, o quş da cələnə düşər.

Ibrahim çar-naçar quşu tutduğu meşəyə gəldi. Cələni qurub, tütəyi çaldı, ya baxt, səndən mədəd, o quşun xoruzu gəlib cələyə düşdü. Ibrahim quşu gətirib padşaha verdi! Padşah ona çoxlu qızıl verdi. Ibrahim qızılları yığışdırıb evinə gəldi. Ana-bala kefnən gün keçirməkdə oldular.

Bunu sövdəgər eşitdi, az qaldı bağrı çatlasın. Öz-özünə dedi: «yaxşı, səni elə yerə göndərtdirim ki, heç meyitindən də xəbər verən olmasın». Fikirləşdi ki, filan devin məkanında bir bağ, var, bu bağda bir gül var ki, dünyada ondan gözəl gül yoxdu. Həmişə gün çıxanda açır, min rəng verir, min bir ətir səpir. Amma çifayda, o bağın yolu yoxdu, barı içindədi, hər kim içəri ayaq qoyursa dev onu öldürür. Ibrahimi o gül üçün göndərtdirim, gedib orda devin əlində ölsün». Sövdəgər bu fikirnən düz padşahın yanına gəlib, ədəbnən görnüş eləyib dedi:

- Şah sağ olsun, çox yaxşı oldu ki, quşun xoruzu gəldi. Ancaq dünyada bir solmayan gül var ki, bu quşlar onun altında yaşayırlar. O gül də gətirilsə, lap yaxşı olar.

Padşah dedi:

- Sövdəgər, bəs mən o gülü hardan tapım?

Sövdəgər dedi:

- Ibrahimi göndər, gedib gətirsin, o, yerini bilir.

Şah əmr elədi, Ibrahimi gətirdilər. Şah üzünü ona tutub dedi:

- Dünyada bir solmayan gül var ki, bu gətirdiyin quşlar onun altında yaşayır. Gərək o gülü gətirəsən.

Ibrahim dedi:

- Şah, mən o gülün adını da eşitməmişəm, harda olduğunu da bilmirəm. Insaf elə, bu qədər zülm olmaz.

Şah dedi:

- Bilmirəm, gülü səndən istəyirəm. Sənə qırx gün möhlətdi. Tez get, dayanma.

Ibrahim əli qoynunda kefsiz, anasının yanına gəlib əhvalatı ona nağıl elədi, başladı ağlamağa. Anası onu sakit eləyib dedi:

- Oğul, o gül qara devin məkanında, bağdadı. Özü də gedər gəlməz yoldadı. Ora gedən adamların heç biri geri qayıtmayıb. Allaha təvəkkül, düş yola, gün çıxan tərəfə get, bəlkə tapa bildin.

Anası yol tədarükü gördü. Ana-bala ağlaşıb, öpüşüb bir-birindən ayrıldılar. Nağıl dili yüyürək olar, amma iş yüyürək olmaz. Ibrahim üç il yol getdi, mənzil keçdi, axırda gəlib gül olan bağın yanına çıxdı. Bu bağın yanında yeddi gün, yeddi gecə dolandı, içəri girməyə yol tapmadı. Ibrahim bir gün bağın yanında oturub qəm dəryasına batmışdı, bir də gördü budu bir dev gəlir, elə bil bir dağ yerindən qopub. Ibrahim tez gizlənib gözləməyə başladı. Dev hasarın yanına gəldi, iki barmağıynan işarə elədi, o saat hasar yarıldı, yol açıldı. Dev içəri girəndə Ibrahim də xəlvətcə içəri girdi, dev onu görmədi. Hasan yenə qovuşdu. Ibrahim devi güddü, gördü dev gedib bir binaya girdi. Ibrahim də onun dalınca getdi. Dev gedib bir otağa çıxdı, burda bir gözəl qız vardı ki, gün kimi işıq verirdi. Dev başını qızın dizinin üstünə qoyub yatdı. Ibrahim gizlindən çıxdı, qız onu görən kimi dedi:

- Ay aman, tez çıx get, dev durub səni parça-parça edəcək.

Ibrahim dedi:

- Heç hara getməyəcəyəm. Niyə gəlmişəm ki, niyə də gedəm.

Qızın adı Xurşid xanım idi.

Xurşid xanım ondan soruşdu:

- Buraya nə üçün gəlmisən?

Ibrahim dedi:

- Gəlmişəm səni aparam. Neçə ildi ki, səndən ötrü gəzirəm.

Qız bu sözü eşidəndə çox şad oldu. Ibrahimə bir otaq göstərib dedi:

- Get o otaqda gizlən, sabah dev çıxıb gedəcək, onda danışarıq.

Ibrahim gedib qız göstərdiyi otaqda gizləndi. Sabahı gün dev yuxudan ayılıb dedi:

- Adam-badam iyisi gəlir, çaqqala-badam iyisi gəlir. Buralara adam kəlmişdi, yerini de.

Xurşid xanım gülə-gülə dedi:

- Yəqin gəzdiyin yerlərdə adam yemisən, iyi hələ də burnunda qalıb. Burda adam nə gəzir?

Dev onun sözünə inandı, tez çıxıb getdi. Xurşid o saat oğlanı çağırdı, dedi:

- Dev axşam qayıdacaq, gəl biz tez qaçaq. Devin bir bərk yüyürən atı var, onu minərik, bəlkə allah yar oldu, dev bizi tuta bilmədi.

Onlar devin bərk çapan atını minib, yel kimi yola düşüb qalmaqda olsunlar, eşit devdən.

Dev qayıdıb gördü Xurşid yoxdu, tövləyə gedib gördü, at da yoxdu. Bildi ki, bəni-adəm gəlib onu aparıb. Tez bir ayrı at minib onların dalınca getməyə başladı. Al xəbəri Xurşidlə Ibrahimdən.

Bir qədər gedəndən sonra Xurşid Ibrahimə dedi:

- Geri bax, gör nə görürsən?

Ibrahim geri baxıb dedi:

- Uzaqda qara duman görünür.

Xurşid dedi:

- Ay aman, atı qamçıla, o qara duman devdi, gəlir.

Ibrahim atı qamçıladı, bir neçə gün də qaçdılar.

Xurşid genə dedi:

- Ibrahim, geri bax, gör indi nə görürsən?

Ibrahim geri baxıb dedi:

- Çox qaranlıq, çovğun, çiskin görünür, külək əsir qarma-qarışıq səslər eşidilir.

Xurşid dedi:

- Ay aman, dev lap yaxınlaşıb, qorxu var, atı bərk sür.

Ibrahim atı qamçıladı. Bir neçə gün də yol getdilər. Sonra Xurşid dedi:

- Ibrahim, geri bax, gör indi nə görürsən?

Ibrahim geri baxıb dedi:

- Qara duman lap yaxına gəlib, bizi bürümək istəyir, qara yağış yağır, külək əsir.

Xurşid dedi:

- Ibrahim, qara duman devdi, yağışnan külək də onun şallağından qalxan tozdu. Ölüm vaxtıdı, bərk sür!

Ibrahim atı daha da qamçılayıb bərk sürdü. Bir müddət yol getdilər.

Xurşid dedi:

- Ibrahim, bax, gör indi nə görürsən?

Ibrahim geri baxıb dedi:

- Qara duman çəkilib, gözəl gün doğub.

Xurşid dedi:

- Ibrahim, tay devin sərhəddindən çıxmışıq. O daha bizə çata bilməz, atı yavaş sür.

Bəli, onlar gecəni gündüzə qatıb, gedib Ibrahimin evinə çıxdılar. Anası oğlunun salamat gəlməsinə çox sevindi, onların üzündən-gözündən öpdü, şadyanalıq etdi, ac qarınları doyurdu, yalavac əyinləri geyindirdi. Ibrahimin başı kefə qarışdı, padşah-zad hamısı yadından çıxdı.

Xurşid Ibrahimə dedi:

- Burada elə bir ev tikdirərsən ki, heç padşahda olmasın.

Ibrahim ustaları, bənnaları çağırdı. Ev tikdirməyə başlayanda, birdən yadına düşdü ki, ey dili-qafil. Bəs mən padşah üçün gül gətirməyə getmişdim? Başım qarışıb gətirməmişəm, padşah boynumu vurduracaq. Ibrahim ustaları ev tikdirməyə göndərdi. Özü evə gəlib qəmgin əyləşdi. Xurşid onu qəmli görüb dedi:

- Ey mənim sevgilim, qəmə batmağının səbəbi nədi?

Ibrahim əhvalatı qıza nağıl eləyib dedi:

- Mən padşaha solmayan gül gətirməyə getmişdim, yadımdan çıxıb gətirməmişəm.

Xurşid gülüb dedi:

- Elə bunun dərdini eləyirsən?

Ibrahim dedi:

- Bu az dərddirmi? Padşah yəqin məni öldürəcək, əlim səndən, anamdan üzüləcək.

Xurşid dedi:

- Bura bir podnos gətirin.

Bir podnos gətirdilər. Xurşid əlini burnuna vurdu, hər burun deşiyindən podnosa bir damcı qan düşdü. Bu qan o saat dönüb oldu solmayan gül. Ibrahim onları götürüb sevinə-sevinə apardı padşaha verdi. Padşah ona bu dəfə də çoxlu ən`am verdi. Sövdəgər bu xəbəri eşitdi, kefi qarışdı. O, fikirləşdi ki, Ibrahimi elə yerə göndərmək lazımdı ki, ölüb oralarda qalsın, ya da padşah deyəni bacarmasın, padşah öldürsün.

Padşahın yanına gəlib dedi:

- Şah, Ibrahim hər yerə gedə bilir, hər şeyi bacarır. Onu göndər o dünyaya, getsin atandan-anandan xəbər gətirsin. Gör nə təhər dolanırlar.

Bu söz padşahın ağlına batdı. Ibrahimi yanına çağırıb dedi:

- Gərək o dünyaya gedib, mənim atamdan-anamdan xəbər gətirəsən.

Ibrahim dedi:

- Ey şah, o dünyaya da getmək olarmı? Ürəyində rəhm olsun.

Padşah çığırıb dedi:

- Bilmirəm, gərək gedib gətirəsən.

Ibrahim kefsiz evə gəldi, əhvalatı Xurşidə danışdı. Xurşid dedi:

- Ibrahim, o padşah çox ağılsızdı. Heç qorxma, get bir il bir başqa ölkədə dolan, sonra gəl de ki, salamatdılar, özləri də cənnətdədilər. Sənə də çox duaları var. Qorxma, inanacaq.

Bəli, Ibrahim anasıynan, Xurşidnən öpüşüb, görüşüb ayrı bir padşahın ölkəsinə getdi, məktəbə girib oxudu, dünyada olan yetmiş iki dili öyrəndi. Sonra qayıdıb, padşahın yanına gəldi dedi:

- Bəs atan-anan salamatdılar, özləri də cənnətdədirlər. Sizə çox-çox salamları var. Özləri də dedilər ki, bir gizlin sözümüz var, vəkilnən sövdəgəri göndərsin, onlara deyək. Onlar yaxın adamlarımızdı.

Padşah ata-anası üçün çox ağladı, sonra vəkilnən sövdəgəri yanına çağırıb dedi:

- Gərək gedib görəsiniz atamla anamın gizlin sözləri nədi. Mənə xəbər gətirəsiniz.

Sövdəgər bildi ki, başqasına qurduğu iş, öz başına gəlir. Nə qədər yalvar-yapış elədi, padşah onlardan əl çəkmədi. Axırda sövdəgər bütün var-yoxunu yığıb Ibrahimin evinə gətirdi, ona etdiyi xəyanətlərdən əl çəkdiyini söyləyib dedi:

- Bizə o dünyanın yolunu göstər, gedək görək, padşahın ata-anası nə deyir. Qayıdannan sonra sənnən bir də işim olmaz.

Ibrahim dedi:

- Yeddi ağaclıqda bir quyu var, özünüzü onun içinə atarsınız. Sonra quyunun içi ilə gün batan tərəfə bir il yol gedib ora çıxarsınız. Padşahın atasıynan anası cənnətin lap orta göbəyindədilər.

Sövdəgər dedi:

- O quyunu bizə göstər.

Ibrahim onları bir dərin quyunun başına apardı. Onlar gözlərini yumdular, özlərini quyuya atıb öldülər. Padşah bir müddət gözlədi, vəkilnən sövdəgər gəlmədi. Onu səbir kasası doldu, dözə bilməyib quyunun başına gəldi özünü quyuya atıb öldü.

Ibrahim çox şad oldu, qırx Gün, qırx gecə toy eləyib, Xurşid xanımnan dövran sürdü.